**Ağarəhim**

# Əsərlər

## Xatirə-roman

## XII

**Bakı - 2014**

Redaktorlar:

**Əlizadə Əsgərli**
**Təyyar Salamoğlu (Cavadov)**

**Ağarəhim.** Əsərlər. 20 cilddə. XII cild (xatirə-roman). Bakı, BQU nəşriyyatı, 2014, 508 s.

Müasir Azərbaycan nəsrinin istedadlı nümayəndəsi, tanınmış yazıçı Ağahərimin çoxcildlik "Əsərləri"nin bu cildinə onun "Yaddaşda yaşar xatirələr" adlı xatirə-romanı daxil edilmişdir. Bioqrafik-memuar səciyyəsi daşıyan bu əsərdə yazıçı özünün ömür-gün hekayətinin ən yaddaqalan səhifələrini xronoloji ardıcıllıqla qələmə almışdır. Xatirə-roman boyu oxucu ibrətamiz həyat hekayətləri, insanı işığa, aydınlığa çıxara bilən əhvalatlar, humanist mənəvi keyfiyyətlər təlqin edən hadisələr şəbəkəsi ilə qarşılaşır. Əsərdəki, əsas xətt insanı mənəvi kamilliyə, saflıq, dürüstlük, mübarizlik və yenilməzliyə çağırışdır.



**Xatırlamaq özü də bir ibadətdir.**
***"Zəbur"dan***

# Yaddaşda yaşar xatirələr

*Əziz oxucum! Bu romanda yazılanlar adi bir insanın həyat hekayətidi. İstəməzdim ki, bu əsəri sadəcə vərəqləyib bir kənara ataraq, gərdişi-dövrandan doğan hadisələrə sadə və sadə olduğu qədər də ciddi münasibətimi müştəbehlik, özünüsevərlik, təkəbbürlük sanasız. Əslində mən insanda ikrah hissi oyadan bu keyfiyyətlərdən çox-çox uzağam.*

*Təvəqqe edirəm yazılmışlara — İllüzya — kimi də yanaşmayasız. İnsanı alçaldacaq, bullur düşüncələrinə, saf və təmiz əməllərinə kölgə salacaq şeylərə heç vaxt hüsn-rəğbət bəsləməmişəm. Mən də insanam. Hamı kimi mən də səhvlərdən xali deyiləm. Həyatımda çox olaylar baş verib. Biləsiz ki, onlardan burada yalnız qələmə yatanları işıqlandırmağa çalışdım. Taleyin qisməti, təmiz qəlbin həssaslığı, iti ağlın hökmü, işıqlı düşüncənin aydınlığı, saf vicdanın oyanışı... bir sözlə, yaxşı nə varsa, hamısının bəşər övladının həqiqi yaşamını təmin elədiyini anlayıram və ona sığınmağın insana nə qədər başucalığı gətirdiyini, möhtəşəm dəyərlər sisteminə mükəmməl yiyələndirdiyinin şahidiyəm. Onları duyub dərk elədikcə sevinirəm, ürəyim riqqətə gəlir, beynim açılır. İlhamlanıram.*

*— Olub-keçən yaxşı nə varsa, kiməsə xeyir verə bilər — de-*

*yə düşünüb onları saf-çürük edərək birər-birər bu romana gətirməyə can atdım. Nə qədər çətin olsa da, mən bu həyat hekayətimi yazmağa girişdim. Əmin olun ki, qələmə alınmış süjetlərin, yanaşmaların, münasibətlərin hər birinin əsasında həqiqətlərin, real gerçəkliyin yaratdığı təəssüratlar dayanır. Bu enişli-yoxuşlu, əzablı ömrümün məşəqqətlərini, iztirablarını hiss və idrakımın gücüylə əks etdirməyə çalışdım. Şişirtməsi-filanı yoxdu. Qənaətlərimi işıqlandırdıqca mən tez-tez böyük Allahın qüdrətinə sığınmış, ondan imdad diləmişəm. Çünki Allahsız nə əxlaq, nə mənəviyyat var. Onlar olmayan yerdə insan olsa da, nə insanlıqdan, nə də onun yaratdığı əxlaqi-mənəvi dəyərlər sistemindən danışmaq olar. Bu əsəri yazmaqda məqsədim əxlaq və mənəviyyat müstəvisində insan və cəmiyyət, insan və zaman, valideyn-övlad, dost-tanış, xeyirxahlıq və bədxahlıq... münasibətləri şəbəkəsinin mahiyyətini açmaq, oxuduqlarım, görüb-eşitdikləri, duyub-düşündüklərim əsasında əxlaqi-mənəvi cövhərləri aşkarlamaq, onları gələcək nəsillərə ötürməkdən ibarət olmuşdur. Burada mən özum, məni əhatə eləyən mühit, məni həyata gətirənlər, boya-başa çatdıranlar... barədə düşüncələrimi verməyə çalışdım. Buna nə dərəcədə nail olduğumu deyə bilmərəm. Ancaq şübhə eləmirəm ki, möhtərəm oxucum onları məndən daha yaxşı duyacaq.*

*Əgər mənim düşüncə və təəssüratlarımda oxucum ağla batan bir şey taparsa və onlardan az da olsa faydalanarsa, onda mən çox məmnun olaram.*





## NARAHAT ÖMRÜN NİGARANÇILIĞI

**Dünya mənim, dünya sənin,**
**dünya heç kimin...**
***M.Araz***

**Bəşər! Ey canlı bir hikmət, böyük qüdrətlərin vardır,**
**Böyük əqlin, böyük fikrin, böyük qüvvətlərin vardır.**
***M.Hadi***

Həyat burulğanlar ümmanıdı. Mən istəsəm də, istəməsəm də, o ümmanın ağuşundayam və bu səbəbdən də taleyim çox zaman özümdən asılı olmur. Nə düşünürəm, nəylə qarşılaşıram, heç özüm də bilmirəm. Səbəblərini açıqlamağa macal da tapmıram. Ancaq bu anilikdə daim axtara-axtara öz-özümə suallar verirəm: "İtirdiklərim çoxdu, yoxsa, tapdıqlarım? Qazandıqlarım hünərimin məhsuludu, yoxsa, taleyin qisməti? İtirdiklərimi necə, dar, məhdud ağlımın törəməsi sanmaq olarmı? Görəm, əldən  verdiklərimi geri qaytara bilərəmmi? Nə vaxtsa səhvlərimi düzəltmək imkanım olacaqmı? Düzəldilməsi mümkün olmayan qəbahətlərim varsa, ixtiyar çağlarımda onlara sipər çəkmək imkanım olacaqmı?" Olacaqsa, çəkə biləcəmmi? Qəribədi... Suallar çox! Cavablar bəzən yox, bəzən də müəmmalı! Heç bir elmi əsasa söykənməyən, külli miqdarda allı-güllü, bayağı fikirlər, dəlilsiz-sübutsuz mülahizələr... Yalanlar, yanlışlar o qədər baş alıb gedir ki, ekstremal vəziyyətlə üzləşəndə nəinki görüb-eşitdiklərimə, bəzən heç özümə də inanmıram. Hətta, hərdən elə hallar olur ki, məndə böyük Yaradanıma qarşı inamımda çatlar yaranır. Yenə özümə suallar verməli oluram: "Axı mən neyləmişdim ki, bu nəhəngliyə, dağlar ağırlığa dərdisər yükünün altında inləyəm? Allah məni bunun üçünmü yaratmışdı?! Ağrı-acılar həyatım boyu niyə mənimlə adlamalıydı?..

Bu, eşq, məhəbbət bəslədiyim Allahımın mənə sevgisindəndi, yoxsa, nifrətindən?!” Hey düşünürəm, sonunu bir tərəfə çıxaranmıram. Onda bütün havalı düşüncələrim, sərsəm ideyalarım idxal mənbəyinə çevrilir. Kim nə deyir desin... Ola bilsin halına təfavüt eləməsin dediklərin. Həyat keşmə-keşlidi, labirintlidi. Ağlıma gəlməyən hadisələrlə qarşılaşdırır məni. Gah insidir, gah da sevindirir. Çox müəmmadı can qoyduğum bu həyat. Bu güzəran. Doğrudu, qoyduğum suallara görə məni qınayanlar da tapılar. Mənə idealsız, məqsədsiz də, deyənlər olar... Ancaq bu vurhavurda mən də ömür sürmüşəm. Xeyli təcrübə toplamışam... Fərəhləndirici əməllərimin ləzzətini dadmışam... Niskillərimin cəfasını duymuşam... Gülmüşəm, ağlamışam... Ancaq düşünmüşəm: iradəm var. Gücüm var... Xoşbəxtlik və bədbəxtlik təlqin eləyən fikirlərimi içimdə çin-çin eləmişəm... “Allahın sevə-sevə yaratdığı insan niyə belə olmalıydı?” sualına heç cürə cavab tapanmayanda məyuslaşmışam. Dərdimi açmaq, içimi boşaltmaq istəmişəm. Bəzən hansı səbəbdənsə onu da bacarmamışam. Onda gözlərim önündə ağlasığmaz mənzərə açılır. Doğrudur, isti-isti onun nə olduğunu anlamıram. Bir az keçir. Hisslərin soyuyur, hər şeyə ağlımın gözləriylə baxıram, tarix mizan-tərəzisinin pozulduğunun şahidi oluramn. Onda dəhşət məni bürüyür.

Həyatımın sakit, sevincli, fərəhli anları məni nə qədər güldürürsə, fırtınalı, tufanlı, ağrı-acılı, kədərli... çağları bir o qədər incidir. Mənə göynərti gətirir... Böyük bəsirətlilərin fikrincə, dünya bir qarıya bənzər. Varlığı qəm, kədər. Düşüncəsi qondarma. Əməli şər. Ağrılar-acılar məni qamarlayanda, əzab-istirablar məni öz orbitində saxlayanda bərli-bəzəkli, əlvan — Həyat gözəldir — düsturu mənim üçün bir uydurmaya dönür... Gözləntisi beləcə puça çevriləndə dost, sirdaş qapısı döyməyə üz tuturam. Onlardan imdad diləyirəm. Dərdimə əlac tapanmayanda hər şey mənim üçün müşkülə çevrilir. Həyatdan aldığım, sər





məstlik gətirən xoşallıqlar, ruh oynadan rifahlar, qəlb açan şərqilər gözlərimdə donuq vəziyyətə düşür, əvvəlki ecazkarlığını itirir. Mənasızlaşır. Sanki halıma zəhər qatılır. Başqa sözlə, gülsüz yerdə qızıl gül axtarışlarım nihilizmə yuvarlanır. İçimdə həqiqət və ədalət arayıram, əvəzində hiylə, yalan, riyakarlıq, saxtakarlıq... tapıram... — İnsanın ən böyük həmdəmi könül mülküdü, — deyənlər heç də səhv eləmirlər. O mülkdə nə varsa, hamıdan doğru-dürüst mənə bəllidi. İçimdəkilərin mayası xıltdısa, olanlardan fərəh hissi duymuramsa, qəlbin sarsılır, mən bədbəxtlik və fəlakətin ağuşunda çabaladığımı anlayırsan. Vay o günə ki, ömür sürdüyüm fərəhsiz, sevgisiz həyatımın gərəksizliyini, ömrünün mənasızlığını anlayam...

Eh dünya... Dünya... Səndən nə umuram, sən mənə nələr vəd və təlqin eləyirsən. Oynaya-oynaya, bəşər övladını çalxaya-çalxaya milyard illərdi beləcə yol qət eləyirsən və eləcə də uzanıb gedirsən. Gətirdiyin nə, apardığın nə?! Onu səndən soruşanın da olmur... Həyatımın unudulmaz anları birər-birər gəlib durur gözlərimin önündə. Yaxşısı da — pisi də, fərəhləndirəni də — kədərləndirəni də...

## ETİQADIM MƏNİM VƏ YA SİRLİ-SEHİRLİ DÜNYANIN MÖCUZƏLƏRİ

**Allah yerin, göyün, bütün yaranmışların yaradıcısıdır... Allah alidir, adildir, təkdir, vahiddir, hər şeyə qadirdir, əbədidir, səxavətlidir, mərhəmətlidir...**

***"Qurani-Kərim"***

Qüdrətlisən, Ulu Tanrım! Bütün mövcudatı yaradan da, bəşəri xəlq edən də Sənsən... Güclüsən... Qüvvətlisən... Özün gizli, sonsuz bir dəfinə olsan da, yaratdıqların dərk olunandır. Şükür böyüklüyünə, şükür qüdrətinə...! Bu gün məndən tələb olunan hekayəti qələmə almaqda gücsüzəm, acizəm..! Güvənc yerim Sənsən... Mənə kömək ol, Ulu Tanrım!.. İçimdə çox incə, zərif hisslər doğulub. Onları qələmə almaq, kiminləsə bölüşmək istəyirəm. Ancaq gücsüzəm...

Məni bağışla... Sənin mərhəmətinə güvənərək əlimə qələm alıram. Əziz valideynlərim, özüm və bir də "qoparıldığım, ayrıldığım" aləmdə gördüklərimdən çox cüzi də olsa, yaddaşımda yaşayanlar barədə hekayət yazmaq istəyirəm, Ulu Tanrım. Bütün kainatın: yerin, göyün yaradıcısı olan Allahım!..

Mən dünyaya göz açandan halallıqla bünövrəsi qoyulan kasıb evimizdə valideynlərimin Sənə ibadətini görmüşəm. "Qurani-Kərim"in avazla oxunan surələrini, ayələrini eşitmişəm... Sənin böyüklüyünə, rəhmliyinə, haqlığına, ədalətinə inanıram, Ulu Tanrım!..

Hər yerdə, hər zaman üstümdə nəzərlərini duymuşam, hiss etmişəm. Bunun üçün sənə borcluyam, Ulu Tanrım!..

Mən nələr görməmişəm?!. Nələr çəkməmişəm?!. Həmişə də böyük varlığına inanmışam!.. Şükür eləmişəm!.. İndi səndən bir təvəqqem var, mənim Allahım!.. İstəmirəm varı!.. İstəmirəm





dövləti!.. İstəyirəm kamilliyi... İstəyirəm müdrikliyi... Mənə kamilliyə, müdrikliyə gedən yol qismət elə...

Müdrik insan insanlığın tacı, yaratdığın mövcudatın, kainatın, yerin, göyün əşrəfidi. Gecəm də, gündüzüm də səninlədi, mənim Tanrım!..

Bilirəm... Yaxşı günümdə də, çətin anlarımda da mənimləsən... Heç vaxt məni sındırmamısan, Böyük Yaradanım!.. Sənə borcluyam, məni əfv elə, İlahi!

İnanıram... Dünya mülkünün sirləri səndən gizli deyil və ola da bilməz. Axı sən özün bir sirsən, dərk olunmazsan, həm də yaradansan, böyük Yaradanım, Ulu Tanrım, mənim Allahım!..

Heç vaxt unuda bilmərəm... Xəstəxanadan salamat çıxacağıma ümid yox idi. Həkim də, anam da, yaxın-uzaq qohumlarım da, dostlarım da bərk həyəcan keçirirdilər. Mənim yanımda qızım Dinarın ömür-gün yoldaşı Qasım qalırdı. Neçə gün idi ki, o da yatmırdı. Axşam uzandığım çarpayıda mürgüləyirdim.

Nə vaxt yuxuya getdiyimi bilmədim. Sanki sirli-sehrli, möcüzələr aləminə atıldım... Başı göylər dələn əzəmətli bir qalanın nəhəng qapıları önündə dayanmışdım. Qala divarları qızıl kərpiclərlə heyrətamiz təsir bağışlayan məharətlə hörülmüşdü. Bu hörgü insan zəkasının, insan ağlının məhsulu ola bilməzdi... Şübhə etmirdim ki, onun yaradıcısı da o böyük Tanrıdır. Kərpiclər hər an bir rəngə çalırdı. Bu rəng çalarları içərisində mavilik daha üstünlük təşkil edirdi. Ağ paltarlı adamlar mavi rəngə çalan nəhəng darvazaya yaxınlaşanda o, öz-özünə açılır, adamlar içəri keçir, sonra da necə açılmışsa, elə də bağlanırdı. Ordan geriyə qayıdanlar olmurdu. Qəribəydi. Qapı məni də özünə cəzb etdi. Yaxınlaşdım. Qapı açıldı, içəri keçdim. Heyrətdən gözlərim böyüdü... Aman Allah, mən hara gəlmişəm? Belə də gözəllik olarmı?! Bunu ancaq Ulu Tanrı yarada bilər... Qalanın içərisində məndən savayı hamı: kişilər də, qadınlar da, qocalar da, cavanlar da, uşaqlar da, elə indi gələnlər də tər-təmiz, təp-təzə ağ pal-

tardaydılar. Adamların üzlərində sevinc, təbəssüm duyulsa da, heç kim dinmir, danışmırdı. Qalada qulaqbatırıcı, tükürpədici bir sükut hökm sürürdü. Adamlar müsahiblərinin üzlərinə baxmaqla bir-birilərini başa düşürdülər. Qala sakinlərinin bəzilərini elə bil mən də görmüşdüm, tanıyırdım. Ancaq harda, haçan, yadıma sala bilmirdim. Üzdən tanış gələnlər də, gəlməyənlər də mənalı-mənalı mənə baxır, fəhmlə: — Bura sənin yerin deyil, geri qayıt, — deyirdilər. Mən ətrafıma göz gəzdirdim. Öz-özümə düşündüm: "Bura möcüzələr aləmidir ki!?" Bu anda ağ paltarlı, orta yaşlı bir kişi tanıyırmış kimi mənə yaxınlaşıb, gözlərimə baxdı. Onun gözlərinin lap dərinliklərində bir doğmalıq, ürək ovsunlayıcı istək, sonsuz məhəbbət duyulurdu... O, sözsüz-söhbətsiz, fəhmlə deyirdi:

— Sən bura çox tez gəlmisən, oğlum! Geri qayıtmalısan. Bu geyimdə, bu görkəmdə səni bura qəbul eləməzlər. Gedək, qala sirlərini sənə açım...

Bu adamı üzdən tanımasam da onun mehriban baxışları, qonur gözləri, nə deyirsiniz deyin, qırx il əvvəl dünyasını dəyişən atamın baxışlarıydı, gözləriydi...

Biz yanaşı addımlayırdıq. Səliqə-sahmanlı meyvə bağları. Tanıdığım və tanımadığım ağacların budaqlarında çiçəklər, bir də kal və yetişmiş meyvələr görünürdü. Bağın qurtaracağında yol uzanıb uca minarələri göylər dələn qeyri-adi görkəmli, Allahın hökmü ilə yaranmış tikililərə tərəf gedirdi.

Biz gəlib binalardan bir qədər aralı dayandıq. Qızıl kərpicdən tikilən binaların divarları ağ işıq saçırdı. Divarlarda sanki göy qübbəsi yerləşmişdi. Qabaqda parlaq günəş, onun ardınca da bədirlənmiş ay binanın ətrafında dövr edirdi. Böyüklü-kiçikli ulduzlar günəşlə ayın həndəvərində sayrışır, yanır, sönür, bərq vururdu. Ulduzların parıltısı qızıl kərpiclərin ağ şüalarına qarışır, divarlara böyük Yaradanın, Ulu Tanrının şücaətindən kəlamlar yazılırdı: Allah yerin, göyün, bütün yaranmışların yaradıcısıdır...





Adildir, alidir, təkdir, vahiddir, hər şeyə qadirdir... Əbədidir, şəfqətli və mərhəmətlidir, uludur... Allahdan başqa Allah yoxdur... Heç kəs Allahın bərabərində ola bilməz... "Qurani-Kərim"də nə varsa, hamısı haqdır, Allahın, yalnız Allahın kəlamıdır... Mən gizli dəfinə idim, istədim ki, dərk olunum. Varlıqları xəlq etdim ki, "Mən"i dərk etsinlər...

Öz-özümə fikirləşdim: "Bu ki Qurani-Kərimin "Ez-Zariyyat" surəsinin 56-cı ayəsidir!"

Bələdçim üzümə baxdı və fəhmlə bildirdi: — Bunların hamısı "Qurani-Kərim"in uyğun surə və ayələrində var.

Yenə öz-özümə düşündüm: — Şükür sənə, İlahi! Sənin böyük qüdrətinə inanmayan kafirdir.

Bu anda göylər dələn minarələrdən azan səsləri eşidildi. Bu heyrətamiz səslər ruhuma süzülür, sanki damarlarımda qanım donurdu...

Vaxt keçirdi. Mən geri qayıtmalıydım. Biz qayıdarkən yolumuzu elə bil dəyişdik. Bir tərəfdə bol məhsullu dirrik, o biri tərəfdə bostan görünürdü.

Gəlib qala divarlarının əzəmətli darvazası önündə dayandıq. Ulu Tanrının mənə göndərdiyi bələdçim gözlərini gözlərimə zilləyərək fəhmlə dedi:

— Oğlum, buranın təbiəti həmişə bax, belə olur, gördüyün kimi. Nə külək, nə yağış, nə qar, nə isti, nə də soyuq olur. Burada təbiət həmişə eynidir. Buranın  sakinləri Ulu Tanrının əzizləridir. Şəfqət və mərhəmət hissi ilə əhatə olunan bu əzizlər gündüzlər də, gecələr də bu qala divarları arasında, əsrarəngiz gözəlliklər aləmində gəzir, səma rəngli qranit daşlara bənzər yumşaq oturacaqlarda iki-bir, üç-bir əyləşib, "Qurani-Kərim"i öyrənirlər. Ulu Tanrının əmri ilə yaranan qızıl vazalarda qoyulmuş meyvələrin ətri şamamaların, qovunların ətrinə qarışır. Bu, qala sakinlərini qidalandırır. Ziyarət etdiyin uca minarəli binalarda Allaha ibadət edirlər.

Bələdçimin üzünə baxdım və fəhmlə:

— Onda bura behiştdir ki, ata!

O, mənə eyni tərzdə:

— Hə, behiştdi, oğlum! İndi sən öz dünyandan qoparılmısan. Geri qayıtmalısan... Hələ ki sənin də öz dünyan var. Vaxt gələndə səni də bura dəvət edəcəklər. Qalanın darvazası ağzında səni ağ at gözləyir. O, səni öz dünyana aparacaq. Orda səni gözləyənlər var. Səndən nigarandılar. Get, valideynlərin, özün, bir də bu sirli aləmdə gördüklərin haqqında hekayətini qələmə al. Kal meyvələr dərilməz, oğlum! Yaranmışlara qayğı göstər. Qeybətdən, kimsəyə pislikdən uzaq ol. Şəhvət hissini boğ. İmkansızlara əl tut. Namus və şərəfini qoru. Mərhəmətli ol. Valideynlərinə hörmət və ehtiram göstər...

Mən bu müdrik bələdçi ilə xudahafizləşib qala darvazasına tərəf addımladım. Yəhərli-yüyənli ağ ata yaxınlaşıb, ayağımı üzəngiyə qoymuşdum ki, tələsimiş kimi o, yerindən sıçradı. Çox keçmədi ki, at buludları yarıb səmaya doğru şığıdı. Atın üstündən qanrılıb o sehrli aləmə boylandım. Arxanı duman, çən bürüdüyündən nə göylərə qovuşan qala divarlarını, nə də məni yola salan məğrur bələdçimi görə bildim. Özümdən asılı olmayaraq: — Ata, ata! — deyə qışqırdım. Bu anda Qasım hövlnak halda, bərk həyəcan içərisində, ancaq sakit tərzdə: "— Ağarəhim müəllim, Ağarəhim müəllim!" — deyə çağırdı. Yuxudan oyandım. Məni soyuq tər bürümüşdü. Haçandan-haçana özümə gəldim. Ürək sakitləşdirici dərman da içdim. Ancaq səhərə qədər yata bilmədim. Gördüklərim məni xeyli yüngülləşdirsə də, hey bələdçim haqqında düşünürdüm. Gah da yuxumu yozurdum: ağ at məni öz dünyama qaytardı... Ağ at qələbə rəmzidi. Ulu Tanrının böyük səxavəti ilə yaşamalıyam, valideynlərim, özüm və bir də o sirli aləmdə gördüklərim haqqında hekayəti qələmə almalıyam. Bunun üçün, ya Rəbbim, Səndən ömür yox, möhlət istəyirəm...





## OT KÖKÜ ÜSTƏ BİTƏR

**Kainatda nə varsa, yaradanı və rəssamı bizik.**
***Nəimi***

**İnsan qəlbində həm dənizin sükutu, həm yer üzünün gurultuları, həm də səmanın nəğmələri var.**
***Taqor***

Keçdiyim ömür yoluna indiki zirvədən qanrılıb nəzər salıram: — Gəldiyim yol başlanğıcını hardan götürür və məni haralara aparıb çıxarır? Bunun sonu varmı? Varsa, nə vaxtacan? Heç özüm də bilmirəm... Bu suallar neçə illərdi məni düşündürür... Ancaq nə fayda? Mən insana həmişə qəribə məxluq kimi baxmışam. İndi də eləyəm... Filosoflar demişkən: sirli-soraqlı bir kainat. Hər anı bir möcüzə... Mən babam barədə atamdan, cicimdən çox eşitmişəm. Ancaq ulu babam mənimçün sirdi. Təkcə adını bilirəm: Ağarəhim! Soyadı da Rəhimli olub. Bu onu təsdiqləyir ki, bu adın və soyun tarixi daha qədimdir. Ağarəhim adı və Rəhimli soy adını bir zamanlar dünyasını nakam dəyişən əmim də daşıyıb. Ulu babam barədə daha heç nə, heç nə bilmirəm... Nə halından haliyəm, nə də xislətindən. Bunun üçün çox təəssüflənirəm... Ulu babam keçmişimin son həddidi. Onun yaşadığı aləm mənimçün qaranlıq zülmətdi. Orda adı və soy adından savayı heç nə görünmür. Nə heyf ki, o zülmətdən ulu babam da ayrılammır. İtib mənim tariximin əzəli kökü — ulu babam zülmətlərin ağuşunda. Nə yaxşı ki, indi nəvəm daşıyır ad və soyadımı: Ağarəhim Rəhimli. Hərdən oturub-durub fikirləşirəm: ulu babam; babam; atam; mən; oğlum; nəvəm və bir də nəticəm. Deməli, səcərəyə nə vaxtsa, mənim nəticəm tam sahib olacaq... Olsun. Bununla da yeni dövr başlanacaq. Yaxşı mənada nəticəmə qibtə eləyirəm... Yaşlıların dediklərinə görə babam Məm-

mədrəhim qürurlu, vuqarlı adam olub. Cavankən qəflətən ürək tutmasından dünyasını dəyişib. Kiçik yaşlarından atam yetim qalıb, niskilli tale yaşayan atama — özünə bir söz deməsəm də, — həmişə yazığım gəlib. Nə az, nə çox, düz əlli ilin söhbətidi. Atam köhnə, uçuq daxmamızda nəyləsə məşğulıydi. Cicimə tapşırdı: — "Uşaqları yanıma buraxma..." Bacı-qardaşlarımla həyətdə oynayırdıq. Hamının başı qarışmışdı.

Mən cicimin gözündən yayınıb atam çalışan daxmaya getdim. Daxmanın dar pəncərəsindən düşən işıq seli içərini ala-toran işıqlandırırdı. İçəri olduqca rütubətliydi. Mizin, ot-alaf çürüntüsünün iyi adamın burnunu göynədirdi. Yeşiyin üstündə oturan atamın arxası qapıya sarıydı. Başı qarışdığından gəlişimi hiss eləmədi. Yavaş-yavaş gözlərim işığa alışdı. Atamın qarşısında bir neçə dəmir gördüm. Onlar mənim marağıma səbəb oldu: — Bunlar nədi? — deyə atamdan soruşdum. O, mənim gəlişimi gözləmədiyindənmi, başı işə çox qarışdığındanmı, ya nədənmi, diksindi. Doğrusu, atamın diksinməsinin səbəbini o zamanlar anlayanmadım. Əslində kiçik yaşlı uşağın təfəkkürü onu çətin anlayardı. Atam dərhal dedi:

— Oğlum, gərək bura gəlməyəydin. Axı mən cicinə tapşırmışdım ki, bura heç kimi buraxmasın.

Mənalı-mənalı ona baxdım:

— Məni də?..

Atam üzümə baxıb gülümsündü və qəti cavab verdi:

— Hə, səni də...

— Cicim gəlişimi bilmədi. Mən onun gözündən yayınıb gəlmişəm.

— Bu çox pis. Elə şeylər var ki, oğlum, onları siz bilməməlisiz.

— Niyə?

— İndi də deyəsən, suallarına cavab verməli olacam?

Mən atamla danışsam da, gözlərim köhnə şəlpənin-palaz parçasının üstünə səliqəylə yığılan dər-dəmirlərdəydi. O zaman mən onları həqiqətən də dər-dəmir sanırdım. Mən başa düşdüm ki, gəlişim atamın ürəyincə olmadı. İçimdə bir sıxıntı yaşandı. Ona görə də geri qayıtmalı oldum. Qapının ağzına çatanda atam dedi:

— Keçib, gəlmisən də. Dön, geri qayıt.

Ayaqlarımı sürüyə-sürüyə qayıtdım və dedim:

— Bağışla məni, ata, bilsəydim gəlməzdim.

— Eybi yoxdu... Kefini pozma, de mən də bilim, burda nə gördün?

— Heç nə. Dəmir.

Atam düz gözlərimin içinə baxdı. Nəsə, anlaşılmaz bir şey hiss elədim:

— Mənə niyə elə baxdın, ata?

Atam yenə gülümsündü. Onda başa düşdüm ki, burda nəsə başqa şey var. Mən məyus oldum. O, heç bir şey olmamış kimi dedi:

— Yeşiyi çək yanıma, otur üstündə.

Daxmanın əks divarının yanındakı yeşiyi atam deyən yerə çəkib oturdum. Dəmir-dümür sandığım bu əşyaları o yağlayıb yenidən quraşdırırdı. Mən dedim:

— Ver mən də yağlayım, silim, ata.

— Bacarmazsan... Bir halda ki, gəlmisən, bunları görmüsən, sənə bir neçə söz demək istəyirəm. Gərək yaddaşında möhkəmcə saxlayasan. Ancaq heç kəsə bu barədə bir kəlmə də deməyəsən, bunları başqaları bilsələr, gec-tez gedib hökumətə xəbər verəcəklər. Onlar da gəlib məni tutacaqlar. Ailəmizi də incidəcəklər. Evimizdə yoxlama aparıb babandan qalma bu silahları aparacaqlar...

Mən yalnız indi silah sözunu eşidəndə başa düşdüm ki, gördüklərim heç də adi dəmir-dümür deyilmiş. Atama yazığım gəldi. "Hökumət" sözü eşitcək məni də təşviş, qorxu bürüdü. Dü-

şündüm: kaş gəlməyəydim. Onu qorxuya salmayaydım... Atam üzümə baxdı. Mənim keçirdiyim hissləri deyəsən, o da tutdu. Sakitcə sözünə əlavə elədi:

— Mən sənə inanıram. Ona görə də bunların nə olduğunu sənə açacam.

İnam bəlkə də mücərrəd bir sözdü. Məzmununu qismən ifadə eləsə də, çərçivəsi tam aydın deyil desəm, bəlkə də səhv etmərəm. "Sənə inanıram" demək, tamam başqa şeydi. "Sənə inanıram"ın arxasında böyük etimad, etibar, sədaqət, dəyanət, vəfa dayanır...

Atam dərindən nəfəs alıb sözünə davam elədi:

— Bunları evdə saxlamaq olmaz. Bu hərəkət cinayət, saxlayanı isə cinayəkar hesab eləyirlər.

— Onda niyə saxlayırıq, ata, ya yeri qazıb basdıraq, ya da aparıb ataq çaya.

— Yox, oğlum, onlar babandan qalıb. Vaxtıyla baban əksinqilabçı olub. Azərbaycan Cumhuriyyət hökuməti qurulanda baban onlara qarşı çıxanlarla vuruşub. Ölkədə xalqın öz hökumətini qurublar. Düzdü, o hökumət az yaşayıb.

— Bəs indiki hökumət xalqın deyil?

Sualın bu şəkildə qoyuluşu deyəsən, atamı silkələdi. Onun sifəti ağardı. Özlüyündə səhvə yol verdiyini düşündü. Sonra fikrini pərdələməyə çalışdı:

— Bu da bizimdi. Babangilin... Nə isə, oğlum, sən hələ balacasan, gələcəkdə çox şey biləcəksən.

Mən hiss eləyirdim ki, atam hökumət barədə danışarkən çox şeyi qəsdən pərdələyir. O, sözünə davam elədi:

— İndi gəl, uzaqlara getməyək. Sizin babanız yaxşı kişi olub.

— Elə sənin də atan.

Atam güldü. Sonra böyük nəvaziş və qayğıyla, ancaq astadan dedi:

— Hə... Mənim ağıllı balam...





Atam yağladığı silahları bircə-bircə quraşdırır, sonra mənə göstərirdi. Onun mənə göstərmək istədiyi ilk silah əlini atıb götürdüyü xəncər oldu. Onu qınından çıxartdı, mənə tərəf uzadıb:

— Ehtiyatlı ol, əlini kəsərsən, — dedi. Mən xəncəri əlimə aldım, parıldayan, uzun, iti tiyəsinə baxdım, şiş ucuna əlimi vurdum. Xəncəri o üz-bu üzünə çevirdim.

Atam dedi:

— Baxdınsa, ver, qoyum qınına. O qınında olmalıdı.

— Nəyində?

— Qınında. Yadında saxla, bu əlimdəki bəzəkli qab xəncərin qını adlanır. Bir zamanlar ata-babalarımız xəncərdən də silah kimi istifadə eləyiblər. Düşmən kəsilən adamlar bununla bir-birilərini al-qana boyayıblar. Qətlə yetiriblər. Baban da bu silahla özünü düşməndən qoruyub...

Mən heyrət içərisində soruşdum:

— Ata, babamın düşmənləri olub?

— Yox...

— Bəs onu nə üçün öldürmək istəyiblər?

Atam suala cavab vermədi. Qayıdıb diqqətlə üzümə baxdı və sualdan yayınaraq bildirdi:

— Hökumətin düşmənləriylə vuruşurdular. Onlar da kimi gəldi, günahı oldu-olmadı, öldürürdülər. Baban da özünü onlardan qoruyurdu.

— Qardaşları babama kömək eləyənməzdilər?

— Baban təkiydi. Onun qardaşları-bacıları olmayıb.

Doğrusu, təkliyinə görə babama yazığım gəldi. Atam xəncəri kənara qoyub, gödək lüləli dəmiri götürdü. Onu da o tərəf-bu tərəfə çevirdi:

— Bu, hərbçilərə məxsusdu.

Mən özüm də bilmədən atamın sözünü kəsdim:

— Babam hərbçi olub?

— Oğlum, sənin baban hərbçi olmayıb, ancaq hərbidə olub.

Lap vuruşub da. Bu da onun otuz iki kaliberli tapançasıdı. Baban bu tapançayla çox sərrast atırmış. Komandirləri onu tərifləyərmişlər...

Atam mənə göstərə-göstərə tapançanı yağladı, lülənin içini təmizlədi. Çoxdan sürtülüb təmizlənməmiş, rəngi qaralmış lüləni və barabanı sürtüb yağladıqca onlar par-par parıldayırdı. Atam tapançanı meşin qobra qoydu. Qobrun üstünə M.A. hərfləri yazılmışdı. Atam beşatılanı da bir neçə dəfə açıb quraşdırdı. Lüləsini, çaxmaq daşlarını yağladı. Sonra da qundağını sinəsinin sol tərəfinə basıb, sağ gözünü qıydı və çaxmağı çəkdi. Çaxmaq şaqqıldadı. Mən səbirsizliklə:

— Ver, mən də baxım, ata, — dedim.

— Gücün çatmaz, oğlum — deyə cavab verdi. Buna baxmayaraq, atamdan yenidən xahiş elədim: — Heç olmasa, əlimi vurum.

Atam razılaşdı. Silahı əlimə aldım. Babamın barmaqları gəzən soyuq və odlu silahların üstündə mən də əl izlərimi qoydum. Bir anlığa mənə elə gəldi ki, babamı görmüşəm, onunla yaxın təmasda olmuşam, məni qucağına alıb, üz-gözümdən öpüb, saçlarımı sığallayıb... Silahlara bu baxış üzünü görməsəm də, səsini eşitməsəm də, mənimlə babam arasında bir yaxınlıq, doğmalıq yaratdı. Özüm də fərqinə varmadan atamdan soruşdum:

— Ata, doğrudan, babam adam öldürüb?

Atam sakitcə cavab verdi:

— Mən bilən yox.

— Öldürməyəcəkdisə, bu silahlar nəyə lazımıydı? Bunları silib təmizləməyə ehtiyac varmı? Deməli, ata, bu silahlarla sən də adam öldürə bilərsən. Eləmi?..

Atam ucadan güldü:

— Oğlum, məni nə çək-çevirə salırsan? Özün bilirsən ki, mən bir toyuq başı kəsənmirəm. Toyuqlarımızı əmin gəlib kəsir. Elə olduğu halda, mən adam öldürə bilərəmmi? Özün de...





— Deməli, əmim babama oxşayıb. O, qorxulu adamdı. Mən əmimi belə bilməzdim. O, istəsə, lap bizi də... Ola bilər, eləmi?

— Baban qatil olmayıb, oğlum. Əmin də həmçinin.

Suallara o anda düz-əməlli cavab verənməyən atam əlacsız qalıb dedi:

— Məni dolaşdırma, oğlum. Hərbidə, davada hər şey ola bilər.

— Vuruşubsa, deməli, öldürüb...

Babam adam öldürmüşdü, öldürməmişdi bilmirəm. Haqlıydıhaqsızıydı deyənmərəm. Bu barədə atam da qəti söz deyənmədi. Ancaq uşaq qəlbimdə bir ağrı, əzab, iztirab hiss elədim. Hansısa, öldürülmüş adamın cəsədi, qanlı pal-paltarları, ata-anası, onun uşaqlıq illəri, təbəssümləri, gülüşləri, danışığı... gəlib durdu gözlərim önündə. İçim göynədi — Mənim babam niyə adam öldürüb? — deyə düşündüm. Uzun müddət öz-özümə götür-qoy elədim: — İnsan öldürmək qədər ağır bir şey varmı? — deyə elə belə, yüngülcə düşünəndə adam o qədər də ölümün fərqinə varmır. Ancaq özünü ölənin yerinə qoyanda, yaralanan şəxsin əzabəziyyətlərini canında hiss eləyəndə adam öldürməyin nə qədər çətin, fəlakətli olduğunu duyursan. Dəhşət doğuran müharibələri, odlu-alovlu inqilabları, silahlı üsyanları başa düşürsən. Vətən, torpaq, milli qırğınlar uğrunda gedən vuruşmaları anlayırsan. Atam demişkən, onda öldürməsən, səni öldürəcəklər. Düşünürəm: insan bunun üçünmü yaranmışdı? İnsanın son həddə nəsibi budurmu, İlahi?!

Ömrü başa vurub öz əcəlinlə ölmək haqdan gələndi. Belə olanda "ölüm" sözü göz önündə bir əlahiddə mənzərə yaratmır. Adam qətlə yetirdikdə "ölmək" sözü dəhşət və vəhşətdən doğan qara bir kabus olur. Yaşanan bir ömrə qəsdən son qoymaqdır. Keçirilən hisslərin bir andaca dondurulmasıdır. Doğranıb tökülməsidir. İstəklərin, arzuların, xəyalların, xülyaların qırıl-

masıdır. Ümidlərin sönməsidir. Hansını deyəsən??

İndi babamla mənim aramda atam dayanmışdı. Deyib-gülən, zarafatcıl, dərdli, kədərli, qəmli, qüssəli, qayğılı, ailəcanlı, xəstə atam... Atam sadəydi, bütöv sözlü, düz ilqarlıydı. Ürəyi yumşaqıydı... Onun vicdanının saflığı davranışlarından, qəlbinin təmizliyi gözlərindən duyulurdu. Allah bilir, bəlkə bunlar da atama babamdan gəlirdi. Onun ruhundan süzülürdü... Deyəmmərəm. Həyatın o qədər sirləri var ki. Onları düzü düz, əyrini əyri kimi saf-çürük eləmək çox çətindi. Bəlkə də, mümkün olmayan ən müşkül bir məsələdi...

Ən axırda atam babamın döyüş paltarını: köynəyini, şalvarını, uzun dimdikli və nişanlı şəpkəsini, gödəkçəsini mənə göstərdi. O, həzin-həzin, sakit-sakit danışdıqca gözləri dolurdu. Səsində kövrək bir titrəyiş hiss olunurdu. Dodaqları səyriyirdi. Mən onun gözlərinin içinə baxdım. O, dərhal gözlərini yana çevirdi. Ancaq onun gözlərinin lap dərinliklərində məyusluq duydum.

— Ata, sənə nə oldu? — deyə ondan soruşdum. O, başını astadan yellədi, sonra da üzündə zəif bir təbəssüm yaradaraq: — Heç, oğlum, — deyə cavab verdi. Mən sözü çevirmədim. Araya dərin bir sükut çökdü. Atam babamın silahlarını, onların da üstündən paltarlarını nuh-nəbidən qalmış zirzəmidəki sandıqçaya səliqəylə yığdı. Etiraf eləyim ki, o daxmada dünyaya göz açsam da, böyüyüb boya-başa çatsam da, indiki ana qədər nə o zirzəmini, nə də sandıqçanı görmüşdüm...

Sonra atam əvvəl dediyi sözü bir də təkrar elədi:

— Bunları bilən olsa, mən batdım.

— Ata, bayaq dedin də. Yoxsa, mənə inanmırsan?

— Ata oğluna inanmaya bilməz.

— Oğul da ataya inanmalıdı.

— Doğrudu.

— Onda nədən qorxursan?

Atam dönüb üzümə baxdı. Sonra da boynumu qucaqlayıb saçlarımdan öpdü. — Mənim arxam, dayağım, — dedi. Mən əvvəllər də bu və buna bənzər sözləri atamdan çox eşitmişdim. Ancaq o sözlərin fərqinə o qədər də varmamışdım. Sonralar onların mənə tutumunu dərk elədikcə atamın mənə qayğısının, hissinin, istəyinin, ümidlərinin dərinliyini duymağa başlayırdım...





Atam dedi:

— Oğlum, əkinçilik və heyvandarlıqla məşğul olan baban da zəhmətkeş və ailəcanlı adam olub. Beş övlad böyüdüb, dördü oğlan, biri qız. Bacımız ailənin sonbeşiyi, mənsə üçüncüsü olmuşam. Baban nəinki kənddə, hətta, Şirvanda böyük nüfuz sahibiymiş. El-obanın namusunu çəkib. Hamının toyunda, yasında yaxından iştirak eləyib. İmkansızlara əl tutub. Üz açıqlığı ona şöhrət gətirib. Mən indi də fəxr eləyirəm ki, elə kişinin oğluyam. Yaşlı adamlar indi də ağızdolusu ondan danışırlar...

— Babamın boy-buxunu necəydi?

— O, mənim yadıma gəlmir.

— Bəs bunları hardan bilirsən, ata?

— Mərhum nənəndən, yaşlı adamlardan eşidib-öyrənmişəm.

Atamın babam barədə dedikləri xoş sözlər qəlbimi iftixar hissiylə doldururdu. Düşünürdüm, nə yaxşı ki, babam yol kəsməyib, günahsızlara, zəiflərə əl qaldırmayıb, gözü özündə olub. Yaltaqlardan, məddahlardan, acgözlərdən... zəhləsi gedib...

Zaman fərqi məni babamdan çox ayırsa da, onu heç vaxt görməsəm də, atamın söhbətlərindən məndə belə əminlik yarandı ki, xaraktercə babama çox oxşayıram. Düşüncələrimizdə, xarakterimizdə nəinki uyarlıq, hətta, üst-üstə düşən nöqtələrimiz, uyuşan cəhətlərimiz çoxdu. Atamın söhbətlərindən anlayırdım ki, babam nə qədər sərtmişsə, ailəsinə bir o qədər səmimi olub. Övladlarına özündən sonrakı həyatı kimi baxıb.

İndi də babamın yaşamasını istərdim. Kaş indi düşündüyüm suallarımı ona verə biləydim. Ondan məsləhətlər alaydım. Heç olmasa, bir anlığa gözlərinə baxaydım. Səsini eşidəydim...

Mən fanatik deyiləm. Uydurmaçılıqdan da zəhləm gedir. Mən yalnız düşündüklərimi, hiss elədiklərimi deyirəm. Babamın xislətinin bir çoxunu atamda, atamdakıları da özümdə görürəm. Fizioloji uyarlığımızı demirəm. Bəlkə də məndəki zərif, incə, gözəgörünməz ilgilər babamdan, atamdan mənə keçənlərdi: İnanıram ki hamısı ürəyiyumşaqlıq, nəfsi bütövlük, həqiqətpərəstlik, ədalət... atama da, elə mənə də babamdan gəlir. Ancaq heyf ki, babam yoxdu. Mən onu heç vaxt görməyəcəm. Onunla bir an belə təmasda olanmayacam.

Əsil-nəcabət deyilən bir şey də var. Bu, elə-belə söz deyil. O, nəsillərin təcrübəsindən üzübəri süzülüb gəlir. Necə ki, ulu babamdan babama, babamdan atama, atamdan mənə... Nə az, nə çox, düz yeddi nəsil...

Əvvəllər heç vaxt babam barəsində düşünməzdim. Elə bilərdim, belə adam heç olmayıb. Olmayıbsa, onun haqda düşünməyin də mənası yoxdu. Atamın söhbətlərini eşitdikcə, özümü dərk elədikcə, dünənləri arxada buraxdıqca və sabaha boylandıqca, məndə çox şey dəyişirdi. Dəyişdikcə də keçmişimə qanrılır, hardan gəlib hara getdiyim barədə düşünürdüm. Bu mənim tərəfimdən deyilən gəlişi xoş sözlər, ya da boşboğazlıq deyildi. Mənə elə gəlir ki, bu, əsil-nəcabət deyilən şeyin axtarışlarıydı. Mən o izə düz düşmüşəm. Ulu babam olmayıbsa, babam, babam olmayıbsa, atam, atam olmayıbsa, mən də olmamışam. Məndən sonrakıların da izi-tozu görünməzdi... Mən keçmişimlə bağlıyam. Yeganə məqsədim indi keçmişimi bu günə, bu günü də gələcəyimə bağlamaqdı...





## ...QADINIYDI, YOXSA KİŞİ...

**Ey insan, danış səni görüm.**

*Sokrat*

**Ey qadın! Sən öz işlərinlə məşğul olanda,**
**əl-ayaq səslərin xırdaca daşlar arasından**
**axan dağ irmağı kimi xoşdur.**

*Taqor*

**Həm dövlət, həm zillət, həm yaxşı-yaman**
**Əbədi yazılmış insana haqdan.**
**Taleyin əmrindən nə şah, nə gəda**
**Azad ola bilməz, o, bu dünyadan.**

*Ə.Nəvai*

Babam barədə düşüncələrim nənəmlə əlaqədar axtarışlarıma önəm verdi. Atam nədənsə nənəmdən çox az danışardı. O, xəstələnib yatağa düşən vaxtlarda, hərarəti qalxan anlarda: — Ax, ay ana! — deyərdi. Vəssalam. Bununla da qurtarıb gedərdi. Bu barədə atama bir söz deməsəm də, içimdə nə isə bir narahatlıq yaranardı. O, nədəniydi? Deyənmərəm. Ancaq elə bilərdim ki, atam nənəmi az istəyir... Bəlkə də heç istəmir.

İsti yay günlərindən biriydi. Pambıq sahəsinin kənarında atamla ot çalırdıq. Özümüz də bərk yorulmuşduq. Atam dəryazı bir kənara ataraq barmağıyla alnındakı tərini siyırıb yerə tökdü. Sonra da söyüd ağacından asılmış dəsmalı götürüb, üzünün tərini sildi və mənə dedi:

— İstidi, gəl otur, dincini al. Ayran iç, meyvə ye, susuzluğun ötsün.

Mən atam deyən kimi də elədim. Yayın cırha-cırında, günorta, otuz beş-qırx dərəcə isti. Təsəvvür eləyirsiz? Gözlənilmədən sərin meh əsməyə başladı. Atam yenə: — Ax, ay ana! — deyib dərindən nəfəs aldı. Bu mənə imkan verdi ki, nənəm barədə

onunla söhbət eləyim. Özüm üçün açılmamış bu “sirrə” bir aydınlıq gətirim.

— Ata, nənəm necə qadın olub?

— Mən hardan bilim?

— Oğlu döörsən?

— Oğluyam.

— Məncə sən onun ögey oğlusan, eləmi?

Atam heyrətlə üzümə baxdı:

— Bu da təzə xəbərdi? Onu sənə kim dedi?

— Heç kim.

— Bəs o söz sənin ağlına hardan gəldi?

— Sən həmişə babamdan yana-yana danışırsan. Nənəmin adını tutmursan. Bircə çətinə düşəndə, istidə meh əsib canını dincəldəndə “Ax, ay ana!” deyirsən. Axı nənəmin ruhu inciyə bilər.

Atam fikrə getdi. Hiss elədim ki, mənim sözlərim onu tutdu. Handan-hana atamın çöhrəsində yüngül təbəssüm oyandı. O, astadan dedi:

— Oğlum, mən nənəni çox istəyirəm, lap çox. Nəyim varsa, onundu. Atamız, sənin baban dünyasını vaxtsız dəyişəndə biz çox balaca olmuşuq. Nənən dişiylə, dırnağıyla bir tikə çörək tapıb beş balasını yedirib-içirib. Gecə-gündüz qayğımızı çəkib, bizi böyüdüb. Onu istəməmək olarmı?

— Bəs niyə nənəm elədiklərini demirsən? Sevinək ki, bizim də belə nənəmiz olub.

— Sən haqlısan... Nənən babana sədaqətli olub. Baban dünyasını dəyişəndən sonra da o, təmiz adını, qadınlıq ləyaqətini, şərəfini qoruyub... Heç vaxt o özünü sərbəst hiss eləməyib. Rahat olmayıb. Babanın ruhunu başının üstündə görüb. Babanla bir-birilərini çox seviblər. Bütün münasibətləri qarşılıqlı sevgidən doğub və ömrü boyu da nənən onları qoruyub saxlayıb.

— Belədisə, onda nənəmə niyə qısqanclıqla yanaşırsan?





Atam qəhqəhə çəkdi. Əlini çiynimə vurub: — Yamanca fantazyorsan, — dedi. — Oğlum, ağlına nə gəlsə, danışırsan? Nə olsa, uydurursan. Mən sənin nənəni kimə və nəyə qısqanmalıyam? Pisdi, yaxşıdı bilmirəm, oğlum, ananı, arvadı, qızı tərifləyən kişilərdən zəhləm gedir. Kişinin istəyi içində olar, onu kimsə bilməməlidi...

— Niyə?

— Böyüyəndə bilərsən. Elə şeylər var ki, onu dilə gətirməzlər.

Mən utandım. Bir qədər özümü narahat hiss elədim. Heç özüm də bilmədən atamın sual doğurmayan sözünə uyuşmayan sual verdim:

— Nifrət necə, ata.

— Oğlum, ailə üzvlərinə, qohum-əqrəbaya nifrət eləməzlər. Qaldı sənə pislik eləyən adamlara, lap düşmənə, ona da nifrəti biruzə verməzlər. Ağıllı adamlar heç kimi özündən narazı salıb münasibətlərinin açıq düşmənçiliyə keçməsinə şərait və imkan yaratmazlar.

Atamın əsaslandırmaları uşaq fikrimdə yanıldığımı yavaş-yavaş anlatdı mənə. Atam nəsə fikirləşdi, sonra başını qaldırıb açıq səmaya baxdı. Mənə elə gəldi ki, onun diqqətini ağ lopa-lopa buludlar özünə çəkdi. O, bir anlığa söhbətlərimizi unutdu. Xəyalı qanadlandı. Deyəsən, ağ və boz buludlar, duman və çiskinlər içərisində nənəmli uzaq keçmişinə qovuşdu. Çox çəkmədi ki, atam özünə qayıdıb köksünü ötürdü. Yüngülcə gülümsündü. Dərhal da üzünə ciddi görkəm verərək astadan dedi:

— Burda ikimizik. Kimsə səsimizi eşitmir. Sənə nənənlə bağlı bir məsələni açacam. Gələcəkdə — böyüyüb ağlın kəsəndə biləcəksən ki, nənən kim olub.

Atamın dedikləri məndə böyük maraq doğurdu. Onun üzünə diqqətlə baxdım. Hər sözünü eşitməyə, yaddaşıma həkk eləməyə çalışdım:

— Eşidirəm, buyur, ata. Mən nənəmlə çox maraqlanıram.

— Baban evdə olmayanda, ya uzaq səfərə çıxanda nənən onun döyüş paltarlarını geyib, xəncərini, ya beşaçılanını götürüb atının belinə qalxarmış. Onu da deyim ki, qadın olsa da, çox cavanlar at çapmaqda onunla bəhsə girənməzlərmiş. Məhləni qaçaq-quldurdan, mal-qaranı oğrulardan, evi basqınçılardan qoruyarmış. Baban dünyasını dəyişəndən sonra da nənən öz ənənəsini davam elətdirib. Cəsarətinə, gözaçıqlığına görə adamlar ona qadın yox, kişi kimi baxarlarmış. Qonşumuz Gülarənin qızı Nazənin çox gözəl olub. Onu istəyənlər üstündə dava salırmışlar. Qonşu kənddən Səfər iki dostunu götürüb gələr ki, Nazənini qaçırsınlar. Cavan qız Nazənin qorxudan, vahimədən az qala özündən keçəcəkmiş. Nənən Gülarəgilin evinin arxasında gumur-gumur səs eşidir. Şübhələnir. Ürəyinə damır ki, Nazənini qaçırmağa gəliblər. O da tez babanın döyüş libasını geyinir. Uşaqlara tapşırır ki, siz sakit olun, qorxmayın, mən hələ ölməmişəm, gedə-güdə gəlib burda at oynada, itik axtara, qız qaçıra...

Nənən beşaçılanı götürüb evdən çıxır. Qaranlıqda gözləri "ov dalınca gələn çaqqal-canavarları" axtarır. Qəflətən evə basqın olur... Nazənin evdən qaçmaq istərkən onu qamarlayıb atın üstə qaldıranda nənənin beşaçılanı şaqqıldayır. Güllə xoşbəxtlikdən ata dəyir. At yıxılır, Səfərin dostları Nazənini buraxıb qaçırlar. Səfər ilişir. Daha doğrusu, nənənin atdığı tora düşür. Nənən onu gətirib mal yatan tövləyə salır. Qapının cəftəsini vurub sabahın açılmasını gözləyir. Səhər açılanda kəndə hay düşür. Adamlar yığışıb gəlirlər. Onların gözlərinin qarşısında nənən tövlənin qapısını açır. Səfər tövlədən çıxır. Məlum olur ki, bu gecə qulduru qonşu Çiyni kəndindəndir. O, qorxudan titrəyir. Dil-dodağı təpiyir. Adamların yanındaca nənən ondan soruşur:

— Bura niyə gəlmişdin?

— Səhv eləmişəm.

— Suala cavab vermədin. Soruşdum, niyə gəlmisən?





Səfər çəkinə-çəkinə dedi:

— Bağışlayın, bir də...

— Ayə, a qanmaz, dedim, bura niyə gəlmisən?

— Nazənini aparmağa.

— Onu sənə kim isnad verib?

Səfər duruxur. Nənən bir də soruşur. O, əlacsız qalıb onu Nazənininin ardınca göndərənin adını deməli olur:

— Nazəningilin qonşusu Nuğay.

— Özünü saxlayanmayan kişi qadın qaçırmağa gələrmi? Yaxud o, arvad saxlaya bilərmi?

Səfər xəcalətindən başını aşağı dikir:

— Bizə ölüm lazımdı.

— Niyə?

— Bir qadına cavab verənmədik. O, bizdən cəsarətli çıxdı...

Nənən Səfəri buraxır. Sonra Nuğayı yanına çağırır. — Alçaq, əclaf, satqın, — deyib üzünə bir sillə çəkir. Nuğayın papağı başından düşür.

Nuğay dərhal deyir:

— Bir qələtdi eləmişəm, keçin günahımdan.

Nənən:

— Şərəfsiz baş papaq saxlamaz. Götür zibilini, rədd ol gözümün qabağından.

O gündən nənənin adı el-el gəzir. İndi bildin, sənin nənən kimdi? O, necə qadın olub? Nənənin cəsarəti, şücaəti, ötkəmi, açıqfikirliliyi... cicinə də keçib. O hal, o xislət, oğlum, eynən cicində də var. Çünki genləri birdi. Bu, qandandı, oğlum. — Südlə gələn sümüklə gedər, — deyiblər... İstəyirsən, bir əhvalatı da danışım.

— Danış, ata, çox maraqlıdı. Mən nənəmi belə bilməzdim.

— Oğlum, nənəndəki cəsarət etiraf eləyim ki, heç məndə də, əmilərində də yoxdu. Çox yaxşı xatırlayıram. Onda biz uşağıydıq. Bir zamanlar kəndin hər tərəfi meşəydi. Meşə çaqqal,

canavar, tülkü və başqa vəhşilərlə doluydu. Axşam. Qaş qaralıb. Nənən camışı sağanda qəflətən heyvan hürkür. Az qala yazıq arvad camışın ayaqları altında qalacaqmış. Sərinc aşır. Süd dağılır. Nənən tez ayağa qalxır. Gözləri qızarıb hədəqəsindən çıxan canavarın beş-on metrlikdə dayanıb ona baxdığını görür. Nənən özünü itirmir. Bu dəm it canavarı qamarlayır. Canavarın iti üstələdiyini görəndə nənən tənbəllik eləmir. Əlindəki sərinclə canavarın başına bir neçə zərbə endirir. Canavar kökündən qopmuş qovaq kimi yerə çırpılır. İt də ağır yaralanır. Nənən itin yarasını sarıyıb qurtaranda həyətdə bir dənə də heyvan, hində toyuq-cücə, hinduşqa qalmadığını görür. O, babanın döyüş paltarını geyir, baxarbənddəki atını minir, beşaçılanını götürür. Hevanları axtarmağa çıxır. Həmin gecə təkbaşına heyvanların hərəsini bir tərəfdən tapıb həyətə gətirir. Sonra da zarafatla deyib:

— Bu qədər mal-qarada bircə cəsarət yoxdu.

Qonşu Qənbər ona cavab olaraq bildirib:

— Ay Gözəl bacı, vallah-billah, səndə olan fərasət biz kişilərdə də yoxdu. Qınama malı-qaranı, can şirin şeydi.

Bibim Sərvinaz hay-küylüydü. Ən adi hadisəni şişirtməsiylə danışanıydı. Ancaq heç vaxt yalan söz-söhbəti dilinə gətirməzdi. Şişirtmələrinə hamı adətliydi. O, Gözəl nənən barədə dedi:

— Müharibə qurtarmamışdı. Gedənlərdən tez-tez qara xəbərlər gəlir, yaşı çağırışa çatanları aparırdılar. Kənddə qalan kişilər qocalar, şikəstləriydilər. Briqadamız bostan əkmişdi. Bol məhsul yetişmişdi. Məhsulu yığıb adamların sayı qədər bərabər bölüşdürür, sonra da püşk atırdılar. Necə oldusa, Cəlil qadınlardan Ruhəngizi söydü və üstünə yeriyib onu vurdu. Qadın yıxıldı. Ayağa qalxanda ağzının-burnunun qanı üst-başını boyamışdı. Gözəl nənən irəli yeridi, Cəlilin boğazından tutub onu boğmağa başladı. Dalın-dalın geri çəkilən Cəlilin ayağı ilişib yıxıldı. Nənən onun sinəsi üstünə oturub baş-gözünə döyməyə başladı. Maraqlıydı ki, onlara kimsə yaxın getmədi. Aralamağa təşəbbüs





göstərmədi. Mən sonralar öyrəndim ki, Gözəl nənənin Cəlili, onu ağzına-ağzına döyməsi hamının ürəyincəymiş... Cəlil uyubmuş. Nənən yorulub ayağa qalxanda Cəlil yerdə uzanıqlı qaldı. Qadınlardan kimsə həyəcanla dedi:

— Cəlil öldü.

Nənən:

— Cəhənnəmə ki... O, bilməliydi ki, başsız qadınlara söymək, əl qaldırmaq olmaz, kişiliyə yaraşmayan hərəkətdi. Onun qardaşı, əri müharibədə Cəlili, onun anasını-bacısını qoruyurlar. Cəlilsə burda at oynadır.

Elə bu vaxt kolxoz sədri Yaqub kişi gəldi. Atdan düşüb salam verdi, hamıdan hal-əhval tutdu. Cəlili yerə yıxılmış görüb soruşdu:

— Bu nədi?

Onda nənən irəli çıxdı. Cəlilin də, özünün də hərəkətlərini necə var söylədi. Yaqub dərhal: — Əcəb eləmisən, ölməyibsə, gərək öldürəydin binamusu, biqeyrəti, — dedi. — Ölübsə, narahat olma. Namussuz adamın yaşamasından yaşamaması yaxşıdı. A bala, Sərvər, köməkləşin, itin cəsədini atın arabaya.

Gözəl nənən:

— Yaqub qardaş, ölübsə, hökumət adamlarına deyin, gəlib aparsınlar məni.

— Narahat olma. Nə mənim o abırda briqadirim olub, nə də onu öldürüblər.

— Yox, Yaqub, hadisə bu qədər adamın gözünün qabağında olub. Qətli mən törətmişəm. Onu dananmarıq.

Sərvər qadınlarla köməkləşib Cəlilin cəsədini arabaya qoydular. Qəflətən Gülnisə sevincək qışqırdı:

— Ölməyib, Gözəl xala. Nəfəsi gedib-gəlir.

Yaqub:

— Kaş öləydi. Xəcaləti bizi öldürdü. Başına su tökün, diriləcək, biqeyrət.

Nərgiz vedrəni götürüb su arxına tərəf qaçdı. Vedrəni doldurub tez də geri qayıtdı və suyu Cəlilin başına tökdü. Cəlil handan-hana özünə gəldi. Qadınlar arasında Yaqubu görəndə danışmağa dili olmadı. Təntiyib dili topuq vurdu:

— Yaqub dayı, qələt eləmişəm. Gözəl xala, bağışla məni.

Gözəl nənən:

— Səni mən niyə bağışlayıram? Kimi vurmusan, get ondan da üzr istə. O, səni bağışlamasa, bu qadınlar razılıq verməsə, sən burda briqadir olmayacaqsan.

Nə deyəcəyini bilməyən Cəlil susdu. Yaqub astadan dedi:

— Şələ-şüləni yığışdır. Bu qadınlara briqadir gərək deyil. Kimi istəyərlər, öz aralarından onu da seçərlər. Sən bundan sonra belini götür, get suyunu sula...

Yaqubun sözü qətiydi. Onu kimsə çevirməzdi. Hamı bilirdi ki, o, ədalətli və insaflı adamdı. Yersiz qərar çıxarmazdı. Həmin gündən də Ziba briqadir seçildi. Yaqub o deyəni çevirmirdi. Kişi özü bir neçə yerdə nənən barədə demişdi:

— Ləyaqəti özündə olan qadındı. On kişiyə bərabərdi. O, işə gələndə mən arxayın oluram...

Yaqub hər adam haqqında belə deməzdi. Yaqubun da, elə Gözəl nənənin də bir sifətləri vardı... Nənən belə nənəydi...

Çox zaman qadınları zəif cinsin nümayəndəsi adlandırırlar. Mən bu sözlə heç zaman razılaşmamışam. İndi də o fikirdən çox-çox uzağam. Axı qadınlar nəyə görə aciz, ya zəif olmalıdırlar? Fiziki gücünə görəmi? Əsla, mən elə düşünmürəm. Qadınlara təkcə iradəcə, xaraktercə deyil, mən cismən də kişilərdən güclü baxıram. Qadınlar həlim olurlar, zərif olurlar. Ailədə kişiyə güzəştə gedən olurlar... Bu, məncə heç də onların zəifliyinə dəlalət eləmir. Əksinə, bu da onların güclü olmalarından irəli gəlir. Bununla bütün qadınları eyni çərçivəyə salmaq fikrində də deyiləm. Əksinə, ondan çox-çox uzağam. Dünyagörüşü məhdud qadınlar da var. Ağa qara deyənləri də tapılır...





Ancaq nənəm kimilər də var. Ailə qədri bilən, ləyaqətlə nəsil artıranlar da çoxdu. Kişisi olmayanda, ya öləndə ərini, qardaşını, atasını əvəzləyənlər hədsizdi. Axtarsan, belələrində kişi xarakterinə meyillik, uyuşanlıq görərsən. Bu ona dəlalət eləyir ki, belə tip qadınlar digərlərindən, — öz cinsindən olanlardan — xaraktercə həlimlərdən, mülayimlərdən daha güclüdürlər. Görənlər və barəsində eşidənlər heç də nənəmi babamdan gücsüz, ya zəif xarakterizə eləmirlər.

Cicim Şamamanın nənəm barədə fikirləri məni özünə daha çox çəkdi. O, nənəmin cəngavərliyindən bircə kəlmə də söz açmırdı. Hər dəfə ondan söhbət düşəndə cicim deyərdi:

— Eşitmişəm, rəhmətlik ulu nənəniz Xeyransanın da çox qoçaqlıqları olub. Kişilərlə kişi dilində danışıb. Deyirlər: — Xeyransa nənəniz də elə qadın olub. Gör-götür dünyasıdır. Görünür, Gözəl nənənizə də cəsarət, hünər ondan gəlib. İstər pis olsun, istərsə də yaxşı, xislət adamın yeddi arxa dönənində özünü göstərir.

— Nənəmin bəzi hərəkətləri səndə də var, cici.

— Ola bilər, oğlum. Ancaq nənən çox güclüydü. Bəzi cəhətlərinə görə babanı da geridə qoyarmış... Yadımdadı. Bir dəfə qızı Sərvinaz ərindən, qayınanasından acıq eləyib evdən çıxmışdı. Gözəl nənən dərhal qudasıgilə getdi. Narazılığın səbəbini öyrəndi. Axşam atanı, əmilərini, gəlinlərini bir yerə topladı. Qızının qüsurlarını bircə-bircə açıb söylədi. Heç nəyi heç kimdən gizlətmədi. Axırda Sərvinaza nə desə yaxşıdı:

— Qızım, nə danışdıqların da, necə hərəkət elədiklərin də bizə məlumdu. Düz, ya əyri eləmisən demirəm. Bilməliydin ki, ər evi gor evidi. Ya sən ərinin ölümünə sahib olmalıydın, ya da ərin sənin. Bir uşağın var, onu da ər evində atıb gəlmisən. Bu, o deməkdi ki, sən doğmaca balandan da imtina eləmisən... Bir söz demirəm. Sənə haqq da qazandırmıram. Qayıt get də demirəm. Özün bilərsən. Sən balanı atsan da, mən səni atammaram. Sabah

nə qədər peşman olsan da, səni geri verməyəcəm.

Birincisi, bu gündən uşağınla görüşməyi sənə qadağan eləyirəm. Uşaq zibil deyil ki, onu zibil yeşiyinə, ya yol kənarına atıb, arxana baxmadan qayıdıb qaçasan atanın, ananın xarabasına. İkincisi, səni yenidən ərə verməyəcəm. Gözünü ondan yığ. Üçüncüsü, mən bu gün varam, sabah yox. Qardaşın arvadlarıyla birlikdə yaşamalısan. Öl desələr, öləcəksən, qal desələr, qalacaqsan. Sən bunların evinə dava-dalaş salmağa qayıtmırsan. Bir şeyi də unutma: özünə qiymət verənməyənə kimsə qiymət verməz. Gəlinlərin xatirini heç də səndən az istəmirəm. Elə et ki, mən dünyamı dəyişəndən sonra da qardaşlarının evinin küncündə özünə yer tapa biləsən...

Bu söhbətdən sonra hamı susdu. Kimsə ağzını açıb söz deyənmədi. Səhər tezdən yatağından qalxan Sərvinaz hamımızdan xəbərsiz öz evinə qayıtmışdı.

Gözəl nənənin dedikləri eynən bizə də aidiydi. “Qızım, sənə deyirəm, gəlinim, sən eşit”iydi... O vaxtdan bibin Sərvinaz bir dəfə də olsun elədiyi səhvi təkrarlamadı. İndi bibin iki oğlunu evləndirib, üç qızını köçürüb. Nənən ər qadınıydı. Hər qadına ər qadın deməzlər. Allah o dünyasını versin. Mən bircə dəfə onun dilindən inciməmişəm. Mənə qüsur tutmayıb. Çalışıb öz işini görüb. Tək mənə yox, o biri gəlinlərə də ana olub. Qayınana kimi də tayı-bərabəri yoxıydı...

Söhbət əsnasında cicimin üzündə bir təbəssüm oyandı. Çöhrəsini işıq bürüdü. Başını yelləyib dedi:

— Oğlum, nənənin qəribə xasiyyəti vardı. Bir sözü deməsin, dedi, dünya tökülsəydi, o sözü geri götürməzdi. O, dediyi yerdən kəsməyi də bacarırdı. Onunçun adamın kimliyinin fərqi yoxıydı. Ədalət hər şeyiydi. Bir dəfə əmin Sadıqla xanımı Gülər arasında yüngülcə söhbət olmuşdu. Gülər ağlamışdı. Onu nənən başa düşdü. Ər-arvad ikisiylə söhbətə oturdu. Məlum oldu ki, əmin cavanlıq eləyib. Nənən tərs-tərs əminə baxdı. Kişi yerindəcə





dondu, udqundu. Deyəcəyi söz boğazındaca qaldı. Nənən hökm elədi:

— Rədd ol, evdən çıx. Bir də gözlərimə görünmə.

Əmin qapıdan çıxdı. Aradan iki-üç saat keçdi. Nənənin qəzəbi yavaş-yavaş soyuyurdu. Oğullar da, gəlinlər də bir-bir nənənin yanına toplaşdıq. Ona yalvarıb-yaxardıq. — Keç, bu işdən, — dedik. Arvadı çətinliklə yola gətirdik. Bunlar hamımız üçün bir dərsiydi, oğul. Atalar deyib: “Allahsız yerdə otur, böyüksüz yerdə oturma”. Ağsaqqal, ağbirçək olmayan yerdə nə intizam olar, nə də bin-bərəkət. Nənən bu ailənin dayağıydı, sözü keçən adamıydı... Hər şey vardı onda.

İndi də yadıma düşəndə halbahal oluram. Qonşu Kazım əvvəl özü, cəmi-cümlətani bir ay sonra arvadı Ərkinaz dünyalarını dəyişdilər. Onların bir oğlu, bir qızı qaldı. Onlar da kiçikiydilər. Bir axşam uşaqları götürüb nənən evə gətirdi. Oğlanlarıyla gəlinlərini bir yerə topladı və dedi:

— Bu gündən bu uşaqlar mənimdi. Onlara qayğı mənə qayğıdı.

Əmin dilini dinc qoymadı:

— Qohum-əqrəbaları yoxdumu?

— Olsaydı, əvvəla, bura gətirməzdim. İkincisi, var-yoxdu, onu özüm bilərəm... Kim deyə bilər ki, mənim övladlarım da sabah belə olmayacaq?

Mən dərhal qayınanama xoş getsin deyə bildirdim:

— Birini mənə verin. Mən saxlaram.

Gözəl nənən üzümə baxdı. Baxışında bir sərtlik duydum.

— Özüm saxlayacam. Hələ gücüm var, kimsəyə ehtiyacım yoxdu. Bu sözü sizə deməklə istəyirəm biləsiz, onlara xor baxanın, ağız büzənin bu evdə yeri yoxdu.

O vaxtdan nənən onlara da öz balası kimi qulluq elədi. Saxladı. Böyütdü. Axırda da qızı kiçik əmin Mirzəyə götürdü. Özünə gəlin elədi. Oğlan isə müharibəyə getdi. Çox-çox sonralar onun

qara kağızı gəldi. Az sonra da nənən dünyasını dəyişdi... Nənənin o qədər nümunə olacaq işləri vardı ki? Hansını deyəsən, oğlum?! Mən də nənənə bənzəmək istərdim... O, tez-tez ulu nənən Xeyransanı xatırlayardı. Hər dəfə də gözləri yaşla dolardı. Nənənin qadın olduğunu, ürəyinin kövrəkliyini onda düşünürdüm. Qalan vaxtlarda mən ona həm qayınata, həm də qayınana kimi baxırdım. Zəhmi məni boğurdu. Əslində düzəməlli ayırd eləyə bilmirdim, o kişiydi, yoxsa qadın.

## MƏN KİMƏM?

**İnsana arxadır onun kamalı,**
**Ağıldır hər kəsin dövləti, malı.**
**Xalqa hörmət elə, xalqa hünər saç,**
**Qapılar bağlansa, ər ol, qapı aç!**
***N.Gəncəvi***

**Nəcib, mərd olmaq on minlərin**
**içindən seçilmək deməkdir.**
***Şiller***

Mən kiməm? Bu sualın məntiqi cavabını çox axtarmışam, çox düşünmüşəm... Dünyanın yaranma tarixini vərəqləmişəm. Ulu babam Adəmin, pirani nənəm Həvvanın yerə nazil olduğu vaxtdan indiyədək keçilən yolu bir anlığa gözlərim önünə gətirmişəm. Sultanların, xaqanların, fatehlərin... ömür yoluna nəzər salmışam. Obrazlarını təsəvvürümdə canlandırmışam. Sonra da böyük Yaradanın qüdrətinə, şəninə deyilən kəlamları xatırlamışam. Ulu Tanrıya şükürlər edə-edə belə qənaətə gəlmişəm ki, mən gözəgörünməz, dərkolunmaz sirli dəfinənin şövqündən və nurundan yaranmış bir məxluqam. Bəşər övladıyam! Sonsuz ümmanam! Sirli-soraqlı kainatam! Yaranmışların, bütün mövcudatın əşrəfiyəm, tacıyam! Mənim bənzərim ancaq təbiət ola bilər! O təbiət də mənəm!.. Təbiətin sirləri mənim sirlərimdir. Təbiətdə dərk olunmayan bir şey tanımıram. Bütün sirlər mənim "Mən"imdədir. Açılmayanlar da nə vaxtsa açılacaq. Məkan və zamanı olmadığından dərkolunmaz yalnız o böyük Yaradandır.





Bəli, mən özlüyümdə təbiətəm! Tez-tez gah doluram, gah boşalıram, gah sərtləşirəm, gah mülayimləşirəm... Ancaq ağlım var, idrakım var. Düşünürəm... Götür-qoy edirəm... İçimdə dünyanı lərzəyə gətirəcək tufanlar olur. Daim alov saçan vulkanlar püskürür. Belə hallarda narahat oluram. Sakit bir guşəyə çəkilmək istəyirəm. Özümü axtarıram. Əslində axtara-axtara elə bu "Mən" də "Özüm" oluram.

İçimdə zəngin xəzinələr var, hələ dərk olunmamış dəfinələr var. Bununla belə imkanlarımın böyüklüyünü, tükənməzliyini duyuram. Bu imkanlar məndə hardandı, İlahi? İdrakımın əlçatmazlığını, möhtəşəmliyini hiss etdikcə, Sənə sığınıram, Sənə şükürlər edirəm. Axı məni yaradanda dünyanın dərk olunmasını da mənə tapşırmısan. Bəli, dünyanı mən dərk etməliyəm. Bunun üçün içimdəki zəngin əxlaqi sərvət yataqlarının ağır laylarını özüm qaldırmalıyam. Onun dərinliyinə varmalıyam. Laylara endikcə dərinliyimi, zənginliyimi, vüqarlığımı, möhtəşəmliyimi görürəm. Hər layın özündən altdakına güclü təsirini duyuram. Daha çox zənginliklərə, ümmanlara yaxınlaşıram. Sonu bəlli olmayan əzəmətimə, dərinliyimə heyran qalıram. Şükür sənə, Xudaya, mənim aləmim, insanı heyrətləndirən iç dünyam nə qədər möhtəşəm, nə qədər sonsuzmuş?!. Orda yaxşı, qiymətli nə varsa, hamısını seçirəm. Onu da başa düşürəm ki, burada mənim yeganə köməkçim ağlımdı, idrakımdı, məsləhətçim isə Ulu Tanrımdı.

And verirəm Allaha, Onun böyük qüdrətinə. Məni qınamayın, mənə gülməyin. Sonu bəlli olmayan əzəmətim, dərinliyim yenə də sirr olaraq qalır. İçimdə iki "Mən", iki dünya hiss edi-

rəm. Birincisi, şərti də olsa "Özüm", ikincisi isə elə "Mən"əm.

Özümdə qeyri-adi bir qüvvə duyuram. O, məni daim silkələyir. Narahat edir. Ağlımı, idrakımı işıqlandırır. Onu da bilirəm ki, "Özüm" hər şeyə qadirəm. Ağıl, zəka, idrak qarşısında hər şey acizdir. Təkcə böyük Yaradandan, bir də "Özüm"dən savayı...

Ancaq mən də dərk olunanam. Bunun üçün ağlımın, idrakımın imkanlarını səfərbər etməliyəm. Mən "Özüm"ü axtarmalıyam, "Özüm"ü aramalıyam. Axı "Özüm"üdərk dünyanın dərkidi. Xoşbəxtlikdən "Özüm"üdərkin açarı elə "Özüm"dədi. İçimdədi, idrakımdadı, əxlaqımdadı, dünyaya münasibətimdədi. "Özüm"ü dərk etsəm, onda dünyanı da dərk etmiş olaram. Mənə elə gəlir ki, böyük Yaradanın, Ulu Tanrının məndən istəyi də elə budu. Başqa təmənna ola bilməz...

"Özüm"üdərk çox çətindi, mürəkkəbdi. Əzablıdı. İztirablıdı. Ya Rəbbim, məni əfv et. Bu dediklərim heç də tutduğum özünüdərk yolundan qorxaraq çəkinmək deyil. Əksinə, bütün varlığımla, düşüncəmlə, hissimlə bu yolla irəliləyərək özümü axtarmaq, aramaq, toplamaq ümidindəyəm. Onu da yəqin etmişəm ki, bu əvəzi, bərabəri olmayan bir şərəfdi, müqəddəslikdi, Allaha tanınmaqdı. Büllurlaşmaqdı, müdrikləşməkdi. Böyük Yaradanın dostuna, istəklisinə çevrilməkdi. Belə olduqda, Ulu Tanrının nəzəri insanın üstündə olur. İnsan bəd əməllərindən, təsəvvürolunmaz fəlakətlərdən mənən kənarlaşır.

"Özüm"üdərkdə əxlaqi sərvətlərə, tükənməz həzzlərə, böyük fəzilətlərə yiyələnirəm. Tapdıqlarımla itirdiklərimi tutuşdururam, ölçüb-biçirəm. Qazandıqlarım özümü tapmaqdı, əxlaqi sərvətdi, mənəvi zənginlikdi. İtirdiyim zərrəcikləri isə bilmirəm... İndi özünüz fikirləşin. Özünüz seçin. İstədiyinizi özünüz götürün.

İnanın mənə... Təkrar edirəm. "Özüm"üdərk dünyanın dərkidir. Hər şey özümdədi: təbiət də, kainat da, o sirli-sehrli aləm





də. "Özüm"üdərk mənəvi rahatlığımdı, ucalığımdı, üzüağlığımdı, insanların gözünə dik baxa bilməyimdi, ailə, cəmiyyət içərisindəki nüfuzumdu, səadətimdi, bəxtiyarlığımdı...

"Özüm"üdərkdə öz dünyamı qururam, böyük sirlər, xəzinələr kəşf edirəm. Belə olduqda bütün göy qübbəsi də, səma da, kainat da, yerin altı da, üstü də... mənim olur. "Özüm"ü dərk edəndə, daxilimə nəzər salmağı bacaranda öz gizli mücrümdən qəbahətləri qovuram, kənarlaşdırıram, ömrümü əsən rüzgara, azğın dalğalara qurbandan qoruyuram. Hisslərim, emosiyalarım, ehtiraslarım nə qədər coşsa da onları ağlımın, idrakımın iradəsi ilə ram edirəm, əxlaqi igidliyimlə boğuram. Dəhşətli faciələrə, dağıntılara, bədbəxtliklərə sipər çəkirəm. Onlardan özümü rövnəqləşdirmə, şadlandırma kimi istifadə etməyə çalışıram, hisslərim, emosiyalarım, ehtiraslarım, xarakter bütövlüyüm, iradə möhkəmliyim özümüdərkin inkişafına təkan verir. Bax, beləcə "Özüm"ü kəşf edə-edə, dərk edə-edə Yaradana yaxınlaşıram.

"Özüm"lə "Mən" bir-birimizin əksiyik. "Mən" qəbahətlərlə doludur. Burada nələr yatmır, Xudaya?.. "Mən" "Özüm"ə qayıda bilməyəndə içimdə ilanlar, əqrəblər, əjdahalar, pələnglər, canavarlar məskən salır... İstədikləri kimi cövlan edirlər. Dəhşətli faciələr, dağıntılar törədirlər. Mənə bir şey də məlumdur ki, canavar canavarı, pələng pələngi, aslan aslanı parçalamır, dağıtmır. Ancaq "Mən"lər var-dövlət, mənsəb, vəzifə düşgünləri bir-birini didirlər, yeyirlər. Ətrafdakılara fəlakətlər, bədbəxtliklər gətirirlər. Ər arvada, oğul ataya, qız anaya, qardaş qardaşa... düşmən kəsilir. Pul, rüşvət üçün haqqı, ədaləti danırlar. Unudurlar ki, aldıqlarının arxasınca qalan gözlər var. O gözlər "Mən"ləri kəsir, onlara halallıq vermir. Düşünürəm və özözümə deyirəm:

— Bədbəxt "Mən". Nədir topladığın bu altunlar? Özünü altunlara satmaqda, dəyişməkdə nədir amalın? Bir anlığa yadına sal, yer üzünü fəth etməyə çalışan İsgəndəri, dünyanı lərzəyə

gətirən Çingiz xanı, Əmir Teymuru..! İnsanları qan nəhrində boğan Adolf Hitler, Stalin, oğul-ata Buşlar... Vəzifə hərisi Səddam Hüseyni, Müəmmar Qəddafinın, Hüsün Mübarəki, Bəşər Əsədi... Kimləri... Kimləri... Hanı onların əldə etdikləri qarətlər, topladıqları altunlar?!. Hanı zülm üzərində qurduqları o təxti-tac? Bir qarışqanı, çibini yaratmağı, ona həyat verməyi bacarmayanlar insan ölümünə fərmanlar verirlər, insan həyatına qəsd edirlər, qənim kəsilirlər. Dəhşət! Dəhşət! Belə "Mən"lərə dəhşət! Yaranmışları müharibələrə, fəlakətlərə, müsibətlərə düçar edən "Mən"lər istəsələr, dünyanı cənnətə döndərə bilməzdilərmi? Bütün insanlarda xoş əhval yaratmazdılarmı?

Eh, "Mən"lər, "Mən"lər... Axı sənin də son nəsibin buz kimi soyuq məzardı. Sən də torpaqda uyuyacaqsan... Çıxar içindəki o zəhr çatladan əjdahaları, vahimə yaradan əcaibləri! Uzaqlaş fitnə-fəsadlardan! Qorun qəddarlıqdan, ədalətsizlikdən, paxıllıqdan, lovğalıqdan, özünüsevərlikdən, laqeydlikdən, məddahlıqdan, təkəbbürdən..! Bunların fəsadları "Mən"i alçaldır, eybəcərləşdirir...

"Özüm" və "Mən"... Bu iki anlamda nə qədər zahiri oxşarlıq, bənzərlik, bəzən də eynilik varsa, bir o qədər də daxili fərq, ziddiyyət var. Bunlar heç də barışmazlıq deyil. "Mən"lər ağlın, idrakın, əxlaqi igidliyin cilovlanması ilə, ramı ilə barışanda, iztirab həzzə, şər xeyrə, nifrət məhəbbətə, qəbahət fəzilətə öz mənzilini verəndi. Belə olanda "Mən" tədricən "Özüm" səviyyəsinə qalxır. Yavaş-yavaş "Özüm"ləşir. Birləşir. Təmizləşir. Dünyaya sevinc gətirir, xoşbəxtlik gətirir. Belə olduqda "Özüm" də bilmədən "Məhəbbətə" dönürəm. Özümü dərk edirəm. İnsan oluram... Budur, mənim amalım, istəyim, həyat eşqim... Bunu da sən mənə bəxş etmisən, mənim Allahım.





## MƏNİM UŞAQ ALƏMİM

**Kim ki insani sevər, aşiqi-hürriyyət olar,**
**Bəli, hürriyyət olan yerdə insanlıq olar.**
***Sabir***

**...Təbiətləri pak və ülvi olduğundan**
**uşaqlar daim sevilirlər.**
***Müəllif***

Elə həddəyəm ki, istəsəm də, istəməsəm də, ömür qatarım qüruba çəkilməkdədi. Tez-tez ötən illərin sorağıyla yaşayıram. Yaşadıqca da məni anlaşılmaz hisslər bürüyür. Ürəyim dolur-boşalır. Halbahal oluram. Məni qınamayın. Bu yaşda içimi açmağa, arxada qalan illərimin xoş, bəlkə də ən səadətli, fəxranəli anlarını çatdırmağa, dolan qəlbimi boşaltmağa, sızlayan ürəyimdən ağrı-acıları götürməyə məlhəm olan, mənə yaxın, özümü olduğu kimi başa düşən bir adamın axtarışındayam. Hərdən öz-özümə deyirəm: eh, həyat, səndə nələr gizlənmir?! Nələr yatmır?! Sən nə qədər ecazkarsan, təravətlisən?! Sənin ətrini duymaq, ağuşunda məst olmaq nə qədər əlçatmaz, ünyetməzdi?!. Dini ekstazın ifadəsi nə qədər çətindirsə, o barədə fikir söyləmək də bir o qədər müşküldü. Əlahiddə qabiliyyətli bəstəkarın ilahi hisslər təlqin eləyən hər hansı musiqisini dinləyəndə, ölməz ruhlu rəssamın nadir fırçasından doğulub beyinləri donduran tablosuna baxanda hansı duyğular altında dincəlirsənsə, o anda ürəyini riqqətə gətirən, vücudunu titrədən hansı anlaşılmaz, ecazkar hisslərin tülünə bürünürsənsə, onda da izahı məlum olmayan məchul, qeyri-adi bir aləm yaşayırsan. Səni ehtizaza gətirən, ruhunu cilovlayan bu aləm qəlbinə hakim kəsilir. Özün də oturub-durub fikirləşirsən: — Bu nədi İlahi? Suala cavab tapmayanda özün də öz halına məəttəl qalırsan. Keçirdiyin

anlara ya acıyırsan, ya da fərəhlənirsən. Bir yerdə dayananmırsan. Düşüncələr seli səni özündən qoparıb hara gəldi aparır. Beynin dumanlanır. Onsuz da xaotik olan düşüncələrin yenə də bulaş-bulaş olur. Nə eləyəcəyini bilmirsən. Bir anlığa dayanırsan. Özünə qayıtmağa çalışırsan. Düşdüyün qəmküsar halın səbəbini araşdırmaq üçün bir sıra suallara cavablar axtarmalı olursan. Səni qamarlayan, qəlbini titrədən, dalğalandıran bu hisslərin mənbəyi nədir? Onlar haradan gəlir? Necə doğulur? Bu əlahiddə hissləri doğuran qüvvənin təsir gücü nə qədərdir? Onun ölçü-biçisi varmı? Onun davam müddəti niyə bu qədər ötərgi olur? Eyni ölçülü-biçili hisslərlə bir də yaşamaq mümkündürmü? Mümükünsə, o bir də həmin duyğunu, ehtizazı yarada bilərmi? İşdi, yaratsa, o həzzi ondan dübarə almaq olarmı? Yoxsa, niyə?... Qəribədir, bu sualların hamısı ömrünün qürub, ağlının müdrik çağında bir müəmma kimi durur qarşında. Səni çulğalayır. Məchul hisslərin ağuşunda çabaladır. Belə sızlayan, səni haldan-hala salan hisslərin təsiri altında bəzən bir kənara çəkilmək, qalan ömrünü tənha yaşamaq, özünlə baş-başa qalmaq istəyirsən. Bəzən də lap irəli çıxırsan. Qəlbində ölmək arzusu baş qaldırır. Doğrudur, bu hisslər ötəri olur, lap xəyallar, xülyalar kimi. Daimi ola bilmir. Anları yaşanır. Öz-özündən əriyir, yox olub gedir. Həmin hal da, həmin təsir də, bir daha geri qayıtmır...

Köhnə zaman keçir... Yeni zaman gəlir. Yeni şəraitdə, tamam başqa bir qiyafədə eyni cür yox, ancaq çox az hisslər yenə səni çulğalayır. Ağuşuna alıb səni tumarlayır. Ondan aldığın zövq, ləzzət indi əvvəlkindən yüksək də ola bilər, aşağı da. Həyat səni belə hallarla mütəmadi müşaiyət edir. Hər dəfə yeniləşirsən, saflaşırsan. Ürəyin riqqətə gəlir. Dərin, şüurlu və təmənnasız iftixar hissi keçirirsən. Belə anlar olmasaydı, bəlkə də ömür mənasızlaşardı. İnsan yaşamağının qədrini, dəyərini bilməzdi. Heyvan kimi instinktlərlə yaşayardı. Bu isə hisslərin yaratdığı anarxiya olardı. Hisslərin ən mötəbər mənbəyi qəlb olduğu kimi, qorunub-saxlandığı məkanda acılı-şirinli xatirələrdi. İllər keçir. Yaşa dolursan. Zaman gəlir. Lap uşaqlıq xatirələrin çözələnir. Çözələndikcə onun müsbət və mənfi (fərqi yoxdu) emosiyaları da özünü büruzə verir. Ya sevinir, fərəhlənir, qanadlanırsan, ya da qəmlənir, qüssələnir, kədərlənirsən... Yaşadığın keçmiş sənindi. Yalnız sənə məxsusdu. Keçmiş xatirələrindi. Sən, daim onun himayəsində yaşayırsan desəm, bəlkə də səhv eləmərəm. Məncə, xatirələr yaşanan həyatın müncəridi, tarixin əksidi. İstər sənə yanğı, utanc, xəcalət gətirsin, istərsə də fəxr, iftixar, üzağlıq, yüksək əhval. Axır ki, təcrübədi. Yeri gəldikcə onlardan istifadə eləyə bilərsən.





Ölülər keçmişlərindən bir dəfəlik ayrılırlar. Onların düşünmək, danışmaq imkanları olmur. Hansı millətə mənsub olmaq iqtidarını başqalarına ötürmək imkanlarını itirirlər. O gedir, əqidəsini də özüylə dartıb aparır. Onlardan yaxşı, ya pis, fərqi yoxdu, əxlaq və mənəviyyat nümunəsi qalır. Qalırsa, deməli, müəyyən dövr üçün ölmüş adamın şəxsiyyəti də yaşayır...

...Uşaqdım. Məktəbə getmirdim. Neçə yaşım olduğunu deyənmərəm. Cicim bacısıgilə qonaq getdiyindən axşam atamgildə yatmalı oldum. Kerosin lampası işıldayırdı. Otaq ala-toran görünürdü. Mənimsə beynimə boş-boş fikirlər dolduğundan yatanmırdım. Sanki yuxum ərşə çəkilmişdi. Hey köksümü ötürür, yataqda o üz-bu üzə çevrilirdim. Sən demə, atam da oyaqmış. Diqqəti mənə kəsilibmiş. O, gözlənilmədən dilləndi:

— Ağarəhim, sənə nə olub? Yatanmırsan?

— Mənə soyuqdu, ata.

— Dur, gəl mənim yanıma, bu axşam birlikdə yataq. Həm də qızışarsan.

Bu çağırış ürəyimcə oldu. Durub atamın yanına getdim. Çarpayısında uzandım. O, ala-toranda mənim üzümdən öpdü. Sonra da başını balıncına qoydu. Bir az keçmiş atam soruşdu:

— Hələ yatmamısan?
— Yox... Ata, səndən bir söz soruşmaq olar?
— Hə... Niyə olmur?
— İnciməzsən?
— Yox...
— Sən öləcəksən?
— Gecənin bu vaxtında bu nə deməkdi?
— Öləcəksən, yox?
— Vaxtı gələndə hamı kimi mən də öləcəm.
— Cicimlə anam da?
— Hə...
— Onda bacı-qardaşlarım necə olacaq? Biz də yetim qalacağıq?
— Ayə, işə düşmədik. Oğlum, bu suallar sənin ağlına hardan gəlir?
Atam anamı səslədi:
— Qalx, lampaya işıq ver. Bunun hərarəti yoxdu ki?
Anam yuxulu-yuxulu, deyinə-deyinə lampanın işığını gücləndirdi. Əlini alnıma qoyanda mən başımı kənara çəkdim. Atam öz-özünə dedi:
— Qəribə uşaqdı. Gündə adama nə qədər sual verərlər?... Yatmağa da qoymur...
Anam dedi:
— Yat, oğlum, qalan suallarını da sabah verərsən...
Mən atamın yatağına sakitcə uzandım. Nə vaxt yuxuya getdiyimi bilmədim. Səhər oyananda atamı yanımda görmədim. O biri otağa keçdim. O, səhər yeməyinə oturmuşdu. Məni görüb gülümsündü:
— Balaca kişi, əl-üzünü yu, gəl çörək kəsək.
O deyən kimi elədim. Elə bu vaxt cicim qapını açıb içəri girdi.
Atam dərhal dedi:





— Yaxşı gəlmisən, sənin oğlun — qonağımız gecə də bizi qoymayıb yataq. Hey sual verib. Bu həmişə belədi?
— Sualdan danışma... Deyir ki, cici, heyvanın dörd ayağı var, adamın iki. Niyə? İt hürür, qoyun mələyir, xoruz banlayır, pişik miyoldayır, niyə? Eyyy, o qədər sualları var, tapıb cavab verəmmirəm ki. Özü də bütün suallarının sonu niyədi. Əlacım kəsilib deyirəm ki, suallarını unutma. Tezliklə məktəbə gedərsən, müəlliminə verərsən.
Mən dərhal:
— Öyrənmək istəyirəm, sualın nəyi pisdi ki?
Cicim: — Hey suallar, suallar, suallar...
Eh... Xatirələr... Xatirələr. Bu sətirləri kağıza köçürdükcə keçən ömrüm, o arxada qalan illər, o illərdə dolub-boşaldığım, gülüb-ağladığım anlar, cızdığım izlər... Hamısı birər-birər gəlib durur gözlərimin önündə. Bəzən təəssüflənirəm, bəzən fərəhlənirəm... Fərəhimdən çox təəssüf hissi bürüyür məni. Hansını deyim, bilmirəm... Acılı-şirinli uşaqlıq xatirələri alır məni. Sızladır qəlbimi...
Soyuqlu-sazaqlı qışıydı. Çöldə ağappaq qar dizəcən yağmışdı. Bacı-qardaşlarımla evdə, divardakı buxorulu ocağın qırağına düzülmüşdik. Əllərimizi də ocaqdakı odunun qızılı rəngli gözünə tərəf bəhsə-bəhs uzadırdıq. Qənşərdən nə qədər isinsək də kürəyimizi soyuq aparırdı. Bunu görən atam dedi:
— Uşaqlar soyuqdan donar. Evə peç qurmaq lazımdı.
Anam dərhal cavab verdi:
— Bayaq baxdım, peçin altı əl boyda deşilib. O, od, kül saxlamaz.
— Mən düzəldərəm, saxlar.
Atamla anam qışın soyuğunda qalın paltarlarını geyinib evdən çıxdılar. Çox çəkmədi ki, atam peçi, anamsa turbaları evə gətirdilər və quraşdırdılar. Atam hardansa tapıb gətirdiyi, o qədər də qalın olmayan lay dəmir parçasını peçin içinə — deşik olan yerə

kəsib qoydu. Dəmir peçin deşiyini tamam bağladı. Dedi:

— Peçi yandırmaq olar. Ancaq...

Anam:

— Nə ancaq?

— Odun qoyanda, külünü yığanda çalışmaq lazımdı ki, dəmirə toxunulmasın. Dəmir yerindən oynasa, peçdəki közlər aşağı tökülə bilər.

Anam başıyla atama razılığını bildirdi və peçi qalayıb üstünə bir az da neft tökdü. Sonra bizə dedi:

— Geri çəkilin, şüşədəki neft alışa bilər.

Biz buna məəttəl kimi otağın qapısına tərəf qaçıb anamızın peçi yandırmasına baxırdıq. O, kibrit dənəsini yandırıb peçin qapısından içəri atdı. Odun alışdı. Atam nəsə fikirləşib yenə otaqdan çıxdı. Aradan xeyli keçmiş palçıq dolu vedrəylə qayıtdı. Kəmçənəylə palçığı beş-altı santimetr hündürlükdə peçin altındakı döşəməyə yaxdı:

— Qorxusu yoxdu... Qapını, pəncərəni açmayın. Qoyun otaq yaxşı qızsın...

Biz bir ağızdan:

— Ura! Ura! Sağ olsun atamız, anamız, — deyə qışqırdıq.

Atam dərhal bildirdi:

— Bəsdirin. Ağıllı olun.

Anamsa gülə-gülə zarafat elədi:

— Qonşular səsə tökülüşüb gələcəklər. Fikirləşəcəklər ki, görəsən, nə hadisə baş verib?

Mən dərhal cavab verdim:

— Bilsinlər də. Qoy görsünlər ki, biz qışda da kef eləyirik.

Otaq tez bir zamanda qızdı. Biz əynimizdəki qalın paltarları da yavaş-yavaş çıxarırdıq. Daha peçə yaxın getməyə də ehtiyac yoxıydı.

Elə bu vaxt qapı açıldı. Qonşumuz, məndən bir yaş böyük Saleh içəri girdi. Atası təzəlikcən dünyasını dəyişmişdi. Mənim





ona yazığım gəlirdi. Oturduğum döşəkçənin qırağındaca ona yer elədim, əyləşdi:

— Sizin eviniz yaxşı istidi, Ağarəhim. Mən evimizdə üşüyürdüm.

— Sizin peçiniz yoxdu?

— Yox... Anam deyir ki, peç almağa pulumuz çatmır. Bir az pullanıb biz də alacağıq. Onda bizim də evimiz isti olacaq.

İçimdə narahatlıq yarandı. Salehə necə kömək eləyəcəyimi bilmədim. Handan-hana dedim:

— Saleh, getmə, qal bizdə. Lap gecəni də.

— Anam qoymaz. Bizə tapşırıb ki, evdə olun. Heç harda yemək də yeməyin.

— Niyə?

— Axı biz yetimik. Elə bilərlər, yeməyə çörəyimiz yoxdu.

Mən ona bir söz demədim. Ancaq özüm də bilmədən gözlərimdən yanaqlarıma yaş süzüldü. Saleh dərhal soruşdu:

— Niyə ağlayırsan, Ağarəhim? Mən deyənlərə?..

Mən yalan danışmalı oldum:

— Yox... Ayaqlarım ağrayır.

— Ovxalayım?

— Yox... İndi ötər.

Keçirdiyim hissləri beləcə boynuma almadım. Ancaq o da ağlamağımın səbəbini deyəsən, sonradan başa düşmüşdü...

Anam günortaya əriştə bişirmişdi. O, süfrəni açanda Saleh ayağa qalxdı. Anam da, atam da, mən də, bacı-qardaşlarım da onun üstünə düşdük:

— Getmə, qal, nahar eləyək.

O, inadından əl çəkməyəndə mən dedim:

— Saleh, biz dost deyilik? Fikirləşirsən, mən də sizə gələndə çörək kəsməyim?..

Axır ki, Saleh inadından döndü. Biz birlikdə nahara oturduq.

Sonra "Əl üstə kimin əli" oyununa başladıq. Oyunun məzmu-

nu beləydi: Bir nəfər əyilir. Qalanlar əllərini yumruqlayıb üst-üstə onun kürəyinə qoyurlar. Əyilən kəs əlləri görmür, kimin əlinin üstdə olmasından xəbərsiz olur. Qalan oyunçular deyirlər:
— Əl üstə kimin əli?.

Əgər əyilən adam üstdə kimin əlinin olduğunu düzgün desə, özü qalxır, onu tapdığı adam əvəzləyir... Beləcə oyun davam eləyir...

Peçin kənarları qızarmışdı. Saleh onu görcək təəccübləndi. Sonra dedi:

— Kim əlini peçin qızaran yerinə vura bilər?

Mən dərhal dedim:

— Heç kim.

Saleh:

— Mən əlimə od götürə bilirəm.

Qardaşım Əli:

— Mən də.

Saleh:

— Peç oddan isti olar?

Mən çiyinlərimi çəkdim. Elə bu vaxt o, əlini peçin qızaran yerinə vurdu və dərhal da qışqırıb ağlamağa başladı. Səsə anam gəldi. Onun əlinin yanan yerlərinə qatıq sürtdü. Yanıq bir aya qədər sağalmadı. Salehə əziyyət verdi. Əlindəki yanıq izləri uzun müddət sezilirdi. Salehin qışqırıqları indi də qulağımda səslənir.

Qalsız-qadasız, dərdsiz-sərsiz uşaqlıq çağları... Hardan gəlib hara getdiyinin fərqinə də varmırsan. Sabah, ya o birisi gün nələr baş verəcəyi barədə düşünmürsən. Təkcə öz ömrünü yaşayırsan. Səni qoynuna alan təbiət kimi, hey haldan-hala düşürsən... Səndə nələr yoxdu? Acı da, şirin də, ağ da, qara da...

Anamın qabaqcıl pambıqçı kimi adının həmişə yaxşılığa çəkildiyini mən çox-çox sonralar öyrənmişdim. Uşaq vaxtı onun gördüyü işləri nə başa düşür, nə mahiyyətini anlayır, nə də mə-





nimçün elə bir təfavütü vardı. Lap sonralar böyüyüb, yaşa dolub onun mənasını duyanda anamın fədakar qadın olduğunu anladım. Sən demə, anam lap uşaqlıqdan fədakarmış...

Ürək bulandıracaq, qəm-qüssə gətirəcək bu hadisə indi də yadıma düşəndə sarsılıram. Bütün hisslərim donur. Çünki hər şey mənim gözlərim qarşısında olmuşdu. Onda mənim ya beş, ya da altı yaşım olardı. Mən cicimdən xəbərsiz qaçıb düşərgəyə getmişdim.

Axşamüstüydü. Kolxozun pambıq düşərgəsi bizim həyətin yuxarı tərəfindəydi. Qadınlar pambıq becərir, balaca, südəmər uşaqları düşərgədə saxlayırdılar. Hansı uşaq ağlasaydı, onlara baxan qadın hay vurub onun anasını çağırardı. O da gəlib uşağına süd, su verər, ağlamasını kəsər, yüyürüyə qoyub rahatlayar, sonra da qayıdıb öz işini davam elətdirərdi. İndiki kimi yadımdadı. Sərin meh əsdikcə pambıq sahəsinin kənarındakı yamyaşıl otların, al-əlvan çiçəklərin, cərgələnən pambıq kollarının dalğalanması adama ləzzət verirdi. Nəhayətsiz okeanı xatırladan açıq, təmiz səma göz oxşayırdı. Hər şey aydın, dəqiq və qabarıqıydı. O yerlərə, sanki foksa yaxşı tuşlanmış fotoaparatın obyektindən baxırdın...

Səhərlər doğan və axşamlar qüruba çəkilən günəşin şəfəqləri oynaşan yamyaşıl otların üzərində briqadir Tağı kişi uzandı. Özüylə dərib gətirdiyi bir dəstə rəngarəng çöl çiçəklərini burnuna dirədi və qoxusunu dərindən çəkməyə başladı. O, sərməst halda gözlərini yumdu. Mən də gəlib ondan bir az aralı oturdum. Çox çəkmədi ki, Tağı kişinin xorultusu eşidildi. Mən qalxıb düşərgənin arxasına keçdim. Orda su dolu köhnə çiyid quyusu vardı. Quyuya yaxınlaşmışdım ki, gözlərimə inanmadım. Bir uşağın suda batıb çıxdığını gördüm. Mən bərk qorxdum. Düşərgənin qabağına qaçdım. Yaslı Sara xalanı çağırdım.

— Quyuda uşaq ölüb!... Uşaq ölüb!..

Sara özünü itirdi. Nə eləyəcəyini bilmədi. Dayandığı yerdə

başına-gözünə döyməyə başladı. Səsə Tağı kişi hövlnak halda oyandı. Özünü quyuya yetirdi. Uşağı sudan çıxarıb qucağına aldı. Bu, mənim Mirzə əmimin, Zeynəb əmidostunun oğluydu. Düşərgəyə səs düşəndə hamı özünü itirmişdi. Qadınlar da özlərini hadisə yerinə yetirdilər. Ancaq nə fayda?.. Olan olmuşdu. Anam göz yaşları axıda-axıda uşağı adyala büküb evimizə gətirdi.

Bunu lap sonralar anladım. Saranın əri Ağasəmədin atamla arası yoxıymış. Uzun müddət küsülüymüşlər. Ağasəməd ayaqlarını sürüyə-sürüyə bizim həyətə gəldi. Həyət adamlarla doluydu. O, həyətdəki böyük tut ağacına söykəndi. Ayaq üstə duranmayıb çökdü. Atam evdən çıxanda onu gördü. Heç bir söz demədi və qayıdıb evə girdi.

Kəndə səs düşdü, aləm qarışdı... Hamıda belə yetkin fikir vardı ki, əmim hüquq-mühafizə orqanlarına şikayət eləyəcək, Sara həbs olunacaq. Ancaq atam deyilənləri bir kənara atdı. Əmimi, əmidostumu sakitləşdirdi...

Qardaşına, qardaşı arvadına: — O fikrinizdən əl çəkin, — dedi. Küsülülüyü düşmənçiliyə çevirməyin. Bu, qəsdən olmayıb. Saranın da bu işdə günahı yoxdu. Qadın tutdurmaq kişilikdən deyil. Gərək onda kənddə yaşamayaq.

Atam çətinliklə əmimgili razı saldı. Şikayət olunmadı. Beləcə, Sara həbsdən qurtardı...

Heç vaxt unudulan deyil. Dostumun atası rəhmətə getmişdi. Bakıdan kəndə hüzrə getmişdim. Günortaydı. Adamlar yasxanaya toplaşmışdılar. Söhbət necə gətirdisə, mənim məclisdə olduğumu bir an unudan Ağasəməd dedi:

— Mən bir dəfə sınmışam. Mirzənin uşağı quyuya düşüb öləndə. Arvadın həbs olunacaq qorxusu məni Nüsrətin qapısına apardı. Mənə diz çökdürdü. Onu indi də özümə bağışlayanmıram...

Söz məni yamanca tutdu. Cavab verməməyi bacarmadım və





ona astadan, hirsdən, qəzəbdən uzaq olan bir səslə dedim:

— Ataların ölçülü-biçili kəlamları var, Ağasəməd kişi. "Yaxşılığa yaxşılıq hər kişinin işidi, yamanlığa yaxşılıq ər kişinin işidi". Sən özün üçün həmişə düşmən axtarmısan. Sən kim olduğunu bilirsənmi? Toyuq, cücə, bostan, tərəvəz oğrusu. Kənddə qoyun-keçi qoymamısan, hamısını kəsib yemisən. Yalançısan, satqınsan... Axı, səndən nə düşmən? Belə nadürüst hərəkətlərinə görə atamın səndən zəhləsi gedib. Kənd camaatını da bezdirmisən. İndi də ağzını boş qoyub danışırsan. — İtin axmağı qaysavadan pay umar, — deyirlər. Onu da eşitməmiş olmazsan: — Ağlayışını bilməyən, ölüsünü bozlar — deyə çağırar"... Dünyasını dəyişən bir adamın arxasınca danışmaq əbləhlikdi... Arvadın həbs olunsaydı, başına papaq qoya biləcəkdinmi?

Söhbət bununla da qurtardı. Neçə illər keçsə də atam barədə Ağasəmədin dedikləri hələ də qulaqlarımda guyuldayır...

Uşaqlıq xatirələri. Hamısı bir-birindən gözəl, maraqlı, cəlbedici. Yada düşəndə adam necə də kövrəlir. O təmiz, o saf duyğularla yenə də yaşamaq istəyirəm. "Aşıq-aşıq", "Əl üstə kimin əli", "Qaçdı-tutdu"... oynadığımız o çağlar. Tez-tez dalaşmağımız, ağız-burnumuzu qanatmağımız, evə şikayətə gəlməyimiz, az sonra barışmağımız, hər şeyi bir anda unutmağımız, qəhqəhələrimiz... hamısı, hamısı gəlib lent kimi keçir gözlərimin önündən... Həyət uşaqları doğmaydı, əziziydi bir-birilərinə. Hərdən düşünürəm, hanı qalsız-qadasız o günlər. Təmiziydi, safıydı, canlıydı sinəsinə ilk addımlarımızı qoyduğumuz o torpaq. Nə paxıllıq, nə gözügötürməzlik, nə xudbinlik... nə xəyanət vardı onda uşaqlıq aləmimizdə...

## İNSAN ÖZÜ-ÖZÜNÜ QƏDİRLƏNDİRƏR

**Özümüz özümüzə əngəl-kələfik biz.**
***M.Ə.Sabir***

**Heç seyqəl götürməz zatı pis dəmir,**
**Nə qədər bəsləsən bədgövhər olar.**
***S.Şirazi***

Məktəbə qədəm qoyduğum ilk günü xatırlayıram. Hər anı yaddaşıma elə həkk olub ki, heç nəyi unudanmıram. Sevinirəm. Nə yaxşı ki o izlər pozulmur, yaddaşımda birərbirər yaşayır. 1 sentyabr 1955-ci il. Cicimin mənə aldığı təzə, təmiz məxmər pencəyi və aşırma şalvarı, qara ayaqqabını geydim. Kitab, dəftər, qələm, mürəkkəb qabı qoyulmuş çantamı götürdüm. Atamla məktəbə getdim. Məktəb birmərtəbəliydi. Təzə dərs ilinə hazırlıq görüldüyündən, bayraqlar, plakatlar asıldığından, boynu qalstuklu, əllərində gül-çiçək tutan uşaqları gördüyümdən məktəb mənə qeyri-adi gəlirdi. Bizi qapı ağzında düm ağ saçlı, atam yaşda bir kişi qarşıladı. Bizə əl verdi. Görüşdük. Tanış olduq. O, atama: — Sən gedə bilərsən, narahat olma, — dedi. Atam getdi. O, məni orta cərgələrdən birində əyləşdirdi. Sinifdə uşaq oturmayan az parta qalmışdı. Onlar da yavaş-yavaş tutulurdu. Bir azdan boş qalan yerlərdə də sonradan gələnlər əyləşdilər... Uzun zəng çalındı. O səsin sədaları indi də qulaqlarımda guruldayır... Müəllim özünü bizə təqdim etdi: Həsənalı müəllim. Sonra bizi boysırasıyla düzüb məktəblə — müəllimlər otağıyla, direktorun kabinetiylə, idman meydançası və yeməkxanayla, məktəbin həyətiylə tanış elədi. Bu, bizim məktəblə ilk tanışlığımız oldu...

Dərslər başlanan günlər mənə hər şey adi və sadə görünürdü. Getdikcə dərsə, məktəbə marağım azalırdı. Uşaqlarla ünsiyyətə





girə bilmirdim. Kitaba, dəftərə baxmaqla kifayətlənirdim. Bəzən də qələmi götürüb dəftərimə cızma-qaralar eləyirdim. Bunlar da olmayanda barmaqlarımla oynayırdım. Hər gün Həsənalı müəllim mənə yanaşır, qayğı və nəvazişlə başımı tumarlayır, qəlbimi ələ almağa çalışırdı. Bir dəfə mən dərsdən evə gələndə atam dedi:

— Gətir dəftər-kitabını, görüm, nə öyrənmisən? Necə oxuyub-yazırsan?

Atamın məni yoxlayacağını heç təsəvvürümə gətirməmişdim. Mən tutuldum. Atama nə deyəcəyimi bilmədim. Çantamı gətirdim. Atam sözünə davam elədi:

— Neçə gündü məktəbə gedib-gəlirsən, heç yazı-pozuyla maraqlandığını görməmişəm. Belə olmaz. Hamı oxumağı, yazmağı, hesablamağı öyrənəcək, sinifdən-sinfə keçəcək, sənsə elə I sinifdə də qalacaqsan. Uşaqlar da deyəcəklər: Ağarəhim sinifdə qaldı, tənbəldi. İki alır... Mənim də tay-tuşlarım bilirsən, nə deyəcəklər?

Mən başımı aşağı saldım. Atamın sualını cavablandırmadım. O, sözünə davam elədi:

— Nüsrətin oğlu sinifdə qalıb. Onda mən də utanacam, dilim olmayacaq danışmağa.

Cicim dərhal məni vəziyyətdən çıxarmağa çalışdı.

— Ağarəhim elə uşaq döör, atası. O, sən deyənləri fikirləşməyib. Düşünüb ki, hələ qabaqda çox vaxt var, sonra oxuyaram. Ağlına da gətirməyib ki, hər günün öz işi var. İşi vaxtında görməyəndə, adam gecikir. İş çoxalır, sonra onu görüb çatdırmaq olmur. Bu dəfə ona güzəştə get. Bundan sonra mən də hər gün onun dərsləriylə maraqlanaram.

— Mən bir söz demirəm. Ancaq oğlum bilməlidi ki, onun pis işi atasına utanc gətirər. Atasının qəlbini sındırar...

Atam dəftərimi vərəqlədi. Qarış-quruş olan cızmaqaralara baxdı. “Əlifba” kitabını açdı. İlk hərfləri soruşdu. Mən bir sua-

lına da cavab verəmmədim. O, kitab-dəftərləri örtüb mənə qaytardı. Astadan, incik halda sözünü dedi:

— Qələmlə, dəftərlə, hətta, barmaqla evdə də oynamaq olardı, oğlum. Özün oxumaq istəmirsən, heç olmasa, yanında əyləşən tay-tuşlarına mane olma. Özüm müəlliminlə, direktorunla danışaram, sabahdan məktəbə də getmə. Həyətdəki toyuq-cücələrimizə baxarsan. Onları yemlərsən... Böyüyəndə də mal-qara otararsan.

Cicim bir də məsələyə qarışdı:

— Onu utandırma. Təkrar eləyirəm, Ağarəhim pis uşaq döör. Bir də ki kimdən zəifdi? O, sabahdan öz işinə düzəliş verəcək... On gündən sonra baxarsan. Görəcəksən ki, lap yoldaşlarını da ötüb. Hamıdan qabaqdadı...

Atamın məzəmməti, cicimin təskinedici sözləri mənə bərk təsir elədi. Kitab-dəftərimi götürüb çantama qoydum. O anda özümdə olmadım. Gözlərim dolmuşdu. Deyəsən, dodaqlarım da səyriyirdi. Cicim dedi:

— Yaxşı, yaxşı. Sənə nə dedilər ki? Get, bir az həyətdə uşaqlarla oyna, özünə gəl. Sonra danışarıq.

Mən otaqdan məyus-məyus çıxdım. Uşaqlara da qatılmadım. Bağın yuxarı hissəsindən axan arxa tərəf getdim. Dolan içimi boşaltmaq istədiyimdən çoxdan kəsilmiş götüyün üstündə oturdum. Atamın çöhrəsini gözlərim önünə gətirdim. Xısın-xısın ağlamağa başladım. Birdən hıçqırtı məni tutdu. Elə bu vaxt məndən balaca qardaşım Əli soruşdu:

— Niyə ağlayırsan?

Mən onun arxamca gəldiyini görməmişdim. Diksinib arxaya çevrildim. — Heç, elə-belə, — dedim. — Get, bir azdan mən də gələcəm.

Qardaşım getdi. Evdə kimə nə dediyini bilmirəm. Az keçmiş cicim məni çağırdı. Mən gözlərimin yaşını silib cicimin çağırışına səs verdim və durub yanına getdim. Cicim gülümsündü:





— Deyəsən, çağırmasaydım, yeməyə də gəlməyəcəkdin?

— Hələ acmamışam.

— Atanın dediklərinin mənasını böyüyüb kişi olanda biləcəksən, oğlum. Adam atasından inciməz. O, səni istəyə bilər, üzündən öpər, saçlarını tumarlayar, ancaq danlaya bilməz?

— Yox, cici, sənə qurban olum, mən atamdan inciməmişəm. Axı, mən niyə dərslərimi vaxtında oxumadım? O sözləri niyə özümə dedizdirdim? Bax, onun üçün...

— Hələ gec deyil. Səhvini düzəldə bilərsən. Onda atanı da, məni də, ananı da sevindirərsən. Müəllimin də səndən razı qalar, mənim balam, biz də.

Cicim məndə bir ruh-yüksəkliyi, özümə inam yaratdı. İçimdə çalışqanlıq həvəsi doğdu. “Əlifba” dərsliyimi götürdüm. Bildiyim hərfləri dəfələrlə təkrarlamağa başladım. Özümdən on bir yaş böyük əmim oğlu Rəhimdən kömək istədim. Biz keçdiyimiz dərsləri birlikdə təkrarladıq. Oxuduq, yazdıq, hesabladıq. Şəkillərə baxdıq. Sual-cavab apardıq... Sabahı gün sinifdə müəllim mənim partamı dəyişdi. Məni iki cərgə qabaqda əyləşən, hamımızdan fəal, ancaq fiziki cəhətdən zəif Cəvahirlə əyləşdirdi. — Cəvahir, sən də Ağarəhimə kömək elə, — dedi. Doğrusu, yenə utandım. Ancaq üzə vurmadım. Ətəyimdəki daşları atıb Cəvahirlə tez dil tapdım. Birlikdə dərslərimizə hazırlaşdıq. Az müddət ərzində mən geriliyi aradan qaldıra bildim. Hər axşam atamla cicim də dərslərimlə maraqlanırdılar. Atam bir dəfə söhbət arası dedi:

— Oğlum, deməli, sən də əlaçı ola bilərsən. Uşaqların vəzifəsi dərslərinə çalışmaq, nizam-intizamlı olmaq, bir sözlə, valideynlərini sevindirməkdi, böyüklərinki isə çörək qazanmaq, ailəni, uşaqları dolandırmaqdı. Hər kəs öz işini görməlidi. Oxumamış uşaq aciz olar. Çörək qazanmayan adam kasıb. Biz necə hərəkət eləməliyik?

— Səni başa düşdüm, ata.

O vaxtdan atamın sözlərini bir an da unutmadım. Əksinə, dedikləri mənimçün həyat dərsinə çevrildi...

Tədris ilinin ortalarında sinfimizin əlaçılarından biri oldum. Həsənalı müəllimin daim nümunə göstərdiyi şagirdinə çevrildim. Müəllimim məni, mən də onu sevirdim...

Qəribə olurmuş uşaqlıq dünyası. Hər gün, hər an sevdiyin adamla təmasda olmaq istəyirsən. Onun hər anıyla maraqlanırsan. Sevincinə, kədərinə şərik olursan...

İkinci sinifdə mənimçün gözlənilməz hadisə baş verdi. Əziz müəllimim xəstələndi, uzun müddət dərsə çıxa bilmədi. Uşaq qəlbimiz onun üçün çırpınırdı. Onu Nübar müəllimə əvəzlədi. Onda dərs deməyə nə həvəs, nə də bizimlə danışmağa maraq vardı. Sinfə girən kimi deyərdi:

— Açın kitabı, hər kəs ürəyində oxusun.

Yaxud da deyərdi:

— Kitabdan filan şeri, hekayəni, nağılı, çalışmanı köçürün. Özünüz də sakit olun. Başını yuxarı qaldıran olmasın, mənim işim var.

Stolun üstünə qəzet sərər, dovğayla dolu yarım litrlik bankanı çantasından çıxarar, sacda bişirilmiş fətri bürmələyib bankaya soxardı. Sonra da iştahıyla yeyərdi. Hərdənbir də bankanı başına çəkər, dovğadan bir-iki qurtum içərdi. Bəzən dovğanın damcıları yaxasına tökülərdi, bəzən də üzünə yayılardı. Bizsə başımızı aşağı salaraq oğrun-oğrun, gözaltı ona baxar, bir-birimizi dümsükləyər, qımışardıq. O da hərdənbir bizi məzəmmətləyərdi:

— Bəsdirin, tərbiyəsizlər. Elə bil meşədən çıxıblar. Böyük-kiçik qanmırlar. Müəllimdən dərs almamısız?

Müəllimə hərdən də sinfə köhnə, yırtıq-sökük paltar gətirər, onları yamayardı.

Bunlar da olmayanda bir qədər irəli çıxar, uşaqların çantasını axtarar, tapdığı meyvələri sinifdəcə dişinə çəkərdi.

Hər gün təkrarlanan bu və buna bənzər hallar bizi də bezdirmişdi. Uşaqlarımız bu vəziyyəti ailələrinə çatdırdıqlarından bir dəfə valideynlər özləri məktəbə gəlib müəllimin hərəkətlərinə münasibətlərini bildirmişdilər:





— Bizim uşağımıza Nübar dərs deməməlidi. O, necə müəllimdir ki, uşaqları öyrədənmir? Dərs vermək əvəzinə, onları təhqir eləyir?

Əlacsız qalan direktor müəlliməni bizim sinifdən dəyişdi. Əvəzində bizə Əbdüləli müəllim dərs deyəsi oldu...

Atalar demişkən: "Qara yatdı, qonur qalxdı". Nübar müəllimədən yaxa qurtaran şagirdlər bir dazbaş Əbdüləlinin əlinə düşdülər. Əvvəl-əvvəl onun hazırlığı barədə söz deyənməsək də, sonralar bizə hər şey aydın oldu. Vurma cədvəlini yaxşı bilməyən, tez-tez çaşan, özündən razı Əbdüləli müəllimin qəribə metodu vardı:

— Uşaqlar, ürəyinizdə oxuyun, sakit yazın, səs salmayın. Axşam yaxşı yatmamışam. Mən də bir az gözlərimin acısını alım.

Sinifdəcə, oturduğu yerdə yatardı. Bəzən hərdən də xorultusu eşidilərdi. Şagirdlər də bildiklərini eləyərdilər. Unudulası deyil. Bir dəfə Əbdüləli müəllim dedi:

— Kimin evdə heyvası, narı var, əlini qaldırsın.

Hiylədən uzaq uşaqlar əllərini qaldırdılar. Müəllim sözünə davam elədi:

— Bilirsiz ki, qarşıdan Novruz bayramı gəlir. Bizdə meyvə yoxdu. Evdə uşaqlar da meyvə istəyirlər. Hərə evdən gündə bir-iki heyva, nar gətirə bilərmi?

Şagirdlərin hamısı bir ağızdan dedilər:

— Bəli!!!

Sabahdan heyva, nar əməliyyatı başlandı. Bunu görən Əbdüləli müəllimin gözləri gülürdü. O, hər gün uşaqlardan topladığı heyvanı, narı zənbillərə doldurub apardı...

Getdikcə müəllimimiz həddini aşırdı. Bizdən gündə bir şey

istəyirdi.. Fərruxun atası kolxozun anbardarı və xəzinədarıydı. Camaatın əmək gününə düşən taxılı, tərəvəzi, pulu o paylayırdı. Müəllim Fərruxu gözaltı elədi. Hər gün onu sıxışdırır, söyür, döyür, sonra da deyirdi:

— Fərruxdan çətin ki, adam ola. Belə getsə, o, sinifdə qalacaq. Hər gün geriləyir. Ancaq istəsə, irəli çıxa bilər.

Fərrux bizdən heç də pis oxumurdu. Müəllimin nə məqsədlə bu sözü dediyini anlamırdıq. Bir gün Fərrux evdən oğurlayıb iyirmibeşlik gətirmişdi. Özü də həmin gün arxada oturmuşdu. O, müəllimi dinib-danışmadan, orta, uzun barmağıyla yanına çağırdı. Müəllim cərgələrin arasıyla bir şey olmamış kimi onun yanına getdi. Oğlan iyirmi beşliyi partanın altından müəllimə ötürdü. Müəllim pulu alıb əvvəlki “sakitliyini”, “təmkinini” itirmədən geri qayıtdı. Stulunda əyləşib dedi:

— Fərrux yaxşı oxumağa başlayıb. Belə getsə, o da əlaçılar sırasına qalxacaq. Sinifdə qalmayacaq. Fərrux danlaqdan sonra özünü düzəltdi. Sağ olsun...

Müəllim danışdıqca Fərruxun sinəsi qalxıb-enirdi... Özünü yüksəkdə tuturdu. Aradan bir neçə gün keçmiş müəllim yenə də Fərruxu danlamağa başladı. Hətta, hədələdi. Fərrux səhəri gün yenə iyirmibeşliklə məktəbə gəldi, eyni qaydayla pulu müəllimə ötürdü. Artıq bu hal adət şəklini alırdı. Bu sirr sinifdəki bütün şagirdlərə aydınıydı...

Bir gün dərs hissə müdiri ikinci dərsdə sinfimizə gəldi. O, şagirdləri seyr elədi. Jurnaldakı adları oxudu. Fərruxu sinfin qarşısına çıxarıb ona bir-iki sual verdi. Gözlənilmədən əlini ona tərəf uzadıb dedi:

— Fərrux, iyirmi beşliyi ver mənə.

Fərrux çaşdı. Əbdüləli müəllimin sifəti bozardı. Fərrux fərqinə varmadan düzünü deməli oldu:

— Verdim Əbdüləli müəllimə.

— Niyə?





— Məni danlayar. Sinifdə saxlayacaq...

— Bu il ona nə qədər pul vermisən?

— Hər həftə.

Dərs hissə müdiri dönüb tərs-tərs Əbdüləli müəllimin üzünə baxdı. Müəllimi tər basmışdı. Dili-dodaqları təpiyə-təpiyə, bütün bədəni əsə-əsə dedi:

— Aldım ki, uşaqdı, itirər, gedəndə qaytaracaqdım.

— Hər həftə aldıqlarını qaytarmısan?

Əbdüləli müəllim əvvəl aldıqlarını boynundan atmaq istədikdə dərs hissə müdiri Fəruxdan soruşdu:

— Əvvəl aldıqlarını sənə qaytarıb?

— Xeyr. Özü aparıb yeyib...

Əbdüləli müəllim həmin gün aldığı pulu Fərruxa qaytardı və dərs hissə müdiriylə sinifdən çıxdı. Biz bir daha onu məktəbə gələn görmədik...

Tale elə gətirdi ki, üçüncü sinifdə Həsənalı müəllim bizə yenidən dərs deməli oldu. Şagirdlər doğma müəllimlərini görəndə gözlərinə inanmadılar. Hamının çöhrəsində təbəssüm, gözlərində sevinc oynaşırdı... Dərs demədiyi bir ildə çəkdiklərimizin hamısını Həsənalı müəllimə çatdırdıq. O, utana-utana, çəkinə-çəkinə dedi:

— Uşaqlar, mən onların əvəzində hamınızdan üzr istəyirəm. Mən xəstələnməsəydim, onlar da sizə əziyyət verməzdilər...

Biz onu doğma atamız qədər sevirdik... Bir hadisəni heç vaxt unudammıram. Dərs ilinin sonlarıydı. Bizim dördüncü siniflə xudahafizləşəcəyimizə lap az qalmışdı. Məktəbin meydançasında voleybol oynayırdıq. Soltan müəllim bizə yaxınlaşdı:

— Ağarəhim, bura gəl, — dedi. Mən onun yanına qaçdım. Heç bir söz demədən, qəbahətimi xatırlatmadan məni təpikləməyə, sillə-yumruqla döyməyə başladı. Bunlar azmış kimi boynumu buraraq məni yerə yıxdı. Mən zərbələrin ağrısına dözənmirdim. Qışqırmağa başladım. Şagird dostlarım da qorxuların-

dan yaxına gələ bilmirdilər. Qəribə orasıydı ki, səsimə məktəbdən çıxan müəllimlər də, nəinki məni onun əlindən almaq istədilər, bizə heç yaxın da gəlmədilər. Hamı maraqlı bir tamaşaya baxırmış kimi durub bizi seyr eləyirdi. Kimsə ona gözün üstə qaşın var demədi. Mən əldən düşmüşdüm. Ağzımın-burnumun qanı üst-başımı bulamışdı. Dodaqlarım şişmişdi. Üz-gözümdə Soltan müəllimin əl izləri qalmışdı. Evə gedəndə məni görcək atamı, cicimi, anamı heyrət bürüdü. Atam məni də götürüb məktəbə gəldi. Müəllimlə görüşdü. O, elədiklərinin çoxunu boynundan atmağa, məni şərləməyə başladı. Direktor və qadın müəllimələr atamı sakitləşdirməyə çalışdılar. Aradan xeyli keçmişdi. Əmilərim nə demişdilərsə, Soltan müəllim məni yanına çağırdı:

— Ağarəhim, gəl bundan sonra biz dost olaq. Əmilərinə de, məsələyə bir də qayıtmasınlar...

Mən onun gözlərinin içinə baxdım. Sanki ölü bir ilanın gözləriydi. Sir-sifəti bozarmışdı. İçimdə ona qarşı bir qəzəb, nifrət vardı. O, məni o qədər uşaqların, müəllimlərin arasında günahsızlığıma baxmayaraq sındırmışdı ki, ürəyim onunla barışa bilmirdi. Dözməyib ondan soruşdum:

— Məni niyə döydün? Neyləmişdim?

— Artıq onlar arxada qaldı... Gəl hər ikimiz unudaq. Elə bilək, o səhvlər olmayıb.

— Atamın yanında mənə niyə böhtan atdın?

— Səhv elədim, bağışla məni.

— Əmilərim sənə nə deyiblər?

— Hədələyirlər, Ağarəhim. Müəllim şagirdini döyər də. Bundan sonra sənə çırtma da vurmaram.

— Yenə səhv eləyirsən, müəllim şagirdini döyməz.

Mən başımı yelləyib ondan uzaqlaşdım. Söhbətimizi həmin gün atama çatdırdım. Atam da əmimgillə danışdı. Söz-söhbətə son qoyuldu... Tale elə gətirdi ki, biz Soltan müəllimlə birlikdə işləməli olduq. Məktəb direktorundan, müəllimlərdən yuxarı





təşkilatlara hey anonim məktublar yazılırdı. Məktub müəllifinin kim olduğunu kollektiv üzvlərindən heç kim ağlına da gətirə bilmirdi. Çox çəkmədi ki, müəllimlər üzə vurmasalar da, daxilən bir-birilərindən şübhələnməyə başladılar. Bəzən şübhələnənlər arasında umu-küsülər də olurdu... Bir xoş təsadüf nəticəsində anonim məktublar müəllifinin Soltan müəllim olduğu açıldı. Hamı məəttəl qaldı. Mən əsəblərimi cilovlayanmayıb Soltan müəllimdən soruşdum:

— Müəllimləri bir-birinə qarşı qoymaqda, məktəbi nüfuzdan salmaqda məqsədin nədi?

Soltan müəllim əvvəl cavab vermək istəmədi. Sonra həmkarlarının nifrət dolu baxışlarını üzərində hiss elədiyindən dərindən köksünü ötürüb cavab verməyə məcbur oldu:

— Mən oğraşlıqla çörək yeməyi öyrənmişəm, Ağarəhim. Daha ona deməyə söz tapanmadım. Əlacı kəsilən müəllimlərin gülməkdən savayı yolu qalmadı. Artıq o hadisədən qırx doqquz il keçir... Onu qələmə alarkən nifrətdən bədənim əsir...

Açığını deyim ki, bu hadisələri yazmaya da bilərdim. Hamıya görk olsun deyə onları qələmə aldım. Baxın, bu da müəllim! Bu da tərbiyəçi!

Nübar, Əbdüləli və Soltanın "müəllimlik" fəaliyyətindən yan keçə bilərdim. Acı xatirələr tək yalnız içimdə yaşadardım. Onsuz da bu adamların adları şərtidi. Müəllim olmaq üçün gərək anadan müəllim doğulasan. Şagirdini, tələbəni sevməyi, onun şəxsiyyətini qiymətləndirməyi bacarasan... Axı sevməsən sevilə də bilməzsən...

IV sinifdə buraxılış günü uşaqlarımız müəllimimizdən ayrılmaq istəmirdilər. Müəllimimizin də, bizim də gözlərimizdən yaş axırdı. Həsənalı müəllim şagirdlərinin qəlbində bax beləcə yaşayır... Sənə min rəhmət, ilk müəllimimiz!

## HƏYATIMIN BİR PARÇASI

**İnsan tarixdə özünü büruzə vermir:**
**onun içindən özünə yol açıb keçir.**
*Ə.Şəriəti*

İkinci sinifdən ara-sıra mal-qara nobatına getdiklərim nəzərə alınmazsa, dördüncü sinfin yay tətilindən başlayaraq özümüzün və əmimgillərin qoyun-keçilərini müntəzəm otarmağa başladım. Havalar getdikcə qızırdı. Çöldə-bayırda gəzmək, qoyun-quzu dalınca qaçmaq müşkül işə çevrilirdi...

Hər gün səhər arxamda çanta qoyun-keçiləri qabağıma qatıb kənddən çıxır, bir də axşam qaş qaralanda geri qayıdırdım. Qaloşlar ayaqlarımı yandırırdı. Ayaqlarımın üstü, barmaqlarımın arası suluqlayır, deşilir, yaralardan su axırdı. Əlacım kəsilib qaloşları çıxarır, kağıza büküb çantama qoyurdum. Ayaqyalın, başıaçıq heyvanların arxasınca qaçırdım. Tikanlar, qındırğalar xırç eləyib ayaqlarıma batır, ayaq basdığım yerlər al qana boyanırdı. Etiraf eləyim ki, bu, təkcə mənim başıma gəlmirdi. Yaşıdlarımın bir neçəsi mənim kimi beləcə heyvan otarır, mən çəkən əziyyətləri onlar da çəkirdilər. Adi günlərdən biriydi. Qoyunlar otlağa yayılmışdılar. Mən də möhkəmcə yorulmuşdum. Gəlib arxın vəsnəsinin üstünə uzandım. Nə vaxt yuxuya getdiyimi bilmədim. Ayılanda sürünü görmədim. Tez qalxıb o tərəf-bu tərəfə boylandım. Sürünün izi-tozu da görünmürdü. Dərhal ağlıma gəldi ki, sürü Göyçay çayının sağ sahilində "Qoç ölən" adlanan yerdə əkilən pambıq tarlasında olacaq. Mən "Qoç ölən"ə sarı qaçdım. Ora çatanda Gilə oğlu Həmidin — kənddə Həmid çoxıydi və o, yetim olduğundan həmişə anasının adıyla çağırılardı — sürünü tarladan çıxarıb kəndə tərəf apardığını gördüm. Tez özümü ona yetirdim. O, qoyunları mənə verib dedi:





— Heyvanlardan muğayat ol. Başqası görsəydi, aparıb salacaqdı kolxozun tövləsinə. Atanı çağırıb ona "sağ ol, belə oğul böyütmüsən" deməyəcəkdilər, onu cərimə eləyəcəkdilər. Gərək onda da qoyunları satıb cərimə ödəyəydiz.

— Çox sağ ol, bilməmişəm.

— Yəqin yatmısan.

— Hə...

— Ehtiyatlı ol. Uzanarsan, yuxu səni tutar, xəbərin olmaz, ilan-zad olar, gəlib səni vurar.

Mən minnətdarlıq hissiylə başımı aşağı-yuxarı elədim. O, gülümsünüb məndən uzaqlaşdı...

Bir aydan artıqıydı ki, öz işimlə şıdırğı məşğul olduğumdan yorulduğumu hiss eləyirdim. Axşam atama deyəndə ki, sabah evdə qalıb dincəlmək istəyirəm, o, dərhal kiçik qardaşım Əlinin üzünə baxdı. Qardaşım başını aşağı dikdi. Əslində bu, onun sakitcə etirazıydı. Atam dedi:

— Ora-bura az bax. Bircə özündən balacalarla oynamağı bacarırsan. Sabah get, gör sürü otarmaq nə deməkdi.

Cicim dilləndi:

— Əli qorxaq deyil. Niyə getmir? Əli dura-dura bacıları gedəcək, ya özündən kiçik qardaşları?

Əli:

— Eh.. Korlandı işlər... Çörəyimi verin, yeyim, gedim yatım. Mən sabah tez qalxacam.

Məni sabah Əli əvəz elədi. Həmin gün dincəldim. Axşamüstü necə oldusa, güzgünün qarşısına keçib özümə baxdım. Heyrətləndim. Bu bir ay ərzində mən təmiz başqa adam olmuşdum. Üz-gözüm günəşdən qaralmışdı. Paltarlarımın rəngi solmuşdu. Diqqətlə baxan olsaydı, sifətimlə əynimə geydiyim köhnə, tozlu, rəngi qaçmış paltarımın arasında bir uyarlıq duyardı. Arıqladığımdan yanaqlarımın sümükləri çıxmışdı. Təkcə gözlərim həmin gözləriydi. Görkəmim əvvəl mənə təsir elədi. — Mən nə

yaman arıqlamışam? — deyə cicimdən soruşanda: — Adam, arıqlayar da, kökələr də, indi də onu özünə dərdmi eləyəcəksən? — cavabını verdi. Daha cicimin sözünü çevirmədim... Axşam qardaşım sürünü qaytaranda çox yorğun-arğın görünürdü. Ayaqlarını sürüyürdü. Mən ona yaxınlaşdım.

— Hə, necədi işlər? Keçilər səni çox incitmədi ki?

— Yox... Bu gün kef eləmişəm.

Mən Əlinin üzünə maraqla baxdım:

— Necə yəni kef eləmişəm?

— Çoxlu qoyun, keçi minmişəm. Ala keçini də günorta əmmişəm. İstəsən, bundan sonra mən də səninlə gedərəm.

— Heyvanları minməyə? Əmməyə? Atam bilsə, ona nə cavab verəcəksən?

Qardaşım:

— Ayə, bəsdi, bəsdi... Sənə söz demək olmur ki. Tüfəng kimi atılırsan. Atamın adın tutursan. Dedim ki, yorulmayasan. Böyüklər at, eşşək minirlərsə, balacalar da keçi, qoyun minər də.

Mən acıqlı-acıqlı cavab verdim:

— Onu kim deyir? Bu da təzə xəbərdi?

— Eh... Daha özün bilərsən. Bundan sonra qoyun-keçini özün otararsan. Əl çək məndən.

Əli bununla da söhbətə son qoydu...

Veyis kişinin bu sahədə xeyli təcrübəsi vardı. O, kənd camaatının quzularını otarırdı. Deyib-güləniydi. Hərdən mən də qoyunları onun quzularına qatırdım. Quzular qoyunların yanına qaçır, onları anaları sanıb əmmək istəyirdilər. İmsiləşirdilər. Sonra da ayrılıb birlikdə otlayırdılar. Qoyun-quzuların bu hərəkətləri mənə olduqca qəribə görünürdü... Sonra da Veyis kişiylə söhbət eləyir, başımız əcəbcə qatılırdı. Maraqlı söhbətləriylə o, məni özünə çox bağlamışdı. Bir dəfə Veyis kişi dedi:

— Oğlum, mən savadsız adamam, özüm də İkinci Dünya





Müharibəsində yaralanmışam. Şikəstəm. O zamanlar oxumağa imkanımız olmadı. Bizi başa salan da tapılmadı. Hərəmiz bir iş ardınca qaçdıq. Ailəni dolandırmağa çalışdıq. Axırımız da bu...

— Sizə nə olub, Veyis dayı? Eviniz var. Arvad-uşağınız var. Onların çörəyini də qazana bilirsiz.

— Hər şeyim var, düz deyirsən. Sənin yaşda olanda həmişə oxumaq arzusunda olmuşam. Özümüzü aldatmayaq, oxumayan adam şikəstdi. Bax, mən quzu otarıram. Hilal pambıq sulayır. Nəcəf xırmanda taxıl sovurur... Səhərdən axşama qədər özümüzə dinclik vermirik. Axşam evə yorğun-arğın gedirik. Bir loxma kəsirik, yuxu bizi aparır. Bu, yaşamaq deyil, oğlum, sürünməkdi. Dünyadan xəbərimiz yoxdu. Mədəniyyətdən kənarda qalırıq. Oxumuşlar hər şeyi bilirlər. Adam təkcə qarnı üçün əlləşməməlidi. Başını da işlətməlidi. Sən hələ uşaqsan. Gərək oxuyasan. Çantandakı kitabları görüb sevinirəm. Deməli, oxumağa həvəsin var. Gələcəyin də qabaqdadı. Fikir verirəm, pis uşaq da deyilsən... Oxu, zərər çəksən, gəlib məndən əvəzini qopararsan.

Mən güldüm. Sonra zarafata salıb soruşdum:

— Veyis dayı, zərər çəksəm, nə verəcəksən?

— Quzularımdan hansının üstünə əlini qoysan.

— Axı quzular sənin döör.

— Ayə, ay saqqalın ağarsın, sənin nəyinə lazımdı mənimdi, ya mənim döör. Sən işarə vur, qalan mənim işimdi.

— Baxarıq.

— Yaxşı, kitabında şeirdən-zaddan varmı? Varsa, sən canın çıxar bir-ikisini oxu. Ölürəm şeirdən ötrü. Kişilər onu necə yazırsa, az qalır, adamın ürəyi oynasın yerindən.

— Qadınlar da yazırlar, Veyis dayı.

— O biri var ey, uzun, şiş papaqlı kişidi, sinəsində də saz.

— Aşıq Ələsgəri deyirsən?

— Hə... Hə... O elə yazır, handa çirkin arvad da adamın gözündə gözəlləşir.

— Arvadın çirkindi?

— Adə, çirkindi demədim ki, dedim gözəlləşir. Bayaqdan bir az gözəliydi, şeiri eşidəndən sonra lap gözəlləşir. Onun şeirlərindən varsa, utanma, de gəlsin.

— Səməd Vurğunun şeirləri var.

— O kişiyə də söz olanmaz. Başla.

Mən şeirləri oxuduqca Veyis dayı gözlərini yumub dinləyirdi. Hiss eləyirdim ki, kişi özündə deyil. Ancaq hərdən dilim dolaşanda, ya sözləri aydın, düzgün tələffüz eləməyəndə dərhal gözlərini açır. Mənə: — O bəndi təzədən oxu, — deyirdi. Onda başa düşürdüm ki, Veyis dayı şeirə heç də şeir xatirinə qulaq asmır, o, həm də mənanı dərindən tutmağa çalışırdı. Şeir sona çatanda dedim:

— Veyis dayı, oxusaydın, sən də şair ola bilərdin.

— Ay oğul, hər oxuyandan Molla Pənah olmaz. Gərək adamın anadan gəlmə təbi olsun. Eşitməmisən ki, bulağa su tökməklə bulaq sulu olmaz. Gərək bulaq gözündən qaynasın... Mən Veyis kişiylə tez-tez görüşür, beləcə "şeir dəqiqələri" keçirirdik...

Hər adamın öz dünyası, hər yaşın öz aləmi var. Gərək onu yaşaya biləsən. Onda bilərsən zəhmət nədi, həyat nədi, yaşam nədi. Təcrübəmdə onu anladım ki, ləyaqət və şərəfdən yoğrulan ömür ağır zəhmət və əzablar üzərindən keçir...

Heç yadımdan çıxmaz. Sürü Göyçay çayının sağ sahilində yaşıl çəmənlikdə otlayırdı. Mən də heyvanlardan bir az aralı oturub sabahkı dərslərimə hazırlaşırdım (Heyvanları günortaya qədər mən, günortadan sonra əmim oğlu otarırdı). Elə bu vaxt iki oğlan mənə yaxınlaşdı. Onların hər birinin otuza yaxın yaşı olardı. — Sürünü bura niyə gətirmisən? — deyə acıqlı-acıqlı məndən soruşdular. Mən tez ayağa qalxdım. — Allahın çəmənidi, otarıram, — deyə cavab verdim. Qara kök oğlan bildirdi:

— Burda otarmaq olmaz. Gendən baxan elə biləcək ki, kolxozun yoncasını otarırsan. Sabah sənə baxıb başqaları da gətirəcək.





— Axı, yonca aralıdadı.

Onlar mənə heç bir söz demədən sürünü qabaqlarına qatıb qonşu kəndə tərəf aparmağa başladılar. Onda başa düşdüm ki, bunlar qonşu kənddəndilər. Mən sürünün qabağına keçdim. Nə qədər yalvardımsa, onlar eşitmədilər. Məni ağlamaq tutdu. Biz qonşu kəndə çatmağa az qalmışdıq, bir atlının qarşıdan gəldiyini gördüm. Uzun arıq oğlan o birisinə dedi:

— Sədr gəlir.

Daha doğrusu, onda mən uşaq sadəlövhlüyü ilə qorxdum. O, bizə çatanda salam verdi və: — Bu uşaq kimdi, sürünü hardan gətirirsiz? — deyə soruşdu.

Uzun, arıq oğlan cavab verdi:

— Boyatdandı. Yoncanın lap qırağında otarırdı. Gətirdik heyvanları damlayaq. Bu, başqalarına da görk olsun.

Mən dərhal: — Mən yoncada otarmırdım, — dedim. — Bir də orda heyvan otarmaram. Otarsam, onda əlimdən alıb gətirərsiz.

Kişi gülümsündü. Sonra dedi:

— Adın nədi?

— Ağarəhim.

— Çantan çox doludu. Yemək çox yeyirsən?

— Çantamdakı kitablardı. Həm heyvanlarımı otarıram, həm də dərslərimə hazırlaşıram.

— Ağıllı oğlansan. Nə varsa, o kitablardadı. Bunun heyvanlarını qaytarın geri... Mənim uşaqlarımla kitablar arasına elə bil qurd yağı sürtüblər. Kitaba yaxın getmirlər ki.

Sonra üzünü mənə tutdu: oğlum, düz yoldasan...

Doğrusu, "qurd yağı sürtüblər" ifadəsinin mənasını onda başa düşmədim. Axşam atam mənə izah elədi: — Yəni düşmənçilik yaradıblar...

İstər böyük olsun, istər kiçik, insan hər cür məşəqqətlərə, əzab və iztirablara dözür. Çətin anlarını yaşadıqca sabaha boylanır. Ona elə gəlir ki, sabah bu gündən yaxşı olacaq. Əzablarına nə vaxtsa, son qoyulacaq... Bu ümidlə həyatın bəxş elədiyi şirin vədlərinə doğru can atır...

Uzaqlardan uçuşub gələn boz buludlar başımın üzərindəki açıq səmanın qarşısını kəsir, günəş şüalarının zəifləməkdə olan parıltısını, ilıq nəfəsini udmaqdaydı. Getdikcə göydən yerə soyuq hava axını hiss olunacaq dərəcədə enməkdəydi...

Sürü otlağa yayılmışdı. Ürəyim bulanırdı. Xəstələnməyimin səbəbini xatırlayanmırdım. Özümü arxın vəsnəsinə verib uzandım. Nə vaxt yuxuya getdiyimi bilmədim. Səsə güc-bəlayla gözlərimi açdım. Hava ala-toranıydı. Bir anlığa: — Ağarəhim, — deyə çağırılmağım məni özümə qaytardı. Çətinliklə başımı torpaqdan qaldırdım. Onda anladım ki, evdə yox, çöldə-vəsnənin üstündə yatmışam. Sürü də yoxdu. Sən demə axşam sahibsiz qalan sürü kəndə qayıdıb. Mənim sürüylə qayıtmamağım atamı şübhələndirib. Onlar bir müddət gələcəyimi gözləyiblər. Gəlmədiyimi görəndə kəndə səs düşüb, camaat axtarışıma çıxıb.

Mən atamı ondakı qədər həyəcanlı, sarsıntılı, ümidsiz, məyus... görməmişdim. Onun sifətinin qanı da qaçmışdı. O: — Oğlum, elə bildim çayda... — dedi, ancaq qorxduğundanmı, ürəyi gəlmədiyindənmi, ya nədəndi — Boğulmusan — sözünü dilinə gətirənmədi. Atam məni qucaqladı. Bədəni əsirdi. O anda gözlərindən bir damcı yaş yanaqlarına süzüldü. Mən görməyim deyə üzünü yana çevirib gözlərinin yaşını sildi. Əlini alnımda, saçlarımda gəzdirdi. — Bu ki, hərarət içərisindədi, özü gedə bilməz, — deyə əmimin üzünə baxdı. Əmim məni qucağına almaq istədikdə geri çəkildim. — Gedə bilərəm, — deyib evə qədər onlarla piyada gəldim. Üstümə həkim çağırıldı. Müalicə başlandı. Nə az, nə çox, düz ay yarım yataqda qaldım...

İqtisadi sarsıntı böyük bəladı. O zamanlar bizim dolanışığımız heyvan, toyuq-cücə saxlamaqdan, həyətyanı torpaq sahəsindən, bir də anamın kolxozdan aldığı məvacibindən asılıydı. Ona görə də balaca olsam da, heyvan otarmağa məcburuydum. Atam xəstə olduğundan ailədə əməyimə ciddi ehtiyac hiss olunduğunu duyurdum, başa düşürdüm. Bir dəfə qoyuna getmək istəməyəndə cicim mənə dedi:





— Oğlum, sən bilirsən, nə danışırsan? Sən getməsən, onda gərək atan getsin.

— Axı yoruluram.

— Bilirsənmi ki, ailəmizə sən nə qədər fayda verirsən. Biz qoyunlardan ət, süd, şor, pendir, qatıq, yağ alırıq. Qoyunların yunundan palaz toxuyuruq. İldə neçə qoyun satırıq. Onların puluna da dolanırıq. İndi mən gedim atana nə deyim?..

— Qırılsaydılar, canım qurtarardı.

— O sözü atan eşitsə, səndən inciyər, oğlum. O, sənə özünün davamçısı kimi baxır.

— Mən atamı çox istəyirəm.

— Onda gərək belə danışmayasan... Atan sənə böyük oğlan kimi baxır. Səni özünə oğuldan əlavə, həm də dost sanır.

Cicimin sözləri məni xeyli sakitləşdirdi. Bundan istifadə eləyən cicim çantama günorta yeməkləri qoydu və özü də mənimlə heyvanları həyətdən çıxartdı. Ayaqlarımı sürüyə-sürüyə könülsüz halda sürünü örüşə apardım.

Günortaya az qalırdı. Yulğun topasının kölgəsində oturub kitab oxuyurdum. Başımı qaldıranda gördüm ki, sürü yaxınlıqdakı yetişmiş taxıl zəmisinə soxulub. Kitabı çantamın içinə qoyub heyvanların ardınca qaçdım. Nə qədər çalışdımsa, sürünü zəmidən çıxara bilmədim. Zəmidə yaşıl ot olmadığındanmı, ya nədəndi heyvanlar taxılın yalnız başını-sünbülləri yeyirdilər. Hirsimdən ağladım. Əlimdəki ağacımı da harasa atıb yerimdəcə dayandım. Qəflətən gözlərimə inanmadım. Boz rəngli, yoğun belində, yanlarında xalları olan bir ilan başını qaldırıb qarşımdaca

dayanmışdı. Gözləri oynaşırdı. Ara vermədən haça dilini çıxarıb o yan-bu yana bulayırdı. İlanı görcək tutuldum. Nə geri, nə də irəli gedə bildim. Sanki damarlarımda qanım donmuşdu. Səsim də çıxmırdı. Tam müqavimətsiz vəziyyətə düşdüm. İlan mənə baxdı... Sonra da sürünüb özünü yaxınlıqdakı qalın otluğa saldı. Handan-hana özümə gəldim. — Cəhənnəmə ki — deyib yaxınlıqdakı yola çıxdım. İlanın əlindən qurtardığım üçün sevinirdim.

Ancaq onu da bilirdim ki, atam sürünün zəmiyə girdiyini başa düşsə, mənə münasibəti yaxşı olmayacaq. Mən də bunu qəsdən eləməmişdim. Günahsızıydım... Xeyli keçdi. Sürü zəmidən öz yükünü tutub kövşəyə-kövşəyə iki-bir, üç-bir dayandığım yola çıxdı. Mən onları yaxınlıqdakı su arxına tərəf apardım. Qoyunlar, keçilər uşaqlar kimi su üstünə qaçdılar. Sudan doyunca içdikdən sonra onları söyüd ağaclarının kölgəsinə apardım. Qoyunlar məələ getdilər. Mən qollu-budaqlı tək söyüdün kölgəsində oturub çantamdakı yemək bağlamasını çıxarıb süfrə açdım. Cicimin səhər süfrəyə bükdüyü fətirlər quruduğundan ovxalanırdı. Yarımlitrlik bankadakı qatıq kürəyimdə o qədər çalxalanmışdı ki, bankanın ağzında yağ izləri görünürdü. Bankanın içərisindəki isə ayranıydı. Günorta naharımı bunlarla başa vurdum. Söyüdün sərin kölgəsi, hərdənbir yüngülcə əsən meh adama ləzzət verirdi. Məni tezliklə yuxu apardı... Ayılanda hava sərinləmişdi. Sürünü qaldırıb yenidən otlağa aparmaq istədim. Məni dəhşət bürüdü. Nə az, nə çox, altı qoyun məəl yerindəcə qalmışdı. Onları ayağa qaldırmaq istədikdə başa düşdüm ki, ölüblər. Mənə elə gəldi ki, qoyunları ilan vurub. Həyəcanlanıb kəndə qaçdım. Atamla əmim gəldilər. Mən başıma gələnləri onlara danışanda əmim Sadıq gözlərimin içinə baxdı. Ölən qoyunlardan üçü onunuydu. Elə bildim o, məni cəzalandıracaq. Kövrəldim. O, başımı sığalladı:

— Ölən qoyun olsun, oğlum, sən niyə kövrəlirsən? İlan səni vura bilərdi.





Sonra əyilib qoyunları yoxladı. Handan-hana qamətini düzəltdi.

— Qoyunlar çoxlu taxıl yeyib, sonra da üstündən su içiblər. Ona görə də ölüblər.

Mən təşviş içərisində dedim:

— Onda qalanlar da öləcək?

— Narahat olma. Burdayam, hansının vəziyyəti ağırlaşsa, kəsəcəm.

Sonra da əmim atama əlavə elədi:

— Biz mal-qaradan ötrü az qalır uşağı həlak eləyək. Sabahdan Ağarəhim qoyun otarmayacaq. Bəsdi, onu bezdirdik...

Əmim elə qəti dedi ki, atam onun sözünü çevirmədi. O gündən mənim qoyun otarmağıma son qoyuldu.

## İNSANI ƏMƏLLƏRİ YAŞADAR

**İnsan dünyaya gəlir, yaşayır və gedir.**
**Ondan qalan təkcə izi olur.**
***Müəllif***

**Kimsəyə işıq verməyən günəş, kimsəyə görsənməyən gözəllik kimə və nəyə lazımdı?**
***C.Cabbarlı***

Gərgin əmək fəaliyyətimə on üç yaşımda başladım. Yay tətiliydi. Kətmən götürüb anamla kolxoza getdim. İyun ayının günəşi göydən yerə od yağdırırdı. Aşağıdan pambıq kollarının bürküsü adamı qarsırdı. Heç cür nəfəs almaq olmurdu. Kətmən vurduqca toz qalxır, vəziyyət daha da ağırlaşırdı. Təyyarələr başımız üzərindən belədən-belə uçuşur, gətirdikləri kübrələri üstümüzə səpir, hər tərəf ağ dumana bürünürdü. Heç kim heç kimi görmürdü. Belə hallarda qadınlar üz-başlarını tu-

tur, ağız-burunlarını bağlayırdılar. Handan-hana "ağ duman" yavaş-yavaş çəkilirdi. Yenə ağız-burunlar açılır, kətmənlər işə düşürdü... Evdən gətirdiyimiz yemək-içməyə də zəhər hopurdu... Vəziyyət beləcə davam eləyirdi...

Yorulub-əldən düşən adamları, xəstələnənləri bir gün də olsun evdə qalıb dincəlməyə qoymurdular. Briqadir adamların başının üstünü kəsdirir, bir qədər ləng hərəkət eləyənləri tələsdirirdi. Tapşırığı vaxtında yerinə yetirməyənləri təhqir eləməkdən də çəkinmirdi. Su çatışmırdı. Adamlar səhər işə gələndə özləriylə yarım litrlik şüşələrdə su gətirirdilər. Onlar da bir-iki dəfədə qurtarırdı. Sonra da əlacsız qalıb dərman hopdurulmuş arxlardan, gölməçələrdən su içməli olurdular. Bəzən çox qaldığından suyun rəngi çevrilir, içində müxtəlif növdən olan qurdlar oynaşırdı. Bir neçə gün beləcə işlədim. Bezmişdim. Bir dəfə anama dedim:

— Belə də iş olar? Kolxoz sədri, briqadir oturub kölgədə çay içirlər. Bizsə, gör neyləyirik?

Anam sakit halda cavab verdi:

— Neyləmək olar? Hərənin öz işi var. Bizim işimiz günün altında yana-yana kətmən vurmaq, alaq çəkmək, pambıq dibi götürməkdi. Görürsən, o tərəfdə kişilər də pambıq sulayırlar. Biz oxumamışıq, belə əziyyət çəkirik. Sədr, briqadirsə azdan-çoxdan oxuyublar. Çalış, sən də oxu.

Yaxınlıqda kətmən vuran Nəcabət xala:

— Bu uşaq üçün  kətmən vurmaq çətin olar, — dedi. — Briqadir gələndə onunla danışaq, ona yüngül bir iş tapşırsın. Yoxsa, uşağı gün vura bilər. Həm də dayanmadan, başı aşağı kətmən vurmaq onu əldən salar.

Saat birin tamamında qadınlar nahara çıxırdılar. Nahar tarla düşərgəsində olurdu. Onlar dərdsiz-qəmsiz adamlar kimi iki-iki, iki-üç süfrə açır, hər kəs evindən gətirdiyini çıxarıb süfrəyə qoyur, deyə-gülə iştəhayla yeyib-içirdilər. Nahardan sonra kimlər-





sə zarafatlaşır, kimlərsə də uzanıb gözlərinin acısını alırdılar... Nahar fasiləsindən qalxanda Nəcabət xala briqadirə yaxınlaşdı:

— Ay Tağı, biz dəvəsi ölmüş ərəbik. Dözəcök. Nə iş də var görəcök. Ağarəhim kətmən vura bilməz. Uşaqdı. Ona başqa yüngül iş ver, qoy işləsin.

— Nə iş verim?

— Bir var kətmən vura, bir də var pambıq sahəsinə baxa. Yüngül işi özün bizdən yaxşı bilirsən. Ataların bir misalı var: "Çobanın könlü olsa, təkədən pendir tutar".

— Yaxşı gedin, baxarıq.

Səhər işə gələndə briqadir məni yanına çağırdı:

— Sən kətmən vurmağa getmə. Düşərgəyə tökülən zir-zibili yabayla bir yerə topla. Apar o yanda yandır. Sonra da külün üstünə su səp, sönsün. Külək vurub dağıtmasın.

— Oldu.

Düşərgədə bu işə əslində ehtiyac yoxıydı. Özüm də başa düşürdüm ki, Tağı dayının gözlənilməz tapşırığı sadəcə olaraq başımın qatılmasına yönəlmişdi. Mən tapşırığı yerinə yetirdim. Sonra da gəlib düşərgənin kənarındakı böyük qol-budaqlı söyüd ağacının kölgəsində oturdum. Günortaya yaxın briqadir yenidən düşərgəyə gəldi. Südəmər uşaqlara baxmağa təzəcə təyin olunan Fatma xaladan soruşdu:

— Fatma bacı, susuzluqdan boğazım quruyur. Çayın varmı?

— Hə... Bu saat.

Briqadir də gəlib söyüdün kölgəsində oturdu. Mən tez qalxıb Fatma xalaya köməyə getdim. Onun süzdüyü çayı, qənddanı götürüb briqadirin yanına gətirdim. — Nuş olsun, — deyib kənarda oturdum. Briqadir çay içə-içə dedi:

— Adamların öhdəsindən gəlmək olmur. Hər gün heyvanları buraxırlar başına. Onlar da gəlib camaatın əzab-əzəiyyətlə becərdiyi pambığı yeyirlər. Heyvanların da dili-ağzı yox. Onlara necə qandırasan ki, pambığa camaat əziyyət çəkir, siz də onu

məhv eləyirsiz. Belə eləmək olmaz.

Mən düşünmədən cavab verdim:

— Heyvanları qandırmaq yiyələrindən asan olar.

Gözlənilməz cavab Tağı dayıya necə təsir elədisə, onu bərk gülmək tutdu, çeçidi. İçdiyi çay üst-başını islatdı. Sonra da qayıdıb üzümə baxdı:

— Yaxşı, sənə tarla gözətçisi vəzifəsi versəm, heyvanların öhdəsindən gələ bilərsənmi?

— Hə... Niyə gəlmirəm ki? Hünəri var, bir adamın heyvanı pambığa girsin.

— Neyləyəcəksən? Dalaşacaqsan?

— Yox... Başa salacam.

— A bala, mən onlarla yüz dəfə danışmışam, yığışmırlar.

— Mən yığışdıraram.

— Bu saatdan sən oldun gözətçi.

Tağı dayı çayını içib getdi. Xəbəri günorta anamla Nəcabət xalaya çatdırdım... Beləcə kolxozda əmək fəaliyyətinə başladım.

Hərdən düşünürəm. Bir ömür yaşayırsan. Qarşına xeyirxahlar da çıxır, bədxahlar da. Yaxşılar dünyalarını başa vurub getsələr də, onların xeyirxah əməllərinin izləri yaddaşlara həkk olur. Hər dəfə yada düşəndə böyük rəğbət hissiylə xatırlayırsan onları. Ölümlərinə heyfsilənirsən, kədərlənirsən. Pislərinsə özlərini də, əməllərini də tez unutmağa çalışırsan.

Axşam evə çox böyük həvəslə qayıtdım. Əmim gülümsünərək soruşdu:

— Oğlum, kefin yuxarıdı, eşitdim, sənə vəzifə veriblər?

— Eh... Vəzifəyə bax. Vəzifə sədr olmaqdı. Katib olmaqdı.

— Onlar böyükdü, sən balaca. Hərənin yaşına görə.

— Yaxşı, sən hardan bildin? Tağı dayı dedi, ya anam?

— Heç biri, oğlum, idarədə yaşının azlığına görə baş mühasib narazılıq elədi. Ancaq briqadir ona yaxşı cavab verdi. Cavabı





mənim xoşuma gəldi.

— Necə dedi?

Tağı dərhal bildirdi:

— Mənə pambığı mal-qaradan qoruyan lazımdı. Havayı əmək günü alan yox. Sədr də Tağının sözünü təsdiqlədi. Beləliklə, sən vəzifəndə qaldın.

— Tağı dayı kişi adamdı. Bircə pis işi var.

— Nədi o? İndidən briqadirinə qüsur tutursan? Onda siz birlikdə işləyənməzsiz. Belə getsə, bir gün səni atacaq kənara.

— Atır atsın da. Mən olanın deyirəm. O, düz iş eləmir.

— Axı nədi onun pis işi? De, mən də bilim.

— O, hər gün, hər axşam, havanın sərin vaxtı gəlib qadınları toplayır bir yerə. Adını da qoyur iclas. Hamının vaxtını alır. Adamlar istidənsə, sərində yaxşı işləyirlər.

— Bu sözünlə mən razı. Başqa xoşuna gəlməyən hərəkəti var?

— Var.

— Nədi o?

— Odu ki, danışanda heç kimə söz vermir. Gözlərini yumub danışır. Heç kimi də eşitmək istəmir. Eyni sözü çox deyir.

— Məsələn?

— Kolxoz sədri belə dedi. Sədrlə danışdım. Sədr tapşırdı. Sədrlə getdik. Raykom gəlmişdi. Bunların qadınlara nə dəxli var? Mənə elə gəlir ki, bir az sədrə girişir. Onlar olmasa...

Əmim bərk güldü. Sonra dedi:

— Deyərəm, onları azaldar.

— İşə düşmədim? Deyəcəksən, o da məni gözətçilikdən çıxaracaq. Gedib təzədən günün altında kətmən vuracam.

Aradan bir neçə gün keçmişdi. Pambığa bir neçə qoyun-keçi, iki dana girmişdi. Mən onları aparıb qonşu kəndin yoncasına ötürüb qayıtdım. Axşama yaxın yiyəsi Xəlil heyvanları axtaranda mən ona dedim:

— Heyvanlar qonşu kəndin yoncasında otlayırlar. Onları mən ora apardım.

Xəlil əsəbiləşdi.

— Niyə?

— Pambıqdan yonca yaxşıdı.

Əkdikləri yoncada heyvanların otladığını görən qonşu Çiyni kəndinin adamları onları gəlib aparmışdılar. Sahibini cərimələmişdilər.

Belə hallar bir neçə dəfə təkrarlandığından heç kim heyvanları nəzarətsiz buraxmırdı. Bunu başa düşən Tağı dayı mənə dedi:

— Sağ ol, səndən razıyam. Heyvanları da, sahiblərini də yığışdırdın. Mən də iclasların sayını azaltdım. İclasları axşamdan günortaya keçirdim. Danışanda gözlərimi yummuram. Hamıya söz verirəm. Böyüklərin də adından istifadə eləmirəm.

Məni gülmək tutdu. Əlimi üzümə tutub qaçdım...

Kənddə heyvandarlıq istisna olmaqla, bütün işlər mövsümi olduğundan pambıq qurtaran kimi mənim də gözətçiliyimə son qoyuldu. Heç yadımdan çıxmaz başaq yığdığımız günlər. Kombaynlar taxılı biçir, imkansız camaat önlüklər asıb onların arxasınca düşür, qırılıb tökülən, küncdə-bucaqda ilişib qalan sünbülləri yığır, özləri üçün qış azuqəsi toplayırdılar. Adamları yığım anlarında nə isti, nə də su, aclıq qorxudurdu. Hamının bir istəyi vardı, mümkün qədər çox başaq əldə eləmək. Mən də anam və bacılarımla başaq yığırdım. Günorta bərk susuzladım. Evdən gətirdiyimiz su qurtarmışdı. Yavaş-yavaş dilim, ağzım susuzluqdan quruyurdu. Özüm də başı aşağı başaq yığırdım. Qəflətən başım hərləndi, yıxıldım. Boğulmağa başladım. Bunu görən bacım Gözəl qışqırdı: — Ana, tez gəl, Ağarəhimə nəsə oldu, qardaşım yıxıldı, qardaşıma kömək eləyin... Özünü mənə ilk çatdıran Sitarə xala oldu. O, evdən özüylə gətirdiyi su şüşəsinin ağzını açıb dodaqlarıma söykədi və mənə su içirməyə çalışdı. Başqa





birisi üzümə su səpdi. Məni qucaqlarına alıb yaxınlıqdakı iydə ağacının kölgəsinə apardılar. Təbiətcə sakit olan anamın gözlərindən yaş gilə-gilə olub yanaqlarına axırdı. Bacım alnımın tərini silir, saçlarımı tumarlayırdı. Özümə gələndə bacım dedi:

— Yaxşı qurtardıq, qardaş. Sən bundan sonra başaq yığmağa gəlmə. Qonşumuz Alış atama xəbər çatdırıb. İndi gəlib səni arabayla evə aparacaq.

— Mən indi yaxşıyam. Özüm gedə bilərəm. Gərək atama xəbər verməyəydiz. O da elə biləcək ki...

— Yox... Bilsin də. Sən nə pis iş görmüsən ki? Atam sevinəcək.

Mən təəccüblə bacımın üzünə baxıb soruşdum:

— Niyə?

— Ona görə ki, yaxşı qurtarmısan. Yaşlı qadınlar deyirlər ki, belə halda adam ölə bilər.

— Sən nə danışırsan, ola bilməz.

— Yox, qardaş, elədi. Susuzluq, bir də isti. Bədənindəki su tərlə çıxır, bədən maye tələb eləyir. Su olmadıqda qan qatılaşır, ürək dözmür, çatlayır.

— Bunları sən hardan bilirsən?

— İndi yaşlı arvadlar deyirdilər. Onlar belə şeyləri çox görmüş olarlar...

Elə bu vaxt atamın kolxozun at arabasıyla gəldiyini gördüm. O, çox təntimişdi. Alnının təri gözlərinə axıb tökülürdü. Tərini silib məni qucaqladı. Sonra da arabaya mindirib evə apardı. Bununla da başaq yığımında iştirakıma son qoyuldu...

Mən özümü böyüklərə oxşadırdım. Bəzən yaşıdlarıma da uşaq kimi baxırdım. Yaşlıların oturub durmaları, gördükləri işlər, danışıqları, hadisələrə münasibəti mənə sirayət eləyirdi. Ancaq etiraf eləyim ki, atam mənə örnəkiydi... Yeganə qorxduğum şey atamın məndən narazı qala biləcəyiydi. Ona görə də var gücümlə atamın etimadını qazanmağa çalışırdım. Görəcəyim

işlərin ağırlığı məni qətiyyən qorxutmurdu. Ona görə də aradan bir həftə keçər-keçməz mən xırmana getdim. Biçilən taxıllar maşınlarla xırmana gətirilirdi. Səhərdən axşamadək elevatorlar vasitəsiylə taxıl sovrulurdu. Sovrulduqca da tozu, zir-zibili kənarlaşdırılırdı. Bütün günü toz duman kimi xırmanı bürüyürdü. Xırmanda nəfəs almaq olmurdu. Bir dəfə xırmanın gözətçisi Bədəl kişi mənə dedi:

— Oğlum, sən bu yaşlı adamlara baxma, onlar öyrəniblər toz-torpaqda işləməyə. Sənsə uşaqsan, bu tozlanmış, çirkin hava səni xəstələndirər. Bu işə gəlməsən yaxşıdı.

Mən Bədəl kişinin sözlərindəki səmimiyyəti, xeyirxahlığı duydum. Başımla sözlərini təsdiqlədim. Həmin gün axşama qədər işlədim... Səhər xırmana gələndə Bədəl kişi məni görüb gülümsündü:

— Yenə gəldin?

— Hə... Neyləyim, Bədəl əmi, başqa iş yoxdu.

— Eybi yoxdu, gəlmisən, özünü çox da toz-torpağa soxma. Al bu açarı verim sənə. Susuzlayanda xəlvəti gözətçi otağını açarsan. Orda qaynanmış, təmiz su var, içərsən. Bir az da dincələrsən. Sənin atan yaxşı kişidi. Mən onun xatirini çox istəyirəm.

Mən açarı aldım. Doğrusu, atam barədə Bədəl kişinin dedikləri çox xoşuma gəldi. Axşam kişi deyənləri atama çatdıranda o, gülümsündü:

— Bədəl hamıya qarşı xeyirxahdı, oğlum. Çox sağ olsun.

İnsanlar həqiqətən də cürbəcür olurlar. Pisləri, nadanları, naxələfləri görməsən, yaxşılara qiymət verənməzsən... Bir hadisə indi də yadıma düşəndə halım dəyişir. Az qala özüm-özümə nifrət eləməli oluram. Axşamüstüydü. Hava sərinləmişdi. Elavator taxılı sovururdu. Adamlardan kimisi özüboşaldan maşınların gətirib tökdüyü taxılı qəbul eləyir, kimisi qıraqlara səpələnən taxılları bir yerə toplayır, kimisi də əlində süpürgə xırmandakı toz-torpağı süpürüb bir kənara yığırdı. Gözlənilmədən kimsə





həyəcan içərisində dedi:

— Adə, birinci katib gəlir. Ehtiyatlı olun.

Başımı qaldıranda qabaqda katibin, arxasınca kolxoz sədri və taxılçılıq üzrə briqadirin gəldiyini gördüm. Xatırladım ki, mən katibi ilk dəfəydi ki, görürdüm. Mənim diqqətimi ən çox katib cəlb elədi. Birinci katib xırmanı gəzdi. Gəlib kənara süpürülmüş zir-zibilin iki addımlığında dayandı. Zir-zibil içərisində təqribən bir ovuc taxıl olduğunu gördü. O, qəflətən qışqırdı: — Yanıma toplaşın. Hamımız qorxu, təlaş içərisində katibin qarşısında müntəzir dayandıq və bizə nə deyəcəyini gözlədik. Ağsaqqal Qulam kişi təmkinlə dedi:

— Eşidirik, yodaş katib.

— Baxın zibilin içərisinə. Gözünüz gördü? Dədənizin malıdı, bunu dağıdırsız? Hamınız güllələnməlisiz. Bircə-bircə zibildən dənləyin buğdanı. Gəlib bir azdan özüm baxacam.

Qulam kişi:

— Yoldaş katib, biz bu kolxozun əmlakını heç də sizdən az istəmirik. Onu yığarıq. Ancaq kaş siz anbardan dağıtmayasız.

Katib əsəbiləşdi. Sir-sifəti ağaran kolxoz sədri işçilərə danışmamaq üçün göz-qaş elədi. Briqadir çömlək oturub taxıl dənələrini yığmağa başladı.

Katib Qulam kişini söyüb təhqir elədi. Qulam kişi astadan başını yellədi. — Hesabını bilməyən kəsin qoyununu otarmazlar, — deyib əlindəki kürəyi atdı və getməyə hazırlaşırdı ki, katib qışqırdı:

— Qudurmusan! Baxarsan işinə!

Sonra da üzünü çevirdi bizə:

— Rədd olun, gedin işinizi görün, — dedi.

Sədr çəkinə-çəkinə bildirdi:

— Yoldaş katib, bundan sonra özüm nəzarət eləyəcəm.

— Sən də onların tayısan. Bu sabotajçılıqdı, başa düşürsən, sabotajçılıq?

Doğrusu, o zaman sabotajçılıq sözünün nə olduğunu başa düşmədim.

Birinci katib qabaqda, sədrlə briqadir də onun ardınca getdilər. Səhər işə gələndə eşitdim ki, axşam milislər Qulam kişini evindən çıxarıb aparıblar. Evini yoxlayıblar. Ancaq həyətindən bir ədəd salyarka boçkası tapıblar... Xeyli sonralar eşitdim ki, boçkaya görə Qulam kişiyə məhkəmə iş kəsib. Nə az, nə çox, düz iki il. Öz-özümə düşündüm: insanlıq beləmi olur? Bir ovuc taxıl nəiydi ki, Qulam kişi iki il türmədə yatsın? Katibə niyə söz demək mümkün olmasın? Kolxozun əmlakını dağıdanların başında elə bu birinci katibin özü durmurdumu? Onu da bilirdim ki, Qulam kişiyə tətbiq olunan bu cəza bütövlükdə işçilərin, kənd camaatının gözlərini qırmağa yönəlmişdi... Eynən buna bənzər hadisə pambıq toplanışı zamanı da olmuşdu. Həmin birinci katib guya pambığı yaxşı qurutmadıqlarına görə xırman işçilərini söydü. Kişilərin cavab verə bilmədiyini görən Firuzə xala katibə dedi:

— Biz yaşamırıq, sürünürük, siz də gəlib başımızın üstündə dayanıb hönkürürsüz. Bəlkə də siz pambıq nə olduğunu bilmirsiz. Ancaq gəlib min bir əzab çəkən, gözləriylə od götürən günahsız camaatı təhqir eləyirsiz.

— Sən deyəsən, məni yaxşı tanımırsan? Get pambığını yığ.

— Niyə tanımıram? Üzünə baxan kimi kimliyin məlum olur. Mən əkib-becərdiyim pambığı yığıram, arxeyin ola bilərsən, həyətimdə salyarka boçkası da yoxdu, məni, ya ərimi tutdurasan. Səni bura göndəriblər, gəlmisən. El atası olmaqdansa, adamları şərlədib tutdurursan. Qulam kişiyə hamının gücü çatardı.

— Sən Qulamın nəyisən?

— Heç kimi. Biz adamıq. Qulam ömrü boyu işləyib, vuruşub bu kənd üçün. Sən gəldin, neylədin? Əyinə şalvar geymək hələ kişiliyə dəlalət eləmir.

Kolxoz sədri söhbətə qarışmaq istəyəndə Füruzə xala onun





da sözünü kəsdi:

— Sən get öz işinə. Qulamı müdafiə eləməyə kişiliyin çatmadı. Çatsaydı, onda ərizəni verib çıxardın. Tüpürərdin elə işə.

Acınacaqlı vəziyyətdə qalan birinci katib kolxoz sədrini gözləmədən dinməz-söyləməz, ancaq acıqlı-acıqlı maşınına oturdu. Maşın dərhal sürət götürdü.

Füruzə xalanın sözləri ürəyimcə olsa da, qorxdum ki, bu birinci katib onu da şərlədə bilər. Ancaq o elə olmadı. Mən bir daha o birinci katibi görmədim. Lap sonralar eşitdim ki, bizim dəlisov, çılğın, bir az da insanlıqdan uzaq hisslərlə yaşayan katibimizi işdən azad eləyiblər.

## MƏHBƏSDƏ

**Hər bir insan müqəddəs tarixdir.**
***Penn***

**Həyatın dözülməz olmaması üçün iki şeyə alışmaq lazımdır: zamanın vurduğu yaralara və adamların ədalətsizliyinə.**
***Şamfor***

Yaxşı yadımdadı... 1952-ci ilin payızı idi. Nə yayın yandırıcı günəşindən, adamı qarsalayan isti nəfəsindən, nə də qışın sərt soyuğundan, dondurucu şaxtasından əsər-əlamət var idi. Göydə gah tez-tez sıxlaşan, gah da parçalanan ala-tala buludlar havanın ilğımını pozurdu. Bağlara, bağçalara təşrif gətirən payızın sərin yeli ağacların gövdəsini, budaqlarını yalayır, çiçəklərin canına üşütmə salırdı. Saralan, bəzən də qızaran yarpaqlar utandıqlarındanmı, acıqlarındanmı ürkə-ürkə doğma budaqlarından ayrılaraq, sızlaya-sızlaya yerə qonur, zərif naxışlarla

adamı heyrətləndirici, cazibədar bir xalı toxuyurdu. Ağacların koğuşlarında, yarpaqların arasında eşənək atan, yem axtaran boz sərçələr, qaratoyuqlar bir təhlükə hiss edən kimi civildəşə-civildəşə tez-tez uçub yerlərini dəyişir, kiçik qurdlarla, bitki toxumları ilə çətənəklərini doldurmağa çalışırdılar.

Payızın getdikcə sərtləşən ab-havası, yağışlı-yağmurlu günləri adamları da yavaş-yavaş çöl, tarla işlərindən yığışdırar, isti tövlələrdə mal-qaraya, toyuq-cücəyə qulluqla məşğul edərdi. Günlər qısaldığından qonşu Qəzyan kəndində dükanda satıcı işləyən atam hər səhər qara kəhər atını minərək işə gedər, axşamlar qaş qaralanda evə qayıdardı. Bəzən də o, işdən gec gələndə məndən bir yaş kiçik bacım Gözəl, üç yaş kiçik olan qardaşım Əli yatmış olardı. Nə qədər yorğun olsa da, atam onlara yaxınlaşar, çox ehtiyatla üzlərindən öpər, "Yuxunuz şirin olsun", — deyərdi. Tez gedib, gec gəlməyə ailənin bütün üzvləri, elə atamın özü də adət eləmişdi...

Cicim bacısıgilə qonaq getdiyindən mən bu gecəni ata-anamın yanında qalmışdım. Zəncirlə tövlənin qapısı ağzına bağlanmış it qəfil hücum çəkərək, dartına-dartına hürməyə başladı. Atam tez yataqdan qalxdı. Tələm-tələsik paltarlarını geyərək həyətə düşdü və itə acıqlandı. İt atamın səsini eşidən kimi hürüşünü kəsdi. Atam həyətdə heç vaxt səslərini eşitmədiyim yad adamlarla danışırdı. Az sonra o, evə qayıtdı. Bərk üşüyürmüş kimi bədənini silkələməyə başladı, sonra da anama müraciətlə:

— Mən gedirəm, deyəsən, dükanı yarıblar. Bütün malları aparıblar.

Anam:

— Kim? — deyə xəbər aldı.

Atam:

— Bilmirəm, — deyə cavab verdi.

Atamın rəngi ağappaq ağarmışdı. Üz-gözündən, sifətindən qorxu-həyəcan duyulurdu. Doğrusu, mən heç vaxt onu belə görməmişdim. Mən də yataqdan qalxıb geyindim.





Atamla biz də evdən çıxdıq. O, həyətdə — Uşaqlardan muğayat ol, — deyə anama üz tutdu. Sonra da gedib həyətdə onu gözləyən adamlarla küçədə dayanmış yük maşınının kuzovuna mindi. Sürücü mühərriki işə saldı, heç bir dəqiqə keçməmiş maşın yerindən tərpəndi. Sürətlə hərəkət edən maşın yaxınlıqdakı tini burulub gözdən itdi. Az sonra maşının səsi də eşidilməz oldu.

Hava soyuq olsa da, mən üşümürdüm. Anamın bədəni titrəyirdi. Doğrusu, əvvəl buna elə bir kəskin məna vermədim. Ertəsi gün atam evimizə qayıtmadı. Anam məsələnin nə yerdə olduğunu mənə izah edəndə onun dünən gecə titrəməsinin səbəbini də anladım. Stalin rejiminin sərt qadağalarını dərk etməyə başladım.

Bir neçə gün keçmişdi. Hava bərk soyuq idi. Axşam qaranlığı düşürdü. Qabaqda kənd sovetinin katibi, yaxın qohumumuz Ağarza, arxada həm mülki paltarda, həm də əyninə sovet milis forması geymiş adamlar bizə gəldilər. Mən və anam onları həyətdə qarşıladıq. Ağarza salam verərək dedi:

— Zəhra bacı, müfəttişlər sizin evdə axtarış aparacaqlar.

Anam:

— Buyurun, — deyə cavab verdi.

Ağarza ayaqlarını sürüyə-sürüyə, üz-gözü pörtmüş halda otağa daxil oldu. Tanımadığımız, üzlərini ilk dəfə gördüyümüz adamlar da onun ardınca içəri keçdilər. Yorğan-döşəyi evin ortasına — döşəməyə tökdülər. Evin divarlarını süngü ilə deşik-deşik etdilər. Çamadanları, anamın cehiz sandığını axtardılar. Əllərinə bir şey keçmədikdə anamdan beşaçılanın, tapançanın, dükandan aparılan parçaların yerini soruşdular. Hədə-qorxu gəlməyə başladılar. Anamdan bir söz qopara bilmədiklərindən milis forması geymiş yoğun, yekəpər, oynaqgözlü, çopur bir kişi məni kənara çəkərək:

— Sən yaxşı oğlansan, — dedi. — Yalan danışana da oxşamırsan. Atan beşaçılanı kimə verib, dükandan gətirdiyi parçaları hara yığıb?

Mən çiyinlərimi çəkdim. Sonra da ağlaya-ağlaya: — Görməmişəm, bilmirəm, — deyə cavab verdim. Bu anda Ağarza dilləndi:

— Əşi, buraxın uşağı. Mən sizə dedim ki, bu kişidə heç bir şey yoxdu. İnadınızdan dönmədiz. O, siz deyən adamlardan deyil.

Hamıya göstəriş verən, mülki paltar geyən qara, uzun kişi: — Sən saxla, danışma, — deyə Ağarzanın sözünü yarımçıq kəsdi.

Əllərinə bir şey keçməyən axtarışa gələnlər bağ-bağçaya göz gəzdirə-gəzdirə həyət qapısından çıxdılar.

Atamdan xəbər-ətər yox idi. Ondan ötrü bərk darıxmışdım. Hərdənbir bacım da, qardaşım da, "Atamı, atamı" — deyə ağlaşırdılar. Hər dəfə anam da, cicim də "Gələcək", — deyə onları sakitləşdirməyə çalışırdılar.

Yarıac dolanırdıq. Evimizdə palaz-paltarı, anamın dayısı evindən gətirdiyi cehizləri, cicimin baramadan əlgi ilə açdığı saplardan toxuduğu döşək üzləri satılmışdı. Atamın həbsindən sonra anam ailəni dolandırmaq üçün gündüz kolxozda işləyirdi. Yeməyə bir şey olmadığından dovğa bişirib, heç kim bilməsin deyə günorta naharını evdə eləyirdi. Ailəmizin sirrini heç kəsə verməzdi... Gecə ay işığında həyətdə yer belləyir, tərəvəz, bostan əkmək üçün yaza hazırlıq işləri görürdü. O, nə qədər dözümlüydü. O, indi evin həm kişisi, həm də qadını olmuşdu.

Atamın həbsindən üç aydan artıq vaxt keçirdi. İlk dəfə idi ki, ondan məlumat almışdıq. Bu xəbəri atamın böyük qardaşı Sadıq əmim gətirmişdi və sabah onunla görüşə gedəcəyimizi bildirəndə, anama, cicimə, əmimə yalvarırdım ki, məni də özləri ilə aparsınlar. Onlar etiraz etmədilər. Görüş üçün sevindiyimdən səhərə qədər yataqda eşələndim. Gözlərimi yuma bilmədim. Anamla cicim atam üçün hazırladıqları xörəkləri, sacda bişirdikləri fətirləri, atamın əlləri ilə əkilən ağaclardan dərilmiş nar və heyvaları, təzə alt paltarlarını, papiros qutularını, diş fırçasını zənbilə yığdılar.





Səhər açılanda əmim qapımızı döyəclədi. Hamıdan tez mən ayağa qalxdım: — Əmim gəlib, getməliyik, ayağa qalxın, — deyə qışqırdım. Əlini və Gözəli əmidostuma tapşırıb atamla görüşə anam, cicim, əmim və mən getməli olduq.

Evdən çıxanda göyün üzünü qara buludlar almışdı. Seyrək yağış yağmağa başlamışdı. Yağış getdikcə gurlaşır, su yolları, cığırları basırdı. Adamlar qaçaraq damların quraqlıqlarında daldalanırdılar. Elə bu vaxt yanımızda kuzovuna çadır çəkilmiş bir yük maşını dayandı: — Rayona gedirsiz, gəlin, əyləşin, — deyə sürücü səsləndi. Maşının kabinəsində bir yaşlı qadın əyləşdiyindən, hamımız kuzova mindik.

Rayon mərkəzində yerləşən milis şöbəsinə çatanda yağış da ara vermişdi. Əmim növbətçiyə: — Biz Nüsrətlə görüşə gəlmişik, mən onun qardaşı, bunlar onun ailəsi və bacısıdır, — deyə bildirəndə, növbətçi: — İcazəni müstəntiq verir, onunla danışın — cavabını verdi və bizə dəhlizdə dayanmamağı tapşırdı.

Əmim axşama yaxın çox çətinliklə müstəntiqdən razılıq ala bildi. Biz soyuq bir otaqda atamla görüşdük.

Həddən artıq arıqlayan və üzünü tük basan atamı tanımaq olmurdu. Onunla bir neçə dəqiqə söhbət etmişdik ki, növbətçi: — Vaxtınız bitdi, — deyə atama işarə etdi və ona gətirdiyimiz ərzağı qəbul etməyə razılıq vermədi. Atam yalnız papiros qutularını götürdü, sonra da öpüşüb-görüşüb bizdən ayrıldı.

Atam özünü çox təmkinli aparırdı. Ancaq mənimlə görüşəndə səsi titrədi, gözlərimə baxmaqdan çəkindi, dönüb növbətçiyə tərəf addımladı.

— Ata, — deyə onun arxasınca qışqırdım. Əmim dərhal qolumdan tutub məni özünə tərəf çəkdi və "Gedək", — dedi.

Biz milis şö'bəsindən çıxarkən küçədəki soyuq hava üz-gö-

zümüzü yalamağa başladı. Haçandan-haçana özünə gələn əmim üzünü bibimə tutaraq:

— Gecdir. Kəndə getmək üçün maşın tapmayacağıq. Siz burda gözləyin, mən bir maşın gətirim...

Biz qaş qaralanda kəndə çatdıq. Bu görüş məni çox sarsıtdı...

Atamla ikinci görüşümüz Gəncədə (keçmiş Kirovabadda) oldu. Həmin görüşdə atamın qıçlarını qucaqlayıb ağlamağa başladım və dedim:

— Mən də səninlə qalacam. Heç yerə getməyəcəm.

Atam da özünü itirmişdi. O, məni bağrına basdı. Əlləri, bütün bədəni buz kimi soyuq idi. Gözlərindən ailə, övlad həsrəti lap aydın oxunurdu. Anamın hazırladığı yeməkləri, bazar və dükandan aldığı ərzağı bu dəfə atama verə bildik. O: — Bu yaxında bizim məhkəməmiz olacaq, zəhmət çəkib gəlməyin, — dedi...

Çox keçmədi ki, rayonda atamın məhkəməsi başlandı. Atamdan başqa, iki nəfər də mühakimə olunurdu. Zal tanış-bilişlə, qohum-qardaşla dolmuşdu. Məhkəmə prosesi axşamadək davam etdi. Prokuror saxta faktlarla mühakimə yürüdür, qondarma şahidlər dindirilir, vəkillər çıxış edirdilər...

Atamın şahidi dindiriləndə zalda əyləşənlərdən kimsə: — O, yalan danışır, böhtan atır! — deyə qışqırdı.

Prokuror çox sərt halda:

— Bu saat səni həbsə alacam, — dedi. — Dur, zalı tərk et.

İki milis nəfəri məhkəməyə özbaşına müdaxilə edən bu adamı zaldan çıxartdı. Axşamadək davam edən məhkəmədə hər üç müttəhimə müstəsna cəza — güllələnmə hökmü verildi. İki milis işçisi qolları bağlı məhkumları zaldan çıxartdı. Lakin müttəhim kürsüsündən atam mənimlə, mən də məhkəmə zalında onunla xudahafizləşməli olduq.

Adamlar zaldan çıxmaq istəmirdilər. Bizimkilər: əmim, bibim, anam, cicim ağlayırdılar... On səkkiz kilometrlik rayon





mərkəzindən kəndimizə gələnədək iki dəfə anamın ürəyi sıxıldı. Bütün hadisələrə təmkin və soyuqqanlıqla yanaşan cicim anamı bərk-bərk qucaqlayıb, əlləri ilə saçlarına sığal çəkirdi. Mən: "— Qurban olum, özünə gəl, atam gələr, tələsmə, sil gözlərinin yaşını, ana", — deyə yalvarırdım.

Evə çatıb maşından düşəndə qohum-qardaşlar, kənd camaatı bizi dövrəyə aldılar. Bibim özünü saxlaya bilmədiyindən, ağlaya-ağlaya dedi:

— Qardaşıma ölüm hökmü oxundu. Ona güllələnmə verildi.

Əmim cicimin, əmidostum anamın qolundan tutub evə apardılar. Bacımla qardaşım da səbəbini anlamasalar da ağlayanlara qoşulmuşdular.

Məni qəribə hiss bürüdüyündən nə edəcəyimi özüm də bilmirdim. Ağlamağı da bacarmırdım. Sanki bu faciənin mənimlə heç bir əlaqəsi yox idi.

Xudaya, bu hisslər məni haradan tapmışdı? Məhkəmənin atama güllələnmə hökmü çıxarmasına inanmırdım. Bəlkə, mən yatmışdım? Gördüklərim yuxuydu? Bilmirəm...

## GÖZ YAŞLARI

**Ağıl ehtirasların ədalətli hakimidir.**
***Helvetsi***

**Ey bəşər! Ağıl sənin sərmayən, yer və göy sənin cövlangahındır. Hər şey səndən ötrüdür. Bircə yüksəklərə qalxmaq gərək, o da səndən asılıdır.**
***Ş.M.Şəbüstəri***

Axşamdan xeyli keçmişdi. Bizə toplaşan qonşular, yaxın-uzaq qohumlar yavaş-yavaş evlərinə dağılışırdılar. Sonuncu çıxan əmim oldu. Onu yola salıb həyət qapısını bağladım və həyətdə bir az gəzinmək istədim. Ayaqlarım sözümə baxmırdı. Göyün üzü ayazıyır, şaxta şiddətlənir, az qala adamın iliyinə işləyirdi. Səmada parlayan yarımqövsü ay tələsirmiş kimi üfüqə doğru dığırlanırdı. Sayrışmaqda olan ulduzlardan bəziləri çox çəkmir ki, ya sönür, ya da öləziyirdi. Yolların, cığırların palçığı donur, donduqca da daşlaşırdı. Bağ-bağçanı, çal-çəpərin üstünü, ağacların budaqlarını qırov bürüyürdü.

Soyuq mənə də təsir eləməyə başladı. Əlacsız halda evə getdim. Anam, cicim, bibim, qardaşım və bacım evdə idi. Qardaşım döşəmə üstündə, bacım isə anama sığınıb oturaq halda yatmışdılar. Köhnə taxta çarpayıda qardaşımla bacıma yatacaq yeri hazırladım. Onları çarpayıya qoyub, üstlərinə yorğan atdım. Sonra da cicimin yanındakı döşəkçənin üstündə əyləşdim. O, mənim qəlbimi ovundururmuş kimi, başımı sığallayıb saçlarımdan öpdü:

— Daha böyük kişidir, — dedi.

Mən dağlar ağırlıqda dərdimizi də, cicimin qəlbimi ələ almaq istəyini də, onların keçirdiyi sarsıntıları da, ümidlərinin qırıldığını da hiss edirdim, anlayırdım. Sadəcə olaraq, anam, bibim, cicim kimi ürəyimdəkiləri dilimə gətirə bilmirdim. Bu sıxıntılı, tükürpədici gecədə anam deyir, cicimlə bibim ağlayır, cicim deyir, anamla bibim... göz yaşları axıdırdılar. Hərdənbir bibimin cingiltili və iniltili səsi beynimə işləyirdi. Elə bu anda bütün fikrimi, düşüncəmi dağıdan suallar məni yaxaladı: ölüm hökmü altında yatan adam indi nə düşünür? O, hansı hissləri keçirir? Bu müdhiş gecədə yatdığı kamerada atam təkdimi? Aman Allah, ölüm hökmündən sonra kamerada tək qalmaq məzara diri-diri atılmaq deyilmi? Adamlar niyə bu qədər amansız və qəddar olurlar, İlahi?! Atamın vəziyyətini düşündükcə sarsılırdım. Bədənim od tutub yanırdı. Ağlamaq istəyirdim, ancaq bacarmırdım. Nə edəcəyimi bilmədiyimdən acizləşirdim...

Mən cicimlə qalırdım. Yaşadığımız ikiotaqlı mənzil bağın aşağı tərəfində yerləşirdi. Hər iki otağın qapı və pəncərələri eyvana açılırdı. Bundan başqa otaqdan-otağa keçmək üçün bir ara qapı da var idi. Buna zarafatla "gizli yol"da deyirdik. Sakitcə oturduğum yerdən qalxıb:

— Yataq otağına gedirəm, — deyə bildirdim. Otaqda köhnə bir stol, ətrafında isə üç stul qoyulmuşdu. Qapı və pəncərələrdən nimdaş, bir neçə yerdən süzülmüş, ancaq zərif naxışlı pərdələr asılmışdı. Qapı və pəncərələrə əks olan divarda ata nənəmin toxuduğu köhnə, amma zərif naxışlarıyla insanı heyrətləndirən xalça vurulmuşdu. Bu xalça nurani nənəmin kamal dünyası idi. O, nənəmin arzu və amalından, müdrikliyindən xəbər verirdi. Həmişə taxta çarpayıma uzanıb nənəmin bu yadigarına baxmaqdan doymurdum. İllər keçsə də, öz təravətini, rəngini itirməyən xalçada oxuyub-yazmağı bacarmayan nənəmin barmaq izlərini axtarır, məhəbbət dolu həyat sevgisini duymağa, təfəkkur tərzini, daxili aləmini mənalandırmağa çalışırdım. Dünya görmüş nənəmin atdığı hər ilmə, vurduğu hər naxış bir sənət abidəsiydi. Onun zərif saplarla, parlaq boyalarla böyük

rəssamlıq, bəstəkarlıq istedadını andıran əl işləri səxavətli və rəhmdil Tanrının istəyindən yaranmışdı. Hər dəfə bu xalçaya baxanda deyirdim: "Əhsən sənə, mənim nənəm. Bu əlvan naxışlarda sənin böyüklüyün, əzəmətin görünür, ürəyinin genişliyi, açıqlığı hiss olunur, zümzümələrin eşidilir, mənim nənəm! Sən sənətinlə ölməzsən, bir dünyasan. Hamıdan ucasan... Sənin ruhun qarşısında baş əyirəm, nənə. Ancaq bu gün neyləyim ki, sənin yaratdığın ecazkar sənət dünyasının qapısından belə girməyə gücüm çatmır!.. Bağışla məni, ona baxa bilmirəm. Bu, sənə etinasızlıq deyil... Bağışla məni!.. İndi sən ömrünü yaşasaydın, atamın fəlakətlərinə dözə bilərdinmi?"

Beləcə fikirlər burulğanında boğulurdum. Yatmışdımmı, oyaqdımmı? Bilmirəm... Birdən ildırım sürəti ilə pəncərədən düşən gur, gözqamaşdırıcı işıq seli divardan asılmış xalçanın üzərində böyük sürətlə halə yaradıb otağa yayıldı. Hansı qüvvə isə məni uzandığım çarpayıdan qaldırdı, sonra da astaca yatağıma qaytardı. Məni dəhşətli qorxu bürüdü. Qışqırmaq istədim. Sanki ağzımda dilim, damarlarımda qanım donmuşdu. Ayağımdan başımadək bədənimdən gizilti keçdi. Bu anda başımın üstündə bir nəfərin dayandığını hiss etdim. Adamı xoşhal edən səslə o: "— Yatmısan?" — deyə soruşdu. Dərhal qorxu hissim yoxa çıxdı.

— Yox, yatmamışam, — deyə cavab verdim.

— Onda çox fikirləşmə, dur, səni atanın yanına aparacam.

Mənə elə gəldi ki, bu nurani, məğrur, aqil bir qocanın səsidi. Çox çalışıb üzünü görə bilməsəm də, səsi, ağır və təmkinli hərəkətləri təsəvvürümdə həmin şəxsin nurani, rəhmdil qoca obrazını yaratdı.

Yatağımdan qalxdım. Biz dar və qaranlıq bir tunellə gedirdik. Qoca qabaqda, mən arxada. Onun yolu hardansa işıqlandırılırdı. Lakin bu işığın nə istiqamətini, nə də mənbəyini görə bilirdim. Gedib atam yatan kameraya çıxdıq və qapı öz-özünə açıl-





dı. Kamera çox dar və səliqəsiz idi. Orada bir dəmir çarpayı qoyulmuşdu. Çarpayının üstünə qara, çirk basmış pambıq döşək, köhnə adyal sərilmişdi. Darıxdırıcı bu kameranın dəmir setkalı çox kiçik nəfəsliyi vardı. O da hündür olduğundan çölə boylanmaq mümkün deyildi. Qaranlıq və rütubətli bu kameraya nəfəslikdən gələn işıq, hava azlıq edirdi. Üst paltarlarını soyunmadan çarpayıya uzanıb, gözlərini tavana zilləmiş atamın bir əli sinəsində, o biri əli isə çarpayının kənarından sallanmışdı. Sanki quru cəsədi xatırladırdı.

Atamı görcək kameraya girdim. Ancaq ona yaxınlaşa bilmədim. Bu anda kameranın nəfəsliyindən güclü işıq seli içəri axdı, atamı nura qərq elədi, gözlərim qamaşdı. Atam bizi görcək yorğun-yorğun, asta-asta ayağa qalxdı. Mən onu qucaqlamaq, evimizdə anamın, cicimin, bacı-qardaşımın onun üçün göz yaşları axıtdığını demək istədim. Lakin yenə bacarmadım. Nə isə mənə mane olurdu, həsrətlə üzümə baxan atamın dodaqları səyriyirdi, nə isə demək istəyirdi. Ancaq o da bacarmırdı. Bu vaxt çiynimdə bir əlin gəzdiyini hiss etdim. Arxamda dayanan qoca — onun nə vaxt yerini dəyişdiyini hiss etməmişdim — gülümsəyərək: — Tezliklə görüşərsiniz, — dedi.

Qocanın sözlərinə ürəkdən inandım və ona tərəf çevrildim. Artıq o, yox idi. Ardınca qaçmaq istədim, hara çəkildiyini bilmədiyimdən özümü itirdim.

Kameranı işıqlandıran, atamı nura qərq eləyən işıq seli nəfəslikdən içəri hansı sürətlə axmışdısa, elə həmin sürətlə də süzülüb getdi. Artıq atam da yox idi...

Yataq otağında baş verənləri düşünəndə indi də dəhşətə gəlirəm. Bu, həqiqətdimi, yuxudumu, bilmirəm. Bu görüş mənə əvvəl sevinc gətirsə də, sonradan ürəyimi sıxmağa, bədənimi əsdirməyə başladı.

Sap kələfi kimi beynimdə çözələnən, gah da düyünlənən düşüncələrim mənə rahatlıq vermirdi. Nədənsə, düçar olduğu bu

faciədə atamın günahsız olduğunu düşünürdüm. Ancaq nə fayda! Günahsız atamın taleyi təsadüflərin burulğanına düşdüyündən, hey fikirləşirdim. Öz-özümə suallar verdim. Ancaq onların məntiqi cavabı tapılmırdı ki, tapılmırdı.

Yavaş-yavaş çarpayıdan qalxdım. Yanmayan otağın çiy kərpicdən hörülmüş divarları məni özünə çəkirdi. Soyuğa və daxili sarsıntıya dözə bilməyib anamgilin yanına qayıtmaq istədim. Dəhlizə çıxdım. Kiçik kerosin çırağının zəif işığı anamgil olan otağın pəncərəsindən dəhlizə, oradan da həyətdəki şah budaqlı tut ağacının üstünə süzülürdü. Pəncərəyə yaxınlaşdım. Cicim dəmir maşa ilə axşamdan yandırılmış ocağın külünü eşirdi. Anam isə dəsmalı alnından çəkmişdi. Bibim qardaşının sarı gülləri olan parça ilə üzlənmiş kiçik balıncını bərk-bərk qucaqlayaraq oturmuşdu. Onun hərdən bir başını yelləyərək — "Bacın ölsün, can qardaş", — deməsi eşidilirdi. Bu kimsəsiz, zavallı qadınların ağlamaqdan, göz yaşları tökməkdən savayı özgə çarələri yox idi.

Eh insanlar, insanlar!.. Qəribə məxluqlarıq... Əlimiz hər tərəfdən qırılanda, yükümüzü özümüz çəkə bilməyəndə o böyük Yaradana imdad gətirir, ona sığınır, ondan kömək diləyirik. Səbrinin böyüklüyünü unutduğumuzdan bəzən ona asi də kəsilirik. Çox vaxt qüdrətinə şükürlər dilədiyimiz o Ulu Tanrının bizi özümüzdən yaxşı tanıdığını unuduruq. Axı, deyirlər Allah öz sevimli bəndələrini sınağa çəkir. Yaratdıqlarının özünə olan sədaqətini, etibarını üzə çıxarır ki, başqaları da ondan ibrət götürsünlər. Bu, bəlkə doğrudan da belədi. Atam da, nə vaxtsa, bəraət alacaq, öz evinə, ailəsinə qayıdacaq. Yenidən onunla görüşəcəyik. Bacımın, qardaşımın üzləri güləcək, onlar sevinəcəklər. Yetim adı üstümüzdən götürüləcək. Anamla cicim evimizdə şadyanalıq süfrəsi açacaqlar...

Eh insanlar, insanlar..! Biz öyrənmişik ürəyimizlə danışmağa!.. Sən çox rəhmlisən, xeyirxahsan, Qoca. Mən səni bir də





görmək istəyirəm. Sənə deyiləsi sözüm var, Qoca! Yalvarıram, gəl, məni bir də atamla görüşdür. Atamın gələcəyi doğrudurmu? Mən bu sirri anama, cicimə, bacıma, qardaşıma açımmı? Onlar mənim sözümə inanarlarmı ki, həqiqətən biz tezliklə atamla görüşəcəyik. Yox, qorxuram, Qoca! Bu sirri aça bilmərəm...

Açılması müşkül olmayan sirlər, dolaşıq fikirlər, məntiqsiz düşüncələr mənə rahatlıq vermirdi ki, vermirdi. Gecənin bu vaxtında hara gedəcəyimi, kimdən imdad istəyəcəyimi ağlıma belə gətirə bilmirdim. Nə etməli? Bu dağlar ağırlıqda dərdi kiminlə bölüşməli? Buna nə ad vermək olar? Dükan yarılır, parça-paltar oğurlanır, dövlətə milyonlarla zərər vurulur, quldur dəstəsi tapılmır ki, tapılmır... Yüngül vasitələrə əl atılır. Oğrular, xalq düşmənləri tapılıb mühakimə olunmaq əvəzinə, namuslu adamlar həbs olunur, onlara ən ciddi cəza — güllələnmə hökmü kəsilir... Ailə məhv olur... Əcəb məntiqdir. İlahi, hansı normal dövlətdə belə ədalətsizlik olar? Qanun pozulur, haqq-ədalət tapdalanır...

Xudaya, insanlara dərdi verəndə də tonlarla verirsən. Ağrılı-acılı dünyanın insanı için-için yandıran dərdlərinə dözmək necə də çətindir...

Səhərə az qalırdı. Birdən anamın vahiməli səsi qulaqlarımda guyuldadı. Sanki ürəyim qırıldı. Qıçlarım, bütün bədənim əsməyə başladı. Çox çətinliklə anamgil olan otağa daxil oldum.

Çıraq öləzimişdi. Otağı alovun zəif dili alatoran işıqlandırırdı. Bu alatoranda otaq qəflətən zülmətə döndü. Bu qaranlıqda ancaq anamla bibimin, bir də yuxudan hövlnak qalxan qardaşımla bacımın heyrət içərisindəki qışqırığı eşidilirdi. Mən qaranlıq otaqda heç nə anlamadığımdan heyrətləndirici, qarma-qarışıq səslər içərisində çaşıb qalmışdım. Səslərin içində yalnız cicimin səsi eşidilmirdi. Artıq hiss edirdim ki, baş verən hadisə ciddidi. Mən: — Səsiniz aləmi götürməsin — dedikdə, bibim:

— Yandı, yandı! — deyə qışqırdı.

Mən:

— Nə yandı? Kim yandı? Alov söndürüldü də.

Bibim:

— Cicin yandı əmilərini çağır gəlsinlər.

Həmişə soyuqqanlı olan, ən çətin anda təmkinini itirməyən cicim ayağa qalxarkən ürəyi qısıldığından üzü üstə gerosin çırağının üstünə yıxılmışdı. Bu anda çıraq aşdığından evdə yanğın baş verdi. Alov cicimin üst-başını bürüyür, üz-gözünü, əllərini qarsıyırdı. Özünü itirməyən bibim cicimi pambıqdan toxunmuş palaza bürüyərək, alovun üstünü örtdü və onu çətinliklə yanğından xilas edə bildi.

Anam o biri otaqdan kerosin çırağını gətirməyi tələb etdi. Mən çırağı yandırıb otağa gətirəndə ayağım döşəməyə sərilmiş kilimə ilişib büdrədim. Çətinliklə də olsa, müvazinətimi saxlaya bildim. Lakin çırağın lampası düşüb sındı. Piltəsindən qara gur his, tüstü otağı bürüməyə başladı. Piltədən qalxan alovun dili aramsız titrəyirdi. Tüğyana gələn hiss-həyəcan həddini aşırdı. Anam üçüncü lampanın ardınca getdi və tezliklə qayıdıb onu çırağa qoşdu. Ev işıqlandı. Haçandan-haçana özünə qayıdan cicimin rəngi ağ qarı andırırdı. Saçları ütülmüş, əldə toxunmuş yun jaketin yaxası yanmışdı. Sinəsi, əlləri, boğazı qarsımışdı. Sanki üz-gözü ütülən, boynu, sinəsi yanan cicim deyildi. O, bütün ağrılarını unudaraq, əmisi oğluna, onun acı taleyinə yanıb yaxılırdı.

Mən heç vaxt onu belə görməmişdim. Təbiətən susmağı danışmaqdan üstün tutan, dünyanın dərdi-sərini çiyinlərində çəkməyi bacaran bu zavallı qadının indi necə gərgin psixoloji hansı hal keçirdiyini başa düşmək çətin deyildi.

Döşəmədə kilimin üstünə yıxılıb qalan cicim bibimin köməyi ilə durub əyləşdi, sonra da bir qədər geri çəkilərək astadan dedi:

— Şükür sənin məsləhətinə, Allah! Biz hansı qəbahətin sahibiyik? Kimdir bizim evimizi yıxan? Özün haqsan, Allah! Sənin böyük qüdrətin var. Göstər, o böyük qüdrətini... Möcüzə yarat... Qurtar bu binəvanı, bu yazığı o zindandan! Qaytar evinə, ailəsinə, balalarının yanına o günahsızı. Axı sən adilsən, alisən, mənim Allahım! Mən sənə güvənirəm. Nüsrətin balalarına yetimliyi rəva qılma! Balalarını qəlbisınıq, boynubükük, gözüyaşlı eləmə. Özün kömək ol, qadir Allah!





Cicim danışdıqca için-için alovlanır, yanır, qovrulurdu. Birdən hönkürtü ilə ağlamağa başladı. Mən də dizi üstə çöküb onu qucaqlayaraq hönkürdüm. Əli ilə Gözəl də hərəsi anamın bir tərəfindən asılaraq göz yaşı tökürdülər.

Deyirlər, insanlar əməllərinə görə qismətlərini tapır, talelərini biçirlər. Bəs bu ailə? Bütöv bir ailənin günahı nədir? Əli, Gözəl nə üçün göz yaşları tökməliydilər? Suallar bir-birindən doğduqca, onların məntiqi cavabı yoxıydı. Biz, elə bil, Allahın qəzəbinə gəlmişdik... Görəsən, bu qəzəb haradan doğmuşdu?!

Eh, tale, tale!.. Bəzən insanı dünyanın ən böyük xoşbəxti edirsən! Bəzən də faciələrlə qarşılaşdırıb ürəklərini dağların tab gətirə bilmədiyi əzablarla, ağrı-acılarla yükləyirsən. Belə olmasaydı, nəydi atamın günahı? Nə üçün axıdılmalıydı anamın, cicimin göz yaşları? Balaca bacı və qardaşımın boynubükük, qəlbisınıq qalmasına kim rəvac verib, Ulu Tanrım?

Bax beləcə, düşünə-düşünə, sızlaya-sızlaya səhərin nə vaxt açıldığını hiss etmədik. Lakin əmilərim, onların ailələri sübh erkən həyət-bacanı sahmana salır, təsəlli vermək üçün gələnlərə oturacaq yeri hazırlayırdılar. Əmim qızları həyət-bacanı silib-süpürürdülər. Əmidostum mal-qaranı tövlədən çıxarıb kəndin naxırına qatırdı. Yaxın-uzaq qohumlar, qonşular, tanış-bilişlər sıxıla-sıxıla gələrək həyətdə düzəlmiş çadıra girirdilər. Növbə ilə əmilərimə müraciət edərək səbr, təmkin diləyirdilər.

Qardaşına ölüm hökmünün verilməsi əmim Sadığı dəhşətə gətirmişdi. Əvvəlcə faciənin nəticələrini səssiz-səmirsiz qəbul edən əmim, indi bir yerdə qərar tuta bilmirdi, oturub-durub bud-

larını, yanlarını didişdirirdi. Onun bu hərəkətləri yığıncaqxananın yuxarı hissəsində əyləşən Mir Ələkbərin də diqqətindən yayınmadı. O, əmimə astadan dedi:

— Ay Sadıq, "Qurani Kərim"də deyilir ki, kainatın yaradıcısı Allahdır. Yaradan böyükdür, alidir. İnsanların qismətini də o verir. Alın yazısını da gəlin yaddan çıxarmayaq. Məhəmməd Əleyhissəlam buyurur ki, diriyə də, ölüyə də "Yasin" oxumaq düşür. Əgər izin versəydiniz, bir "Yasin" oxuyardım.

Əmimin üz-gözündən etiraz əlamətini hiss etməyən Mir Ələkbər bir salavat xətm edərək "Yasin" oxumağa başladı. Elə bu andaca bibimin evdən ətrafa yayılan yanıqlı səsi, ah-naləsi beynimə işlədi, bədənimi titrətdi:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı,
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı.

Əzizim axşam oldu,
Gün keçdi, axşam oldu
Gecələr mən alışdım,
Əriyən ağ şam oldu.

Qızılgül həşəm oldu,
Dərmədim həşəm oldu
Mən səndən ayrılalı
Ağlamaq peşəm oldu.

Mixək əkdim ləyəndə
Mixək boynun əyəndə
Bir cüt qurban demişəm
Əlin əlimə dəyəndə.

Bayatıların təsiri az qala məni dəli edirdi. Bax belə neçə gün idi ki, yaxın adamlarımız ağrı-acı içərisində qovrulur, boğulur, qəhərlənir, ancaq yorulmaq bilmirdilər. Bədənindəki yanıq yaralarının təsirini əvvəllər başqalarına o qədər də sezdirməyən cicim indi çox əziyyət çəkirdi. Üzü qopub soyulmuş yaraların suyu axırdı. Həkimin sürtdüyü dərmanların da elə bir faydası yox idi. Məni, Əlini və Gözəli əmidostum evlərinə aparıb, yedirib içirsə də, bu neçə gündə cicimlə anamın dilinin altından bir damcı da su keçmədi.





Deyəsən, Əli ilə Gözəl ağırlığı dərk eləmədən öz taleləri ilə, qismətləri ilə yavaş-yavaş barışırdılar. Ovuclarını bərk-bərk sıxaraq gözlərini ovuşdursalar da, hıçqırmaları o qədər də hiss olunmurdu. Düşünürəm, bəlkə tezliklə, bax beləcə biz də: anam da, cicim də, bibim də, əmilərim də, elə mən də susacaq, qəzəbimiz soyuyacaq, sönəcək. Atam yaddaşımızda xatirəyə çevriləcək... Sonra da unudulacaq...

Yox!.. Mən buna inanmıram. Yanılıram. Günah işlədirəm. O, adamların heç biri atamı, onun bu dəhşətli faciəyə günahsız düçar olmasını unuda bilməz. O, doğmalarını ömrü boyu yandıracaq, əridəcək.

Mən həmişə özümlə bax beləcə danışardım. Bu fəlakətli günlərdə anama, cicimə bu günkü qədər fikir verməmişdim. Yemək-içməkdən imtina edən bu zavallılar nə vəziyyətə düşmüşdülər, Xudaya? Hər ikisinin kiçilərək çuxura düşmüş gözləri, bozarmış sifətləri məni heyrətə gətirirdi. Bu neçə gündə anamın şəvə kimi qapqara saçlarına dən düşsə də, o, cicimdən xeyli gümrah idi. Yaraları cicimin əhvalını lap kəskinləşdirmişdi. Düşdükləri hala dözə bilməyib onlara yalvarmağa başladım:

— Ana, cici, qurban olum sizə... Göz yaşlarınızı azaldın. Siz də, bir az yeyin, için, özünüzə gəlin. Siz də... olmasanız, biz nə edərik...

Bu sözləri elə təlaş və qorxu içində dedim ki, onlar məni sakitləşdirməli oldular...

Günbəgün, aybaay o hadisədən uzaqlaşdıqca atamın yoxluğunu daha dərindən duymağa, dərk eləməyə başlayırdım. İçimdəki göynərtilər məni yandırıb yaxırdı. Bacımın, qardaşımın məsum baxışlarına, boynubükük qalmalarına dözə bilmirdim.

## ÜMİDLƏ YAŞANAN ÖMÜR...

**İnsanın günəşi insanın özüdür.**
***Mişle***

**— Ey insan! Bütün çarələr yalnız sənin əlindədir. Çalış biçarə olmayasan.**
***Nəsimi***

Poçtalyon Həsrət kişi mehribanlığı, səmimiliyi ilə hamının sevgisini, məhəbbətini qazansa da, o, bizim həyətə gələndə anam da, cicim də sıxılır, qorxurdular. Onların hallarının dəyişməsi, səslərinin titrəməsi, üzlərinin ağarması aydın hiss olunurdu. Əvvəllər mən bunun fərqinə varmırdım. Sonralar uşaq qəlbimdə Həsrət kişiyə nifrət hissi oyanmağa başladı. O, hər dəfə bizim həyət darvazasının yanındakı oturacağın üstünə qəzet və məktubdolu çantasını qoyur, bir az dincəlirdi. Sonra da ətrafına toplaşanlara abunə olduqları qəzet və jurnalları, onlara ünvanlanmış məktubları paylayırdı. Zəhləm getsə də, mən də həmişə poçtalyon Həsrətə yaxınlaşır, qəzet və jurnalları alır, evə gətirib anama verər, anam da höccələyə-höccələyə oxuyardı. Hər dəfə anam məndən soruşurdu:

— Məktub var?

— Yox, ana. Məktub kimdən olacaq ki?

— Heç oğlum, özüm soruşuram.

Mənsə əvvəllər bunun fərqinə varmırdım. Bir dəfə bibim əmimə deyəndə ki, qardaş, altı aydan artıq vaxt keçir. Hökmün yerinə yetirilməsi məktubu gəlməyib. Bəlkə, heç...

Əmim:

— Bilmirəm, — deyə cavab verdi.

Anamın:

— Məktub var? — deyə soruşmasının, poçtalyonu görəndə





həyəcan, təlaş hissi keçirməsinin səbəbini indi başa düşdüm. Sən demə, məhkəmənin hökmünün yerinə yetirilməsi haqqında məlumat bizə də verilməli imiş. Hər şeyə diqqətli olan Sadıq əmim indi də bizi qabaqlayıb poçtalyon Həsrətə deyibmiş ki, məhkəmənin hökmü ilə əlaqədar — atamın ölüm hökmünün yerinə yetirilməsi haqqındakı — məktubu heç kəsə bildirmədən ona versin.

Eh... Yazıq ana, yazıq cici! Siz içinizdə hələ nələr çəkirsinizmiş, bizdən xəbərsiz! Məyusluq hissi əmimdən uzaq durmasa da, bibim o hökmün yerinə yetiriləcəyinə inanmırdı. Anam necə? Cicim necə? Bilmirəm. Bircə onu bilirəm ki, bu yazıqlar məndən çox şeyi gizli saxlamağa çalışırdılar.

Yaxşı yadımdadır, anamla cicimin atamın bircə kostyumunu, köynəklərini evdə adyalın üstünə yığıb ağladıqları. Mən evə girəndə ağlaşmalarını kəsib, göz yaşlarını silə-silə paltarları adyala bükdüklərindən hiss edirdim ki, onlar məni dərd-sərdən, ağrı-acıdan uzaqda saxlamaq istəyirlər. Ancaq hardan biləydilər ki, mən həmişə atamlayam, onunla gəzirəm, onunla dincəlirəm, onunla yaşayıram, ömrüm boyu da onunla olacam.

Artıq 1953-cü ilin martı idi. Səhər radioda “ellər atası” Stalinin ölümü haqqında verilən xəbər hamını çaş-baş salmışdı. Adamlar bir-birlərinə yaxınlaşmağa cəsarət etmirdilər. Əmim bizə gələndə o da qorxu və təlaş keçirirdi. O, çəkinə-çəkinə, çox ehtiyatla Stalinin ölümü haqqında anama danışdı. Hamı çəkinirdi, hamı qorxurdu. Günortaya yaxın bütün kənd camaatı bundan xəbərdar oldu. Bütün ölkədə matəm elan edildi. Ellər atasının ölümünə mitinqlər keçirildi. Atası, anası üçün kədərlənməyi bacarmayanlar da, “əzizləri ellər atası” Stalinə yas tutub, için-için sızlayırdılar.

Savadsız və dünyadan xəbərsiz qonşumuz Zeynəb qarı da üz-gözünü cıraraq dünyanın dağılacağından, müharibələrin tezliklə başlanacağından boğula-boğula danışır, həyəcandanmı,

qorxudanmı, yoxsa, əsəbdənmi yazıq arvadın sinəsi qalxıb-enir, boğaz damarları yoğunlayırdı.

Anam da, cicim də bu acı, gözlənilməz xəbərdən məyus oldular, həddən ziyadə rəhmdil, yumşaqqəlbli, bir az da sadəlövh anam adamlara tez inandığından çəkinə-çəkinə əmimdən soruşdu:

— Görəsən, Stalinin ölümü Nüsrətin işini korlamaz ki?

Sual bizim üçün də, əmim üçün də gözlənilməz oldu. Hamının gözləri bir anlığa anama dikildi. Cicim suala cavab olaraq bildirdi:

— Yazıq Nüsrətin işi düzəlmişdi ki, onu da Stalinin ölümü korlaya. Qaradan da tünd rəng olar?! Eh bacım, hərdən elə danışırsan, lap uşaq kimi. Bizim başımıza gələn fəlakətlər onun — deyəsən, Stalinin adını çəkməkdən qorxdu mənim cicim də — əməlləri, qanunları deyilmi?!

O zamanlar Stalin haqqında belə danışmaq başın bədəndən ayrılması kimi bir iş idi. Xudaya, cicimdə bu cəsarət, bu üsyankarlıq hardan idi? Hamı böyük rəhbərə varlığı ilə inandığı, onun üçün matəm saxladığı bir zamanda bu inamsızlığı cicimdə nə yaratmışdı?! Hamıdan qabaq onun dili açılmışdı.

Əmim özünü saxlaya bilməyib, cicimdən söhbəti dəyişməyi tələb etdi və üstəlik dedi:

— Qaş qayırdığımız yerdə göz çıxardarıq. Dərdimiz özümüzə yükdür. Gəlin, özümüz haqqında düşünək. Boşlayın belə lazımsız, artıq söhbətləri. Bizdən siyasətçi olmayacaq ki?!

Bu hadisədən bir neçə gün keçmişdi. Əmim anamla cicimi otağa çağıraraq dedi:

— Mən sizdən nə gizlədim. Məhkəmə qardaşım haqqında hökm çıxarandan sonra mən Stalinə ərizə yazıb Nüsrətin günahsızlığını bildirmişdim. Cavab almışam. Məsələyə yenidən baxacaqlar. Qardaşım sağdı, məhkəmənin hökmü yerinə yetirilməyib. Bu da rəhmdil Allahın verdiyi bir imkandı. Atalar deyib:





“Haqq incələr, üzülməz”.

Anamın da, cicimin də qəlbində əmim, deyəsən, ümid işığı yandıra bilmişdi. Onların üz-gözündə sevinc duyulmağa başladı. Mən dərhal atama hökm oxunduğu günü yadıma saldım. Gecə yataq otağıma pəncərədən axan güclü işıq selini, o məğrur və nurani şəxsi, atamın yatdığı kameranı, onunla görüşümü xatırlayaraq öz-özümə mızıldandım. “Deyəsən, qoca düz deyirmiş... Atam gələcək... Biz görüşəcəyik. Bizə baxan niskilli gözlərlə bir də qarşılaşmayacağıq. Şükür qüdrətinə, İlahi!!!”

Mənə elə gəlirdi ki, bu sözləri yalnız özüm eşidirəm. Əmim diqqətlə üzümə baxaraq dedi:

— Sən nə danışırsan, oğlum?! Nə işıq?! Nə qoca?! Nə görüş?!

Sonra da əlini alnımda, sifətimdə gəzdirdi, özünə sıxdı. Mənə elə gəldi ki, əmim xəstə olub-olmadığımı yoxlayırdı.

O gecəsi səhərə qədər yata bilmədim. Qocanı çox gözlədim, ancaq mənim o nurani, məğrur, alicənab qonağım gəlmədi.

Səhər əmim lap tezdən bizə gəldi. Yeni xəbər öyrənmək ümidi ilə onun gözlərinin içinə baxdım. Məni başa düşmüş kimi dedi:

— Hə, təzə, yaxşı xəbər gətirmişəm. Deyirlər, radioda məlumat veriblər ki, dustaqları əfv edəcəklər. Şükür Allahın böyüklüyünə. Mən Nüsrətin də əfv olunacağına inanıram. Axı günahı yoxdu...

Ağlamaq, sızlamaq azalmışdı. Hamımız Allahın dərgahına üz tutmuşduq. Yalvarıb, yaxarırdıq.

Günlər beləcə bir-birini əvəz edirdi. Gözləməkdən səbrimiz də tükənirdi. Artıq yaz başıydı. Havalar da yavaş-yavaş qızırdı. Gilasın, şaftalının, əriyin ağ, çəhrayı çiçəkləri budaqları az qala örtmüşdü. Tut ağacının, heyvanın tumurcuqları şişərək partlamışdı.

Anamla cicim hər gün səhər açılan kimi kolxoz tarlasına gedir, axşam hava qaralanda qayıdırdılar. Mən Əli ilə Gözəli evdə

saxlayır, onların başını qatır, yemək-içməklərini verir, ağlamağa qoymurdum. Tarlada işlər ağır olsa da, anamla cicim evə yorğun gəlsələr də, dincəlmək bilmirdilər. Anam evi yır-yığış edir, cicim də çay-çörək hazırlayırdı. Şam yeməyindən sonra onlar səhərki işə hazırlıq görürdülər. Bu rejim o vaxtkı kənd adamlarının adətinə çevrilmişdi.

Dəqiq tarixini unutsam da, atamın həbs olunma məsələsinə yenidən baxılacağı barədə Respublika Ali Məhkəməsindən gələn məktubun bizim evdə necə toy-bayrama çevrilməsi, eşidib-bilənlərin bizə göz aydınlığına təşrif buyurması, qohum-əqrəbanın qardaşımı, bacımı bağrına basaraq necə öpməsi indi də gözlərimin önündədir. Bu gözlənilməz şad xəbərdən sanki anamın nitqi qurumuşdu. O, deyilənləri eşitmirdi. Həmin gün bibim özünü qeyri-adi dərəcədə şən aparırdı. Hadisələrə həmişə çalışıb təbii axar verən cicim indi ancaq danışılanları dinləyirdi.

Mənsə günahsız Həsrət kişiyə nifrət hissimin əbəs olduğunu anladıqca utanırdım. Ona heç bir söz deməsəm də, sıxılırdım. Nə idi Həsrətin günahı? Əvəzində bu gün o bizə hədsiz sevinc gətirmişdi. Bağışla məni, Həsrət kişi.

Göyün üzü tər-təmiz olduğundan, axşam qaranlığı düşdükcə, səmada sayrışan ulduzlar məni sanki sehrli bir aləmə çəkib aparırdı. Təmiz və ətirli havadan ciyər dolu udduqca əhvalım çox xoşhal olurdu. Elə bu vaxt həyətin aşağı tərəfindən öskürək səsi eşitdim. İt özünü səs gələn tərəfə atdı. Mən iti geri çağıranda kənd soveti sədri Soltan əmi də ona acıqlandı. İt səsi tanıyırmış kimi sakitləşdi.

Soltan əmi:

— Oğlum necəsən? — deyə əvvəl hal-əhvalımı soruşdu, sonra da əlavə etdi:

— İndi telefonoqramma almışıq. Ali Məhkəmə yerli məhkəmənin atan haqda çıxardığı hökmü təsdiq etməyib. Yenidən baxılmaq üçün onu yoldaşlıq məhkəməsinə göndərib. Sabah kənd





klubunda Ali məhkəmənin bir üzvünün, rayon prokurorunun, xalq hakiminin və kənd fəallarının iştirakı ilə məhkəmə başlanacaq. Əmilərinə də, anana da, cicinə də de, sabah məhkəməyə gəlsinlər...

Məhkəmənin başlanmasına bir saatadək vaxt qalsa da, zal ağzınadək kənd camaatı ilə dolu idi. Adamlar arasında hər cür söz-söhbət gəzirdi. Kimisi atama bəraət, kimisi də məsuliyyət daşıdığı üçün, müəyyən müddətdə həbs cəzası veriləcəyini iddia edirdi. Açığını deyim ki, sonuncularda qısqanclıq hissi də duyulurdu.

Öz-özümə düşündüm:

— Təki ölüm cəzası verilməsin. Təki atam güllələnməsin.

Ali məhkəmənin nümayəndəsi, xalq hakimi, rayon prokuroru, iclasçılar zala daxil olanda hamı ayağa qalxdı. Əmilərim, bibim, anam, cicim, bacım, qardaşım, bütün qohum-əqrabamız zalda əyləşmişdilər. Gözlərim adamlar arasında atamı axtarırdı. Bu vaxt hər qolundan bir milis nəfəri bərk-bərk tutaraq atamı məhkəmə zalına gətirdi. Onu bir qədər kənarda qoyulmuş stulda əyləşdirdilər. Əvvəlcə atamı tanıya bilmədim. Həddən artıq arıqlamış, gözləri kiçilmiş, üz sümükləri çıxmışdı. Şəvə saçları, çənəsi, üzü ağarmışdı. Qəddi-qaməti kiçilərək bir uşağı xatırladırdı atam.

Məhkəmə çox çəkmədi. Ucaboylu, ortayaşlı, gülərüz, xoşxasiyyət məhkəmə sədri ayağa qalxaraq nümayəndəni, prokuroru, iclasçıları kənd camaatı ilə tanış elədi. Sonra dükanın yarılması ilə əlaqədar bir milyon iki yüz əlli min manat dəyərində dövlətə ziyan vuran oğruların, quldurların gec də olsa tapılması, cinayətkarların istintaqa cəlb edilməsi, əsassız mülahizələrə, qondarma və saxta faktlara əsaslanaraq atamın müstəsna cəzaya — güllələnməyə məhkum edilməsi haqqındakı fikirlərini bildirdi. Sözünün sonunda atama bəraət verilməsini və ona dəyən maddi zərərin dövlət tərəfindən ödəniləcəyini söylədi. Atamı,

ailəmizi, qohum-əqrəbanı, bütün kənd əhlini təbrik etdi.

Mənə elə gəldi ki, taqəti kəsilmiş atam xalq hakiminin dediklərini, bəraət aldığını eşitmirdi... Öz-özümə düşünürdüm: — "Maddi zərərin ödəniləcəyini bildirən xalq hakimi güllələnmə hökmü altında atamın çəkdiyi cismani və mənəvi əzab-əziyyət haqqında bir kəlmə də niyəsə olsun danışmadı. İnsan taleyini, insan müqəddəratını həll edən hakim, doğrudanmı bunları başa düşmürdü? Cinayətə hüquqi qiymət verən hakim əxlaqı baxışları niyə nəzərə almadı? Onlar, doğrudanmı, bu qədər savadsızdılar, yaxud bu qədər piylənmişdilər? İnsan hüquqlarının müdafiəsində dayanan hakimlərin düşüncə tərzi, intellektual səviyyəsi, mənəvi aləmi beləmi olur? Yoxsa, yığdıqları rüşvətlər onların görən gözlərinə tor çəkir, düşünən beyinlərini zəhərləyir, dumanlandırır?! Belə olmasaydı, günahsız atama ölüm cəzası kəsilərdimi? Mən inanmıram ki, vaxtilə atamı mühakimə edənlər onun günahsızlığını hiss etməyəydilər".

Yox, bilirdilər. Açılmayan cinayəti ört-basdır eləmək üçün əxlaqı korlanmış, mənəviyyatı, qanı zəhərlənmiş quldur dəstəsinin ardınca düşməkdənsə, onu tərksilah etməyə vaxt itirməkdənsə, əvəzinə, bir az cibxərcliyi ələ keçirməklə məsuliyyətdən yaxa qurtarmağın ən asan yolu bir günahsızı həbsə atıb onu cəzalandırmaqıydı. Bunu o böyük Yaradan götürərmi? Hanı o ədalət?!. Hanı o insaf, hanı?!

Atam ayağa qalxa bilmədi. Oturduğu yerdə də qalmışdı. Kənd əhli böyükdən kiçiyədək bizi — atamı, anamı, cicimi, bibimi, əmilərimi təbrik edir, gözaydınlığı verirdilər.

Qardaşları atamın qoluna girərək onu evə gətirdilər. Təmiz və yumşaq çarpayıda uzanan kimi o iniltili bir səslə:

— Necə də yumşaqdı?! Bu möcüzədi, Allah!.. Şükür, sənə inanmayan kafirdir.

Atam yatağına söykənən bacımla qardaşımı dönə-dönə öpməkdən elə bil doymurdu.





Atamın barmaqları, biləyi nazilmişdi. Əlinin üstündəki damarlar çıxmışdı. Bədəninin, qıçlarının əti tökülmüşdü. Aram-aram danışdıqca sinəsinin xırıltısı aydın eşidilirdi o, tez-tez öskürürdü. Uzun müddət gərgin əsəb, haqsızlıq, aclıq, xəstəlik, mədə-bağırsaq pozğunluğu atamı lap əldən salmışdı. Azadlığa buraxıldığı gündən bərk xəstə olan atamı qoca və təcrübəli kənd həkimi Yəhya Tağızadə müalicə etməyə başlamışdı.

## MÜDHİŞ GECƏNİN FƏLAKƏTLƏRİ

**Hər bir adam bəşəriyyətdir...**
***Mişle***

**Bacarsan yaralını məlhəmsiz qoyma.**
***Xəqani***

Səhərdən başlayan külək axşama yaxın daha da şiddətlənmişdi. Az qala yaşayış evlərini, köhnə tikililəri uçuracaq, şah budaqlı ağacları kökündən qoparıb atacaqdı. Həddini aşan küləyin gücü ilə ağacların budaqları bağlardan keçən yenicə çəkilmiş elektrik xətlərini qırdığından kəndin işıqları da sönmüşdü. Adamlar evlərdə neft çıraqlarının işığına toplaşmışdılar. Kənd qaranlıq zülmətə qərq olduğundan həyətdə, çöldə-bacada göz-gözü görmürdü. Külək özü ilə gətirdiyi yağış damcılarını damların, daşların divarlarına çırpır, pəncərə şüşələrini döyəcləyir, eyvanda çıxarılan ayaqqabıları isladırdı. Tövlənin qapısı ağzında zəncirlə bağlanmış it qorxudanmı, soyuqdanmı, islandığındanmı ya nədəndi ara vermədən zingildəyirdi... Yazığım gəldiyindən onu zəncirdən açdım. Azadlıq əldə elədiyindən it bir neçə dəfə o tərəf-bu tərəfə qaçdı. Mən — Azadlıq nə böyük şeydi — deyə öz-özümə düşündüm. Sonra da o yağışdan, küləkdən daldalanırmış kimi özünü yağmırlığın altına saldı. Orada ge-

cələyən toyuq-cücələr, hinduşkalar hürküb axşam qaranlığında həyət-bacaya dağıldılar. Səs-küylə qarşılanan it yenidən həyətə atıldı və oradan da özünü eyvanın altına soxdu.

Toyuq-cücələri, hinduşkaları öz yerinə qaytarmağa çalışsam da bu, mümkün olmadı. Anam: — Onları indi yerinə qaytara bilməzsən, özünə əziyyət vermə, gəl evə — deyə bildirdi. Mən: — Axı it, pişik, tülkü gəlib onları boğa bilər, apara bilər, — deyə cavab verdim. Bu dəfə atam işə qarışaraq: — Necə fikirləşirsən, oğlum, səhərə qədər burda oturub toyuq-cücəmi güdək? — dedi.

Mən gülümsündüm, ancaq heç bir söz demədim. Örüşdən gec qayıdan qoyun-keçiləri ağıla salan ata-anama kömək etdim. Əmizdirmək üçün quzuları, çəpişləri analarının yanına buraxdım. Balalar tələsə-tələsə, imsiləyə-imsiləyə analarını tapır, yelinlərinə dürtmə vura-vura əmirdilər. Ana qoyunlar, keçilər də balalarının boynunu, irtməyini, quyruğunu yalayırdılar. Bu ərəfədə gur yağış bizi islatmışdı. Külək soyuğu daha da şiddətləndirdiyindən o sanki iliyimizə işləyir, damarlarda qanı dondururdu. Tez-tez əllərimi bir-birinə sürtür, gah da nəfəsimlə qızdırmaq üçün ovuclarımı ağzıma basıb üfürürdüm.

Heyvanları yerbəyer edib evə gələndə cicimin hazırladığı biş-düşün yanan sobanın bir kənarına qoyulduğunu gördüm. Bacı-qardaşlarım soyuqdan az qala sobaya girəcəkdilər. Ailənin sonbeşiyi üçyaşlı Kamil isə balaca, toppuş əllərini neft çırağının şüşəsinə yaxınlaşdıraraq qızdırırdı. Ata-anamın gəlişi ilə bacı-qardaşlarım ayağa qalxıb yerlərini onlara vermək istədilər. Lakin nə atam, nə də anam sobaya tərəf gəldi. Atam gülə-gülə, əzizləyə-əzizləyə Kamili qucağına alıb öpdü və onu başı üzərinə qaldıraraq: — Hamıdan ucadır, mənim balam, mənim oğlum — dedi və onu döşəməyə atılmış yumşaq yun döşəkçənin üstünə qoydu. Kamil isə sevinə-sevinə, qəhqəhə çəkə-çəkə: “Bidə, bidə”, — deyə qışqırırdı. Atam “Ağ eləmə bəsdir”, — dedi və





keçib öz yerində əyləşdi.

Süfrə açıldı. Hamı yaş və boy sırası ilə süfrənin ətrafına düzüldü. Mənsurə xanım hərəyə bir stəkan çay süzdü. Sonra vazdakı çörəyi süfrəyə qoydu. Cicimin şam işığında boşqablara çəkdiyi xörəyi payladı. Hamı səssiz-səmirsiz şam edirdi. Bir yerdə sakit dayana bilməyən Kamil: “Bu yədi, yeməlidi, daddıdı”, — deyir, özünü elə bil istətməyə çalışırdı.

Şam işığı otağı yaxşı işıqlandırmadığından içəri həddən artıq darıxdırıcı iydi. Mən sabahkı dərslərimə hazırlaşmaq üçün o biri otağa çəkildim. Bir qədər sonra anam bərk həyəcan və təlaş içərisində eyvandan “Ağarəhim!” “Ağarəhim!” — deyə məni çağırdı və atamın xəstələndiyini bildirdi.

— Atam xəstələnib? — deyə ayağa qalxdım və onun yatdığı otağa keçdim. Atam kürəyinin ağrısından dayana bilmirdi. Gah çarpayısında üzü üstə yıxılır, gah oturur, gah o tərəf-bu tərəfə çevrilir, gah da kürəyini yatdığı döşəyə sürtərək gərnəşir, bir yerdə qərar tuta bilmirdi.

Elə bu vaxt gözlərim atamın baxışları ilə qarşılaşdı. Mən heç vaxt onun sualdolu gözlərini belə soyuq, belə nigaran görməmişdim. Atamın əlləri, ayaqları, bədəni getdikcə soyuyurdu, soyuduqca da əhvalı pisləşirdi. O, gah ürəyini, gah da kürəyini tuturdu. Ağrılar getdikcə şiddətlənir, şiddətləndikcə də onu halsızlaşdırırdı. Qardaşlarımın, bacılarımın hərəsi bir tərəfə çəkilib için-için ağlayırdı. Atama baxaraq Kamilin göz yaşları axıtmasını indi də unuda bilmirəm.

İnsan nə qəribə məxluqmuş. Bəzən bir hadisənin buraxdığı izlər ömrü boyu yaddaşında yaşaya bilərmiş, Xudaya.

Həkim Yəhya Tağızadənin evi kəndin aşağısında idi. Mən dərhal paltarımı, çəkmələrimi geyinib həkimin arxasınca yollandım. Zülmət gecədə, külək və yağışda addımlarımı hara və necə atdığımı bilmirdim. Ayaqlarım tez-tez sürüşür, yıxılıb suya-palçığa batmamaq üçün müvazinətimi çətinliklə saxlaya bi-

lirdim.

Yəhya Tağızadənin yaşadığı evin həyət divarları hündür və darvazası arxadan bağlı olduğundan əvvəlcə bir qədər kənardan onu çağırmalı oldum. Sonra da səsimin eşidilmədiyini düşünərək, çox çətinliklə də olsa divarı aşıb həyətə düşdüm. Evin işıqları sönmüşdü. Hər tərəf zülmətə büründüyündən göz-gözü görmürdü. Gözə barmaq tıxansa, görmək olmazdı. Eyvana bir qədər də yaxınlaşdım: "Həkim!" — deyib ağzımı açmışdım ki, bayaqdan bəri pusquda dayanan bir yekə it eyvanın altından çıxıb qəflətən məni qamarladı. Bunu gözləmədiyimdən və çox həyəcanlı olduğumdan geriyə atıldım. Hər tərəf sürüşkən olduğundan ayaqlarım qaçdı və kürəyi üstə itin qabağında yerə sərildim. Bu it üçün də gözlənilməz olduğundan, deyəsən, o da özünü əməlli-başlı itirdi və çıxış yolunu vahimə içərisində zingildəyə-zingildəyə qaçmaqda gördü. Çətinliklə də olsa, ayağa qalxmışdım ki, qapı açıldı: — "Ay adam, kimsən?" — deyə həkim Yəhya Tağızadənin səsi eşidildi. Deyəsən, elektrik lampaları söndüyündən, çıraqlar qaraldığından həkim də məni tanımadı. Mən dərhal həkimin səsinə səs verdim:

— Həkim, mənəm, Nüsrətin oğluyam. Atam bərk xəstələnib. Sizin dalınızca gəlmişəm. Siz Allah tez olun. Atamın halı çox pisdir...

— Bu saat, — deyə həkim evə qayıtdı və çox çəkmədən əlində çanta pilləkənlərdən enərək mənə tərəf gəldi. Dərhal çantanı həkimdən alıb götürdüm. Yetmişdən artıq yaşı olsa da, Yəhya Tağızadə çox cəld və çevik addımlarla palçıqlı yolla irəliləyə-irəliləyə atamın necə xəstələndiyini, ağrılarının kəskin olub-olmadığını soruşdu. Biz tezliklə evə çatdıq. Artıq Sadıq əmim də bizdəydi. O, qardaşının əllərini ovuşdura-ovuşdura onu sakitləşdirməyə çalışırdı. Ancaq əmimin də üz-gözündən təlaş, qorxu, ümidsizlik oxunurdu. Getdikcə mən də həyəcanlarımı boğa bilmirdim, səsim məndən asılı olmayaraq titrəməyə başladı. Əvvəlcə atamı sorğu-suala tutan həkim ona bir-iki ağrıkəsici həb verib, sonra da iynə vurmağa başladı.





Zülmət gecə. Göz-gözü görmür. Rayon xəstəxanası ilə əlaqə saxlamaq, təcili tibbi yardım maşını çağırmaq üçün telefon xətti yox, maşın yox, yox... yox... Bəs indi nə etməli? Gözün baxa-baxa kişi əldənmi getməli? Atam böyük bir ailənin dirəyidir. Aman Allah, o, dünyasını dəyişsə, bu on iki nəfərlik ailənin taleyi necə olacaq?..

Qəbul etdiyi həblər və iynələr atamı bir an sakitləşdirsə də, halı səhər ara verəndə yenidən ağırlaşmağa başladı. Artıq atamı soyuq tər bürüyürdü... O, daha dözə bilməyərək: "Aman Allah, kürəyim çatlayır, mədəm deşilir, əllərim, qollarım keyiyir", — deyir, yerində qərar tuta bilmirdi.

Əlimizdən bir iş gəlmədiyindən tez-tez üzümüzü Yəhya Tağızadəyə tutur, ondan imdad gözləyirdik. Suda boğulan saman çöpünə əl atan kimi özgə yolumuz da yoxıydı. Bunu başa düşən həkim xəstəyə kömək göstərə bilmədiyindən utanıb mənəvi əzab çəkirdi.

Əvvəllər tibbi savadsızlıqdan atamın xəstələnməsinin səbəbini əsən külək və yağan yağışda görürdük. Anama, cicimə, mənə elə gəlirdi ki, atam soyuqdan xəstələnmişdi. Atama qayğısızlığımıza görə bəzən özümüzü məzəmmətləyirdik də. Sən demə, əməllicə-başlıca yanılırıqmış...

Şükür sənin böyüklüyünə, İlahi! Axı mənim atam çox həssas, hər şeyi başa düşən, yerini bilən adamdı. Ömründə bir dəfə bir adama pislik eləməyib. Bir adamın yatarına daş atmayıb. Heç kəsin xatirinə toxunmayıb. Qəlbini sındırmayıb. Həmişə özünün, ailəsinin çörəyini hallalıqla, alın təri ilə qazanıb. İmkansızlara həmişə əl tutan, qayğı göstərən atamın günahı nə iydi, İlahi?! O, nəyə görə ömrü boyu əzablar, ağrılar-acılar çəkməli iydi?! Niyə günahsız atam dar kameralarda ölüm hökmü ilə aylarla yatmalı iydi? Kamerada güllələnmə cəzası altında tək-

tənha aylarla yatmağın nə olduğunu bir anlığa təsəvvürünüzə gətirirsinizmi? Qətlə yetiriləcək günü, saatı, anı oturub gözləməyin dəhşətlərini duyursunuzmu? Mənim Allahım, bütün bunlar azmış kimi, böyük bir ailənin döyünən ürəyini, çırpınan qəlbini belə dəhşətli vəziyyətdə susdurmaq nə deməkdir? Bu fikirlər, düşüncələr aləmində ürəyim sıxıla-sıxıla, nəfəsim boğula-boğula məntiqsiz suallara cavablar axtarırdım. Nə axtardığımı tapır, nə də rahatlana bilirdim. Gərək, insan anadan xoşbəxt doğulsun. Bizim günümüz, taleyimiz əzab və iztirablar girdabında yoğrulub elə bil...

Hələ hava işıqlanmasa, da xoruzların banı eşidilirdi. Yavaş-yavaş atamın ağrıları ara verməyə başladı. Hədsiz ağrı və narahatlıq onu əldən saldığından, səhərə yaxın dərhal yuxuya getdi. Həkimin tələbi ilə otağı tərk edərək sakitlik yaratmalı olduq. İndi hamı: mən də, yoldaşım da, bacı-qardaşlarım da, anam da, cicim də, elə həkim də yavaş-yavaş özünə qayıdır, atamın ağrı-acılarının kəsməsinə, sakitləşərək yuxuya getməsinə sevinirdik...

Səhərin açılmasına az qalırdı. Hava ala-toran görünürdü. Anam bərk həyəcan keçirirdi. Ağ qarı andıran üzündə, dodaqlarında sanki qan işləmirdi. O, məni eyvana çağırdı. Rayon xəstəxanasından gedib həkim gətirməyi tapşırdı. Narahatlığımızı hiss edən əmim də həkim çağrılmasını məsləhət bildi. Mən rayona getməli oldum. Günortaya yaxın atamın üstünə həkim gətirə bildim. Bu zaman o, yuxudan oyansa da, özünü çox pis hiss edirdi. Həkim atamın nəbzini tutdu, qan təzyiqini ölçdü, sonra da ürəyinin kardioqramını çıxartdı. Öz məsləhətlərini verməklə resept yazdı.

Həkimi yola salanda atamın ciddi ürək xəstəliyinə tutulduğunu, onun fiziki iş görməməsini bildirdi və müalicəyə böyük ehtiyacı olduğunu... söylədi.

Elə həmin gün dərmanlar alındı. Ev şəraitində atamın müalicəsinə başlandı. Həkimlər tez-tez atama baş çəkir, səhhətində baş verən dəyişmələri müəyyənləşdirirdilər. Bizə elə gəlirdi ki, içdiyi dərmanlar, qəbul etdiyi iynələr öz müsbət təsirini göstərir, atamın sağlamlığı tədricən bərpa olunurdu. Daxilimizdə atamın yaşamasına bir ümid, inam hissi yaranmışdı. Bir neçə gündən sonra atamın yataqdan qalxması, həyət-bacada gəzməsi, yanına gələnlərlə yüksək əhval-ruhiyyə ilə danışıb-gülməsi, halını soruşanlara: “Şükür olsun Allaha ki, yaxşıyam, özümdən narazı deyiləm” — deməsi, sağlamlığı haqqındakı inamımı daha da möhkəmləndirirdi... Hamımız oturub-durub Allaha dua edir, onun böyük mərhəmətinə şükürlər eləyirdik.





Günortaya az qalırdı. Atam həyətdəki tut ağacının altında dincəlir, cicimlə mən isə ipək qurdlarını yemləmək üçün yığılmış tut yarpaqlarını dəhrə ilə doğrayır, anamsa həmin yarpaqları xəlbirə yığır, aparıb tərəcələrdəki ipək qurdlarının üstünə səpir, yenidən xəlbirini doldurmaq üçün qayıdırdı.

Bu anda iniltili, boğuq səs eşitdim. Dəhrəni hara atdığımı bilmədim. Dərhal atama tərəf qaçdım. O, əllərini ürəyinin üstünə qoyaraq yumruq kimi yumulub açılırdı. Hərdənbir: “Ax, ay ana”, — deyə zarıyırdı. Dərhal evə qaçıb “Nitrat” qutusunu gətirdim. Bir tabletka çıxararaq atama verdim. O həbi dilinin altına qoydu. Bir neçə dəqiqədən sonra sakitləşən atam başını yelləyərək dedi:

— Bu zəhrimar xəstəlik məni hardan tapdı. Ürəyin ağrılarına, onun fəsadlarına dözməkdən ölüm yaxşıdır...

Atamın sağlamlığının bərpası ilə əlaqədar sevincimiz uzun sürmədi. Onun xeyli müddət yaşaya biləcəyinə olan inamım qırıldı.

Mən atamı başa düşürdüm. Ürəyinin ağrısı tutanda çəkdiyi əzablara dözə bilmirdim. Az qala mənim də ürəyim partlayırdı. Hey fikirləşsəm də, gücüm heç bir şeyə çatmırdı. Atam çox dözümlü, çətinliklərə tab gətirməyi bacaran adam idi. İradəsi möhkəm idi. Taleyi ilə razılaşmağı bacarırdı. Allah adamı olduğun-

dan heç kimi günahkar çıxarmaz, "Bu mənim taleyimdir", "qismətimdir" — deyərdi...

Bəzən düşünürəm — Hər kəsin taleyi öz əlindədir — deyənlər nə qədər yanılırlar. Və materialist baxış insanın öz-özünü aldatmasıdı. Həyat insanı elə burulğanlara atır ki, ora necə düşdüyünü də təsəvvür eləyə bilmirsən... Üzünü haqqın dərgahına tutmaqdan özgə çarə qalmır. Nə isə...

Axşama yaxın atam təngnəfəs oldu. Nəfəsini çox çətinliklə alması, sinəsinin qalxıb-enməsi, boğaz damarlarının yoğunlaşaraq tarıma çəkilməsi məni dəhşətə gətirirdi. Onun çəkdiyi əzablara, əziyyətlərə baxa bilmirdim. Sonralar da günün bütün vaxtlarında — səhər, günorta, axşam, bəzən də gecələr atamın belə təngnəfəs olması adi hala çevrildi. Maddi imkansızlıq üzündən atamın müalicəsini, istirahətini təşkil edə bilmədik.

Atamın narahat həyatı, övladlarından nigarançılığı, yaşamağa olan ümidsizliyi, mənalı baxışları indi də gözlərimin önündədir. Onun acı qisməti əzablı, iztirablı həyatı oldu. Xoşbəxtliyi şərəf və ləyaqətlə tərbiyə etdiyi ailəsi, övladlarıydı...





## ATAM MƏNİMLƏ DOSTUYDU

**Öz daxili aləminə müntəzəm nəzər — əxlaqi zərurətdir.**
***Z.Göyüşov***

**Kamil insan günəşdən, aydan, ulduzlardan da əzəmətlidir. Bütün varlıq insanın vücüdündadır.**
***Nəimi***

Bəraətdən sonra atamın səhhəti yavaş-yavaş düzəlirdi. Məhbəsdə ikən ailəmizdə baş verənləri, anamın, cicimin çəkdiyi əzab və iztirabları söyləyəndə atamın gözləri doldu, günahkar adamlar kimi başını aşağı dikdi. Onun hədsiz əzab çəkdiyini anlayıb söhbəti uzatmadım. Atamı nə qədər çox istəsəm də, onunla yaxın və səmimi olsam da, ondan utanır, çəkinir, özümlə onun arasında məsafə saxlayırdım. Onu da bilirdim ki, qəbahətimin dərəcəsindən asılı olmayaraq mən ona hər şeyi açıq və səmimi danışmalı iydim. O, mənimlə çox vaxt oğul kimi yox, bəzən qardaş, bəzən də yaxın dost kimi rəftar edirdi. Atamın bu hərəkətləri məni olduqca sevindirir, bütün sirlərimi ona açmağa vadar edirdi. Deyəsən, atam da bunu başa düşmüşdü. Böyüyəndə məni aqronom görmək istəyən atam təsərrüfat işlərindən çox danışar, bitkilər aləminin sirlərini mənə anlatmağa çalışardı. Oxuyub müəllim olacağımı bildirəndə sevinib etirazını bildirmədi, əksinə mənə tövsiyələrini verdi:

— Müəllimlik çətin sənətdir, oğlum. Bunun üçün durmadan çalışmaq, oxumaq, təmkinli və səbrli olmaq gərəkdir. Bu sənət ləkə götürmür. Danışığın da, duruşun da, oturuşun da, hadisələrə münasibətin də nümunə olmalıdır. Ləyaqətli müəllim olmaq, nəsil tərbiyə eləmək böyük şərəfdir, oğlum. Sən ömrünü öyrənməyə və öyrətməyə həsr etməlisən. Aqronomun səhvi ucbatın-

dan bir ağac quruyarsa, bir təsərrüfat sahəsi gözlənilən bəhəri verməzsə, dəyən zərəri tezliklə aradan qaldırmaq olar. Lakin müəllimin səhvini düzəltmək olmur. Mühəndis hər hansı obyektin layihəsini verəndə, həkim insan bədənində cərrahiyyə əməliyyatı aparanda nə etdiyini gözləri ilə görürsə, müəllim göz görməyən, əl çatmayan insan təfəkküründə pozulmaz izlər buraxır. O, hər il "İnsan və vətəndaş" adlı bir kitab yazır. Onun uğurları namuslu vətəndaşlar, ömrü ləyaqət və şərəfdən yoğrulmuş vicdan sahibləri, qüsurları isə xalqına, elinə, obasına, vətəninə, bəşəriyyətə ləkə gətirən xəyanətkar adamlardır. Bu, çox şərəfli və müqəddəs, çox çətin və mürəkkəb bir sənətdir. Müəllim gecə-gündüz şam kimi ömrünü əritməyi, gələcək yetirmələrinin ömür çırağını yandırmağı bacarmalıdır, mənim balam. Belə olanda el içində hörmətin də, nüfuzun da olar, oğlum. Arzun, istəyin müəllim olmaqdırsa, gərək müəllimlik eləməyi də bacarasan...

— Bacararam, ata! — deyə cavab verdim. Sözümdən məmnun olan atam gülə-gülə, sevinə-sevinə boynumu qucaqladı və saçlarımdan öpdü. Atamın xeyir-duası ömrü boyu mənim həyatımın mənasına çevrildi.

Müəllim olmaq barədə qəti fikrimi öyrənən atam mənimlə rəftarında tədricən başqalaşdı. Orta ixtisas təhsilli atamın güclü mütaliəsi vardı. O, çox şeydən xəbərdarıydı. Yetərincə hazırlıqlıydı. Bilmədiklərimizi ondan öyrənirdik. Atamın mütəmadi təşəbbüskarlığı və tələbləri mənim dərslərimə marağımı xeyli artırdı. Azərbaycan dili və ədəbiyyatdan, fizika və riyaziyyatdan daha ciddi hazırlaşmaq üçün dərsdən sonra dərnəklərə gedir, əlavə kitablar oxuyur, biliklərimi zənginləşdirməyə çalışırdım. Atam da hər gün mənə vaxt ayırır, öyrəndiklərimi soruşur, cavablarımdan razı qaldıqda özü də əlavə çalışmalar verirdi. Atamın bu qayğısı, diqqəti məni həmişə sevindirir, ürəkləndirir, cəsarətləndirirdi.





Atama elə isinişmişdim ki, o, evdə olmayanda darıxır, onun gəlişini səbirsizliklə gözləyirdim. Atam mənim köməkçimə çevrilmişdi, mən də atamın. Dərsdən qayıdan kimi həyət-baca işlərini görər, heyvanlara qulluq göstərər, sonra da atam mənə güləşmə fəndləri öyrədərdi. Yorulanda oxuduğum bədii ədəbiyyatdan birinin məzmununu atama danışar, onunla mübahisəyə girişər, hər birimiz öz mövqeyimizi əsaslandırıb sübut etməyə çalışardıq. Oxuduğum əsərlərdəki müsbət və mənfi obrazları qarşılaşdırmağı, onların hərəkətlərini qiymətləndirməyi, yazıçının məqsədini, əsərin başlıca qayəsini anlamağı məndən tələb edərdi. Cavablarım xoşuna gəlmədikdə mənə yaddaş verər, fikrimi dəqiqləşdirməyi tapşırardı. Atam tez-tez məktəbə gedər, necə oxumağım, çalışqanlığım, davranışım barədə məlumat alar, nədə çətinlik çəkdiyimi öyrənər, mənə istiqamət verərdi. Mən həmişə rəftarımla atamı sevindirməyə çalışardım. Atam da mənə heç vaxt uşaq kimi, yeniyetmə kimi baxmazdı. Mənimlə tay-tuşu kimi danışar, məndə gücümə, qüvvəmə inam oyadar, mənimlə məsləhətləşər, bəzən də baş verənlərə, olub keçənlərə münasibətimi öyrənərdi. Mən səhvə yol verdikdə dərhal etirazını bildirərdi: "Yaxşı fikirləş, oğlum, sən düz demirsən", — deyə məni dərindən düşünməyə məcbur edərdi. Ən çıxılmaz vəziyyətlərdə, kiçicik də olsa, xətalara yol verdikdə atam səbrlə, təmkinlə, olduqca səmimi və mehriban tərzdə mənə məsləhətlərini verərdi, bir dəfə də olsun məni danlamazdı. Mən də bundan qürur hissi keçirərdim. Ancaq atamın bir baxışı, tək bircə dəfə başını yana tərpətməsi mənim üçün kifayətiydi. Dərhal nəticə çıxarar və düşünərdim:

— Deməli, atam mənimlə razılaşmadı. Mən səhv eləmişəm. Səhvimi düzəltməliyəm.

Yaxşı yadımdadı. Altıncı sinifdə oxuyurdum. Sinfimizin uşaqları tarix dərsini buraxaraq, "Spartak" filminə baxmağa getmişdilər. Mən də onlarlaydım. Qəbahətə yol verdiyimi bilirdim.

Ancaq kollektivdən də ayrılmaq istəmirdim.

Ertəsi gün sinif rəhbərimiz dərsdən əvvəl tutduğumuz əmələ görə bizi möhkəmcə məzəmmət etməyə başladı. Hamımızı bir-bir ayağa qaldırır, utandırırdı. Təhqir eləməkdən də çəkinmədi. O, nə düşündüsə, birdən dedi: "Hamınızın valideynlərini məktəbə dəvət edəcəm. Müəllimi, dərsi saymamısınız". Bu, tərbiyəsizlikdi!

Sinif rəhbərinin dedikləri məni sarsıtdı. Öz-özümə: "Nə?"... "Atamı məktəbə... Müəllimi... Dərsi... Tərbiyəsizlik..." — deyə heyrətləndim.

Əvvəlcədən bilərəkdən qəbahətə yol versəm də, atamın məktəbə çağrılacağını, onun müəllimlər qarşısında hansı vəziyyətə düşəcəyini ağlıma belə gətirməmişdim. Bəli, qəbahətin böyüyü, kiçiyi yoxdur. Hər ikisi adamı utandırır, dilini qısaldır.

Tarix müəllimi Məleykə xanım bu səhvi üzümüzə vurmadan dünən baxdığımız kino-film haqqında maraqlı söhbətə başladı. Əsərdə təsvir olunan hadisələrin harada və nə vaxt baş verməsi, o dövrdəki tarixi şərait, qəhrəmanın hərəkətlərinin, xarakterinin qiymətləndirilməsi, ideyanın çıxarılması üzərində dayandı. Məleykə müəllimə həvəslə danışdıqca gözlərimdə daha da böyüyürdü. O, dərsin sonunda dedi:

— Uşaqlar, kinoya baxmaq istədiyinizi bildirsəydiniz, mən də sizinlə məmnuniyyətlə gedərdim. Birlikdə baxardıq. Müzakirə edərdik. Daha dərsdən qaçmaq niyə?

O, bu sözləri elə səmimi, elə qayğıkeşliklə bildirdi ki, hamının utandığından başı aşağı dikildi, gözləri partaların altına zilləndi. Hıçqırığımız da çıxmadı.

Dərsdən sonra evə gəldim. Atamın üzünə, gözlərinə baxmağa çəkinirdim. Sanki ürəyimdən ağır yük asılmışdı. Ürəyimi boşaltmaq istədim. Atam bunu hiss etmiş kimi: — Niyə narahatsan, oğlum? — deyə soruşdu.

Mən hər şeyi ona açıqladım. O, əvvəl fikrə getdi və sonra





dedi:

— Narahat olma, oğlum, mən də sənin kimi hərəkət edərdim, kollektivdən ayrılmazdım. — Keçənə güzəşt — deyərlər. Ancaq dərsdən qaçıb kinoya getmək olmazdı. Kinoya dərsdən sonra da getmək mümküniydi.

Etiraf eləyim ki, atam məni düz qiymətləndirdiyindən içimdə bir rahatlıq, yüngüllük duymağa başladım.

Qəbahətlərimə görə mənə güzəştə getməyəcəyini yaxşı bilirdim. O da aydın idi ki, atam nə qədər mehriban, səmimi olsa da, bir o qədər sərt və dediyindən dönməziydi. Qəbahətə güzəşt yoxıydı onda...

Xəstəlikdən əziyyət çəkən atamı həmişə fiziki işlərdən uzaqlaşdırmağa çalışardım. Həyət-baca işlərini dərsdən gələn kimi səhmana salar, inək və camışlara ot biçər, yem verər, tərəvəzi sulayardım. Atamın təkcə razılığı mənim üçün bir dünya iydi...

Hərdənbir anamın manqa başçısı olduğu pambıq tarlasına gedər, gücüm çatan işlərdə ona kömək edərdim.

Yaxşı yadımdadır. Aprel ayının ortaları iydi. Günəşin parlaq şüaları adamın gözlərini qamaşdırırdı. Hava istiləşir, yamyaşıl otların, al-əlvan çiçəklərin ətir saçan qoxusu adamı yüngülləşdirirdi. Kolxozun iki qoşqu atı tarlanın kənarında otlayırdı. Pambıq kollarını seyrəltməkdə anama kömək edirdim. Başımı qaldıranda atların tarlaya girdiyini gördüm. Tarladan çıxarmaq üçün atlara tərəf qaçdım. Elə bu anda at qoşa dal ayaqları ilə sinəmə təpik vurdu. Gözümü açanda özümü xəstəxanada gördüm. Həkim başımın üstündə dayanmışdı, tibb bacıları isə çarpayımın kənarında mənə baxıb gülümsəyirdilər. Atam ağır təlaş keçirir, mənə ürək-dirək verirdi.

Nəfəs aldıqca sinəmdəki ağrılara dözə bilmirdim. Sinəmdə atın ayaqlarının izləri lap aydın görünürdü. Ağrılar hərdənbir kürəyimə, mədəmə vurur, yeməyə, içməyə imkan vermirdi. İki

aydan artıq xəstəxanada olduğum müddətdə atam mənim yanımda qalır, məni yedirirdi, içirirdi, hər axşam köhnə dəmir çarpayıda yatırdı. Hər gecə mənim hərarətimi yoxlayır, lazım biləndə tibb bacısını çağırmaqdan çəkinmirdi. Yorğunluğunu, bu neçə gündə çəkdiyi məşəqqətləri büruzə verməməyə çalışan atamın əzabları üz-gözündən oxunurdu. Qayğı göstərmək, rahatlıq vermək əvəzinə, özüm də bilmədən, ona cismani və mənəvi ağırlıq gətirmişdim.

Ehtiyatsızlığım, əziyyətlərim üçün atamdan utanırdım. — Nə üçün belə oldu, olmaya da bilərdi, — deyə düşünürdüm.

Xəstəxanadan çıxıb evə gələndə bağdakı gilas və şah budaqlı ərik ağacının meyvələri, tərəvəzlikdə çiyələk yetişmişdi. Atam öz əlləri ilə mənə gah gilas, gah ərik, gah da çiyələk dərib gətirər, dilə tuta-tuta məni yedizdirərdi.

Artıq özümdə ağrı-acı, narahatlıq hiss eləmirdim. Yavaş-yavaş əhvalım düzəlirdi. Yanıma gələn sinif yoldaşlarımı atam gilasa, əriyə, çiyələyə qonaq edirdi.

Bir neçə gündən sonra həkimin təklifi və köməyi ilə mənə Bakıda — Xəzərin sahilində — Bilgəh Kardioloji Sanatoriyasında istirahət üçün bir göndəriş verildi. Biz atamla sanatoriyaya getməli olduq. Mən sanatoriyada, atam isə kirayə tutduğumuz evdə qalmalı oldu. Atam hər gün mənim ağsaçlı, ortaboylu, gülərüz olan həkimimlə görüşür, vəziyyətimi öyrənirdi, sonra da atamla parkda gəzişirdik. Hər gün süpürülən, yuyulan səkilər, sulanan yamyaşıl şam, küknar ağacları, göz oxşayan al-əlvan çiçəklər adamın ürəyini riqqətə gətirir, yorğunluğunu çıxarırdı. Günəşin ilıq şüaları altında uca çinar ağaclarının parıldayan yarpaqları sərin meh əsdikcə pıçıldaşır, incə səslərin ahəngdar simfoniyasını yaradırdı. Bilgəhin təmiz havası, şirin suyu, ləzzətli meyvələri xəstə üçün məlhəm olurdu. Xəstə gələnlər tezliklə bu mühitə alışır, sir-sifətləri, əhvalları bütünlüklə dəyişirdi.

Atamla hər gün Xəzərin mavi sularında üzür, narın qumları





üzərində uzanır, dincəlirdik. Tez-tez anamı, cicimi, qardaşlarımı, bacılarımı yada salır, xatırlayır, maraqlı əhvalatlar danışırdıq. Hər həftənin şənbə və bazar günləri atam məni kinoya aparırdı, Bakının görməli yerlərinə atamla birlikdə tamaşa edir, tarixi abidələr, muzeylər haqqında hər şeyi öyrənməyə çalışırdıq. Bakı, Abşeron mənim üçün dünyanın ən gözəl, ən səfalı diyarı, möhtəşəm qalasıdır. Əlləri ilə möcüzələr yaradanlara məndə böyük hörmət və sonsuz sevgi duyğuları oyanırdı. Ağlıma da sığışdıranmazdım ki, bir zaman gələr, bu səfalı diyarda mənim də bağ evim, — mülküm olar.

* *
*

Kəndimizdəki məktəb səkkizillik olduğundan, Əhməd, Teyyub, Muxtar, Rza, Kərim, Nağı və mən təhsilimizi qonşu Qəzyan kəndindəki orta məktəbdə davam etdirirdik. Hər gün hava işıqlanar-işıqlanmaz kəndimizin mərkəzindəki dörd yol ayrıcına toplaşar, oradan da on iki kilometrlik yolu pay-piyada qət edərdik. Çox vaxt birinci dərsə gecikərdik. Dərsdən sonra da evimizə beləcə qayıdardıq. Qısa, yağmurlu payız və soyuq qış günlərində evə bəzən qaranlıq düşəndə gəlib çatardıq. Yağış, qar bizi yorub əldən salar, isladardı. Dizəcən palçıqlı kənd yollarında hərdən sürüşüb yıxılardıq. Dərslərə hazırlaşmağa, demək olar ki, vaxt qalmazdı. Axşam da hamı çırağın başına toplaşdığından dərslərə hazırlaşmaq müşkül işə çevrilərdi. Hərdənbir yol maşınlarına təsadüf edəndə sevincimiz yerə-göyə sığmazdı. Günorta naharını həmişə yolda edərdik. Yaşadığımız Boyat kəndi ilə oxuduğumuz Qəzyan kəndi arasından keçən Göyçay çayından soyuq, diş buzladan su içərdik... Bir dəfə dərsdə sinif rəhbərimiz Pərzad müəllimə bildirdi: — Boyatlılar, sizin üçün məktəbyanı internat açmışıq, kirayə yaşayış otağı almışıq. Orada qalıb

dərslərinizə yaxşı hazırlaşa bilərsiz.

Doğrusu, bu xəbər bizi çox sevindirdi. Ev məktəbdən bir qədər aralıda yerləşsə də, bu, bizi qane edirdi. Otaqda yeddi çarpayı, bir stol, iki stul qoyulmuşdu. Yorğan-döşəyi, balışları hər kəs evindən gətirmişdi. İkimiz stulda əyləşəndə, beşimiz stola yaxınlaşdırdığımız çarpayının üstündə otururdıq.

Biz şənbə günləri dərsdən çıxıb evimizə gedər, bazar günü kirayə yaşadığımız evə qayıdardıq. Uşaqlar həftəlik çörəyini, ətini, yağını, qəndini, çayını... gətirər, bir yerə qatar, bir qazanda bişirər, bir süfrənin başına toplaşar, çox həvəslə, dostcasına yeyib-içərdik. Birlikdə yaşamaq, deyib-gülmək, zarafatlaşmaq nə qədər maraqlı olsa da, dərslərə hazırlaşmaq bir o qədər çətiniydi. Hərə bir söz deyirdi, diqqəti cəmləşdirmək olmazdı.

Payızın son günləriydi. Bazar günü hər kəs həftəliyini götürüb Boyatdan Qəzyana gedərdi. Yolun hər iki tərəfi pambıq tarlasıydı. Yığımın sonu olduğundan kəndin sürüsü, inəklər, atlar, camışlar, hətta, hinduşkalar da tarlada otlayardılar. Həmişə təşəbbüskarlığı ilə seçilən Əhməd bir dəfə də gözlənilməz təklifini verdi:

— Bir o hinduşkalara baxın. Nə kabablıqdır. Kim nə biləcək, gəlin bir-ikisini tutub aparaq. Hərəsi bir həftəlik yemimizdi...

Bu təklifə Kərim də, Teyyub da tərəfdar çıxdılar. Elə bu anda Kərim daşla hinduşka xoruzunu vurdu. Hinduşka qanadlarını bir-birinə çırparaq çabalamağa başladı. Bir göz qırpımında Teyyub hinduşkanın başını bədənindən ayırdı. Kərim ikincisini də vurub yerə sərdi. Bu hinduşkanı da Muxtar kəsdi. Nə yaxşı ki, qalan hinduşkalar qaçıb canlarını qurtardılar.

İndi hinduşkaları aparmaq lazım gəlirdi. Necə? Həmin gün cicimin mənə aldığı boz rəngli təzə paltonun arasına kəsilmiş iki hinduşkanı büküb Rzaya verdik. Şərtə görə hinduşkaları yolun yarısına qədər Rza, qalan hissəsini isə Nağı apardı. Beləliklə,





törədilmiş cinayətə dar uşaq ağlımızla hamımız qoşulmuş olduq.

Kirayənişin yaşadığımız evə çata-çatda hinduşkaların qanının paltodan çıxdığını gördüm. Palto qıpqırmızı boyanmış Novruz yumurtasını andırırdı mənə... Artıq hər şey bitmişdi.

Cicimin əynindən, boğazından kəsərək mənə aldığı, səhər sevinə-sevinə mənə geyindirdiyi bu paltonu yandırmaqdan savayı bir çarə qalmamışdı. Canımı qorxu, vahimə alırdı... Axı bu oğurluqdu. Kiməsə sataşmaqdı. Belə bir xəyanətə biz dözərdikmi? Bu oğurluğun üstü açılsa, sahibinə nə deyəcəyik? Atamın üzünə necə baxacam?! Birdən atam soruşsa, mən nə deyəcəm?..

Necə oldusa, heç özüm də bilmədən bir andaca oğruya döndüm... Biz bir quldur dəstəsinə çevrilmişdik. Öz-özümə düşündüm: bu ləkə ömrümüzə, həyatımıza daimi yapışdı. Halal əməyi, təmiz vicdanı ilə ailəsini saxlayan, dolandıran atanın oğlu olmaq nə qədər şərəflidir?! Bəs oğru, quldur, cinayətkar oğulun atası olmaq necə? Ona necə haqq qazandırasan? Cinayətkarlığa görə el içində atanı rüsvay edən oğulun cəzası nədir? O, hinduşkaları yeyib elmmi öyrənəcək? Sabah parta arxasında oturub dərsmi dinləyəcək?! Vay... Vay... Vay...

Bitki toxumlarının ətrafa səpələnmiş dənələri kimi beynimə dağılmış düşüncələri sistemləşdirə bilmədiyimdən, rahatlığımı əlimdən alan sualların məntiqi cavablarını tapmadığımdan səhərə qədər yata bilmədim. Hinduşkaların əti zəhər olub burnumdan lülə-lülə gəlirdi.

Bir həftə ərzində gecə-gündüz atamı göz önünə gətirirdim. Düşünürdüm ki, o, heç vaxt mənimlə barışmayacaq, mənə "oğul" deməyəcəkdir.

Növbəti altıncı gün dərsdən çıxıb evə gələndə atamı xəstələnmiş gördüm. Onun ürəyi ağrıdığından xəstə yatırdı. Cinayətlərimi ona yox, cicimə danışdım. Gözləmədiyi hadisədən cicim çaşdı, sarsıldı. Məni ilk dəfə görürmüş kimi, bütün diqqətini üzümdə cəmləşdirdi. Cicimin gözlərinə baxa bilmədiyimdən

nəzərlərimi ondan qaçırmağa məcbur oldum. Gözlərinin yaşı yağış dənələri kimi gilələnib yanaqlarından axmağa başladı. Dodaqları səyriyə-səyriyə soruşdu:

— Kimindi o hinduşkalar?

— Bilmirəm.

— Necə yəni bilmirəm? Sahibsiz hinduşka olarmı? İndi atana nə cavab verəcəm? Fikirləşmədin ki, bu hərəkətlərin xəstə atana necə pis təsir elər? Bunu kənd-kəsək eşitsə, bizə nə qiymət verər. Atan — Oğlum var — deyə camaat arasına çıxa bilərmi? Yox, biz hinduşka sahibini tapmalıyıq, hər şeyi ona danışmalıyıq. Oğurladığınız hinduşkaları sahibinə qaytarmalıyıq. Sən ondan üzr istəməlisən, Ağarəhim.

Cicim "Ağarəhim" sözünü elə məntiqi vurğuyla dedi ki, sanki mənə olan indiyə qədərki xoş münasibəti bir göz qırpımında tarı-mar oldu. Mən çəkinə-çəkinə dedim:

— Cici, axı mən bu cinayəti tək eləməmişəm.

— Fərqi yoxdur. Hər kəs özünə cavabdehdir. Onlar da səhvlərini başa düşüb üzr istəməlidirlər.

Cicim əsəbi halda evdən çıxdı. Hara getdiyini bilmədim. Heç bir saat keçməmiş geri, qayıtdı və hinduşkaların kolxozun mühasibi Əbülhəsən kişinin olduğunu bildirdi.

Sonra da həyətdən iki hinduşka tutdu. Birini mənə verdi, ikincisini özü götürdü. Əbülhəsənin etirazına baxmayaraq, hinduşkaları onun həyətinə buraxdıq.

Mənim əvəzimdən Əbülhəsənin özünə, ailəsinə üzrxahlığını bildirən cicim, üstündən ağır yük götürülürmüş kimi deyəsən, yavaş-yavaş özünə qayıdırdı.

Qana, çirkaba batmış paltomu dərin bir vannaya atıb üstünə qaynar su tökdü. Palto tam islandıqdan sonra onu yuyub sərdi. Sonra da mənə ciddi və qətiyyətlə:

— Atan xəstədir. O, bunları bilməməlidir. Sənin kimlərlə cinayət etdiyini heç Əbülhəsən kişiyə də deməmişəm. Bu cinayət





sənin sonuncu səhvin olmalıdır. Adam fikirləşmədən iş görməz. Bəlkə, biri dəli olub, sən də onun ardınca getməli deyilsən ki? Bu, oğlum, cavanlıq deyil, nadanlıqdı. Sənin atanın xətrini hamı istəyir, elə Əbülhəsən kişi də. Mən ondan xahiş etmişəm ki, bu sirri heç kimə deməsin, hətta, atana da. Atan bilsə!..

Mənə lap sonralar məlum oldu ki, atam bunları təfərrüatı ilə bilirmiş, lakin məsələni cicimə özüm açdığıma, qəbahətlərimdən peşimançılıq hissi keçirdiyimə görə bu mövzuda mənimlə danışmaq istəməmişdi.

Əhsən sənə, müdrük ata! Sən nə qədər həssas, adamı başa düşənsənmiş? Bu böyüklükdə səhvi bir dəfə də olsun üzə vurmamısan, məni öz vicdanımın mühakiməsinə vermisən. Əvvəllər mən bunu dərk etməsəm də, indi başa düşürəm ki, sənin qarşında günahkaram... Bağışla məni! Bunu həyatımda ən böyük təkrarolunmaz səhv, qəbahət sanıram...

Xeyli ölçüb-biçdim, yoldaşlarıma səbəbini açmasam da, o vaxtdan kirayənişin yaşamaqdan imtina etdim. Hər səhər dan yeri söküləndə yataqdan qalxar, səhər yeməyini yeyər, günorta naharını çantaya qoyar, sonra da yola çıxardım. Kəndimizdən rayon mərkəzinə gedən yol Qəzyan kənd orta məktəbinin yanından keçdiyindən bəzən yol maşınlarının sürücüləri məni görcək maşını saxlayar: "Gəl əyləş" — deyərdilər. Belə xoş təsadüflərdə sevincimin həddi-hüdudu olmazdı.

Payızın soyuq və sərt küləkləri əsəndə, dondurucu şaxta qılınc kimi kəsəndə, yağış-qar yağıb isladanda uzunboğaz çəkmələrdə ayaqlarımın sızıltısına, kürəyimin qovuşmasına dözə bilmirdim. Soyuqdan qorunmaq üçün daldanacaq axtarırdım.

Bir dəfə də məktəbin həyət girəcəyində yerləşən keşikçi damına yaxınlaşdım. Elə bu dəm dünyagörmüş, ağsaçlı qoca Heydər kişi içəridən pəncərəni döyəcləyərək əlinin işarəsi ilə məni otağa dəvət etdi. Bu çağırış ürəyimcə olduğundan dərhal otağa daxil olub salam verdim. Qoca mənə peçə yaxın oturmağı işarə

etdi. Qəlyanını kibrit çöpü ilə eşə-eşə soruşdu:

— Boyatda kimlərdənsən, oğlum?

— Nüsrətin oğluyam, əmi.

— Hansı Nüsrətin? Yoxsa, o vaxt bizim dükanda işləyən Nüsrətin?

— Bəli, əmi.

Heydər kişi təəccüblə mənə baxaraq dedi:

— Sən mənim dostumun oğlusan, niyə tanışlıq vermirsən? Atan ki bilir mən burada gözətçi işləyirəm. Məktəbin qonşuluğunda yaşayıram. Sən də hər gün yağışda, qarda, şaxtada paypiyada bu yolu ölçürsən.

Mən təşəkkürümü bildirdikdə qoca əlavə etdi:

— Oğlum, atan da bizdə çox olub. Maşallah böyümüsən. Gözlərindən də ağıllı oğlana oxşayırsan. Bax, atan da o dükanda işləyərdi. Mərdimazarlar ona mane oldular. Atanı bu kənddə hamı yaxşı tanıyır. Mən onunla yaxın olmuşam. Hər gün bu yolu gedib-gəlmə. Elə bizdə qal. Dərsini oxu. Atanla mən də danışaram.

— Narahat olmayın, Heydər əmi. Alışmışam hər gün bu yolu gəlib-getməyə.

— Bala, hər səhər mən burdayam. Gəlib çöldə qalma, xəstələnərsən. Necə olsa, koma isti olur. Dərs başlanana qədər gəl əl-ayağını isit, utanma!..

— Yaxşı, — deyə başımı tərpətdim.

Atamın işlədiyi dükanı Heydər əmi pəncərədən mənə göstərəndə ürəyim titrədi. Bədənimdən tükürpədici bir gizilti keçdi. Lakin bu hissi büruzə verməməyə çalışdım.

Həmin gündən bax beləcə Heydər əmi ilə görüşər, atamın salamını Heydər əmiyə, onun salamını da atama yetirərdim.

Heydər əmi söhbətini gündə bir mövzuya həsr edər, hər şeyi dəqiqliklə danışardı. Allahın mərhəmətinə, "İslam dininə", "Qurani-Kərimə", insanın böyüklüyünə, elmin gücünə, kəndin





əkin-biçininə, mal-qaranın saxlanmasına, yaşayışın ağırlığına həsr edər, maraqla danışardı. Yetmiş üç yaşlı qocanın yaddaşının möhkəmliyinə, məntiqinin gücünə heyran qalardım.

Bu müddət ərzində o, bir dəfə də olsun vəziyyətinin ağırlığından söz açmazdı, başqalarının qeybətini eləməzdi. Həyatından, qismətindən razı qalan bu adam yalnız Allaha sığınar, bu gününə şükürlər diləyərdi. Kamillik, müdriklik dövrünü yaşayan Heydər əmi paxıllıq hissindən uzaq, xalq sevincinə, kədərinə şərik olan nurani bir insanıydı. Onun yeganə arzusu axirət dünyasını qazanmağıydı...

Öz-özümə düşünürəm. Hamı anadan çılpaq doğulur, beş arşın ağ kəfənlə dünyasını dəyişir? Nədəndir, bilmirəm... Kimisi Heydər əmi kimi şərəfli ömür sürür, ailəsini namuslu əməklə, alın təri ilə dolandırır, özü üçün axirət dünyasını qazanır. Kimisi də başqalarının acı taleyinə varmadan...

İllər beləcə gəlib keçirdi. Atam və anam gündüz kolxozda işləyir, axşam isə atam həyətyanı təsərrüfat işləri ilə məşğul olur, anam xalça və ya kilim toxuyurdu. Cicim biş-düş edir, ev işlərini görür, uşaqlara baxırdı. Mən atama, bacım isə anama kömək edirdi. Maddi cəhətdən çətinlik çəksək də, ailəmiz çox mehriban dolanır, qonşularla rəftarımız səmimi olurdu.

Böyüyüb yaşa dolduqca atamın mənə münasibəti də dəyişirdi. Hərəkətləri, münasibəti ilə dostluq, qardaşlıq hisslərini daha da dərinləşdirməyə çalışan atam ailəmizin illik gəliri və çıxarı haqqında mənə tez-tez söhbət açmaqdan da çəkinmirdi. Əvvəllər buna heç bir məna vermir, ona adi söhbət kimi baxırdım. Doğrusu, heç ağlıma da gəlmirdi ki, atam məni gələcək ailə həyatına hazırlayırmış.

Ailəmizin maraqlı ənənələri vardı. Atam il boyu qazanılanları qənaətlə xərcləyir, Novruz bayramı üçün ehtiyat pul yığırdı. Novruza bir neçə gün qalmış bayram süfrəsi üçün bazarlıq edir, ailənin hər bir üzvünə hədiyyə alırdı. Bayram axşamı süfrə açı-

lır, hədiyyələr paylanırdı. Hamı gülür, sevinirdi. Beləcə qalsız-qadasız keçirdi bizim ailə həyatımız.

Doqquzuncu sinfi qurtarıb yay tətilinə buraxılmışdıq. Şah budaqlı tut ağacının altında qoyulmuş ağac kötüyünün üstündə oturub S.Vurğunun "Vaqif" pyesini oxuyurdum. Oxuduqca da şairi qəlbimdə ilahiləşdirirdim. Bu vaxt cicim mənə yaxınlaşıb yanımda əyləşdi. Xeyli ordan-burdan söhbət açdı. Axırda dedi:

— Oğlum, sənə atanın fikrini çatdırmaq istəyirəm.

Diqqətlə onun üzünə baxdım. — Qulaq as, — deyə o, söhbətinə davam etdi:

— Bilirsən ki, atan xəstədir. Həyatı bilmək olmaz, o, çox etibarsızdı. Onun böyük övladı sənsən. O, övlad toyu, oğul toyu görmək istəyir. Əmin qızı səninlə yaşıddır. Onu uşaqlıqdan sənə adlamışıq. Gözümüzün qabağında böyüyüb, onu yaxşı tanıyırıq. Atanın arzusu səni Mənsurə ilə evləndirməkdir...

Cicimin sözləri mənim üçün çox gözlənilməz oldu. Mən utandığımdan tutuldum. Bir az da əsəbləşdim. Deyəsən, üz-gözüm də qızarmışdı. Bir qədər sərt halda başımı yırğalamaqla cicimə etirazımı bildirdim:

— Bu nə söhbətdi. Mənim ailə quran vaxtımdımı? Mən oxumalıyam, özümə gün qazanmalıyam. Mənim yaşıdlarım...

— Yaxşı fikirləş, atan sənin toyunu görmək istəyir, bala, — deyə cicim israr etdi.

Mən kitabı oturduğum kötüyün üstünə çırpıb arxama baxmadan darvazaya tərəf getdim. Elə güman elədim ki, bu məsələ bir dəfəlik qapandı...

Bu hadisədən bir neçə gün keçmiş atamla birlikdə dirrikdə işləyirdim. Bu dəfə cicimin dediklərini o, mənə xatırlatdı. Nə qədər yaxın olsam da, başqa məzmunda açıq söhbətlərə girişə bilsəm də, bu dəfə atama nə etiraz edə, nə də razılıq verə bildim. Mənim bu susmağım ona imkan verdi ki, öz istəyinə nail olsun. Belə də oldu. On birinci sinifdə oxuyanda, on yeddi yaşımda ailə qurdum. Toy günümdə atamın sevincinin həddi-hüdudu yoxıydı.





Bəli, atam sevinirdi. O, istəyinə nail olsa da, mənim içimə saldığı qorxu hissindən xəbərsiziydi. Hər dəqiqə, hər saat atamın xəstəliyini düşünürdüm. Onun dünyasını dəyişə biləcəyini təsəvvürümə gətirəndə dəhşətə gəlirdim. Getdikcə atama daha da yaxınlaşır, ona ürəyimin yanğısı artır, qaysaqlanmış yaralarım yenidən sızıldamağa başlayırdı. Nədi bu ağrı?! Nədi bu sızıltı?! Nədi bu göynərti, bu yanğı, İlahi?!

Yaşı çox olmasa da, ayaq üstə gəzsə də, xəstəlik atamı hiss olunacaq dərəcədə zəiflətmişdi. Hara gedirdimsə, içimdə baş qaldıran hisslər məni didirdi, parçalayırdı. Son zamanlar atamla bir yerdə qalmağa daha çox çalışır, onun duzlu, məzəli söhbətlərini dinləməkdən doymurdum. Atam balaca bacılarımı, qardaşlarımı başına yığır, şirin söhbətlər aparanda da, deyib-güləndə də qorxurdum, üşüdürdüm...

Deyəsən, başımızın üzərindəki qara buludlar sıxlaşır, ağır bir faciə bu ailəyə yaxınlaşırdı...

## AD GÜNÜ VƏ YA ƏBƏDİ AYRILIQ

**Hər bir insan heç bir başqa tarixə bənzəməyən tarixdir.**
*Karrel*

**İnsan dünyanı düzgün göstərən ən parlaq bir aynadır.**
*Nəimi*

Ailə üzvlərinin hər il ad günü qeyd olunsa da, atam heç vaxt özü üçün ad günü keçirməzdi. Onun əlli yaşı tamam olurdu. Biz güc-bəla ilə atamdan doğumunun əlli illiyini keçirmək razılığını almışdıq. Neçə vaxt idi ki, bunun üçün hazırlaşırdıq da. Təsadüf elə gətirmişdi ki, atamın ad günü orta məktəbin sonuncu buraxılış imtahanını verməli olmuşdum. Atam orta təhsilimi başa vurmam gününü çoxdan gözləyirdi. Əmilərimi, onların xanımlarını, uşaqlarını da keçiriləcək məclisə dəvət etmişdi.

Yay günəşinin yandırıcı şüaları adamın beynini deşir, üz-gözünü qarsalayırdı. Bürküdən nəfəs almaq olmurdu, adam təngişirdi. Ağacların istidən sıxılaraq büzüşmüş yarpaqları belə tərpənmirdi. Adam əlini bir şeyə vuran kimi, bütün bədənini tər bürüyürdü. Həyət-bacada gəzmək, hərəkət eləmək müşkül bir işə çevrilirdi. Mən imtahandan çıxan kimi evə qayıtdım. Üç il sevinə-sevinə əllərimlə bəsləyib-böyütdüyüm qara, ipəkyunlu, iribuynuzlu qoçu buynuzlarından tutaraq çəkə-çəkə həyətdəki şah tut ağacının kölgəsinə gətirdim. Əmim qoçu kəsərək dəridən çıxartdı. Suyu çəkilmək üçün cəmdək ağacdan bir qədər asılı qaldı. Əmim kabab çəkiləcək yeri hazırladı, kömür gətirdi. Bu işdə səriştəsi olan əmim kabablıq kartofları, pomidorları seçməyə başladı. Axırda əti doğradı: ona duz, istiot, soğan vurub





böyük mis qazana yığdı.

Anam göy-göyərtini, meyvələri yuyub təmizləyir, əmim arvadı ilə cicim əlavə xörəklərin hazırlanması ilə məşğuliydilər.

Atam dincəlmək üçün evə keçdi. Çox çəkmədi ki, geri qayıtdı, narazı halda dedi:

— İstidən evdə dincəlmək olmur. Adamı tər yuyub aparır. Belə də isti olar?

Atam bir yerdə qərar tuta bilmədikcə mənim də narahatlığım artmağa başladı. Əmimə atamın vəziyyətinin yaxşı olmadığını sezdirəndə o da mənim fikrimə şərik çıxdı və əlavə elədi:

— Çox həssas, narahat adamdı. Hamının haqqında düşünür, təkcə özündən savayı. Adam bilmir nə fikirləşsin, nə eləsin... Elə bu dəm atam bizim yanımıza gəldi, ancaq çox dayanmadı. “Yenə ev sərindi” — deyə otağına qayıtdı. Heç yarım saat keçməmişdi ki, bir də bizim yanımıza gəldi və özündən narazı halda anama müraciətlə:

— Mənə bir az qatıq, bir tikə də çörək gətir, — dedi.

— Qatıqdan nə olacaq ki, xörək hazırdır, — deyə anam cavab verdi.

Atam etirazını bildirdi. Ona görə də anam bir kasada qatıq və çörək gətirib süfrəyə qoydu.

Diqqətim atamda iydi. Qatıq-çörək onun boğazından elə bil keçmirdi. O, hər tikə çörək, hər qaşıq qatıq üçün iki-üç dəfə udqunmalı olurdu. Elə bu vaxt atam əsəbi halda kasanı özündən kənara itələdi: “Allah məndən hər şeyi alıb, çörək də boğazımdan keçmir”, — deyə narazı halda dilləndi. Onun bu vəziyyəti, çörəyi çətinliklə udması indi də gözlərimin önündədir, əsəbi etiraz səsi qulaqlarımda cingildəyir. Əcəb yanıb-yaxılıram.

Narahatlığı getdikcə artan atam əmimlə mənə dedi: “Hələ axşama çox var. İstidir, siz də gedin, bir az dincəlin. Evdə uzanın”.

Mən “yox” cavabı vermək istəyirdim ki, o, yenidən təkid etdi. Əmim onun təklifini qəbul edərək bildirdi: “Mən bir evimizə

dəyim. Atan düz deyir. Sən də bir az dincəl. Bir azdan mən gələndə səni də qaldıraram".

Əmim evlərinə getdi, mən yataq otağına keçdim. Başımı balınca qoymuşdum ki, məni dəli bir yuxu apardı. Az-çox yatdığımı deyə bilmərəm. Heç bir yuxu görmədən, narahatlıq hiss etmədən diksinib yuxudan oyandım. Bədənim titrədi. Hər şey bir an içində ötdü. Bir şey olmamış kimi yenidən başımı balınca qoydum. Yenə yuxu aparar-aparmaz diksinib qalxdım. Nəydi bu anlaşılmazlıq? Nəydi bu əcaib narahatlıq? Onu indi də izah edə bilmirəm. Qəribəydi. Bu dəfə də heç bir şeyin fərqinə varmadan başımı balınca qoyub yatmalı oldum. Yuxu aparmışdı ki, məndən səkkiz yaş kiçik qardaşım Məmmədrəhim pəncərədən:

— Qardaş, qardaş, Ağarəhim, — deyə sakit tərzdə məni çağırdı.

— Hə, — deyə yuxudan hövlnak oyandım. O: — Atam yatıb, — deyə cavab verdi.

Mən:

— Yatıb, qoyun yatsın, narahat eləməyin.

— Elə yox, atam həyətdə pilləkənin qabağında yıxılıb.

Mən dərhal ayağa qalxıb eyvana çıxanda gözlərimə inanmadım. Heç vaxt — "Qonşulardan ayıbdır", — deyə eyvanda uzanmayan atam indi yerdə pilləkənin qarşısında üzü üstə yıxılı qalmışdı.

Bu vaxt anam da, cicim də, bacı-qardaşlarım da atamı dövrəyə aldılar. Qəribəydi ki, qorxudanmı, çaşqınlıqdanmı heç kimin səsi çıxmırdı, sanki hamımızın nitqi tutulmuşdu. Bir an hamımız lal, qaradinməz olduq.

Mən onlardan fərqli olaraq tezliklə özümə gəldim, çaşqınlığı özümdən uzaqlaşdırdım atılıb atamın başını qaldırdım, cəld çiyinlərindən tutdum: "Siz də ayaqlarından götürün", deyə qışqırdım. Anam, qardaşlarım bunu gözləyirmişlər kimi bir neçə yerdən yapışıb atamı evə gətirdik. Cicim döşəməyə cəld döşək sərdi, biz atamı həmin döşəyin üstünə qoyduq. Cicim "Quran" oxumaq üçün qonşuluqda yaşayan Mir Ələkbəri, əmilərimi çağırmağı təkid edirdi. Elə bu anda əmim həyət qapısından içəri girdi.





Məndən üç yaş kiçik qardaşım Əli Mir Ələkbərin ardınca qaçdı. Atamın nəfəsi hərdənbir gedib-gəlirdi. Mir Ələkbər gələndə atam özünə qayıdırmış kimi gözlərini açdı, mən dərhal onun boynunu qucaqladım. Mir Ələkbər "Yasin" oxumağa başladı. Heç bir söz demədən atamın gözləri gözlərimə dikildi. Mənə bir şey deyəcəyini, anladacağını duydum. Bir an hansı qüvvəsə məni atamdan hiss olunmayacaq qədər kənarlaşdırdı. Elə bu vaxt atamın gözlərindən mavi bir işıq şüası çıxdı, dərhal da o şüa evin açıq pəncərəsindən ildırım sürətilə süzülüb getdi. Bu qeyri-adi yaranış, qarşımda açılan mənzərə məni də bir an özümdən ayırdı, canımdakı qorxu, kədər hissini sanki əritdi. Atamın ölümünü unutdum və dərhal özümə qayıtdım. Bu anlaşılmazlıq nə idi?.. Bəli, hələ ki, bəşər övladına məlum olmayan bir möcüzə!.. Sirli-soraqlı bir aləm!.. Səmavi-qədər!..

Mir Ələkbər "Yasin" oxumaqda davam edir, anam, bacılarım, qardaşlarım ağlayırdı. Cicim atamın gözlərini qapadı, əmim qardaşının ayaqlarını yaxınlaşdırıb baş barmaqlarını bir-birinə bağladı. Sonra da üzünə ağ çəkib atamı son vida üçün qohum-əqrabanın ixtiyarına verdi.

Bəli, atamın ad günü, son vida günü oldu. Heç vaxt özü üçün ad günü keçirməyən, əzabkeş atam. Sənin ad gününü keçirmək üçün bişirilmiş xörəklər, yuyulub stola veriləcək göy-göyərti, meyvələr, kabab çəkiləcək pomidor və kartoflar, üçillik qoçun əti indi sənin...

Bütün ailəmiz çaşıb qaldığından nə edəcəyini, hansı işləri görəcəyini bilmirdi.

Yuyacaddan gətirilən atamın cənazəsini bacılarım, qardaşlarım, anam, cicim dövrəyə aldılar. Onu qucaqlayıb buraxmaq istəmirdilər. Ailəmizə üz verən bu ağır kədər məni sarsıtmışdı.

Ağlamağı bacarmırdım. Ancaq içimdəki yanğı, göynərti, ağrısızqı az qala ürəyimi dağıdırdı.

Qohum-qardaş hərə bir tərəfdən girərək atamın cənazəsini qaldırıb son mənzilə yola salanda, əbədiyyətə qovuşduranda anam özündən gedərək yıxılmış, üz-gözü parçalanmış, haçan-dan-haçana özünə gəlmişdi. Bacı-qardaşlarımın solğun, kədərli, qəmli, qüssəli üzünə baxa bilmirdim. On azyaşlı yetim uşaqla qalan anamın uca qaməti bir an içində bükülmüşdü, ürəyindəkiləri açıb danışa, dərdini kimsəyə söyləyə bilmirdi.

O axşam balaca bacı-qardaşlarımı əmimi dostum evlərinə apardı. Onları çox çətinliklə yedirib, içirib yatırtmışdı. Cicim, anam, əmilərim səhərə qədər yatmadılar. Mən — Atasız neyləyə bilərik? — dedikdə əmim: “Mən ölməmişəm ki, siz çətinlik çəkəsiniz”, — deyə mənə təskinlik verirdi.

Adamlar dəstə-dəstə gəlir, əmimə, yaxınlarımıza çəkinə-çəkinə başsağlığı verib gedirdilər. Ailəmizi yaxşı tanımayanlar: — Mərhumun uşaqlarından böyüyü varmı? — deyə soruşurdular. Adamlar məni göstərirdilər. Onlar da hissolunmaz dərəcədə təəssüflənirdilər...

Atamın vidasından iki gün keçmişdi. Mənlə əmim bu iki günü yatmadığımızdan taqətdən düşmüşdük. Yatağıma elə bil, bitbirə dolmuşdu, bədənimə sanki qaşınma düşmüşdü. Üçü axşamı başımı balınca atan kimi atamı yuxuda gördüm. O, çox zəif, halsız, kədərli görünürdü. Mən: “Ata!” — deyib onun üstünə atılmaq istədim. O, buna imkan verməyərək mənə yazığı gəlirmiş kimi:

— Oğlum, dayan, səbirli ol. Sən daha uşaq deyilsən. İndi bacılarının, qardaşlarının, ananın, cicinin taleyinə cavabdehsən. Əmin qızını — xanımını da incitmə, narazı salma. Ailəni başına yığ. Onları işə alışdır... Siz əməyinizlə yaşamalısız. Heç kimdən imdad gözləməyin. Kamili əzizlə, oğlum. Məndən nigaran qalmayın...





Atam sözlərini qurtarar-qurtarmaz yuxudan oyandım. Dərhal yatağımda oturaraq hönkürtü ilə ağlamağa başladım. Səsə xanımım oyandı və mənə bir stəkan sərin su gətirərək dedi:

— Su iç, özünə gəl. Yat, bir az dincəl. Sən tezdən qalxmalısan, işin çoxdu.

Suyu içərək yatağıma uzandım, ancaq yata bilmədim. Artıq ailə qarşısındakı məsuliyyətimi aydın duyurdum. Mən olub-keçənlərlə razılaşmağa məcbur idim. Atamla bağlı düşüncələr, ailənin dolanışığı haqqındakı fikirlər sinəmə elə bil dağlar ağırlığında yük çökdürmüşdü. Çıxış yolunu tapmaqda aciz idim. Lakin bu acizliyimi bir kəsə büruzə verməyi də özümə sığışdırmırdım.

Bəli, atasız günlərim başlanmışdı. Cicim: “Atan xəstədir, oğul toyu görmək istəyir”, — deməkdə nə qədər haqlı imiş. Doğrudu, bununla o, mənim də içimə “Atam tezliklə dünyasını dəyişəcək” qorxusunu salmışdı. Deməli qorxu əbəs deyilmiş. Bu, hər ikimizin — elə dünyasını ad günündə vaxtsız dəyişən əlli yaşlı xəstə atamın və mənim ağır uçurumlar altında qalıb aramsız inləyən acı taleyimizmiş.

Atam getdi... Evdə, ailədə, həyət-bacada yalnız izləri qaldı. Atasız günləri yaşamaq mənim üçün çox ağır və dözülməziydi. Evin çiy kərpicdən hörülən divarları elə bil uçub üstümə gəlirdi. Atamın isti nəfəsi, hənirtisi duyulmurdu, səsi eşidilmirdi.

Onu sonralar da tez-tez yuxuda görərdim. Ancaq hər gün xəyalən atamla birlikdə ot çalar, ağac basdırar, bağ sular, tərəvəz əkərdik. Gah da hərdənbir atamın verdiyi məsləhətlər yadıma düşəndə ürəyim az qala dayanırdı. Nə gizlədim, təkliyə, kimsəsizliyə düşən kimi gözlərimin yaşı ilə ürəyimi boşaldırdım. Heç yadımdan çıxmaz. Səkkizinci sinifdə oxuyanda ilk dəfə idi ki, atam mənə yun kostyum almışdı. Axşam kostyumu mənə geyindirdilər. Atam, anam, cicim, bacı və qardaşlarım mənə həvəslə tamaşa edirdilər. Hamı:

"Çox yaxşıdır", "Çox mübarək", "Sağlığına qismət", — desə də, bu yaşadək yun kostyum geymədiyimdən bədənim qaşınmağa başladı. Kostyumu çıxarmaq istədikdə atam: —"Oğlum, tələsmə, tezliklə alışacaqsan", — dedi.

Xatirələr beynimdə çözələndikcə, atalı günlərim yadıma düşdükcə daha da qüssələnir, heyrətlənirdim...

Deyirlər, sevgini dilə gətirməzlər. Sevgi hisslərdə, duyğularda yaşayar. Ürəklərdən-ürəklərə yol tapar. Mən atamı sevirdim, canım qədər, dünyam qədər...

Əlli yaş... Bu nə böyük ömüriydi, Xudaya?! Onu da əzabəziyyət içində yaşadı atam. On kiçikyaşlı uşağı yetim qoyub getdi atam. Yox, deyəsən, düz demədim. Atamı öz dünyasından qopardı, fələk...

Atamın ad günündən, son vidasından uzaqlaşdıqca ona daha da yaxınlaşırdım. Hərəkətlərini, yaxın və uzaq adamlara münasibətini özlüyümdə qiymətləndirməyə çalışır, hər dəfə də ona haqq qazandırırdım. O, mənim yaddaşımda sədaqətli ər, mehriban ailə başçısı, ləyaqətli vətəndaş, həssas qəlbli insan, səmimi və olduqca da sərt bir ata kimi həkk olundu...





## ÜRƏK YARI BÖLÜNƏRMİŞ...

**Deyirəm ki, uzaq yolda susuzluq çəkən**
**Bir insanın yollarında bulaq olaydım...**
**Bütün məslək dostlarımın bu dünyada mən**
**Hər qəminə, nəşəsinə ortaq olaydım!**

***S.Vurğun***

**İnsanlar cürbəcür, insanlar min-min**
**Öz aləmi vardır, hər bir ürəyin...**

***B.Vahabzadə***

On iki, on üç yaşım olardı. Həmin il qış çox sərt gəldiyindən yağış, qar ara vermirdi. Dondurucu şaxtadan damlardan, daşlardan yarım metr uzunluqda sırsıralar sallanırdı. Hər gün yağan qar bir-birinin üstünə qalanır, ərimək bilmirdi. Ağacların budaqları qardan əyilmiş, otların üstü örtülmüşdü. Mal-qara isti tövlələrdə saxlanılır, hər səhər, hər axşam axurlar yemlə doldurulurdu. Soyuq və aclıqdan sərçələrin, qaratoyuqların tükləri pırpızlaşmışdı. Onlar damların, daşların həndəvərinə tökülən, tövlələrdən çıxarılan zir-zibillərin arasında civildəşə-civildəşə yem axtarırdılar...

Odun peçinin istisi otağı yaxşıca qızdırmışdı. Buna baxmayaraq, odun yarmasının ikisini peçə qoydum. Onlar alışdıqca peçin yan tərəfləri istidən köz kimi qızarırdı. Qarlı-şaxtalı havada isti peçin qırağında oturub dincəldikcə bədənim yaxşıca qızırdı. Məstan pişik peçin ətrafında tökülən pambığın üstündə uzanıb mürgüləyirdi. Mən əvvəl onun başına, bədəninə sığal çəkdim. Sonra bir çəngə pambıq götürüb didməyə — çiyidlərini çıxarmağa başladım. Cicim isə yuyulub qurudulmuş baramaların əlgi ilə saplarını açırdı.

Bəstəboy cicim gülərüz, xoşxasiyyət, rəhmdil, hamının sevincinə, kədərinə şərik olmağı bacaran bir insanıydı. O, adamı

axıra qədər dinlər, haqsızlığa dözməzdi. Hərənin səhvini düz gözlərinin içinə deyərdi. Aydın və sağlam düşüncəsi, iti sözləri mənim çox xoşuma gələrdi. Olduqca dözümlü, sözünün üstündə duraniydi, hətta heç vaxt mənə də güzəştə getməzdi.

Cicim kişi xislətli ər qadınıydı. Heç nədən, heç kimdən çəkinmədiyindən qəbul etdiyi qərarları da qəti olardı.

Atam haqqında düşüncələrimi, xatirələrimi kağıza köçürərkən "anam" və "cicim" sözlərini çox vaxt yanaşı, qoşa işlətmişəm. Yəqin ki, fikirləşirsiniz "Cicim" kimdir? Etiraf edim ki, uşaqlıq illərində mən də bu haqda çox düşünmüşəm... On iki, on üç yaşım olanda həmin suala cicim özü cavab vermişdi. Cavab məni heyrətə salmışdı. Çox fikirləşdim, çox düşündüm... Olub-keçmişləri xatırladım. Sualın cavabı açılanda mən yəqin elədim ki, cicim adi insan deyilmiş... Ulu Tanrının nurundan yaranan bu böyük qadın özü də bir ilahi varlıqmış... Heç bir təhsil görməyən qadın ürəyinin genişliyi, qəlbinin hərarəti, səxavəti nə qədər güclü olarmış, İlahi!!! Bağışla məni, Ulu Tanrı! Bağışla məni, cici! Sənin qüdrətin, əzəmətin, müdrikliyin qarşısında mənəvi gücsüzlüyümü duyuram. Sənin kimliyini, hissini, duyğunu açmaqda bu gün də acizəm.. Bu hekayəti necə danışdığın yadındamı, Şamama cici! Ruhuna qurban olum, izn ver, danışdığın hekayəti sənin dilinlə təkrarlayım:

— Oğlum, daha böyümüsən. Sən nə vaxtsa, olub-keçmişlərdən xəbərdar olmalısan. İndi sənə mühüm bir məsələni açmaq istəyirəm. Ancaq axıra qədər məni dinlə, sözümü kəsmə...

Mən təəccüblə cicimə baxdım. Onun mənа dolu qonur gözləri, məhzun baxışları mənə dikilmişdi. Səsində bir titrəyiş, həya, ismət hissindən üz-gözündə qızartı duyulurdu. Yüksək mənəvi qüruru olan cicim utandığından gözlərini yana çevirməyə məcbur oldu. Etiraf edim ki, bu halı cicimdə ilk dəfəydi görürdüm. Onun bu halına içimdə acıdım da.

— Eşidirəm, — deyə ani sükutu pozdum. O, ah çəkərək yenidən danışmağa başladı.





— Atanla mən əmiqızı, əmioğluyuq. Məndən iki yaş böyük olsa da, uşaqlıq illərimiz onunla birlikdə keçərdi. Rəhmətlik ata nənən bizi uşaqlıqdan ad eləmişdi. Biz bir-birimizi istəyib, bəyənib ailə qurmuşduq. Atanın ilk bəxti, ilk xanımı mən olmuşam. Biz yeddi il birlikdə yaşadıq, şən və xoşbəxt həyat sürdük. Bir dəfə də olsun umu-küsü, dedi-qodu eləmədik. Bizim övladımız olmurdu. Bu illər ərzində atan insafən bu haqda fikirləşməmişdi. Mən ondan çox razıyam. Atan sədaqətli, etibarlı, ailəcanlı adamdı. Açıq danışdığım üçün məni bağışla, oğlum!

Biləndə ki, bizim heç vaxt övladımız olmayacaq, onun da səbəbi məndədi, hər gün ölüb, təzədən dirilirdim. Əvvəllər bütün günü vahimə içərisində yaşayırdım. Yavaş-yavaş qismətimlə barışmağa başladım. Ancaq atana yazığım gəlirdi. Axı onun günahı nə idi ki, sonsuz qalsın? Mən onu da bədbəxt edə bilməzdim. Oturub-durub düşünürdüm. Niyə o binəva mənim ucbatımdan uşaq üzünə həsrət qalsın, övlad hissini duymasın? Nəydi bu bədbəxtlik? Haradan tapmışdı məni bu acı qismət? Bilmirəm.

Çox fikirləşib, axır ki, özümdə qüvvə tapa bildim. Atandan ayrılmaq qərarına gəldim. Onu sonsuz qoya bilməzdim. Acı da olsa deməliyəm. Sonsuzluğun nə olduğunu sonsuzlar bilər. Bir axşam qərarımı atana bildirəndə ildırım vurmuş kimi dilləndi:

— Sən nə danışırsan? Bu fikir hardan ağlına gəlib? Mənə təkcə sən gərəksən. Bir tikə çörək tapırıq. Gəl, ona zəhər qatma...

Atanı axıra qədər dinlədim. Onu da başa düşürdüm. O, məni sevirdi, məndən ayrılmaq istəmirdi. Xeyli müddət inadımı qırmağa çalışdı. Ancaq mənim qərarım qətiydi.

Hər axşam-səhər ayrılıq, övlad — uşaq haqqındakı söhbətlərimi davam etdirirdim. Atan mənə qulaq asmaq belə istəmirdi. Mən söhbəti daha da ciddiləşdirdim. Sonra atam evindən gətirdiyim cer-cehizlərimi götürüb ata babandan qalmış, indi yaşadı-

ğımız bu evə köçdüm. O gündən ayrı yaşamağa başladıq. Həmişə fikrimdən daşınacağıma atan ümid bəsləyirdi.

Eh, oğlum, sonsuzluq və tənhalıq içərisində təlatümlü taleyim başlanmışdı. Hər gecəm, hər gündüzüm acı bir rüzgara dönmüşdü. Gecələr atandan xəbərsiz atan üçün ağlayar, göz yaşlarım başımı qoyduğum balıncı isladardı. Nə vaxt yuxuya getdiyimi bilməzdim. Bəzən də evin işığını söndürüb atan yatan otağın işıq gələn pəncərəsinə baxardım. Bağışla, oğlum, bu, mənim acı taleyim idi... Günlər beləcə gəlib keçirdi. Atanın narahatlığı məni də rahat buraxmırdı. Öz-özümə düşünürdüm. Axı, o, ailə qurmalıdır. Oğul-uşaq sahibi olmalıdır. Ona görə ayrılmamışdım ki, mənə əziz olan bir adama dərd, ələm gətirim. O, ikinci dəfə ailə qurmalıydı. Düşündüm ki, bu addımı da mən atmalıyam. Atanın kiminləsə ailə qurmasını Sadıq əminə açanda o, heyrətini gizlədə bilməyərək dedi:

— Şamama, əmiqızı, sən nə danışırsan? Sən öz xoşbəxtliyini, öz səadətini öz əlinlə boğmaq, kiməsə vermək istəyirsən, nədi? Gəl, qayıt evinə, eşiyinə. Axı o da səninlədi...

Mən əminin sözünü kəsərək qəti əlavə etdim:

— Kiməsə yox, Nüsrətə! O, evlənməlidi. Biz qabağa düşməliyik. Nüsrətlə danış. Razıdırsa, qonşu Bərşad kəndindəki Yasin kişinin — çoxdankı tanışımıziydi — bacısı qızı Zəhranın elçiliyinə gedək. Yox, başqa adamı varsa, onu desin, uzatmayaq...

Çox çəh-çöhürdən, söz-söhbətdən sonra Nüsrətin razılığını alıb bir neçə gün sonra mən əminlə Zəhranın elçiliyinə getdim. Zavallı qız kiçik yaşlarından ata-anasını itirdiyindən dayısı Yasinin himayəsində yaşayırdı. Yasin kişi bizim ailəni yaxşı tanıdığından, Zəhranın fikrini öyrənmədən razılığını verdi. Çox keçmədi ki, Zəhra ilə atan ailə qurdular. Mən buna indi də sevinirəm...

Kolxoz işlərinə getməsəm də, gün axşamacan həyət-bacada





işləyir, toyuq-cücələrə baxır, heyvanlara qulluq edirdim. Başımı qarışdırmağa çalışırdım. Gecələr üzücü tənhalıq məni bezikdirmişdi. Yaşamağa həvəsim də sönmüşdü. Bir həyətdə yaşadığımızdanmı, acınacaqlı vəziyyətimə yazığı gəldiyindənmi bilmirəm, məni tək buraxmazdı anan. Onda mərhəmət hissi çox böyükdü. Bir kərə o, təklikdə mənə dedi:

— Şamama bacı, Nüsrət hər şeyi mənə danışıb. Sənin böyük qəlbin, səxavətin var. Dağ ağırlıqda yükü çiyinlərinə götürmüsən. Öz xoşbəxtliyindən özün imtina eləmisən. Ömrünü, səadətini, ürəyini yarı bölmüsən, mənim bacım. Mən səni özüm üçün bacı, ən yaxın rəfiqə sanıram... Taleyini başa düşürəm... İnana bilərsən mənə.

O vaxtdan biz ana-bacı kimi bir həyətdə yaşayırdıq... Zəhra uşaq gözləyirdi. Təklik, tənhalıq əlindən cana doyduğumdan bir dəfə atana: "Uşaq oğlan da olsa, mənimdi, qız da", — deyə bildirdim. Atan gülümsədi. Zəhra isə heyrət və təəccüblə gözlərini üzümə zillədi. Mən sözlərimin yersizliyini düşünüb, qızardım. Zəhra utandığımı, dediyim söz üçün peşmançılıq hissi keçirdiyimi duyurmuş kimi boynumu qucaqladı, ucadan qəhqəhə çəkərək: "Sözümüz sözdü, bacım", — dedi və üzümdən öpdü...

Xeyli sonra ailədə bir oğlan uşağı dünyaya göz açdı. O, hamıya sevinc gətirdi. Ad qoyanda Zəhra dedi: "Bu, Şamamanın oğludur. Özü bilər, adını nə qoyar".

Söz qulaqlarımda guyuldadı. Ürəyim, bədənim titrəməyə başladı. Bu mərhəmətlə mənə əvəzmi verirdi, məni sonsuzluqdanmı, tənhalıqdanmı qurtarırdı, bilmirəm. Həmin vaxtdan yaş yarımınadək uşağı ikimiz saxladıq. O gündən sonsuzluq, tənhalıq əbədiyyətə qovuşdu. Mənim balam, haqqında danışdığım o uşaq sən idin. Budur, bizim taleyimiz. Həyat hekayətimiz. Sən əvvəl-axır bunları bilməliydin. Həqiqi ananı tanımalıydın...

Qaranlıq mətləbləri açmaq, onlara işıq salmaq səxavəti Ulu Tanrınındır. Olum və ölüm. Bunların heç biri insanın öz istəyi,

öz təşəbbüsü ilə baş verməsə də, bu iki nöqtə arasındakı məsafəni insanlar öz arzularına uyğun addımlamalı olurlar. Kamilliklə nadanlıq, müdrikliklə cahillik qoşa olduğundan, qəlbində o böyük Yaradanın xofu olanlar onlardan ancaq əvvəlkiləri seçir, özlərinin səadətini, xoşbəxtliyini əldə edə bilirlər.

Cicimlə keçirdiyim günləri düşünürəm. Atama sevgisinin, mənə məhəbbətinin, anama qayğının, bacı və qardaşlarıma istəyinin sonsuzluğunu xatırladıqca böyüklüyünə qibtə edirəm, cici!.. Bu hekayəti danışmaqla nə demək istəyirsən?! Bəlkə həyat verdiyin bir adam hansısa qəbahətə yol verib? Ona olan inamına şübhələr yox, cici oyadıb. Mən sənin ümidlərini qıra bilmərəm. Bəlkə ürəyinə gələ mənə elədiklərini nə vaxtsa unudaram? Düşünürsən ki, mənim üçün çəkdiyin yuxusuz gecələrimi, əynindən, boğazından kəsib məni yedizdirdiyinimi, geyindirdiyinimi yaddaşımdan silərəm? Başımı sığallaya-sığallaya üz-gözümdən öpdüyünümü, şıltaqlıqlarıma görə min-bir əzabla hər dəfə nazımı çəkdiyinimi unudaram?! Sənin tərbiyə elədiyin adam heç vaxt naxələf ola bilməz. Yox, indi sən mənim üçün başı göylər dələn vüqarlı bir dünyasan, ilahi bir şövqsən, Şamama cici. Sən özün boyda mərhəmətsən! Bütün əzab və məşəqqətlərə dözə-dözə sevdiyin adama xoşbəxtlik, səadət gətirmək istəmisən. Sən əlçatmaz ismətsən! Bu yolda ağlagəlməz addımlarını atmısan. Ancaq özün yanmısan, ərimisən... Gəncliyini, gözəlliyini mənə qurban vermisən, təki sevdiyin adamın niskili olmasın deyə...

İndi mən soruşuram: bu mərhəmət, bu istək, bu səxavət sənə hardan gəlmişdi, cici?! Sən ayrılmaqla, ürəyini yarı bölməklə ilk məhəbbətini, — mənim atamı xoşbəxt edə bilmişdinmi?

Aman Allah! Nə qədər böyükmüş qadın ürəyi! Biri səadətini, xoşbəxtliyini, o birisi öz ilkini...





## QARANLIĞA İŞIQ DÜŞÜR

**İnsan xidmətinə sərf olunan ömrün hər nəfəsi bir həyata bənzər. İnsan daim dinclik və səadət axtarır.**

***Hümam Təbrizi***

**Özünü idarə edə bilməyən adam başqalarını idarə etməyə qadir ola bilməz.**

***Penn***

Mən yaş yarımlıqdan cicimin yanında yaşasam da, tarixini dəqiq ağlıma gətirənmədiyim çağlardan bərini xatırlaya bilirəm. Xüsusiylə ən yadda qalanı, xatirələrdə çözələnəni ağrısız-acısız, şən və qəhqəhəli məktəb illəri. Ondan söz açıb danışmamaq insafsızlıq olardı. Hər gün cicim məni geyindirib-keçindirib məktəbə yola salır, başım yoldaşlarımla oynamağa qarışıb evə gec qayıdanda ürəyi dözməyib yoluma çıxırdı. Heç vaxt işsiz-gücsüz dayanmağı bacarmayan cicim evdə toyuq-cücəyə baxır, mal-qara saxlayırdı. Həyətyanı sahəmizdə tərəvəz, bostan əkib-becərirdi. Hər il yaz aylarında barama qurdu bəsləyirdi. Baramaları dövlətə təhvil verəndə ən yaxşılarından seçib saxlayır, qış gecələrində mənə maraqlı nağıllar danışa-danışa onlardan sap əyirirdi. Sonra da yerdə uzun bir xana qurur, öz əlləri ilə boyadığı saplardan əlvan parçalar, zərif kəlağayılar toxuyurdu. Ər evinə köçən qızlara qoşulan cehizlik döşək üzlərinə, kilimlərə, jaketlərə cicimin necə məharətlə ilmələr vurması indi də yadımdan çıxmır. Hər gün toyuqların, qazların, hinduşkaların hinindən bir vedrə yumurta götürür, kəndin dükanına verirdi. Təkcə yumurtadan aldığımız pullar bizim yeməyimizə, paltar və ayaqqabılarımıza bolluca çatırdı. Üstəlik qohum-qonşularımızdan borca gələnlərə də əl tuturdu mənim cicim.

Biz iki nəfər olsaq da, cicim hər axşam beş-altı nəfərlik qazan asırdı. Onun kiçik bir qazanı var idi. Xörək çəkəndə əvvəlcə onu doldurub mənə verir: "Qorxma, qapıdan baxıram, apar anana ver, sonra tez qayıt, biz də xörəyimizi yeyək", — deyirdi. Mən sevinə-sevinə qazançanı aparır: böyüklərə məxsus bir əda ilə "— Alın, siz də yeyin", — deyirdim. Qazan gətirdiyimi görcək balaca bacımla qardaşım üstümə qaçırdılar. Mən də öz növbəmdə: "— Aralı çəkilin, siz dağıdarsınız", — deyə əda göstərirdim.

Heç yadımdan çıxmaz. İkinci sinifdə oxuyurdum. Bir gün hesabdan — o zamanlar hesab fənni tədris olunurdu — tapşırığı yerinə yetirməmişdim. Anam buna görə məni atamla hədələmişdi. Bu mənim şəstimə toxunduğundan demişdim:

— Baxarsan işinə... Hamısını cicimə deyəcəm. Daha sizə gəlməyəcəm. Hər axşam yemək də gətirməyəcəm. Görüm, onda ərinə, qızına, oğluna nə yedirəcəksən?..

Anamın özünü saxlaya bilməyib çəkdiyi qəh-qəhələr indi də qulağımda səslənir. Sonralar anam mənim hədələrimi atama da, cicimə də söyləmişdi. Atam bir dəfə gülə-gülə: "— Axı sən kişisən, kişi də anasına hədə gələrmi?" — deyə zarafatla başını yırğalamışdı. Mən dərhal: "— Bağışla məni, ata, bağışla ana, bir də belə səhvə yol verməRəm", — demişdim və anamın yanaqlarından öpmüşdüm. Anam gülümsünərək: — "Yaxşı, mən bağışladım", — demişdi.

Üzvlərin sayı çoxaldıqca ailədə xərclər də artırdı. Bunu nəzərdən qaçırmayan cicim qardaşlarıma, bacılarıma pal-paltar, ayaqqabı alardı. Bəzən hər gün, bəzən də günaşırı həsir zənbili doldurar: "Apar anangilə ver, tez gəl", — deyərdi.

Ailə üzvlərini nə qədər çox istəsəm də, bir dəfə cicimə yazığım gələrək demişdim: "Nə üçün hər gün zənbili doldurub onlara verirsən?"

Cicim gülümsünərək bildirmişdi:

— Oğlum, biz də onlarıq, onlar da bizik. Axı biz birlikdə





əkib-becəririk. Birlikdə qazanırıq. Deməli, birlikdə də yeməliyik. Adam kəmhövsələ olmaz. Əvvəl hər şeyi öyrənər, sonra danışar. Atanla anan kolxozda işləyir, mən isə evdə. Onlar kolxozdan qazanıb gətirirlər. Mən evdə bacı-qardaşlarına baxıram. Tərəvəz becərirəm, meyvə ağaclarına qulluq eləyirəm. Toyuq-cücə saxlayıram Belə olmasa, dolana bilmərik.

Cicim hər dəfə ata-anama bax beləcə haqq qazandırardı.

Hər il axırıncı Novruz çərşənbəsində cicim rəngbərəng yumurtalar boyayır, xonça tutur, mənə verib anamgilə göndərirdi. Bayram günü təzə aldığı paltarları mənə geyindirər, yanına salar, bacısıgilə, hara, hara qonaq gedərdik. Mən cicimlə yanaşı gedəndə, o, həmişə sevinər, — "Mənim oğlum", — deyə fəxr etdiyini görərdim.

Uşaqlıq çağlarımda cicimin mənə söylədiyi maraqlı nağıllar, bəzən nağıl tapmayanda özündən uydurduğu əhvalatlar, hekayətlər, onların vuran-qıran qəhrəmanlar, igidlikləri necə də əlçatmaz idi.

Şamama cicimin həkimliyi də vardı. Ona inanıb el arasında: "Loğman", — deyə çağırardılar. Bu ad ürəyimcə olduğundan mənə ləzzət verərdi. Mən də ona: "Ay həkim", — deyə müraciət edərdim. O da gülümsəyər, belə cavab verərdi: — "Qocaya zarafat eləməzlər, oğlum. Məsləhətlərimin, dərmanlarımın faydasını görməsələr, mənə heç kəs inanmaz".

Dərman bitkilərini çox yaxşı tanıyan cicimlə tez-tez səfərə çıxırdıq. Daha çox yaz aylarında kəndimizdən bir az aralıda özünə məskən salan Göyçay çayının sahilinə gedirdik. Cicim otların, kolların arasında dərman bitkilərini axtarar, bəzilərinin yarpaqlarından, bəzilərinin köklərindən, bəzilərinin də çiçəklərindən yığardıq. Hər dəfə seçdiyi dərman bitkilərinin adlarını mənə deyər, onları tapan kimi məni yanına çağırar: — "Oğlum, yaxşı bax, bu filan çiçəkdir, filan dərdin dərmanıdır", — deyərdi. Gün axşama qədər lazım olan bitkiləri axtarar, torbalara yı-

ğar, günəş qüruba çəkiləndə evimizə qayıdardıq. Cicim topladığımız bitkilərin yarpaqlarını məcməyiyə sərər, günəşin altında qurudardı. Sonra da torbalara yığıb saxlayardı. Elə bitkilər də olurdu ki, onlardan bəzilərini lazımi ölçülərlə təzə inək, camış südü ilə, bəzilərini təmiz balla qarışdırar, şüşə qablara yığar, ağzını bərk-bərk bağlayar, rəfdə, şkafda yanaşı düzərdi. Yaxın-uzaq kəndlərdə həkimlərdən çarə tapmayanları, xəstələnənləri müalicə üçün cicimin yanına gətirərdilər. O da səbr və təmkinlə xəstələri dinləyər, çarəsini arayıb axtarardı. Gücü çatmayanlara: "Bu mənim işim deyil, həkimə aparın", — deyərdi. Gücü çatanlara öz məsləhətlərini, hazırladığı dərmanlardan düşərini verərdi, istifadə qaydalarını öyrədərdi. Hamı da minnətdarlıq hissi ilə cicimdən ayrılardı. Kim fayda görsəydi, sonra gəlib cicimə qəpikdən-quruşdan da verərdi. Cicim heç kəsə təmənnalı baxmazdı. Onun gözləri tox, nəfsi bütöv, ürəyi açıq, vicdanı təmiziydi. Cəsarətli addımları, qadına uyuşmayan hərəkətləri cicimi ər kişilərdən də yüksəklərə qaldırmışdı. İstər qadın olsun, istər kişi, tanıyanlar insafən onun bir sözünü iki eləməzdi.

Yaşa dolduqca mənə münasibətində cicim də dəyişirdi. Hərdən kişi kimi ciddi, hərdən də o qədər həlim, yumşaq və mehriban olurdu ki, özüm də bəzən mat-məəttəl qalırdım. Tez-tez cibimə pul qoyurdu. Ancaq nəyə xərclədiyimi də soruşurdu. Doğrusu, bu, mənə toxunurdu. Deyirdim: — "Ay cici, sənə qurban olum, bu pulu ya cibimə qoy, hara xərclədiyimi soruşma. Ya da cibimə pul qoyma".

O da gülə-gülə cavab verərdi: — "Hara xərclədiyini bilməsəm, sənə qəpik də verməréəm. Bəlkə gedib papiros alacaqsan... Nə bilim, nə alacaqsan..?"

Sonralar başa düşdüm ki, cicim daim məni izləyir, hansı işlə məşğul olduğumu, kimlərlə gəzdiyimi, oturub-durduğumu həmişə nəzarətində saxlayır. Bu mənə əvvəllər xoş gəlməsə də, sonralar ona haqq qazandırmalı oldum. İndi də fikirləşirəm, cicim həqiqətən əsl tərbiyəçi idi. Səhv hərəkətlərim, yersiz danışığım, şit gülüşlərim bir dəfə də olsun onun gözlərindən yayınmazdı. Mənə çox incə yollarla qüsurlarımı xatırladardı. Dərin məzmunlu söhbətləri ilə məni pis əməllərdən çəkindirməyə çalışan cicim tez-tez həyati misallar gətirərdi. Adamlarla davranışımda, onlara müraciətimdə ehtiyatlı olmağı öyrədərdi. Az danışmağın gözəlliyi, danışarkən ətrafdakıları nəzərə almağı, heç kimin qəlbinə toxunmamağı mənə tövsiyə edən cicim özü də çox diqqətliydi, etik normaları gözləməyi bacarırdı. İndi hiss edirəm ki, o, böyük tərbiyə, ədəb-ərkan məktəbi keçmişdi. Çox vaxt onu oxuduğum bədii əsərlərin, baxdığım kinofilmlərin qadın qəhrəmanlarına bənzədərdim... O, hər şeyə qadir iydi. Sevib-seçilməyi də, ev tikib-qurmağı da, əkib-becərməyi də, bişdüşü də, hətta, küsüb-barışmağı da bacarırdı.





On yeddi yaşımda məni evləndirmək istəyən atamın pula ehtiyacı olanda bütün xərci öz üzərinə götürən, "— Oğul mənimdir, xərcini də özüm çəkəcəm", — deyən cicim nişan üzüyünü, sırğaları, qızıl saatı, qızıl qolbağı, qızıl boyunbağını torbadan çıxararaq stolun üstünə tökdü. Qalan şeyləri almaq, toy tədarükü görmək üçün iyirmi min manat pul, ətlik üçün saxladığı qoçları, öküzləri verəcəyini bildirdi.

Cicimin bu hərəkətləri atamı da, anamı da, əmilərimi də heyrətləndirmişdi. On yeddi il ərzində min bir əzabla saxladığı toyuq-cücədən, mal-qaradan, əkin-biçindən qəpik-qəpik mənim toyum üçün topladığı pulları, daş-qaşları verəndə atam çaşqın halda anama baxaraq: "— Bizim nəyimiz var?" — demişdi. Sevincindən gözləri yaşaran, lakin heç bir söz deyə bilməyən anam təkcə çiyinlərini çəkmişdi...

Toyumdan əvvəl verdikləri azmış kimi, yoldaşım bizə gələn günün səhəri cicim uzunluğu bir metrə çatan cehizlik boyunbağı zəncirini də onun boynuna keçirərək demişdi:

— Qızım, bunu mənə qayınanam hədiyyə vermişdi. Mən də

onu sənə bağışlayıram. Gərək, onu sən də qoruyub saxlayasan... O sənə nə vaxtsa, lazım olacaq.

Atam dünyasını dəyişəndən sonra məndə bir küskünlük yaranmışdı. Qardaş və bacılarım az yaşlı olduqlarından ailədə anam, mən, bir də yoldaşım kolxozda işləyirdik. Cicim isə bacı-qardaşlarımı saxlayar, toyuq-cücəyə, mal-qaraya baxar, həyətyanı təsərrüfatla məşğul olardı. O, hər gün məndən təhsilimi davam etdirməyi tələb edərdi. Mən bir dəfə imkansızlığımızı, ailənin vəziyyətinin ağırlığını dilə gətirəndə o, qəti etirazını bildirdi. “Biz ölməmişik ki?” — deyə cavab verdi. Cicimin dönə-dönə təkidiylə məndə ali təhsil almağa böyük həvəs oyansa da, hey düşünürdüm. Axı ali təhsil almağım illərdə ailəyə kim əl tutacaq? Cicimə, anama yeni dərdi-sərmi açmalıyam. Onları əlavə zəhmətləmi qatlaşdıracam? Bu doğmalarıma qarşı insafsızlıq deyilmi? Yox, bu mümkün deyil. Bu ən yüngülü özümü düşünmək, doğmalarıma qarşı qeyrətsizlik olardı. Ağır əziyyət, min bir əzaba qatlaşsam da ailə dolanmalıdı. Başqa çarəm yoxdu.

İndi cicim tək mənim yox, bacı-qardaşlarımın da dolanışığını təmin etməklə onların tərbiyəçisi olmuşdu. Bütün həyatını, gəncliyini bir ailənin yaşamasına həsr edən cicimin köksündə kainatın özü boyda bir ürək vardı. O, hamı kimi doğulsa da, keçdiyi yol Böyük Yaradanın açdığı cığır idi. Bu cığır Allahın nuru ilə nurlandığından onun yolçularının qəlbi də ilahi varlığın ruhu ilə işıqlanırdı. Bu cığırla Ulu Tanrının yaratdığı yalnız sevimli bəndələri addımlaya bilərdi...

Harda olmamdan asılı olmayaraq ömrü boyu ailəmizin qayğısını çəkən, varlığını ailəmizin varlığında, xoşbəxtliyində axtaran cicimin yanına gələndə sevindiyindən sanki qanad açırdı, pərvazlanırdı. Dünyanın ən xoşbəxti olurdu. Həmişə düşünürdüm: dünyada cicimə tay olan kəs varmı? İnanmıram... Kimdi o?! Bütün fikri, düşüncəsi, ruhu, dünyası mən idim cicimin!.. Bu əvəzsiz insan pozulmaz naxışlarıydı mənim qəlbimin!





## MÖCÜZƏ, YOXSA SON VİDA?..

**...Layiqli bir insan olmaq üçün bütöv bir ömür lazımdır.**

***Bryula***

**Çalış qızına namus, əxlaq və iffət dərsi öyrət: o da öz növbəsində qızlarına öyrədər.**

***Şəhriyar***

İnsanın taleyi, qəlbinin sonsuzluğu haqqında külli miqdarda sonu bir tərəfə çıxmayan dini fərziyyələr, elmi araşdırmalar, hətta, əsassız, mifə söykənən dini uydurmalar olub. Yanaşmalar nə qədər çox olsa da, allı-güllü mülahizələr söylənsə də, sirli-soraqlı bəşər övladının dünyası açılmır ki, açılmır. Mənim cicim Ulu Tanrının yaratdığı möcüzə idi. İndi də onunla olan son söhbətimi xatırlayanda çaşıb qalıram. Xudaya, nə idi onun gəlişi? O, bir həftə sonra öləcəyini haradan bilirdi? Kim açmışdı ona bu sirri. O, deyəsən, ölümündən də qorxmurdu.

Cicim həmişəkindən daha gözəl, daha təravətli, daha şən görünürdü. O, dünyasını dəyişəndən sonra bu hadisəni olduğu kimi qələmə almışdım... Kənddə keçən bir aylıq məzuniyyətim qurtardığından Bakıya qayıtmalı idim. Mənsurə xanım paltarlarımı o qədər də böyük olmayan qara portfelə yığıb, yaşadığımız evin eyvanına qoymuşdu. Mən də kostyumumu dəyişirdim. Qızım Hicran, Sevinc, Dinar hərəsi bir tərəfdən suallar, tapşırıqlar verirdi. Cicim isə həyətyanı sahədə əkilmiş pomidorların dibini boşaldırdı. O, getməyə hazırlaşdığımı görcək, əlindəki kərəntini su bərəsinin içinə atıb eyvana çıxdı. Mən dərhal stulu çəkib onu əyləşməyə dəvət etdim. Cicim isə təəssüf hissi ilə dedi:

— Gedirsən, oğlum?! Mən bir söz demirəm, get. İşdən qalmaq olmaz. Mən bu həftə dünyamı dəyişəcəm. İstəməzdim ki,

sən gedib-qayıdasan. Nə etmək... Səndən bir xahişim var. Mənim ölüm xəbərimi eşidən kimi tez gəl. Səndən nigaran getməyim. Vəsiyyətimi sənə deyə bilmirəm. Ancaq yoldaşına, bir də anana hər şeyi bildirəcəm.

Cicim danışdıqca mən onun sözlərini kəsməyə çox çalışsam da, bacarmadım. Ancaq gözlərindəki sonsuz sevgidən doğan yaşartını lap aydın duyurdum. Yola düşüncəyə qədər mən cicimlə danışa bilmədim. Ayağa qalxıb yola düzələndə onunla qucaqlaşdım. O, mənim üzümdən öpərək, həsrətlə gözlərimə baxdı. Mən də özümü saxlaya bilmədiyimdən gözlərimin yaşı yanaqlarımdan süzülməyə başladı. Dərhal da məni hönkürtü ilə ağlamaq tutdu.

Mən bu dəfə yalnız cicimlə xudahafizləşə bildim. Çaşqınlıqdanmı, nədəndi bilmirəm, anamla, yoldaşımla, bacı-qardaşlarımla, hətta, doğma övladlarımla belə görüşənmədim. Portfeli götürüb həyətdən tez çıxmağa çalışdım. Cicimin bu görünməmiş, həm də bir az bədbinləşmiş sözləri yol uzunu məni rahat buraxmadı.

Bakıda müstəntiq işləyən dostum Mahir tez-tez məni ömürgün yoldaşı Leyla xanımın açdığı zəngin süfrəyə, dadlı xörəklərə qonaq edərdi. İnsafən Leyla xanım da mənim gəlişimə çox sevinərdi. Şəhərə qayıtdığımın dördüncü günü səhər çağı Mahir həmişəki kimi zəng çalıb məni evə dəvət etdi. Axşamüstü Bakıda güclü xəzri əsməyə başlamışdı. O, özü ilə leysan yağış da gətirmişdi. Adamlar dayanacaqda avtobuslardan düşüb qaça-qaça özlərini binaların girəcəyinə salmağa tələsirdilər. Dayanacaqda gözləyənlər isə tələm-tələsik avtobuslara doluşurdular.

Mahirgilə gələndə hava qaralmışdı. Üst-başım islanmışdı. Şiddətlə əsən küləkdən bərk üşümüşdüm...

Bir-iki stəkan çay içdikdən sonra özümə gəldim. Leyla xanım özü qoyduğu turşudan, bükdüyü yarpaq dolmasından süfrəyə gətirdi. Yeyib-içdikdən sonra Mahir televizorun düyməsini





basdı. Məşhur müğənni, çox sevdiyim Qulu Əsgərovun yanıqlı səsi otağı bürüdü. Onun insanı ovsunlayan məlahətli səsi beynimə işləyir, elə bil ürəyimdə qaysaqlanmış yaraya məlhəm qoyurdu. Dincəlirdim, uyuyurdum, öz aləmimdən qoparılırdım. Mərhum atam da onu həmişə maraqla dinləyərdi. Öz-özümə düşündüm. Musiqi böyük Yaradanın biz insanlara səxavətlə bəxş etdiyi mənəvi qidadır. Konsertin sonunda kənd həyatı haqqında veriliş başlamışdı ki, birdən Leyla xanım darıxırmış kimi kartı stolun üstünə atdı və: — Başınızı qatın, — dedi. Mahir dərhal kartı götürüb qatmağa başladı. Heç vaxt kart oynamadığımı bildirdim. O:

— Öyrədərik, — deyə cavab verdi.

Mən isə:

— Gecdir. Onu öyrənə bilmərəm, Mahir.

O, gülümsünüb kartı stolun üstünə atdı. Bu dəfə Leyla xanım kartları əlinə alıb qarışdıra-qarışdıra:

— Ağarəhim müəllim üçün kart açacam, — deyə üzümə baxdı. Etirazım olmadığından o, kartları stolun üstündə bir-birinin yanına düzməyə başladı və birdən diksinmiş kimi içini çəkərək dedi:

— Ağarəhim müəllim, uzaq yol gələn yaxın bir adamınız səni evdə gözləyir. O, sənə ağır bir xəbər verəcək. Sən yola çıxmalısan. Gecə vaxtı yola çıxsan, ağır bir faciə ilə üzləşəcəksən. Səhər yola çıxsan yaxşıdır...

Mənim inamsızlığımı hiss edib, ikinci dəfə kartı qarışdıraraq stolun üstünə düzdü. Eyni sözü yenidən təkrarladı. Elə bu anda cicimin:

— Sənə xəbər çatan kimi dayanma, gəl, — sözlərini xatırladım.

Leyla xanım evə getməyimi dönə-dönə təkid edirdi. Açığını deyim ki, Mahirlə Leylaya da bildirməməyə çalışsam da, içimdə bir üşütmə yaranmağa başladı. Artıq axşam saat 11-ə qalmışdı. Evə getmək istəyəndə Mahir qalmağımı, Leyla xanım isə get-

məyimi təkid edirdi.

Evə getməli oldum. Doqquzmərtəbəli binadan çıxan kimi taksiyə oturub maşını kirayənişin yaşadığım yataqxananın qapısına sürdürdüm. Maşından düşəndə gözlərimə inanmadım. Məndən kiçik qardaşım Əli girəcəkdə dayanıb bayaqdan bəri məni gözləyirmiş. Soyuqdan titrədiyindən dili söz tutmurdu. Mən dərhal cicimin vəziyyətini soruşdum. O, sakit səslə dedi:

— Elə onun üçün gəlmişəm. Bərk xəstədir. Səni çağırtdırır. Məni sənin arxanca anam göndərib. Getməliyik...

Dəhşət məni bürüdü. Cicim ölümünün yaxınlaşdığını hardan bilirdi?.. Bəs Leylanın açdığı kartın sirri nədə idi? Xudaya, bu, yuxudumu, yoxsa?!.

Bilmirəm. Qardaşım gəlmişdi. Biz getməliydik. İndimi? Yox, gecdir... Rayona, oradan da kəndə getmək üçün minik tapmaq müşkül məsələdir.

Baş verənləri qardaşıma danışdıqca o da heyrətlənirdi. Səhərə qədər yata bilmədik. Fikirlər, müəmmalı suallar mənə rahatlıq vermirdi ki, vermirdi.

Artıq səhər açılırdı. Qardaşımla tələm-tələsik otaqdan çıxıb, Azneft meydanına gəldik. Orada minik maşınlarından birinə oturub birbaşa kəndə getdik. Evə çatanda bacı-qardaşlarımla eyvanda qarşılaşdım. Əmidostum hamını qabaqlayaraq:

— A bala, heç bir şey yoxdu, adam xəstələnər də, — deyə səsləndi.

Öz-özümə düşündüm: "Deməli, cicim hələ yaşayır. Salamatdır. Şükür sənə, Xudaya!"

Otağa girəndə cicimi taxta çarpayıda yatmış gördüm. Dərhal qucaqlayıb üz-gözündən öpdüm. Üzü xeyli işıqlanmışdı. Onda ölümdən əsər-əlamət görünmürdü...

Cicim qalxıb çarpayıda oturaraq dedi:

— Bir az aralıda dayanın. Nədən qorxursunuz. Yaranan ölməlidir. Oğlum, səni gözləyirdim, səndən nigaran idim... Yaxşı





oldu, gəldin. Səninlə təklikdə danışmaq istəyirəm.

Adamlar otaqdan çıxmağa başladılar. O, söhbəti davam etdirdi:

— Oğlum, şərəfli ölüm şərəfsiz həyatdan yaxşıdır. Heç kimə pislik eləməmişəm. Anandan, bacı-qardaşlarından muğayat ol. Əmin qızını sənə tapşırıram. Sən atanın əvəzisən. Ata evindən gətirdiyim cehiz sandığında on üç min manat pul var. Onu götürərsən. Saxladığım öküzü mənim ehsanım üçün kəsərsən. Pulun qalanını da, bütün əmlakımı da sənə halal eləyirəm. Nə vaxtsa, sənin qəlbinə toxunmuşamsa, mənə halal elə. Bala, məni atanın yanında dəfn edərsiz. Mənə görə ürəyini sıxma. Mən ömrümü yaşamışam. Qalan ömrümü də sənə bağışlayıram... İndi çağır gəlsinlər. Onlarla da vidalaşım...

Eyvandakıları, həyətdəkiləri evə dəvət edib cicimin yanında əyləşdim. O, əllərimi əllərinin içinə aldı. Aram-aram danışır, hamını görməyə çalışırdı. Narahatlıqdanmı, yorğunluqdanmı cicim gözlərini yumdu, üç-beş dəqiqəlik yuxuya getdi. Sonra da gözlərini açdı. Diqqətlə üzümə baxdı. Gülümsündü:

— Mənim balıncım çox aşağıdır, bir qədər qaldırın, — dedi. Təp-təzə parçadan üzlənmiş ikinci balışı bacıma gətirdərək, cicimin baş qoyduğu balıncın altına qoydurdum. Onun narahatlığı getdikcə artırdı. Cicim ətrafına göz gəzdirərək dedi:

— Bəyim, o biri otaqdakı çamadanda hələ geyilməmiş təzə paltarım var. Onları gətir, qızım, təzə, təmiz paltarımı geyim. Mən getməliyəm, vaxtım azalır. İndi gələcəklər, mən təmiz paltarda olmalıyam... Hamı heyrətlə bir-birinin üzünə baxırdı. Cicim isə təzə paltarlarının gətirilməsini təkid edirdi. Bacım çaşıb qalmışdı. Mən Bəyimə paltarları gətirməyi işarə etdim. O, dərhal o biri otağa qaçaraq cicimin paltarlarını gətirdi. Anamla bacım köməkləşərək onun əynindəki tərli paltarı çıxarıb, əvəzində təzələrini geyindirdilər.

Cicim bir də otaqdakıları seyr etdi. Sonra hamiləlik dövrünü keçirən ortancıl bacım Tutubəyimə otaqdan çıxmağı buyurdu.

Bacım səssiz-səmirsiz otaqdan çıxmışdı ki, cicim dedi:

— O qorxa bilər, hamilədi. Bətnindəki uşaq zərər çəkər. Mən günaha bataram... Ondan muğayat olun. Onu əziyyət çəkməyə qoymayın. Allahın yanında günah işlətmiş olarsız. İndi məleykələr gəliblər. Yaxşını da, pisi də yazırlar...

Doğrusu, mən elə bildim ki, cicim özünü itirib, sayıqlayır. O, sözünə əlavə edərək dedi:

— Qorxmayın, çənəmi çatın. Mir Ələkbər qardaş, "Quran"ı oxumağa başla.

Mir Ələkbər ucadan "Yasin" oxumağa başladı. Cicim dərindən nəfəs aldı. Bu, onun son nəfəsi oldu.

Cicimin rəngi ağarmağa, bədəni soyumağa başladı. O, mənim qucağımda gözlərini əbədi yumdu. Mən "Cici, cici", — deyə qışqırdım. Artıq gec idi, o, dünyasını dəyişmişdi.

Cicimin ölüm xəbəri kəndə yayıldı. Hamı onunla vidalaşmağa gəlmişdi. Dünyagörmüş adamlar cicimi "El anası" adlandırırdılar. Bu böyük insan ömrü boyu ürəyini şam edərək atam, anam, bir də mənim üçün əritmişdi. Atamı yaşadan, anama xoşbəxtlik, səadət gətirən, mənə bütün varlığını həsr eləyən bu böyük qadının pak və ülvi ruhu qarşısında baş əyirəm... Ona ömrüm boyu borcluyam. Mən on il ərzində iki ən yaxın adamımı itirdim, — atamı, bir də cicimi... Əlvida, mənim əzizlərim!.. Əlvida!





## KÖVRƏK QƏLBLİ ANAM MƏNİM

**Ana! Ana!.. O adın qarşısında bir qul tək**
**Həmişə səcdədə olmaq mənə fəxarətdir.**
**Onun əliylə bəla bəhrinə yuvarlansam,**
**Yenə xəyal edərəm bəzmi-istirahətdir.**
***C.Cabbarlı***

**Nə qədər ki, mən sağam, anam da sağdır mənim,**
**Səsimdə, nəfəsimdə yaşayacaqdır mənim.**
***Şəhriyar***

Mən anamı sevirdim. Anam mənim üçün bir dünya idi. Gəncliyində uca qaməti, zərif görkəmi, qonur gözləri, məhzun baxışları, kövrək qəlbi, mehriban xasiyyəti, bir az da sadəlövhlüyü vardı anamın. O, çox sadə geyinər, astadan danışıb gülər, uşaqla uşaq, böyüklə böyük olardı. Qeybətdən, artıq söz-söhbətdən qaçar, adamı tez bağışlamağı bacarar, heç vaxt qəlbə toxunan söz deməzdi. Anamın uşaqlıq, gənclik həyatı haqqında düşünəndə ona baxa bilmirəm. Ürək yanğısı ilə heyfsilənirəm, bəzən qəhərlənirəm. Xudaya, nə idi ata-ana üzü görməyən bu yazıq qızcığazın günahı? Həyata gözünü başqalarının küncündə niyə açmalıydı? Allah bilir, bəlkə övladları valideynlərinin ağrı-acılarını çəkirlər? Əgər elədisə, burada övladın günahı nədir, Xudaya? — Hərənin bir qisməti var dünyada, — deyirlər. Anamın da qisməti acı taleyi olub...

Uşaq çağlarından valideynlərini itirən və həmin vaxtdan ər evinə köçüncəyə qədər dayısı Yasin kişinin himayəsində yaşayan anam ata qayğısına, ana nəvazişinə ömürlük həsrət qalmışdı. O, hər dəfə uşaqlıq illərini xatırlayarkən nələr çəkdiyini duyuram. Ürək açan, fərəh doğuran bir şey olmadığından anam uşaqlıq, gənclik çağlarından o qədər də danışmağı sevməzdi. Ancaq mən anamı çox tez başa düşürdüm. O, keçmişi düşünər-

kən acı xatirələri yada düşərdi. Tez-tez ürək yandırıcı ah çəkmək anamda elə bil adətə çevrilmişdi. Keçmişini xatırlayarkən gözləri yol çəkdiyini, səsinin titrədiyini, doluxsunduğunu, dodaqlarının səyrdiyini, həsrət çəkən baxışlarını çox görmüşəm, çox şahidi olmuşam. Hər dəfə anam dayısıgildəki həyatından razılıq hissi ilə nə qədər danışsa da, hisslərində yenə bir boşluq, çatışmazlıq, yanğı duyulurdu. Bəs nə idi bu boşluq? Nə idi bu çatışmazlıq? Haradan gəlirdi bu yanğı? Bəlkə ata-ana həsrəti? Valideyn istəyi?! Tənhalıq və kimsəsizlik?! Ürəyini heç kəsə aça bilməmək? Nə qədər əziz olsa da, özünü başqasının evində sərbəst hiss etməmək? Onu bir Allah bilir. Nələr çəkdiyini duyuram, ana! Sən bir tikə çörək üçün hər dəfə süfrəyə əl uzatmısan... Bəlkə də utandığından doyunca yeməyə-içməyə ürək eləməmisən ki, baxarlar... Fikirləşmisən, qısqanarlar... Evdə gəzəndə də, həyətə düşəndə də sıxılmısan... Mənəvi haqq axtarmısan... Tapmamısan.

İnsanlar dünyaya yaşamaq üçün gəlirlər. Sonra da Ulu Tanrıdan xoşbəxtliklərini, səadətlərini diləyirlər. Özlərini axtara-axtara qismətlərini tapırlar. Mənim anamın da uşaqlıq, gənclik taleyi belə olub. Qismətinə dözüb, Tanrısına həmişə şükürlər edən anam dayısının, dayıdostusunun qayğısından, istəyindən minnətdarlıq hissi ilə danışarkən deyərdi, “mənim üçün doğma, mehriban ata-ana olub onlar”.

Səni doğma balası kimi böyüdüb-ərsəyə çatdıran dayına, onun ömür-gün yoldaşına bu gün övladların da minnətdardı, ana! Nə qədər zahirən uzaqlaşsam da, ruhən, cismən birik, sənin bir parçanam... Düşünən beynim, çırpınan ürəyimsən, ana!

...Fikrini belə öyrənmədən bəzədilmiş at arabasına bir dəst cehizlik yorğan-döşək qoyaraq səni qonşu kəndə gəlin köçürəndə ata-ana xeyir-duasına nə qədər ehtiyaclı olduğunu indi duyuram. Sənin o zamankı təkliyini, tənhalığını, qəribliyini indi təsəvvürümdə canlandıranda nələr çəkdiyini hiss edirəm. Bu,





indi məni də yandırır, qəhərləndirir... Düşünürəm, səni ərə verəndə rəyini soruşub-öyrənsəydilər, nə olardı? Onsuz da etiraz eləməyəcəkdin, bilirəm. O zamanlar ucqar bir kənddə ərə qız verərkən heç kəsin rəyini öyrənməzdilər. Söz kişilərin olardı. Onlar dedi, qurtardı. Sən də belə, mənim anam...

Bilirəm, sən cicimin də səadətinə, xoşbəxtliyinə bilərəkdən şərik çıxmamısan. Günahsızsan... Öz doğma övladını, ilk nübarını ona “bağışlamağına” da pis baxmıram... Səni qınamıram... Səndən incimirəm, küsmürəm, ana! Bircə şeyi düşünürəm. Axı bu addımı sən necə atdın?! Sənə qibtə edirəm. Köksünə sığmayan dağ böyüklükdə ürəyinə heyranam... Möhtəşəmliyinə vurğunam, ana!

Ulu Tanrının sənə verdiyi səxavəti özünə qaytardın, ana! Sənin mənə olan sevgini, məhəbbətini də qiymətləndirirəm... Ulu Tanrıya doğru ucalan möhtəşəm bir qalasanmış, ana! İnsanlığı heyrətə salan bu qeyri-adi hərəkətlərinlə İlahinin nurundan yaranmış bir qadını tənhalıqdan, sonsuzluqdan qurtarmısan. Özün gənc ola-ola dünyalara sığmayan böyük bir səxavətlə o su pərisinin səviyyəsinə qalxmısan. Bu belə də olmalıydı, mənim anam! Başqa cür ola da bilməzdi...

Dayının himayəsində olanda da, ər evində də gecə-gündüz kolxozda işləmisən. Səhər dan söküləndə tarlaya gedər, pambıq seyrəldər, kətmən vurar, bərə çəkər, pambıq sulayar, axşam qaş qaralanda evə qayıdardın. Evdə biş-düşdən, ev-eşik yığışdırmaqdan, paltar yumaqdan, təndir qalamaqdan, sac qoyaraq çörək bişirməkdən, ərə, oğul-uşağa qulluqdan yorulmazdın, fəxr edərdin, məmnun olardın. Gəncliyində Staxanovçu hərəkatına qoşulanda da, Moskvada SSRİ Kənd Təsərrüfatı Nailiyyətləri sərgisində iştirak edəndə də, şəxsən “ellər atası” Stalindən patefon hədiyyəsi alanda da əməyinə, şan-şöhrətinə güvənərdin. Ağır, üzücü müharibə illərindəki məşəqqətlər, əzab-əziyyətlər başqalarına nə qədər kiçik görünsə də, onların gözündə nə qə-

dər adiləşsə də, bugünkü əmin-amanlıq zirvəsindən baxarkən nələr çəkdiyini duyuram, dərk edirəm, ana. Kimsəsiz, ürəyi nisgilli, gənc bir qız ikən nələr çəkməyib sənin başın? Səni hissimlə, varlığımla, ürəyimlə duyuram, ana!

Atam məhbəsdə olanda da, ona ölüm hökmü kəsiləndə də, ağır xəstələnəndə də, dünyasını dəyişəndə də, on yetim uşaq əlində qalanda da keçirdiyin təlaşları görürdüm. Çaşqınlıqların indi də yadımdadır. Qorxurdun, çəkinirdin, bütün bədənin əsirdi. O zamanlar səbəbini başa düşməsəm də, indi səni anlayıram. Ev-eşik, oğul-uşaq sahibi olsan da, qara günlərin xoşbəxtliyini üstələyib, ana. Sən də cicim kimi dözümlüsən, vüqarlısan, qüdrətlisən... Sizin taleyinizdə bir zahiri oxşarlıq duyuram. Atamın vəfatından sonra mənə yazığın gələrdi. Çox şeyi, ağrı-acını, yoxsulluğu, çatışmazlığı məndən gizlətməyə çalışardın.

Yaxşı yadımdadı... Atamdan sonrakı çaşqınlığın... Mənim cicimlə, səninlə söhbətim. Ailənin on iki üzvünü necə dolandıracağımız haqqında məsləhətləşmələrimiz. Qarşıdan qış gəldiyini xatırladığın. Dolanacaq, yaşamaq üçün nə etməli olduğumuzu soruşduğun. İnsafən, cicimin uzaqgörən, müdrik məsləhətləri necə də düzgün idi. O vaxtdan qırx ilə yaxın vaxt keçsə də, unuda bilmirəm cicimin dediklərini:

— “Qorxma, həyəcanlanma... İşləmək, çalışmaq gərəkdi, mənim bacım. Qarşıdan pambıq yığımı gəlir. Pambığın hər kiloqramını kolxoz on beş qəpiyə yığdırır. Buğdanın da qiyməti iyirmi iki qəpikdir. Hamımız işlərik, pambıq yığarıq. Tezliklə illik xərcimizi toplayarıq. Sonra da həyətyanı sahəni əkib-becərərik. Meyvə ağaclarına qulluq edərik. Barama becərərik. Mal-qara, toyuq-cücə saxlarıq...”

Cicimin təsəlliləri çiyinlərindən elə bil ağır yük götürdü. Bir az əsəbi, bir az təlaşlı üz-gözündə sevinc hissi, təbəssüm göründü. Vəziyyətdən çıxış yolunu tapmışdın kimi əhvalında yüngüllük yarananda mən də mənən rahatlandım.





Atamın ölümündən sonra iki qardaş, bir bacı, bir də həyat yoldaşım əmək cəbhəsinə atıldıq. Hər gün özünlə bizi də tarlaya aparardın. Bizə önlük asdırıb səhərdən axşamacan pambıq yığdırardın. Məhsul yığımında hamını geridə buraxardın.

İnsafən, cicim də hər gün bizə kömək edərdi. Evdə isti xörək hazırlar, çay dəmləyib termosa tökər, günorta naharını kiçik qardaşımla bizə gətirərdi. Sən utana-utana minnətdarlıq edəndə cicim başını yelləyərək etirazını bildirər: — “Hər kəs öz işini görür”, — deyərdi.

Biz hər axşam qapana 400-500 kiloqram pambıq qoyardıq. Elə ilk ongünlükdə qış azuqəsi almağa yetdik pul qazanmışdıq. Onda sevincdən ürəyin köksünə sığmırdı, ana! Biz sənin təkidinlə iki ay bax beləcə işlədik. Cicimsə evdə, həyətdə işlərdi.

Qazandığımız pulları qənaətlə xərcləməyə çalışardıq. İfratçılığa yol verməzdik. Hərdənbir ürəyin, qəlbin açılanda oğlanların, qızların üçün cehizlik də alardın.

Maddi imkanlarımız genişləndikcə daha çörək, ərzaq dərdi çəkməzdin. Yeni, böyük arzuların qanad açardı, ana! Bir dəfə mənimlə üz-üzə əyləşərək dedin:

— Oğlum, atanın arzusu sizin hamınızı ali təhsilli görmək idi. Taleyimiz belə yazılıbmış... O, sizi oxuda, bir tərəfə çıxara bilmədi. İmkansızlığın üzü qara olsun. Şəhərdə adamımız yoxdu ki, bacıların təhsil alanda onların evində qala. Qız uşağı üçün şəhərdə tək yaşamaq, oxumaq çətin olar. Həm də kəndimizdə heç kimin qızı oxumayıb. Bizə də yaxşı baxmazlar. Gərək sən də, qardaşların da atanızın arzusunu həyata keçirəsiniz.

Mən:

— Eh, ana, biz hansı dövrdə yaşayırıq qız oxutmayaq? Nə üçün? Bacılarımızın oxumasının nəyi pisdi ki? — deyəndə sözünü qətiləşdirdin.

Cicimlə sən oğlanların oxumasını bildirdiniz. Bu qərarınız qəti idi. Bir neçə il ərzində mən də, qardaşlarım da mərhum ata-

mın arzularını həyata keçirdik. Anam cicimlə birlikdə gecə-gündüz işlər, pul qazanar, boğazlarından, əyinlərindən kəsər, qardaşlarıma aylıq xərclik də göndərərdilər. İnsafən, qardaşlarım da yaxşı oxuyardılar. Hər ay yüksək təqaüd alardılar. Yadımdadı, ana! Qardaşım Məmmədrəhim üçüncü kursda oxuyanda təqaüdünü qənaətlə xərcləyərək göndərdiklərini yığıb sessiyanın sonunda evə gələndə sənə qaytarmışdı. Sizin zəhmətinizlə qazanılan pulları xərcləməyə ürəyi gəlməmişdi. Sən də həmin pulla gedib ona bir dəst kostyum, bir cüt ayaqqabı aldın.

Bununla da əziz qardaşım biz qardaşları da düşünməyə vadar etmişdi...

Hər dəfə evimizə ali təhsil diplomu girəndə şadlıq süfrəsini açardın, ana. Sevincinin həddi-hüdudu olmazdı. Çox vaxt qızlarına — "ana", oğullarına isə "ata" — deyə, müraciət edərdin...

Qəribədi biz insanların taleyi... Analar həmişə qız köçürmək, gəlin gətirmək arzusu ilə yaşayırlar, elə mənim anam kimi... Ancaq qız köçürəndə nə qədər kimsəsizləşirlərmiş, tənhasızlaşırlarmış analar. Gəlin gətirəndə isə sanki yenidən doğulub dünyaya göz açırlar.

Bacılarım ər evinə köçəndə sənə bir söz deməsəm də, kədərli, nəmli baxışlarına dözə bilmirdim, ana. Oğlanlarına gəlin gətirərkən sevincdən gözlərinin yaşarması bütün dərd-sərimi mənə unutdurardı. Həyatım mənim!.. Anam mənim!..





## ÖMRÜN ƏRİYƏN ANLARI...

**Dünya kədərli qəlbimin tellərinə**
**toxunub, həzin musiqi yaradır.**
***Taqor***

Son zamanlar anamın halı tez-tez dəyişirdi. O, yorğunluqdan, mədə ağrılarından hey şikayətlənirdi. Mən də hər dəfə həkimlərə müraciət edir, onu müayinədən keçirtdirirdim.

Həkimlər də "Yaşdandı", "Soyuqlayıb" diaqnozu qoyurdular. Tibbi biliklərimin azlığından deyilənlərlə razılaşır, anamın xəstələnməyinə bəzən yüngül, bəzən də ötəri hal kimi baxırdım. Hərdənbir anama pəhrizlərini gözləməyi tövsiyə eləyirdim. Sən demə, yamanca yanılırammış... Pəhrizlər, dava-dərmanlar anamı təngə gətirmişdi. O, çox vaxt alınan dərmanları qəbul eləmirdi... Əslində onda həkimlərə, dava-dərmanlara inamı lap cavanlıqdan az idi.

1998-ci ilin Novruz gecəsi idi. Təbiətən az danışan, hər şeyə ciddi münasibət bəsləyən anam bayram axşamı olub-keçmişləri, atamı, cicimi yada salır, şirin xatirələrindən danışırdı. O, çox həvəslə dedi:

— Adamlara urzu bu bayram axşamında verilir. Kimin evində bu dəm şadyanalıq olsa, düz yeddi il o evə sevinc axar...

Anam ailəyə sevinc, fərəh gətirirdi. Qızım Dinar ondan: — Özünü necə hiss edirsən, nənə? — deyə soruşdu. Anam gülümsündü:

— Bayram gecəsi necə olmalıyam, qızım? Şükür Allahın mərhəmətinə... Bu Novruzu da gördüm.

— Təki sən ağrımayasan, nənə! Hələ çox novruzları birlikdə görəcəyik. Bax beləcə!..

— Xeyli ömür sürmüşəm. Övladlarımı da yerbəyer eləmişəm. Tanrımdan da razıyam. Bircə qardaşın Cavidanın toyunu

görsəydim.

Anam dərindən köksünü ötürdü. — Ağarəhim, oğlum! — deyə üzümə baxdı:

— Mən valideyn nəvazişi, bacı-qardaş qayğısı görməmişəm. Onlar üçün əziyyət də çəkməmişəm. Üstümdə təkcə dayım Yasinin böyük haqqı-sayı olub. Şükür Allaha ki, hələ o da dünyasını dəyişməyib. Salamatdı. Gələndə ondan da halallığımı almışam. Ölüm-itim dünyasıdı. Arvadın da, uşaqların da, elə özün də məndən inciyə bilərsiniz...

Mən anamın niyyətini başa düşdüm. Onun üzündə zərif təbəssüm yaransa da, gözlərinin yaşardığını gördüm. Onu vəziyyətdən çıxarmaq üçün qalxıb telefonun dəstəyini götürdüm. Bir neçə nömrə yığdım. Guya danışıq alınmadı deyə dəstəyi öz yerinə qoydum. Qayıdıb yerimdə oturdum. Qırmızı boyanmış yumurtalardan birini özüm üçün götürdüm, o birini Cavidana verdim. — Al, döyüşək, — deyə bildirdim. Yumurtaları döyüşdük, mən uduzdum. Maraq və gülüş səsləri əvvəlki kədərli əhval-ruhiyyəni bir andaca dağıtdı. Özüm də öz hərəkətimdən xeyli məmnun oldum...

Bu Novruz anamın son fərəhli günü oldu. Bayramın səhəri əhvalı dəyişdi. O, tez-tez daxili aləminə qapanır, nəsə fikirləşir, uşaq kimi kövrəlir, qəhərlənir, evə gələn tanış-bilişlərindən, ünsiyyətdə olduğu adamlardan halallıq diləyirdi. Anam daim məni yanında görmək, mənimlə söhbət eləmək istəyirdi. Bunu mən də duyurdum.

Bağışlasınlar qardaşlarım, bacılarım! Anam məni çox istəyirdi. Lap çox. Elə mən də onu. Səbəbini bilmirəm. Uşaqlıqda məni cicimə “hədiyyə” verməsindənmi, məndən bir addım uzaqda olmasındanmı? Bəs mənim ona olan hədsiz istəyim, sevgim, məhəbbətim nədən idi? Məni qınamayın... Anamın gözlərindəki sevgisindənmi, məhəbbətindənmi?.. Baxışlarındakı səmimiyyətdənmi?.. Təbəssümündəki şirinlikdənmi?.. Daha nə bilim,





nədən... Nədən...

Cicim dünyasını dəyişəndən sonra mən həmişə anamla birlikdə yaşamışdım. Oğlanlarının, qızlarının evlərinə hərdənbir qonaq getmişdi anam mənim... Mən hər səhər yuxudan qalxanda yuyunub daranmış anamı divanda oturan görərdim. — Sabahın xeyir, — deyib üzümə diqqətlə baxardı. Salamlaşardıq. Əhvalımı yaxşı görəndə özlüyündə sevinərdi, deyərdi, gülərdi anam mənim. Yox, halım xoşuna gəlməyəndə elə bil qara buludlar çökərdi anamın bənizinə... Özümü bir təhər hiss edəndə:
— Bu axşam necə yatmısan? — deyə məni qabaqlayardı anam... Evdə nəvələrinə, övladlarına tez-tez deyirmiş: “Ağarəhim yamanca tez qocaldı”.

Eh... Ana!.. Ana!.. Bu gün sənin qarşında hisslərimi ifadə eləmək üçün söz tapa bilmirəm. Ona görə yox ki, acizəm... Yox... Mənim anam! Çünki sən özün boyda hikmətsən... Şövqsən... Şücaətsən... Qüdrətsən... Varlığı dərk olunmaz dühasan... Nəhayətsiz ümmansan... Ulu Tanrının zərrələrini ruhunda gəzdirən huri-mələksən... İlahi varlıqsan...

Vücudumu lərzəyə gətirən anamın halı məni heç vaxt rahat buraxmırdı, daim silkələyirdi. Məni anama bağlayırdı. Yaxında da, uzaqda da olanda bütün fikrim, düşüncəm anam idi. Onu da duyurdum, onu da hiss edirdim ki, anamın ruhu, varlığı mənimlədi...

Heç yadımdan çıxmaz. Ssenarisini yazdığım “Qırmızı qar” bədii filminin gecə çəkilişi gedirdi. Bütün gecəni çəkilişdə oldum. Sən demə, anam da gecəni dirigözlü açıbmış. Başını yastığa qoymayıbmış. Xanımım, qızlarım nə qədər təskinlik verməyə, sakitləşdirməyə çalışıblarsa, anam öz inadından dönməyibmiş... Hətta, bir neçə dəfə göz yaşları da axıdıbmış. Çəkilişdən səhər qayıtdım. Anam məni qapı ağzında göz yaşları axıda-axıda qarşıladı, bir az küskün, bir az narazı halda dedi:

— Gecə yatmaq, dincəlmək üçündü. Bütün günü işləyir-

sən... Gecələr də kitablar, kağız-kuğuzlar içərisində eşələnirsən... Bəs nə vaxt dincəlməlisən?.. Yoldaşının, oğlunun, qızlarının gözləri bütün gecəni yollara dikilib. Sənsiz...

Qəhər boğduğundan anam fikrini tamamlaya bilmədi. Mən qucaqlayıb onun üzündən öpdüm. Aparıb divanda əyləşdirdim. Əl-üzümü yuyub, qurulanıb anamla birlikdə süfrə başında oturdum. Söhbət əsnasında yavaş-yavaş anamın umu-küsüləri çəkilir, qəbahətlərimlə (qəbahət demək mümkündürsə) barışırdı... Bir azdan gözümün acısını almaq üçün yataq otağına keçdim. Sən demə, mən yuxudan qalxanadək ucadan danışmağa qadağa qoyubmuş mənim anam... Ömrü boyu beləcə əzizləyərdi məni anam mənim!!!

Aprelin ilk həftəsi idi. Səhər yuxudan qalxanda anamı divanda əyləşən görmədim. Əvvəl elə bildim ki, həyətdədi. Yuyunub, qurulanıb otağa qayıdanda xanımım dedi:

— Anan xəstələnib. Yataqdan qalxmayıb. Keç, ananla görüş. Hal-əhvalını soruş. Bəlkə həkim çağıraq?

— Hərarəti varmı?

— Var. Ancaq o qədər də yox.

Dərhal anam yatan otağa keçdim. Çarpayısının qırağında oturdum. Əlimi alnında, dümağ saçlarında gəzdirdim. Sonra dedim:

— Haran ağrayır, ana?

— Mədəm, bağırsaqlarım.

— Dərmanlarını qəbul eləmisənmi?

— Eh... Mənim yaşda adama nə iynə-dərman? Lap yaxşıyam. Bir azdan ötəcək.

— Məni yamanca qorxutdun, ana!

— Nədən qorxursan, oğul. Ölsəm də nigarançılığım qalmır. Hamınızın eviniz-ailəniz. Kimdi bu dünyanı tutub duran? Gələn getməlidi. O boyda kənddə məndən yaşlı bir-iki adam qalıb...

Mən gülümsünərək zarafatla:





— Axı sən şəhərlisən?! — dedim.

— Yox, oğlum. Kəndliyəm.

— Bəlkə kömək eləyim, ayağa qalxasan?! Birlikdə nahar eləyək.

— Yox, oğlum. Təbim yemək çəkmir. İstəsəm, qızlara deyərəm. Sən narahat olma. İş adamısan. Get, iş-gücünlə məşğul ol. Bəlkə bir azdan qalxdım.

— Həkim çağırımmı?

— Gündə həkimdə deyilik? Həkimə əziyyət vermə. Gəlsə, yenə deyəcək: “Yaşdandı”, “Soyuqlayıb”. Sonra nə bilim... Nə...

Anamla xudahafizləşib o biri otağa keçdim. Nahar eləyib evdən çıxdım. Maşına oturub işə yollandım. Bir az getmiş fikrimi dəyişdim. Sürücüyə: — Beş nömrəli xəstəxanaya, — deyə bildirdim. Çox çəkmədən maşın xəstəxananın qapısı ağzında dayandı. Mən maşından düşüb xəstəxananın üçüncü mərtəbəsinə qalxdım. Anamı həmişə müayinə edən həkim Tahirə xanımla görüşdüm. Ondan anamın müayinəsini xahiş etdim. Həkim: — Bu saat, — deyə lazım ola biləcək tibbi cihazları götürdü. Maşına əyləşib evə qayıtdıq. Tahirə xanım anamı müayinədən keçirib məsləhətlərini verdi... Biz xəstəxanaya qayıdanda yolda həkim bildirdi:

— Ağarəhim müəllim, belə xəstələrin pəhrizi ciddi gözləməsi gərəkdi. Bir də təmiz havada az-az gəzməsi. Yaş öz işini görür.

Sonuncu cümlə mənim xoşuma gəlməsə də, həkimə başımı yırğalamaqla münasibətimi bildirdim...

Yatağa düşən anamın yeməyi beşinci gün tamamilə kəsildi. Xanımım da, qızlarım da onu yedirtməyə çalışırdılar. Anamsa yemək-içməyi özünə yaxın buraxmırdı. Bu dəfə özüm anamı yedirib-içirmək qərarına gəldim. Deyəsən, o, məni qorxutmaq istəmirdi. Anam stəkanda verdiyim həlimi içdi. Dərhal da qaytar-

dı... Anamın vəziyyəti getdikcə ağırlaşırdı. Bu, günbəgün hiss olunurdu. Dəvət olunan həkimlərin məsləhət bildikləri dava-dərmanların da faydası yox idi...

Anam getdikcə əldən düşürdü, bənizindəki gümrahlıqdan əsər-əlamət qalmamışdı. Gözlərinə torlu qişa gəlirdi. Arıqlayıb əldən düşmüş anamın yanına gəlməyə, haldan-hala düşən bənizinə baxmağa, qırıq-qırıq danışığına, af-ufuna, iniltili səsini eşitməyə qorxurdum... Anamın həyəcanları hiss olunurdu. Bunu ailənin bütün üzvləri duyurdu, dərk edirdilər...

Səhər naharını edib anamın otağına keçdim. Çarpayısının yanında qoyulmuş stulda əyləşdim. Əllərimi alnında, sinəsində gəzdirdim. Anam çarpayının ortasında yumaq kimi qalmışdı. Ağır-ağır nəfəs alırdı. O, göz qapaqlarını qaldırıb üzümə baxdı. Sonra əlimi arıq, damarları çıxmış əlinə aldı. Dərindən köks ötürdü. Haçandan-haçana: — Oğlum, — deyə dilləndi.

— İşə gedirsən?

— İstəyirsən getməyim, ana!

— Yox. Get, oğlum. Ancaq tez qayıt. Səni görməyəndə darıxıram. Az qalır ürəyim çatlaya.

Mən tutuldum. Gözlərim doldu. Qəhərləndiyimi hiss etməsin deyə susdum. Anam da sözünə xeyli ara verdi. Nə fikirləşdisə, başını sağa-sola buladı. Bir də dərindən köksünü ötürdü. Sonra dedi:

— Otaqda başqa adam yoxdu ki?

— Yox. İkimizik, ana!

— Sənə vəsiyyətim var, oğlum.

— Eşidirəm, ana! Nə vəsiyyətdi o?

— Arvadın yetim qızdı. Qəlbi sınıqdı. Onu narazı salma. Özü də yaxşı baladı. Mənə anadan-bacıdan artıq oldu. Ürəyimi — sənə aça bilmədiklərimi ona açmışam... Ondan razı gedirəm.

— Ana, sənə qurban olum, hara gedirsən ki?

Mən doluxsundum. Qəhərləndim. Gözlərimdən yaş yanaqlarıma süzüldü. Səsim titrədi. Deyəsən, onu xəstə anam da duydu. O, başını mənə tərəf çevirib üzümə baxdı. Sonra sözünə davam etdi:





— Bir də onu demək istəyirəm ki...

Anam yenə tutuldu. İstədi sözünün ardını gətirməsin. Mən dərhal bildirdim:

— Sözünü saxlama, ana! Qurban olum, düşündüyünü axıra qədər de.

— Gələn gedəcək, oğlum. Özün harda olacaqsansa, məni də orda dəfn elə.

Mən sarsıldım. Özümü nə qədər ələ almağa çalışsam da, saxlaya bilməyib hönkürdüm. Səsə yan otaqdan ömür-gün yoldaşım gəldi. — Bu nə hərəkətdi eləyirsən, xəstənin yanında, — dedi. O, qolumdan tutub məni ayağa qaldırdı. Dolmuş ürəyimi boşaltmaq üçün həyətə çıxdım. Bir balaca özümə gəlmişdim ki, evin pəncərəsi açıldı. Xanımım: — İçəri gəl, — deyə bildirdi. Yenidən otağa keçdim. O, dedi:

— Ananın vəziyyəti çox ağırdı. Hazırlıq gərəkdi.

— Nədən bildin?

— Ayaqları şişib. Hissiyatı yoxdu.

Mən həyəcan içərisində soruşdum:

— Həkim gətirimmi?

— Yox. Qardaşlarına, bacılarına xəbər ver, gəlsinlər.

— Nə vaxt?

— Elə bu gün.

Saat on birə az qalırdı. Telefonun dəstəyini götürüb Sankt-Peterburqa — kiçik qardaşım Kamilə zəng çaldım. Dəstəyi qardaşım özü götürdü. Mən dərhal:

— Salam, oğlum.

— Salam, dədə. Nə yaxşı zəng çalmısan? Vəziyyət necədi? Axşam anamla səni yuxuda görmüşəm. Özüm də bu gün sizə zəng çalacaqdım. Məni qabaqladın...

— Qorxulu bir şey yoxdu, oğlum. Ancaq anamız bir balaca xəstədi. Səninlə Yusifi arzulayır. İmkanınız olsaydı, gələrdiniz.

— Yusif işdədi. Mən bu saat onunla danışaram.

Söhbəti uzatmadım. — Hələlik, — deyib dəstəyi yerinə qoydum. Sanki üstümə dağ çökmüşdü. Anamın — "Özün harda olacaqsan, məni də orda dəfn elə" — vəsiyyəti qulaqlarımda guyuldayır, beynimi didirdi. Qəribədi, anam "harda olacaqsan?" sualını verdi, ancaq "Dəfn olunacaqsan" kəlamını dilinə gətirə bilmədi... Əziz anam, başa düşdüm səni. Hər şey aydındı.

Telefon dəstəyini yenidən götürdüm. Bu dəfə kənddə yaşayan Əli ilə danışdım. Vəziyyəti açıqladım. Bakıya — bizə gəlmələrini məsləhət bildim. Sonra gəlib anamın ayaqları altında qoyulan stulda oturdum. Gözlərim anamın solğun sifətinə, arıqlayıb damarları çıxan boyun-boğazına dikildi. Ömrü boyu çəkdiyi əzab-əziyyətlərini, övladları üçün keçirdiyi yuxusuz gecələrini xatırladım. Xatırladıqca yandım, yaxıldım... Neyləyəydim?!. Necə çarə qılaydım, bu neçə gündə yeyib-içmədən yataqda qalan anamın halına?! Heç özüm də bilmirdim. Qəribə idi. Gözlərim önündə anam əldən gedirdi. Mən isə gücsüz halda dayanıb, dəhşətli mənzərəni izləyirdim.

Gün günortadan əyilmişdi. Otağa qapanıb qalmışdım. Telefon zəng çaldı. Ayağa qalxıb dəstəyi götürdüm. Danışan Sankt-Peterburqdan Kamil idi. Onun səsində titrəyiş, boğuntu duydum. Ancaq özümü o yerə qoymadım. O, salam verib dedi:

— Dədə, anamın vəziyyəti indi necədi?

— Bayaqkı kimi.

— Yusiflə danışdıq. Bilet götürdük. Bu axşam Sankt-Peterburqdan Bakıya uçan təyyarə ilə gəlirik.

— Yaxşı. Axşam qarşılarıq.

— Zəhmət çəkməyin.

Xudahafizləşib dəstəyi yerinə qoydum. Axşamı gözləməli oldum. Axşama yaxın kənddə yaşayan bacı-qardaşlarım gəldilər. Onlar bir-bir anamla görüşüb yan otağa keçdilər...





Axşam Binə hava limanında Sankt-Peterburqdan gələn qardaşlarımı qarşılayıb evə gətirdim. Onlar da anamla görüşüb-öpüşüb çarpayısı yanında əyləşdilər...

Anam üzümə baxdı:

— Uşaqları haylayıb qorxutmusan, — dedi.

— Nə danışırsan, ana?! Özləri təsadüfən gəliblər.

Anam haçandan-haçana başını yellədi.

— Uşaqlar yol gəliblər. Ac olarlar. Apar onları, nahar eləsinlər.

Anamın sözü mənim üçün əsas verdi ki, gələnləri yan otağa aparım. Onlar bir loxma çörək kəssinlər. Yan otağa keçdik. Heç kəs süfrəyə əl atmaq istəmirdi. Bunu görüb süfrəyə birinci mən əl uzatdım. Sonra da gələnlər. Nahardan sonra mən anamın — "Özün harda olsan, məni də orda dəfn elə" — vəsiyyətini bacı-qardaşlarıma çatdırdım. Yusif dərhal: "— Anam kənddə dəfn olunacaq" hökmünü verdi. Hamı onun ardınca getdi. Daha sözü çevirməyə yer qalmadı. Bəyim: — Ana hamımızındı, — dedi. Bununla da anamla mənim dəfn olunacağımız yer müəyyən olundu.

## ...AMAN AYRILIQ

**Ana günəşdir. Ana əbədi dünyasına qovuşanda övlad kimsəsizləşər. Günəş qüruba çəkiləndə həyat qaralar.**

*Müəllif*

Artıq səbrim tükənirdi. İçimdə bir təklik, tənhalıq duyurdum. Nə otağa, nə də həyətə sığırdım. Anamın yataqdan qalxacağına ümidim qırılmışdı. Onu haldan-hala salan xəstəlik, aramsız ağrılar, çəkdiyi əzablar məni dəhşətə gətirirdi. Açıq-aydın görürdüm, varlığımla hiss edirdim anamın çəkdiklərini. Arıqlayan, əldən düşən, yaşamaq ümidini itirən anamın sol-

muş bənizinə, ağrı-acılardan iztirablar çəkən gözlərinə baxa bilmirdim. Ancaq nə fayda. Qəm, qüssə, kədər ağuşunda çabalamaqdan savayı, əlimdən özgə bir iş gəlmirdi...

Anam hərdənbir başını gah sağa, gah sola çevirir, ətrafında əyləşən övladlarına, nəvələrinə ilk dəfə görürmüş kimi diqqətlə baxır, sanki onların üz-gözündə yeni cizgilər axtarırdı. İstədiyini tapa bilmədiyindən özünə qapanır, çöhrəsində ani narazılıq, bir az da əsəbilik duyulurdu.

Axşamdan xeyli keçmişdi. Anamın narahatlığı artırdı. Bu, ailə üzvlərinin nəzərindən yayınmadı. Elə bu vaxt anam üzünü mənə tərəf çevirdi. Diqqətlə üzümə baxdı. — Eşidirəm, ana! — deyə dilləndim. Anam pıçıltılı səslə: — Üşüdürəm, — dedi. Mən yorğanın ətəyini anamın çiyinləri üstə çəkdim. O, gözlərini yenidən yumdu. Bunu gözləyirmiş kimi otaqdakılar susdu. Üç-beş dəqiqə keçmiş sakitliyi duyan anam: — Ağarəhim, — deyə çox çətinliklə astadan pıçıldadı:

— Qardaşlarını, bacılarını o biri otağa apar. Yorğundular... Ac-susuz olarlar. Məni də sakit buraxın. Yatmaq istəyirəm...

Anamın qırıq-qırıq dediklərini güclə eşidə bildim. Məni dəhşət bürüdü. Ömrünün son gecəsini yaşayan, fani dünyasını əbədi dünyası ilə dəyişməkdə olan anamı narahat edən özünün yuxusuzluğu yox, övladlarının ac-susuz qalmaları idi... Aman Allah! Yaratdığın nə hikmətdi?! Nə qüdrətdi?! Ana ömrünün son saatlarında da, ölümlə həyat arasındakı mübarizə anlarında da, özü əzab və iztirablar içərisində də, çabalaya-çabalaya övladlarının aclığına, susuzluğuna, yorğunluğuna dözmür, qatlaşmır... Düşünürəm: nə qədər böyüksən, genişsən ana ürəyi, ana qəlbi! Nə qədər sonsuzsan ana istəyi, nəhayətsizsən ana arzusu, intəhasızsan ana duyğuları!.. Görən, övlad üçün çəkdiklərinin mində birini övlad da çəkirmi, sənin üçün?! Yalvarıram sizə, məndən inciməyin, məndən küsməyin, deyəcəyim bircə kəlməlik "İnanmıram" sözü üçün!





Anamın pıçıltılarını eşidən Kamil astadan soruşdu:

— Anam nə deyir, dədə?

— Yatmaq istəyir. O biri otağa keçməyimizi bildirir.

Yusif həyəcan içərisində.

— Qalxın, — dedi.

Kamil:

— İşığı söndürümmü? — deyə soruşdu.

Mən: — Yox, — deyə ayağa qalxdım. Biz yan otağa keçdik. Anamın yanında təkcə Mənsurə xanım qaldı...

Şam naharından sonra belə qərara gəldik ki, Kamil, Yusif və Bəyimdən savayı, qalan bacı-qardaşlar elə bu axşam kəndə qayıtsınlar. Vaxt itirmədən hazırlıq işləri görsünlər. Yasxana qursunlar. Belə də etdik. Bacı-qardaşlarım kəndə getdilər...

Qalanlarsa gecə səhərə qədər yatmadı. Anamın çarpayısı yanında əyləşdilər. Səhərə yaxın anamın vəziyyəti bir qədər də ağırlaşdı. Mənsurə məni yan otağa apardı. Bir neçə gün idi ki, yatmadığından o, bərk halsızlaşmışdı. Yuxusuzluqdan gözləri qızarmışdı. Astadan dedi:

— Ananın vəziyyəti lap ağırlaşıb. Bəlkə evə "Yasin" oxuyan çağıraq. Gəlməsinin nə ziyanı var ki?

— Buralarda elə adam varmı?

— Məsciddə olacaq. Maşınla gedib gətirin.

Mən qadınımla razılaşdım. Təklifini qardaşlarıma, bacıma çatdırdım. Onlar etiraz eləmədilər. — Nə olar, gedək gətirək, — deyə cavab verdilər. Mən Qasımı sürücü ilə din xadimi ardınca məscidə göndərdim. Yarım saat keçməmiş onlar qayıtdılar. Altmış beş yaşı olar-olmaz qara paltar geymiş, dolu bədənli, bəstəboy bir qadın maşından düşdü. Salamlaşdıqdan sonra onu evə apardım. O, anamı görən kimi qayıdıb üzümə baxdı. — Qadının nəyisən? — deyə soruşdu. Mən: — Oğlu, — deyə bildirdim. O, anamın çarpayısı yanındakı stulda əyləşdi. Sonra dedi:

— Vaxtdı. Məqamında gəlmişəm.

— Bəlkə bir "Yasin" oxuyasan, xala?

— Bu saat, oğlum. Mən "Yasin" oxuyacam. Xanımlardan savayı, qalanlar otağı boşaltsınlar.

Cavidan və qardaşlarımla həyətə çıxdım. Qızlarım isə yan otağa keçdilər. Elə bu vaxt qadın avazla "Yasin" oxumağa başladı. Onun cazibədar, ovsunlayıcı səsi adamın iliklərinə işləyirdi. Anamla vida anlarının yaxınlaşmasından, ruh sarsıntısından, "Yasin" oxuyan qadının ürək yandırıcı, qan dondurucu, beyin kilidləyici səsindən həyətdə çaşıb qalmışdım. Özümə gələndə Yusiflə Kamili şah budaqlı tut ağacının dibində için-için ağlayan gördüm. Onlara yaxınlaşdım. İstədim təskinlik verim qardaşlarıma. Özümü saxlaya bilməyib mən də onlara qoşuldum. Elə bu vaxt Cavidan gözlərini ovuşdura-ovuşdura qolumdan tutdu... O, da hıçqıra-hıçqıra ağlamağa başladı... Bir azdan "Yasin" oxuyan qadının səsi kəsildi. Mən özümü ələ almağa çalışırdım ki, bacım qapını açıb: — Anam səni çağırır, qardaş, — deyə bildirdi. Tələm-tələsik evə qaçdım. Anamın çarpayısının qırağında oturdum. — Ana, sənə qurban olum, — deyib üzündən öpdüm. O, çox çətinliklə Kamil, Yusif, — dedi. Elə bu vaxt həyətdəkilər də gəldilər. Qardaşlarım, bacım, qızlarım, oğlum onu dövrəyə almışdılar. Hamının diqqəti anamın solğun bənizinə dikilmişdi. Onların hər biri onun ağzından çıxacaq kəlmələri eşitməyə çalışırdı. Yusiflə Kamil eyni anda hərəsi bir tərəfdən anamın çarpayısını qucaqladı: — Hə, eşidirəm, ana, — deyə titrək səslə bildirdilər. Hərəsi anamın bir əlindən öpdü. Bacım çarpayının baş, qızlarım isə ayaq tərəfində dayanıb anama həsrət və yanğı ilə baxır, için-için göz yaşları tökürdülər. Birdən anamın: — Cavidan, — deyə pıçıltılı səsi eşidildi. Ancaq o nədənsə, fikrini tamamlaya bilmədi. Oğlum Cavidan "Nənə!", "Nənə!" deyib ağlaya-ağlaya anamın əllərini əlinə aldı. — Sənə qurban olum, — deyib onun əllərini üzünə sürtdü. Haçandan-haçana özünə gələn anam göz qapaqlarını qaldırdı. Son dəfə üzümə baxdı. Son dəfə gözləri gözlərimin içinə dikildi. Gözlərinin lap dərinliklərində mənə hədsiz istək, sevgi, bir də yaşaya biləcəyinə sonu görünməyən, intəhasız ümidsizlik, dərin bir intizar, nəhayətsiz tənhalıq duydum. Bir andaca özümü itirdim. — Ana! — deyə qışqırmaq, onu bağrıma basmaq istədim. Hansı qüvvənin təsirindənsə, bir an nə səsimi çıxara, nə də onu yatağındaca bağrıma basa bildim... Elə bu vaxt ürəyimdən keçənləri duymuş kimi anam qollarını mənə tərəf qulacladı. Biixtiyar onun qolları arasına düşdüm. Anamı qucaqladım, özümə sıxdım. Beləcə anam mənim, mən anamın qolları arasında qaldıq. Qucaqlaşdığımız halda anam güc-bəla ilə: — Ağarəhim, — deyə bildi. Bu, anamın son sözü, son kəlməsi oldu. 84 yaşlı anamın döyünən ürəyi dayandı... Övlada qayğı ilə yaşayan, ailəsini düşünən anamın daim çağlayan qəlbi bir andaca susdu... Anamın cəsədindən ayrılıb başımı qaldırdım. Gözlərim divardan asılmış saata sataşdı. Saat on beşə on beş dəqiqə qalırdı. Öz-özümə düşündüm: daha anam yoxdu... Onu bir daha görməyəcəyəm... Onunla bir daha danışa bilməyəcəyəm... Divanda oturub hər səhər mənə: — Sabahın xeyir, oğlum! — deməyəcək... Hərdənbir şirin xatirələrə dalmayacaq... Mənimlə, nəvələri ilə daha şirin-şirin söhbətlər edib gülməyəcək... Ana nəfəsini, ana ətrini duymayacağam... Məsləhət və nəsihətlərini eşitməyəcəyəm... Özünə, nəfəsinə, səsinə, baxışına, gülüşünə, yerişinə, duruşuna... həsrət qalacağam... Gələn Novruzu anamsız keçirəcəyəm... Anam getdi... Özü ilə mənim sevincimi, fərəhimi, ruhumu da dartıb getdi. O, daha yoxdu... Olmayacaq da... Bu boyda şəhərdə tək, tənha qaldım... Heyf! Çox heyf! Sənə son məqamda kömək edə bilmədiyim üçün məni bağışla, ana!!!

Mən heç kəsə heç bir söz demədən geri çəkildim... Anamın cəsədini oğlanlarının, qızlarnın, gəlinlərinin, nəvələrinin ixtiyarına verdim. Onlar dedilər, ağladılar, göz yaşları tökdülər, ürəklərini boşaltdılar mərhum anam üçün... Sonra da yavaş-yavaş sa-

kitləşdilər...

Kürəkənim Qasımı həyətə çağırdım. Təcili tibbi yardım maşını tapıb gətirmələrini tapşırdım. Sonra Sevinci kənara çəkib dedim:

— Qızım, sabah mənim iş yerimə gedərsən. Məni soruşanlara səbəbini demədən kəndə getdiyimi bildirərsən. Çalış tanış-bilişlər yasımız düşməsindən xəbər tutmasınlar. Bilsələr, axışıb kəndə gələcəklər.

— Gəlsinlər də, ata!

— Yox, qızım. Uzaq yoldu. Yolda hər cür qəza baş verə bilər. Anamın üçünü verən kimi qayıdacağam. Yasa gəlmək istəyənləri burda qəbul edərik...

Heç yarım saat keçməmiş Qasım təcili tibbi yardım maşını tapıb gətirdi. Anamın cismini həmin maşına qoyduq. Kamillə Qasım tibbi yardım maşınına, Yusif, Bəyim və Mənsurə mənim şəxsi maşınıma əyləşib yola düşdük...

Biz kəndə çatanda qaş qaralırdı. Qüruba çəkilən günəşin şüaları üfüqi qırmızımtıraq bir rəngə boyayırdı. Qardaş və bacılar, qohum-əqraba, bütün kənd əhli bizi həyəcan içərisində qarşıladılar. Anamın cənazəsini qardaşım Əligildə düşürdük. Sürücünün yol xərcini ödəyib onunla xudahafizləşdim. Adamlar sıxıla-sıxıla, utancaq uşaqlar kimi mənə yaxınlaşıb, təskinlik verirdilər...

Anamı kənddəki oğul-qızlarının, nəvə-nəticələrinin, qohum-qonşularının ixtiyarına verib yasxanaya getdim. İçəri adamlarla dolu idi. Mən Əlidən hazırlığın nə vəziyyətdə olduğunu soruşanda o, dərhal: — Narahat olma, qardaş! — deyə bildirdi.

Anamla vida mərasimi səhərə saxlansa da, həmin gecə qohum-əqrabadan heç kəs evinə getmədi... Onlar yasxanada, evdə əyləşib səhərin açılmasını gözlədilər. Qohum-əqrəbanın bu hərəkəti məni utandırsa da, onların anama olan hörmət və ehtiramı





mənə böyük təskinlik verirdi. Məndə məmnunluq hissi doğurur, üstümdə olan dağ ağırlıqda yükü sanki çiynimdən götürürdülər...

Səhər açılanda gözlərimə inanmadım. Altı yüz təsərrüfatdan ibarət olan kənd əhli qadınlı-kişili həyətə toplaşmışdı. Vaxt uzandıqca başqa kəndlərdən də, rayon mərkəzindən də adamlar gəlirdilər.

Anamın yuyacaqdan qaldırılan cənazəsi həyətdə endirildi. Qabaqda din nümayəndələri, onların da arxasınca vidaya gələnlər bir neçə cərgəyə düzülərək namaza durdular... “Yasin” oxundu. Cənazə qaldırıldı. Qardaşlarım, bacılarımın uşaqları, yaxın-uzaq qohumlar, dostlar... cənazəyə girdilər. Cənazə son mənzilə yol aldı. Qəm, qüssə, kədər içərisində boğula-boğula, didilə-didilə cənazəyə girib gedirdim. Ancaq nə danışa, nə də ağlaya bilirdim... Hisslərim donmuşdu... Beynim kilidlənmişdi... Deyilənlərə, soruşulanlara “Hə”, “Hə” deməkdən savayı başqa cür cavab verməyi bacarmırdım... Beləcə qəbiristana çatdıq. Qəbir hündür təpədə, — xoşbəxtliyini öz əlləri ilə anamın xoşbəxtliyinə calayan, ona ləyaqətli, şərəfli həyat, səadət bəxş edən huri-mələyin — cicimin məzarı yanında qazılmışdı. Cənazə qəbrin yanındaca yerə endirildi. Mən cicimin baş daşına yaxınlaşıb qarşısında diz çökdüm. Özümü saxlaya bilməyib hönkürdüm. Sonra göz yaşları içərisində dedim:

— Ruhuna qurban olum, cici! Bilirəm... Neçə ildi bu təpədə, bu buz kimi soyuq məzarda səbr və təmkinlə kimsəsiz, tək-tənha, əbədi ömrünü yaşayırsan... Bu andan sənin də tənhalığına, təkliyinə son qoyulur. Bu fani dünyada anama böyük səxavətlə xoşbəxtlik, səadət bəxş eləmək istəyindəndi ki, o da indi sənin yanına gəlib.. Əbədi dünyasına səninlə birlikdə qovuşmaq üçün... Bütün gücünü, qüvvəsini itirmiş anamı sənə etibar edirəm, cici!!! Qoşa yatın, qoşa qarıyın!!! Ruhunuza qurban olum! Məni bağışlayın! Sizə rəhmət diləməkdən savayı özgə bir ça-

rəm qalmır!.. Elə bu vaxt bacım Bəyim arxadan məni qucaqladı. — Ayağa qalx, qardaş! — dedi. Mən ayağa qalxdım. Anamın cənazəsinə tərəf üz tutdum. — Mənə də ayaqların altında yer elə, ana! — deyə bildirdim. Ürəyim sıxıldı. Ayılanda özümü qardaşımın evindəki divanda gördüm. — Bağışla məni, ana, — deyə təəssüfləndim...

## İTİRİLƏN DÜNYAM...

**İnsan qədr möcüzəsidir. O, itirdiyinin qədrini sonralar daha çox dərk edir.**
***Müəllif***

Anamdan ayrılalı, həyəcanım, narahatlığım getdikcə artırdı. Hara gedirdimsə, nə iş görürdümsə, anam gəlib gözlərimin önündə dayanırdı. Dərdimi kimə deyim, ürəyimi kimə açım, heç özüm də bilmirdim. Əslində mən anamdan ayrılmamışdım. Hər gün, hər saat anamla birlikdə idim, daxilən onunla niskilli söhbətlər eləyirdim. Baxışlarını üzərimdə duyurdum. Mən hər axşam işdən gəlir, ailə ilə birlikdə nahara otururdum. Sonra da qalxıb öz iş otağıma keçirdim. Ailə albomumu rəfdən götürür, anamın müxtəlif illərdə atamla, cicimlə, mənimlə, oğul-qızları ilə, nəvələri ilə... çəkilən şəkillərinə baxırdım. Şəkilləri ruhuma uyğun mənalandırırdım. Hər dəfə də anamın baxışları, gözlərinin lap dərinliklərindəki sevinc, istək dolu arzular məni heyrətləndirirdi... Baxışlar müxtəlif — cazibədar... sevincli... fərəhli... dalğın... qəmli... qüssəli... kədərli... yandırıcı... əridici... Tez-tez daxili aləmimə qapılırdım... Hisslərim, duyğularım gah coşur, gah da sakitləşirdi. Bəzən də məni aldadırdı. Belə olanda fikrim, düşüncəm qarışır, dolaşır, qatışbulaş olurdu. Düşünürəm: Xudaya, nə qədər əzəmətliymiş,





möhtəşəmmiş ana qüdrəti?! Təmizmiş, pakmış, ülviymiş ana duyğuları?! İntəhasızmış ana həsrəti?! Ağırmış ana itkisi?!

Məni qınamayın. Dəhşətə gəlirəm, yüz dəfələrlə ölüb-dirilirəm anasızlar barədə düşünəndə... Uşaqların ana nəfəsinə, ana hənirtisinə, ana nəvazişinə həsrət qalanları haqda fikirləşəndə... Sən demə, anasızlıq dərdi dünyanın özü boyda böyükmüş... Dağlar qədər ağırmış... Cəhənnəm zəbanələri qədər iztirablıymış, məşəqqətliymiş... Görə-görə, düşünə-düşünə nəhayətsiz, dibsiz dəryaların dəhşətli burulğanına insanın atılmasıymış... Ağlagəlməz, tükürpədici bataqlıqlarda boğulmasıymış... Bu barədə düşünəndə az qalır beynim çatlaya. Deyirəm, bəşəriyyətə ömür vermək səlahiyyətim olsaydı, heç vaxt məsum körpələri, gülüzlü uşaqları ana nəfəsinə, ana hənirtisinə, ana nəvazişinə həsrət qoymazdım. Bu dediklərim üçün bağışla məni, Ulu Tanrım. Bu, heç də səlahiyyətlərinə şərik çıxmaq, Sənə qarşı çevrilmək, iddia qaldırmaq, üsyankarlıq eləmək, — ədalətsizsən, haqsızsan — demək deyil. Mən düşündüklərimi israr elədim. Dolmuş ürəyimi boşaltdım. Axı mənə insafı da, mürvəti də Sən bəxş etmisən, Ulu Tanrım!!!

Heç yadımdan çıxmaz. Anam dünyasını dəyişəndən on gün sonra oğlum Cavidanın dedikləri: “Ata, nənəm evimizin yaraşığı imiş...” Nəvəm Asifin sözləri: “Qoca nənəm nə vaxt gələcək, baba?!”... Onun da ardınca qızım Sevincin fikri: “Qardaşım düz deyir, ata... Neçə gündü nənəmin yoxluğuna inana bilmirəm... Keçən axşam onu yuxuda gördüm. Nənəm çox gümrah idi. O, gülümsünə-gülümsünə dedi: “Qızım, atana da çatdır. Mən yaxşıyam. Rahatlanmışam. Özünü üzməsin...”

Cavidanın da, Asifin də, Sevincin də dedikləri məni kövrəltdi. Nə deyəcəyimi bilmədim. Keçirdiyim sarsıntılı hissləri, ürəyimin qübarını duymasınlar deyə öz iş otağıma keçdim. Düşüncələrim məni uzaq və yaxın keçmişə apardı. Acılı-şirinli xatirələr gözlərim önündə canlandı: uşaqlıq illərimdə anamın mənə

qayğıları, on övladının hər biri üçün keçirdiyi yuxusuz gecələri, ömrü boyu ehtiyac içərisindəki yaşantıları, atamla əlaqədar keçirdiyi əzablar, atamdan sonrakı iztirabları, gecə-gündüz çəkdiyi məşəqqətlər, ömrünün son iyirmi günündə xəstəliyinin ağır fəsadları... Bunlardan hansını deyim?! Hansından danışım?! Hansından söhbət açım?! Hər biri özlüyündə ürəksıxıcı, darıxdırıcı, yandırıcı, əridici... Ancaq bunların hər biri özlüyündə ləyaqətdi, şərəfdi, namusdu, vicdandı, ana! Ruhuna qurban olum! Heç vaxt unudulan deyil. 1975-ci ilin payızı idi. Həyətimizə müstəntiq gəlmişdi. O, həyətdəki boruların haradan alındığı ilə maraqlandı. Borular üçün sənəd istədi. Sənəd olmadı. Doğrusu, mən qorxdum. Nə deyəcəyimi bilmədim. Sən müstəntiqə müraciətlə dilləndin: "Nə sənəd, a bala?! Boruları tifillərin atası Nüsrət alıb. Yaxşısını o bilir. Boruların sənədini də gedin, ondan istəyin..." Müstəntiq atamın harda olduğunu soruşanda yenə öz məntiqinlə bildirdin: "On bir ildi dünyasını dəyişib. Qəbiristanlıqdadı". Müstəntiq mat-məəttəl üzünə baxdı. Başqa söz deməyib kor-peşman həyətdən çıxdı. Bununla da həm mənə dil verdin, həm də məsələni qapadın. Yaxud 1994-cü ilin mayı. Qardaşım Kamil Sankt-Peterburqdan gəlmişdi. Axşam cibindən xeyli pul çıxarıb stolun üstə qoydu və dedi:

— Dədə, bu pula mənə Bakıdan ev alaq. Nə vaxtsa, qürbət eldən vətənə qayıtmalıyam...

Doğrusu, qardaşımın bu fikrinə mən də şərik çıxdım, sevindim. Heç bir şeyin fərqinə varmadan: — Əla, — deyə bildirdim. Anam bir stolun üstündəki pula baxdı, bir də Kamilə. Sonra da anlaşılmaz sual dolu nəzərlərini mənə zillədi. Yenə heç bir şey başa düşmədim. Həmin axşam bir söz deməsə də, səhər mən işə gedərkən narazı halda bildirdi:

— A bala, sən daha uşaq deyilsən. Mən gözlədim ki, axşam qardaşından soruşacaqsan, deyəcəksən: — A qardaş, Sankt-Peterburqda cəmi-cümlətanı yeddi ildi yaşayırsan. Sən nə qədər





məvacib alırsan ki, bu qədər qənaət eləmisən? Haram pulla ev tikməzlər. Xoşbəxt olmazlar. Əgər Sankt-Peterburqda pul qazanmaq, var-dövlət toplamaq belə asan olsaydı, Azərbaycanda bir adam qalmazdı. Hamı gedərdi ora. Qardaşın mən biləni əyri yoldadı. Mən sizi halallıqla böyütmüşəm... Sizə haram tikə yedirtməmişəm...

Səssiz-səmirsiz anamın üzünə baxdım. Onun səsində hökm, sözlərində qətilik duydum. Başqa əlacım qalmadığından: — Yaxşı, öyrənərəm, ana! — deyib işə getdim... Axşamüstü evə qayıdanda anamla aramızda olan söhbəti qardaşıma çatdırdım. Kamil gülümsündü, sonra da: — Anamızın gözlərində biz hələ də uşağıq, dədə, — deyə bildirdi. Sonra da: — Eybi yoxdu, özüm anamı inandıraram qazandıqlarımın halallığına, — dedi. Elə həmin axşam qardaşım anamı çətinliklə də olsa inandıra bilmişdi... Bax belə idi mənim anam... Ömrü boyu halal dadmışdı, halallıqla dolanmışdı. Övladlarının da çörəyinin halallıqla qazanılmasını düşünmüşdü.

Əziz ana! Əmin ola bilərsən... Heç vaxt, heç zaman unudulmaz nəsihətlərin... Yerdə qalmaz vəsiyyətlərin...

Hə... Onu da deyim ki, vida günündən xeyli keçsə də, anamı bir dəfə də olsun yuxuda görə bilməmişdim. Qəribədi. Anamı ailə üzvləri tez-tez yuxuda görərdilər. Hər dəfə də "xoş gördük", "sevincli gördük", "gülümsəyən gördük", — deyə danışardılar. Günahkar adamlar kimi, özümü daxilən məzəmmət edər, düşünərdim ki, yəqin anam hardasa məndən incik düşüb... Ona görə də ruhu məndən uzaq gəzir anamın! Özümdə də belə qənaət yaranmışdı ki, anamı heç vaxt yuxuda görə bilməyəcəm. Çox çəkmədi ki, yanıldığımı başa düşdüm. Yuxuda təbiətin gözəl bir guşəsində anamla qarşılaşdım. O, mənim yuxuma gənclik çağlarında gəlmişdi. Üzündə təbəssüm, gözlərində sevinc, istək, baxışlarında səmimiyyət, mehribanlıq, səsində cazibədarlıq vardı anamın. Mən tutuldum... Nə edəcəyimi bilmədim...

Haçandan-haçana özümə gəldim... Anamın üstünə atılıb onu qucaqlamaq, öpmək istədim... Anam: — Gəlmə, dayan, — dedi. Biixtiyar dayandım. Anam dərindən köksünü ötürdü. Sonra da aramla bildirdi:

— Səndən inciməmişəm, oğul. Hər kiçik şeyi özünə dərdisər eləmə, onsuz da bilən bilir kimliyini... Gəldim deyəm, çox fikir eləməyəsən... Peyda olandan dünya dolub boşalır... Axır hamının məskəni birdi...

— Ana, sənə qurban olum! Gənclik illərinə nə yaxşı qayıda bilmisən?! Necə də gözəlsən?! Necə də təravətlisən?! Necə də mehribansan, mənim anam.

— Sən deyənlər bu yaşadığımız əbədi dünyamızın açılmaz sirləridi, mənim balam. Daha uşaq deyilsən. Bizdən nigaran qalma.

— Nigarançılığım səndəndi, cicimdəndi, bir də atamdandı, ana!

Anam yenə gülümsədi. Bənizi bərq vurdu. Gözlərində sanki məşəl saçdı. Ürəyim əsdi. Elə bu vaxt anam qeyb oldu. Necə qarşılaşmışdı, elə də yox oldu. “Ana!” “Ana!” — deyə qışqırdım. Özüm öz səsimə oyandım. Mənsurə xanım kəndə qonaq getdiyindən səsimə səs verən də olmadı. Bədənim titrədi. Özümə gələndə ayağa qalxdım. Gedib yarım stəkan sərin su içdim. Gəlib yenidən yatağıma uzandım. Yatıb anamı bir də yuxuda görmək istədim. Bunun üçün Allaha çox yalvardım. Yaradan deyəsən, səsimi eşitmədi. Səhərədək yatağımda çabaladım. Sabahın ala-toranında hardansa ağlıma belə bir fikir gəldi: “Cicimlə yanaşı yatan anamın ayaqları altında özüm üçün yer götürmək”.

Siz Allah, məni qınamayın. Məni fanatik də sanmayın. Dünyaya göz açan hər bir bəşər övladı ölüm təcrübəsi keçməlidi. Bunsuz mümkün deyil. Gördüyüm yuxudan bir neçə gün sonra atamın, cicimin, anamın uyuduğu qəbiristana getdim. Məzarları





bircə-bircə ziyarət elədim. Cicimlə anamın ayaqları altındakı boş yerin tutulduğunu görəndə məni dəhşət bürüdü. Gecikmişdim... Özüm üçün əziz sandığım məskənimi itirmişdim...

## QIZLARI ANALAR TƏRBİYƏ EDƏR...

**Cənnət anaların ayaqları altındadır...**
***Həzrəti Məhəmməd Əleyhissəlam***

**Cəmiyyətin gələcəyi anaların əlindədir...**
***Balzak***

Əziz ana! Qızlar Universiteti açanda da, səni düşünmüşəm, səni anmışam. Şəninə sığındığım Böyük Yaradana, atamın, cicimin müqəddəs ruhuna, bir də sənin pak və təmiz amalına, əməllərinə güvənmişəm. Orada təhsil alan qızların hər birini doğma övladlarım — Hicranım qədər, Sevincim qədər, Dinarım qədər sevirəm. Sizdən aldığım tərbiyənin tükənməz qüdrətini, danılmaz gücünü indi də duyuram. Bu gün universitetdə elimizin, obamızın, məmləkətimizin hər tərəfindən 18-25 yaşlı qızlar təhsil alırlar. Burada onlara elm öyrədilir. Tərbiyə verilir. Hər biri seminariya divarları arasında ailə həyatına, tərbiyəçi, müəllim olmağa, sabaha ana kimi hazırlanır.

Ana! Bu adın qüdrəti qarşısında baş əyirəm. Səcdəyə gedirəm. Ana, məni bu ifadəmə görə bağışla. Bu söz yersiz olsa da, ömrünü yaşayıb gedərkən, əvəzində məzara da girməyə hazıram, ana! İstəkli tələbələrimin hər birini tərbiyə etdiyin qızların, öyüd verdiyin nəvələrin sanıram. Gəncliyin istiqanlılığını da, hər şeyə marağını da, yerli-yersiz tələbkarlığını da aydın başa düşürəm. Hamısını özlüyümdə qiymətləndirirəm. Böyük məsuliyyətimi də, xalq, el qarşısındakı cavabdehliyi-

mi də tam mənası ilə dərk edirəm. Bircə arzum, bircə diləyim var Ulu Tanrıdan. Ürəyimi şam edə biləydim, qətrə-qətrə əridib onların ömür çırağına süzməyi bacaraydım. Bu mənim həyatımın mənası, qırx dörd il əvvəl dünyasını dəyişən atama verdiyim ümidlərin ləyaqətli cavabı, Böyük Yaradan qarşısındakı borcumun kiçik bir zərrəciyi olardı. İndiki keşməkeşli dünyada, mənəviyyatın zəhərləndiyi bir zamanda hər üç yüz-beş yüz gənc qızın təsirlər altına düşübən öz yolunu azanından üçünün-beşinin vaxtında qarşısını kəsmək, onları yoluna qaytarmaq, namuslu həyatını qoruyub saxlamaq nə qədər şərəflidi?!. İnsan ömrünün səhv addımlarının gənclik dövründə atıldığını yaxşı bilirəm. Atadan-anadan ayrılaraq böyük-kiçik nəzərindən iraq düşüb, yaşamağın nə qədər çətin olduğunu aydın təsəvvür edirəm. Bax, bu yaşda bütün tələbələrimizə, məsum gəncliyə mənəvi ata, əziz müəllim olmaq istəyirəm. Bu neçə ildə hər yerdə həmişə özünə, ailəsinə, təhsil aldığı seminariyaya, əziz müəllimlərinə şərəf, şan gətirəcək tələbələrim Şəhla Hüseynovanı da, Təranə Təhməzovanı da, Məlahət Qayıbovanı da yaxşı tanımışam. Bu qızların hər birinin xarakteri, dünyaya baxışı, arzu və istəkləri başqa-başqa olsa da, onları birləşdirən keyfiyyətlər var: sağlam ruh, möhkəm əqidə, xalqa sonsuz məhəbbət və sevgi... Qoy adlarını çəkmədiyim üçün o birisi qızlarım məndən inciməsin, küsməsin. Onların sayı çox olduğundan adlarını sadalaya bilmirəm. İnanıram... Mənim düşüncələrim, mənim istəklərim hamısının ruhuna hopub, gələcək nəsillərə ötürüləcək. Mənim əzizlərim, mənim doğmalarım... Sizin hər biriniz sağlam mühitdə tərbiyə aldığınızı sübut etdiniz. Bu müddət ərzində bircə hissi, bircə duyğunu dərk etmişəm ki, qızları analar tərbiyə edər. Bağışlasın analar məni... Sizlərə ədəb dərsi vermək, ağıl öyrətmək istəmirəm... Təkcə onu demək istərdim ki, ana tərbiyəsi, ana istəyi, ana nəsihətləri qızların ömür-gün yolçusudur. Qızları ancaq analar xoşbəxt edə, analar səadətə çatdıra bilər. Qızların gələcək həyatı Sizin əlinizdədir. Siz nə edəcəyinizi lap əvvəlcədən — qızınızın körpəliyindən bilməlisiniz. Qızınızın harda, necə nəfəs aldığını, əhvalının nə zaman dəyişdiyini vaxtında duymalısınız. Qızın səhv hərəkətlərinə haqq qazandırmaq, yaxud onun üzərinə pərdə çəkmək, atadan da, qardaşdan da, elə müəllimdən də gizlətmək acı, arzuolunmaz hallar yaradır. Sabah ər evinə, qayınana, qayınata, qayın, baldız yanına ərköyün gedir, söz oynadır, yalan danışır, özü üçün "ana" adlı müdafiəçi də axtarır. Buradaca bədbəxtlik, peşmançılıq qızın başı üstünü alır. "Döşünə döyən" ana kimsəyə bir söz deməsə də, onun özlüyündə sanki ürəyi qırılır. O, qüssəyə, qəmə, kədərə bürünür.

Universitet qızları ilə əziz müəllimləri arasında bir doğmalıq, səmimiyyət yarandığından hamı bir-birini yaxşı başa düşür, səhvlərini göstərəndə umu-küsü olmur. Qarşılıqlı hörmət, açıq söhbət onlara bir-birini başa düşməyi öyrədir.

Qəribə xilqəti var bu qızların. Onlarla səmimi olanda səni ata kimi, ana kimi, qardaş kimi sevirlər. Sənə ağlagəlməz dərəcədə səmimi olurlar, doğma olurlar. Vay o günə ki, bir balaca kobud olasan, artıq danışasan, yersiz güləsən. Əlləri ilişməyə yer qoyasan...

Sonra bircə yolun qalır, səssiz-səmirsiz onlarla xudahafizləşmək. Yoxsa, sənə xarakterinə, ağlına münasib adlar qoyacaqlar, sözlə şəklini çəkəcəklər. Qapıda dayanan, sakitlik yaradan polis nəfərindən tutmuş rektora qədər haqqında məlumatlar yayacaqlar. Səhvini düz gözünün içinə deyəcəklər: "Filankəs belə baxdı", "Filankəs filan şeydi". Nə bilim... Nə... hər şeyi bilir, hər şeyi hamıdan yaxşı duyur... hər dərdin əlacını, dərmanını bilir bu qızlar.

Gərək səmimi olasan... Gərək doğma olasan bu qızlarla.

Belə olanda səni mənəvi ata sanır, özününkü bilir, sənə ürəyini açır, dərdini danışır.

Şükür sənə, Ulu Tanrı. Nə yaxşı özümüzü inandıra bilmişik. Onlar tam əmin olublar ki, seminariyada bütün tələblər onların yaxşı, təmənnasız təhsil almaları üçündür. Burda söz qəti, niyyət təmizdir.

Ad günlərində, bayramlarda qızların qabiliyyət və şücaətini görəndə, doğmalıqlarını duyanda sevincimdən az qala qanadlanır, pərvazlanıram. Təmiz qəlbli, geniş ürəkli, bir az yumşaq, bir az mülayim, bir az sərt xarakterli bu qızlar necə də gözəl, necə də səxavətli və təravətli olurlar. Onların sərtliyi də mülayimliyi qədər mənalı, cazibədar olurmuş, İlahi!

Hiylədən, riyadan, yalandan, mənsəbdən... hər şeydən uzaq bu qızlar, səhvi heç vaxt adama bağışlamırlar. Düz adamın gözünün içinə oxuyurlar. Onlardakı cəsarəti, düzgünlüyü, qeyrəti... ləyaqəti alqışlayıram... Mənim gələcəyim olan bu doğmalarım hər şeyə, hər şeyə qadirdilər: nifrət eləməyə — məhəbbətə də, sevincə — kədərə də, susmağa — danışmağa da...

Məni bağışlasın analar, əfv etsin atalar... Qızların hər birinin taleyini düşünürəm. Onları xoşbəxt görmək istəyirəm. Doğmalarım məndə qəribə hisslər oyadır. Xudaya, onlara tay oğlum, qardaşım olaydı. Bu doğmalarımı oğluma, qardaşıma alaydım. Ailəmizə gətirəydim. Övladları olaydı. Hörmətlə, izzətlə düşünəydik, sevinəydik, güləydik...

Bu günün növrəstə qızları sabahın analarıdırlar, qadınlarıdırlar. Ulu Tanrının sevərək şücaətindən yaratdığı bu qadınlar kişilərdən çox-çox qüvvətli olurlar. Onlar istəsələr, kişiləri əsəbləşdirib cin atına mindirərlər, bu dünyanı al-qana boyayarlar. İstəsələr, kişilərin əsəblərinə məlhəm qoyar, onları cin atından düşürərlər...

Ana olduqları üçün qadınlar həmişə ürəyiaçıq, zərif, xoşhal, mülayim olurlar. Onlar təmiz, pak, ülvi olduqlarından deyilənlərə tez inanırlar. Sonra da nəsibləri göz yaşları, peşimançılıq, kədər, qəm, qüssə olur. Ömrü boyu yanır, yaxılır, əriyir, bədbəxt yaşayır aldananlar. Nə yaxşı ki, deyilənləri tez götürür bu qızlar.





İniversitetin yarandığının ilk illəri idi. Bəzi yüngül, əxlaqı naqis oğlanlar (nə yaxşı ki, belələri azdır) burada yalnız gənc qızların  təhsil aldığını eşidib binanın həndəvərində gəzişirdilər, “ov” axtarırdılar. Bunu mən də, dekanları Səbirə xanım da, Samirə xanım da, Xatirə xanım da başa düşmüşdük. Belə qərara gəldik ki, qızları bir auditoriyaya yığaq. Fikrimizi, düşüncəmizi onlarla bölüşək. Belə də etdik...

Dərsin sonunda seminariyada qızların yığıncağını keçirtdik. Orada dekanlar da, qadın müəllimlər də çıxış etdilər. Həyatı misallarla gənclik illəri, gənclik təravəti, gənclikdə düzəldilməsi mümkün olmayan səhvlər... haqqında söhbətlər apardıq. Söhbət hədəfə istiqamətləndikcə qızlar arasında mübahisələr doğuran münasibətlər də  açılırdı. Mən məsələyə bir qədər də aydınlıq gətirmək üçün açıq söhbətə keçdim:

— Siz mənim övladlarımsınız. Bizim məqsədimiz sizin hamınızı elmli, tərbiyəli və xoşbəxt görməkdir. Siz bizim gələcəyimizsiniz. Hansı valideyn övladının bədbəxtliyini istər? Sizin gələcəyiniz bu günümüzdən, özünüzdən asılıdır. Valideynləriniz sizin tərbiyənizi, ləyaqətinizi... bizə etibar ediblər. Biz bunun üçün valideynləriniz, xalqımız, gələcək nəslimiz və tariximiz qarşısında məsuliyyət daşıyırıq. Birinizin haqqında deyilən sözü hamınıza aid etmək olar. Biz istərdik ki, seminariyaya heç kəsin qohumu, qardaşı, elə lap nişanlısı da, həyat yoldaşı da gəlməsin. Biz hər şeyi başa düşürük. Axı kənardan baxan hər adam buna başqa ad verə bilər. Mənim doğmalarım, mənim övladlarım. Bura yalnız ata, ana gələ bilər. Sizdən təvəqqe edirik, qohumlarınızı, qardaşlarınızı...

başa salın. Bu, nə gerilik, nə də müasirlikdir. Bu, universitetin tələbidir. Özünüzü yad nəzərlərdən, artıq söz-söhbətdən, ləyaqətsiz hərəkətlərdən, ləkələrdən qoruyun. Birinizin səhv hərəkəti hamınızın adına yazılacaq... mənim doğmalarım, əziz qızlarım...

Söhbətlərimizlə, deyəsən, qızlarımızı inandıra bilmişdik. İndi bütün qızlar özləri-özlərinə nəzarətçidirlər. Onlara artıq söz deməyə ehtiyac yoxdur.

Bax, beləcə, qarşılıqlı hörmət və ehtirama əsaslanır qızların hərəkətləri. Sözsüz-söhbətsiz qəbul olunur burada ürəyəyatan arzular, istəklər. Bu qızlara təkcə inanmaq, bir də onları inandırmaq gərəkdi...

## ANALAR SƏHV EDƏNDƏ...

**Gözlü o adamdır ki, özünü görə bilsin.**
***A.A.Bakıxanov***

Məni eşidin, analar! Sizə deyiləsi sözüm var. Çox şey görmüşəm bu dünyada: acı da, şirin də, yaxşı da, pis də, sevgi də, nifrət də... Sadaladığım və sadalaya bilmədiklərimin hamısını qızlarınızda siz tərbiyə etmisiniz. Onların xoşbəxtliyinə də, bədbəxtliyinə də siz məsuliyyət daşıyırsınız. "Əxlaqı naqis qızın baisi anasıdır", "Qız anasına oxşar", "Ana çıxan ağacı qızı budaq-budaq gəzər", "Anasına bax, qızını al" — deyib babalar.

Doğrudur, bütün analar, elə mənim anam kimi qızlarını xoşbəxt, şad-xürrəm görmək istəyirlər. Allah eləsin... Analar qızlarına görə peşmançılıq hissi keçirməsinlər, göz yaşları axıtmasınlar. Qadın təbəssümü, qadın gülüşü, qadın qəhqəhələri qəlblərə sevinc gətirir, könül oxşayır.

"Ana" sözündəki böyük qüdrəti və əzəməti də, pak və





ülvi təmizliyi də, məhəbbət və sevgini də duyuram. Xarakterindəki sərtliyi də, xeyirxahlığı da, istiqanlılığı da hiss edirəm. Hamısını, hamısını qiymətləndirirəm. Hər şey yaxşı, cazibədar, ürəkaçan olmalıdır. Bununla belə, hər şeyin həddi var. Bu, Ulu Tanrının, Böyük Yaradanın insanlardan tələbidir.

Universitetin fəaliyyəti ərzində nələrlə qarşılaşmamışam, nələrlə üzləşməmişəm, nələr eşitməmişəm, İlahi!..

Yaxşısına sevinmişəm, fərəhlənmişəm, pisinə təəssüflənmişəm, sonra da ürək ağrısı ilə düşünmüşəm, yol göstərməyə, nəsihətlərimi verməyə çalışmışam. Yaxşısı da, pisi də mənim olsa da, bəzən əlacsız qalanda istəyimə uyğun gəlməsə də, onları cəzalandırmağa da məcbur olmuşam. Xarakterimin əksinə gedərək qəlb qırmışam, göz yaşları tökdürmüşəm.

İlk qəbuldan bir qədər keçdiyindən universitetdə təhsil alan qızları yavaş-yavaş tanıyır, xarakterlərinə bələd olurdum. Bu yaşdakı qızların durumunu, istəyini başa düşüb, qiymətləndirməyə çalışırdım. Yaxşı yadımdadır. Professor Akif Abbasov mənə məlumat verəndə ki, J.Q-ni (birinci adının, ikinci isə soyadının baş hərfidir) başa sala bilmirik, seminariyanın tələblərinə qarşı çıxır, onun hərəkətlərinin qarşısını almalıyıq, güzəştə gedə bilmərik..., xeyli düşündüm. Valideynlərini çağırtdırmaq, onlarla köməkli iş aparmaq qərarına gəldim. Bir neçə gündən sonra dekan Samirə xanım J.Q-nin atasının mənimlə söhbəti olduğunu bildirdi. Mən ata ilə otağımda danışmalı oldum. Qızının qəbahətlərini ona çatdıranda ata nə desə yaxşıdır?!

— Mən də bir institutun müəllimiyəm. Elmlər namizədiyəm, dosentəm. Qız uşağıdı, yola verin. Adamı hər şeydən ötrü çağırmazlar. Adam kişi olar.

Elə buradaca söhbətimiz kəsildi. Öz-özümə düşündüm:
— Bəli, bu da qız atası. İnstitut müəllimi. Elmlər namizədi,

dosent... Bəli, adam kişi olar.

Nə isə aylar keçir. J.Q.-nin hərəkətlərində düzəliş olmur ki, olmur. Əksinə, atanın gəlişi, onunla söhbət qızın fəaliyyətini bir qədər də genişləndirdi. Bununla bağlı əməkdaşlar arasında dedi-qodu, narazılıq artırdı. Söhbətlər, yanaşmalar J.Q-yə təsir göstərmirdi ki, göstərmirdi... Bu dəfə universitetə ana gətirildi. Qəbahətlər, qüsurlar sadalandı.

Ana hey susur... susur... Elə güman etdik ki, ana qızın səhvlərini başa düşür.

Günlər keçirdi, J.Q öz işində idi. Yenə həmin su, həmin dibçək! İkinci kursun ortaları. Qız dərsə gəlmir. Gələndə də intizamı pozur. Dərsdən qaçır. Başqalarını da öz ardınca çəkir...

Üç kəsiri olduğundan və hərəkətlərinə görə mənim göstərişimlə J.Q dərsə buraxılmadı. Bir neçə gün keçmişdi. Başqa işim olduğundan seminariyaya gec gəlmişdim. Katibənin otağına daxil olanda yöndəmsiz bədəninə pərçimlənmiş dar şalvarda ucaboylu, 27-28 yaşlı bir qız ayağa qalxdı. Salam verib otağıma keçəndə onun icazə almadan ardımca gəldiyini hiss etdim. Mən:

— Buyurun, əyləşin, — dedim.

O, dərhal əyləşdi, doğrusu, qızın yersiz hərəkətləri, ümumi etik qaydaları gözləməməsi məni çox təəccübləndirsə də, fərqinə varmamağa çalışdım. Sonra:

— Eşidirəm, xanım, — dedim.

O, dərhal, bir az da əsəbi:

— Bağışlayın, öyrənmək olarmı, saat neçədir?

— Saat 11-ə işləyir.

O, saatına işarə edərək:

— Yox, 11-in yarısıdır.

— Ola bilər...

— Bu vaxta qədər siz harada gəzirsiniz? Sizdə iş nə vaxt başlanır?





— Xanım, bağışlayın siz kimsiniz?

— Mən sizdən soruşuram, haradan gəlirsiniz?

Daxilən əsəbiləşsəm də büruzə verməməyə çalışdım. Çox sakit tərzdə:

— Xanım, axı siz kimsiniz?

— Mən İqtisad İnstitutunda işləyirəm. J.Q-nin bacısıyam. Belə də institut olar? Bu, görməmişlikdir. Yazıq qızlar ayaqlarını kənara qoya bilmirlər. İstədikləri kimi geyinməyə də icazə verilmir. Biri deyir: — Şalvar geyinmə. O biri deyir: — Açıq, qısa paltarda gəlmə, özünü belə apar, elə apar. Qəribə adamsınız...

— Çox yaxşı, xanım, siz gedə bilərsiniz.

O, təəccüblə, əsəbi halda üzümə baxaraq:

— Mən bacımla əlaqədar gəlmişəm. Nə üçün onu dərsə buraxmırsınız?

— Xanım, ayağa qalxın! Otağı tərk edin!

Vəziyyətin kəskinləşdiyini duyan müsahibim mənə acıq verirmiş kimi nümayişkəranə bir şəkildə otaqdan çıxdı.

Aradan iki saat keçmişdi ki, J.Q-nin anası qapı ağzında göründü.

Heç bir şey olmamış kimi onu içəri dəvət etdim. O, sinəsini qabardaraq:

— Ağarəhim müəllim, bu da mən. Sənin hüzurundayam, nə sözün var, de. Eşidirəm.

Mən sakit tərzdə anaya əyləşməsini xahiş etdim. Sonra: Xanım, — deyə müraciətlə:

— Ailədə atanın da, ananın da, qızın da öz yeri, söz sərhədi var. Gərək onu anlayasan. Sizin ailədə sərhəd yoxdur. Sizə yazığım gəlir. Bir zaman dosent ərin gəlib, bizə kişi olmağı təkid edirdi. Bir az əvvəl böyük qızın haradan gəldiyimi, işə gecikməyimin səbəbini soruşurdu. Axı, bunun ona nə dəxli var? Kiçik qızın bütün normaları pozur. Sizi buraya

çağırtdırmaqda məqsəd qızınızın qəbahətlərini sizə çatdırmaq, onu sapdığı yolundan qaytarmaqdır. Sizsə, böyük bir şəstlə sinənizi irəli qabardaraq: "Mən sizin hüzurunuzdayam" deyirsiniz. Əcəb tərbiyədir. Xanım, siz bədbəxtsiniz... Özünüz də bilmədən qızlarınızı da bədbəxt, xudpəsənd böyütmüsünüz. Müalicə olunmalısınız... Belə yaramaz...

Ana əvvəl mat-məəttəl üzümə baxdı. Sonra da qızlarının hərəkətlərinə haqq qazandırmağa çalışdı.

Bu söhbətlərdən sonra xeyli düşündüm. Qızlarında günah görmürdüm. Qızlarının maddi təminatının hələ onların xoşbəxtliyi olmadığını valideynləri başa düşməmişdilər. J.Q də bacısı kimi sabah bir yerdə işləyəcək, adamlarla münasibətlər yaradacaq, ərə gedəcək, oğul-uşaq sahibi olacaq, ancaq necə? Onun özünə də, düşəcəyi ailəyə də, ərə gedəcəyi oğlana da yazığım gəlir. Bu fəlakətləri yaradan — günahkar kimdir? Qızını tərbiyə etməyi bacarmayan ana!

Mən daha J.Q-nin hərəkətlərinə dözə bilməzdim. Onun seminariyadan çıxarılma əmri elanlar lövhəsindən asıldı.

Ana universitetə yenidən qədəm qoydu. Bu dəfə o, əsəbiləşir, özünə haqq qazandıraraq gah qızını məzəmmət edir, gah da ərini günahkar çıxarırdı. Bizi isə insafsız adlandırırdı. Özündə qüsur axtarmayan anaya bircə bunu deyə bildim: — "Belə olur həmişə, analar səhv edəndə..."

Boylu-buxunlu, gözəl qaməti, təmiz ürəyi, yumşaq xasiyyəti vardı M.M-in. Ancaq bu qıza səhvini xatırladanda, düz otur, dərsə vaxtlı-vaxtında gəl, yoldaşlarınla səmimi ol deyəndə, anası səhəri gün başıalovlu seminariyaya özünü yetirdi, hay-küy saldı, müəllimlər, tələbələr qarşısında kimliyini göstərdi: — "Mən qız böyütməmişəm ki, hər gələn onu gözümçıxdıya salsın", — dedi. Qız da anasından yavaş-yavaş dərs alır, bildiklərini günbəgün artırırdı. Beləcə M.M. yolunu azır, fəaliyyət dairəsini genişləndirirdi. Dərsə gəlmirdi. Gələndə də dərsləri pozur, müəllimlərə mane olurdu. Uzun müddət M.M-in səhvlərini düzəltməyə çalışdıq. Qız: "Burada mənəm, Bağdadda kor xəlifə" mövqeyindən çıxış edirdi. O, təhsil ala-ala ailə də qurdu. Biz sevindik. Bəlkə dil tapdıq. Ancaq deyəsən, yanılmışdıq, "köhnə hamam, köhnə tas". Ana azmış kimi bir "ər" adlı müdafiəçi də bu yandan çıxdı. Hər dəfə M.M-dən şikayət, bir narazılıq gəlirdi. Mən dəfələrlə onunla söhbət etməli olurdum. O, hər dəfə ağlına gələni danışır, əməkdaşları yalançı çıxarmağa çalışırdı. İşin çətinliyini mən də dərk edirdim. Əlacsız qalıb M.M-in əri ilə söhbət etməli oldum. Prorektorlardan Nazim Abbasov, Akif Abbasov, dekan Samirə xanım, bir də mən qızın qəbahətlərini ərinə çatdırdıq. Əks halda, tədbir görəcəyimizi də bildirdik. Sistem işçisi olan bu cavan oğlan başını əlləri arasına alıb dinləyirdi. Söhbətin sonunda: "Onunla danışaram", — deyib bizdən ayrıldı.





Çox çalışsaq da, söhbətlər nəticə vermədi. Üstəlik, təsəvvürəgəlməz yeni qəbahətlər üzə çıxdı.

Növbəti dəfə M.M-in əri bizimlə söhbətə gəldi. Arvadının evdəki, ailədəki hərəkətlərini açaraq bizdən məsləhət istədi. Sən demə, bizim bilmədiyimiz daha çox şeylər varmış...

Düşündüm ki, biz qüvvələri birləşdirə və M.M-in qəbahətlərinin qarşısını ala bilərik. Təəssüf ki, bu ehtimal da boşa çıxdı. M.M-in bir uşağı da oldu. Onunla danışmaq müşkül işə çevrildi. Səhvlərini deyən kimi adamın üstünə atılır, anasından öyrəndiklərini ərinə də, bizə də tətbiq edirdi. Əlacsız qalıb onu dərsə buraxmamaq qərarına gəldim. Bir neçə gündən sonra o, böyük bacısı ilə seminariyaya təşrif gətirdi. Bu dəfə M.M səhvlərini etiraf edərək bağışlanılması üçün yalvardı.

Mən: — Atanız gəlməlidir, — deyə bildirdim.

Böyük bacı:

— Ağarəhim müəllim, atamız üç gündür ki, infarktdan

yatır. Vəziyyəti ağırdır. Bəlkə də biz evə qayıdıncaya qədər dünyasını dəyişdi. O, xəstə olduğuna görə, anamız da gələ bilmədi. Bağışlayın bacımı, keçin günahından...

Ürəyim nə qədər yumşalsa da, bacıların hərəkətlərində qeyri-səmimilik duydum. Ona görə də etirazımı bildirdim. Bir saat keçməmişdi ki, ata qabaqda, M.M-lə bacısı onun arxasınca yanıma gəldilər. Məni dəhşət bürüdü. Nə danışacağımı, hardan başlayacağımı bilmədiyimdən birbaşa mətləbə keçdim:

— Kişi, şükür Allaha ki, hələ salamatsan. Bu qızların bir saat bundan əvvəl deyirdilər ki, sən can üstəsən, bir saata, yarım saata dünyanı dəyişəcəksən...

Ata sözlərimdən bərk qızardı. Onunla söhbətimiz getdikcə ciddiləşirdi. Kişi gah həyat yoldaşını, gah da qızlarını müdafiə edir, universitetin tərbiyə sistemində qüsurlar axtarırdı. İstədiyinə nail ola bilməyəcəyini başa düşən ata, sonra da uşaq kimi yalvarmağa, arvadının, qızlarının onu eşitmədiklərindən gileylənməyə başladı. Bədbəxt ataya yazığım gəldi. Öz-özümə düşündüm: ərköyün ana, heç kimdən, heç nədən çəkinməyən qızlar bildiklərini eləyirlər.

Nüfuzunu itirmiş ata çarəsiz qalır, əlac tapa bilmir, azadlıqda ikən özünü əsirlikdə hiss edən kürəkən canını qurtarmaq, təhlükədən xilas olmaq üçün yollar axtarır... Nə olacaq bu ailənin sonu, aman Allah! Kimdir günahkar? Başı çörək qazanmağa qatılan bədbəxt atamı? Dikbaş, ayaqlarının altını görməyən təcrübəsiz övladlarmı? Evləndiyi gündən başını daşa döyən, — Qələt eləmişəm, — deyən kürəkənmi? Yoxsa özündən razı, rəzil qadın, anamı? Əgər ana demək mümkündürsə... Özün onlara kömək ol, ya Rəbbim!

Günlər, aylar keçir. Qız özünü başqa qiyafələrdə göstərir. İndi onun təcrübəsi də, xahişçiləri də artırdı, havadarları da. Hərəsi bir xislətdə, hərəsi bir boyada. Bu hal davam edə bil-





məzdi. Çox keçmədi ki, M.M bir uşaqla ərindən ayrıldı... Seminariyadan xaric edildi... Ana dəhlizdə qışqırır, hədələyir... Əli hər yandan qırılanda yalvarırdı. Ona bircə söz deyə bildim: “Belə olur həmişə, analar səhv edəndə!...”.

S.B-nin hərəkətlərindən təkcə universitet əməkdaşları yox, tələbə qızlar da cana gəlmişdilər. Onun hərəkətləri xarici görkəmi ilə heç cürə uyuşmurdu. O, tez-tez guya sabah qonaqlığa, gəzməyə hansısa qohumunun, rəfiqəsinin ad gününə, nişanına, yaxud toya gedəcəyini qrup yoldaşlarına bildirər, birindən sırğa, ikincisindən üzük, üçüncüsündən saat, dördüncüsündən yubka... alardı. Universitetə gəlməzdi. Evdəkilərə seminariyaya gedəcəyini, qrup yoldaşlarına isə sabahkı məclisdə iştirak edəcəyini bildirərdi. Ev S.B-ni universitetdə, universitet də onun evdə olduğunu güman edərdi. Çox keçmədi ki, S.B-nin “sirləri” açılmağa başladı. Qrup yoldaşları ona verdikləri üzüyü, sırğanı, koftanı, yubkanı istəyir, S.B isə hər dəfə bəhanə gətirərək aradan çıxmağa çalışırdı. Məsələ getdikcə qəlizləşdiyindən araşdırmalı olduq.

Vəziyyətdən çıxmaq istəyən S.B yoldaşlarına deyir:

— Axşam xalamın toyundan (sən demə, xalanın da əri, uşaqları varmış) çıxıb evə qayıdarkən tanımadığım iki oğlan yolumu kəsdi. Üst-başımı soydular. Sizdən aldıqlarımı da apardılar. İndi sizə nə verəcəm ki?! Gedin, soyğunçulardan özünüz alın.

Qızlar bir-birinin üzünə baxır, haqsızlıqla, yalanla, fırıldaqla üzləşdikləri üçün yanıb-yaxılırdılar.

Mən heyrətimdən Səbirə xanıma baxdım. O da təəccübünü gizlədə bilməyərək: “Əcəb işə düşdük”, — dedi.

Mən:

— Valideynlərini çağırtdırıb məsələni həll edin, — deyə göstəriş verdim.

Çətinliklə də olsa, S.B-nin valideynlərinə xəbər göndərə

bildik. Ata, ana əvəzinə bizimlə söhbətə nənə gəldi.

Əməkdaşlarla söhbətinin tutmayacağını görən nənə mənimlə görüşməyə üstünlük verdi. Mən Səbirə xanımla vəziyyəti nənəyə açdıqda, o, dedi:

— Bala, mənim nəvəm uşaq deyil. Ona böhtan atmayın. Atası dəlinin biridir. Gəlib sizi də, qızı da bir təhər elər. Ağlınızı başınıza yığın. Qızlar ona heç bir şey verməyiblər. Hansı dəli öz qızıl üzüyünü, sırğasını, saatını... başqalarına verər. İnanmayın, bala, o qızlara... İndiki qızlar elə bil ana tərbiyəsi görməyiblər.

— Xanım, ayıbdır, belə danışmayın. Nəvəniz cinayət edib. Tələbələrdən aldıqlarını səssiz-səmirsiz geri qaytarmalıdır.

Nənə diqqətlə üzümə baxdı. Sonra da qoltuğundakı bağlamanı stolun üstünə qoyaraq açmağa başladı. “Qurani-Kərimi” çıxararaq mənə tərəf uzatdı.

— Al, bu “Quran”a and iç ki, sən yalan danışmırsan — dedi.

Mən söhbəti davam etdirməyi məsləhət bilməyərək:

— Xanım gedin, S.B.-nin anasını, yaxud atasını göndərin. Biz onunla danışaq. Ayıbdır, “Quran”ı özünüzlə gəzdirməyin.

Nənə otaqda ikən bəstəboy, qarayanız 35-40 yaşlı bir qadın S.B ilə otağa daxil oldu.

Evdən davaya hazırlıqlı gələn bu qadın əvvəl tələbələr, sonra da universitetdə işləyənlər haqqında təhqiramiz sözlər deməyə başladı. Elə bu anda qapı ağzında təsadüfən nənə ilə bu qadının sözləri çəpləşdi. Sən demə, bu qadın da S-B-nin “toyu” olan xalası imiş. Xala açdı sandığı, tökdü pambığı. Əvvəl nənəni (yəni öz anasını), sonra da S.B-ni təhqir etməyə başladı. Üzünü S.B-yə tutaraq:

— Çıxart mənim şubamı, donumu, çəkmələrimi. Sənin





geydiyin paltarların hamısı mənimdir. Anan da, atan da sənin kimi hörmət başa düşmürlər. Evimdə yatırsan, çörəyimi yeyirsən, paltarımı geyirsən, indi də üzümə qayıdırsan...

Mən S.B-ni də, nənəni də, xalanı da əlacsız qalıb otaqdan qovmalı oldum. Ancaq tələbələrin əşyalarını S.B-dən almaq lazım idi. Necə? Bir həftədən sonra böyük çətinliklə ananı seminariyaya gətirə bildik. Vəziyyəti təfərrüatı ilə çatdıranda o, nə desə, yaxşıdır:

— S.B-dən öyrənmişəm. O, gözəl, boylu-buxunlu olduğu üçün qızlar ona paxıllıq edirlər. Müəllim, mən Allahla danışmışam ki, mənim qızıma gözəllik versin? Mən də, qızım da, paxıl deyilik. Qoy Allah bütün qızları gözəl yaratsın. Üzük, sırğa, saat, paltar məsələsi yalandır. Bunlar hamısı böhtandır. Bir də ki, ağılları vardı, verməyəydilər... Siz boş şeyə başınızı qatmayın.

Səbrlə ananı dinləsəm də, daxilən əsəbiləşirdim. Sakit tərzdə onunla danışmalı oldum.

— Xanım, siz anasınız. Qızınız haqqında nahaq bu qədər yüksək fikirdəsiniz. Sizin qızınızdan da gözəl qızlar var. Çox ağıllıdırlar, düşüncəlidirlər. Ancaq mən arzu edərdim ki, Allah sizin qızınızın boyundan-buxunundan, əgər gözəlsə, gözəlliyindən kəsib ağlına calayaydı. Qadın, qız ağıllı olanda gözəl olur.

Sizə Allahdan ağıl arzulayıram, xanım! Gedə bilərsiniz.

Ana sözünə davam etmək istədikdə bir qədər sərt şəkildə təkrar etdim:

— Gedə bilərsən!!!

Tənəffüsdə, dərsdə, dərsdən sonra qızlar hər dəfə dəhlizin bir küncünə toplaşar, necə aldandıqlarını müzakirə edər, bəzən də göz yaşı axıdardılar.

Bu hadisədən bir neçə gün keçmişdi. S.B. qızlara təzyiq göstərmək üçün universitetə iki tanış oğlan da gətirmişdi.

Artıq S.B.-yə hüquqi vasitələrlə təzyiq göstərməkdən savayı başqa yolumuz qalmamışdı. Deyəsən, daş qayaya rast gəldiyini hiss etmişdi. O, bir qədər düşünərək dedi:

— Mənə iki saat icazə verin. Qızlardan aldıqlarım anamdadır. Gedim, gətirim.

Razılaşdım:

— Səni otaqda gözləyirəm. Get, aldıqlarının hamısını gətir. Cəzadan yaxan qurtarsın. Mənə inan. Yoxsa, sən də, anan da biabırçılıqdan qurtara bilməyəcəksiniz.

Günortaya yaxın S.B. apardıqlarını gətirdi. Ancaq üz-gözündən əsəbilik aydın oxunurdu. Mən: — Əsəbisən? — deyə soruşduqda, o:

— Anam vermirdi, zorla almışam, — deyə cavab verdi.

Ana qızını, doğma övladını cinayətə sürükləyir. Qızının əli ilə başqalarının daş-qaşını mənimsəyir. Qız səhvini başa düşəndə ana ona mane olmağa çalışır. Dəhşət! Dəhşət! Belələrini yaradıb neyləyirdin, İlahi! Buna nə ad vermək olar?

Daha heç bir söz demədən, S.B.-nin qrupunu dəyişdirərək onun dərsdə iştirakına razılıq verdim. Bir neçə vaxt beləcə keçdi. Bir də eşitdim ki, S.B. qrupdakı qızlardan birinə nalayiq sözlər deyərək onun saçlarını yolub. Bu hadisə tələbə qızlar arasında müzakirə olundu. Müzakirədə S.B.-in anası da iştirak etdi. Tələbələr S.B.-nin qıza yaraşmayan hərəkətlərini, qəbahətlərini gözlərinin içinə deyirdilər. Onlardan biri:

— Qızın qəbahətləri üçün ana məsuliyyət daşıyır. Əgər ana qızını tərbiyə etməyi bacarmırsa, onun “Anayam” deməyə mənəvi haqqı da yoxdur.

İkincisi:

— S.B. yalançı və fırıldaqçıdır. O, heç vaxt xoşbəxt ola bilməz. Mən beləələri ilə bir qrupda oxumağı özüm üçün təhqir sanıram...





Üçüncüsü:

— O, universitetdə oxumağa layiq deyil. Mən təklif edirəm ki, S.B. seminariyadan çıxarılsın, hərəkətləri hamımıza ləkədir...

Dördüncüsü:

— Qoy anası da eşitsin. Bütün günahlar anadadır. Ana qızını xoşbəxt də edə bilər, bədbəxt də! S.B.-nin anası gərək qızına yaxşı tərbiyə verəydi...

Qızlar danışdıqca ana gah qızarır, gah bozarır, gah da özündən razı halda pəncərədən çölə boylanırdı. Sanki deyilənlərin onunla heç bir əlaqəsi yox idi.

Müzakirədə qıza da, anaya da söz verildi. Qız ağlayır, ana coşur, hiddətlənir, günahsızlığını sübut etməyə çalışır, özünə və qızına haqq qazandırırdı.

Müzakirənin sonunda S.B.-nin seminariyadan xaric olunduğunu başa düşən ana qızının gəncliyini xatırladır, bağışlanmasını xahiş edirdi. Göz yaşları axıdırdı. Mən anaya təkcə onu deyə bildim. “Belə olur həmişə, analar səhv edəndə...”.

Ancaq məsələ bununla bitmədi. Ananın sözləri, qızın iztirabları kövrək qəlbli qızlarda mərhəmət hissi oyatmışdı. Hamı üzümə baxırdı. Bu anda S.B. yenidən söz istədi. Əvvəl gözlərinin yaşını sildi. Sonra da çirkin əməllərindən əl çəkəcəyini bildirdi. Saçını yolduğu qızdan üzr istədi. Üzündən öpdü. Deyəsən o da S.B.-ni bağışlayırdı. Qızların şəfqət və mərhəmət hissini nəzərə alıb, S.B.-yə sonuncu güzəşt olundu. O, sonralar universitetin ən intizamlı tələbə qızlarından birinə çevrildi...

* *
*

Atam dünyasını dəyişəndən övladlarını böyüdüb ərsəyə çatdırmaqdan özgə bir dərd-səri olmayan anam çox vaxt ağrı-

acılarını, ürəyindəki qübarını cicimlə bölüşdürər, onunla məsləhətləşər, götür-qoy edərdi. Ömrü boyu niskilli, nigaran, ürəyi səksəkəli yaşayan anamın yeganə dayağı cicim idi. Cicim də Ulu Tanrıya sığındığından o, anama mərhəmət və şəfqət hissi ilə yanaşar, ağırlığı çox vaxt öz çiyinlərinə götürərdi. Mərhəmətinə şükür, Böyük Yaradan! Öz hökmünlə yaratdıqlarını heç vaxt naümid qoymursan. Anamın heç vaxt yuxusuna da gəlməzdi ki, əzizləyə-əzizləyə böyüdüb-ərsəyə çatdırdığı qızları Bəyim də, Tutubəyim də, Gözəl də bir zaman halal süd əmmişlərlə ailə quracaq, onların da övladları olacaq. Nəvələr də "Nənə...! Nənə!..." deyə, onun üstünə qaçacaqlar. Nənə isə sevinə-sevinə, Allaha dua oxuya-oxuya nəvələrini bağrına basacaq, üz-gözlərindən öpəcək... Heç ağlına da gətirməzdi ki, oğlanlarının hər biri ali təhsil alaraq, ailə-uşaq sahibi olacaq. Hərəsi bir tərəfdə namusla işləyəcək, vəzifə tutacaq, ad-san qazanacaq, ana qəlbini sevindirəcək, ona şərəf-şan gətirəcəklər. Mərhum atamın əziz ruhunu sevindirəcəklər.

Kürəkənlərin sənin üçün oğul, gəlinlərin də qızdır, ana! Onlar da sənə bağlıydılar. Axı onlar da sənə "Ana" deyirdilər, ana! Sən kök, onlarsa budaq idilər... Hamımızın arzusu, amalı səni sağlam, şən və gümrah görmək idi, mənim anam!... Sənin, cicimin, atamın ruhu qarşısında bu gün baş əyirik. Mən eşidəndə ki, qardaşım Əli qızına cicim Şamamanın, oğluna atam Nüsrətin, oğlum Cavidan qızına anamın, oğluna mənim adımı qoyub. Ürəyim sevincdən dağa döndü. Özüm də dönə-dönə qardaşıma dərin təşəkkürümü bildirdim. Valideynlərə hörmət və ehtiram, onların məsləhət və nəsihətlərinə qulaq asmaq, ümidlərini doğrultmaq Böyük Yaradanın biz insanlara buyurduğu borc deyildimi?!

Mən bugünkü həyatımdan çox məmnunam. Qardaşlarıma da, bacılarıma da "Çox sağ olsunlar" — deyirəm. Otuz beş il





əvvəl dünyasını dəyişən, bütün mənalı həyatı xeyirxahlıq hissləri ilə yoğrulmuş mərhum atamın, qəlbində Ulu Tanrının istəyini, məhəbbətini gəzdirən insanlara qayğı, kömək göstərən cicimin, ömrünü doğma övladlarına ərməğan edən, gənclik təravətini, gözəlliyini, gücünü itirsə də, günbəgün nuraniləşən, məğrurlaşan, müdrikləşən anamın qədir-qiymətini, ruhunu dəyərləndirən qardaşlarım, bacılarım, Siz alqışa layiqsiniz.

Əziz mərhum atamın ruhu yaxşı günümüzdə də, pis vaxtlarımızda da bizimlə olub. Hər dəfə çətinə düşəndə, çıxış yolu tapa bilməyəndə atamızın böyük amalı, vəsiyyətləri, cicimin xeyirxahlığa bələnmiş istəyi bizə bələdçilik edib, istiqamət verib, yolumuza işıq salıb. Atamız, cicimiz bizdən xeyir, fayda görməsələr də, öz-özümüzə bircə şeyi təskinlik verə bilərik. Biz valideynlərimizin istəyi ilə, arzuları ilə yaşamışıq, ömür sürmüşük. Halallıq, təmizlik, xeyirxahlıq bizim həyatımızın mənası olub. Əlbəttə, bu keşməkeşli dünyamızda gördüklərimiz, öyrəndiklərimiz Sizin verdiyiniz tərbiyə sayəsində mümkün olmuşdur, əziz valideynlərimiz!!! Mərhum atamın, cicimin və anamın böyük Yaradana, Ulu Tanrıya, mərhəmətli və rəhmdil Allaha olan məhəbbətinin sonsuzluğuna yaxşı bələdəm... Səxavətli Allahın nəzəri ilə ən keçilməz bəlalardan və yaşantısı ümid doğurmayan xəstəliklərdən xilas olmuşduq. Ata, ana məhəbbəti, valideyn istəyi bizim üçün əlçatmaz olub. Vidasından qabaq anamın arıqlamış, damarları çıxmış əllərindən öpməyim, kövrək qəlbindən keçirdikləri hissləri gözlərinin dərinliklərində duymağım indi də unudulan deyil. Aman Allah, anamın qəlbi necə də kövrəlib, ona söz necə də tezdəyən olub.

Mən bütün hərəkətlərimi sənin ülvi, pak və təmiz duyğularına uyğunlaşdırmağa çalışardım, ana!.. Universitetdə təhsil alan qızların da taleyini öz taleyim sanıram. Mərhəmətli və

rəhmdil Allahın nəzərində olan bu məsum, növrəstə qızların hər birinin istəyi, ləyaqəti... xalqın gələcəyidir, gələcək nəsillərin mənəvi sağlamlığıdır, mənim anam!

Sizdən nə gizlədim... Mənə anamsız yaşamaq çox çətindir. Bunu deyəsən, anam da başa düşmüşdü. Bəzən işdən evə yorğun, yaxud kefsiz qayıdanda onu hamıdan əvvəl anam duyar, həsrət dolu, yanıqlı, nigaran baxışları üzümə dikilər, nəsə soruşmaq, öyrənmək istəyərdi. Ancaq deyəsən, ürəyi gəlməzdi. Məndən — "xəstəyəm", yaxud, "yorğunam" sözünü eşitmək istəməzdi mənim anam. Eh ana...! Sənin kövrək qəlbin, döyünən ürəyin necə də böyükmüş, necə də qüdrətliymiş?!. Sənin istəyin, məhəbbətin heç vaxt tükənməzmiş!!! Kiçik yaşlarımda qayğılarımı necə çəkirdinsə, qocalıb əldən düşən çağlarında da ürəyində elə çəkirdin. Bilirəm, ana!

Ürək ağrıları, ürək qayğıları da dəhşətli olur.

Anam mənim, dəfələrlə yuxuda olanda alnıma, saçlarıma əl çəkərdin, bəzən də nəzərlərdən uzaq olum deyə, başıma duz da hərlədərdin. Övladlarının hər biri üçün nəzir-niyaz da verərdin. Ancaq heç vaxt özünü düşünməzdin... Bunların heç biri unudulan, unudulan deyil, mənim anam!

İndi atamsızam... Cicimsizəm... Anamsızam... Elə bilirəm, təkəm... Tənhayam...

Hərdənbir övladlarımı düşünürəm. Onların boy-buxunlarına, qəddi-qamətlərinə tamaşa eləyirəm. Bənizlərinə baxmaqdan doymuram... Sizin nəfəsinizi onlardan alıram, ətrinizi onlardan duyuram. Bunun üçün Rəbbimə şükürlər diləyirəm...





## BACI MƏHƏBBƏTİ

**Ey mehriban dünya!.. Sevən şəxsin üzünə bütün qapılar açıqdır.**
***Benn***

Səhər açıldıqca gecə küpəgirən qarılar tək sürünə-sürünə qara çarşabını çəkib gedir, yerini nişanlı qızlar kimi ismətindən, ləyaqətindən qızaran, pörtən və üfüqdən yenicə boylanmaqda olan xoş təbəssümlü günəşin al şəfəqlərinə, oynaq qızılı tellərinə verirdi. Hamıdan erkən qalxan bacılarım yaz aylarında bağda, bağçada gəzir, gecədən xeyli keçmiş qəlbi yumşalan ormanların, boynubükük əlvan çiçəklərin göz yaşlarına üst-başlarını isladırdılar. Sonra da ev-eşiyi, həyət-bacanı yır-yığış edir, səhər yeməyi üçün hazırlıq görürdülər. Yeddi qardaşın gündəlik qayğılarını, min bir əziyyətlərini ləyaqətlə çəkir, şıltaqlıqlarına dözürdülər. Bir dəfə də olsun "yorulmuşam", "bezmişəm" sözlərini dillərinə gətirmirdilər.

Bacı! Bu sözün İlahi qüdrəti qarşısında sehirlənirəm... Ləyaqət və namusumun təcəssümü olan istəklilərim, evdə də, işdə də, bəzən tək qalanda da sizi anıram... Düşünürəm: nə qədər səmimi, istiqanlı olurmuş bacılar?! Elə bil yerişləri də, danışıqları da, lap gülüşləri də anamındı bacılarımın. Qəlbləri, könülləri, ürəkləri həmişə mənimlə olub onların. Adicə başım ağrıyanda, soyuq dəymədən halsızlaşanda, əhvalım azacıq pozulanda hamıdan əvvəl duyan bacılarım. Halsızlığıma təlaş edən, sarsılan, ürək çırpıntıları keçirən istəklilərim. Sevincimə şadlanan, fərəhi köksünə sığmayan doğmalarım. "Gəlin-gəlin" oynadığınız uşaqlıq çağları yadınızdadırmı? Toyda qonşu qızlarla, rəfiqələrinizlə qol-qola tutub yallı rəqsi oynadığınızı xatırlayırsınızmı? Bayram şənliklərində evimizdə keçirilən qonaqlıqlarda ürəklə, sevinclə açdığınız süfrələr heç yadınıza düşürmü? Pambıq topla-

nışında yaşıdlarınızla yarışa girmənizi unutmamısınız ki? Bunların heç biri yaddan çıxan deyil... Hamısı, hamısı sizin uşaqlıq çağlarınızda, gənclik illərinizdə olub... Zəhmət, əziyyət, kasadlıq və çətinlik içərisində yaşayan bacılarım. Həmişə özünüzü tox göstərmisiniz. Mənən qayğısız, qadasız olub o çağlarınız... Yaxşımı da, pisimi də hamıdan tez duyan istəklilərim, yaxşı yadımdadır, yeniyetməlik, gənclik yaşlarına qədəm qoyduqca özünüzə nəzarəti artırar, lazımsız, artıq şeylərə özünüz üçün qadağalar qoyardınız.

Mənim əziz bacılarım! Sizə söz deyən kimi ismətinizdən, abrınızdan qızarar, pörtər, bir kəlmə də olsun cavab verməzdiniz. Xatirinizə heç vaxt bilərəkdən toxunmamışam. Toxunanda da məndən inciməzdiniz, umu-küsü etməzdiniz... Mənimlə həmişə səmimi olardınız. Mənə qayğı göstərərdiniz. Canıma and içərdiniz, elə indiki kimi, mənim doğmalarım, mənim bacılarım... Bilirəm... Adım çəkiləndə həsrətdən, istəkdən dodaqlarınız səyriyir.

Heç xəbərin yoxdur, Bəyim bacı, anam əvəzi. Bu günlərdə onu da eşitmişəm. Mən televiziyada çıxış edəndə çox sevinmisən. Ancaq — “Qardaşım qocalıb”, — deyə ağlamısan. Bu, məni də kədərləndirdi, mənim dəyanətli bacım!

Qardaşınız olub heç vaxt əziyyətinizi çəkməmişəm. Ağrıacınızı görməmişəm. Sizə dayaq dura bilməmişəm. Neyləyim ki, sizi hər gün görmürəm. Ancaq sizinlə yenə birlikdə olmaq istəyirəm. Lap uşaqlıq çağlarında olduğu kimi...

Yadındamı, əziz bacım! Sənin toy günün. Gəlin köçürdün. Hamı sevinirdi. Nə gizlədim, elə mən də!.. Təkcə anam bir kənara çəkilib dayanmışdı. Sanki donmuşdu. Heykələ dönmüşdü. Gözləri yaşarmışdı. Damcılar yanaqlarına süzülürdü. Dinmirdi, danışmırdı, mənim anam. Gözlərinin lap dərinliklərində şəlalə axarlı duyğular oxunurdu... Analar nə qədər böyük olurmuş, İlahi? Bacı, sən utana-utana, çəkinə-çəkinə mənə yaxınlaşdın.





Boynumu qucaqladın. Məni öpdün. Anam kimi sənin də gözlərin yaşardı, yanaqlarını göz yaşların islatdı. O nəmli baxışlarda nələr yox idi, mənim bacım, nələr?!.. İsmət və həya, şərəf və ləyaqət, arzu və amal, istək və məhəbbət, xeyirxahlıq və mərhəmət, ehtiyat və nigarançılıq...

Sonra da qayıdıb mərhum atamızın divardan asılan şəkli önündə dayandın. Bilirəm, ondan da xeyir-dua istəyirdin, mənim bacım. Ancaq deyəsən, anamla görüşməyə gücün çatmadı. Sən getdin... Biz qaldıq... Ev-eşik buz kimi idi. Ailədə tənhalıq... Hamı nədənsə, elə bil kimsəsizləmişdi. Heç kim dinmirdi, danışmırdı. Niyə? Bilmirəm. Nə gizlədim, deyəsən, bu da bir sirri-xuda idi...

Bacılar bir-birinin ardınca köçəri quşlar kimi uçurdular. Ailə-uşaq sahibi olurdular...

Hər dəfə Bakıdan kəndə gedəndə məni qonaq aparmaq üstündə az qala dava salardılar. Yedirərdilər, içirərdilər, söhbətlərimə qulaq asmaqdan doymazdılar mənim bacılarım. Sonsuz istək, sonsuz məhəbbət vardı mənim bacılarımda... İnsafən, ərləri də özləri kimi qəlbiaçıq, deyib-gülən adamlardılar.

Hər dəfə Bəyimin on iki, Tutubəyimin on, Gözəlin doqquz övladını görəndə, onlarla təmasda olanda, balalarının mənə sonsuz istəyini duyanda dünya mənim olur. Bəzən gəncləşirəm, bəzən də lap uşaqlaşıram bacılarımı, bacım uşaqlarını düşünəndə.

Bacım Bəyimin taleyinin anamın taleyinə bənzədiyini görəndə sarsılıram. Ömür-gün yoldaşını vaxtından çox tez itirən, təkbaşına on iki azyaşlı uşağı ləyaqətlə, namusla böyüdən bacım nə qədər zəhmətkeşdi, əzabkeşdi. O da anam kimi gecə-gündüz işləyirdi, evinin həm xanımı, həm də kişisi idi. Heç kimdən bir dəfə də olsun şikayətlənmir, evin sirrini anaya da, bacıya da, qardaşa da vermirdi. Sirri özündə olan bacımın günləri bax beləcə keçirdi.

Hə, o da yadımdadı. Bir dəfə Bakıya — bizə gəlmişdi Bə-

yim. Özü də necə?! Zənbillərlə, bağlamalarla. Gətirdiyi motal şorunu, pendiri, dürgək kərə yağlarını, cürbəcür mürəbbələri, balı, tut, üzüm doşablarını qış uzunu yedik. Qurtarmaq bilmirdi. Çox bərəkətli əli var bacımın. Şəhərə hər gələndən də bizə pay göndərir mənim bacım. Bir dəfə də olsun əvəz ummur...

İndi otağıma qapanıb hey düşünürəm. Olub-keçmişləri bir-bir yada salıram. Həyatımızın qəmli, kədərli anları da var, sevincli, fərəhli günləri də... Ancaq onlardan bu gün hansının çoxluğu-azlığının təfavütü yoxdur. O ağrılı-acılı, fərəhli-sevincli çağlar bizim taleyimizə biçilib, nəsibimiz olub. Allaha şükürlər diləyirəm, nə yaxşı ki, o ağrılar da, acılar da bizim içimizdən keçib. Onlar olmasaydı, bizim bu günkü xoşbəxtliyimiz də olmazdı. Məni bağışlayın. Xoşbəxtlik dedikdə, mən maddi təminatı nəzərdə tutmuram. Yaşamaq eşqini, həyat eşqini, insanlara məhəbbəti, daxili təmizlənməni, təkmilləşməni demək istəyirəm. Nə gizlədim sizdən, insanı səadətə qovuşduran, bitib-tükənməyən arzuları, qurub-yaratmağa səsləyən ülvi pak hisslərə, ehtiraslara aparan yoldu. Ülvi, pak hisslərlə, ehtiraslarla dolu həyatdır. Eşqdir. Bu isə xoşbəxtlikdi, bəxtiyarlıqdı, mənim bacılarım. Siz həmişə ana, qardaş, ailə, uşaq, övlad dərdi çəkmisiniz...

Xəstəxanaya yanıma gəldiyini, çəkdiyin əzab və iztirabları xatırlayanda kövrəlirəm, Bəyim bacı. Bir həftənin içində qəmdən, qüssədən, kədərdən sızlaya-sızlaya necə də arıqlamışdın. Görürdüm, duyurdum. Yemirdin, içmirdin, özünü unutmuşdun. Bədənin titrəyirdi. Məni yatmış bilib səksənməyim deyə, çox ehtiyatla, səssiz-səmirsiz üzümdən öpməyini də, "Can qardaş, bacın ölsün", — deyə qorxulu, tələşlı vahimələrini də xatırlayıram. Doğmalığın, istiqanlığın, sevgi və məhəbbətin qarşısında diz çökürəm.

Səndə kişi vüqarı görürəm, kişi əzəməti duyuram. Erməni qatilləri ilə Ağdərə vuruşunda oğlun Qurbanın şəhidlik xəbərini eşidəndə də bir dəfə də olsun təmkinini itirmədin. Vüqarını əymədin. Mən boynunu qucaqlayıb öpərək, sənə təskinlik verəndə dediklərin indi də qulağımda səslənir:

— Bu da bizim nəsibimizimiş, qardaş. Oğul dünyaya gətirən analar təkcə özlərin düşünmürlər. O da Vətən uğrunda vuruşurdu. Qurban elin, obanın qurbanı oldu. O bizi — anasını, bacılarını, Vətənini qoruyurdu. Vətən uğrunda şəhid olanlar ölmürlər...

Yaşa, səni min yaşa! Bunu o müsibətli günlərdə yaşayanlar, dəhşətli ehtirasların ağuşunda boğulanlar düşünə bilməzdilər, deyə bilməzdilər. Bunları demək üçün bütöv xarakter, möhkəm iradə, möhtəşəm vüqar, güclü idrak, el-obaya sönməz məhəbbət gərəkdi, Bəyim bacım.

Yaşa dolduqca mənim də ürəyim yumşalır, kövrəlir. Sizdən nə gizlədim, əziz bacılarım. Cicimin pak və təmiz ruhuna, anamın saf və təmiz məhəbbətinə, atamın nüfuz və ləyaqətinə, Ulu Tanrının şövq və şücaətinə, mərhəmətinə tapınan bacılarım, dünyanın ətrini Sizdən alıram. Sizin böyük qəlbiniz, ismət və ləyaqətiniz qarşısında baş əyirəm, diz çökürəm... Siz hər şeyə qadirsiniz, layiqsiniz, əziz bacılarım...

# QARDAŞ SEVGİSİ

**Qardaş bölünməzlik təcəssümüdür.**
***Müəllif***

**Hökümranlıq dedi: "Mənimsən, Dünya!"**
**Dünya öz taxtında qul etdi onu.**
**Məhəbbət dedi: "Mən səninəm, Dünya!"**
**Dünya məhəbbətə azadlıq verdi.**
***Taqor***

Atam dünyasını dəyişəndən sonra qardaşlarımda istiqanlılıq, bir-birinə yaxınlaşma, qarşılıqlı hörmət və nəzakət hissi bir qədər də artmışdı. Açığı, bu məni çox sevindirirdi. Onlardan beşi məktəbli idi. Kamilin isə üç yaşı vardı. Atamın ölümündən sonra qardaşlarım mənə "Dədə" deyə müraciət edirdilər. Mən ailəyə gələcək rəhbərliyin məsuliyyətini də, "Qardaş", "Dədə" sözlərinin məna tutumunu da, qardaşlarımın mənə olan hörmət və ehtiramının əzəmətini də, pak və ülviliyini də aydın başa düşürdüm. Gecə də, gündüz də onların qayğısız-qadasız böyüməsi, təhsilli, ləyaqət və namuslu adamlar kimi yetişməsi haqqında düşünürdüm. Onların solğun üzünə, kədərli gözlərinə baxmağa çətinlik çəkirdim.

Bir dəfə Sadıq əmimin ot çalarkən Kamilin ayağını dəryazla kəsməsi, kor-peşman halda onu qucağına alıb üz-gözündən öpə-öpə gətirməsi, Əlnüsrətin Göyçay çayında çiməndə, suya atılarkən betona dəyib başının partlaması indi də gözlərimin önündədi. Onların vəziyyəti, çəkdikləri əzab-əziyyətlər ürəyimi yandırır. Nə qədər çətin, üzüntülü anlar.

İnstitutun üçüncü kursunda oxuyurdum. Semestr imtahanından çıxıb evə gəldim. Məmmədrəhimi çarpayıda yatmış gördüm. Yuxudan qaldırmadım. Haçandan-haçana özü oyandı. Hal-





əhvaldan sonra o gəlişinin məqsədini açıqladı:

— Qardaş, orta məktəbi əla qiymətlərlə qurtarmışam. Sənədlərimi Gəncədəki texniki-peşə məktəblərindən birinə vermək istəyirəm...

— Bəs nə üçün texniki-peşə məktəbinə, axı sənin hazırlığın yaxşıdır. Aydın təfəkkürün, iti hafizən var. İmtahan verib ali məktəbə də qəbul oluna bilərsən...

— Axı texniki-peşə məktəbi şagirdlərinə yemək, paltar, yataqxana verir, qardaş.

Məmmədrəhim deyəsən, hər şeyi əvvəldən ölçüb-biçmişdi. Heç kəsə əziyyət vermək istəmirdi. Ailənin vəziyyətini çox aydın başa düşdüyündən düzgün də qiymətləndirirdi. Mən onu fikrindən çəkindirmək üçün:

— Qardaş, gəl sənin sənədlərini Kənd Təsərrüfatı İnstitutuna verək. Atam da bir zaman məni aqronom görmək istəyirdi. Əgər imtahanlardan kəsilsən, onda texniki-peşə məktəblərindən birinə verərik. Ora qaçmır ki...

O, xeyli fikirləşib dedi:

— Bəs necə dolanacağıq?..

— Sən onun fikrini çəkmə. Mənim yanımda qalarsan. Bilirsən ki, mən oxuya-oxuya işləyirəm. Bu il bir təhər dolanarıq. Gələn il mən institutu qurtarıram. İşləyib səni də dolandıracam, ailəni də. Narahat olma. Uzaqbaşı sənə də yungül iş taparıq.

Deyəsən, qardaşımı inandıra bildim. O, yavaş-yavaş inadından döndü. Belə də razılaşdıq.

Axşamüstü şəhərə gəzməyə çıxdıq. İsti adamı təndir kimi qarsırdı. Məmmədrəhimin əynində köhnə şalvar, ayağında burnusökük brezent ayaqqabı, bir də qısaqol göy mayka vardı. Üz-gözü, qolları günəşdən qapqara qaralmışdı. Qardaşımı bu vəziyyətdə gördükcə ürəyim sıxılırdı. Yol gedə-gedə gah atamı, gah onun nəsihətlərini xatırlayır, gah da imkansızlıq üzündən çəkdiyimiz sarsıntılar, çıxış yolları barədə düşünürdüm. Xoşbəxtlik-

dən bir gün əvvəl maaş da almışdım. Məmmədrəhimə bir söz deməsəm də, yol boyu dükanlara girir, geyim şeylərinə baxırdıq. Xeyli axtarıb qardaşım üçün boz rəngli bir şalvar, köynək, bir cüt ayaqqabı aldım. Köhnələri kağıza büküb götürdük. Dəllək dükanına gəlib qardaşımın saçını da vurdurduq.

Səhəri gün Məmmədrəhimin sənədlərini Kənd Təsərrüfatı İnstitutuna verdik.

Qardaşım dörd imtahandan on səkkiz bal toplayaraq müsabiqədənkənar instituta daxil oldu. O gün sevincimizin həddi-hüdudu yox idi. Ertəsi gün instituta qəbul olunma sənədini alıb kəndə gəldik. Bu xəbər ailədə toy-bayrama çevrildi. İki il Gəncədə qardaşımla birlikdə qalır, oxuyur, gəzintiyə də birlikdə çıxırdıq. Bizi qardaşlıqdan savayı, dostluq telləri də bir-birimizə bağlayırdı. Dərdimiz-sərimiz bir olardı. O, bütün işlərdə mənim qərarımı gözləyər, özbaşına heç bir iş görməzdi. Onda evə, ailəyə bağlılıq güclü idi. Əlinə az-çox pul keçən kimi gah cicimə, gah anama, gah bacılarıma, gah da qardaşlarıma bir şey alırdı. Kəndə gedəndə aldıqlarını da çox vaxt "Qardaşım alıb", — deyə mənim adımdan onlara çatdırırdı.

Yumşaq qəlbli, səxavətli qardaşım, bir az kəmhövsələ, səbirsizdi. Hadisələri yerli-yataqlı təhlil etmədən nəticələr çıxarardı...

Mən Bakıda işləyəndə Mənsimlə Əli eyni ildə Azərbaycan Politexnik İnstitutuna, ikinci ili Əlnüsrətlə Kamil İnşaat Mühəndisləri İnstitutuna qəbul olundular. Mən hər gün onların oxuduqları institutlarla əlaqə saxlayır, necə oxumaları ilə maraqlanırdım. Qardaşlarımın hər biri istehsalatda işləyir, həm də təhsillərini davam etdirirdilər. Açığını deyim ki, eyni vaxtda oxumaqla işləmək həm onlarda əməksevərlik, həm də iradə, xarakter bütövlüyü yarada bilmişdi...

İndi onların hər biri məsul vəzifələrdə çalışır, şan, şöhrət sahibi olublar. Hər dəfə onlarla görüşəndə mənə göstərdikləri qayğıya, sevgi və məhəbbətə görə utanıram, çəkinirəm. Hərəsi





bir ev, ailə sahibidir. Qardaşlarım mənə indi də "Dədə" deyə müraciət edirlər. Bu müraciət məni kövrəldir...

Qardaş! Qardaş! Bilirəm, dəmir əyilir, sınır, ancaq qardaş daş kimi möhkəm olduğundan o, əyilməzlik, dönməzlik rəmzidir.

Atamın yadigarları olan istəklilərim, doğmalarım! Çətin günümdə də, yaxşı vaxtlarımda da məndən çağırış gözləmirsiniz. Həmişə yanımda olursunuz...

Atamın, cicimin, anamın dünyasını dəyişən günlər hər birimizin sarsıntılı, dərdli günləriydi. O vaxt keçirdiyiniz hisslər unudulan deyil. Sizlərdən hərəniz öz kiçik qəlbinizdə ağrı-acı payınızı çəkirdiniz. Sizi çağırıb başınızı sığallasam da, üzünüzdən, saçınızdan öpsəm də, gözlərinizə baxa bilmirdim. Solğun üzünüz, buz kimi soyuq baxışlarınız, nigarançılığınız mənə daha ağır dərdlər, sitəmlər gətirirdi...

Kamilin xəstələnib yüksək hərarət içərisində yatdığı günləri xatırlayıram. Onun "Dədə! Dədə! Getmə, yanımda otur, qorxuram" deməsi, boynumu qucaqlayıb ağlaması, başını qolumun üstə qoyaraq yuxuya getməsi, Məmmədrəhimin gecə yarı ağır xəstələnməsi, heç kimi tanımaması, hamıdan qaçaraq təkcə mənə sığınması, pənah gətirməsi, sonrakı günlərdə xəstəliyin üzüntülü fəsadları hər yadıma düşəndə içimdə qaysaqlanmış yaraların üzünü qoparır, üstə duz səpilmiş kimi göynərti verir.

Mənim əziz qardaşım, Kamil. Atamın yadigarı. Ailənin son beşiyi! O zamanlar da, elə indi də mənim ömrüm də, günüm də sizsiniz. Mənim o vaxtlar bircə arzum, bircə diləyim vardı. Sizi ləyaqətlə böyütmək, sizə təhsil vermək, ailə üçün, xalq üçün, Vətən üçün namuslu və şərəfli insan kimi görmək.

Əziz qardaşlarım! Doğmalarım! Bugünkü zirvədən keçdiyimiz dolanbac yollara boylanıram. Orda nələr yoxdu, nələr!!! Qışın soyuğunda, qarında, şaxtasında köhnə sökük yamaqlı paltarlarda üşüyə-üşüyə, titrəyə-titrəyə qoyun-keçi, mal-qara ardınca getməyinizi, yayın istisində ayaqyalın, başıaçıq, qan-tər axıda-

axıda, təngnəfəs ola-ola pambıq tarlalarında çəkdiyiniz əzab-əziyyətlər, qış üçün heyvanlara ot çalıb daşımağınız, odun qırıb, kötük çapıb gətirməyiniz, kolxozun taxıl biçimində önlük asıb kombaynların ardınca gedərək başaq yığmağınız, axşamlar da evdə lampa işığında dərslərə hazırlaşmağınız... təsəvvürümdə həm xoş həm də acı təəssüratlar yaradır.

Bunların hamısı əmək və zəhmətlə yoğrulmuş ömrümüzün anlarıdır. Ömrü boyu halallıqla, paklıqla qurduğumuz möhtəşəm və əzəmətli ömür sarayının, bəlkə də zirvəsinin ayrı-ayrı həlqələridi.

Mənim sizdən təvəqqem budur: İnsan olmaq! "İnsan" anlamının məzmununda isə hər şey var...

## MÜƏMMA, YOXSA ARXADAN ZƏRBƏ

**Şübhə həqiqətin anasıdır.**
*Volter*

**Cahil olan söylər, sözünü bilməz,**
**Meydana gəlincə özünü bilməz.**
*Ş.İ.Xətai*

Qəribəydi... Neçə gün iydi ki, özümə qapılmışdım. Təhsilimi davam etdirə bilməyəcəyimi düşünüb özümdən asılı olmayaraq getdikcə hər şeyə marağım sönürdü. Özlüyümdə hey fikirləşirdim: axı nə günahım vardı ki, ümidlərim, arzularım xəyala, xülyaya çevriləydi. Təhsilsiz, elmsiz yaşamdımı? Bəlkə də mən o zamanlar çox şeydən xəbərsiz olduğumdan, bəzi məsələləri yetərincə anlamadığımdan düz-əməlli götür-qoylar da eləyənmirdim. Deyənmərəm. Ola bilsin ki, keçirdiyim qarmaqarışıq hisslər, dolaşıq duyğular, boz-bulanıq təsəvvürlər dövrün yeniyetməlik çağlarından doğanlarıydı. Tez-tez öz-özümə sual-





lar verirdim: — Tale kitabım belə yazılıbsa, atılıb-düşməyin mənası varmı? Qismətim beləymişsə, yersiz canfəşanlıq göstərməyin, nədənsə, kimdənsə gileylənməyin, kimisə məzəmmətləməyin, günahkar çıxarmağın, bir sözlə özümü oda atmağın mənası nədir? Bu və buna bənzər suallara alacağım aldadıcı cavablar ümidlərlə, arzularla dolu həyatımda bir dönüş yaradacaqmı?.. Suallar çox, cavablar bəzən yox, bəzən də müəmmalı... Ən çətin şey istər maddi olsun, istərsə də mənəvi, axtardığını tapanmayıb müəmmalar içərisində çabalamaqdı. Qərarsızlıqdı. Sonu bir tərəfə çıxmayan, intəhasız mülahizələrdi... Çox vaxt da həyatının çiçəklənəsi anlarında ümid və arzularının gözlənilmədən puç olmasıydı... Bunu anam da, cicim də, ailənin bütün üzvləri də duyurdu, anlayırdı. Bəzən mənə təskinlik də verirdilər: — Fikir eləmə, əsgəri borcunu onsuz da ödəməliydin, inşallah, ödəyərsən, qayıdarsan, təhsilini davam etdirərsən — deyirdilər... Avqust ayının axırlarıydı. Axşam yaxınlaşırdı. Bütün günü hər tərəfi qarsıyan, tər töktürən günəş peşman-peşman qüruba çəkilməyində, yandırıcı şüalarını səbr və təmkinlə, tələsmədən içinə yığmaqdaydı. Əvəzində hər tərəfi sərinləşdirən, insanlara sakit həyat vəd eləyən, hamını sərməstləşdirən sərin meh, açıq səma, aylı-ulduzlu, ecazkar bir axşam gəlməyindəydi.

Buna baxmayaraq iş-gücdən başı ayılmayan cicimlə anam tərəvəzlikdə işlədiklərindən tər içindəydilər. Xanımım kömürlə qaynatdığı gümüşü samovarı dəm çaydanı ilə birlikdə stola gətirdi. Tərəvəzlikdə tər tökən anamla cicimi, eyvanda yır-yığış eləyən bacımı çaya dəvət elədi.

— Bayaqdan başınız iş-gücə qarışıb, gəlin, çay hazırdı. Nə qədər işləmək olar? Gəlin için... Dincəlin bir az.

Mən də bərk susuzlamışdım, bərə qazdığımdan əlimdəki beli yaxınlıqdakı çəpərə söykəyib stola yaxınlaşdım. Bacım süfrə sərdi, sonra stəkan-nəlbəkiləri, qənddanı gətirib stola qoydu. Çox çəkmədi ki, anamla cicim də gəldilər. Yorğun olduqları üz-

gözlərindən duyulurdu.

Cicim çay içə-içə dedi:

— Nə yaxşı ki, gecə varmış. Biz kənd adamları iş-gücdən ayrılanmazdıq. Əl-ayağımızı uzadıb dincələnməzdik... Nə yaman şeymiş insan nəfsi. Hey əlləşirsən, iş qurtarmır ki, qurtarmır.

Qardaşım Əli böyüklərə məxsus ədayla bildirdi:

— Hə... Düz deyirsiz. Elə mən də sürünün yanındaca...

Hamı gülüşdü. Anam onların sözünü tamamladı:

— Da demə, oğlum... Gündüz gəzəndə hiss eləmirəm... Elə ki oturdum... Axşamın gəlməsini heç istəmirəm... Ayaqlarım ağrıdan sızıldayır. Bundan sonra ömür beləmi keçəcək?

Bir söz deməsəm də, anamla cicimə yazığım gəldi. Qardaşım Məmmədrəhim böyük adamlar kimi, özündən razı halda, bir az da sadəlövhlüklə cavab verdi:

— İşləməyin, işləməsəz nə yeyəcəksiz? Həm də sizə kim nə deyəcək, öz eviniz, öz həyətiniz.

Mən əvvəl qardaşımın üzünə baxdım, o gözlərini məndən yayındırdı. Başımı bulaya-bulaya özümü saxlayanmadım:

— Yoxsa düşünürsən, onlar işləyib, ömrü boyu bizi saxlayacaqlar? Biz də qarnımızı doydurub kənd aşağı-kənd yuxarı gəzəcəyik? Sabahdan hazırlaş, sənə də bir iş tapılar.

Qardaşım deyəsən, səhvini anladı. O, sözünü geri götürməli oldu.

— Zarafat eləyirəm, qardaş. Gecə-gündüz, doğurdan da, işləmək olar.

Elə bu vaxt yaxın qohumumuz Hüseyn müəllim həyət darvazasından girdi. Əlində bir neçə yerə qatlanmış qəzet vardı. Salamlaşdıq. Mən yerimdən qalxıb ona əl verdim. Əyləşməsi üçün stul göstərdim. O, əyləşdi. Bir stəkan çay içib üzümə baxdı:

— Əcəb ləzzət verdi... Ağarəhim, neçə vaxtdı baş qarışıb. Hər şey yaddan çıxıb. Sənin təhsilin barədə nə özün bir söz deyirsən, nə də biz. Hazırlığın yaxşıdı...





Mən başımı bulayıb narazı halda bildirdim:

— Hə... Mənimki gətirmədi... Gərək bundan sonra uşaqların təhsili barədə düşünək.

— Yox... Mən elə düşünmürəm. Həvəsdən düşmə. Sən təhsil alsan, qardaşların üçün də nümunə olarsan. Nə vaxtsa, hardasa, onlara da qapı aça bilərsən.

Cicim dərhal mənə:

— Ümidsiz yaşamazlar, oğlum. Hüseyn müəllim düz deyir.

Mən nagüman halda:

— İndi gecdi, qəbul vaxtı keçdi, gələcəkdə baxarıq.

Hüseyn müəllim dərhal:

— Niyə gecdi? Gəncə Dövlət Pedaqoji İnstitutunda qəbul planı dolmayıb... Çəkinmə... Ora sənəd verə bilərsən.

— Hardan bilirsən?

— Qəzetdə elan veriblər.

O, qəzeti açıb dördüncü səhifədə dərc olunan elanı oxudu. Cicim qəti sözünü dedi:

— Sənədləri hazırla.

Mən başımı yelləyərək:

— Yox, cici, — dedim — adamsız-filansız... Beş manat qazandığınızı indi mən yollaramı töküm? Uşaqlara...

Anam da cicimin dediklərini təkrarladı. Mən israrla:

— Yox...

Qardaşım Əli sakit tərzdə bildirdi:

— Adamımız yox, pulumuz yox... Müəllimlər də...

Cicim Əliyə əsəbləşdi:

— Boyundan yuxarı tullanma, öz işinə qarış... Dil-uzunluğa öyrəncəlisən...

Sonra üzünü mənə tutdu:

— Oğlum, qaçan da, qovan da, Allahı çağırır. Qismətimizdə varsa, qorxub-çəkinmə. Hüseyn müəllim də sənədlərin hazırlanmasında sənə kömək elər. Lap səninlə Gəncəyə də gedər.

Hüseyn müəllim:

— Baş üstə. Mən hazır, Şamama xala.

Təklif və təkidlər məni bir an susdurdu. Sözü çevirmədim. Təhsilə olan həvəsimlə ailənin çıxılmaz vəziyyəti arasında qaldım. Hansına üstünlük verəcəyimi bilmədim. Baş-başa dayanan, qarma-qarışıq fikirlər, toqquşan hisslər məni ağuşuna aldı. Nə cavab verəcəyimi bilmədiyimdən əlacsız qalıb çiyinlərimi çəkdim.

Həvəsləndirmələr, şirnikləndirmələr və cəhdlər nə qədər ürəyimcə olsa da, ailəmizin indiki və gələcək durumunu gözlərim önünə gətirdim. Elə bu vaxt söhbətin nədən getdiyinin fərqini anlamayan balaca Kamil boynumu qucaqlayaraq dedi:

— Dədə, det. Qoxma...

Gözlərim doldu, təəccüblə uşağın üzünə baxdım. Kövrəldim.

— Yaxşı, yaxşı, oğlum — deyib onun üzündən öpdüm və cicimə tərəf çevrildim:

— Bəs ailə?.. Bəs uşaqlar?..

Cicim gülümsündü və dərhal da çöhrəsindəki zərif və zəif işıq yox oldu, o, bir anda ciddi görkəm aldı:

— Yoxsa düşünürsən ki, ailəni indiyəcən təkcə sən dolandırmısan? Sən paltarlı eləmisən?

Mən onun sözünü çevirmədim. Sarsılan və mənə yardım əlini uzatmaq istəyən anam kövrək səslə bildirdi:

— Hələ ki salamatıq. Canımızda can var. Beş il nədi ki, papağını fırlat, gəlib ötəcək. Sən ailənin qəhrini çəkmə.

Cicimlə anamın dedikləri Hüseyn müəllimə bir qədər də qabağa çıxmaq imkanı verdi:

— Ağarəhim, elə zəmanədə yaşayırıq ki, xatir də, hörmət də... Hər nə desən, təhsildədi. Gələcəyi təhsilsiz təsəvvür eləmirəm. İnan mənə, sənin təhsilin bacı-qardaşlarının da gözlərini açacaq. Onlarda da təhsilə həvəs oyadacaq. Əziyyətsiz, mübarizəsiz həyat yoxdu. Allah deyib səndən hərəkət, məndən bərəkət... Hamımız sənə köməkçiyik...





Söhbətə bununla da son qoyuldu. Üç gün ərzində sənədləri hazırlayıb Hüseyn müəllimlə Gəncəyə getdik. Həmin gün sənədləri qəbul komissiyasına verdik. İmtahan müddətində qalmaq üçün kirayənişin ev də behlədik və həmin günün axşamı geri qayıtdıq. Gündüz vaxt tapanda, hər axşam Hüseyn müəllimlə sərasər imtahanlara hazırlaşmağa başladıq. Bir həftə keçərkeçməz rayon hərbi komissarlığından əsgərliyə çağırış məktubu aldım. Oxuyub gözlərimə inanmadım. Sarsıldım. Sanki başımdan qaynar su töküldü. Məni məyusluq hissi bürüdü. Öz-özümə dedim:

— Nə düşünürdüm, nə baş verdi? Deməli, qismətimdə təhsil yoxdu. Əbəs yerə “tər” tökürəm. Atılıb-düşməklə iş düzəlməz. Görünür, çox şey adamın özündən asılı olmur... Tale yazısı da varmış...

Bu hadisə cicimlə anamı da çaş-baş saldı. Nə deyəcəklərini bilmədilər. Handan-hana mənə təskinlik verməli oldular. Cicim:

— Oğlum, onu özünə dərd eləmə, əsgərliyə gedib gələrsən, sonra oxuyarsan, burda nə var ki.

Anam:

— Zəhmət çəkənin əziyyəti yerdə qalmır. Cicin düz deyir. Kənddə neçə adam əsgərlikdən gələndən sonra ali təhsil alıb.

Düşündüm:

— Cicimlə anamın dedikləri təslimçilik qənaətindən doğan ürək-dirəklərdi.

Çox keçmədi ki, Hüseyn müəllim gəldi və nigarançılıqla soruşdu:

— Ağarəhim, əsgərliyə çağrılmağın düzdü?

— Hə...

Onun sifəti ağardı. Heç bir söz demədi. Həyətdə kətiyin üstə oturdu. O, olduqca qəlbi təmiz, xeyirxah, səmimi, dəqiq, həqiqətpərəst, ayıq-sayıq adamıydı. Ətrafında baş verən hər şeydə

məntiq axtaranıydı. Məntiqə sığmayan hadisəyə həmişə şübhəylə baxardı. Kiçik qanunsuzluq belə onun aləmində əməlli-başlı cinayətiydi. O, dedi:

— Ağarəhim, axı sənin əsgəri xidmətə çağırış vaxtına yaşın çatmır. Yaşın çatmırsa, deməli, qanun bu çağırışa yol vermir. Sən kiminsə əvəzinə çağrılmısan.

Mən narazı halda cavab verdim:

— İndi qanun axtaran var?

— Haqq pozulanda, ədalət tapdalananda gərək qanunu saxtakarın gözünə soxasan... Mən şübhələnirəm.

— Nədən?

— İndi qəti deyənmərəm. Ancaq bu işi də belə səssiz-küysüz qoymaram.

— Ərizə yazıb şikayətmi eləyəcəksən?

— Haqqı tələb eləyəcəm. Burda kiminsə əli var.

Mən gülümsündüm və handan-hana dedim:

— Sən haqqı tapınca mən Uralda əsgəri xidmətimi başa vuracam. Əsəblərini korlama.

Gülüşdük.

Hüseyn müəllim beynimə "arama-axtarma" toxumu səpib, məyus-məyus ayaqlarını sürüyə-sürüyə çəkib getdi. Şübhə toxumları beynimi qurd kimi didməyə başladı: — Yaşım çatmırsa, qanun azyaşlıları əsgərə çağırışa yol vermirsə, mən əsgərliyə niyə çağrılmalıyam? Yarım il əvvəl, yarım il sonra, mənim əsgərliyə çağrılmağım hərbi üçün o qədər vacibdimi? Yox!.. Yaxşı, bu ədalətdənkənar çağırış hərbi komissarlıqda kimlərəsə lazımdımı? Onlara əsgərliyə yollamağa adam lazımdısa, kənddə məndən yaşlılar, yaşı çatanlar niyə çağırılmasınlar? Niyə məhz mən? Hüseyn müəllim necə dedi? "Burda kiminsə əli var". Mən kimə pislik eləmişəm? Heç kimə? Bəs ailəmiz? Yox!.. Anam, cicim kimə neyləyə bilərdilər ki? Yox... O da ağlıma batmır. Bəlkə bu mərhum atamın dırnaqarası dostlarının işidi? Axı kimdi o





dostlar? Beləsi varmı? Xatırlaya bilmirəm. Atamdan acığı gedən adam olsaydı, inanmıram ki, özünü indiyəcən büruzə verməyəydi. Axı atam kimə pislik eləyə bilərdi? Qohum-əqrəbaya görə belə bir nalayiq yola imza atarlarmı? Belə nadanlıq, insafsızlıq ola bilərmi? Açığını deyim ki, Hüseyn müəllimin səpdiyi şübhə toxumları məndən asılı olmadan cücərdikcə haldan-hala düşürdüm. Hələ dünyanı, insanları düz-əməlli anlayanmadığım bir vaxtda kimliyinə fərq qoymadan bir çoxlarına qarşı məndə qəribə hisslər yaranırdı: Arxadan aldığım zərbəni mənə filankəs endirərmi? Bəhmənkəs necə? Bəs o? Bəs bu? Bu və buna bənzər suallar, onlara tapmadığım cavablar mənə əməlli-başlıca əzab-iztirablar gətirməyə başladı. Hansı nadanın "sifarişiylə" — anonim məktubuyla, ya bir telefon zəngiylə təhsilimin əngəllənməsi. Bu yolda maneəçilik törədilərək dolaşdırılmam, ümid və arzularla dolu həyatımın kövrək addımlarına namərdcəsinə sipər çəkilmə məni əməlli-başlıca çaş-baş salmışdı... Dünya mərdi-məzarlardan xali deyil, yaxud dünya yaxşıların çiynində dayanır, — deyənlər heç də səhv eləmirlər. Çox təəssüf ki, həyatda müdriklərlə yanaşı dəymədüşərlər də, lap el arasında deyildiyi kimi, hoqqulular da ömür sürürlər. Yəqin ki, belə dəymədüşərlər olmasaydı, müdriklərin də qədri, dəyəri bilinməzdi. Hardansa ağlıma belə bir fikir gəldi: — Ayə, necə adamam? Hüseyn müəllim qızışıb bir söz dedi də. Onu bu qədər fırlatmağa, kimlərinsə barəsində nə olsa, düşünməyə, ona çəpəki baxmağa, onun sifarişçi, anonimşik obrazını yaratmağa ehtiyac varmı? Yaxud ona haqqım çatırmı? Atalar yaxşı deyib: "Mal bir yerə, iman min yerə". Hamı öz işində-gücündə, dərdi-sərində, mən də oturub evimdə kimlərinsə barəsində çürük mülahizələr yürüdürəm, alçaldıcı rəylər uydururam. Bəlkə doğrudan da mənim əsgərə çağrılmam təsadüfidi? Bəlkə hərbi komissarlıqda kimsə səhv eləyib, mənə də çağırış göndərib? Bəlkə Hüseyn müəllimin şübhələri istiqanlılığından, emosionallığından, səbirsizli-

yindən doğub? O heç nədən hissə, emosiyaya qapılıb. Kiminsə təsadüfi hərəkətindən, ya sözündən belə qənaətə gəlib?.. Hər nədi, gec-tez aydın olacaq... Zaman öz sözünü deyəcək. Zamanın hökmü daha dəqiq, daha parlaq və kəsərli olur. Ancaq Hüseyn müəllim məni çox istəyir. Həmişə mənim barəmdə düşünüb. Ən çətin anlarımda mənə dayaq olub, əl tutub, müəllimlik eləyib. Hazırlığımda, əxlaqımın, mənəviyyatımın zənginləşməsində, həyata baxışımda onun xidmətləri var. Elmin yollarını mənə o göstərib. Ən çətin məsələləri mənə o aydınlaşdırıb. İndi də bütün varlığımla inanmıram o mənimçün hər cür çətinliklərin, ağrı-acıların, məzəmmətlərin cəfasını çəkər. O, mənə münasibətdə təmənna ummur, heç ağlına da gətirmir. Çəkinmədən deyirəm və dediklərimdən də fəxranəlik duyuram. Onunla qohumluq mənim üçün fəxarətdi. Hüseyn müəllim mənim gözlərimdə özünün ləyaqətli insan, fədakar qohum, həqiqi müəllim obrazını yaratdı. Mən onu insanlığın simvolu sanıram, ona insanlığın bütün atributlarını ürəkdən təqdim eləyə bilərəm. — Yaxşı qohum həm də yaxşı dostdu, arxadı, dayaqdı, — deyirlər. Bu adamın sevgisini, qayğısını sonralar da duymuşam... Hərdən düşünürəm:

— İnsan öyrənib özüyçün problemlər yaratmağa. Başını itirib dərdi-sər içərisində çabalamağa. Yaranmış vəziyyətdən çıxış yolları axtarmaq əvəzinə yas tutmağa... Göz yaşları tökməyə. Savadsızlıq, məhdud dünyagörüş, təcrübəsizlik bəzən adamın hisslərini cilovlayır, onun daha geniş və dəqiq düşünmək, ağıllı nəticəyə gəlmək imkanını əlindən alır. Hansı ki, insanın ən böyük fədakarlığı, idrakının möhtəşəmliyi onun kiminsə nur axtarışlarına, zülmətdə işığa bürünməsinə rəvac verməsidi. Ürəyinin istəyincə müntəzəm və fədakar axtarışlarında uğurlu nəticəyə sahib olmasına yol açmasıdı. Bəzən insan elə ağır, can sarsıdan, ağıl kilidləşdirən hadisələrlə qarşılaşır ki, özü də düşdüyü halına məəttəl qalır. Müəmmalı vəziyyətdən necə çıxacağını ağlına





da gətirə bilir, nə məntiqinə sığışdıra, nə də... Sonralar hadisələrin nədən qaynaqlandığının, nələrdən nəşət aldığının fərqinə də varmır... Oturub-durub hər şeydə bir möcüzə axtarır. Həyat onsuz da möcüzələrlə doludur. Baş verən möcüzələr ömür girdabında bəzən yaddaşından silinir, bəzən də hərdən bir təxəyyüldə solğun, ətri itən çiçək kimi əks olunur. Olsa-olsa, ondan yalnız acılı-şirinli xatirələr qalır...

Mən hərbi komissarlığa getdim. Həkim müayinəsindən keçdim. Elə ordaca əsgərliyə yola düşəcəyim günü bildirib mənə sənədlərə imza atdırdılar. Evə gəlib baş verənləri danışanda ailə üzvlərimi məyusluq hissi bürüdü. Cicimin gözlərindən yaş yanaqlarına süzüldü. Anam dodaqları səyrişə-səyrişə gözlərimin içinə baxdı. Orda çox şey vardı: ağrı, acı, nigarançılıq, sevgi, məhəbbət... Əslində onların ağır, sarsıntılı əhvalı, ürək dondurucu həyəcanı əsgərə getməyimlə yox, təhsilimin qapanmasıyla bağlıydı. Mən cicimlə anamın gözlərindən uzaqlaşmaq üçün həyətə düşdüm. Çox götür-qoy elədim. Onu da bilirdim ki, kəndimizdə bir neçə nəfər əsgəri xidmətdən həkimlərin himayəçiliyi ilə yayınmışdılar... Həmin axşamı yatanmadım. Hey əsgəri xidmətdən yayınma yolları aradım. Deyəsən, tapdım da. Gəncədə həkimlərlə əlaqə yaratmaq qərarına gəldim. Səhəri gün yataqdan erkən qalxdım. Cicimdən iki yüz manat alıb Göyçayda yaşayan yaxın qohumum Rzagilə getmək adıyla Gəncəyə yola düşdüm.

## MÜBARİZƏSİZ YAŞAM ZİNDANDIR

**Həyata laqeydlik ölümə bərabərdir.**
***Ş.M.Xiyabani***

**Hərəkət yaşamaq, sükut ölümdür.**
***Ə.Xaqani***

Gəncəyə ikinci gəlişim olsa da, nədənsə bu şəhər mənə çox doğma, cəlbedici və hikmətli görünürdü. Niyə beləydi, deyənmərəm. İlk baxışdan mənə elə gəlirdi ki, bu, dünyanın, ən gözəl şəhəridi. Burda doğulub boya-başa çatmışam. Şübhə eləmirdim, daxilimdən süzülən pak və ülvi hisslərim, təmiz duyğularım böyük Nizamiyə olan məhəbbətimdən doğurdu. O da inkar olunmazdı ki, halına-xislətinə bələd olmadığım bu şəhərdə gələcək həyatımın bir parçası doğmaqda və çiçəklənməkdə olan arzu və diləklərim rişələnə, rövnəqlənə bilərdi... Qatardan düşüb trolleybusa oturdum. Birbaşa mərkəzi meydana gəldim. Kənddə böyüyüb boya-başa çatan, sakit həyatla doğmalaşan bir yeniyetmə üçün təmiz, səs-küylü, qaynar şəhər daha təmtəraqlı və cazibədar görünürdü. İlk düşdüyüm yer şəhər meydanı oldu. Füsunkar meydan, geniş və təmiz prospekt, çoxmərtəbəli Mərkəzi Univermaq, Gəncə Mehmanxanası, Dövlət Pedaqoji İnstitutu dövlət idarəsi və xəstəxana binalarıyla, yam-yaşıl, şahbudaqlı çinarlarla əhatələnmişdi. Meydanın mərkəzində tarixin yaddaşında özünə məskən salan Şah Abbas Məscidi və onun həyətində məğrur qürur və fədakarlıq rəmzi Cavad xanın uyuduğu məzar, zəka və müdriklik mücəssəməsi Mirzə Şəfinin məqbərəsi, fışqırıb ruh oynadan fantanlar özünə məskən salmışdı. Siz də mənimlə razılaşarsız ki, bu mənzərə doğma kənd-kəsəyindən heç vaxt kənara ayaq basmayan bir kənd yeniyetməsinə möcüzə təsiri bağışlamaya bilməzdi. Binaların üstündəki yazıları oxumağa başladım. Məni ən çox sehirləyən, tutan institut binasının üstünə yazılan böyük mütəfəkkir Məhəmməd Füzulinin ikicə misrası oldu:



Ağarəhim Rəhimov Yaddaşda yaşar xatirələr

Elmlə, ədəblə tapılar şərəf
Mirvari olmasa, nə lazım sədəf.

Təvazökarlıqdan nə qədər uzaq olsa da, bu iki misra mənim qəlbimlə çox həmahəngiydi. Mən tarixlər şahidi bu şəhərə elm, təhsil alıb, mərifət əhli olub şərəflənməyə gəlmişdim. Ancaq necə?.. Çox vaxt o anları xatırlayanda imkanım, gücüm, qüdrətim çatmadığından itirdiklərim üçün heyfslənirəm, yanıb-yaxılıram. Burda keçən günlərim nə qədər məşəqqətli də olsa, bircə anına belə təəssüflənmirəm. Əksinə, sevinirəm. Fəxranəlik duyuram. Çünki mənim bəsirət gözlərim dünyaya, Gəncədə açıldı. Ona görə də Gəncə mənə doğmaydı, əziziydi...

Mehmanxanadan otaq götürüb yenidən meydana düşdüm. Halım özümdə deyildi. Hara gedəcəyimi, kimlə danışacağımı bilmirdim. Fəvvarənin yanına çatmışdım ki, çoxdan üzünü görmədiyim kəndçim Qəniylə qarşılaşdıq. Bəstəboy, yaraşıqlı, sarıbəniz, gülərüz, açıq qəlbli bu adamın 35-40 yaşı olardı. Mən ona yaxınlaşıb özümü təqdim elədim. İnsafən, məni tanıyan kimi üzündə xoşhallıq, hardasa bir məmnunluq yarandı. Kənd-kəsəyi xəbər aldı. Məni evinə dəvət elədi. Getmədiyimi görüb evinin, iş yerinin ünvanını verdi. Sonra da Gəncəyə gəlişimin səbəbini soruşdu. — İnstituta qəbul üçün sənədlərimi vermişəm, — deyə ona cavab verdim.

Üzündə yenidən xoş təbəssüm yaradan Qəni mənə zarafat elədi:

— Başında bir şey var? Yoxsa dost məni vağzalda görsün, — deyə sən də atıla-atıla durub gəlmisən? Eləsə, elli, özünə əziyyət vermə. Artıq xərc çəkmə. İnstitutda yel əsib, qoz tökülmür.

Ya möhkəm savadın olmalıdı, ya da day-dayın. Adamsız, pulsuz instituta qəbul...

Yalan danışmaq xarakterimə uyğun olmasa da, adam aldatmaqdan nə qədər zəhləm getsə də, etiraf eləyim ki, Qəniyə bolluca uydurdum:

— Müəllimlə danışmışıq. O dedi: — Sən xəstəxanaya gir, lazım gəlsə, imtahanların vaxtında dəyişiklik apara bilək. İstərdim ki, xəstəxanada yatıb, imtahanları verim.

— Pul verirdinsə, Ağarəhim, nə xəstəxanada yatmaq? Bir də ki düzünü de, sən müəllimə verdiyin o qədər pulu hardan tapmısan?

O, gülərək sözünə davam elədi:

— Yoxsa harasa basqın eləmisən? Bank yarmısan?

Mən uydurmamı bir qədər də dərinləşdirməli oldum:

— Cicim verib, qalanını da əmilərimdən, başqa qohum-əqrəbamdan toplamışam.

— Cicin qeyrətli qadındı. Kaş mənim də elə cicim olaydı. O, pullu qadındı. Həkimliyi ona çox şey verib...

Qəninin sözümə inanıb-inanmadığını bilmədim. O, hay-küylə çinarların başına qonan, sonra da qahaqu salaraq sevincək uşaqlar təkin yerlərini uçub dəyişən qarğalara baxa-baxa üz-gözünü turşutdu. Öz-özünə danışırmış kimi bildirdi:

— Çox girdirmə məsələdi... Ehtiyatlı ol, pulunun dalına keçərlər ha... Qaldı xəstəxanaya. Elənçiyə qalsa, xəstəxanalar abituriyentlərlə dolu olar... Həkimlərin qurdu ulayar.

Mən yalan danışsam da, özümü doğruçul adam kimi göstərməyə çalışdım. Ancaq Qəniyə o andaca deməyə söz tapanmadım. Atamın vaxtıyla dediyi bu sözləri xatırladım: — "Yalanın məntiqi yoxdu. Birini dedinsə, lazım gəlsə, yüzünü də deməli olacaqsan. Başqa sözlə, arxası gələcək. Yalanlar sistemi yaranacaq. Yalanların üzə çıxanda danışmağa sözün olmayacaq. Tökdüklərinin zəhərini gec-tez dadacaqsan. Çalış yalandan qaç, oğlum. O heç kəsə fayda verməyib. Sənə də verməz"...





Nə qədər müdrikcəsinə deyilmiş sözlərdi?! Nə qədər aqilmiş mənim atam?! Məni bağışla, ata, vəziyyətim elə alınıb ki, indi öz xoşumla, ürəyimin istəyiylə, təhriksiz-filansız yalan danışmalı oluram. Sənin nəsihətlərini əlacsızlıqdan nəzərə alanmıram. Bilirəm, "əlacsızlıqdan" sözünün özü də özümə bəraət üçün bir bəhanədi...

Qəni bir az da cəh-çevir eləsəydi, anlayırdım ki, aləm qarışacaq. Qənini fəvvarələrin yanındaca qoyub qaçmaqdan özgə çarəm qalmayacaqdı. Nə yaxşı ki o, mənim yalanımın ardınca düşmədi, məntiqsiz məntiqimə varmadı. Sadəcə soruşdu:

— Həkimlə danışmısanmı?

— Xeyr. Şəhərə gəlişim indidi. Bəlkə sizin tanışınız ola?

O, bir an fikrə getdi.

— Qonşum həkimdi, bəlkə onunla danışaq, o, bizə kömək eləyə bildi?

— Necə məsləhətdi. Onsuz da keçəl halva yeyər, puluna minnət.

— Getdik.

Biz xəstəxanaya gələndə dəhliz adamla doluydu. Adamların arasından ötüb kabinetin qarşısında dayandıq. Qəni: — Sən burda gözlə, — deyib qapını döydü və yavaşca açıb kabinetə girdi.

Nədən, necə danışdıqlarını bilmirəm, Qəni bir azdan başını qapıdan çıxarıb mənə: — İçəri gəl, — işarəsini verdi. Mən içəri keçib salam verdim. Həkimin əlli-əlli beş yaşı olardı. Uca boyu, dolu bədəni, qırmızı sifəti, qalın, uzun tüklü qaşları və badamı gözləri vardı. O, məni diqqətlə seyr edib: — Otur, — dedi. Qəni üzümə baxa-baxa astadan bildirdi:

— Mikayıl, sənə hər adamın sözünü demərəm. Bu yaxşı kişinin oğludu. Kasıb adamdılar. Hardasa bir-birimizə qohumluğumuz da çatır. Məni Allah bu oğlanla qarşılaşdırıb. Beləsinə kömək əlini uzatmaq Allaha da xoş gedər. Bunu xəstəxanaya sal,

işdi, lazım olsa, instituta xəstəlik arayışı təqdim eləyib imtahanın vaxtını dəyişə bilək.

— O, kriminaldı, Qəni. Ona qol qoymaq çətindi.

— Asan olsaydı, yanına niyə gəlirdim ki. Kömək elə... Mənə pənah gətirib...

Həkim ani fikrə getdi, sonra astadan: — Qoy görək, gəlirəm, — deyib kabinetdən çıxdı. Məni nigarançılıq bürüdü. — Çətin ki, düzələ, — deyə düşündüm. Çox çəkmədi ki, həkim üzündə təbəssüm geri qayıtdı. O, stulunda əyləşib pəncərədən çölə baxdı. Sonra üzünü mənə tutub saymazyana soruşdu:

— Ağzın möhkəmdimi?

Mən təəccüblə:

— Necə?

Qəni gülümsündü:

— Həkim soruşur ki, sirr saxlamağı bacarırsanmı? Danışdıqlarımız bu kabinetdə qalacaq, yoxsa, aləmə faş eləyəcəksən?

Mən güldüm:

— Qalacaq.

Həkim astadan, mızıltılı səslə soruşdu:

— Baş həkimə yüz manat verə bilərsənmi? (O zamanlar yüz manat böyük məbləğiydi).

— Hə, — deyib əlimi cibimə saldım, cicim verən iki yüz manatdan yüzünü ayırıb masanın üstündəki kağızın altına qoydum. Həkim gülümsünərək Qəniyə üzünü tutdu:

— Bu, elə al-verin ustasıdı ki.

Qəni söz altda qalmadı:

— Bəs nə bilmişdin? Şoran torpağın yetirməsidi. Sağlıq olsun, görərsən, Gəncənin suyun içib, çörəyin yeyib necə yetişəcək. Çoxlarına çox şey öyrədəcək.

Doğrusu Qəni deyənləri mən o zaman düz-əməlli başa düşmədim. Hər ikisi güldü. Mən də gülüşün fərqinə varmadan onlara qoşuldum.





Həkim:

— Harda qalırsan, Ağarəhim?

— Mehmanxanada... Üçüncü mərtəbə, üç yüz onuncu otaq.

Həkim ünvanımı yazdı:

— Get, səhər otaqda ol. Saat $9^{00}$-da təəcili tibbi yardım maşını gələcək. Uzanarsan yatağına. Özünü xəstə kimi aparарsan. Soruşana da deyərsən, belim ağrıyır... O xəstəlikdən hələ ki, başı qanayan yoxdu. Səni ordan götürəcəklər. Oldu?

— Bəli!

— Belə olsa, sonralar da zibili çıxmaz.

Biz beləcə həkimdən ayrılıb xəstəxanadan çıxdıq. Qəni dedi:

— Sabah otaqda ol, gəlib səni axtarmasınlar. Şübhələnə bilərlər. Özüm də səninlə əlaqə saxlayacam.

— Oldu, — deyib Qənidən ayrıldım. Fikir məni hara gəldi alıb aparırdı. Gah əsgərlikdən qurtulmam, gah instituta girməm, gah da imtahanlardan kəsilib kor-peşman geri qayıtmam barədə düşünürdüm. Başqa sözlə, sonu bəlli olmayan, qarmaqarışıq bir aləmdə necə gəldi vurnuxurdum. Beləcə həmin gün şəhəri — geniş küçələri, Milli Parkı, Gəncə çayını... daha haraları pay-piyada araq-varaq elədim? Axşam tərəfi otağa qayıdanda cavan oğlanın stulda əyləşib yazı-pozuyla məşğul olduğunu gördüm. Salamlaşıb tanış olduq. O, Gürcüstandan Gəncə Pedaqoji İnstitutuna qəbul imtahanına gəlmişdi. Adı Əhlimanıydı. Təvəllüdümüz, məqsədimiz eyniydi. Onun təklifiylə axşam naharını birlikdə elədik. Hər kəs ailəsindəki xoş, yadda qalan günlərindən danışdı. Dağı arana, aranı dağa qatdıq. Az müddətdə illərin dostuna çevrildik... Eh, cavanlıq illəri. Nə qədər qəribəsən, parlaqsan, coşqunsan, əlçatmazsan, paksan, ülvüsən, təmizsən... İstəklər, arzular ümmanısan... Həm də açıqsan, hamını özününkü sanansan... Yatanda uşaq sadəlövhlüyü ilə Əhlimana dedim:

— Əhliman, mən səhər xəstələnəcəm. Həkimlər gələndə deyərsən ki, bu oğlan səhərə qədər yatmayıb. Beli ağrayıb.

Ufultusu, zarıltısı da aləmi bürüyüb... Bir də paltarlarımı geyməyə mənə kömək eləyərsənmi?

Əhliman təəccüblə üzümə baxdı. Dərhal həkimin: — Ağızdan möhkəmsənmi? Qəninin: — Sirləri faş eləmə, — demələri yadıma düşdü və səhvimi anladım. Ancaq onu düzəltmək imkanım olmadı. Əhliman gülümsünüb cavab verdi:

— Xəstələnmək sifarişləmi olur?

Sonra da əlavə elədi:

— Yəqin danışdığınız adam elə məsləhət bilib, hə?.. Bilsəydim, mən də...

"Hə" deməkdən özgə çarə qalmadı... Əslində "Bilsəydim, mən də..." sözüylə Əhliman da kimlərləsə, hansı müəllimləsə danışıq kartını beləcə mənə açmış oldu.

Maraqlıydı, səhvini o da dərhal anladı. Gülüşdük. Hər ikimiz öz aləmimizdə gəzişmələr elədik. Söhbət uzanıb gecə yarıdan keçənədək çəkdi. Sonra soyunub yatağa girdik. Çox çəkmədi ki, Əhlimanın ağır-ağır gedib-gələn nəfəsini duydum. Ancaq mən xeyli oyaq qaldım. Kənd-kəsək, şəhər həyatı, gələcək müəmmalı taleyim barədə düşündüm. Neçə gündə Vətənə borcumu verməyin məsuliyyətini bəlkə də ən çox indi dərk elədim. Birdən-birə içimdə sanki bir boşluq yarandı. Qalxıb uzandığım çarpayının içindəcə oturdum. İstədim Əhlimanı yuxudan qaldırıb içimdə nə varsa, hamısını ona danışım. Ona dediyim yalanları etiraf eləyim. Nə düşündümsə, yaxşı ki, bu fikrimdən tez də yayındım... Bir az əvvəl işıqlarını öz əllərimlə qaraltdığım bu zil qaranlıq otaqda qəribəydi, hiss eləyirdim ki, əcaib bir kabus nə vaxtsa məni qamarlayacaq. Məni haldan-hala salacaq. Bu nalayiq əməlimə görə cəzamı alacam...

— Cəhənnəmə olsun, — deyib yatağımda çevrildim. Məni təngə gətirən fikirləri başımdan qovub unutmağa çalışdım. Az keçdi, yenə qorxu, çəkingəclik hissi məni bürüdü. Ölçüyə gəlməyən riyakarlığımı, ikiüzlülüyümü heç nəylə özümə bağışlayanmırdım. Tutduğum qeyri-insani hərəkətlərimə görə daxilən: — Əhlimandan xəbərsiz özümü danlayırdım, məzəmmətləyirdim...





Mən əsgəri xidmətdən qorxmurdum. İndi nə bəhanə gətirsəm, oxucuda gülüş doğura biləcəyini də anlayıram. — Özünə az bəraət qazandır, kimliyin bəllidir, — deyə biləcək şəxsləri də gözlərim önündə canlandırıram. Nə deyirsiz, deyin, nə düşünürsüz düşünün, mən vətənimi sevirəm. Özü də çox. Hələ o zamanlar onu da bilirdim ki, nəinki ayrıca bir şəxsə, hətta, bütöv bir xalqa qüvvət verən vətən məhəbbətidir.

Vətən ləyaqətdi, vətən namusdu, vətən şərəfdi... Başqa sözlə, vətən insanlıqdı. Vətən yoxsa, insanlıq da yoxdu. Vətənə biganəlik, yerdə insanlığa, göydə Allaha xəyanətdi. Rəzillikdi, rəzalətdi... Məni düz yolumdan sapdıran, hardasa, qəlbimi sarsıdan, ürəyimi çatladan, yalanlar ağuşuna ataraq içimdə tufanlar yaradan ailəmizin dəhşətli dərəcədə ağır güzəranı, yüz yolla bəhanələr gətirərək yaşı çatanların rüşvətlə vətənə xidmətdən yayındırılması, onların əvəzində mənim kimi imkansızların, kimsəsizlərin əsgərliyə yola salınmasıydı. Onu da anlayırdım ki, borcun ödənməməsi müxtəlif bəhanələrə heç də haqq qazandıra bilməz... Bir də bu gün nə qədər gülünc və əcaib görünsə də, daim məni çulğalayan, hara gəldi ardınca çəkib aparan, cinayətə yuvarlayan "ali məktəbə girim, sonra əsgərliyə gedim" ideyasıydı. Bu cəhətdən də instituta girməyə önəm verirdim. Mən bu səhvimi sonralar anladım. Onda isə səhvimin düzəldilməsi geciydi... Səhər yataqdan erkən qalxdım. Əhlimanı da yuxudan oyatdım. Gedib birlikdə səhər yeməyinə oturduq. Saat $8^{00}$-da mən hər şeyə hazırıydım. Soyunub yenidən yatağıma uzandım və təcili tibbi yardım maşınının gəlməsini gözləməli oldum.

Saat $9^{00}$-da qapı şaqqıltıyla açıldı. Xidmətçi qabaqda, həkim və tibb bacısı onun arxasınca otağa daxil oldular. Qorxu və təlaş hiss keçirən mehmanxana xidmətçisi: — Xəstə kimdi? — deyə

soruşdu. Mən bu sualı gözləyirmiş kimi ufuldamağa, belimi tutmağa başladım. Əvvəlcədən danışdığımıza baxmayaraq, Əhliman yaranan bu əcaib mərəkəyə çaş-baş qalmışdı. Mən etiraf eləyim ki, onun gözlərinin içinə utandığımdan baxa bilmədim. Onu da anlayırdım ki, belə vəziyyətdə Əhlimanın üzünə baxsam, hər ikimizin eybəcər maskası yırtılacaqdı. Axı Əhlimana da əcaib maskanı mən geyindirmişdim. Hələ üstəlik həkimin də fırıldağının üstü açlacaqdı. Belə olacağı təqdirdə nə qədər yaxın olsaq belə, Qəni bu hərəkəti mənə güzəştə gedərdimi? Məndən birdəfəlik üz çevirməzdimi?.. Əslində Qəninin buna haqqı da vardı. Ona görə də mən çalışırdım ki, Əhliman tərəfə baxmayım... Həkim məni yüngül müayinə elədi. Qoluma ağrıkəsici iynə də vurdu. Sonra həkim, tibb bacısı və xidmətçi Əhlimanla köməkləşərək məni ayağa qaldırıb paltarlarımı geyindirdilər. Qoluma girərək pilləkənlərlə aşağı mərtəbəyə endirdilər və aparıb maşına əyləşdirdilər. Sürücü maşını birbaşa xəstəxanaya sürdü. Qəbul otağına girəndə Mikayıl həkimi stulda əyləşən gördüm. Mikayılın işarəsiylə məni tibb bacısı divanda əyləşdirdi. Həkim diqqətlə üzümə baxdı. Hiss elədim ki, o, məni kiminləsə dəyişik saldı. Sənədlərimə baxanda üzündə ötəri təbəssüm duydum. Görünür, girdiyim rola görə o, məndən razı qalmışdı. Həkim, vaxt itirmədən məni "müayinədən" keçirərək palataya göndərdi. Paltarlarımı aldılar, əvəzində mənə xəstəxana geyimləri verdilər. Geyinib 9-cu palataya getdim. Palatada dörd çarpayı vardı. Onlardan ikisində xəstə yatırdı. Üçüncüsünü mən tutdum. Dördüncüsü boşıydı. Həmin axşamı gecədən xeyli keçmiş palataya təzə, orta yaşlı bir xəstə gəldi. O, maşın qəzasına düşmüşdü. Qıçı sınmışdı. Adı Sahibiydi. Deyilənə görə Daşkəsəndə böyük vəzifə tutmuşdu. Gecə səhərə qədər ağrı-acılardan yata bilmədi. Palata onun yanına gələnlərlə dolub-boşalırdı.

İkinci xəstə Ağdaşlı Arifiydi. Kənd təsərrüfatı işləriylə məşğulıydı. Onun otuz yaşı ancaq olardı. Gülüb-danışmağı sevəniydi. Üçüncüsü Goranboylu Qalibiydi. O, yaşlıydı. Ağrı-acılardan hey gileylənirdi. Dərman-davayla arası olmayan bu kişi həkimlərin sözlərinə qulaq asmazdı. Tez-tez də: — Bu əzabdansa, gedib evdə ayağımı uzadıb balalarımın gözləri önündə ölməyim fərzdi, — deyirdi. Doğrusu, mənim bu xəstələrə yazığım gəlirdi. Dördüncü "xəstə" isə bu sətirlərin müəllifiydi. Tanışlıq zamanı mən yeni yalanlarımı uydururdum. Başqa yolum da yoxıydı. Uydurmalarımda məntiqi gözləməyə çalışırdım. Yaddaşım çox etibarlı olduğundan istədiklərimə asanlıqla nail olurdum. Nə qədər acınacaqlı, nə qədər gülünc hal keçirməli olurdum. Açıqaydın bilirdim ki, taxdığım maska nə vaxt yırtılsa, bu adamlar mənə nifrət eləyəcəklər. Sonra da məni ələ salıb arxamca güləcəklər...

Xəstələrə qohum-əqrabaları baş çəkir, dərman-davalarını alıb gətirirdilər. Həkimlərlə danışıqlara otururdular. Yemək-içməklə xəstələrini təmin eləyirdilər. Mən həkimlərin diqqətindən kənardaydım. Üzümə deməsələr də, hiss eləyirdim ki, xəstə həmkarlarım həkimim barədə yaxşı düşünmürdülər. Mənsə onların rəylərini dəyişməyə söz tapanmırdım. Axı onlara necə deyə bilərdim ki, narahat olmayın, əzizlərim, sizi narahat eləyən şeylərin səbəbkarı elə mən özüməm. Mən yalandan özümü xəstəliyə vurmuşam... Yaş fərqimiz çox olsa da, xəstələrlə aramda böyük səmimiyyət yaranmaqdaydı. Hamının, hətta, xəstələrin yanına bir neçə dəfə təşrif buyuran adamların da özümə diqqətlərini hiss eləyirdim. Şübhəsiz ki, mənə bu rəğbəti də onlarda xəstə həmkarlarım yaratmışdılar. Hərdən düşünürdüm: qılafda olmaq nə pis şeymiş. Riyakar, ikiüzlü bir obraza çevrildiyini öz-özlüyündə anlayanda vicdanının səsi köksünü dağıdır. Mənasızlaşır, hardasa, sırtıq, fırıldaqçı, bir insana çevrildiyini anlayırsan. Onda da yalnız başqalarının deyil, həm də öz gözlərində kiçilirsən. Öz-özünə nifrət eləyirsən...

Sahibin yanına dolu zənbillər gedib-gələnlər lap çoxıydı.

Mənimsə gəlib-gedənim təkcə Qəniydi. Onun da hər gün mənə baş çəkmək imkanı yoxıydı... Sahib bir dəfə xanımına deyibmiş:

— Mən xəstəxanada tək deyiləm. Yemək-içmək məsələsində hamımızı nəzərə alın...

Bu fikri mənə Arif çatdıranda halbahal oldum... Sahibin xanımı insafən məni nəzərə alırdı da. Bu xanım ürəyiaçıq, üzügülər, mehriban və səxavətliydi. O, xəstəxanaya yeməyi böyük mis qazanla gətirərdi. Süfrə açardı. Gətirdiyini dörd qaba çəkərdi. Hər kəsə payını verərdi. Xörəyin ətri otağı bürüyərdi. Qalanını da qazandaca qoyub gedərdi. Palata ən gözəl və dadlı xörəyi olan yeməkxanaya çevrilərdi. Sahib heç vaxt mənsiz yeməyə oturmazdı. Onun qayğısı məni çox utandırardı, sıxardı. Bir dəfə o dedi:

— Ağarəhim, çəkinmə, xəstəxanadan uzaq, zaman gələr, sən də başqalarına kömək elərsən. Qayğı göstərərsən... O, mənim sənə elədiklərimin əvəzi olar...

Qaliblə söhbət zamanı o, mənə dedi:

— Sahib həkiminə çağırıb tapşırıb ki, Ağarəhimə yaxşı bax... Biz pis-yaxşı yaşamışıq ömrümüzü... Onun gələcəyi qabaqdadı. Düşüncəlidi... Tərbiyəlidi... Böyük kiçik qanandı. Görürsən ki, kimsəsi yoxdu. Onunla olacaq sözünü mənə de... Həkim gülümsünüb: — Oldu, — deyib gedibmiş.

Bunu eşidəndə gözlərim doldu. Az qaldı içimdəkilərimin hamısını ona açım. — Mənə yazığınız gəlməsin, — deyim... Gücbəlayla özümü saxladım. Az keçdi, hirsim soyudu. Sonra Sahibə necə təşəkkür eləyəcəyimi bilmədim. Onu da deyim ki, həkim məni dava-dərmandan qəsdən uzaqda saxlamağa çalışırdı. Necə də saxlamayaydı. Az-çox verdiklərini də: — İçmə, çölə at, — deyirdi. Mən də həbləri gözlərdən uzaq hara gəldi tolazlayırdım...

İnstitutda səhər saat $9^{00}$-da birinci imtahan olmalıydı. Özüm də yuxudan erkən qalxmışdım. Paltarlarımı həkimlərdən ala bilmədim. İmtahana da xəstəxana geyimində gedənməzdim. Çəkdiyim əzab-əziyyət itirdi. Paltarsızlığım və imtahanın həyəcanı məni tənkişdirirdi. Narahatlığımı duyan Sahib soruşdu:





— Ağarəhim, nədən həyəcan keçirirsən?

— İmtahana getməliyəm. Xidmətçidən axşam paltarımı ala bilməmişəm. O da indi gecikir.

Bunu eşitcək... Sahib kişi çaş-baş qaldı. Elə bu dəm çarpayıya uzanmış Arif dilləndi:

— Paltar dərdi çəkmə, Ağarəhim. Kostyumum da, köynəyim də balıncımın altındadı. Al geyin, bura xəstəxanadı, utancaqlıq bir iş yoxdu.

Bunu eşitcək sevincdən nə eləyəcəyimi bilmədim.

Arif, kostyumunu, köynəyini götürüb mənə verdi. Geyindim. Sanki paltarlar üstümə ölçülüb-biçilmişdi. Beləcə Arifin paltarlarında imtahana yollandım. “4” qiymətlə geri qayıtdığımı eşidəndə palata dostlarımın sevinci yerə-göyə sığmadı. Sanki palatada bayram təntənəsi başlandı...

Beş gün sonra ikinci imtahandan da “4” qiymət alıb institutun pilləkənlərini enirdim ki, kənardan: — Ağarəhim, Ağarəhim, — deyə çağırıldığımı eşitdim. Dönüb səs gələn tərəfə baxanda böyük, şah budaqlı çinar ağacının altında dayanan Hüseyn müəllimi gördüm. Görüşdük. Qucaqlaşdıq. İki imtahandan səkkiz bal topladığımı eşitcək sevincdən az qala uçacaqdı. O, məni yenidən qucaqladı, harda qaldığımı soruşdu. Bu neçə gündə özüm öz başıma açdığım oyunları danışdıqca, mənə heç cürə inana bilmirdi. Axır ki dözməyib dedi:

— Ağarəhim, neçə gündü evdə səndən nigarandılar. Cicin, anan yerə-göyə sığmırlar. Belə olmaz axı, gəlişini bir adama deyəydin barı.

— Desəydim, məni evdən buraxacaqdılarmı?

— Hərbi komissarlıq, prokurorluq səni axtarır. Lap tutaq ki, instituta girdin, səni də həbs elədilər. Onda bu əzab-əziyyət,

instituta qəbul sənə lazımdımı? Düşünülməmiş hərəkət eləmisən.

Mən arxamı yerə vurmadım. Bir az da özümdən razı halda bildirdim:

— Həkimdən kağız alacam.

— Kimi aldadırsan? Prokuroru? Hərb komissarı? Onlar belə şeyləri çox görüblər. Prokuror puldan ötrü sənidə, fırladıb xəstəxanaya qəbul eləyən həkimi də ilişdirəcək... O fəqiri işə salmısan.

Mənə elə gəlirdi ki, həkimdən xəstəlik arayışı alsam, daha məndən sorğu-sual aparan olmayacaq. Hüseyn müəllim dedi... dedi... dedi... O, danışdıqca alışıb yanırdı, yaxılırdı. Doğrusu, səhvimi yavaş-yavaş daha kəskinliyiylə anlamağa başladım. Özüm o yana, deyəsən, başqalarını da cinayət zəncirinin həlqələrinə çevirmişdim... Əlacsız qalıb özümə bəraət qazandırmaq istədim. Əslində əməllərimdə təkəbbür ruhu duyulurdu.

— Türmə də adamlar üçündü. Görünür, qismətimdə o da varmış.

Hüseyn müəllim əsəbi halda:

— Xeyr, düz demirsən. Təkrar eləyirəm, Ağarəhim, sən bura gəlişini kiminləsə məsləhət eləməliydin.

— Mənim Gəncədə olduğumu bilən varmı?

— Məncə yox... Adamlar elə bilirlər ki, Moskvada yaşayan Sadiqin yanına getmisən. Evdəkilər də elə bilirdilər. Mən cicinlə ananı inandırdım ki, Gəncədə olacaqsan...

— Onlar kiməsə bir söz deməzlər ki?

— Yox... Tapşırmışam. Onların yeganə sözü “bilmirik” olacaq. O gün də Əkrəm (ad şərtidi) ağzına gələni sənin barəndə danışırdı. Mən ağzından vurdum.

— O nə deyirdi ki?

— Əsgərlikdən qaçmısan. Guya kəndin adına ləkə gətirmisən. Vətən deyiləndə birinci kənd-kəsəkdi. Stalin dövrü olsaydı,





kənddən neçə günahsız adamı güllələyərdilər.... Bir sözlə, tulitəsvir.

— Maraqlıdı... Gördüyüm işin məsuliyyətini o məndən çoxmu bilir? Gərək ki, Əkrəmin hardasa bizə uzaq qohumluğu da çatır.

Hüseyn müəllim başını aşağı-yuxarı eləməklə Əkrəmin bizə uzaq qohumluğunu təsdiqlədi. Sonra da astadan dedi:

— Elə qohumun başın dağlayım... Kəndin iş verənidi... Əməlindən hamı xəbərdardı. Atası da eləydi. Rəhmət də aparanmadı.

Mənə elə gəldi ki, Hüseyn müəllim hissə qapılıb, Əkrəm heç vaxt mənim barəmdə pis düşünməz. Ona görə də mən dedim:

— Axı biz Əkrəmə pislik eləməmişik.

— Öyəncəli adam ona baxmır. Üç oğlundan biri düz-əməlli təhsil almayıb. Sadəcə sənə paxıllığı tutur.

— Mən onun uşaqlarından artıq təhsil ala bilmişəmmi? İmkan versin “arxı tullanaq”, sonra bildiyini eləyər.

— Eybi yoxdu, Ağarəhim, sən narahat olma. Borc verən borc alanın sağlığını istəyər. Zaman hər şeyi aydınlaşdırır. Onsuz da hər şey açılacaq. Əgər Əkrəm o qələti eləyibsə, mən ondan da böyüyünü...

— Yox... Baş qoşma. Unut getsin...

Mən qəlbini almaq üçün gülümsəyib Hüseyn müəllimin qoluna girdim:

— Qardaş, kefini pozma. Elə söz-söhbət məni həvəsdən də salanmaz. İmtahanları verəcəm. Qəbul kağızını alıb sonra kəndə gələcəm. Özünü imtahanda sına deyirdin, sınadım da.

Hüseyn müəllim güldü:

— Belə?

— İncimə, mənə verdiyin ideya, beynimə səpdiyin toxum əməllicə-başlıca cücərib. O yan-bu yan eləmə.

Hüseyn müəllim qoluma girib astadan:

— Gedək çay içək, susuzluqdan dilim-ağzım quruyur... Nahar eləyək...

— Yox... Mən xəstəxanaya gedib paltarları sahibinə qaytarmalıyam...

Bunu eşitcək Hüseyn müəllimin sanki gözləri böyüdü. Mən əlavə elədim:

— Sən get çayını iç, naharını elə.

— Yaxşı, onda mən çay içib rayona qayıdım. Ailəni sakitləşdirim. Bir də görək prokurorla necə dil tapırıq. O da xərcsiz sovuşmayacaq. Belimizə ağır yük qoyacaq. Gərək vaxtında hərbi komissarla danışıb sənə əsgəri xidmətdən möhlət götürəydik.

— Daha hər şey gecdi.

Hüseyn müəllimlə beləcə xudahafizləşdik. Mən xəstəxanaya qayıtdım. Dərd-sər məni götürdü. Ürəyimi kimsəyə açanmırdım. Bu andaca bir xalq deyimini xatırladım: "Nə yada sirr ver, nə namərdə bel bağla. Hər ikisi yandırar səni". Bəli, dərdin biri qurtarmamış, o birinə düçar olurdum. Əkrəmin xəyanəti də bir yandan. Özü də necə? Prokuror... Qanun... Haqlı-haqsız hədəzorba... Evini sat, canını qurtar. Ev də nə ev? Bizim evi alan olarmı? Lap tutalım aldılar... Bəs ailə? Bəs uşaqlar? Onları hara tökək? Küçəyəmi ataq? Niyə? Nə var, nə var, mən təhsil alacam. Andıra qalsın belə təhsili... Yox... Yox... Səhvimi özüm düzəltməliyəm. Kaş bu səhvi eləməyəydim. Əkrəmin hərəkətlərini düşünüb mərhum atamın hərdən bir dediyi böyük mütəfəkkir Arif Ərdəbilinin Tanrısal fikri yaddaşımda oyandı. "İlanın zahiri naxışına yox, dişinin dibindəki zəhərə nəzər sal. Sonra əmələ keç". Bəli, nə alçaqlıqdı xəyanət, — deyə düşündüm. Bunu Əkrəm özünə necə sığışdırır? O namərd özünün, övladlarının gələcəyini düşünmürmü?.. Eh, — deyə fikrə daldım. Bəlkə Hüseyn müəllim səhvə yol verir... Bəlkə onun babalını yuyuruq. Atam necə deyərdi: "Ağılın azlığından zindana, kor-kəsməzlikdən, əsəbdən viranəliyə yollar açılar". Beləcə düşünə-düşünə





başımı balınca atdım. Ancaq yata bilmədim. İçimdə hər şeyi qatıb-qarışdırdım. Yemək-içməyə də həvəsim sönmüşdü. Uzandığım çarpayı mənə dar gəlirdi. Gözlərimi yumsam da, mərhum atam, ömrünü mənə ərmağan eləyən cicim, daim qorxu, səksəkə içində yaşayan və canım qədər istədiyim anam, ağılları hələ çox şeyi kəsməyən, dünyadan xəbərsiz bacı-qardaşlarım gəlib durdu gözlərimin önündə. Bayaqdan məni müşahidə eləyən palata həmkarlarım sir-sifətimdəki əsəbiliyi duyduqlarından sən demə, məndən imtahanın nəticəsini soruşmaq belə istəməyiblər. — Ağır dərd yüngülü üstələyir, — deyirlər. Mən də özümü itirdiyimdən onlara imtahandan "4" aldığımı deməyi unutmuşam... Sahib soruşdu:

— Nə olub, niyə bikefsən? Ayağını tapdalayıblar? Yoxsa, imtahandan...

— Yox... Bu gün də "4" aldım.

— Ay evi tikilmişin oğlu, bayaqdan qorxumuzdan səsimizi çıxaranmırıq... Bunu bayaqdan de də.

Arif çarpayısında çevrilərək bildirdi:

— Yox... Sahib, Ağarəhimin imtahandan kəsilməyə haqqı yoxıydı.

Qabil gülümsündü:

— Niyə?

— Çünki mənim paltarımı geymişdi.

Hamı gülüşdü.

Sahib:

— Bayaqdan üz-gözündən əsəb tökülür.

Mən dərhal:

— Başım ağrayır... Gözlərimi açanmıram.

— İmtahan elədi də. Yüngül olsaydı, hamı Molla Pənah olardı. Qorxu-hürküyə ehtiyac qalmazdı. Yerindən qalxan, əlinə dəftər-kitab alan, qələm tutan hər kəs aliməm, — deyərdi... Nə isə, boş-boş sözlərlə çox baş ağrıtmayaq. Yaş fərqimizə baxma,

Ağarəhim, ürəyim cavandı. Mən sənin həm dayın, həm də dostunam... İnstituta girsən, mən xəstəxanadan salamat çıxsam, söz verirəm, səni Xoşbulağa dəvət eləyəcəm. Burda çəkdiyimiz əzab-əziyyətlərin heyfini orda əməlli-başlıca çıxarıq.

— Sağlıq olsun...

Ürəyim bərk sıxılırdı. Çarpayıdan qalxıb xəstəxananın həyətinə getdim. Həyətdə yaşıl, uca ağacların kölgəsində skamyalar qoyulmuşdu. Mən onlardan birində əyləşib öz içimə qapanmışdım. Kəndə qayıdandan sonra necə hərəkət eləyəcəyim barədə düşünürdüm. Birdən arxadan kimsə əlini çiynimə qoyub sıxdı. Başımı qaldıranda arxamda dayanıb gülümsəyən Qənini gördüm. Oturub xeyli söhbət elədik. O, gedəndə mənə dedi:

— Ağarəhim, məni də, həkimi də yamanca dolaşdırmısan... Axşam kəndçi Sabir bizə gəlmişdi. Mən sənin Gəncədə olduğunu deyəndə o mənə qurd-quran açdı. Rayonda axtarıldığını bildirdi. Böyük səhvə yol vermisən. Düzünü desəydin, fikirləşib sənə başqa cür yardım eləyə bilərdik.

Doğrusu, yalanım açıldığından mən utandım. Ona deməyə söz tapanmadım. Özümə heç nədən haqq qazandırmağa çalışdım:

— Ən böyük günahı özüm üçün eləmişəm. Cəzanı da özüm çəkəcəm. Siz narahat olmayın... Səncə Sabir burda olduğumu kiməsə deməz ki?

— Yox... Tapşırmışam... Demişəm ona: — "Məni görməmisən, heç nə də heç kimdən eşitməmisən..." Hüquq işçilərinin xasiyyətini Allah kəssin. Bilsələr burdasan, bircə saata əlli dərənin suyunu qarışdıracaqlar. Qaşınmayan yerdən qan çıxaracaqlar. Nə var, nə var, kimdənsə, nə qədərsə qoparsınlar.

Mən dərhal:

— Eh... Kimdən qoparmaq istəyəcəklər? Məndən? Mənim də ki iki qəpiyim yoxdu. Uzaq başı məni atacaqlar içəri.

Qəni başını yellədi:





— Onları tanımırsan. Qazıb torpaqdan soxulcan tapan kimi, axtarıb əlaqələrimizi üzə çıxaracaqlar. Məni Mikayıla qarşı qoyacaqlar. Mikayıl da elə biləcək əvvəlcədən hər şeydən xəbərim olub, ona yalan demişəm.

— Yox... Narahat olmayın. Mən xəstəxanaya mehmanxanadan gəlmişəm. Nə səni görmüşəm, nə də Mikayılı. İşi böyütmək kimə fayda verəcək? Özüm də gələn həftə geri qayıdıram...

Qəni gülümsündü, sonra dedi:

— Hər kəs əməlinin cəzasını çəkəcək.

Bu sözdən sonra o, gətirdiyi meyvə dolu kağız torbanı mənə verib getdi... Qalan hər iki imtahandan da "4" qiymət aldım. Ağlıma da gəlməzdi ki, mənə arayış verəndən cəmi-cümlətani yarım saat sonra Mikayıl həkim ürək tutmasından masa arxasındaca dünyasını dəyişəcəkdi. Bu hadisə mənə çox təsir elədi. Sanki varlığım sarsıldı. Allah ona qəni-qəni rəhmət eləsin. Elə həmin günün axşamı mən xəstəxanayla, xudahafizləşdim.

*   *
*

Ailə sanki yasa batmışdı. Ailə üzvləri ilə bircə-bircə qucaqlaşıb görüşdüm. Anam məni görcək ağladı. Bütün bədəni tir-tir əsirdi... Cicim ona bir qədər sərt halda dedi:

— Gözünün qorasını tökmə. Uşaqları da dəli eləmə. İmkan ver, görək necə gəlib?

Mən vəziyyəti olduğu kimi açıqladım.

Nə düşündüsə, handan-hana cicimin çöhrəsində bir ötəri işıq duyuldu. O, gülümsündü. Bir anlığa mənə elə gəldi ki, neçə gündə bu qadının dolan ürəyi birdən-birə boşaldı. O, yüngülləşdi. Canındakı bütün ağrı-acılar, qəlbindəki bütün qübar, nigarançılıq əriyib yox oldu. O, sakit tərzdə və təbəssümlə dedi:

— Boyundan çox yüksək tullanmısan, oğlum. Həyat heç də

sən düşünənlərdən ibarət deyil. Yaşadığımız həyatın sevincli, fərəhli anları olduğu kimi, narahatlıq doğuran, əzab-iztirablı, sarsıdıcı çağları da olur. Sən o yola heç kəsə gəyişmədən, məsləhət eləmədən addım atanda görəcəyin işlərin hansı fəlakətlər törədə biləcəyini əvvəlcədən düşünməliydin. Özbaşınalığın üçün sənə: — Sağ ol, — deyənmərəm... Təki axırı yaxşı olsun.

Mən cicimin nə dediklərini çox yaxşı anladığımdan ona heç bir söz deyənmədim. Anam özünü saxlayanmadı:

— Neçə vaxtdı səndən xəbər yox, ailə isə ölüb-dirilir. Bu hərəkəti oba-qara görməyən uşaq da eləməzdi. Bilirsən?.. Həbs eləyəcəklər səni... Xərc çəkmək imkanımız da yoxdu. Başımıza oyun açdın...

Cicim anama əsəbləşdi:

— Nə fikirləşirsən? İndi vurub öldürəkmi onu? Neçə gün əvvəl, necə olur-olsun, ondan xəbər gözləyirdin... İnsan belədi də. İstəyinə nail olanda, ayağını pilləkənin yuxarı pilləsinə atır. İş adam başına gələr.

Cicim üzünü mənə tutdu:

— Oldu, keçdi.

Anam:

— Gözümüz aydın, daha dırnağı ovcuna batır.

Mən onların sözlərini çevirmədim. Sadəcə başımı aşağı salıb susdum. Kamil kövrəlib dodaqları səyriyə-səyriyə mənə yaxınlaşdı.

— Dədə, səni tutub hara aparacaqlar?

Sanki içim qırıldı:

— Yoox, heç hara, onu kim deyir?

— Hamı.

Mən qardaşımı qucaqlayıb üzündən öpdüm və onun fikrini yayındırmağa, qəlbini ovundurmağa çalışdım...

Həmişə baməzə danışan sadəlövh bibim indi də sözünü deməkdən qalmadı. Anama:





— Nə düşmüsən uşağın üstünə. Əcəb eləyib. Ağlamayan uşağa əmcək yoxdu... Rəhmətlik babası Məmmədrəhimə çəkib. O da beləydi, getdiyi yeri, görəcəyi işi heç kəsə deməzdi...

## LƏYAQƏT İTƏNDƏ...

**Qanun hökm sürməyən bir ölkədə**
**ədalət ola bilməz.**
***Strauz Hüppe***

**Məmləkət ədl ilə ömür payidar,**
**Hər əməl əql ilə olur bərqərar.**
***M.Hadi***

Mənim qələmə aldıqlarım nə nağıl, nə röya, nə də möcüzələr yaradan bir şəxsin uydurmalarıdı. Deyəcəklərimi xülya adlandıranlar da ola bilər. Nə yazıq ki, yazdıqlarım neçə illər qəlbimin hansı guşəsindəcə özünə məskən salan həqiqətlərdi... Mən vəziyyəti, başıma gələnləri olduğu kimi, cicimə danışanda hər addımını ehtiyatla atan, yaranmış vəziyyətdən çıxış yolu axtarmağa öyrəncəli olan bu mələk xilqətli qadın dərindən nəfəs alıb haldan-hala düşdü...

“Prokuror”, “məhkəmə” sözlərinin o zamanlar mahiyyətinə vara bilməsəm də, həmişə onlardan zəhləm gedərdi. Lap uşaqlıqdan — atamın mühakimə olunduğu çağlardan o sözlərdən çəkinərdim. Onlar mənə bir növ nəhəng timsahın zəhmli çənəsini andırardı. Elə bilərdim ki, haqq-nahaq onların əlinə keçmək yaşadığım həyatın altını-üstünə çevirməkdi. Çox güman ki, bu qorxunc, vahimə doğuran hisslər, yanlış təsəvvürlər günahsız atamın həbsə düşdüyü anlardan mənə təlqin olunmuşdu. Həyatı dərindən dərk eləyə bilməsəm də, insanları hələ yaxşı tanımasam da, yaşadığım dünyanın mənə vəd elədiyi — yaxşı-yaman

fərqi yoxdu, — hər şeyin mahiyyətində bir təbiilik, məntiq axtarırdım. Tapa bilirdim, bilmirdim deyənmərəm. Onu tam anlayırdım ki, yaşadığım dünyanın anlaşılmazlıqları, insanı axarından çıxaran dolanbacları çoxdu. Hansını deyəsən?! Baş verənlərin hansına haqq qazandırasan? Nələrə ədalət donu biçəsən, heç özün də bilmirsən. Çaşıb qalırsan... Bəlkə bu da həyatın bir dolaşıq qanunudur? Deyənmərəm. İzahı mümkün olmayan şeylər barədə düşünmək istəmirəm. Təkcə onu bilirəm ki, mən fanatik deyiləm. Mif, ağla batmayan şeylərə də inanmıram. Ancaq qəribə də görünsə, insanların min sifətinin olmasına inanmaq istəyirəm. Ona da necə gəldi yox. Pisdi-yaxşıdı onu da deyənmərəm. Reallığı gördükdə. Danılmaz faktlara əsaslandıqda. Filosofluq eləmirəm... Təkəbbürdən uzaq... Reallıqdan doğan, həqiqəti olduğu kimi mənə açan əşyayi-dəlillərin mahiyyətinə uyğun olaraq xarakterimi formalaşdırmağa çalışıram. Həqiqət danılmazdı. O, yalandan, riyakarlıqdan... hər cür hoqqabazlıqdan uzaq, yalnız Yaradanın ağlagəlməz qüdrətidi. Aləmi nurlandıran ziyasıdı. Zaman keçdikcə bütün gizlinlər üzərinə haqqın işığı düşür, əlahəzrət sirlər açılır. Yaxşı-yaman söz də, əməl də, onların yaratdığı fitnə-fəsadlı səbəblərə də, onların nəticələrinə də aydınlıq gəlir... Həyata ilk qədəmlərini atan, ancaq insanların dəymə-düşərliyi ilə hələ düz-əməlli təmasda ola bilməyən bir yeniyetmə. Həyatın təzadlarını qədərincə anlamayan, mahiyyətinə lazımınca varanmayan bir gənc. Dostla düşməninin fərqinə varmadan belə bir şəxsin hamıdan mərhəmət umması düşündürücü deyilmi?! O, insanın təmizliyindən, ilahi xilqətindən xəbər vermirmi?! Beləsi həyatına atılan daşların səbəblərinin mənbəyini, istiqamətlərini ağlına gətirə, anlaya bilərmi? Qəlbi həssas oxucum, yəqin səndə belə qənaət oyandı ki, Ağarəhimin kimdənsə, nədənsə giley-güzarı var? Olmasaydı, sətirlərə bu qədər ağır notlar da gətirməzdi...

Etiraf eləyim ki, təhsil almağa olan hədsiz həvəsimlə xoşbəxt gələcək vəd eləyən arzularımın həmahəngliyi əsgəri xidmətlə bağlı özüm də bilmədən, məni öz mehvərimdən qoparıb ağlagəlməz, sonu nəylə qurtaracağı bilinməyən bir yola saldı. Daha obrazlı desək, dərd-sərin, vahimə doğuran hisslərin ağuşuna atdı... — Qapımıza milis, hərbçilər gəlməsin, — deyə Gəncədən qayıtdığımın səhəri günü rayon prokurorluğuna getdim. Prokurorluq yamyaşıl əbrişim, nar ağaclarına, gül-çiçəyə qərq olmuş bir mərtəbəli binada yerləşirdi. Dar dəhlizin axırında prokurorun kabinetiydi. Qapı və onunla üzbəüz pəncərə açıq olduğundan yel adamı çəkirdi. Mən sakit addımlarla qapıya yaxınlaşdım. Qapının yan divarına "prokuror filankəsov" (qəsdən adını yazmıram) və "qəbul günləri" yazılmışdı. Qapını döyüb içəri keçəndə stulda yayxanmış, ucaboy, qarayanız, lopabığ kişi gördüm. O, əyninə zolaq-zolaq, boz kostyum geymişdi, ona uyğun da qalstuk vurmuşdu. O, məni ayaqdan başa süzdü, sonra soruşdu:

— Kimsən, a bala? Burda nə gəzirsən?

— Boyatdan gəlmişəm. Adım Ağarəhimdi.

Bunu eşitcək o, üstümə qışqırdı. Onun qalın, gurultulu və ötkəm səsi otağı bürüdü:

— Ayə, nə iş tutduğunu bilirsən? Hara qaçmısan?

Yalan danışmaqdan hələ də yaxa qurtaranmamışdım. Etiraf eləyim ki, qoxudan bütün bədənim əsirdi. Nə danışacağımı bilmirdim. Binadan kənarda prokurora necə cavab verəcəyim barədə fikirləşdiklərimi də bir anda unutdum.

Astadan, titrək səslə dedim:

— Sənədlərimi geri almaq üçün Gəncəyə getmişdim. Getdim, ancaq...

— Nə ancaq?

— Orda xəstələndim, məni təcili tibbi yardım maşınıyla xəstəxanaya apardılar.

Prokuror üzümə diqqətlə baxdı. Zəhmi və iti gözləri məni

tutdu. Mən başımı aşağı salıb əllərimi ovuşdürmağa başladım. O, səsinin əvvəlki tonuyla bildirdi.

— Ayə, bilirsən, kimlə danışdığını?

Mən cavab vermədən başımı aşağı-yuxarı yelləməklə "bəli" işarəsini verdim. O, əlavə elədi:

— Vətənə borcdan boyun qaçırmısan. Bizim ləyaqətli gənclər sənin üçün nümunə olmalıydı. Gənclər əsgəri xidmətdən qaçsalar, bəs vətənin keşiyində kim dayanar? Eşitmisən, Böyük Vətən müharibəsində canlarını qurban verən şəhidlərimiz, qəhrəmanlarımız barədə? Onların şücaətləri olmasaydı, sizin kişilərin taleləri necə olardı?

Mən susdum. Sualları cavabsız qoydum. O, sözünün ardını dedi:

— Sən böyük cinayət törətmisən... Səni həbs eləyərəm, gedib damda yatarsan, sonra gəlib əsgəri xidmətini çəkərsən. Ağlın başına gələr. Onda qanarsan, əsgəri xidmətdən boyun qaçırmağın cəzası nədi?

— Mən xəstə olmuşam. Xəstəxanada yatmışam. Xəstəlik kağızım da var.

— Xəstəxanada yata-yata instituta da qəbul olmusan. Eləmi?

— Bəli.

— Necədi, oğlan, imtahanları müəllimlər gəlib xəstəxanada səndən götürdülər, ya sən gedib institutda verdin?

Bu sualdan sonra prokuror cavabımı gözləmədən məni də, həkimi də, xəstəxanaya qəbuluma vasitəçilik edən adamı da ağır təhqir elədi. Söydü. Mən özümü saxlayanmayıb ağladım. (İndi də yadıma düşəndə sıxılıram). Handan-hana özümə gəlib prokurorun gözlərinin içinə baxdım. Əsəbiləşsə də, ağır söyüş söysə də, onun gözlərinin içində bir aydınlıq, hardasa özümə qarşı bir rəğbət, səsində mülayimlik hiss elədim. Fərqinə varmadan, təssüf hissiylə dedim:

— Həkim ürək tutmasından öldü.





— Yalan danışma. Mən onu elə bu gün gətizdirəcəm bura.

— Mən düz danışıram. Mənə kömək eləyin, pulunuzu gətirərəm.

Prokuror əvvəl çaşdı. Nə deyəcəyini bilmədi. Məni ayaqdan başa süzüb ucadan qəhqəhə çəkdi. Sonra başını yellədi, handan-hana dedi:

— Pis öyrənmisən, oğlan? Utanmırsan? Növbəti cinayətə əl atırsan? Mənə rüşvət təklif eləyirsən? Gələcəyini beləmi quracaqsan? Milis çağıraram, indi gəlib apararlar səni.

Bu sözləri eşitcək çiyinlərimi çəkdim. Prokuror yenə ayaqdan-başa məni süzdü və soruşdu:

— İnanmırsan?.. Nə qədər pulun var?

Yenə çiyinlərimi çəkdim. Özü əlavə elədi:

— Min manat. Gətirə bilərsən?.. Yoxsa...

O zamanlar min manat böyük məbləğiydi. Sovet dönəmində aylıq məvacib altmış-səksən manat civarında olduğu bir halda, çörəyini daşdan çıxaran kasıb min manat toplamaq üçün bəlkə də ömrü boyu çalışmalıydı. Buna baxmayaraq, mən sözü çevirmədim. O, əlavə elədi:

— Sabah gözləyəcəm.

Başımla "oldu" işarəsini verib kabinetdən çıxdım. Hara gedəcəyimi, kimdən min manat ala biləcəyimi təsəvvürümə gətirənmədim. Düşündüm, əcəb işə düşdüm. Bir zibildən qurtarmamış dilimlə özümü başqa bəlaya saldım. İndi mən hara gedim? Dərdimi kimə deyim? Kimdə o qədər pul olar? Lap olsa da, mənə o pulu etibar eləyən olarmı? Çox çətin. İstədim geri qayıdım, o qədər pulu tapa bilməyəcəyimi prokurora deyim. Açığı ona cəsarətim çatmadı. Əlacsız qalıb Göyçayda yaşayan qohumum Rzagilə üz tutdum.

Günortaydı. İsti adamı qarsırdı. O, məni görcək danışmağıma aman vermədi məzəmmətləməyə başladı:

— Cicinin, ananın başına az qənbərqulu aç. Onların zəhmətin

yerə vurursan. Ağarəhim, abrın, həyan olsun, nankorluqdan xeyir tapmazsan. Unutma ki, səndən kiçik bacı-qardaşların var. Onlar da sənin kimi hərəkət eləsələr...

— Axı mən neyləmişəm? Hamı məni...

— Neyləməliydin? Hələ günahını bilmirsən? Dilin də var danışmağa?

— Heç nə... Mən günahsızam... Adam kasıb, imkansız olanda...

Mən prokurorla aramızdakı söhbəti artırıb-əskiltmədən danışanda Rza yenidən əsəbləşdi: Üzünü xanımına tutaraq:

— Ayə, bunun danışdıqlarına fikir ver ey. Sonra mənə tərəf döndü:

— Görürəm, sən düzəlməyəcəksən. Yalanların hamını cana gətirib. Ailənin yeyib-içdiyini zəhər eləmisən. Ayə, kimə oxşamısan?

Mən dərhal:

— Bibim deyir babama.

Rza da, xanımı da gülməkdən uğundular. Rza handan-hana özünə gəlib dedi:

— Belə oxumaq olar?.. İndi də prokurora girişirsən. Bu boyda (Göyçayı nəzərdə tuturdu) rayonda adından danışmağa adam tapmadın? Prokuror dediklərini eşitsə, səni bir bəhanəylə atacaq içəri... Oğlum, ipini yığmadıqca... Mən uşağam?.. Sənin başının tükü qədər... Neçə ildi, bu rayonda, bu boyda vəzifədəyəm, hələ prokurora yaxın düşənməmişəm. Sənsə prokurorla sövdələşmədən dəm vurursan...

Üzünü yenə xanımına tutaraq:

— Mən belə uşaq görməmişəm.

Sonra üzünü mənə çevirdi:

— Sənə pul lazımdı, gəl, düzünü de, verim.

Mən ciddi halda:

— Deyirəm, inanmırsan, gedək, gözlərinlə gör, qulaqlarınla





eşit. Mən sizinlə necə danışım? Ağzımı açmamış adımı yalançı, kələkbaz qoyursuz. Yoxdu, vermə. Səndən zorla pul alan var?

Rza eyni ciddiyyətlə üzümə baxdı. Başını yellədi. Üzündə ötərgi xoşhallıq yarandı. Deyəsən, dediklərimi o, özlüyündə yoxlamaq qərarına gəldi. Xanımına dedi:

— Min manat gətir.

Xanımı pulu Rzaya verəndə: — Tək buraxma, özün də get, — dedi. Rzayla onun avtomobilinə əyləşib Ucara gəldik. Rza yolda pulu mənə verdi. Sonra da prokurorluğun binasına gəldik. Prokurordan ayrıldığım təqribən iki saat olardı. Rza dəhlizin girəcəyində gözlədi. Mənsə prokurorun kabinetinə girdim. Prokuror məni görcək: — Hələ getməmisən? — deyə soruşdu. Gətirdiklərimi ona tərəf uzatdım. Kişinin sanki gözləri böyüdü. Nə fikirləşdisə, gülümsünüb, əlimdəki pulu barmağıyla iki hissəyə ayırdı:

— Yarı mənim, yarı sənin. Get, qalan o pula beş çolpa (toyuq) al, apar ver hərbi komissara. Özün də dilini dinc saxla. Kəndinizdə sizi istəməyənlər var. Hər gün zəng çalırlar bura.

Mən fikirləşmədən: — Kim? — deyə ondan soruşdum.

— Kəndçin Əkrəm. Özünü elə alçaqlardan qoru. Səni heç kim həbs eləyənməz, qorxma. Ailənizin vəziyyətindən də xəbərdaram.

Öz-özümə düşündüm. Bəli, Hüseyn müəllimin şübhələri əbəs yerə deyilmiş... Mən prokurorun kabinetindən çıxanda Rza mat-məəttəl qalıb, özünü itirmiş halda üzümə baxdı:

— Nə oldu?

Pulun qalanını göstərərək:

— O pula get, beş çolpa al, apar ver hərbi komissara, — dedi.

— Toyuğu hardan alaq?

— Bazardan.

Biz Rzayla maşına əyləşib bazara getdik. Yerli toyuqlardan beşini alıb, ayaqlarını bir-birinə bağladıq və maşının baqajına

qoyduq. Sonra hərbi komissarlığa gəldik. Həyət-bacada adam əlindən tərpənmək olmurdu. Mən baqajdan toyuqları götürəndə onların qaqqıltısı aləmi götürdü. Hamı mənə tərəf baxırdı. Yanından ötəndə bir yaşlı qadın gülümsünərək dedi:

— Oğlum, bunları da əsgəri xidmətə yola salacaqsan?

Mən sözün əvvəl fərqinə varmadan cavab verdim.

— Yox... Komissara gətirmişəm.

— Rüşvətdi?

— Toyuqdan da rüşvət olar?

Kinayəylə:

— Olar, oğlum, olar. Niyə də olmasın?

Qadının iki mənalı sözünü indi anladım. Daha bir söz deməyib dəhlizə girdim. Komissarın kabineti dəhlizin baş tərəfindəydi. Qapını açıb içəri keçdim. Komissarın əlli yaşı olardı. O, əlimdə səs-küyü aləmi başına götürən toyuqları görcək dik atıldı.

— Bu nədi, əə?

— Çolpa...

— Bura bazardı?

— Yox!..

— Onda bu toyuqlar nədi?

— Prokuror göndərib.

Komissar acıqlı-acıqlı üzümə baxdı və dərhal da prokurora telefon açdı.

— Prokuror, bu kimdi göndərmisən yanıma?.. Toyuqların qaqqıltısı aləmi başına götürüb. Toyuq səslərini eşidirsənmi?

Xəttin o biri başından zəif gülüş səsləri eşidildi.

— Ayə, ona zarafat eləmişəm... Məni başa düşməyib. İndiki cavanlar...

— Belə zarafat olar? Mən biabır oldum. Zurnanın səsi respublikanın hər tərəfindən gələcək. Qəzetlər məndən yazacaq. Mən onu nəylə yuvacam?





— Narahat olma. Kasıb ailədəndi. Onsuz da yaşı çatmırdı. Mərdimazara ilişib, siz də ağına-bozuna baxmadan onu zibilə salmısız. Oğlana elə-belə baxma. Onu dəyirmana ölü atsan, diri çıxar...

Komissar gülə-gülə dəstəyi yerinə qoyub sonra kor-peşiman üzümə baxdı.

— Günümə bax, — dedi və yenidən dəstəyi götürüb kiməsə zəng çaldı. Cavan hərbçi içəri keçib əlini qulağının dibinə apardı. Kimsə — Eşidirəm, polkovnik, — deyə bildirdi. Polkovnik: — Bazardan aldırmışam, çolpaları al, bizə çatdır, — hökmünü verdi. Hərbçi gəldi: — Baş üstə, — deyib çolpaları məndən alıb qapıdan çıxdı. Komissar əlavə elədi: — Günah səndə deyil, oğlan. Prokuror məni biabır elədi. Sənə yaxşı yol...

Eh... Pul!.. Pul!.. Sən nə qədər cazibədarsan. Hərislərini başdan çıxarıb dəli-divanə eləyənsən... Görən gözləri yumansan! İdrakları söndürənsən! Ağa qara, qaraya ağ dedirənsən! Kasıbları, günahsızları belə qan nəhrində çabaladansan!.. Bu fərasət, bu əcaib güc səndə hardandı? Sən vicdan, ləyaqət, şərəf, qeyrət, namus, həqiqət, ədalət, mərhəmət... deyilən bir şey tanıyırsanmı! Onlarla az da olsa, əlaqən varmı? Varsa, necə! Bayaq “vətəndən”, “borcdan” dəm vuran prokuror beş yüz manat qapandan sonra o anlamlar altında yatan duyğuları, hissləri çirkin ayaqları altına necə atdı? Əsgəri xidmət, vətən borcunu necə unutdu? Hərbi komissar beş toyuğu alıb “hubbadan” ötürəcəkdisə, özünü niyə belə gücə salmalıydı? Əgər əsgəri xidmətə yaşım çatmırdısa, belə bir oyunu başıma açmağa, bir aydan artıq müddətdə kasıb, imkansız bir ailəni dərd-bəlaya düçar eləməyə, cicimə, anama, bacı-qardaşlarıma göz yaşları axıtdırmağa lüzum vardımı? Eh... Pul!... Pul!... Sənin sifətində qənirsiz şeytan cizgisi var, mahiyyətində təsəvvür olunmaz iblis fitvası yatır. Eh, həddi çərçivəsindən çıxan bəşər hissiyyatı, insan nəfsi, sən mələk qiyafəsi geyinəndə, yaxud şeytan libasına bürünəndə nə qə-

dər eybəcərləşirsən? Amansız olursan?! Ali hisslərlə doğulan insanı necə də vəhşiləşdirirsən?! Ey “zənciri qırılmış dünya”, pulun hökmü səndə nə vaxtacan davam edəcək? Aç sirrini, tök bətnindəki üfunətlərini. Ömrü boyu ədalətdən, həqiqətdən dəm vuran dünyanın əcaib-qəraib məxluqları, siz kimlərəsə göz yaşları axıtdırıb onlardan qamarladığınız qəpik-quruşlarla övladlarınızı səadətə, xoşbəxtliyə qovuşdura bilərsizmi?! — Kəfəninizi boynunuza keçirib qəbr evinə sallanmağınızı bircə an gözləriniz önünə gətirin. Onda bilərsiz kimlərəsə göz yaşları tökdürərək yığdıqlarınızın harda qalacaqlarını. Kimlərə qismət olacaqlarını... Bəli, mən bu sözləri deməklə yeni dünya kəşf eləmirəm. Bu barədə məndən də yaxşı dünən deyiblər, sabah da deyəcəklər... Sadəcə ürəyimi boşaldıram.

Beləcə mən hərbi komissarlıqla xudahafizləşdim. Vəziyyəti olduğu kimi Rzaya danışanda o, başını yelləyərək astadan: — Alçaqlar, — dedi. Biz birbaşa kəndə gəldik. Pulun qalanını qaytararkən Rza bildirdi:

— Məni bağışla. Səni xeyli incitdim. Məzəmmət elədim. Hər şeyi unut getsin. Pul səndə qalsın. Onu sənə bağışlayıram...

Rza getdi. Bu, mənim təkcə instituta qəbul imtahanım yox, həm də ilk həyat sınağım oldu.





## TƏLƏBƏLİK İLLƏRİ

**Sızlar yada düşəndə,**
**Ürəyimin telləri.**
**O mehriban, o əziz,**
**Tələbəlik illəri...**
*C.Novruz*

Yaşamaq hər kəsə bir cürə nəsib olub. Mənim də taleyimə acılı-şirinli anlar yazılıb. Bu anları göz önünə gətirəndə düşünürəm, görəsən, mənim həyatıma bənzər bir həyat varmı? Çəkdiyim ağrı-acıları görən, duyan, bilən, qiymətləndirən olacaqmı? Daddığım şirinliklərin dərəcəsindən xəbər tutacaqlarmı?

Taleyim... Acın da, şirinin də mənim üçün bilsən nə qədər əzizdir, qiymətlidir?! Onların hansının çox, hansının az olmasının kimsəyə bir təfavütü yoxdur. Bu ömrü mən yaşamışam. Onların hər biri mənim içimdən, varlığımdan keçib... Acılarımmı, şirinlərimmi qiymətlidi, şərəflidi, deyənmərəm... Ancaq onu dərk edirəm ki, onların hər biri acılı-şirinli ömür dünyamın bir parçasıdı.

Ağlım söz kəsəndən atam da, cicim də, anam da nə yaxşı ki, məni əməyə öyrətmişlər. Hər gün məktəbdən evə gələr, bir tikə çörək yeyər, kitab dəftərlərimi götürüb, qoyun-quzunu örüşə aparardım. Otlayıb kövşək çalanda onları Göyçay çayında sulamağa gətirərdim. Qoyun-quzu yatağa çəkiləndə salxımlı söyüdlərin zərif, sərin kölgəsində oturardım. Bəzən sakitcə lal sulara, bəzən də haylı-haraylı coşğun selə tamaşa edərdim. Gah sahildəki çinarların pıçıltısına, gah da suların zümzüməsinə saatlarla qulaq asmaqdan doymazdım. Bəzən də səssiz-səmirsiz bir tərəfə çəkilər, sabahkı dərslərimi hazırlar, böyük Nizamini, Füzulini, Mirzə Cəlili, Sabiri... oxuyardım. Şekspirlə, Balzakla,

Hüqo... ilə tanış olardım.

Heç yadımdan çıxmaz. Doqquzuncu sinifdə oxuyarkən ədəbiyyat dərsində Pərzad müəllimə bizimlə anket sorğusu apardı. Suallar çoxıydı. Ancaq üçü məni daha çox cəlb etdi. Onlara hərə bir cürə cavab yazdı. Növbəti ədəbiyyat dərsində Pərzad müəllimə sorğu haqqında fikirlərini söylədi. Hamının cavablarını qiymətləndirdi, təkcə məndən savayı. Doğrusu, çox həyəcan keçirirdim. Qorxudan ürəyimin guppultusunu eşidirdim. Sakit oturmağa qərar tutmurdum. Elə güman edirdim ki, cavablarım Pərzad müəlliməni razı salmamışdı. Sən demə, yanılırammış... Yoldaşlarımın: — "Ağarəhimin cavabları necədi?" — sualına o, belə cavab verdi:

— Uşaqlar, mən Ağarəhimin cavablarına münasibətimi qəsdən axıra saxladım. Cavabları məni çox sevindirdi. O, sinfimizin filosofudu...

Pərzad müəllimənin gözlərindəki sevinc, üzündəki təbəssüm məni cəsarətləndirdi. Təşəkkürümü bildirəndə o, fikrini davam etdirərək dedi:

— Uşaqlar, o, "Böyüyəndə kim olacaqsan?" sualına "Müəllim", "Ən çox sevdiyiniz nədir?" sualına "Uşaqların qəhqəhələri", "Ən çox qorxduğunuz nədir?" sualına "Anaların göz yaşları" cavablarını yazmışdı. Təkcə bu üç suala verdiyi cavaba görə mən onu əla qiymətləndirirəm.

O gün sevincimin həddi-hüdudu yoxıydı. Ürəyimdə Pərzad müəlliməyə dönə-dönə təşəkkür edirdim. Mənə ana nəvazişi göstərən Pərzad müəlliməyə tezliklə isinişməyə başladım. Onu bir gün görməyəndə darıxırdım. Gözlərim bu nurlu insanı axtarırdı. Sonralar Gəncə Dövlət Pedaqoji İnstitutunda oxuduğum illərdə bu mehriban qadınla tez-tez məktublaşardım. Tətillərdə gəlib onunla görüşər, hal-əhval tutardım. Bir dəfə də özü instituta gəlmişdi. Oxumağımla, vəziyyətimlə maraqlanırdı. Cibimə pul da qoymaq istəyirdi!.. Mən universitetdə işləyəndə yanıma





gəldi. Boynumu qucaqlayıb o mənim üzümdən, mən də onun əlindən öpdüm. Saçları düm ağıydı. Nurani sifətindən sevinc, məğrurluq, qürur hissi yağırdı. Xeyli söhbət elədik. Evimizə dəvət edəndə — Qalsın gələn dəfəyə — dedi Pərzad müəllimə.

Qrup yoldaşlarım şən və mehribaniydi. Biz çox vaxt dərslərimizi birlikdə hazırlayar, qızğın mübahisələr aparardıq. Onların əksəriyyəti imkanlı ailələrdən olduqlarından tez-tez kinoya, teatra gedərdilər. Qrupumuzun oğlanları, qızları növbə ilə ad günləri keçirərdilər. İmkansızlıq üzündən belə tədbirlərdən nə qədər qaçmağa çalışsam da, daxilən qırılırdım, sınırdım... Təqaüd gündəlik yeməyə, yol xərcinə ancaq çatdığından, özüm üçün nəinki ayaqqabı, pal-paltar, hətta, bir corab da ala bilmirdim.

Bir dəfə dərsə gedərkən ayaqqabımın burnu deşilmişdi. Ona yamaq saldırmaq lazımiydi. Cibimdəki qəpik-quruşlar təqaüdə qədər çörəyimə ancaq çatırdı. Öz-özümə düşünürdüm: neyləməli? Ayaqqabını yamadıb ac qalmalı? Yoxsa, təqaüdə qədər dolanıb ayaqyalın gəzməli? Fikirlər, düşüncələr beynimi didirdi... Əlacsız qalıb ayaqqabıya özüm yamaq salmalı oldum. Naşı və təcrübəsiz olduğumdan kor-kobud alınmışdı. Dərsdə qrup yoldaşlarım, küçədə tanışlarım arasında ayaqqabımın yamağını nə qədər gizlətməli olsam da yamaq "ay bəri bax, bəri bax", — deyə ətrafdakıların diqqətini özünə cəlb edirdi.

Fikir məni çəkib hara gəldi aparırdı: bu gün ayaqqabı deşilir, sabah kostyum, o birisi gün nə bilim daha nə... Sonu necə olsun, Xudaya? Necə olur-olsun iş tapmaq. Axşamlar işləmək, gündüzlər oxumaq. Necə iş? Ağır işlə oxumaq tutarmı? Beləcə iş yeri axtarmaq qərarına gəldim. Fəlsəfədən bizə mühazirə oxuyan Hidayət Kərimli vəziyyətimi bilirmiş kimi tənəffüsdə məni yanına çağırıb ailə vəziyyətimi soruşdu. Mən utana-utana, çəkinə-çəkinə danışır, o, sakitcə dinləyirdi. Sonra: — Get, yaxşı oxu, hamımız sənin kimi olmuşuq, — dedi. Növbəti dərs başlandı-

ğından mən Hidayət Kərimlidən ayrıldım.

Səhəri gün o, sinif nümayəndəsi vasitəsi ilə məni kafedraya çağırtdıraraq: — Oğlum, — dedi, — sənin üçün bir iş tapmışam. Yaxınlıqdakı məktəbə gözətçi lazımdır. Direktorla danışmışam. Yetmiş manat maaşı olacaq. Təqaüdlə birlikdə yeməyinə də, paltarına da çatar, əlavə cibxərcliyin də olar. Hələlik işlə, sonrasına baxarıq. Oxumaqla ağır iş tutmaz. İstilik də, işıq da otaqlarda var. Axşamlar dərslərinə də hazırlaş, oğlum. Biz hamımız İkinci Dünya müharibəsinin çətinliklərini görmüşük. Doyunca çörək yeməmişik. Ancaq oxumuşuq...

Hidayət müəllim danışdıqca, gözümdə böyüyür, onu qucaqlamaq, bağrıma basmaq istəyirdim.

Dərsdən sonra o, məni məktəb direktorunun yanına apardı. Ərizəmi də Hidayət müəllim özü yazdı. Mən o gündən məktəbdə gözətçi işləyir, gündəlik seminarlara hazırlaşırdım, qış, yay sessiyalarında imtahanlardan əla qiymətlər alırdım. Aldığım təqaüd və maaşım mənə bəs edirdi. Hər dəfə kəndə gedəndə qardaşlarım, bacılarım üçün kiçik bir şey alıb aparırdım. Bir hadisə heç vaxt yadımdan çıxmaz. Yeni il axşamında məktəbin gözətçi otağında oturub imtahanlara hazırlaşırdım. Birdən qapının döyüldüyünü eşitdim. Qapıya yaxınlaşanda elektrik lampasının işığında Hidayət Kərimlini gördüm. Tez qapını açıb ona əl verdim. — Xeyirdimi, müəllim? — deyə soruşduqda o, bildirdi:

— Oğlum, bu gün bayram axşamıdır. Mən də təkəm, darıxıram, gəldim, səni evə aparım.

Doğrusu, tutuldum. Nə deyəcəyimi bilmədim.

— Axı...

Hidayət müəllim gülümsəyərək sözümü kəsdi:

— Məktəbdən qorxma, özünü bircə soyuqdan, xəstələnməkdən qoru. Bura heç kim hücum eləməz. İndi yığış gedək evə. Söhbətimizi evdə davam etdirərik.

Hidayət müəllimin sözündən çıxa bilmədim. Evdə qapının





ağzında bizi onun xanımı, iki oğlu, bir də kiçik qızı qarşıladı. Uşağın dörd-beş yaşı olardı. Bu mənim Hidayət müəllimin ailəsi ilə ilk tanışlığım idi. Otuz ildən artıq vaxt keçsə də, bu ailə ilə münasibətlərim indi də davam edir. Böyük əxlaqi sərvətlər sahibi olan Hidayət müəllimin ailəsi olduqca mehriban və səmimi idi. Oğlanları Səmədlə Vahid, ailənin sonbeşiyi Sevda mənə "qardaş" deyə müraciət edirdilər. Lap sonralar öyrəndim ki, nə qədər yaxşı oxumağa çalışsam da, Hidayət Kərimli məni xəbərim olmadan imtahan qəbul edən müəllimlərə tapşırırmış, maddi və mənəvi yardım üçün dekandan da, institut həmkarlar təşkilatının sədrindən də xahiş edirmiş. O, həmişə mənimlə maraqlanar, öz həyat təcrübəsindən danışar, elmə həvəsimi, münasibətimi öyrənərdi. Elmə münasibətin gənclik illərindən başladığını dönə-dönə xatırladardı mənə.

Bir dəfə söhbət arası o dedi:

— Ağarəhim, səndə güclü məntiq, dərketmə qabiliyyəti var. Elm böyük qurbanlar tələb edir. Qazandığını kağıza, kitaba verməli olursan. Elmin dolanbac yolları ilə irəlilədikcə, adam inkişaf edir, böyük elmi sərvət qazanır. İstərdim ki, sən elm yolunu tutasan. Bu yolda yaxşı nailiyyətlər əldə edə bilərsən...

Hidayət müəllim məndə elmə, tədqiqata böyük həvəs yarada bilmişdi. Vaxtımın əksər hissəsini kitabxanalarda keçirər, materiallar toplayardım.

Doğrusu, əvvəllər səriştəm olmadığından, elmi istiqamətimi müəyyənləşdirə bilmirdim. Tezliklə Hidayət müəllimin köməyi ilə mövzu seçmək, kitabdan istifadə etmək, materiallar toplamaq, faktları sistemləşdirmək, ümumiləşdirmək bacarıqlarına yiyələndim. Rayon qəzetində, "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi" mətbu orqanlarda ara-sıra yazılarla çıxış etməyə başladım. Qəzetlərdə hər dəfə məqaləm çap olunanda sevincim yerə-göyə sığmırdı. İnsafən, qrup yoldaşlarım da mənə rəğbət bəsləyirdilər. İnstitutda tələbələr arasında yavaş-yavaş

tanınmağa başlayırdım. Tələbə-elmi şuralarında, toplanışlarda, tədbirlərdə, elmi konfranslarda məruzələrlə çıxışlar edirdim. Sonra da öz-özümə suallar verirdim: Çıxışım xoş gəldimi? Məruzəmin hansı hissəsi daha güclüiydi? Yaxşı çıxış üçün daha nə etmək olar?

Üçüncü kursda institut tələbə həmkarlar təşkilatının sədri seçildiyimdən qayğılarım daha da artmağa başladı. Bu vəzifədə səksən manat maaş aldığımdan məktəb gözətçiliyindən çıxmalı oldum.

Mənə elə gəlirdi ki, yeni vəzifəyə keçməyim də, Hidayət müəllimin xidmətləri sayəsində olmuşdu. Qaynar tələbə həyatı, görüşlər, tədbirlər, iclaslar məni özünə elə bağlamışdı ki, günlərin necə gəlib-keçdiyini hiss eləmirdim. Heç vaxt unuda bilmərəm Ağcabədinin pambıq toplanışında kolxozçulara necə kömək etməyimizi. Tələbələr gündüz pambıq yığardı. Axşam da onları iki-bir, üç-bir kənd adamlarına təhvil verərdi. Sentyabr günlərinin yandırıcı istisi adamı cana gətirdiyindən hərdənbir qızlı-oğlanlı Kürün sahilinə gedər, əl-üzümüzə su çilər, dincələrdik. Birdən qrup yoldaşımız Seymur: “Batdı, batdı”, — deyə qışqırmağa başladı. Hamımız səs gələn tərəfə qaçdıq. Bizdən bir kurs aşağı təhsil alan qız (adını qəsdən çəkmirəm) yuyunarkən ayağı sürüşüb Kürə düşmüşdü. Üzməyi bacarmadığından gah batır, gah da suyun üzünə çıxırdı. Hərdənbir ağzına dolmuş suyu üfürürdü. Yaxşı üzə bilməsəm də dərhal özümü Kürə atdım. Qıza yaxınlaşmışdım ki, saçlarımdan yapışaraq məni özünə sarı çəkdi. Çox çalışsam da onun əlindən çıxa bilmədim. Artıq hər şey bitmişdi, ikimiz də boğulurduq. Bu an qollarımın, qıçlarımın oynaqlarına güclü kəsici ağrılar gəlməyə başladı. Ağrıdan əl-qol atmağı da bacarmırdım. Sonra nə hadisə baş verməsindən xəbərsiz oldum. Gözlərimi açanda özümü sahildə gördüm. Sən demə, biz boğulan vaxt kənd adamlarından pambıq toplayan iki kişi də Kürün sahilində dincəlirmiş. Son nəfəsimizdə onlar bizi





xilas edə bilmişdilər. Kənd adamları, tələbə dostlarımız hər ikimizə təcili yardım göstərdilər. Sonra da bizi kənd xəstəxanasına köçürtdülər.

Müəllimlərimiz, tələbələrimiz bizi tək qoymadılar. O gecə həkim bizə yatmağa icazə vermədiyindən, otaq yoldaşım Məhərrəm həmin axşam yanımda qaldı, səhərə qədər maraqlı, duzlu-məzəli söhbətləri ilə başımı qatdı. On beş günlük pambıq yığımından sonra instituta qayıdanda məni rektorluğa çağırdılar. Hadisəni təfərrüatı ilə danışdım. Bu barədə komsomol təşkilat katibi, fakültənin dekan müavini də rektora məlumat vermişdilər. Onlar tələbə qıza dar ayaqda göstərdiyim köməyə görə mənə təşəkkürlərini bildirirdilər.

Yataqxananın 100-120 nəfərlik iclas zalı vardı. Filologiya, tarix fakültələrinin tələbələri hazırladıqları ədəbi-bədii kompozisiyalarla hər həftənin dördüncü günü axşam yaradıcılıq gecəsi keçirirdilər. Burada tələbə dostlarımız yaradıcılıq qabiliyyətlərini göstərirdilər.

Mübahisələr gecədən xeyli keçənədək uzanırdı. Səhəri gün dərsdə, tənəffüsdə, kitabxanada, bəzən lap çayxanada mübahisəli fikirləri aydınlaşdırmağa çalışırdıq. İnsafən, bu mübahisələr bizə çox şey öyrədirdi...

Tez-tez tələbələrin tarixi abidələrə, görməli yerlərə, təbiətə ekskursiyalarını da təşkil edirdik. Belə tədbirlər tələbələri bir-birinə yaxınlaşdırırdı. Xüsusilə, qızlar oğlanların hərəkətlərini tənzimləyər, artıq-əskik danışmalarına imkan verməzdilər. Oğlanlarımız da, insafən, qızlara doğma bacı münasibəti bəslərdilər. İnstitutda sağlam gənclik yetişirdi. Bir dəfə may ayının son günləri idi. Qrupumuzdakı oğlanlarla qızlar Göygölə getmək arzularını bildirdilər. Mən fakültə dekanından və prorektordan həftənin altıncı günü üçün icazə aldım. Həmin gün bütün qrup səhər tezdən Gəncədən Göygölə gedən avtobusa əyləşib yola düşdü. Yolüstü bir qədər Hacıkənddə dincəldik. Hacıkəndin tə-

miz havası, otların, çiçəklərin ətri nəfəs aldıqca adama ləzzət verirdi. Bulaqların sərin suyundan içdikcə doymaq bilmirdik. Yaşıllıqlar qoynundan əl çəkmək istəmirdik. Bu anda sürücü dilləndi:

— Uşaqlar, tələsməyin, siz Göygölün gözəlliklərini hələ görməmisiniz. Mən bilirəm oradan geri qayıtmaq istəməyəcəksiniz. Əyləşin avtobusa, yolumuza davam edək...

Avtobus dolanbac dağ yolları ilə hərəkət etdikcə uşaqların "Buna bax, ona bax", — deyə səsləri başlarına düşürdü.

Biz Göygölə çatanda günorta iydi. Avtobusdan düşüb sərin bulaq suyundan içib yuyunduq. Sonra qızlar süfrə açdılar. Yüngülcə nahardan sonra mavi Göygölə tamaşa etdik, meşəni gəzdik. Lap içərilərinə doğru irəlilədik. Qayalardan, daşların arasından sızıb gələn göz yaşı kimi dumduru, buz kimi soyuq bulağın suyu ilə şəhərdən özümüzlə gətirdiyimiz kömür samovarını doldurduq və ona od saldıq. Kiçik bir tonqal qaladıq. Gətirdiyimiz ətdən kabab çəkdik. Meyvələri bulaq suyunda yuyub təmizlədik və göy otların üstə sərilmiş süfrəyə qoyduq. Kababın qoxusu dağ çiçəklərinin ətrinə qovuşmuşdu. Yeyib-içəndən sonra yenidən Göygölün tamaşasına qalxdıq. Hər tərəfdə sakit toy-busat qurulmuşdu. Musiqiçilər çalır, xanəndələr, aşıqlar oxuyur, qızlar, oğlanlar rəqs edirdilər. Qrup yoldaşlarımızdan oxumağı, rəqs etməyi bacaranlar da öz məharətlərini göstərirdilər.

Qəribə idi. Bütün tələbələr bir ağacda civildəşən, bir budaqdan digərinə uçub qonan quşları xatırladırdılar. Necə də gözəl, şən və mənalı idi?! Günün nə vaxt axşam olduğunu bilmədim. Gecədən xeyli keçmiş getdiyimiz avtobusla da geri qayıtdıq. Bu, indi də mənim yaddaşımda yaşayır. Beləcə keçərdi tələbəlik illərimiz...

... Bu illər ərzində şəxsi həyatımda da iz salacaq dəyişmələr baş verdi. Birinci kursda oxuyanda Hicran, üçüncü kursda, Sevinc, sonuncuda isə Dinar dünyayay göz açdılar. Bununla da





mənim yığcam ailəm yarandı...

Dövlət imtahanları başlanmışdı. Təhsil Nazirliyindən göndəriləcək Dövlət İmtahan Komissiyası sədri barədə, onun kim olacağı haqqında tələbələrin hərəsi bir mülahizə söyləyirdi. Biz dörd dövlət imtahanı verməli idik. Birinci imtahan başlayanda otağa ağsaçlı, bəstəboy, nurani bir müəllim daxil oldu. Onun ardınca komissiya üzvləri gəldilər. Dekanımız Dövlət İmtahan Komissiyasının sədrini bizə belə təqdim etdi:

— Respublikada ibtidai təlimin yaradıcısı, ibtidai siniflər üçün tədris proqramların və dərsliklərinin müəllifi, müəllimlərin yaxın dostu və köməkçisi, professor Yəhya Şəfi oğlu Kərimov bizim fakültə üzrə Dövlət İmtahan Komissiyasının sədridir. Fəxr edirəm ki, bizim fakültəmizdə belə bir nüfuzlu alim imtahan qəbul edəcək...

Doğrusu, professorun tələbələrə yanaşma tərzi, elmə verdiyi qiymət, səbr və təmkini, danışanı axıra qədər dinləmə bacarığı məni özünə heyran etdi. Mən imtahanlardan əla qiymət aldım. O, sonuncu imtahanda mənə Bakıya — aspiranturaya gəlməyi təklif elədi. O gün mənim sevincim yerə-göyə sığmırdı. Axşam professorun təklifini müəllimim Hidayət Kərimliyə söyləyəndə onun üzündə zərif bir təbəssüm göründü və sonra bildirdi:

— Ağarəhim, professoru yaxşı tanıyıram. O, görkəmli alim, böyük pedaqoqdur. İmtahanlardan sonra mən özüm səni onunla tanış etmək fikrində idim. Professor məni qabaqladı. Sən onun təklifini qəbul eləməlisən. O, Gəncə mehmanxanasında qalır. Səhər professorla söhbət edərik, ünvanı alarıq. O, sənə böyük ümid bəsləyir. Çalış onu doğrult.

Hidayət müəllim danışdıqca elə bil yenidən doğulurdum, özümü başqa planetdə hiss edirdim. Daxilən özümü gah aspirant, gah elmlər namizədi düşünürdüm. Hərdənbir ailəmin vəziyyəti haqqında düşünəndə elə bil qanadlarım qırılıb yanıma düşürdü. Arzularım, istəklərim sönürdü.

Səhər Hidayət müəllimlə mən professorla institutun dəhlizində qarşılaşdıq. O, bizi görcək əl uzatdı və gülümsəyərək:

— Cavan oğlan, nə fikirləşirsən, — dedi.

— Hə, — deyə cavab verdim. Hidayət müəllimin məni tərifindən sonra professor iş yerinin — Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun ünvanını cibindən çıxardığı kağıza yazıb verdi. Sanki qaranlıqda bir meteor parçası alışıb yandı, qəlbimə, ruhuma bir işıq saçdı. İçimdə sönməz etiraz, qızğın təlatüm, güclü fırtına yaratdı bu ağsaçlı professor!

## KƏND MÜƏLLİMİ

**Harda olmasından asılı olmayaraq müəllimlik qüdrətli fəaliyyət növüdür. Öyrətmək, tərbiyələndirmək böyük səadətdir.**

***Pestalotsi***

Avqust ayının axırları idi. Kəndimizin mərkəzində yerləşən yeni inşa edilmiş ikimərtəbəli məktəb səkkizillikdən yenicə orta məktəbə çevrilmişdi. Ətrafı daş hasara alınan məktəbin həyətində əkilmiş çinar, heyva, nar, alça, qaysı ağacları, rəngbərəng güllər binaya heyranedici gözəllik verirdi. Tələbəlik illərində hər dəfə doğma məktəbimizin yanından keçəndə, əlinə çanta götürmüş oğlan və qızları görəndə, onların şən qəhqəhələrini eşidəndə ürəyim dağa dönərdi, bir zaman özümün də burada müəllim işləyəcəyim barədə düşünəndə sevincimdən az qala yerə-göyə sığmırdım. Beşillik tələbəlik həyatımdan, dostlarımdan ayrılmaqdan nə qədər kədərlənsəm də təyinatımı rayon Xalq Maarif Şöbəsindən (o zaman belə adlanırdı) doğma məktəbimizə alanda bir o qədər sevindim. Müəllim olmaq arzum, atamın nəsihətləri həyata keçirdi. İlk dəfə jurnal götürüb sinfə getdiyimi, direktorun məni gələcək şagirdlərimə təqdim etməsini həyatımın ən unudulmaz anları sanıram. Məktəblilərin məni maraqla nəzərdən keçirməsi, onların üz-gözündəki səmimiyyət, sevinc hissləri indi də gözlərimin qabağından çəkilmir. İlk çıxışımda səsimi boğan titrəyiş, qəlbimə çökən sıxıntı, bədənimi bürüyən istilik məni lap çaşdırmışdı. Çox keçmədi ki, vəziyyətə uyğunlaşdım. Dərsin sonunda özümü tam ələ ala bildim.





Dərs ilinin birinci günü əziz müəllimlərim, doğmalarım məni təbrik edərək əlimi sıxdılar. Mənə dərs deyən müəllimlərimlə çiyin-çiyinə işləmək, jurnal götürüb sinfə daxil olmaq mənim üçün nə qədər sevindirici idi. Hər gün sabahkı dərsə hazırlaşır, şagirdlərin yazı işlərini, tapşırıqlarını yoxlayırdım. Təlimdə geridə qalan məktəblilərlə vaxtaşırı məşğul olmaq, onların buraxdıqları səhvləri tapmaq, səbəblərini müəyyənləşdirmək və onların aradan qaldırılması yollarını arayıb-araşdırmaq mənim gündəlik fəaliyyətimə çevrilmişdi. Getdikcə müəllim və şagird kollektivi, kənd camaatı arasında nüfuzumun artdığını, valideynlərin mənə hörmət və qayğı göstərdiklərini duyurdum.

Məktəb həyatı, təlim-tərbiyə prosesinin təşkili sahəsində oxuduğum ədəbiyyat məndə pedaqoji elmlərə marağı getdikcə artırırdı.

Çox çəkmədən qısa təcrübəmdə hiss etdim ki, kiçikyaşlı məktəblilərin təlimdə geri qalmalarının əsas səbəblərindən biri onların öz fikirlərini aydın, səlis, anlaşıqlı, məntiqli, rabitəli ifadə edə bilməməsidir. Hər bir dərsdə, tənəffüsdə şagirdlərin nitqindəki nöqsanları qeydə almağa, ümumiləşdirməyə başladım. Tez bir zamanda zəngin faktlar topladım. Onları araşdırdım. Vaxtaşırı "Yeni söz", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi" qəzetlərində, "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsində çap olunan pedaqoji məqalələrim, rayon və respublika elmi-praktik konfranslarında, "Pedaqoji mühazirə-

lər”də oxuduğum məruzələrim məni az müddət ərzində müəllimlər arasında tanıtdı. “Dil dərslərinin səmərəli təşkili”, “Kiçikyaşlı məktəblilərin nitqindəki nöqsanların aradan qaldırılması yolları”, “Altıyaşlıların təlimə hazırlanması”, “Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi” adlı jurnal məqalələrim məndə elmə, tədqiqata olan marağı birə yüz artırdı. Sərbəst qələm işlətmə, fikrimi aydın və dəqiq ifadə etmə, insanlarla tez ünsiyyətə girmə qabiliyyətimi daima yüksəltməyə çalışırdım.

Müəllim işlədiyimin elə birinci ili Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda dissertantura yolu ilə tədqiqata başladım. Çox keçmədi ki, mənə rayon komsomol komitəsində əvvəlcə şöbə müdiri, sonra katib vəzifələrində işləmək təklif olundu. Elmi tədqiqata olan marağım ictimai vəzifələrdə işləmək istəyimi üstələdi. Adi kənd müəllimi olsam da, elmin zirvələrinə doğru irəliləməyə can atırdım. Müəllim işlədiyimin ikinci ili doğma kollektivdə tədris işləri üzrə direktor müavini vəzifəsini mənə tapşırdılar. On gün keçməmiş məni məktəb komsomol təşkilatı katibi seçdilər. Bu vəzifələrin məsuliyyətini də, işin ağırlığını da aydın dərk edirdim. Səhər tezdən məktəbə gedir, başım təlim-tərbiyə prosesinə elə qarışırdı ki, axşamın nə vaxt gəlib çatdığını hiss etmirdim.

Bərk yorulduğumdan axşamlar evə qayıdan kimi bir stəkan çay içər, bir tikə çörək ancaq yeyərdim. Dərhal da yuxu aparardı məni. Bir qədər beləcə dincəldikdən sonra, yataqdan qalxar, pedaqoji ədəbiyyat oxuyar, qeydlər aparar, faktlardan ümumiləşmiş mülahizələr çıxarardım. Namizədlik dissertasiyamın ayrı-ayrı bölmələrini tamamlamağa çalışardım.

Məktəbdə direktor, onun tərəfdarları və əleyhdarları arasında kiçik narazılıqlar, dedi-qodular başlanmışdı, getdikcə də dərinləşir, tündləşir, barışmaz bir səviyyəyə qalxırdı.

Mən çox gənc və təcrübəsiz olsam da, hər iki tərəfə barışıq təklif edirdim. Çox keçmədi ki, hər iki cəbhənin nümayəndələri





məni prinsipsiz, mövqesiz adlandırmağa başladılar. Belə bir şəraitdə işləmək ağır olduğundan, tutduğum vəzifədən çıxmaq qərarına gəldim. Həmin vəzifədən imtina etməyim heç kəsə sərfəli olmadığından məni fikrimdən daşındırmağa asanlıqla nail oldular.

Sentyabrın əvvəlləriydi. Yayın isti, nəfəs təngişdirən boğucu havası hələ də qalmaqdaydı. Buna baxmayaraq, payızın gəlişinə işartı verən hallar da duyulmaqdaydı. Dərslər ayın birində başlansa da, ilk günlər şagirdlər və müəllimlər sinif otaqlarının qapılarını böyük həvəs və sevinclə açsalar da, ümid və arzularının üstünə tez-tez qara kölgələr düşər, yersiz əsəb gərginliyi keçirməli olardılar. Dərs bölgüsündən narazı qalan müəllimlər üzlərini hara gəldi tutub saymazyana gedərdilər. Dərslər demək olar ki, hər gün boş keçərdi. Bikar dayanmalar şagirdləri və valideynləri təngə gətirdiyindən getdikcə narazılıqlar artar, hərcmərclik çərçivəsindən çıxar, hara gəldi baş alıb gedərdi. Heç kəs heç kəsi eşitmək istəməzdi. Hamıda əcaib fikirlər formalaşmışdı: “Dərə xəlvət, tülkü bəy”, “Məktəbdə anarxiya yaranıb”, “Belə getsə, müəllimlər bir-birilərini qıracaqlar”, “Müəllimləri belə olanın şagirdləri nə olar?”, “Ağası gülüm olanın, başına külüm olar...”. Əlacsız qalan, dərdi-səri dinlənməyən müəllimlər, valideynlər son günlər rayon maarif şöbəsinə, partiya komitəsinə yollanardılar. Müəllimlər dərs bölgüsündən, direktorun qohumbazlığından, ədalətsizliyindən, valideynlərsə övladlarının məktəbdə nəzarətsizliyindən, təlim keyfiyyətinin bərbad vəziyyətə düşməsindən... nədən, nədən gileylənərdilər... Məktəblə valideynlər, şagirdlərlə müəllimlər arasında böyük inamsızlıqlar yaranmışdı. Məktəbdə yaranan qruplaşmalar arasında hərdən təhqiramiz ifadələr işlənər, bəzən də çaxnaşmalar baş verərdi. Getdikcə kəskinləşən bu qalmaqalların rişələri gündən-günə dərinləşərdi. Yavaş-yavaş rayon çərçivəsindən çıxmaq meyilləri də hiss olunardı...

Sentyabrın ortalarıydı. Gün günortadan əyilmişdi. Mən mək-

təbin artırmasında dayanıb şagirdlərin futbol oyununa tamaşa eləyirdim. Elə bu vaxt darvazadan ağ rəngli "Volqa" avtomobili həyətə girdi. Qapı açıldı, maşından əlli-əlli beş yaşı olar-olmaz, gödək, yorğun, sallaq, qarnı xeyli qabağa çıxmış, qarayanız, dazbaş maarif müdiri, ardınca da təqribən həmin yaşda, dümağsaçlı, qırmızı sifət, qıyıq gözlü inspektor düşdü. İnspektorun üz-gözündən hiyləgərlik yağırdı. Maşından düşən kimi o tərəf-bu tərəfə baxdılar. Müdir olduqca əsəbi görünürdü. İnspektor güclə eşidiləcək bir tərzdə ona dedi:

— Məktəbin həyətini ot basıb. Onu yolub tökən yoxdu. Həyət-baca dağılır. Əllərindən mərdimazarlıqdan savayı, heç nə gəlmir. Demoqoqluğu bacarırlar. Yuxarı təşkilatlara, mətbuata faktlar ötürürlər. Direktoru işləməyə, onun başının açılmasına imkan vermirlər. Hamını dilə-dişə salırlar vicdansızlar.

Müdir astadan:

— Qazların alarıq.

İnspektor müdirin diqqətini göz-qaşla mənə yönəltdi və mızıltılı səslə:

— Ehtiyatlı ol, qulaqları bizdədi, dediklərimizi eşitməyə çalışır. Dediklərimizi sabah yuxarı təşkilatlara ötürə bilər. Cavan oğlan olasan, özün də bu qədər demaqoq.

Mən: — Düz demirsiz, mən demaqoq deyiləm, heç nəyə qarışmıram, kimsədən donos verməmişəm, — deyə cavab vermək istəyirdim ki, müdir çəpəki mənə tərəf baxdı və astadan inspektora pıçıltılı səslə çatdırdı:

— Sən tələsmə, bu saat onlara bir ot yolduracam, gəl görəsən. Onda bilərlər analar necə oğlan doğub, yuxarılara üz tutmaq, fakt ötürmək nəylə nəticələnər. İki özlərindən, bir də bizdən deyərlər. Anlarlar kimin nəyə qadir olduğunu...

Mən bu sözləri dəqiqliyi ilə anlasam da, şeytana lənət, deyib, özümü eşitməzliyə vurdum. "Qonaqlara" yaxınlaşdım: — Xoş gəlmisiz, — dedim və onları müəllimlər otağına dəvət





elədim. Müdir əsəbi halda dilləndi:

— Məktəbdə bir kişi yoxdu?.. Bu qədər adam harda qırılıb batıb?..

Etiraf eləyim ki, dərhal şərəşurcasına cavab verdim:

— Kişi də var, qadın da. Hansıları çağırım?

Qazdan ayıq inspektor deyəsən, nə demək istədiyimi anladı. Gözucu müdirə tərəf baxdı. Sonra heç bir şey olmamış kimi futbol oynayan uşaqlara tərəf döndü. Müdir dərhal:

— Yaxşı sərin yer tapıblar. Boş-boşuna oturmaqdansa, ağzıbaşına danışmaqdansa, kimlərin qeybətini qırmaqdansa, bu otları yolmaq, həyət-bacanı zir-zibildən təmizləmək lazımdı. Elə bil bu kənddə yaşamırlar, məktəbdən dolanmırlar. Çağır gəlsinlər. Camaatın qeyrətini...

Mən müəllimlər otağına gedib müdirlə inspektorun gəlişini müəllimlərə və direktora çatdırdım. Onu da əlavə elədim ki, müdir olduqca əsəbidi, hamını həyətə çağırır. Teyyub dərhal dilləndi: "Dişləriylə zəncir gəmirir, — deyirsən?". Hamı güldü. Müəllimlər buna bənd imiş kimi, tez ayağa qalxdılar, tələm-tələsik, çəkinə-çəkinə müdirin qarşısında müntəzir dayandılar. Bu vəziyyət çox gülməli görünürdü. Kənardan bu hadisəni görən olsaydı, bəlkə də gülməkdən özünü saxlayanmazdı... İnsan qəribə məxluqdu. Hamı olmasa da, gözləri qıpıqlar, qorxaqlar, ruhları işğal olunanlar səlahiyyətlilərin qarşısında qula çevrilirlər. Doğrusu, belələrindən lap uşaqlıqdan zəhləm gedərdi...

Müəllimlərin itaətkarlığını görən və ondan məmnun qalan müdir qamətini düzəldib birdən-birə kükrədi:

— Ayə, vicdanınız olsun! Məktəbin həyətini ot-alaf basıb. Onu niyə yolmursuz? Bəyəm onu da sizə kimsə deməlidi? Sizin əvəzinizdən şəhərdən bura ot yolanmı gətirməliyəm?

Müdir öz-özünə: — Bədbəxtlər. Bədbəxtlər, bədbəxtlər təmizlik nədi, onu da qanmırlar, — dedi.

Direktor və müəllimlər bu ot-əncəri elə bil ilk dəfəydi görür-

dülər. Hamı günahkar uşaqlar kimi başlarını aşağı dikdi. Direktor acizanə dilləndi:

— Düz deyirsiz, başımız qarışıb kolxozun işlərinə, pambığa, ot-əncər yaddan çıxıb.

Müdir:

— Kolxozun işlərinə, pambığa yox, demaqoqluğa. Satqınlığa. Qeybətə...

Müdir səsinə ara verdi, sonra məktəbə canı yanırmış kimi sözünə davam elədi:

— Nə dayanmısız? Bu saat otları yolun. Gözümə burda ot dəyməsin. Birdən mən döörəm, bir başqasıdı, yuxarıdan bir adam gələydi. Ona nə cavab verəcəkdik?.. Biyabırçılıqdan canınızı hara qoyacaqdız?

Direktor qabaqda, müəllimlər də onun ardınca ot-əncərə hücuma keçdilər. Bir sözlə həyətdə ot yolumu başlandı. Qadınlı, kişili — otuzdan artıq müəllim dizlərini yerə atıb, hə... hə... həhlə otları yoluşdurmağa başladılar. Müdirin heysiyyəti alçaldan, mənəviyyatı ayaqlayan hoqqabazlığı, başqa sözlə, qurduğu mərəkə mənə aydın olduğundan kənara çəkildim. Bunu görən müdir və inspektor da, direktor və müəllim həmkarlarım da arabir mənə tərəf tərs-tərs, acıqlı-acıqlı baxır, öz aralarında nəsə mızıldanırdılar. Mən bütün diqqətimi müdirlə inspektorun danışıqlarına yönəltdim. Müdir müəllimlərə işarə eləyərək inspektora göz vurdu və astadan, saymazyana, rişxəndlə bildirdi:

— Adama belə ot yoldurarlar.

Hər ikisi gülümsündü. “Ot yolumu” mərasimi qurtarandan sonra müdir direktora dedi:

— Yığılın müəllimlər otağına. Bir məsələyə aydınlıq gətirməliyik.

Bunu eşitcək hamı otağa keçdi. Müdirlə inspektor keçib başda əyləşdilər. Sonra müəllimləri diqqətlə nəzərdən keçirən müdir:





— Hörmətli müəllimlər! Mən başa düşmürəm, sizin nə bölünməz, dolaşıq işiniz var ki, vaxt-bivaxt yuxarı təşkilatlara, mətbuata giley-güzar, şikayət dolu namələr tolazlayırsız. Doğrudu, bunu hamınızın adına yazmaq olmaz. İnanıram, aranızda sözü, abrı, isməti olanlar da var. Demaqoqluq, təşkilatın adına ləkə gətirmək, təmiz adamların gördüyü yaxşı işlərə kölgə salmaq, abırlı, ismətli adamların sirrini yaymaq nə kişiyə, nə də qadına yaraşar. Onda qalmışda ki müəllim adını daşıyana. Sizin dərs dedikləriniz barənizdə nə düşünər... Deməzlərmi ki, müəllimlərimiz çaşıb? Onların ağlı qaçıb? Yollarını azıblar? Valideynlər sizə övladlarını usburt olarlarmı?

İnspektor dərhal onun sözünü kəsdi:

— A tövbə yox... Heç kim...

Müdir sözünə davam elədi:

— Buyurun, nə dərdiniz var, deyin, mən də bilim. Onu da unutmayın ki, hara, nə yazsanız məktublarınız dağı-aranı hərlənib-fırlanıb mənim üstümə gələcək. Son qərarı mən qəbul eləyəcəm. Ərizəylə, anonim məktublarla dərs saatlarını artırmazlar, direktor dəyişməzlər. Məktəbdə qruplar yaranıb: direktorun tərəfdarları və əleyhdarları. Ayıbdı sizə. Yığışdırın o qruplaşmaları. Lazım gələndə, işin öhdəsindən gəlməyəndə onu çıxarıb qoymaq mənim səlahiyyətimdədi... Atalar deyib: “Ho var dağa mindirər, ho var dağdan endirər”. Fikrim sizə çatdı da?..

Müəllimlərdən heç kəs direktorun dəyişdirilməsi barədə düşünməsə də, söhbət əsnasında belə məlum oldu ki, guya məktəbdə hər kəs direktor olmaq istəyindədir. Hansı ki, müəllimlər dərs saatlarının düzgün bölüşdürülməməsindən, direktorun qohumbazlığından narazıydılar. Hamı bircə-bircə ayağa qalxır, öz narazılıqlarının səbəblərini açıqlayır, qanuni haqlarını tələb edirdi. Gözlənilmədən müdir sözü mənə verdi:

— Ağarəhim, sən nədən narazısan? Dünən ali təhsil almısan, o da zor-bəlayla. Nə düz-əməlli elmin var, nə də təcrübən.

Üç ay əvvəl də altı şagirdi sinifdə saxladın. Bizi dilə-dişə saldın, bəs eləmədi? İndi nədən narazısan? Bayaqdan halın özündə deyil. Bizə də düşmən kimi baxırsan. Səni fitvalayıblar, gözlərin ayaqlarının altını görmür. Belə direktor olmazlar. Mətbuatda iki-üç cızmaqaran çıxıb, yerə-göyə sığmırsan. Ağac bar gətirdikcə başını aşağı dikər... Bəlkə maarif şöbə müdiri olasan? Mənim işimi apara bilərsən?.. Tamrın var, (stuldan ayağa qalxaraq) buyur, gəl otur.

Hamı təəccüblə üzümə baxdı. Məni söz tutdu. Müəllimlərdən kimisi müdirin sözünə acı-acı, rişxəndlə gülümsəyir, kimisi bir-birilərinin üzünə baxıb çiyinlərini çəkir, kimisi də bu sözlərdən... Ləzzət alırdı. Mən özümü ələ almağa çalışdım. Sonra bir çox şeyləri başa düşmür kimi dedim:

— Hörmətli müdir. İstəyirəm ki, biləsiz, özümə hörmət elədiyim üçün mən müəllimlərə heç vaxt ot yoldura bilmərəm. O əcaib hərəkəti nə özümə, nə də müəllimlik adını üstünə götürən şəxsə sığışdıraram.

— Kəs səsini. Mənim xeyirxahlıqla gördüyüm işə, o nə mənadı verirsən?

İnspektor:

— Yekə oğlansan, kimlə nə danışdığını bil, — dedi və başını yelləyərək sözünü tamamladı:

— Nə oba görmüsən, nə qara.

Mən inspektorun gözlərinin içinə baxaraq:

— Müdiri sən fitvaladın. O da qımışa-qımışa sənə dedi:

— Bunlara ot yolduracam. Bəlkə yalan deyirəm? Həqiqəti söyləmək cəsarət tələb eləyir.

Mehriban müəllimə özünü saxlayanmayıb atıldı:

— Yoldurdular da.

O, sonra üzünü maarif müdirinə tutaraq səsi gərilmiş halda, sözünə davam elədi:

— Gedib qəhrəmanlığınızla öyünə bilərsiz. Bu hərəkətləriniz müəllimlərə başucalığı gətirmədiyi kimi, sizə ləyaqət də, şərəf də gətirməyəcək. Bu, insandan, xüsusilə təhsil işçisindən mənəviyyat tələb eləyir. İstərdim biləsiz, bu kollektivdə direktor olmaq istəyində adam yoxdu. Bəsdirin zavallı müəllimlərin başında qoz sındırdığınız. Biz məktəbdə yaranan dedi-qoduların, qanun pozuntularının nəyə və kimlərə xidmət etdiklərini yaxşı bilirik.

Müdir əlini stola vurdu:

— Məktəb dağılıb, bəlkə, onun səbəbini də mənim fəaliyyətimdə axtarasız?

Hüseyn müəllim:

— Axtarmırıq, müdir, əslində onu sənin əməllərində tapmışıq. Bunu ot yoldurduqların da deyə bilərlər. Səni aldadırlar. Açığını deyim, sən ətrafına açıq gözlə baxmırsan. Baxsaydın, inspektorunun hiyləgərliklə kimlərə və nəyə xidmət elədiyini anlardın.

Qüsurunu adamın gözlərinin içinə deməyi bacaran Zənurə xanım dilləndi:

— Müdir, biz zavallılara otmu yoldurmağa gəlmişdin?.. Biz yolduq. Sənə daha nə lazımdı? Adamların əsəbləriylə oynamayın... Qurtarın oyunları. Belə getsə, kollektiv yığışıb mərkəzə sizdən şikayətə getməli olacağıq.

Bu söz-söhbətdən sonra toplantı dağıldı. Kimi ot yolmasına peşmançılıq çəkir, kimisi də bu düşünülməmiş hərəkətdən usanıb başını yana çevirirdi. Qadınlı-kişili hamı acınacaqlı görkəm almışdı.

Bu hadisəni sox təəccüb və təəssüflə müşahidə eləyən cavan oğlan, kimya müəllimi baməzəliyiylə seçilən həmyaşıdım Qəbələ mənə pıçıltıyla dedi:

— Ağarəhim, Şəmkirdən Boyata ot yolmağamı gəlmişdim? Gedim, atam bığ Məmmədə nə deyim? Deməz ki, a qırışmal, bu nə xəcalətdi mənə verirsən?

Mən dərhal:

— Adə bəsdi, atan hardan biləcək Boyatda sənə ot yoldurulduğunu? Çalış gücündən artıq yüklənmə. Yüklənsən dalı gələcək.

Dostum başını yelləyib susmaqdan savayı, çarə tapanmadı. Əsəbdən bütün vücudu titrəyirdi...

Aradan bir neçə ay keçdi. Bir gün əvvəl sabah məktəbə nazirlikdən yoxlama gələcək xəbəri müəllimlər arasında dolaşdı. Qadın müəllimələr bərk həyəcan keçirdilər. Kişi müəllimlərdən də kimisi açıq-açığına qorxur, kimisi "gələn nümayəndə də bizim birimiz" deyərək özünə süni görkəm verir, müəllimlər otağında, dəhlizdə xüsusi əda nümayiş elətdirirdi. Kimisi sakitcə dayanıb deyilənləri dinləyir, həyəcanlanmamağa çalışırdı. Teyyub müəllim özünü saxlayanmadı:

— Ayə, gəlir-gəlmir, özü bilər. Belə getsə, ürəyinizi çatladacaqsız... Eşitməmisiz, ayının min oyunu var, bir armudun başında? Olmasın bir ayımızın məvacibi...

Bu sözdən sonra müəllimlərin qırışıqları, bozaran sifəti yavaş-yavaş açıldı. Gün axşamacan sinif otaqları, dəhliz qaydaya salındı. Qəbələ dedi:

— Görən, bu dəfə nə olacaq?

Şükür müəllim:

— Biz öyrəncəliyik, bala. Bax, bu gördüklərini öyrən, təcrübədi. Nə vaxtsa, sənə də lazım olar. Ancaq özünlə aparıb tətbiq eləmə.

Hamı gülüşdü və psixoloji cəhətdən özünü sabahkı yoxlamaya hazırlamalı oldu.

Səhəri gün müəllimlər təzə kostyumlarını, ağ köynəklərini geyib, qalstuklarını vurmuşdular. Dəftər-kitablarını yerbə yer eləyib, sinif jurnallarını qaydaya salırdılar.

Şərəfət müəllimə başını yelləyərək astadan dedi:

— Bu gecə qorxudan yatanmamışam. Nə qədər alır-alsın,





bircə gəlib-getsəydi, canımız dincələrdi.

Qəbələ dərhal:

— Mənim imkanım yoxdu. Olsaydı, üç yüz kilometrlik yolu basa-basa bura niyə gəlirdim?.. Nə yazır, yazsın.

Mən özümü saxlayanmadım:

— Məndə də yoxdu.

Yavər müəllimə:

— Gəlin, işi yoğunlatmayaq. Gəlirsə, deməli alacaq.

Kiçik müzakirədən sonra müəllimlərin əksəriyyəti vahid fikrə gələ bildi: nə eləyirlər eləsinlər. Heç bir şeyimiz yoxdu. Gələn gözünü bizdən yığsın. Heç nə verməyəcəyik.

Birinci növbənin dərsləri gedirdi. Qonaqlar: maarif müdiriylə nazirliyin nümayəndəsi məktəbə təşrif buyurdular. Sinif otaqlarına girdilər. Dəvamiyyəti, otaqların gigiyenik sarıdan təmizliyini qeydə aldılar. Bəzi müəllimlərin dərslərini dinlədilər. Axırda da "Müəllimlərə imla yazdırmaq" ideyasını irəli sürdülər. Hamı heç kəsin ağlına gəlməyən bu əcaib ideyadan çaş-baş qaldı. Kimsə deməyə söz tapmadığı kimi, fikrə etirazını da bildirmədi. Bu süstlük yoxlamanın gedişini reallaşdırmağa imkan verdi. Bunu görən Qəbələ dedi:

— Pazın yekəsi daldaymış ki.

Hamı gülüşdü. Günün ikinci yarısında müəllimlər otağında "Şanlı kommunizm və ona qarşı imperialist ideologiyası" mövzusunda imla yazıya başlandı.

Nazirliyin nümayəndəsi tez-tez qalstukuna əl çəkir, əda nümayiş elətdirir, məzmunu ifadə edəcək yazılışı çətin, mübahisəli söz və ifadələri qəsdən yarı-yarımçıq deyir, sürəti gözləmir, sözləri tez-tez təkrarlayır, başqa sözlə, heç bir pedaqoji qayda-qanun gözlənmədən mətni diktə eləyirdi. Müəllimlərin əksəriyyəti çaşırdılar. Eləsi də var idi ki, bir-iki cümlədən sonra yazını dayandırırdı. Müəllimlərin narazılığı, giley-güzarı otağı bürüyürdü. İki cümlədən sonra yazını davam etdirməyin mümkünsüz

və mənasızlığını mən də anladım. İmla yazmaq əvəzinə, vərəqə "Xoruz" şəkli çəkdim və şəklin altında yazdım: "Siz də dar çərçivədən həyata baxan pişik boğuşduranlardansınız". Mətni diktə eləyə-eləyə, arada gəzən nazirliyin nümayəndəsi bunu gördü. Hiss olunmaz dərəcədə sifəti bozardı. Ancaq özünü görməzliyə vurdu. Axırda yazı işləri yığılanda mən də vərəqimi maarif şöbə müdirinə ötürdüm. Aradan xeyli keçmiş maarif şöbəsinin qocaman metodisti Ağahüseyn müəllim ikilikdə mənə xatırlatdı:

— Əzizim, imladan müvəffəq qiymət alan olmayıb. Sən də çox cavanlıq eləyirsən. Bir az siyasətcil olsaydın...

O, sonra gülümsünüb əlini çiynimə qoydu və ciddiyyətlə dedi:

— Xoruz başına bəla açmasa, yaxşıdı, Ağarəhim.

Dünyanın qəribə oyunları var. Birinə kömək eləmək istəyəndə, xeyirxahlıq göstərəndə anasının əmcəyini kəsənlər, mərdimazarlar aranı elə qarışdırırlar ki, özün də ona məəttəl qalırsan. Səni elə girdaba, batalqaya çəkirlər ki, ordan canını qurtarmaq üçün yüz cür yollar axtarırsan. Tapırsan, tapmırsan o da çox vaxt sənin gücündən asılı olmur. Əlacsız qalıb mistikaya yuvarlanmalı olursan. Heç yadımdan çıxmaz. Altı şagirdi sinifdə saxladığım (Xatırladım ki, həmin şagirdlərə aşağı siniflərdə başqa müəllim dərs demişdi). Şagirdlərin heç biri kitab oxumağı, üzündən köçürməyi, fikrini ifadə eləməyi bacarmırdı. Ona görə də mən bu addımı atdım. Tədris ilinin sonunda — Mənim uşağıma niyə sinifdə baxmamısız — deyə valideynlər məktəbə axışdılar. Direktor məni müəllimlər otağına çağırıb hamının gözləri qarşısında hay-qışqırıqla məzəmmətləməyə çalışdı. Mən sərt üzümü göstərəndə o dedi:

— Sən nə elədiyini bilirsənmi? Məni işdənmi çıxartdırmaq fikrindəsən? Bu hərəkətinlə kollektivə qarşımı çevrilmisən? Ayə, bu kənd camaatı sənə nə pislik eləyib? Mən yuxarılara nə cavab verəcəm?





— Axı nə hadisə baş verib? Xahiş eləyirəm, açıq danışın, günahımı mən də bilim.

— Günahsızsan? Altı şagirdi sinifdə saxlamağın cinayət olduğunu hələ anlamırsan?

— Anlamırsan yox… Axı o, altı nəfər savadsızdı, adını yazmağı bacarmır. Əksinə… Məncə belələrini aldadaraq sinifdən-sinfə keçirmək cinayətdi.

— Onlara dövlət bir də təkrar xərcmi çəkməlidi? Bilmirdilər, zəhmət çəkib dərsdən sonra onlarla məşğul olaydın. Nə qədər ki, hay-küy qopmayıb, biabır olmamışıq, get onların qiymətlərini düzəlt. Camaatı üstümüzə qaldırma. Sən uşaqları valideynlərindən çox istəyənməzsən.

— Sən dövlət, xalq qədri bilsəydin, o sözləri mənə deməzdin. Qaldı uşaqları valideynlərindən çox istəməyimə. Ərz eləyim ki, istəyərəm.

— Bunda deyiblər də, anası durra-dura xalasının bağrı çatlar.

— Danışığını bil. Sən direktorsan, ağzıbaşına danışma… Mən qiymət düzəltməyəcəm. Onlara qarşı heç bir ədalətsizlik eləməmişəm. Zəhmət çəkib vaxtında onların necə oxumaları, necə yozmaları barədə fikirləşəydiz. Müəllimlərinə təsir göstərəydiz. Oxuyub yazanmayanları mən sinifdən sinfə keçirənmərəm. Onları aldatmağın özü cinayətdi.

— Bu əqidəylə sən heç harda işləyənməzsən. Adamlarla yola getməyi bacarmaq lazımdı.

— Əvvəla — bala yox, müəllim. İkincisi də, yola getməyi, deyirsən, bacarmıram?

— Bacarsaydın, bayaqdan niyə boğazımı cırırdım.

— Səbrli olun. Hər şey yoluna düşəcək.

— Mən dəli olmamışam. Səbrim də kifayət qədərdi… Mən sözümü dedim, Ağarəhim, nəzəri elmin var, ancaq siyasi savadın yoxdu.

— Mən siyasəti elm sanmıram. O qondarma, yalançı təbliğat

maşınıdı. O adamların şəxsi mənafeyinə xidmət eləyən çərənçi bir şeydi.

— Gəl daşı ətəyindən tök, bizimlə düşmənçilik aparma. Belə getsə, zurnanın səsi ulduzlardan gələcək. Onda peşman olacaqsan...

— Ayə, sən yaxşı bir kişinin oğlusan. Bu qədər höcətlik nəyə lazımdı? Kimə oxşamısan?

— Özümə!!!

Doğrusu, o zaman direktorun dedikləri mənə çox gülməli gəlirdi. Ona görə də mən inadımdan dönmədim. Zavallı direktorun sözlərini qulaqardına vurdum. O gündən direktor mənimlə açıq-açığına dava-dalaş müstəvisinə keçdi…

Avqust ayının sonlarıydı. Rayon müəllimlərinin avqust konfransı keçirilirdi. Zal ağzınacan doluydu. Nazirlikdən və MK-dan nümayəndə gəlmişdi. Rayon Partiya Komitəsinin birinci katibi "Keçən tədris ilində rayon təhsilinin vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda məruzə oxuyurdu. Hamının diqqəti məruzədə söylənilənlərdəydi. Zalda milçək uçsaydı, vızıltısı eşidilərdi. Birdən birinci katib çıxışını saxladı.

Sonra səsinə ara verib dedi:

— Yoldaşlar, Boyat kənd orta məktəbində dəhşətli bir hadisə baş verib. Cavan oğlan Ağarəhim adlı bir müəllim, əgər ona müəllim demək mümkünsə, altı şagirdi təkrar sinifdə saxlayıb. Sual olunur, bu adam nə fikirləşir?! Hökumət həmin şagirdlərin oxuması üçün təkrar xərcmi çəkməlidi? Bəyəm hökumətin özgə dərdi-səri yoxdu? Təhsil şöbəsi hara baxır? İndiyədək bu müəllimin barəsində niyə tədbir görməyib? Bizimi gözləyir?

Bu anda təhsil şöbəsi müdirinin sifəti ağarmışdı. Heç kim özündə deyildi. Katib sözünə davam elədi:

— Çox təəssüf ki, belə antipodlar hələ də aramızda var. Onun ideya-siyasi hazırlığı aşağıdı. Belə olmasaydı, kommunist partiyasının, sovet dövlətinin siyasətinə qarşı çıxmazdı.





O, nitqinə yenə bir an ara verdi və zala müraciətlə:

— Ağarəhim müəllim burdadımı?

Mən ayağa qalxdım.

— Bəli!.. Burdayam.

— Sən müəllimlik diplomunu necə almısan?

— Adam kimi…

— Bu nə dildi? Bu nə danışıqdı?

— Azərbaycan dili… Bəyəm belə danışmaq olmaz? Nə qəbahət elədim?

— Başın xarab döör ki?

— Onsuz da indiki zəmanədə başı düz adam tapmaq çətindi.

Katib gözlənilməz cavabdan bir qədər də əsəbiləşdi.

— Otur… Rayonumuzda ümid verən gənclər yetişir… Mən gəncləri qabağa çəkməyə çalışıram. Təəssüf ki, onların arasında, Ağarəhim, sənin kimilər də var…

Mən heç bir söz demədən qalxdığım stuldaca əyləşdim. Gözlənilməz hücumdan bəlkə də çaşdım, nə deyəcəyimi bilmədim.

Kiçik mübahisədən sonra zalda pıçapıç düşdü. Qabaqda əyləşənlər tez-tez arxaya çevrilib məni görməyə çalışırdılar. Yanımda əyləşən şəhər 2 saylı orta məktəbin direktoru Rəsul müəllim əlini dizimin üstə qoydu — Narahat olma, bunlar hamısı oyundu — dedi. Toplantıdakı çıxışlarda mən tənqid obyektinə çevrildim. Hamı rayon təhsilinin, məktəbin mənafeyindən danışır, böyük qəbahətə yol verdiyim üçün cəzalandırılmağımı — "İş yeri dəyişdirilsin", "Töhmət verilsin" və s. və ilaxır — tələb edirdi. Aradan nə az — nə çox, düz on üç il sonra həmin fikirləri mən Maarif Nazirinin məruzəsindən eşidəndə (mən o zaman Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda işləyirdim, elmlər namizədi və baş elmi işçiydim) dəhşətə gəldim. Dostlarım, tanışlarım məruzəçini ələ salaraq zarafatla mənə deyərdilər: — "Get, qardaş, ideya-siyasi savadını artır, belə getsə, adını xalq, millət düşməni qoyacaqlar, səni dövlət çevrilişində cəhddə gü-

nahlandıracaqlar".

O zamanlar adamları yerində oturtmağa xidmət eləyən bu əcaib hadisə, sıxma-boğmalar mənə indi də gülməli gəlir. Bu, məncə ictimai quruluşdan asılı olmayaraq yaşadığımız həyatın qeyri-səlis məntiqdən doğan qanunvari əllaməlikdir. O əllaməlik ki, mahiyyətində əxlaq və mənəviyyatdan uzaq hər nə desən vardı.

İşimin çoxluğundan adətim üzrə hər gün məktəbdən axırıncı mən çıxardım. Ertədən üzvlük haqqlarını yığıb müəllimlərin komsomol biletlərini almışdım və sabah möhür vurub qaytaracağımı bildirmişdim. Biletləri stolun gözünə qoydum, siyirtməni çəkib açarla bağladım. Səhər müəllimlər otağına daxil olanda müəllimlərdən ikisinin məndən tez gəldiyini gördüm. Əl verib salamlaşdıqdan sonra yazı masamın arxasına keçdim. Kiçik açarla stolun gözünü açdım. Dərhal məni təəccüb bürüdü. Heyrətimi gizlədə bilmədim.

— Bunları kim edib? — deyə xəbər aldım.

Səkkiz komsomol biletini bir neçə yerə cırıb stolun gözünə qoymuşdular. Sən demə, mübarizə aparan tərəflərə qoşulmadığımdan mən də hədəf seçilmişdim. Kim idi mənim stolumun gözünü açan? Kim idi biletləri cıran? Bu xəyanət nə idi? Mən kimə pislik etmişdim? Bununla yenə nə demək istəyirdilər?

O zamanlar komsomol, partiya təşkilatlarının rolu çox böyük olduğundan bu hərəkətə görə adama çox ağır cəza verə, hətta, həbsə ala bilərdilər. Mən məsələnin ciddiliyini aydın dərk etdiyimdən vəziyyəti rayon komsomol və partiya komitələrinə çatdırdım. Həmin gün rayon partiya komitəsinin ikinci katibi, komsomol komitəsinin birinci katibi və rayon Xalq Maarif Şöbəsinin müdirindən ibarət yoxlama komissiyası məktəbə gəldi. Maarif müdiri məni məktəbi dağıtmaqda, komsomol biletlərini cırmaqda, tədris ocağına ixtilaf salmaqda günahlandırmağa başladı. Komsomolun katibi Tamara Məmmədova çox gənc olsa da, obyektivliyi ilə, kəskin sözü ilə maarif müdirindən çox-çox yüksəkdə dururdu... Bir neçə gündən sonra məsələ Partiya Komitəsinin bürosunda müzakirə olundu. İkinci katib Şölə xanım Damadayeva arayışı oxudu (bu qadın Partiya Komitəsinə yenicə gəlmişdi).





Arayışda yaranmış vəziyyət, direktorun qohumbazlığı, prinsipsiz mövqeyi, məktəbdə söz-söhbət yaratması, intriqabazlığı və sair barədə danışılır, bütün bunların təlim-tərbiyə prosesinə göstərdiyi mənfi təsir şərh olunurdu. Mənim fəaliyyətimə kölgə salacaq heç bir fikir yox idi. Ancaq müzakirə prosesində vəziyyət dəyişdi. Direktor özünümüdafiə mövqeyinə çəkildi, çatışmayan bir sıra məsələləri mənimlə əlaqələndirdi. Maarif müdiri direktoru himayə edərək hamının diqqətini mənə yönəltməyə çalışdı. O, öz çıxışında dedi:

— Ağarəhim müəllim kollektiv arasında söz-söhbət, pis atmosfer yaradır, müəllimləri bir-birinin üstünə qaldırır, təlim-tərbiyə prosesini pozmağa çalışır. Bunun da səbəbi aydındır. Məqsədi məktəbi ələ keçirməkdir. Komsomol biletlərini özü cırmışdır. Bununla direktoru ləkələmək istəyir. Biz buna yol verə bilmərik...

Rayon İcraiyyə Komitəsinin sədri (ilk dəfə görürdüm):

— Mən Ağarəhim müəllimi yaxşı tanıyıram, — deyə sözə başladı. — O, həyətyanı torpaq sahəsində pomidor əkib-becərir. Bu qədər pomidor onun nəyinə lazımdır? Mən şübhə etmirəm ki, Ağarəhim müəllim Rusiyanın şəhərlərində o pomidorları satacaq. Bizim cəmiyyətdə alverin nə demək olduğunu da yaxşı bilirsiniz.

İcraiyyə Komitəsinin sədri danışdıqca büro üzvləri bir-birinə göz vuraraq pıçıldaşırdılar. Mən özümü ələ ala bilməyərək, onun sözünü kəsdim:

— Hörmətli icraiyyə komitəsinin sədri, deyə bilərsinizmi ki, bizim ev, həyət kəndin hansı hissəsindədir: aşağıda, yaxud yuxarıda?

O əvvəlcə duruxdu, sonra özünü o yerə qoymayaraq inamla:

— Aşağı hissəsində, — deyə cavab verdi:

Müəllimlər özlərini saxlaya bilməyib gülüşdülər. Mən:

— Səhviniz var. Kəndin yuxarısındakı birinci ev bizimdir, — dedim.

Kələfi dolaşdırdığından sədrin sifətinə qızartı çökdü. Bu anda məktəbin tarix müəllimi Hüseyn Hüseynov əsəblərini cilovlaya bilməyərək icazəsiz ayağa qalxdı:

— Adam İcraiyyə Komitəsinin sədri olanda vicdanın itirərmi? O cavan oğlana niyə böhtan atırsan? Bəs sənin ləyaqətin? Vicdanın?.. Sən münəcimsənmi? Sən hardan bilirsən ki, o, alverlə məşğul olacaq? Sənə belə böhtan, iftira atsalar dözərsənmi?!

Birinci katib Hüseyn müəllimin sözünü kəsərək:

— Sənin partiya biletini alaram. Bu oğlanı sənin kimilər yoldan çıxarıb. Komsomol biletlərini cırdırmısız. İndi də məsuliyyətdən qaçmaq istəyirsiz...

Hüseyn müəllim birinci katibin sözünü yarımçıq qoydu:

— Sən kimsən, mənim partiya biletimi alasan? Səninlə Mərkəzi Komitədə görüşərik. Orda kim kimi məsələsini həll edərik...

Gözlənilməz cavab hökmlü, sözünün qabağında söz deyilməyən birinci katibi çaşdırdı. O, əvvəlcə bir müddət necə hərəkət edəcəyini bilmədi. Sonra nəsə fikirləşib mövqeyini dəyişdi, bir qədər səmimi oldu.

Müəllimlərin hamısına söz verildi. Onlar mənim günahsız olduğumu göstərir, işgüzarlığımdan, kənd camaatı arasındakı nüfuzumdan danışırdılar. Bu nə direktora, nə maarif müdirinə, nə də rayonun sahibinə xoş gəlirdi. Hər şey əvvəlcədən ölçülüb-biçildiyindən birinci katib tez-tez yumruğunu stola vurur, gah müəllimlərə hədə gəlir, gah da özünü göstərib ciddi-cəhdlə mənim fəaliyyətimi tənqid edirdi. Sonra da o: — Belə bacarıqsız adamı az qala rayon komsomol komitəsinə katib verəcəkdim, —





deyə fikrini yekunlaşdırdı.

Nəticədə mənim iş yerimi dəyişdilər. Doğma məktəbdən qonşu kənd məktəbinə köçürtdülər.

Doğrusu, bunun nə olduğunu indi də başa düşə bilmirəm. Oyunçular hakimlərlə birləşərək topu mənim qapımdan keçirtdilər. Öz-özümə düşünürdüm: əhsən belə büroya! Belə qərara əhsən! Məktəbdə münaqişələri kəsmək, əsl həqiqətləri üzə çıxarmaq, təqsiri olanları cəzalandırmaq əvəzinə, oyun düzəldərək məni işdən kənarlaşdırdılar ki, başqaları ibrət dərsi götürsün. Haqsızların, nadanların oyunbazlığı məni sarsıtmışdı. Direktorun kürsüsünü qoruyub saxlamaq, onun üzünə ağ olanları, yaxud, onunla bir olmayanları yerində oturtmaq üçün vicdanı ayaqlar altına atmaq da, başqalarının taleyi ilə oynamaq da olarmış, İlahi! Bəs büro üzvləri niyə ağızlarına su almışdılar? Vəzifədən ötrü vicdanı itirməkmi?! Bütün bunları nə adlandırmaq olardı? İnsanlığa, haqqa, ədalətə xəyanətmi? Bilmirəm...

Mən qonşu Yuxarı Şilyan kəndində müəllim işləməyə başladım. Hər gün səhər evdən çıxır, avtobusla məktəbə gedir, axşam da qaş qaralanda geri qayıdırdım. Qışın şaxtası, yağışı, qarı məni lap cana gətirmişdi. Səhər-axşam dayanacaqda, yol kənarında maşın gözləməkdən bezmişdim. Evə yorğun-arğın gəldiyimdən dissertasiya üzərində işləməyə də imkan tapmırdım. İnsafən, köçürüldüyüm məktəbin kollektivi xidmətçidən tutmuş direktora, adi kolxozçudan tutmuş kolxoz sədrinə qədər gündə biri məni evinə qonaq çağırırdı.

Bu kəndin qədir bilən camaatının toyunda da, yasında da iştirak edirdim. Səmimiyyətlərinə, qayğıkeşliklərinə görə onlara indi də minnətdaram. Məktəbə də, kənd camaatına da getdikcə isinişirdim, doğmalaşırdım.

Bir gün avtobusdan düşüb evə gedərkən poçtalyon Həsrət kişi mənə bir məktub verdi. Məktub professor Yəhya Kərimovdan gəlmişdi. O, yazırdı: "Ağarəhim, salam! Sənin istedadına

da, bacarığına da inanıram. "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsinə yazdığın məqalələri də diqqətlə oxumuşam, müzakirə edib bəyənmişik. Yeri gəldikcə, onlardan da istifadə edəcəyik. Hazırda Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun ibtidai təlim şöbəsində "Ana dilinin tədrisi metodikası" ixtisası üzrə elmi işçi yeri açılmışdır. Çox istərdim ki, həmin yeri sən tutasan. Bu günlərdə "Azərbaycan müəllimi" qəzetində elan dərc olunacaq. Sənədlərini hazırla, müsabiqə komissiyasına təqdim et.

Hörmətlə, Yəhya müəllim".

Açığını deyim ki, haqqımda çıxarılan ədalətsiz hökmün — yerimin dəyişdirilməsi, hər gün iyirmi kilometr yol ölçərək qonşu kəndə gedib-gəlməyim məni mənən yormuşdu. Nə yaxşı ki, kənd camaatı, şagirdlər günahsız olduğumdan xəbərdar idilər. Heç olmasa, onların üzünə dik baxa bilirdim. Mən yalnız təskinliyimi bunda tapırdım.

Professorun çağırış məktubu məni xeyli cəsarətləndirdi. Artıq hiss edirdim ki, həyatımın mənası hələ qabaqdadır. Hələ tam itirilməmişəm, vurulmamışam...

Professorun məktubunu evdə sevinə-sevinə oxuyarkən cicim də, anam da, həyat yoldaşım da mənə uğurlar arzuladılar. Doğrusu, belə təsəvvür eləmirdim. Elə bilirdim ki, ailədə heç kim mənim Bakıya işləmək üçün getməyimə razılıq verməyəcək. Sən demə, yanılırammış...

Bəli, artıq qərar qəbul olunmuşdu. Elan çıxan həftə sənədlərimi hazırlayıb institutun müsabiqə komissiyasına təqdim etdim. Qırx gün sonra professordan teleqram aldım. Teleqramda deyilirdi:

"Ağarəhim, səni təbrik edirəm. Müsabiqədən keçərək institutda "Ana dilinin tədrisi metodikası" ixtisası üzrə elmi işçi yerini tutmusan. Yığış gəl.

Hörmətlə, Yəhya müəllim".

Sən demə, institutun adından Rayon Xalq Maarif Şöbəsinə





teleqram da vurulmuş, işdən azad olunmağım xahiş edilmişdi...

Bir neçə gün ərzində işlərimi sahmana salıb Bakıya yola düşdüm. Bu, köhnə həyatın sonu, yeni həyatın başlanğıcı idi...

## ...HƏR GƏLƏN BAXAR GEDƏR...

**Bir saat elm öyrənmək, altmış illik ibadətdən üstündür.**
***Həzrəti Məhəmməd Əleyhissəlam***

Adi, sadə kənd müəllimliyindən sonu görünməyən, olduqca çətin bir həyata atıldım. Elmə olan böyük həvəsim, ağsaçlı professorun çağırış məktubu məni Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna gətirib çıxartdı. İnstitut indiki İstiqlaliyyət küçəsindəki (o zamanlar "Kommunist" adlanardı) 11/13-cü ("Bakı Soveti" metrosu ilə üzbəüz) binanın beşinci mərtəbəsində yerləşirdi.

O vaxtlar institutun direktoru professor Nurəddin Kazımov idi. Görkəmli didakt, güclü məntiqi olan Nurəddin müəllimi son dərəcə ciddi, ancaq olduqca ürəyiyumşaq, təmkinli, qəti sözlü bir alim kimi tanıdım. Elmi işlər üzrə direktor müavini, istedadlı alim, müəllimlər arasında böyük nüfuz qazanan Zahid Qaralovu. O, başqalarından sadəliyi və təvazökarlığı, səmimiliyi, xeyirxahlığı, işgüzarlığı və təşəbbüskarlığı ilə seçilirdi. Lap əsəbi vaxtlarında da adamı axıra qədər dinləyər, faydalı məsləhətlərini verərdi.

Şöbəmizdə müxtəlif ixtisaslar üzrə mütəxəssislər — pedaqoji elmlər namizədləri, baş elmi işçilərdən Əliağa Şükürov (əmək təliminin tədrisi), Ziyad Osmanov (riyaziyyatın tədrisi), Məhəbbət Cabbarova (təbiətşünaslığın tədrisi), Vidadi Xəlilov (estetik tərbiyə), Hənifə Cəfərli (məktəbəqədər tərbiyə müəssisələrində nitq inkişafı), kiçik elmi işçilərdən Hidayət Ələkbərov

(təsviri incəsənətin tədrisi), Elmira Cəfərova (məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə işinin təşkili), Ellada Həsənova (laborant) çalışırdı. Şöbənin müdiri ibtidai siniflər üçün ana dili üzrə proqramların, bir çox dərsliklərin, dərs vəsaitlərinin müəllifi, pedaqoji elmlər doktoru, professor Yəhya Kərimov iydi. O illərdən bəri "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsinə redaktorluq edirdi.

İnstitutun rəhbərliyi və şöbənin əməkdaşları məni son dərəcə qayğıkeşliklə qarşıladılar. Yəhya müəllimin məsləhəti və özümün arzuma uyğun tədqiqat mövzusu seçib planlaşdırdım. Hər gün Azərbaycan və rus dillərində olan pedaqoji ədəbiyyatı oxuyar, məktəblərdə olar, faktlar toplayardım. Ayrı-ayrı şöbələrdə aparılan tədqiqatlarla maraqlanar, təcrübəli elmi işçilərdən məsləhətlər alardım. İnsafən, kimə yaxınlaşsaydım, mənə böyük qayğı ilə yanaşar, lazımi məsləhətlərini verərdilər. Şöbələrdə, elmi şuralarda, elmi işlərin nəticələrinə həsr olunan seminarlarda, elmi-praktik konfranslarda söylənilən mülahizələrdən çox faydalanardım. Kitabxanada, şöbələrdə, iclaslarda qızğın mübahisələr gedərdi. Gənc tədqiqatçıların, aspirantların yetişməsi üçün burada hər cür imkan, hər cür şərait yaradılmışdı.

İşlədiyim iki ayiydi. İnstitutun direktoru Nurəddin Kazımovu V.İ.Lenin adına APİ-yə (əvvəllər belə adlanırdı) elmi işlər üzrə prorektor göndərdilər. Zahid Qaralov onun yerinə direktor, Yəhya Kərimov direktor müavini vəzifələrinə təyin olundular. Şöbəyə rəhbərliyi isə Əlağa Şükürova tapşırdılar.

Yəhya müəllimin rəhbərliyi altında respublikada "Altıyaşlıların məktəbə hazırlanması", "Hazırlıq siniflərində işin təşkili", "Altı yaşdan təlimə başlanması" problemləri üzrə tədqiqatçılar qrupu yaradaraq respublikanın müxtəlif rayonlarında yerləşən uşaq bağçalarında və məktəblərdə eksperimental tədqiqatar aparırdıq. Əvvəlcədən şöbədə hazırlanmış materialları, fərziyyələri eksperimentə qoyurduq. Aldığımız nəticələri obyektlərdə sınaqdan keçirirdik. Elmi-praktik konfranslarda, seminar-müşavirələrdə, toplanışlarda, "Pedaqoji mühazirələr"də, müəllimləri təkmilləşdirmə institutlarında pedaqoji ideyaların, əldə olunan yeniliklərin yayılmasına çalışırdıq. Tədqiqatlar kitab, kitabça, jurnal və qəzet məqalələri şəklində çap olunurdu.





Həftənin cüt günləri məktəblərdə, kitabxanalarda olar, təcrübədən, kitablardan toplanan materialları, faktları həftənin tək günləri institutda saf-çürük edir, qruplaşdırır, ümumiləşdirilmiş nəticələrə gəlirdim. Respublikanın şəhər və rayon müəllimləri arasında ibtidai siniflər üçün proqramların, dərsliklərin müntəzəm müzakirələrini keçirir, onlar haqqında söylənilən müvəffəq və nöqsan cəhətləri qeydə alırdım. Hər müzakirədən sonra proqram və dərsliklər haqqında söylənilənləri çıxış edənlərin öz adından verirdim. Yeri gəldikcə, öz şəxsi mülahizələrimi də bildirməkdən çəkinmirdim. İllər keçdikcə həm tədqiqatçılıq təcrübəm, həm də nəzəri biliklərim artırdı. Elmi fəaliyyətimdə həyat mənim üzümə gülürdü. Hər dəfə çətinliyə düşən kimi professor Yəhya Kərimovun, professor Əziz Əfəndizadənin, professor Zahid Qaralovun, professor Şəmistan Mikayılovun yanına gedir, elmi məsləhətlər alırdım. İnsafən, onlar da mənə böyük qayğı göstərir, öz məsləhətlərini verirdilər. Gündüzlər təcrübələr keçirir, axşamlar gah şöbənin tədqiqat işinin, gah namizədlik dissertasiyamın formalaşdırılması üzərində işləyir, gah da namizədlik minimumu imtahanlarına hazırlaşırdım.

Mən Yəhya müəllimin simasında təkcə elmi məsləhətçimi yox, həm də yaxın sirdaşımı, dostumu görürdüm. Bir dəfə iş gününün axırı idi. İnstitutun əməkdaşları yığışıb getmişdilər. Stolumun üstünü yır-yığış edərək yazı-pozularımı portfelə qoydum. Dəhlizə çıxanda Yəhya müəllimi otağında "qocaman aspirantı" Zahid Kərimovla gördüm. Professorun başı qarışıq olduğundan, aspirantına məsləhətlər verdiyindən vaxtını almaq istəmədim. Sadəcə, onlarla xudahafizləşdim. Lift işləmədiyindən pilləkən-

ləri ayaqla düşməli oldum. Üçüncü mərtəbəyə çatmışdım ki, ayağım sürüşdü. Yıxıldım və pilləkənlərlə üzüaşağı dığırlanmağa başladım. Çox çətinliklə özümü saxladım. Ancaq sol ayağımdakı topuğumun ağrısından ayağa qalxa bilmədim. Bu vaxt 50-55 yaşlı bir kişi qolumdan tutub ayağa qalxmaqda kömək elədi. Mən bir ayağı üstə duraraq divara söykəndim. O, dərhal üçüncü mərtəbədəki otaqların birindən stul gətirib məni əyləşdirdi. Sonra professorun telefon nömrəsini həmin kişiyə verib, ona zəng çalmasını xahiş etdim. Çox keçmədi ki, professor öz aspirantı ilə köməyə gəldi. Ayağım xeyli şişdiyindən ayaqqabım ayağıma olmurdu. Şalvarın da balağı qıçıma pərçimlənmişdi. Professor bunu görcək təcili tibbi yardım məntəqəsinə zəng vuraraq həkim çağırdı. Onlar gəlincəyə qədər ayağımın, qıçımın şişi xeyli artdı... Həkimin məsləhəti ilə xəstəxanaya getməli oldum.

Professor və aspirantı hərəsi bir tərəfdən qoluma girərək, məni təcili tibbi yardım maşınına gətirdilər. Sonra da xəstəxanaya apardılar. Həmin axşam ayağımı rentgendən keçirtdilər. Topuq sümüyündə çat yarandığını bildirdilər. Xəstəxanada qalmağa qəti etiraz etdim. Professorun xahişi ilə maşın məni kirayənişin qaldığım mənzilə gətirdi. Yəhya müəllimin, Zahid Kərimovun köməyi ilə çarpayıya uzandım. Evdə tək yaşadığımdan həmin gecə bu qocaman aspirant mənimlə qalmalı oldu. Ertəsi gün professor oğlu Vaqifi kömək və qayğı üçün mənim yanıma göndərdi. O, tez-tez çay-çörək hazırlayır, ayağa qalxa bilmədiyimdən stolu çarpayımın yanına çəkır, məni yeməyə məcbur edirdi. Bir neçə vaxt beləcə yaşadım. Hər gün professor özü, şöbəmizin əməkdaşları mənim yanıma gəlir, duzlu, məzəli söhbətləri ilə başımı qatır, darıxmağa qoymurdular. Doğrusu, yoldaşlarımın nəzakəti, diqqəti, qayğısı məni sıxır, utandırırdı. Onların hər birinə necə minnətdarlıq edəcəyimi də bilmirdim.

Professorun mənə qayğısı, diqqəti bir idimi, beş idimi?.. O,





mənim maddi imkansızlığımı başa düşmüşdü. Hər dəfə bir bəhanə ilə mənə mövzu verir, işlədir, onun gah jurnalda, gah da qəzetlərdə çap etdirilməsinə çalışırdı. Təki mənə beş-üç manat qanorar yazılsın.

Professor kirayənişin yaşayışım üçün çox narahat olsa da, mənə ürək-dirək verirdi. Məni kefsiz görəndə böyüyüb boya-başa çatdığım rayona, bəzən də ətraf rayonlara ezamiyyət təşkil edir, "Qayıdanda ailənə də, uşaqlarına da baş çəkərsən", — deyirdi.

Bakıda kirayənişin yaşamaq, qəpik-quruşla dolanmaq, ailənin ağırlığı getdikcə məni sıxırdı. Çıxış yolu tapa bilmirdim. Son vaxtlar şəhərə gəlişimin peşimançılığını çəkməyə başladım. İki dəfə ərizə yazıb işdən çıxmaq, rayona qayıtmaq qərarına gəldim. Ancaq Yəhya müəllimdən, onun mənə göstərdiyi etimaddan utanırdım, çəkinirdim...

Bir dəfə professor Kiyev şəhərindən ezamiyyətdən qayıtmışdı. Onunla dəhlizdə qarşılaşdım. O, birinci mənə əl uzadaraq hal-əhvalımı, uşaqlarımın vəziyyətini xəbər aldı. Mən gülümsəyərək: — Hər şey yaxşıdır, — deyə cavab verdim. O: — Şükür, şükür, — deyə qoluma girdi və məni öz otağına apardı. Qoltuğundakı kağız bağlamanı stolun üstünə qoyaraq: — Aç, gey, görüm, necədir? — deyə mənə işarə etdi.

Mən diqqətlə professorun üzünə baxdım. O, yenidən təkrar etdi: — Kiyevdən iki dəst kostyum almışam. Biri mənim, biri sənin. Baxma üzümə, götür gey, nə vaxt pulun olar, onda əvəzini qaytararsan...

Mənim tutulduğumu görcək professor kağız bağlamanı açdı və pencəyi tutaraq geyməyimi tələb etdi.

Kostyumu sanki ən mahir dərzilər mənim üstümə biçib-tikmişdilər. Mən kostyumu kağıza bükərək, götürdüm, utana-utana professorun otağından çıxdım.

Səhəri gün Yəhya müəllim bizim şöbəyə gələrək dedi:

— Ağarəhim, Respublika Təkmilləşdirmə İnstitutunda

müəllimlərə ana dilinin tədrisi metodikasından mühazirələr oxumaq lazımdır. Şöbədə aparılan tədqiqatların nəticələrini biz müəllimlərə çatdırmalıyıq. Ancaq mənim buna vaxtım yoxdur. Hazırlaş, o dərsləri sən aparacaqsan...

Mən professora nə "hə", nə də "yox" deyə bildim. Maddi ehtiyacımı nəzərə alaraq, professor mənə növbəti qayğısını göstərirdi. O, hər dəfə məndən qəzetdə, jurnalda məqalələrlə çıxış etməyi təkid edirdi. Mətbuatda müntəzəm çıxışlarıma görə aldığım qonorarlarla ev kirayəsini verirdim. Maddi vəziyyətim getdikcə düzəlməyə başlayırdı. Yaradıcılıq səriştəm, iş sürətim də artırdı. Namizədlik dissertasiyasını üç ilə tamamladım. Lakin respublikada müdafiə şurası olmadığından əsərin müdafiəsi gecikdi.

Sovetlər birliyi dövründə Ali Attestasiya Komissiyası Moskvada fəaliyyət göstərirdi. Müttəfiq respublikalarda müdafiə şuralarına onlar razılıq verirdilər. On beş ilə yaxın bir müddət ərzində Azərbaycanda pedaqoji elmlər üzrə şura olmadığından həm namizədlik, həm də doktorluq dissertasiyalarının müdafiəsi ləngiyirdi.

Mən əlacsızlıqdan müdafiəmlə əlaqədar məktubla Ali Attestasiya Komissiyasına müraciət etdim. Mənə Sankt-Peterburq (o zamanlar bu şəhərin adı Leninqrad idi) şəhərində fəaliyyət göstərən pedaqoji institutda müdafiə etməyi məsləhət bildilər. Düzü, mənim buna maddi imkanım yox idi. Bir müddət sonra özüm Ali Attestasiya Komissiyasına getməli oldum. Orada Sergey Sokolovla görüşdüm. O, son dərəcə mədəni, həssas bir adam idi. Axıra qədər məni dinlədi. Namizədlik dissertasiyasının mövzusu, hazırlanması, əldə olunan nəticələr, çap olunan məqalələr, kitab və kitabçalar haqqında məlumat verdim. O, xeyli fikrə getdi. Sonra: — "Azərbaycana sənin dissertasiyanın müdafiəsi ilə əlaqədar birdəfəlik müdafiə şurası verərik", — deyə bildirdi. Sonra Ali Attestasiya Komissiyasına təqdim olunacaq sənədlə-





rin siyahısını mənə verdi...

İnstitutumuzun direktoru, professor Zahid Qaralovun və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rektoru, Respublika Elmlər Akademiyasının müxbir üzvü, professor Afat Qurbanovun xeyirxahlığı nəticəsində tezliklə sənədləri hazırladım və poçtla AAK-a göndərdim. Bir ay keçməmiş APİ-nin filologiya elmləri üzrə Müdafiə Şurasında müdafiəmin təşkili üçün Rəyasət Heyətinin razılıq sərəncamını aldım. "I sinifdə şagirdlərin şifahi monoloji nitqinin inkişafı üzrə işin sistemi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etdim. Altı ay sonra işlədiyim ibtidai təlim və məktəbəqədər tərbiyə şöbəsinin müdiri seçildim. Respublikada ibtidai təlim problemi üzrə tədqiqatlar qrupuna rəhbərlik etməyə başladım. İbtidai siniflərdə təlimin məzmunu, metod və priyomların təkmilləşdirilməsi, tərbiyə işinin səmərəli təşkili və s. üzrə tədqiqatlar apardıq.

Eksperimental tədqiqatların nəticələri Maarif Nazirliyinin Kollegiyasında, keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyasında təşkil olunan simpoziumlarda, müşavirələrdə müntəzəm müzakirə edilirdi.

Moskva Fiziologiya İnstitutu ilə birlikdə apardığımız tədqiqatlar zamanı qarşılaşdığım bir məsələ məni indi də düşündürür. Sentyabr ayının axırları idi. Üç nəfər moskvalı fizioloq qadınla Tovuz rayonunun Bozalqanlı kənd orta, Şəmkir rayonunun Yeni Həyat kənd səkkizillik, Zaqatala rayonu Muxaq kəndindəki orta və Bakı şəhərindəki 3, 13, 54 nömrəli məktəblərdə xüsusi yaddaşla yoxlamalar apardıq. Bu zaman məni təəccüb bürüdü. Tovuz və Şəmkirli uşaqların bel sütununda əyrilik müşahidə edilirdi. Zaqatala məktəblilərinin qanının rənginin sarılığı Şəmkir, Tovuz və Bakı məktəblilərinkindən fərqlənirdi. O zamanlar belə qənaətə gəldik ki, uşaqların bel sütununun əyilməsinə səbəb Şəmkir və Tovuz zonasında soğan və kartof əkilib becərilməsindəki iştirakları olmuşdu. Zaqatala məktəblilərinin qanının

rənginin sarılaşmasına səbəb isə həmin zonada onların kiçik yaşdan tütünçülük işlərinə cəlb edilmələri idi.

Moskvalı fizioloqlar, psixoloq və pedaqoqlarla aparılan əlbir iş məni daha geniş istiqamətdə tədqiqatlara qoşdu. Seçdiyim "Azərbaycan dilindən sintaksisin tədrisinin nəzəri və praktik əsasları" mövzusunda doktorluq dissertasiyasını az müddətdə tamamlayaraq müdafiə etdim. Sonrakı illərdə dördüncü sinif üçün "Azərbaycan dili", ali məktəblərin pedaqoji fakültə tələbələrinə "İbtidai siniflərdə ana dilinin tədrisi metodikası" dərsliklərinin, "Şagirdlərin obarzlı nitqinin inkişafı", "Azərbaycan dili təliminin səmərəli təşkili", "Şagirdlərin monoloji nitqinin inkişafı", "İfadəli oxunun səmərəli təşkili". Bədii materiallar əsasında dilin təsvir vasitələri üzərində iş", "İbtidai siniflərdə oxu təlimi" və bu kimi xeyli sayda monoqrafiyaların, kitab və kitabçaların, jurnal, qəzet məqalələrinin hazırlanıb çap etdirilməsinə nail oldum.

Deyirlər, yaradıcılıq ilahi bəxşeyişdir. İstər elmi olsun, istərsə də bədii. Fərqi yoxdu, xeyli sayda elmi əsərin müəllifi olsam da, tək-tək kiçik cızma-qaralarım nəzərə alınmazsa, bədii əsər yazmaq heç vaxt ağlıma gəlməzdi. Bədii qələm sahiblərinə həmişə qibtə eləyər, onlara əlçatmaz bir varlıq kimi baxardım. Yazdıqlarını möcüzə sanardım. Məni qınamayın, indi də elə düşünürəm. İnsan həyatının keşməkeşli anları, dolanbacları çox olur. Bəzən hara gedirsən, nəylə qarşılaşırsan, nə düşünürsən, nə tapırsan, heç özün də düz-əməlli bilmirsən. Özün üçün xoşbəxtlik arzulayırsan, gözlənilmədən bədbəxtliyə düçar olursan. Ölüm anlarında bəzən sənə firavanlıq təlqin eləyən həyatın şəhşəkərini dadırsan… Beləcə, haldan-hala düşürsən. Qismətinə düşən tale yollarını aramalı olursan. Hərdən düşünürəm, kim addamayıb belə yollarla?! İnsan özü möcüzə olduğu kimi, yaşadığı dünya da, ömür yolları da möcüzələrlə doludu… — Hər gecənin gündüzü var — deyiblər. Batan günəşin doğan səhəri par-





laq olur. Həyatın acıları bəzən şirin anlar vəd eləyir. Hər dəfə zirvədən qanrılıb keçdiyim yollara nəzər salanda qəhərlənməyə bilmirəm. Acılarım ağrı, dərd, kədər, qəm verir mənə. Şirini qəlbimi riqqətə gətirir, sevindirir, fərəhləndirir… Olub-keçənləri gözlərim önünə gətirirəm… Götür-qoy eləyirəm. Mənə sarsıntı, utanc gətirəcək ciddi qəbahətim olmadığı qənaətimə gəldikcə yaradanıma şükürlər oxuyuram. Bədii yaradıcılığa başlayanda qırx səkkiz yaşım vardı. Bu sahədə ilk dəfə qələmimi sınadım. Fikirlərimi, düşüncələrimi kağıza köçürtdüm. Ona ad qoydum: "Yaddaşda yaşar xatirələr". Əslində bu xatirələr bir ailənin tarixçəsiydi. Alındı-alınmadı, deyənmərəm. Mən onu makinadan çıxarıb professor Akif Abbasova verdim. O, hərdənbir bədii yaradıcılıqla məşğul olurdu. Bədii tərcümələr eləyirdi. Mən ona dedim: "Oxu, gör ağıl kəsən bir şey varsa, onu çapa verək". Bir həftə keçər-keçməz Akif yazını mənə qaytardı və astadan bildirdi: "Oxudum, bu, hamının həyatında olan şeydi…" Daha mən bir söz demədim. Hardasa, içimdə Akifə haqq da qazandırırdım. Bir neçə gün keçmiş dosent Ənvər Abbasovla kabinetdə görüşdük. Xeyli söz-söhbətdən sonra bu yazım barədə sirrimi ona da açdım. Ənvər: — Ver, mən də oxuyum — deyib üzündə zəif, işıqlı bir təbəssümlə mənə baxdı. Etiraz eləmədim. Həftənin sonuydu, qovluq qoltuğunda Ənvər başını bulaya-bulaya otağıma daxil oldu. Görüşdük. İlk sözü belə oldu: "Səni təbrik eləyirəm, yazı məni silkələdi. Etiraz eləməsən, mən buna ön söz yazardım". Mən: — Böyük məmuniyyətlə — deyə cavab verdim. Təqribən yeddi-səkkiz ay sonra kitab işıq üzü gördü… 1996-cı ilin payızında "Canavar balası" bədii əsərim doğuldu. Yazılar da insanlar kimi olurlar: bəxti gətirənlər və qaragünlülər. "Canavar balası" birincilərdən oldu. O, "Mütərcim" jurnalında dərc olunandan bir ay keçər-keçməz Akademik Milli Dram Teatrının rejissoru Mərahim Fərzəlibəyov mənim otağıma gəldi. Onun çöhrəsində işıqlı bir təbəssüm doğdu. O, astadan dedi:

Ağarəhim müəllim, sizin "Mütərcim" jurnalında "Canavar balası" əsəriniz çap olunub. Onu iki dəfə oxumuşam. Əsər aktualdı. Milli xüsusiyyətlərə əsaslanır. Milli etnik yaddaşı, kökə qayıdışı özündə ehtiva eləyir, ədalət və həqiqət axtarışları… sayəsində güclü vətəndaş səylərini birləşdirir. Bir sözlə, əsər xoşuma gəlib, istəyirəm onu lentə alam". Doğrusu, bu gözlənilməz təklif mənə yuxu kimi göründü. Nə deyəcəyimi bilmədim. İnamsız halda dedim: "Mərahim, o mənim ilk bədii yazımdı, orda qeyri-adi nə var ki? Sadəcə dolmuş ürəyimi boşaltmışam. Məni dilədişə salma". Beləcə əsərin çəkilişindən boyun qaçırdım… Sonralar da təkrar-təkrar Fərzəlibəyovla bu söhbətə qayıtdıq. Çox götür-qoydan sonra axır ki, o, məni inandırdı. Razılaşdıq. Aktyor trubbasını müəyyənləşdirdik. Hər bir artistlə özüm də söhbət elədim. Yazın əvvəlində böyük həvəslə çəkilişə başladıq. Tez bir zamanda "Canavar balası" kinossenarisi ekrana çıxdı. Kinonun ilk baxışındakı rəylər, kütləvi informasiya vasitələrindəki müxtəlif çalarlı çıxışlar, ilhamlandırıcı mülahizələr məni növbəti yazıya girişməyə şirnikdirdi. "Gəlinqayada qoşa məzar" povestini yazdım. Onun motivləri əsasında "Qırmızı qar" kinossenarisini hazırladım. Bu əsər də müvəvəqiyyətlə kino həllini tapdı. Bunlar mənim yazıb-yaratmaq həvəsimi artırdı. Bədii yaradıcılığa gözlənilməz gəlişim belə oldu…

Sonralar dolan ürəyimi bir-birinin ardınca yazdığım "Ulu kəndim", "Fırıldaqçı Niftulla", "Taleyin hökmü", "Mənim qəribə taleyim", "Bank əməliyyatı", "Əcəl təri", "Meteor parçası", "General", "Tənha çinarın pıçıltıları" povestlərimdə, "Qoşa qanad", "İkili dünyam", "Ovlaq keçidi", "Səfalət", "Girdab", "Cinayət və etiraf", "Təxribat", "Mürdəşirlər adası", "Duyğuların kabusu", "İmtina" romanlarımda, "Canavar balası", "Xəyanət", "Haray", "Əl əli yuyar", "Maska", "Məhəbbət və cinayət", "Nə tökərsən aşına...", "Bir bezin qıraqları", "Vicdan məhkəməsi", "Əcaib macəranın nadürüst tipləri", "Əsgər anası", "Daşqala əməliyyatı", "Cinayət yox, qətl", "Qadın hikkəsi", "Düdəməli qalmaqalı", "Namərd körpüsü", "Şərikli uşaq", "Daşqala əməliyyatı", "İblisin oyunu", "Dünyanın beş günü", "Xanımın desant batalyonu", "Hörümçək toru", "Qatı cinayətkarlar", "Cələkəsənlər", "Xəcalət", "Qızıl əllər" pyeslərimdə, "Allahla ünsiyyət", "Ölüm və ölməzlik", "Zəka simfoniyası", "Qüdrətdən doğan nur" fəlsəfi esselərimdə, yüzdən artıq hekayə və düşüncələrimdə boşaltdım. "Bazar həngaməsi və ya gicbəsərlər", "Kələkbazlar", "Ala qarğa", "Quzğun", "Qanaqan", "Dişi canavar", "Uçurum", "Kabus", "Sevgi axtarışları" kinossenarilərini yazdım. Pyeslərdən "Məhəbbət və cinayət", "Əsgər anası", "Pul hərisləri" səhnə həllini tapdı. Sonralar bədii əsərlərimin əsas məzmunu, başlıca qayəsi və ideya istiqamətlərinə "Məni duyan gərəkdi" toplusu, prof.Ə.Əlizadənin "Kökün və sözün yaddaşı", "Sözün divanı və vətəndaş yanğısı", "Sənət və şəxsiyyət", "Bir nəsrin poetikası", "Həyat həqiqətləri və bədii gerçəklik" prof.N.Məmmədovun "Nəsrin axarı: zaman və məkan konteksti", prof.A.Bədəlzadənin "Zamanın üzü və yazıçının sözü", "Qələmin ucu, qılıncın gücü", prof.B.Əhmədlinin "Dramaturq: sənət və həqiqət", prof.İ.Kazımov və X.Xəlilovun "Ağarəhim Rəhimov bədii nəsrinin dil və üslub özəlliyi" monoqrafiyaları həsr olundu. Heç şübhəsiz ki, bunların hər biri mənim ədalət və həqiqət axtarışlarımın məntiqi nəticəsinə, yuxusuz gecələrimin məhsuluna əsaslanmışdı.

## ƏZABLI GÜNLƏRİM

**Dərd əlindən dağa çıxdım,**
**dedilər məcnuna dönüb.**
*Atalar sözü*

Kənddən gələli kirayənişin yaşamaq üçün ev tapa bilmədiyimdən Soyuducular Zavodunun yataqxanasında yaşayan şagird həmkarım Əli Babayevin yanına gəldim. O, gündüzlər zavodda işləyir, axşamlar İnşaat Mühəndisləri İnstitutunda oxuyurdu. Cavan olsa da zəhmətkeş, çətinliklərə dözməyi bacaran, sözünün-söhbətinin yerini bilən, dostluqda möhkəm, qayğıkeş bir oğlan idi. Doğrusu, mənim şəhərə gəlməyim onu çox sevindirdi. Kirayə ev tutmaq istəyimi bildirdikdə Əli qəti etiraz edərək: — Bir yerdə qalarıq, sənə şərait yaradarıq, oxuyarsan, işləyərsən, — dedi.

Onlar otaqda üç nəfər qalırdılar. Axşam dərsi olmadığından Əli ilə şəhərə çıxdıq, mənə lazım olan bəzi ev əşyalarını aldıq. Yaxınlıqdakı ərzaq dükanlarının yerini öyrəndim. Sonra yataqxanaya qayıtdıq. Otaqda iki cavan oğlan var idi. Əli məni onlarla tanış etdi:

— Rafiq zavodda fəhlə işləyir. Bakı Dövlət Universitetinin axşam şöbəsində oxuyur. Tofiq də bizimlə işləyir. O, Xalq Təsərrüfatı İnstitutunda axşam oxuyur.

Sonra üzünü mənə tuturaq:

— Ağarəhim müəllim rayondan bu gün gəlib. Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda işləyəcək. Mənim sinif yoldaşımdır. Etiraz etməsəniz, birlikdə qalarıq.

Dostlar mənə əl verdilər. Yaşadığımız otağa bir çarpayı da aldıq. Kənddən özümlə gətirdiyim yatacağı çarpayıya sərdik. Həmin gün axşamdan xeyli keçənədək söhbət elədik.

Mən fəhlə əməyinin şan-şöhrəti, qüdrəti, fəhlə ləyaqəti





haqqında dərsliklərdən, bədii ədəbiyyatdan çox oxumuşdum, kinofilmlərdə tanış olmuşdum. Lakin birlikdə yaşadığımız vaxtlar hər şeyi gözlərimlə görürdüm. Onlar səhər tezdən yataqdan qalxar, biri çay qoyar, ikincisi yemək hazırlayar, üçüncüsü süfrə açardı. Duzlu, məzəli müraciətlərlə bir-birinin əhvalını yüksəltməyə çalışar, sonra da yeyib-içib otaqdan çıxardılar. Mən onların ürəyinin genişliyinə, səmimiyyətinə, yüksək insanlığına heyran qalırdım. Dərdləri, sevincləri, kədərləri bir idi. Bu otağın sakinləri doğma bir ailəni xatırladırdı. Hər biri nə qədər çətin olsa da, işləməyim, oxumağım üçün mənə lazım olan şəraiti yaradırdı. Doğrusu, onlara artıq yük olduğumu hiss edirdim. Bir söz deməsəm də, özlüyümdə sıxılırdım, utanırdım. Bir müddət birlikdə yaşadıqdan sonra 30 manata Keşlədə bir kirayə otaq tutdum. Ağır-yüngülümü götürüb, Əlinin köməyi ilə ora köçdüm. Geniş və işıqlı olan bu otaqda oxuyub-yazmaq üçün hər cür şərait vardı.

Bəxtimdən ev sahibi də qanacaqlı bir adam idi. Nə vaxt gəlib-getdiyimlə, evə kimlərin gəlməsi ilə, elektrik lampasının az və ya çox yandırılması ilə qətiyyən maraqlanmırdı. Hərdənbir məni çaya da, yeməyə də dəvət edirdi. Bir həftəlik, on günlük ezamiyyətlərə gedəndə yaşadığım mənzilin qapısını belə bağlamırdım. Qayıdanda otağımı sahmana salınmış görürdüm.

Məvacibim aylıq xərcimi ödəmirdi. Mənzil kirayəsini tez-tez gecikdirirdim. Bəzən də iki-üç aylıq kirayəni bir dəfədə verirdim. Ev üçün, ailə üçün darıxsam da, yavaş-yavaş şəhər mühitinə, kirayənişin həyatına uyuşurdum. Ayda bir-iki dəfə kəndə gedir, ailəyə, uşağa əl tutmaq əvəzinə, evdən şəhərə şor, pendir, qatıq, yağ, mürəbbə, yumurta, çolpa, meyvə gətirir, bir müddət onlarla dolanır, yalnız çörəyə pul verirdim.

Kiçik elmi işçi kimi institutdan doxsan manat maaş alırdım. Ondan da otuzunu ev kirayəsi verir, altmışı ilə bir ay dolanırdım. Hər günümə iki manat, hər naharıma isə təqribən əlli beş qəpik

düşürdü. Rayona ailə-uşaq yanına getməyə pulum çatmırdı.

Açığını deyim ki, dərd-sər məni götürmüşdü. Hey fikirləşirdim, çıxış yolu axtarırdım. Tapa bilmədiyimdən öz-özümə əsəbiləşirdim... Ailə, uşaq qayğısı, kirayə yaşamaq... İmkansızlıq!.. Az maaş!.. Əlləri işdən qalan ağbirçək cicim, anam!.. Böyüyüb ev-ailə sahibi olacaq bacı-qardaşlarım!.. Onların hamısı məndən qayğı tələb etdiyi, imdad gözlədiyi halda, mən öz hayımda idim.

Çətinliklər məni təngə gətirirdi. Dərd əlindən hamıdan qaçırdım. İçimdə qururdum, yaradırdım, bəzən həqiqəti düşünəndə, hər şey gözlərim önündə uçulub-dağılır, tar-mar olurdu.

Sonra da "Özü yıxılan ağlamaz" — atalar sözünü yadıma salır, öz-özümə təskinlik verirdim:

— Dözmək, dözmək gərəkdi... Başqa çıxış yolu yoxdu. Daha kəndə qayıda bilmərəm. Qayıtsam da, hamı məni qınayacaq:
— Nüsrətin oğlu getdi alim olmağa, şəhərdə dolana, baş çıxara bilmədi, qayıdıb gəldi.

Gündəlik həyatım beləcə ağır və acı təssüratlar içərisində keçirdi. Bir gün səhər kirayənişin yaşadığım evin qapısı döyüldü. Gələn İnşaat Mühəndisləri İnstitutunda təhsil alan kiçik qardaşım Əlinüsrət idi. O, kənddən, kəsəkdən, ev-eşikdən, qohum-əqrabadan xeyli danışdıqdan sonra söhbətinə ara verdi. Haçandan-haçana iki gün əvvəl kənddə güclü tufan olduğunu bildirdi. Tufandan kəndin mal-qarasının tələfata uğradığını, əkin-biçinə xeyli zərər dəydiyini, ağacların qol-budaqlarının qırılıb töküldüyünü, bəzi ağacların kökündən qoparıldığını, dam-daşların, köhnə tikililərin uçulub söküldüyünü söylədi.

Ancaq tufanın bizə vurduğu zərərdən söz açmayan qardaşım üzünü pəncərəyə tərəf çevirərək, baxışlarını məndən gizlətməyə çalışdı. Şübhələndiyimdən dərhal sual verdim:

— Tufan hər tərəfi dağıdıb-töküb deyirsən, bəs o bizim həyət-bacanı, evi tutmayıb? Heç bu haqda danışmırsan? Xeyir ola?

— Yox, qardaş, bizim evi də tutub.





— Bizə vurduğu zərər nədi?

— Bir balaca evimizin divarı yarılıb.

— Necə yəni, bir balaca?

— Hə, yağışın suyu evi basdı. Suyun axması üçün yol tapa bilmədik. Evin arxa divarı yarıldı.

— Vəziyyəti məndən gizlətmə. Açıq danışaq.

— Bilirsən, evi təmir etdirmək lazımdır.

— Çox yaxşı, içəridən baxanda çöl görünür?

— Qardaş, məni çox sorğu-suala tutursan... Səndən nə gizlədim. Evimizin arxa divarı uçub. Təzə ev tikdirməliyik.

Doğrusu, məni vahimə bürüdü. Dolanacağımız nə idi ki, evimiz də bir tərəfdən uçsun. Belə vəziyyətdə atalar yaxşı deyiblər: "Dərd dərd gətirər", "Əri döyən arvadı it də bir tərəfdən tutar".

Mən instituta gedib vəziyyəti professor Zahid Qaralova söylədim. O, mənə təskinlik verərək dedi:

— İndi nə fikirləşirsən? Yerli materiallardan istifadə etməklə evi bərpa etmək, yaxud, təzəsini tikmək olar. Yaydır. Vaxt itirmək olmaz. Sənə icazə verək. Get, qohum-əqrabanı başına yığ. Soyuqlar düşənə qədər ev tikib ailəni ora köçürt. Başqa yolu yoxdur. Çətinliyin olsa, mənə de...

Zahid Qaralovda bir doğmalıq duydum. Həmin gün kəndimizə gəldim. Vəziyyət düşündüyümdən də ağır idi. Evin arxa divarı uçmuşdu. Bütün ailə bir otağa yığışmışdı. Həmin otağın da divarlarının uçmayacağına ümid yox idi.

Mən vaxt itirmədən, qohum-əqrabanın yeniyetmə, cavan oğlanlarını, qardaşlarımı toplayıb işə nədən və necə başlayacağımızı götür-qoy elədim. Kəndin torpağı gil olduğundan imkansız kənd camaatı tikintidə özləri kəsdikləri çiy kərpicdən istifadə edirdi. Biz də belə etdik. Kəndin kənarındakı düzəndə torpaq tökərək palçıq hazırladıq. Hər gün səhər erkən işə başlayır, günorta bir saat fasilə edir, sonra da qaş qaralanadək kərpic kəsirdik. Yayın qızmar günəşi bədənimizi yandırır, istidən nəfəs ala bil-

mirdik. Lapatkanın sapı ovcumun içini qabartmışdı. Barmaqlarımın arasından qan axırdı. Hər dəfə lapatkanı götürəndə, əllərim, ovcum göynəyirdi. On gün ərzində iyirmi minə yaxın kərpic kəsdik. Çay daşından və kəsdiyimiz çiy kərpicdən üçotaqlı evin bünövrəsini qoyduq. Həyətdəki əbrişim ağaclarını kəsib mişara verdik. Onlardan döşəmə çəkdirdik. Köhnə evin döşəmələrini, taxtalarını, qapı və pəncərələrini sökərək təzə evin tikintisində istifadə etdik. Evə suvaq çəkdik. Tezliklə ailəni yeni tikilən mənzilə köçürtdük. Bir aya işi tamamlayıb instituta qayıtdım. Təşəkkürümü professor Zahid Qaralova və professor Yəhya Kərimova bildirdim. Hər ikisi, demək olar ki, mənə eyni məsləhətləri verdilər:

— Tələsmə, hamımız böyük zəhmətlər hesabına bura gəlmişik. Bir az da dözmək gərəkdir. Hər şey düzələcək. Müdafiə edəcəksən. Şəhərdə də evin olacaq. Ailəni başına yığacaqsan. Onda bu əzablı günlər arxada qalacaq. Bütün ağrı-acıları yavaş-yavaş unudacaqsan.

Kənddəki evsizlik aradan qalxsa da, şəhərdəki gərginlik davam etməkdə idi. Kirayə yaşadığım evin həddi-buluğa çatmış bir oğlu, bir qızı vardı. Ev sahibi oğlunu evləndirmək istəyirdi. Bunun üçün mən qaldığım otağı tərk etməli idim. Ancaq nə evin sahibi, nə də sahibəsi utandıqlarından evi boşaltmaqla bağlı söhbəti mənə aça bilirdilər. Bunu hiss etdiyimdən yeni mənzil axtarmalı oldum. Bayılda bir ev tapdım. Ev sahibəsi 71 yaşlı Mariya Nikolayevna çox səmimi, adamı başa düşən, duzlu zarafatları olan, söhbətcil, ürəyiaçıq övladsız dul bir qadın idi. Təmir olunmuş işıqlı mənzilin iki otağından böyüyünü mənə verdi. İlk gündən Mariya Nikolayevna ilə söhbətlərimiz tutdu. Mən ona "mamaşa" deyirdim, o da mənə "oğlum" — deyə müraciət edirdi. Aylıq məvacibimi alıb ona verir, o da hər gün yemək hazırlayır, paltarlarımı yuyub təmizləyirdi. Tez-tez gəncliyindən, mərhum ərindən, İkinci Dünya Müharibəsi illərindəki ağır həyatından





danışırdı. Həyət evi olduğundan qonşulara da tez isinişmişdim. Qonşular mənə çox nəzakət və hörmətlə yanaşırdılar. Mən onlara lazım olanda qapının zəngini basar, mamaşadan "oğlun evdədir?" — deyə soruşardılar. Onda Mariya Nikolayevnanın sevinci bu evə sığmazdı. İşdən evə gec qayıdanda "mamaşa" qapının ağzında dayanıb məni gözlərdi. Gəldiyimi görən kimi dərhal evə qaçar, çay süzər, hazırladığı yeməyi stola gətirərdi. Mən də əl-üzümə su vurar, qurulanar, süfrəyə yaxınlşardım. Həvəslə birlikdə nahar edərdik. Günlər beləcə gəlib keçirdi. Mamaşa həmişə evdə oturar, biş-düş edər, şəhərə çıxmazdı.

Bərk soyuqladığımdan çarpayıma uzanmışdım. Halım özümdə deyildi. Hərarətim qalxmışdı. Bəzən də məni üşütmə tuturdu. Qəribəydi. Ətrafımda baş verən hadisələrə bir etinasızlıq da yaranmışdı məndə. Gözlənilmədən mətbəxdə məşğul olan Mariya Nikolayevnanın kimləsə danışdığını eşitdim. Maraq məni bürüdü. Ayağa qalxıb mətbəxə keçdim. Gözlərimə inanmadım. Nikolayevna kök, boz pişiyini əzizləyə-əzizləyə borş bişirdiyi qazanına salıb çimizdirirdi. Bunu görcək sanki dünya başıma dolandı, halım qarışdı. Nikolayevnaya heç bir söz demədən otağa qayıtdım. Yatağıma uzandım. Məni fikir götürdü. Evdə günorta naharını eləyə bilməyib bəhanəylə şəhərə çıxdım. Yeməkxanada bir loxma kəsib geri qayıtdım. Xeyli fikirləşdim, götür-qoy elədim. Çıxış yolları axtardım. Əvvəl Nikolayevna ilə pişik söhbətinə oturmaq istədim. Sonra da xatirinə toxuna biləcəyimi düşünüb ona heç bir söz demədim. Əlacım kəsildiyindən pişiyin ya azdırılması, ya da qorxudulub evdən qovulması barədə düşündüm...

Gecə-gecədən keçirdi, mamaşa yatmışdı. Mən pişiyi götürüb həyətə çıxdım. Onu küçədə palçığa bulaşdırdım və gətirib evə buraxdım. Əlimdən canını qurtaran pişik qaçdı. Ardınca otağa gəldiyimi görcək özünü gah o bucağa, gah da bu bucağa vurdu. Özünü stolun altına saldı. Sonra da gözlənilmədən çarpayının

üstünə atıldı. Hər tərəf palçığa bulaşdı. Mən sakitcə yatağıma girdim. Pişik qorxudan bir yerdə qərar tuta bilmirdi. Məni dəli gülmək tutdu. Düşünürdüm ki, çox çəkməyəcək gülüşümü eşidib mamaşa yuxudan oyanacaq. Vəziyyətdən hali olub gecənin bu vaxtında məni evdən qovacaq. Getməyə yer tapammayacam. Əməlimin cəzasını çəkəcəm. Beləcə özümü güc-bəlayla ələ aldım. Pişik də yavaş-yavaş sakitləşdi... Nə vaxt yuxuya getdiyimi bilmədim. Səhər mamaşanın haray-həşirinə yuxudan hövlnak oyandım. Qadın dedi:

— Oğlum, bu ciyəri yanmış pişik gör neyləyib? Evə giriləsi döör. Hər tərəf palçıqdı. Belə qədirbilməz heyvan olar? Mən axmaq da dünən mağazaya gedib şampun almışam. Su qızdırmışam. Bu gicbəsəri qazana basıb çimizdirmişəm. Bit-birəsini, çirkini-mirkini təmizləmişəm.

Mən hər şeydən xəbərsiz kimi dedim:

— Harda çimizdirmisən?

— Qazanda.

— Aa... Fikirləşmədin ki, biz də xəstələnə bilərik?

— Ona yağızım elə gəldi ki, sən deyənlər ağlıma gəlmədi, oğlum.

— Oh... Daha mən o qazanda bişirilən xörəyi yeyənmərəm.

— Ağ eləmə. Sizdə necə deyirlər: “Qarışqanı fil eləmə”.

— Hə elə deyirlər, mamaşa... Allah pişiyə qənim olub. Zavallı pişik.

— Dedin, pişiyə nə olub?

— Allah qənim olub.

— O nə deməkdi?

— Pişik qudurub. Gözlərinə fikir ver. Gör necə də qəzəblə baxır. Lap parıldayır. Hirsindən bizi yırtıb-dağıtmaq istəyir. Mamaşa, Allahın bizə yazığı gəlib, o bizi dişləyə də bilərdi. Əgər dişləsəydi, biz də qudurardıq. Dəhşət... Rədd elə onu getsin.

Mamaşa pişiyin ünvanına söyüşlər, təhqirlər yağdıra-yağdıra onu götürüb evdən çıxdı. O vaxtdan pişiyi nəinki evdə, heç həyət-bacada da, küçədə də görmədim... Sonralar bu hadisəni mamaşaya danışıb üzr istəyəndə o, qəhqəhə çəkdi:





— Saqqalın ağarsın, məni də günaha batırdın. Sənin içində nələr varmış?!.

İyun ayının isti günlərindən birində mamaşanı öz təşəbbüsü ilə Dənizkənarı parka apardım. Bir az Xəzərin sərin havasından udduqdan sonra iki dondurma alıb oturacaqların birində əyləşdik. Dondurma yeməyə başladıq. Bu vaxt üst çənədəki kəsici dişlərimdən biri bərk sızıldamağa başladı. Bunun fərqinə varmadan dondurmanı axıra qədər yedim. Evə qayıdıncaya qədər sızlayan dişimin arxasındakı damaq şişmişdi. Tez-tez dilimi damağıma sürtər, bəzən də içdiyim çayın hər qurtumunu bir-iki dəqiqəlik ağzımda saxlayırdım. Bunlar heç bir fayda vermirdi. Gündən-günə damağım şişir, narahatlığım artırdı. Həkimlərə müraciət etməli oldum. Hərə bir məsləhət verdi. Hərə bir resept yazır, bir müalicə üsulu irəli sürürdü. Tezliklə dişim çəkilsə də, damağımın şişi yeni-yeni fəsadlar yaratdı. Bir ildən artıq idi ki, həkimlərin əlində qalmışdım. Kimisi dişimin zərbə ilə vurulub salınmasını, kimisi dişlərimin hamısının töküləcəyini, kimisi də damağımdakı şişin bədxassəli olduğunu üzüməcə söyləyirdi. Həkimlərin səbatsız, cahil təklifləri ilə xəstəliyin fəsadları birləşərək məndə hədsiz vahimə yaratmış, əsəblərim demək olar ki, tamam pozulmuşdu. Mariya Nikolayevnanın da rahatlığı itmişdi.

Bütün günü səhərdən axşama, axşamdan səhərədək (yatanda da) üz-gözümü, ağzımı bağlayırdım. Doğmalarım, tanışlarım üzümə vurmasalar da, həddən artıq arıqladığımı hiss edirdim. Gecələr yuxum ərşə çəkilir, əsəblərimin gərginliyi getdikcə artırdı. Dolaşıq fikirlər, qarışıq düşüncələr içərisində boğulurdum.

Yaşamaq nə qədər ağırmış, İlahi?! Mən şəhərə hansı arzularla, hisslərlə gəlmişdim? Bu xəstəlik məni hardan tapdı? Nə idi bunun əlacı? Həkimlər doğrudanmı bu xəstəliyin qarşısında

aciz idilər? Bu suallara cavablar axtara-axtara çarpayıya uzandım. Mamaşa öz otağında tanımadığım azərbaycanlı bir qadınla söhbət edirdi. Gözlərimə yuxu gedər-getməz başımın üzərindən üstümə böyük bir əl uzandı. Bütün bədənimi həmin əlin kölgəsi örtdü. Dərhal da anam baş tərəfimdə, bacılarım, qardaşlarım ətrafımda əyləşdilər. Bu zaman tək anamdan başqa hamını görür, ağı deyən anamın isə yalnız səsini eşidirdim. Dəhşətli vahimə məni bürüdü. Əllərimi çarpayının ətrafına bərk-bərk dirəyib qışqırdım və yataqdan evin ortasına atıldım.

Elektrik lampası söndürülmədiyindən Mariya Nikolayevna ilə söhbət edən qadın hövlnak halda otağa daxil oldular.

Həyəcandan, daxili sarsıntıdan bütün bədənim əsirdi. Mamaşa mənə bir stəkan sərin su gətirdi. Suyu içib yenidən yatağıma uzandım. Onlar mənimlə xeyli söhbətdən sonra xudahafizləşib getdilər. İşığı söndürmədən yataqda uzanılı vəziyyətdə qaldım. Yata bilmirdim. Handan-hana gözlərim yumular-yumulmaz yuxu eynilə təkrar olundu. Yenə də çarpayıdan atıldım. Mariya Nikolayevna ikinci dəfə otağıma gəldi.

Artıq hər şey mənə aydın olurdu. Əsəblərim dözmürdü. Dişlərimin hamısı, alt və üst damaqlarım sızlamağa başlamışdı. Ölümlə həyat arasında sanki çarpışma gedirdi. Ancaq yaşamaq istəyirdim. Məni qınamayın, ölümdən qorxurdum. Qorxduqca da həyata bağlılığım artırdı.

Heç vaxt Mariya Nikolayevnanın yaxşılığını unuda bilmərəm. Vahiməli yuxudan sonra onun mənə qayğısı daha da artmışdı. Bəzən mən yuxuda olanda gəlib arıq əllərini alnıma qoyar, hərarətimin olub-olmadığını yoxlayardı. Vəziyyətim ağırlaşdıqca, yazıq mamaşanın qüssəsi də artırdı. Heç vaxt yanımdan əl çəkmirdi. Mənə ürək-dirək verir, aptekə lazım olan dərmanların ardınca qaçırdı.

Doğrusu, həkimlərə olan inamım azalmışdı. Bir gün Mariya Nikolayevna təzə bişirdiyi gilas mürəbbəsindən stəkanıma sala-





raq gözləri dolmuş halda dedi:

— Oğlum, Leninqradda bacım yaşayır. Onlar məni qonaq dəvət ediblər. Gəl təyyarəyə bilet götürüb birlikdə gedək. Orada yaxşı, təcrübəli həkimlər var. Səni onlara göstərərik. Damağını, dişlərini müalicə edərlər...

Doğrusu, buna mənim maddi imkanım olmasa da dərhal razılaşdım. İnstitutdan maaşımı aldım. Bir az da evdən mənə kömək etdilər. Təyyarəyə oturub, Leninqrada uçduq. Təyyarə meydanında bizi mamaşanın bacısı Tamara Nikolayevna qarşıladı. O, mamaşadan dörd yaş kiçik, gülərüz bir qadın idi. Ertəsi gün Tamara Nikolayevna bizi şəhərdəki qırx yeddi nömrəli Mərkəzi Stomatoloji Poliklinikaya apardı. Tanışı Nikolay Fyodoroviç məni müayinədən keçirtdi. Həkim elə ilk baxışdan damağımın soyuqladığını, bir kurs müalicə tələb olunduğunu bildirdi.

Tamara Nikolayevna həkimdən xahiş elədi ki, o, özü məni müalicə etsin. Səhəri gün həkim mənim müalicəmə başladı. Bir kurs müalicədən sonra artıq xəstəlikdən əsər-əlamət qalmadı.

Tamara Nikolayevna bacısına dedi:

— Bacı, artıq ömrümüzün sonu çatır. Bakıdakı evini sat, gəl buradaca birlikdə yaşayaq. Daha bəsdi, sən orda, mən də burda. Köçsən, bir-birimizə həyan olarıq.

Mariya Nikolayevna razılaşmasa da etiraz etmədi. Səhəri gün o mənim fikrimi soruşdu. Qəti söz deyə bilmədim. Ancaq evi satmaq, yığışıb Leninqrada köçmək istəsə, lazım olan köməkliyi edəcəyimi söylədim.

Bir neçə gündən sonra biz Bakıya gəldik. Tezliklə Mariya Nikolayevna evi və ev əşyalarını satıb bacısının yanına köçdü... Mən də özüm üçün yenidən mənzil axtarmalı oldum. Dostlarımın köməyi ilə fəhlə yataqxanalarının birində qeyri-qanuni olsa da bir otaq kirayəyə götürdüm. Otaqda tək yaşadığımdan işləmək üçün yaxşı imkan yaranmışdı. Hər gün təqribən 10-12 saat

otağıma qapanıb kitab oxuyar, tədqiqat işi, dərslik və ya dissertasiya üzərində işlərdim. Yavaş-yavaş tək yaşamağa alışmışdım.

Qışın oğlan çağı idi. Axşamdan yağan qar yolları, cığırları örtmüşdü. Şəxsi maşınlar qardan hərəkət edə bilmədiklərindən, yolların kənarında sancılıb qalmışdı. Avtobuslar, trolleybuslar marşruta normadan az buraxıldığından içindəki adamlar da bir-birinə sıxılmışdılar. Dayanacaqlarda nəqliyyatdan düşmək və ona minmək çox çətin idi. Ayaqqabılarımın altı sökük olduğundan ayaqlarım islanmışdı. Həmin gün beləcə instituta getdim. Şöbədə məndən savayı heç kəs işə gəlməmişdi. Corablarımı soyunub suyunu sıxdım, sonra da ayağıma geydim. Günortaya qədər şöbədə yazı-pozu ilə məşğul olub evə qayıtdım. Yataqxanaya qaz gəlmədiyindən çay, xörək hazırlamaq müşkül işə çevrildi. Otaqda istilik də yox idi. Günorta bir stəkan qatıqla çörək yeməli oldum. Buz kimi qatıq mədəyə düşdüyündən ağrı verdi. Bununla da qara günüm başlandı. Mədəmin ağrısı, göynəmələri getdikcə kəskinləşsə də, "tezliklə keçib gedər" — deyə fikirləşirdim. İki gün sonra tədqiqatla əlaqədar Naxçıvanın Ordubad rayonuna elmi ezamiyyətə yollandım. Məktəblərdə kiçikyaşlı şagirdlərin nitqi üzərində müşahidələr apardım. Qeydlər götürdüm. Müəllimlərin, məktəb rəhbərlərinin proqram və dərsliklər haqqındakı fikir və mülahizələrini öyrəndim. Hər axşam da Ordubaddakı köhnə tikili olan birmərtəbəli qədim mehmanxanada qalırdım. Yerli camaat son dərəcə səmimi, qonaqpərvər idi. Məni mehmanxanada tək buraxmırdılar. Gecədən xeyli keçənədək oturub söhbət edir, Ordubadın tarixi keçmişindən, adamlarının məişətindən maraqlı məlumatlar alırdım.

Ezamiyyət müddətini qurtarıb qatarla Bakıya qayıtdım. Təzə tanışlarım məni hörmətlə yola saldılar. Bir kupedə 60-65 yaşlı bir kişi də şəhərə gəlirdi. Hündürboylu, bir qədər də ciddi görkəmi olan bu kişi yol boyu Azərbaycan və azərbaycanlılar, xalqımızın tarixi kökü, təhsil və mədəniyyət məsələlərindən aramla danışır, yeri gəldikcə onlara münasibətini bildirirdi. Müsahibimin gənclik haqqındakı söhbətləri xoşuma gəlirdi. Söhbətlərindən məlum olurdu ki, o kişinin zəngin təcrübəsi var. Ümumi hazırlığı olduqca yüksəkdir.





Xeyli söhbətdən sonra kupenin işığını söndürüb yatağımıza uzandıq. Bir az keçmiş yol yoldaşımın arabir xorultusu eşidilməyə başladı. Mənsə mədəmdə əvvəl sızıltı hiss etdim, sonra bu sızıltı kəskin ağrıya çevrildi. Yatağımda qıvrılır, səssizcə o tərəf-bu tərəfə çevrilir, yol yoldaşımı yuxudan oyatmamağa çalışırdım. Getdikcə şiddətlənən ağrı məni təntidirdi. Əllərimlə bərk-bərk mədəmi qucaqlayır, sıxır, ovuşdururdum. Ağrı ara vermirdi ki, vermirdi. Narahatlığım, nəhayət, yol yoldaşımı da yuxudan oyatdı. Vəziyyətimin kəskinliyini görən bu adam tez kupedən çıxdı, hardansa, kimdənsə bir həb tapıb gətirdi. Bu anda vaqonun gözətçisi kupeyə daxil oldu. Həbi qəbul etsəm də, ağrı kəsmək bilmirdi. Məni soyuq tər bürüyürdü, özümdə halsızlıq duymağa başladım. Yol yoldaşım: "Sənə soyuq olub, oğlum", — deyə kürəyimi ovuşdurmağa başladı. Ağrılarım az da olsa səngiyirdi. Bax, beləcə Bakıya gəlib çıxdıq.

Şəhərdə güclü külək əsirdi. Yol yoldaşım evə qədər məni ötürməyi təklif edəndə, doğrusu, əvvəl çaşdım. Sonra: — Zəhmət çəkməyin, özüm gedərəm, — deyə cavab verdim. Çaşdım ona görə ki, axşamdan dostlaşdığım və sonra mənə böyük qayğı göstərən bu adamı evim olmadığından qonaq dəvət edə bilmirdim. Nə isə...

Ağrı-acılar içərisində bu kişidən ayrılıb, evə gəldim. Tez yatağa uzandım. Mədəmdəki sızıltıya, göynərtiyə baxmayaraq, yuxu məni apardı. Yataqdan qalxanda gün günorta yerindən əyilmişdi. Olduqca halsız idim. Qazı yandırıb, çay, yemək hazırlasam da, mədəmin ağrısından heç nə yeyə bilmədim.

Əlacsız qalıb həkimə getdim. Həkim müayinədən sonra resept yazdı. Dərmanları aptekdən alıb evə qayıtdım. Hər nahar-

dan əvvəl və sonra düz altı həb atmalı olurdum. Dərmanların təsirindən mənə elə gəlirdi ki, bu saat mədəm deşiləcək. Həmin gün dərmanların qəbulunu saxlayıb səhər təkrarən həkimə getdim. Dərmanların əks təsirini ona bildirdim.

Həkim dedi:

— Ağarəhim müəllim, dərmanları eksperimentdən keçirirdim. İndi də başqa dərmanlardan istifadə edək. Görək, necə təsir göstərir...

Doğrusu, bu həkimin ağlına, elminə məəttəl qalmışdım. Xəstə sağlamlığının bərpası üçün həkim yanına müayinəyə gəlir, xəstə ağrıdan qıvrılır, həkimsə eksperiment qoyur. Öz-özümə düşünürdüm: keçi can hayında, qəssab isə piy. Görəsən, bu binəva neçənci əsrdən gəlmişdi ki, müasir tibb elminin nailiyyətlərindən belə xəbərsizdi? Beləlirinə insan taleyi tapşıranlar nə düşünürlər? Onlar bircə dəfə həkimlik şərəfinin nə olduğu haqqında fikirləşirlərmi? Bilmirəm...

Həkimin kor-kobud sifətində görünən şit, hırıltı, ikrahedici diş ağartması qoyduğu eksperimentdən daha çox mənə psixoloji təsir elədi. Heç bir söz demədən ayaqdan başadək həkimi diqqətlə nəzərdən keçirdim. Bu ağ xalatlı insan: — Hə, nə olub ki, qardaş, sənə pislik elədim? — deyə dilləndi. Heç bir söz demədən kor-peşman otaqdan çıxdım.

Kirayə yaşadığım evin yanındakı mağazadan süd, qatıq, mannı alıb evə gəldim. İki günlük aclıq məni lap əldən salırdı. Başımda ağrı hiss edirdim. Südü bişirib əvvəl bir stəkan içdim. Sonra təndir çörəyinin içini ovub kasadakı südün içinə tökdüm. Bir neçə dəqiqədən sonra onu yeməyə başladım. Bu, əvvəl yediklərimə nisbətən mədəmə o qədər də pis təsir eləmədi. Həmin vaxtdan pəhrizi gözləsəm də, mədəmdəki ağrılar yavaş-yavaş öz işini görürdü. Mən isə özümü südə, qatığa, kəsmiyə, pendirə, sulu xörəklərə tutmuşdum. Mədəm sağalmırdı ki, sağalmırdı. Ağrılar, göynərtilər günbəgün artırdı. Xəstəlik məni çə-





kib xəstəxanaya gətirdi. Həkimlər həftədə bir-iki dəfə rentgendən keçirir, məsləhətlərini verirdilər. On iki gün xəstəxanada qalandan sonra məni müalicə edən həkim çıxış yolunu mədəmin əməliyyat olunmasında gördü. Cərrahiyyə əməliyyatı məni çox qorxudurdu. Həmin gün həkimin razılığı olmadan paltarlarımı dəyişib xəstəxanadan qaçdım. Bir daha geri qayıtmadım.

Ağrılara, məhrumiyyətlərə dözə-dözə fəhlə yataqxanasındakı dar kirayənişin otağımda əzablı günlərimi yaşayırdım...

Hər ayın üçündə institutda maaş verilirdi. Oktyabrın üçü həftənin beşinci günü idi. Günortadan sonra xəzinədar bəd xəbər gətirdi: "— Bankdan pul ala bilmədiyimizdən işçilərə bu gün maaş verə bilməyəcəyik. Maaş bazar ertəsi olacaq".

Cibimdə ancaq 10 qəpik pulum qalmışdı. Onun da beş qəpiyini evə getmək üçün metroya verməli, qalan beş qəpikliklə də bazar ertəsi işə qayıtmalı idim. Bəs bu iki günü necə dolanmalı? Kimdən borc almalı? Yoxsa, bu iki günü evdə acmı qalmalıyam?

İşin axırı idi. İnstitutda çox az adam qalmışdı. Borc istəməyə üzüm gəlmədiyindən metronun Sahil (o zamanlar 26-lar adlanardı) stansiyasına gəldim. Kassaya beş qəpiklik ataraq, qatarlar hərəkət edən meydançaya düşdüm. Qatara minib metronun "Neftçilər" stansiyasından çıxdım. Fikirli olduğumdan və pulum çatmadığından evədək iki kilometrlik yolu piyada getmək qərarına gəldim.

Bu iki gündə nə ilə dolanacağım haqqında düşünürdüm. Evdə yalnız bir gün əvvəl alınmış para quru çörək var idi. O da xəstə mədəmə necə təsir göstərəcəkdi, bilmirəm. Yaxın olsun deyə, binaların arasilə gedirdim. Birdən gözlərimə inanmadım. Ayağımın altında bir 25 manatlıq vardı. Ətrafıma göz gəzdirdim. Məndən irəlidə kimsə görünmürdü. Qəribədi, bu pul kimin cibindən düşmüşdü? Mən bunu kimə verə bilərdim? Pulu götürdüm. Xeyli götür-qoy elədim. Bəlkə pulunu itirən adam qayıtdı?

Bəlkə, onun da son güvənci elə bu imiş? Bəlkə onun da evdə yeməyə çörəyi yoxdu? 25-lik sahibinə, doğrusu, yazığım gəldi. Ancaq nə etməli?

Yataqxanaya gəlib, 25-lik tapdığımı komendanta bildirəndə o, dedi:

— Müəllim, o sənin qismətindir. Ana südü kimi sənə halaldır...

Bu sözlər mənim xoşuma gəlməsə də, həmin pulu xərcləməkdən başqa çarəm də yox idi. Axşam çay hazırlayıb quru çörəyi islatdım. Xeyli yumşaldıqdan sonra çayla şam elədim. Çörək quru olduğundan mədəmdə ağrılar, göynərtilər başlandı. Səhəri gün Ulu Tanrının yoluma çıxartdığı iyirmi beşliyi xərcləməyə başladım. Məni qınamayın, məzəmmət etməyin, bu mənim qismətim idi. Nə az, nə çox, düz üç il beləcə mədə ağrısına dözdüm, yaşadım.

Yağışlı-yağmurlu payızın son günləri iydi. Hava çox soyuq olduğundan stulumu elektrik peçinin lap yanına çəkib kitab oxuyurdum. Axşamdan xeyli keçmişdi. Birdən otağımın qapısı bərk döyülməyə başladı. Qapıya yaxınlaşıb: — Kimsən? — deyə xəbər aldım.

— Ağarəhim, aç qapını qardaş, — deyə Zahid Kərimovun səsi eşidildi. Zahid Kərimov o zamanlar Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutunda kabinet müdiri işləyirdi.

Qapını açıb onu otağa dəvət etdim. Zahid əlindəki çantanı otağın divarına söykədi, sonra stulda əyləşdi. Hal-əhvaldan sonra Zahid dedi:

— Ağarəhim, rayondan gəlirəm. Sənin mədənin ağrı-acıları, göynərtiləri haqqında atama danışdım. O, məsləhət gördü ki, sən tut arağı içəsən. Mən də sənə bir şampan şüşəsi tut arağı gətirmişəm. Ondan gündə bir az qəbul et. Qorxma, o, mədədəki yara-xoranı sağaldır, belə deyirlər.

Tut arağından içmək istəməsəm də Zahidə təşəkkürümü bildirdim. O, araqdan içməyəcəyimi duyub dolu şampan şüşəsini çantadan çıxartdı, bir də kənddən gətirdiyi soyutma, bütöv





toyuq ətini stolun üstünə qoydu: — Gəl, birlikdə nahar edək, — dedi.

Zahidi başa düşürdüm. Böyük həvəslə gətirdiyi “dərmanı” içməməyi özümə ar, ona qarşı etinasızlıq bildim. Stola çörək və iki stəkan qoydum. Gətirdiyi “dərman”dan yarım stəkan süzüb sağlamlığın sağlığına qaldırdıq. “Dərman” təsəvvürolunmaz dərəcədə tünd olduğundan, əvvəl nəfəs ala bilmədim. Çətinliklə özümə gəldim. Tut arağı mədəyə çatar-çatmaz istilik hiss etdim. Sonra da sanki mədənin divarları uçulub içəri töküldü. Buna baxmayaraq, mədədə qətiyyən ağrı-göynərti duymadım. Əksinə, az keçmişdi ki, əhvalım da yüngülləşdi. Bu, son üç ildə ilk dəfə baş verən hadisə idi. Mən bunu Zahidə bildirəndə o, dərhal cavab verdi: “Deməli, təsir edir. Hər şey yaxşı olacaq”.

Beləliklə, ikinci stəkanı da qaldırmalı olduq. Hər şey qaydasında idi. “Dərman” yavaş-yavaş mənə təsirini göstərirdi. Gecədən də xeyli keçmişdi. Otaqda iki çarpayı qoyulmuşdu. Hərəmiz birində yatdıq. Məni tezliklə yuxu apardı. Gecə yarı vəziyyətim dəyişdi. Yediklərimi qaytarmaq üçün yataqdan qalxıb vanna otağına keçdim. Üç dəfə qan qusdum. Hər tərəf al qana bulaşmışdı. Mədəmdə güclü göynərti vardı. Yenidən çarpayıya uzanaraq: — Zahid, Zahid, — deyə çağırdım. O, hövlnak:

— Hə, — deyib, başını balıncdan qaldırdı. — Qan qusdum, — deyə cavab verdim. O, dərhal durub vanna otağına keçdi. Bir vedrə su götürüb vannaya tökülən, divarlara sıçrayan qanı yumağa başladı. Sonra otağa qayıtdı: — Həkim çağırımmı? — deyə soruşdu.

— Yox, — cavab verdim. O da yatağına uzandı. Ancaq sifəti pambıq kimi ağarmışdı. Səsində qorxu, həyəcan duyulurdu.

Səhərə yaxın göynərti getdikcə azaldı. Zahid yataqdan erkən qalxdı. Səhər yeməyi hazırlamaq üçün:

— Nə alaq? — deyə soruşdu.

— Təkcə südlə, kəsmik al, — dedim.

Bir həftə belə özümü çörəksiz südə, kəsmiyə, süddə bişmiş yaymaya tutdum. Mədədəki ağrılar, göynərtilər tədricən azalırdı. Yavaş-yavaş süddən, südlü yaymadan içərisinə çörək doğranmış qatığa, toyuq şorbasına keçməyə başladım. Beləliklə, mədə ağrıları, göynərtiləri məndən yaxa qurtarırdı. Deme, Zahidin gətirdiyi tut arağı üzərimdə eksperiment qoyan ağ xalatlı insanın (hərçənd ona həkim deməyə dilim gəlmir) həblərindən daha şəfalı imiş.

2000-ci il mart ayının 8-i idi. Göyçaydan səfərdən qayıdırdıq. Maşını Asiya Universitetinin rektoru, professsor Cəlil Nağıyev idarə eləyirdi. Onun yanında Xarici Dillər Universitetinin professoru Elman Məmmədov, arxa salonda isə Azərinformun müxbiri Ağaqulu Niftəliyev və mən əyləşmişdik. Şamaxıdan Bakıya sürət götürən maşın 120 kilometrlikdə qırmızı rəngli "Jiquli" markalı maşınla toqquşdu. Mən yarıyuxulu olduğumdan əvvəl nə baş verdiyini bilmədim. Gözlərimi açanda çaş-baş qaldım. O anda da Ağaqulunun — Öldüm, ana, belim sındı — sözlərini eşitdim. Elmanın başının, sifətinin al qana boyandığını gördüm. Salona ağ, acı tüstü doldu. Sinəmi kəskin ağrı bürüdü. Mənə elə gəldi ki, ya sinəmin sümükləri qırıldı, ya da daxili orqanlarım partladı. Çox çəkmədi ki, ağrı sinəmdən bədənimin aşağı hissələrinə səpələndi. Hamı salondan çıxmışdı. Deyəsən, mən unudulmuşdum. Hardansa ağlıma belə bir fikir gəldi: "Maşın alışıb yana bilər. Mən də maşından çıxım". Bu fikirlə əlimi atıb qapını açmaq istədim. Ancaq qolum qalxmadı. Əlimi qoluma sürtdüm. Məni dəhşət bürüdü. Qolumun sümükləri şaqqıldayırdı. Sanki əlimdə bir neçə qoz, ya fındıq oynadırdım. Ürəyim çırpındı... Tüstüdən nəfəs almaq olmurdu. Pəncərədən çölə baxdım. Elə bu vaxt mən əyləşən maşının yanında ağ "Jiquli" avtomobili dayandı. O maşın Təhsil Nazirliyində baş mütəxəssis işləyən, özəl ali təhsil müəssisələrinin nəzarətçisi İlyar Vahabovunıydı. O, məni qəzalı maşından düşürüb özünün idarə elədiyi





maşına mindirdi. Sən hardan bura düşmüsən, müəllim bura sənin yerin deyil — deyə dərhal da sükan arxasına əyləşib məni Bakıya — Təcili Yardım Xəstəxanasına gətirdi. İlk yardım başlandı. Mən çətinliklə də olsa axşam evə telefon açıb vəziyyətimi açıqladım... Ağrılar məni əldən salırdı. Ancaq bacardıqca özümü sakit aparmağa çalışırdım. Nə qədər istirab, ağrı acı çəksəm də, bir növ artistlik eləsəm də, deyəsən, əzablarım üz-gözümdən duyulurdu. Mən bir müddət qəzanı universitet əməkdaşlarından, dost-tanışdan da gizli saxlamağa çalışdım. Ancaq bu sirr çox çəkmədi. Eşidib-bilən dostlarım, tanışlarım, qohumlarım yanıma axışır, mənə təskinlik verirdilər: özünü ələ al, yaxşı qurtarmısan, başqa cür də ola bilərdi…

Həkimlər şəkərdən analiz götürdülər. Şəkər 500-ə yaxınlaşırdı. Bu, həkimləri də qorxudurdu. Vəziyyəti nəzərə alıb şəkər həkimi Abdullaya zəng çaldım. O, yanıma gələndə vəziyyətim bir qədər də ağırlaşmışdı. Abdulla məni şəkərə görə müalicə eləməyə başladı. Mən doqquz gün xəstəxanada qalmalı oldum. Xəstəxananın həkimləri (qəsdən adlarını çəkmirəm) mənim üstümdə açıq-açığına dava-dalaş salırdılar. Onları mənim müalicəmdən, sağlamlığımdan çox məndən qoparacaqları düşündürürdü. Necə deyərlər: "Keçi can hayında, qəssab isə piy". Beləcə vaxt uzanır, müalicə sıfır variantına enirdi. Axır ki, mən dözə bilməyib həkimləri yanıma dəvət elədim. Xeyli söz-söhbətdən sonra onlara — Dələduzlar, qanacaqsızlar — deyib yatdığım çarpayıdan qalxdım. Bir dəfəlik həmin xəstəxananı tərk elədim. Ordan birbaşa C.Məmmədquluzadə (keçmiş Papanin) küçəsindəki Hərbi Hospitala gəldim. Abdulla şəkərdən, Natiq ürək çatışmazlığından məni müalicə elədilər. Vəziyyətin yüngülləşdiyini görən eloğlum Hafiz həkim qolumda cərrahiyyə əməliyyat aparmalı oldu. Nə az, nə çox, yeddi ay sağlamlığımın bərpası uğrunda mübarizə aparıldı…

# MƏNİM DƏ EVİM OLARMIŞ

**Evsiz adamın eli olmaz.**
*Atalar sözü*

On bir illik kirayənişin həyatım məni lap cana gətirmişdi. Bu illər ərzində ayda bir-iki dəfə rayona gedər, övladlarımla görüşər, sonra da yenidən şəhərə qayıdardım. Bu ayrılıq məni demək olar ki, qızlarıma, oğluma, onları da mənə həsrət qoymuşdu. Ömür-gün yoldaşım Mənsurə xanım bir dəfə də olsun umu-küsü bildirməmiş, əksinə, övladlarıma: — "Atanız şəhərdə oxuyur, tezliklə təhsilini tamamlayar, Bakıda ev alar, məni də, sizi də yanına aparar" — deyərdi. Uşaqlarım hər dəfə mən evə gələndə soruşardılar:

— Ata, nə vaxt məktəbini qurtaracaqsan? Nə vaxt şəhərdə ev alıb, bizi də ora köçürəcəksən?

Suallar məni sarsıdırdı. Hər dəfə düşünürdüm: Uşaqlara nə cavab verim? Yalanmı danışım?.. Yalan vədlərmi verim? Yoxsa həqiqəti söyləyim? Yalan danışmaq mənim üçün nə qədər çətin idisə, həqiqəti açmaq — Bilmirəm — demək bir o qədər ağır iydi. Sarsıdıcı iydi... Başladığım işin sonu görünmürdü. Əlacsız qalıb söz arasına söz qatar, onların suallarından yayınmağa çalışardım. Özüm də mənəvi əzab çəkərdim.

Beş il əvvəl şəhərdə ev almaq üçün qeydiyyata düşsəm də, buna ümidim yox iydi. Hər dəfə ev üçün Rayon İcraiyyə Komitəsinə (o zamanlar belə adlanırdı) müraciət edərkən: "Hələ səndən beş-altı il əvvəl növbəyə alınanlar var, tələsmə, get, növbəni gözlə, çatanda çağırarıq", — deyirdilər. Mən də hər altı aydan bir bəzi sənədləri təşkilatlardan çox çətinliklə toplayaraq dəyişirdim. Hər dəfə də mənə bir başqa cavab verirdilər.

O zamanlar heç ağlıma da gəlməzdi ki, ev almaq üçün növbə





gözləmək yox, tanış-biliş tapmaq, onun vasitəsilə kimsəni görüb, qəlbini rüşvətlə sevindirmək gərəkdi.

Evsizliyin nə olduğunu ailəli, uşaqlı kirayənişinlər yaxşı bilirlər. Ev sahibi öz ailəsinə, uşağına əsəbiləşəndə, işi düz gətirmədiyindən narahat olanda yazıq, binəva kirayənişin də öz dünyasını dəyişir, qarnına ağrı-acı dolur: "Yəqin mənə acığı tutub, evi boşaltmaq lazımdır", — deyə fikirləşir. Ev sahibinin, yaxud sahibəsinin üzü güləndə kirayənişin də sevincindən yerə-göyə sığmır. Əgər ev sahibi "çaşıb" "Özünə mənzil axtar", — desə, vay o günə. Dünyanın dərdi-səri tökülür yazıq kirayənişinin üstünə, o da günahı gah özündə, gah da o böyük Yaradanında axtarır.

Adamlara dalaşmağı, söyüşməyi, ərizəbazlığı, rüşvət verməyi öyrədərdi şəhərdə ev, mənzil almaq. Mən nə dalaşa bilirdim, nə kimdənsə yuxarı təşkilatlara ərizə yazmağı bacarırdım, nə də rüşvət verməyə pulum vardı. Bax, beləcə kəsilmişdi əlim, qurtarmışdı sözüm.

Son zamanlar rayona, ailə — uşaq yanına getməyə də utanırdım, xəcalət çəkirdim. Axı nə qədər quru vədlərlə, boş xəyallarla yaşamaq olardı?.. Ev almaq ümidimi lap itirmişdim...

"Xalq qəzeti"nin (o zamanlar "Kommunist" adlanırdı) redaksiyasına Dağıstanda yaşayan azərbaycanlılar üçün fəaliyyət göstərən məktəblərə kömək göstərilməsinə həsr olunmuş məqaləmi aparmışdım. Dəhlizdə eloğlum, o zamanlar Sabunçu (Lenin) rayonu Daxili İşlər Şöbəsində pasport bölməsinin rəisi işləyən milis polkovniki Şəmsəddin Mikayılovla qarşılaşdım. Ucaboylu, qarabənizli bu adamın yumşaq ürəyi, açıq qəlbi vardı. O, hamıya dost, qardaş, yaxın sirdaş kimi baxırdı. Qəribə iydi, hamı ona "Dayı", — deyə müraciət edirdi. O, pislik etmək nə olduğunu bilməzdi.

Adəti üzrə mənə birinci o, əl uzadaraq dedi:

— A bala, çoxdandı görünmürsən, ev aldınmı?

Utana-utana başımı o tərəfə-bu tərəfə yırğaladım. Çox çətin və güclə eşidilə biləcək halda: "Yox", — deyə bildim...

O, özünə xas bir tərzdə:

— "Utananın oğlu, qızı olmaz". "Ağlamayan uşağa da süd vermirlər". Eşitmisənmi, belə məsəlləri? Deyəsən, məqalə gətirmisən. Onu şöbəyə ver, birlikdə gedək.

Mən gülümsədim, ancaq heç bir söz deməsəm də, cənab polkovniklə qəlbimdə razılaşdım.

Redaksiyanın qapısından çıxan kimi o, yaşıl rəngli "Qaz-24" markalı "Volqa" maşınına əyləşdi və mənə də: "Otur", — deyə işarə etdi. Məni də özü ilə işlədiyi bölməyə gətirdi. Cavan katibəsi adama bir stəkan çay süzdü. Şəmsəddin üzünü mənə tutaraq:

— Çalışaq, boşalmış mənzillərdən də olsa, birini sənə düzəldək. Get, ailəni, uşaqlarını başına yığ. Belə olmaz.

O, bir-iki nəfərə zəng etdi. Əlaqə yarada bilmədiyindən, məni özü ilə Rayon İcraiyyə Komitəsinə apardı. Mən gözləmə otağında dayandım. Orada xeyli adam vardı. Şəmsəddin müəllim sədrin otağına girdi.

Gözləmə otağında qoyulan stolun arxasında 18-20 yaşlı bir qız oturmuşdu. Qaragözlü, mütənasib boy-buxunu olan bu qızın sadə geyimi vardı. Adamlarla davranışı, danışıq tərzi ilk baxışdan mərifətli, nəzakətli olmasından xəbər verirdi. Stolun kənarına birləşdirilmiş dolabçanın üstündə göy, qara, bir də qırmızı rəngli telefon aparatı qoyulmuşdu. Qız tez-tez mızıltılı səslə qısa, qırıq-qırıq sözlərlə telefon zənglərinə cavab verirdi.

Bir neçə dəqiqədən sonra katibənin yanındakı telefonlardan biri zəng çaldı. O, dəstəyi götürərək bir an içərisində adamları gözdən keçirdi. Hamının diqqəti katibəyə kəsildi. Axır ki, qız otaqdakılara müraciət etdi:

— Ağarəhim kimdir?

— Mənəm, — deyə katibəyə tərəf çevrildim.

O, üzümə baxmadan başı ilə: "Keçin içəri" işarəsini verdi.





Mən kostyumun yaxasını, qalstukumu bir balaca sahmana saldım, sonra çox ehtiyat və nəzakətlə qapını açıb sədrin kabinetinə daxil oldum. Geniş, işıqlı bu otaqda qoyulan xarici, şabalıdı rəngli mebellər göz oxşayırdı. Stolun yuxarı başında əyləşən sədr dərhal:

— Gəlin, gəlin, müəllim! — deyə mənə əyləşmək üçün yer təklif etdi.

Təşəkkürümü bildirdim. Şəmsəddin müəllim dərhal dilləndi:

— Sədr, bu oğlan on bir ildir ki, şəhərdə pasport qeydiyyatındadır. Altıncı ildir ki, ev növbəsinə dayanıb. Kiçik elmi işçidir. Gənc kadrdır. Böyük gələcəyi var. Ailə, uşaq rayonda yaşayır. Özü də kirayənişindir. Aldığı aylıq məvacibi də rayonla şəhər arasında xərclənir. Onun nə özünə, nə də ailəsinə məsrəfi var. Belə adamlara qayğı Allaha da, bəndəyə də xoş olar. Siz də, mən də buna kömək etməliyik. Heç olmasa, boşalan köhnə evlərdən bir-iki otaq Ağarəhim müəllim üçün ayıraq, gedib ailə-uşağını başına toplaya bilsin. Bu, elm adamıdır. Evsiz-eşiksiz elmlə məşğul olmaq çətindir.

Şəmsəddin müəllim danışdıqca sədr üzümə baxır, hərdənbir başı ilə onun sözlərini təsdiqləyirdi. Söhbətin sonunda:

— Kömək edərik, — deyib sellektorun düyməsini basdı və telefonun dəstəyini götürüb dedi:

— Hüseynov, boşalmış evlərdən yaşanılası mümkün olanı varmı? Bir bura zəhmət çək. — Sonra da dəstəyi aparatın üstünə qoydu. Bir-iki dəqiqə keçməmişdi ki, ucaboylu, arıq bir adam otağa daxil oldu. O, salam verib Şəmsəddin müəllimin yanındakı stulda əyləşdi. Sədr dərhal məni göstərərək:

— Müəllim elmi işçidir. Xeyli müddətdir ev növbəsindədir. Sənədləri araşdırın. Ona boşalmış otaqlardan müvafiq olanını ayırın.

Tanımadığım bu adam "baş üstə" deyib ayağa qalxdı. Mən də, Şəmsəddin müəllim də sədrə dərin təşəkkürümüzü bildirib

otaqdan çıxdıq.

Sədrin göstərişi ilə Hüseynov bizə bir neçə evin ünvanını verərək dedi:

— Baxın, xoşunuza gəlsə, gəlib razılıq ərizəsini yazarsınız.

Ertəsi gün Şəmsəddin müəllimlə ünvanları gəzdik, əsaslı təmirə ehtiyacı olsa da, ikiotaqlı bir mənzilin üzərində dayandıq. İcraiyyə Komitəsinə gəlib sədrin adına razılıq ərizəsini yazdım. Bu, yuxu idi, yoxsa, həqiqət? Doğrusu, inana bilmirdim. On dörd gündən sonra məni Sabunçu Rayon İcraiyyə Komitəsinə çağırıb evin orderini verdilər.

Xeyli vaxt yaşanmadığından ev pis gündəydi. Otaqların təmizliyi, heç olmasa, yüngülcə təmiri ilə məşğul olmaq lazımıydı. Şəmsəddin müəllimlə mənzil istismar idarəsinə gedib aldığımız evin təmirini rəisdən xahiş etdik. İnsafən, o, bizi səmimi qəbul edərək dedi:

— Narahat olmayın, yoldaşlara tapşırmışam. Sabahdan təmirə başlayacaqlar. Bu evin təmirini sədr də mənə tapşırıb.

Sözün doğrusu, sevincdən uçmağa qanadım yoxıydı.

Bir neçə gündən sonra evin təmiri də qurtarmışdı. Ağır-yüngülümü kirayənişin yaşadığım yataqxanadan öz mənzilimə köçürmüşdüm. Qapı döyülməyə başladı. Qapını açdım... Gələn xeyirxahım polkovnik iydi. Təzə mənzil almaq şərəfinə məni qonaq etməyə gəlmişdi.

— Axı qonaqlığı mən verməliyəm, — deyə etiraz etdim. O, gülümsünərək:

— Evdə bacın tədarük görüb. Hər şey hazırdır. Sənin evini indi bizdə yuyarıq. Ailən, uşaqların gələndə, bir qonaqlıq da sən verərsən.

— Axı, mən bu gün öz mənzilimdə yatmaq istəyirəm.

— Kəmhövsələ olma. Axşam şamdan sonra qayıdarsan. Öz evində də yatarsan...

Qapını bağlayıb Şəmsəddin müəllimgilə getdik. Yoldaşı





Manya xanım son dərəcə mədəni, hər şeyin yerini bilən, ərinə xüsusi qayğı göstərən əsl azərbaycanlı qadınıydı. Süfrə açmaqda xüsusi səriştəsi vardı. Hazırladığı cürbəcür mürəbbələrin, bişirdiyi xörəklərin dadı adama ləzzət verirdi.

Yedik, içdik, axşamdan xeyli keçmiş Şəmsəddin müəllimin şəxsi maşınında təzə mənzilimə qayıtdım. Doğrusu, işığı söndürüb yatmaq istəmirdim. Ancaq məni nə vaxt yuxu apardığını da bilmədim.

Səhəri gün rayona getdim. İkiotaqlı mənzil aldığımı söyləyəndə sevincdən ailə üzvlərinin gözləri yaşardı. Qızlarım Hicran, Sevinc, Dinar, oğlum Cavidan növbə ilə boynuma sarılır, üz-gözümdən öpürdülər. İki gündən sonra ailəni kənddən şəhərə köçürtdüm. On bir illik kirayənişin həyatına son qoyuldu. Öz-özümə düşünürdüm: "İlahi, mənim də evim olarmış?.."

## İFTİXARIM MƏNİM...

**...Harada məhəbbət varsa, orada Allah vardır.**

***L.N.Tolstoy***

Oğlumla əlaqədar düşüncələrimi kağıza köçürmək istərkən atamın keçdiyi ömür yolu, onun fəaliyyəti, hadisələrə, insanlara münasibəti yaddaşımda çözələnir, mənimlə olan dostluğunu, açıq söhbətlərini xatırlayıram. Qəlbim kövrəlir dediklərini yada salanda... Sıxılıram günahsız atamın acı taleyi haqqında düşünəndə. Qırılıram ona kömək edə bilmədiyimi fikirləşəndə... Daxilən acizləşirəm, yazıqlaşıram... Eh, insan ömrü... İnsan taleyi... Nə qədər sirli, sehrli bir aləmsənmiş!.. Nələr yatırmış səndə insan ömrünün bir tarixçəsi!..

Arzuları böyük, yuxuları çin olan atama oxşamaq istərdim. Hərəkətlərini, danışığını əxz elədiyim atamın örnəkiydi ömür

yolu mənim üçün. Həmişə evdə də, işdə də bir çətinliklə üzləşəndə bir an öz-özümə fikirləşirdim. Belə vəziyyətdə atam hansı yolu seçərdi?.. Atam necə düşünərdi?.. Münasibəti necə olardı?... Kim necə fikirləşir-fikirləşsin, kim nə deyir-desin, mən atama oxşamaq istəyirəm. Bax, budur mənim həyat yolumun başlıca mənası, əsas qayəsi!..

Atamla mənim taleyimdə bir oxşarlıq gördüyüm kimi, oğlumla mənim taleyimdə də bir bənzərlik duyuram. Oğlumu sevirəm, özüm qədər, lap atam məni istəyən qədər... Onun körpəlik dövründəki qığıltıları, uşaqlıq çağlarındakı şən qəhqəhələri, şıltaq hərəkətləri... indi də yadıma düşəndə ürəyim dağa dönür... Onu ləyaqətlə böyütməyi, namuslu adam kimi tərbiyə eləməyi özüm üçün ən böyük amal, şan-şöhrət sanıram. Hələ kiçik olsa da, çox şeydən xəbərsiz yaşasa da, mən ona dost kimi yanaşır, onunla açıq danışıram. Atam mənə yanaşan kimi, mənimlə danışan kimi.

Övladın acısı, şirini olmaz. Qızlarım Hicranı da, Sevinci də, Dinarı da sevirəm, Cavidanı sevən qədər... Onlar qoy məndən inciməsinlər... Axı mən Cavidanı, əziz qardaşlarını kişi kimi böyütmək, ərsəyə çatdırmaq istəyirəm... Lap kiçik yaşlarından Cavidanla hər şeyi açıq danışır, ətrafda baş verənlərə münasibətimi birmənalı bildirirəm. Nə gizlədim sizdən, əziz qızlarım! Həyatım mənim! Həm də Cavidana ailənin gələcək kişisi, özümdən sonrakı varisi kimi baxıram. Mən onu ləyaqətlə böyütməli, həyata gözüaçıq hazırlamalıyam, mənim qızlarım!..

Ata ləyaqəti, ata məsuliyyəti!.. Nə qədər incə, nə qədər ağır, nə qədər şərəfli və müqəddəs olurmuş, İlahi?!

Cavidan iki yaşında dil açmağa başlasa da, nitqinin qüsurlu olması ona başqaları ilə ünsiyyətdə olmağa imkan vermirdi. Biz buna əvvəllər o qədər də diqqət yetirmirdik. Sonralar bu qüsurlar getdikcə möhkəmlənir, yeni-yeni fəsadlar yaradırdı. Çox fikirləşdim, çox götür-qoy elədim, çıxış yolunu Cavidanın nitqi





üzərində əməlli-başlı işləməkdə gördüm. Mərdəkandakı nitq qüsurlarının aradan qaldırılması üzrə fəaliyyət götərən məktəbə getdim. Direktordan kiçikyaşlıların nitqi üzərində işləmək üçün tərtib olunmuş bir neçə köhnə, yararsız da olsa, dərs vəsaitləri aldım. Həmin gündən Cavidanın nitq qüsurlarının aradan qaldırılması ilə məşğul oldum. Rəngarəng boyalarla təsvir olunmuş maraqlı hadisələrin məzmununu əks etdirən, kiçikyaşlıların ruhuna, daxili aləminə uyğun şəkillər Cavidanda dərin maraq oyatmışdı. Biz hər gün yeyib-içəndən sonra birlikdə masa arxasında əyləşir, şəkilləri müşahidə edirdik. Sonra da şəkil üzrə Cavidanla müsahibə aparır, şəkilə baxmaqla kiçik hekayələr, nağıllar qurdurardım. Onun tələffüzdə yol verdiyi səhvləri özlüyümdə əvvəlcə müəyyənləşdirir, sonra sözlərin düzgün tələffüzü üzrə müxtəlif priyomlar tətbiq edirdim. Lüğətin zənginləşdirilməsi, sözlərdən yerli-yerində istifadə etmək, cümlə qurmaq bacarıqlarının formalaşdırılması, məzmunun məntiqi ardıcıllıqla ifadəsi mənim iş üsulumun əsas qayəsi olurdu.

Apardığım işlər günbəgün öz bəhrəsini verirdi. Təkcə Cavidanın nitqinin inkişafı təmin olunmurdu, həm də onun təfəkkürünə təsir göstərməklə ümumi inkişafının yüksəldilməsinə nail olurdum. Bir neçə ay ərzində Cavidanın nitqindəki qüsurlar, demək olar ki, islah olunmuşdu. Mən tədricən onda yeni keyfiyyətlər duymağa başladım. O, şəkillərdə verilən ən incə detalları tutur, təbiət təsviri ilə məzmun arasında əlaqələr yaradır, hadisənin necə başlanmasını, onun dinamik inkişafını və finalını göstərə bilirdi. Bəzən də şəklə baxıb ağlagəlməz suallar verirdi. Bütün bunlar mənə hədsiz sevinc gətirirdi.

Cavidanın nitqi üzərində müntəzəm və sistemli iş onun idrakının potensial imkanlarını artırmış, yaşıdlarından çox-çox irəli çıxmaq imkanı yaratmışdı. Dörd yaş yarım olanda gətirdiyim kitablarla işləmək onun üçün maraqsız olmuşdu.

Ondan artıq şer əzbərləmiş, otuzdan artıq hekayə və nağılın məzmununu öyrənmişdi. Həyati müşahidələrinə, gördüklərinə aid kiçik hekayələr qurmağı, riyaziyyatdan 20 dairəsində hesablama aparmağı bacarırdı. Ətraf aləm haqqında kifayət dərəcədə təsəvvürlərə yiyələnə bilmişdi. Mən Cavidanın təlimə başlaması haqqında xeyli fikirləşərək dörd yaş səkkiz aylıqdan onun birinci sinifdə oxuması qənaətinə gəldim. Ancaq uşağın fiziki cəhətdən yüklənə biləcəyi məni çox qorxudurdu. Buna baxmayaraq, o, birinci sinifdə oxumalı oldu. Müəllimi ilə demək olar ki, hər gün əlaqə saxlayaraq, bəzi mövzuların öyrədilməsində ona hissolunmaz dərəcədə güzəştə getməyi məsləhət bildim. Onun bilik, bacarıq və vərdişlərindəki kəsirləri evdə oyunlar vasitəsilə özüm aradan qaldırmağa çalışdım.

Cavidanın yeyib-içməsi, yuxusu üzərində ciddi dayanır, onun açıq havada gəzintisini hər gün təşkil edirdim. Belə vaxtlarda etik söhbətlər aparır, təbiət aləmi haqqında suallar verir, fantastik hekayələr danışırdım. O da mənə tez-tez suallar verir, cavabını almağa çalışırdı. Qəribə idi, onun suallarının yaşına uyğun gəlməyən qoyuluşu: "Ata, sən yaxşı bilərsən, filan işi görmək olarmı?"

Bir də Cavidan səhvə yol verəndə: "— Ata, məni bağışla" — deyə, səhvini etiraf edər, ikinci dəfə həmin səhvi heç vaxt təkrar etməzdi... O, çox həssas olduğundan bütün məsələlərə böyüklərə məxsus şəkildə münasibət bildirərdi.

İnsanın uşaqlıq dünyasının hər günü, hər anı sirli-soraqlı olur. Cavidanın ağlı söz kəsəndən biz bir-birimizdən ayrıla bilmirdik. Mən ondan bir saatlıq uzaqlaşanda da, işdə olanda da onun üçün darıxırdım. Dediklərini yada salır, öz-özümə mızıldanır, sözlərini təkrarlayırdım. Hər gün işdən evə gələndə onu bağrıma basırdım. Biz bir-birimizi öpüb, əzizlərdik. Sonra da o, mətbəxə qaçar:





— Ataya çay, ataya çörək ver, — deyə anasını tələsdirərdi.

Bir dəfə işdən evə gec qayıtmışdım. Bərk kefsiz olduğumdan özümdə yorğunluq, əzginlik duyurdum. Qapını açıb otağa daxil olan kimi Cavidan mənə tərəf qaçdı:

— Yaxşı, oğlum, yorğunam, sonra oynayarıq, — deyə onu özümdən uzaqlaşdırmağa çalışdım. O, heç bir söz demədən gedib divanda uzandı. Mən axşam naharını edəndən sonra:

— Kitabını gətir, oxuyaq, — deyə Civadana müraciət etdim. O, heç bir söz deməsə də əvvəl dodaqları səyridi, sonra da özünü saxlaya bilməyib ağlamağa başladı. Mənim də, anasının da əlindən tutaraq:

— Dedin, dedin, — deyə bizi qapıya tərəf çəkdi. İkimiz də onun ardınca getməyə başladıq. O, bizi otaqdan çıxartdı. Sonra da qapını örtüb özü otağa qayıtdı. Otağın qapısı balaca aralı qaldığından onun hərəkətlərini izləyir, dediklərini çox aydın eşidirdik. Cavidan öz kiçik stulunda əyləşib televizora baxa-baxa:

— Ata detdi. Ana detdi, — deyə astadan ağlayırdı. Biz özümüzü saxlaya bilməyib içəri keçdik. Mən onu qucağıma almaq istədim. Cavidan yenidən bizi otaqdan çıxartdı. Daha ağlamadı. Beş dəqiqəyə qədər qapı arxasında gözlədik. Bu dəfə özü gəlib qapını açdı. Üzümüzə baxıb, geri qayıtdı. Bu bizi evə dəvət etmək deməkiydi. Hər ikimiz içəri keçdik. Səssiz-səmirsiz əyləşib televizora baxırdıq. Həmin axşam yatana yaxın biz Cavidanla güclə barışa bildik...

Noyabr ayının sonuncu bazar günü iydi. Payızın sərt əsən küləkləri ağacların son yarpaqlarını da budaqlardan qoparıb ayaq altına tökürdü. Xəzəllərdən yerə elə bil naxış çəkilmişdi. Günəşin parıltılı şüalarının istisi də o qədər hiss olunmurdu. Səkilərdə hərəkət edən adamlar binaların kölgəsindən günəş şüalarının düşdüyü yerlərə qaçırdılar. Mən Cavidanla şəxsi maşınıma əyləşib şəhərə çıxdım. Meydan və küçələrlə

onu tanış etdim. O, hər şeyə heyrətamiz tərzdə baxır, hey suallar verirdi. Günortaya yaxın Dənizkənarı parkdakı kafelərdən birinə gəldik. Səliqə-səhmanlı stollardan birini seçib əyləşdik. Xidmətçi kafedə hazırlanmış yeməkləri sadaladıqdan sonra Cavidan: — Gəl bu gün balıq yeyək, onsuz da toyuq, mal ətlərini anam evdə hər gün bişirir, — deyə üzümə baxdı. Mən etirazımı bildirmədim. Xidmətçidən bizə balıqdan hazırlanmış xörək gətirməsini xahiş etdim. Cavidan özünü böyüklərə məxsus əda ilə aparırdı. Xidmətçi ilə xüdahafizləşib ayağa qalxanda o:

— Ata, paltonu, şarfını unudarsan, ha, — deyə mənə baxdı. Mən:

— Sən narahat olma, — deyə gülümsündüm. Kafedən çıxıb maşına əyləşdik. Maşının mühərrikini işə salmaq istəyirdim ki, Cavidan dedi:

— Ata, məni bağışla. Mən düz danışmadım. Axı sən restoranda paltonu, şarfını unuda bilməzdin.

— Əlbəttə, bağışlayıram. Səhvini başa düşüb üzr istədiyin üçün çox sağ ol, oğlum.

Maşını birbaşa bazara sürüb alma, armud, üzüm aldıq. Sonra da evə qayıtdıq. Yolda Cavidan:

— Ata, gərək dostlarımı da bu gün özümlə gəzməyə dəvət edəydim.

Mən qeyri-ixtiyari olaraq:

— Yox, — deyə cavab verdim.

Cavidan qeyri-adi bir şey olubmuş kimi mənalı-mənalı üzümə baxdı və sonra da bildirdi:

— Mən səndən gözləməzdim, ata! Axı onlar mənim dostlarımdır...

Səhvimi etiraf etməkdən başqa əlacım qalmasa da:

— Bu haqda sonra danışarıq, — deyə cavab verdim.

Bu, beşyaşlı uşağın mənə verdiyi əxlaq dərsi idi.





İsti yay günlərindən biri idi. İstidən bir yerdə qərar tutmaq olmurdu. Cavidan da birinci sinfi qurtarıb yay tətilinə buraxılmışdı. Bazardan pomidor, xiyar, alça, alma alıb, onunla Bilgəh çimərliyinə gedirdik. Yolda o, müraciətlə:

— Ata, mən Rahimlə, onun qardaşı ilə dostluq edə bilmərəm.

Rahimgilin ailəsi bizimlə bir binada yaşayırdı. Mən:

— Nə üçün? — deyə xəbər aldım. Cavidan:

— Bilirsən, onlarla dostluq etmək üçün mənim də qolumda zor olmalıdır.

— Başa düşmürəm...

— Rahim məndən üç, qardaşı isə bir yaş böyükdür. Onlar məni vuranda, gərək, mənim də gücüm olsun ki, onları yerlərində oturda bilim.

— Axı siz niyə vuruşmalısınız?

— Onu Rahimdən soruşmaq lazımdır. Həyətə düşən kimi bir şeyi bəhanə edib məni vururlar. Mən fikirləşdim ki, onlara yaxın getməyim. Gedib özümdən balacalarla oynamağa başladım. Rahim həyətdəkiləri də mənə qarşı qaldırdı. Hamı deyirdi ki, "Cavidan özündən balacalarla oynayır". Sonra mən balaca uşaqlardan da uzaqlaşıb sinfimizdə oxuyan qızlarla söhbət eləməyə başladım. Bu dəfə də dedilər: "Cavidan qızlarla oynayır". Mən yenə fikirləşdim: bundan sonra həyətə düşməyim. Bundansa, evdə dərslərimi oxumaq, riyaziyyatdan məsələ, misal həll eləmək yaxşıdır. Rahimlə də, onun qardaşı ilə də görüşmürəm. Heç kimdən artıq söz eşitmirəm... Mən düzmü hərəkət edirəm, ata?

Cavidanın sözlərini eşitdikcə maşını necə idarə etdiyimi bilmirdim. Çimərliyin kənarında maşını saxladım. Xəzərin mavi sakit sularına baş vurduq, narın, isti qumları üzərində uzandıq. Axşamüstü evə qayıtmalı olduq. Yol boyu Cavidanın danışdıqları bir an da olsun mənə rahatlıq vermirdi. Hə-

yəcanım, narahatlığım artırdı. Ona görə də Rahimlə, onun valideynləri ilə danışmaq qərarına gəldim. Maşından düşəndə Cavidan evə, mən ondan xəbərsiz Rahimin valideynləri ilə söhbətə getdim.

Səhəri gün Cavidan Rahimgilə getdiyimi eşidəndə mənə dedi:

— Ata, gərək, Rahimgilə getməyəydin. Onlar məni satqın kimi tanıyacaqlar..

— Yox, oğlum, mən onun valideynləri ilə danışmalı idim.

Cavidan:

— Yaxşı, sən deyən olsun, — deyə bu dəfə üzünü anasına tərəf çevirdi...

İndi də yadıma düşəndə yanıb-yaxılıram. Mən xəstəxanada olanda Cavidan anası ilə yanıma gəlmişdi. Həmişəki kimi üzümdən öpdü. Əhvalımı xəbər alandan sonra dedi:

— Ata, bu gün çörəyin qiymətini yenə qaldırdılar. Necə olacaq?

Doqquzyaşlı Cavidanın üz-gözündə təlaş, qorxu hiss etdim. Dərhal da bir şey olmamış kimi:

— Oğlum, niyə narahatsan? Mənim maaşım yeməyə də, içməyə də, geyməyə də çatır...

Cavidanın çiyinləri üstündən elə bil ağır yük götürüldü. Üzündə sevinc, təbəssüm görünməyə başladı. Öz-özümə düşündüm: "Sağ ol, oğlum, uşaq ikən ailəmizin vəziyyəti haqqında düşünürsən. Lap babanın nəvəsisən..."

Bax, illər beləcə gəlib keçir. O, Azərbaycan İqtisad Universitetinə on beş yaşında qəbul olunub. Azərbaycan Milli Elmlər Akademiyası İqtisad Elmi Tədqiqat İnstitutunda aspirant oldu. "Azərbaycan Respublikasında vergi borclarının ödənilməsinin təkmilləşdirilməsi istiqamətləri" mövzusunda iqtisad elmləri üzrə fəlsəfə doktorluğu müdafiə elədi. Vergi Nazirliyi sistemində işləyir. Düşüncə və fəaliyyəti milli ruhdadır. Xalqına, vətəninə bağlıdır. Məslək və əqidəsi safdır. Vicdanı təmizdir. Həqiqi vətəndaşdır. Rus dilində sərbəst danışır, ingilis dilində danışılanları başa düşür. Oğlumda atama bənzərlik görürəm, duyuram, dərk edirəm. Sevirəm oğlumu, atam məni sevən qədər. Oğlumla atam necə də oxşayırlar bir-birinə, İlahi! Yerişi, duruşu, baxışı, lap danışığı da elə bil özüdü atamın! Nəsil kök üstündə oturmalı idi. Oturdu da, mənim oğlum, mənim Cavidanım!





## YARADICILIQ İLAHİ BƏXŞİŞDİR

**Ey könül fürsəti badə vermə gəl,**
**Gün keçir, ay keçir, il yaman gedir.**
**Yarat sən köçəndə ellər söyləsin,**
**Dünyadan ən gözəl bir insan gedir.**

***M.Rahim***

Kənd müəllimi olanda da, on altı illik respublika məktəblərində apardığım müxtəlif xarakterli yoxlamalarda da, ibtidai təlim problemi üzrə qoyduğum eksperimentlərdə də, Gəncə Dövlət Pedaqoji İnstitutunda üç il Dövlət İmtahan Komissiyasının sədri olanda da belə qənaətə gəlmişdim ki, Azərbaycanda pedaqoji kadrların hazırlanması işi düzgün qurulmamışdır. Təhsil güclü böhran keçirir. Şagirdlərin çox cüzi hissəsinin bilik, bacarıq və vərdişləri mövcud proqramın tələbinə uyğun gəlir. Rəhbərlik etdiyim ibtidai təlim şöbəsində bunun səbəblərini araşdırmalı oldum. Uşaq bağçalarında və ibtidai siniflərdə çalışan tərbiyəçi və müəllimlərin hazırlıq səviyyəsini öyrəndim. Bu zaman müxtəlif xarakterli köklü çatışmazlıqların olduğunu müəyyənləşdirdim. Uşaq bağçalarında uşaqların təlimə yaxşı hazırlanmaması, ibtidai siniflərin proqram və dərsliklərindəki çatışmazlıqlar, peda-

qoji ədəbiyyatdakı boşluqlar, tərbiyəçi və müəllimlərdən bəzilərinin ümumi nəzəri, pedaqoji-psixoloji hazırlığının zəifliyi, bəzilərinin qeyri-ixtisas sahibi olmaları, bəzilərinin isə ali təhsilli olmaması və s. Bu çatışmazlıqlar məni ali pedaqoji məktəblərin (institutların) tədris planlarını, proqram və dərsliklərini, pedaqoji təminatını, kadr potensialını araşdırmağa sövq etdi. Təhsilin aşağı pillələrində olduğu kimi, yuxarı pillələrində də böyük islahatlara ehtiyac olduğunu hiss etdim. Hər şey aydın idi. Mövcud təhsil sistemi dövrün tələbinə cavab vermirdi. O, yeniləşməliydi. Ancaq bunun üçün dərin, köklü islahatlar şəraiti yaranmalı idi. Yoxsa, buna bir adamın, yüz adamın, bir ordunun da gücü çatmazdı.

Sovet dövlətinin dayaqları laxlayaraq uçulur, dağılma prosesi getdikcə sürətlənirdi. Mən Azərbaycanda təhsilin istiqamətləri, onun yeni modelinin yaradılması haqqında düşünürdüm. Fikirləşirdim ki, "Təbiət-Cəmiyyət" modeli əsasında qurulan sovet təhsil sistemi öz ömrünü başa vurur. Təbii ki, Azərbaycanda yeni təhsil modelinin yaranmasına ciddi ehtiyac vardır. Bax ona görə də sovet təhsil sistemi modelinə "Şəxsiyyət" və "Tanrı" komponentlərini də əlavə edərək "Təbiət-Cəmiyyət-Şəxsiyyət-Tanrı" modelini irəli sürdüm. Təhsildə şəxsiyyətə cəmiyyət komponenti kontekstində yanaşıldığından onun tarixi hadisələrdəki mövqeyi, rolu həmişə kölgə altına alınmış, bəzən də əridilmişdir (Mənimlə mübahisəyə girmək istəyənlərə İkinci Dünya Müharibəsində Stalinin fəaliyyətinin inkar olunmaq dərəcəsinə endirilməsini nümunə gətirmək istərdim). Halbuki, şəxsiyyətin tarixdəki yeri, cəmiyyətin inkişafındakı rolu danılmazdır.

"Tanrı" komponenti həm Şərq, həm də Qərb ölkələrinin təhsil sistemində özünə yer tapsa da, bizdə ona qarşı "ateistlər" hücumu başlanmışdı. Əslində isə bəşər mədəniyyətinin ən böyük inciləri islam dəyərləri əsasında formalaşmışdır.





İnsanın Tanrıya üz tutması haqqın, ədalətin, milli və bəşəri dəyərlərin təşəkkülüdür. Haqqa sığınma mənəvi zənginliyə, müdrikliyə qapanmadır. Bu komponentlərin modelə salınması təhsil sisteminin məzmun və formaca yeniləşməsinə gətirib çıxarırdı. Təlimin məzmununda milli ənənələri, islam dəyərlərini əsas götürdüyümdən kiçik xalqların, ayrı-ayrı millətlərin tarixinə, milli dəyərlərinə (dilinə, ədəbiyyatına, incəsənətinə...) bəşəri kontekstdən yanaşdım. "Bəşərilikdən milliliyə" prinsipindən imtina edərək, "millilikdən bəşəriliyə" prinsipini götürdüm. Bununla da milli dəyərlərin bəşəri dəyərlər fonunda kiçilərək əridilməsinin qarşısına sipər çəkmiş oldum.

1991-ci ilin əvvəlləri idi. Kiçikyaşlı məktəblilərin kişilərdən tez qadınlara isinişdiklərini nəzərə alaraq dövlət ali pedaqoji məktəblərinə alternativ əsasda Azərbaycanda ilk Ali Pedaqoji Qızlar Seminariyası açmaq qərarına gəldim. Bir qrup həmkarımı ətrafıma topladım. Seminariyanın Əsasnaməsini, tədris planlarını hazırladım. Elmi potensialı müəyyənləşdirdim. Seminariyanın təsisçiləri mən, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu və bir də Assosiasiya oldu. İnstitut seminariyanın pedaqoji təminatını, Assosiasiya maliyyə-iqtisadi və maddi-texniki cəhətini, mən isə işin təşkilati və idarə olunma məsələlərini həll etməli idim. Əsasnaməni Nəsimi Rayon İcra Hakimiyyətində təsdiq etdirib seminariyaya məxsus dördkünc ştamp, dairəvi möhür çıxartdırdım. Bankda hesab açdırdım. Seminariyanın fəaliyyət göstərə bilməsi üçün hüquqi əsas belə yarandı.

1992-ci ilin iyun ayının 27-də Azərbaycan televiziyası ilə Bakı Ali Pedaqoji Qızlar Seminariyasına "Psixoloq-praktik", "Sosioloq-pedaqoq", "Pedaqogika və psixologiya", "Pedaqogika və ibtidai təhsilin metodikası" ixtisasları üzrə tələbə qəbulu barədə elan verdim. Səhəri gün Nazim Abbasova təd-

ris işləri üzrə prorektor, Akif Abbasova tərbiyə işləri üzrə prorektor, Vaqif Kərimova dekan vəzifələrini həvalə etdim. Tələbə qəbulu komissiyası yaratdım.

Qəribə əmr də verdim. Tələbə qəbul komissiyasına sədr — mən, Akif Abbasovu — məsul katib, Nazim Abbasovu, Vaqif Kərimovu, Məlahət Əfəndiyevanı və Murtuz Mustafayevi üzv təyin elədim. Elan müddətində 100 yerə 618 sənəd verildi. Abituriyentlərin sənədlərini yenidən nəzərdən keçirərək onların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirmək üçün müsabiqə komissiyası yaratdım. Komissiyanın sədri professor Yəhya Kərimov, üzvləri isə professor Şəmistan Mikayılov, professor Məmməd Talibi, dosent Ənvər Abbasov, müəllim Valeh Məmmədov oldular. Komissiya abituriyentlərin görkəmini, fiziologiyasını, nitqinin aydınlığını, xəttinin gözəlliyini, müəllimlik qabiliyyətini də nəzərə almalı idi.

Üç gün ərzində müsabiqə yolu ilə seminariyaya 112 tələbə qəbul etdim. Onlara qəbul sənədi verdim. Oktyabr ayının 1-də dərslərin başlanacağını bildirdim. Lakin dərslərin harada keçiriləcəyini Assosiasiya qəti müəyyən etməmişdi. Vaxt yaxınlaşdıqca Assosiasiya üzərinə götürdüyü öhdəliklərdən boyun qaçırmağa başladı. Özümüzü çətin vəziyyətə saldığımızı yavaş-yavaş dərk elədim.

Oktyabrın 1-i yaxınlaşır, tədris binası tapılmırdı ki, tapılmırdı. Hər dəfə Assosiasiya bir bəhanə gətirir, bizə yalnız ümidlər verirdi.

Dərslərin başlanmasına iki gün qalırdı. Mən Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutunun direktoru İsa Məmmədovla görüşdüm. O, uzun müddət rəhbər maarif, partiya və sovet orqanlarında çalışmışdı. Onun zəngin təcrübəsi, adamlarla səmimi ünsiyyətə girmək qabiliyyəti vardı. Ürəyi olduqca yumşaq və təmiz idi. İlk dəqiqələrdən söhbətimiz





tutduğundan və qarşılıqlı anlaşmanın nəticəsi olaraq, günün ikinci yarısında tədris prosesini təşkil etmək üçün institutun auditoriyalarını seminariyanın ixtiyarına verəcəyini bildirdi. İsa müəllimlə instituta icarə haqqı vermək məqsədilə müqavilə də bağladım. Elə bil üzərimdən dağ götürüldü.

## KİRAYƏNİŞİN HƏYATI, YOXSA, ƏSƏB MƏNGƏNƏSİ

**Nadanları sevindirsəniz aqilləri kədərləndirmiş olarsız.**
*Zərdüş*

Oktyabrın 1-i idi. Bərk həyəcan keçirirdim. Saat 15-də seminariyanın açılışı olacaqdı. Günortaya yaxın Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutuna gəldim. Şəxsiyyətinə böyük hörmət bəslədiyim İsa müəllimlə görüşüb onu da açılışa dəvət etdim. Mənim göstərişimlə Nazim, Akif, Vaqif açılış üçün hazırlıq işləri aparırdılar. Tələbələri və qonaqları institutun iclas zalına toplayırdılar. Hamının üzündə sevinc hissi duyulurdu. Valideynlər də, qonaqlar da, müəllimlər də bizi açılış günü münasibəti ilə təbrik edir, işlərimizdə uğurlar arzulayırdılar.

Açılış əvvəlcədən planlaşdırıldığı kimi saat 15-də oldu. Mən söz alıb qonaqları, valideynləri, müəllimləri və tələbələri salamladım. Bakı Ali Pedaqoji Qızlar Seminariyasının yaradılması ilə Azərbaycan təhsilində tarixi bir hadisə baş verdiyini bildirdim.

Sonra sözü professorlardan Yəhya Kərimova, Əziz Əfəndizadəyə, Şəmistan Mikayılova verdim. Onların hər biri Bakı Ali Pedaqoji Qızlar Seminariyasının məzmunundan, yaradılma məqsədindən, burada qurulacaq təlim-tərbiyə prosesin-

dən danışdılar. Axırda tələbələrdən Şəhla Xəlilova, Pərvanə Quliyeva, Rəxşəndə Səmədova çıxışlarında qəbul imtahanlarının yüksək səviyyədə təşkilindən, obyektivliyindən söz açdılar. Professor və müəllim heyətinin ümidlərini doğruldacaqlarını bildirdilər.

Açılışdan sonra tələbələr auditoriyalarda professorların mühazirələrini dinlədilər.

Açığını deyim ki, addımbaşı təcrübəsizliyimiz özünü göstərirdi. Tələbələrlə, valideynlərlə rəftarımızda, ünsiyyətdə ciddi qüsurlara yol verirdik. Elə bilirdik ki, bütün işlərdə guya biz düz hərəkət edirik. Tez-tez də bir-birimizin hərəkətlərini, hətta, dedikləri sözləri saf-çürük edirdik. Bu da bəzi həmkarların qəlbinə toxunurdu. Birinci dərs gününü həvəslə başa vurduq. İkinci gün mən səhər Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna gələndə şöbənin laborantı Lətifə Rzayeva mənə bildirdi ki, İsa Məmmədov öz otağında səni gözləyir. Mən dərhal onun çağırışına getdim. O, bərk əsəbi idi. Haləhvalatdan sonra dedi:

— Ağarəhim müəllim, axşam məni nazirliyə çağırmışdılar. Orada belə qərara gəliblər ki, illərdən bəri müəllimlərin istifadəsində olan bu binanı bizdən alsınlar. Bizi mikrorayonların birindəki uşaq bağçasının binasına köçürmək istəyirlər. Buranı da “Azadlıq” qəzeti redaksiyasına verirlər. Məni bağışla, axıra qədər sənə kömək edə bilmədim. Mən nazirliyin bu mövqeyini heç cürə başa düşə bilmirəm...

İsa müəllim danışdıqca fikrim, düşüncəm qarışırdı. Artıq özüm də bilmədən əsəb məngənəsinə atılmışdım. Nə edəcəyimi, hara gedəcəyimi bilmirdim. 3-4 saatdan sonra 112 tələbəni harada yerləşdirmək olardı?! Bax beləcə stulda quruyub qalmışdım. Mənim çaşqınlığımı görən İsa müəllim sözünə davam etdi:

— Bilirəm, bir neçə saatdan sonra tələbələr, müəllimlər





bura gələcəklər. Sən onlara cavab verə bilməyəcəksən. Bizim köçməyimiz hər halda bir həftə çəkəcək. Bu həftə öz işinizi burda davam etdirə-etdirə bina axtarın. Mən də soraqlaşaram. Səni bu vəziyyətdə qoymaq olmaz.

Başqa yolum yox idi. İsa müəllimdən necə ayrıldığımı bilmirəm. İşlədiyim ibtidai təlim şöbəsinə gəldim. İşçiləri çağırıb vəziyyəti açıqladım. Hamı heyrət içində mənə baxırdı. İndi məni təkcə bir sual düşündürürdü: tədris prosesini qurmaq üçün binanı hardan tapmalı? Mən həmin günü tədris prosesini dekan Vaqif Kərimova tapşırıb, özüm tədris binası axtarmağa başladım. Ümumtəhsil və texniki peşə təhsili məktəblərini gəzdim. Tədris üçün bir neçə otaq tapa bilmirdim ki, bilmirdim. İsa müəllimin bizə verdiyi vaxt da tamam olurdu. Əsəbdən için-için alışıb yanır, doğranırdım. Assosiasiyanın öhdəliyini də mən yerinə yetirməli olurdum. Əlacsız qalıb professor Zahid Qaralovdan xahiş etdim ki, heç olmasa, növbəti həftə dərslərin Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda keçirilməsinə şərait yaratsın. İnstitutun imkanı olmasa da, Zahid müəllim xahişimi nəzərə aldı. Növbəti həftənin də dərslərini burada keçməli olduq. Axtarışlar davam edirdi. Professor Yəhya Kərimovla mən M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunun rektoru, professor Firidun Hüseynovla görüşdük. Yəhya müəllim gəlişimizin məqsədini söylədi. Firidun müəllim dedi: — Yəhya müəllim, biz 3 nömrəli qızlar yataqxanasının ikinci mərtəbəsindən bu ilədək tədris korpusu kimi istifadə etmişik. Orada səkkiz auditoriya, üç təşkilati iş aparmaq üçün otaq var. Otaqlarda işıqlandırma, istilik normaldır. Kifayət qədər tədris avadanlığı ilə təchiz olunmuşdur. Mən etiraz etmirəm. Müqavilə əsasında Sizə orda lazımi şərait yaradarıq. Siz də xeyirxah işlə — xalqın maariflənməsi ilə məşğul olursunuz. Mən indi aidiyəti adamlara göstəriş verim. Siz onlarla müqavilə bağlayın...

Ertəsi gün biz Firudin müəllimin göstərişi ilə üçillik müqavilə bağladıq. Həftənin sonunda yataqxananın ikinci mərtəbəsində dərsə başladıq.

Seminariyada 112 tələbə qız təhsil alırdı. Mən dərs cədvəlini yeni şəraitə uyğunlaşdırdım. Müəllimlərin əksəriyyəti Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun işçiləri idi. Onların hər biri ümumtəhsil məktəblərində tədris olunan fənn proqramlarının və dərsliklərin, eləcə də pedaqoji-psixoloji ədəbiyyatın müəllifləri idi. Hər biri apardıqları eksperimental tədqiqatların nəticələrini seminariyada sınaqdan keçirir, pedaqoji-psixoloji elmlərin son nailiyyətlərini auditoriyalarda tələbələrə çatdırırdı. Az müddət ərzində seminariyada sağlam kollektiv yaranmışdı. Hamı ürəkdən çalışır, müəllim-tələbə münasibətlərində qarşılıqlı anlaşma, hörmət və səmimiyyət duyulurdu.

Təcrübəli, yüksək elmi səriştəsi və müəllimlik qabiliyyəti olanları seminariyaya toplamağa çalışdım. Çox keçmədi ki, buna nail ola bildim. Seminariyada professorlardan Əziz Əfəndizadə, Yəhya Kərimov, Zahid Qaralov, Şəmistan Mikayılov, Əbdül Əlizadə, Muxtar Həmzəyev, Nizami Məmmədov, Vidadi Xəlilov, Akif Abbasov, Məmməd Talibi və başqaları tələbələrə mühazirələr oxuyurdular. Seminariyada təhsil alan tələbələrdə yüksək əhvali-ruhiyyə hökm sürürdü. Burada tələbə qızlarla ədəbi-bədii kompozisiyalar, görüşlər, maraqlı gecələr keçirilir, elmi-kütləvi, bədii əsərlərin müzakirələri təşkil olunurdu. Qızların ailə həyatına hazırlanmasına, tikiş, biş-düş (kulinariya) işlərinin təşkilinə, onlarda analıq hissinin yaradılmasına aid xüsusi seminar-məşğələlər təşkil olunurdu.

İşləri yavaş-yavaş qaydasına salırdım... Çətinliklərin böyük bir hissəsi arxada qalırdı. Seminariyanın rektoru kimi mən müəyyən çatışmazlıqlara yol versəm də, səhvlərimi tez





bir zamanda aradan qaldırmağa çalışırdım.

Seminariyada qızlarla iş aparmaq üçün Samirə xanım Hacıyevanı dekan müavini vəzifəsinə qəbul elədim. Az sonra Vaqif Kərimov dissertasiyanı tamamlamaqla əlaqədar dekan vəzifəsindən istefa verdi. Onu Samirə xanım əvəz etdi. İnsafən, o, gənc olsa da, qızlarla tezliklə ünsiyyət yaratdı, onların dərd-sərini öyrəndi, məsələlərin böyük əksəriyyətini başqalarının köməyinə ehtiyacı olmadan həll edə bildi.

Günlər beləcə gəlib keçirdi. Məqbul və imtahanların qəbulunda yersiz söz-söhbətlərin, şayiələrin qarşısını almışdım. Tələbələrdə də, valideynlərdə də özümə qarşı inam yarada bilmişdim. Onlar qəti yəqin etmişdilər ki, müsbət qiymət almağın yeganə ölçüsü oxumaqdır, bilik nümayiş etdirməkdir. Bütün təmənnalı və təmənnasız xahişlər, tapşırıqlar kəsilmişdi. Kollektivdə mənəvi rahatlıq duyulurdu.

İkinci ilin ikinci semestri idi. Seminariyada tələbələrin sayı da ikinci il olduğundan xeyli artmışdı. Dərslərin başlandığı bir neçə gün olardı. Səhər tezdən kabinetimin qapısını açanda ayaqlarımın altına dördkünc qatlanmış bir kağız parçası düşdü. Kağızı götürüb oxuyanda gözlərimə inanmadım. Bəzi müəllimlər haqqında anonim ittihamlar irəli sürülürdü. Sətirləri oxuduqca mənə elə gəlirdi ki, hansısa başqa bir tədris müəssisəsindən söhbət gedir. Mənsə, bu aləmdən tam xəbərsizəm.

Otağıma qapanıb xeyli fikirləşdim. Məktub anonim olsa da, faktlar fakt olaraq qalırdı. Mən Samirə xanımı çağıraraq ondan xahiş etdim ki, birinci növbədə təhsil alan bütün tələbələri dərsin sonunda mühazirə otağına yığsın. O, səbəbini soruşduqda: — Sonra bilərsən, — deyə cavab verdim.

Belə də oldu. Yüz əlli nəfərlik mühazirə otağı ağzına qədər dolmuşdu. Bu dərsdə anonim anket sorğusu aparacağımı bildirəndə tələbələr başa düşmədiklərindən auditoriyada pı-

çıltı yarandı. Hər kəs öz yoldaşından anket sorğusunun hansı məqsədlə aparılmasını öyrənməyə çalışırdı.

Seminariyada dərs aparan bütün müəllimlərin adlarını yazı taxtasına yazdım. Sonra "Kimdən razısınız, nə üçün?" "Kimdən narazısınız, nə üçün?" suallarına cavab yazmağı tələb etdim. Sinif nümayəndələrindən xahiş etdim ki, işin sonunda cavabları yığıb mənə çatdırsınlar. Onu da əlavə etdim:

— Xahiş edirəm, heç kim suallara cavab verərkən öz adını yazmasın, mən də onu heç kəsə göstərməyəcəyəm. Ancaq cavablarda obyektivliyi gözləyin.

Sonra xudahafizləşib auditoriyanı tərk etdim. Tələbələr anket sorğusuna bir saatdan artıq vaxt sərf etmişdilər. İşin sonunda qrup nümayəndələri anket sorğusuna alınan cavabları mənə gətirdilər. Həmin gün eyni suallara ikinci növbədə təhsil alan tələbələrdən də cavablar aldım.

Anket sorğusunda 243 tələbə iştirak etmişdi. Tələbələrin cavabları olduqca maraqlı, obyektiv, səmimi, təsirli və ciddi idi.

Açığını deyim ki, müəllimlərin sırasında öz adımı yazmamışdım. Tələbələrin böyük əksəriyyəti müəllimlər haqqında yazılan xarakteristikada, əsasən, beş-altıncı yerlərdə mənim də adımı yazmışdılar. Mənə də tam obyektiv, səmimi xarakteristika vermişdilər. Maraqlıdır ki, cavablarda demək olar ki, eyni fikir söylənilirdi.

— Ağarəhim müəllim, Siz olduqca hazırlıqlı adamsınız. Qəlbiniz çox yumşaqdır. Hamıya ata qayğısı ilə yanaşırsınız. İşiniz sözünüzlə demək olar ki, eynidir. Ancaq qızlara qarşı kobudsunuz. Adamlara güzəştə getməyi bacarmırsınız. Biz Sizdə kobudluğu görmək istəməzdik. Bəlkə də Siz düz edirsiniz. Sizin sərtliyiniz, kobudluğunuz olmasa, biz qızlar həddimizi aşarıq...

Bütün qızların cavablarını oxudum, ümumiləşdirdim, müəllimlərimizin əksəriyyəti haqqında fərəhləndirici cavablar





verilmişdi. Qızların, demək olar ki, 95-96 faizi "professor Əbdül Əlizadə, professor Əziz Əfəndizadə, professor Zahid Qaralov, professor Yəhya Kərimov, Səbirə Novruz qızı, Samirə Hacıyeva... mənim idealımdır" cavabını vermişdilər. Elə müəllimlər də vardı ki, onların xarakterlərinin ziddiyyətli cəhətlərini göstərmişdilər. Açıq danışaq. Bir qrup müəllimlər güclü tənqidə məruz qalmışdılar. Hətta, elələri də vardı ki, tələbələrin böyük əksəriyyəti tərəfindən onların müəllimliyinə, elminə şübhə ilə baxılmışdı. Ünvanlarına "...əgər müəllim demək mümkündürsə...", "...mən onu müəllim adlandıra bilmərəm", "...onun dərs demək qabiliyyəti yoxdur", "...istəməzdik ki, o bizə dərs desin", "...o, seminariyaya ləkə gətirir" və s. kimi ifadələr də yazılmışdı.

Cavabları tez bir zamanda ümumiləşdirərək tələbələr tərəfindən ideal hesab edilənlərə təşəkkürümü bildirdim, xarakteri ziddiyyətlilərlə söhbətlər apardım. Kəskin tənqidə məruz qalanlara isə tutduqları əməllərini xatırlatdım, tələbələrin onlara olan münasibətini oxudum: "Fəaliyyətini müzakirə etməyə ehtiyac varmı?" — deyə soruşanda onların hər biri: "Yox, seminariyadan özüm ərizəmlə gedərəm", — cavabını verdi. Beləliklə, 13 müəllim anket sorğusunun nəticələrinə görə seminariyanı tərk etməli oldu.

Seminariyada gedən daxili təmizlənmə ümumi işdə inkişafa doğru açıq bir meyl yarada bilmişdi.

Təlim-tərbiyə prosesi getdikcə daha çox işçi qüvvəsi tələb edirdi. Mən rektorluğun üzvlərini otağa dəvət edib struktur dəyişikliyi ilə əlaqədar onların fikirlərini öyrənməli oldum. Qərarlaşdırdım ki, seminariyada dekanlığı iki yerə ayıraq. Pedaqoji fakültədə "Pedaqogika və psixologiya", "Pedaqogika və ibtidai təhsilin metodikası", "Psixologiya-sosiologiya" fakültəsində isə "Psixoloq-praktik", "Sosioloq-pedaqoq" ixtisasları üzrə kadr hazırlığı nəzərdə tutuldu. "Pedaqo-

ji" fakültəyə Samirə Hacıyeva, "Psixologiya-sosiologiya" fakültəyə isə Səbirə Novruz qızı dekan seçildilər. Bunlara uyğun olaraq kafedralar yaradıldı: pedaqogika (müdir — pedaqoji elmlər doktoru Hikmət Əlizadə), psixologiya (müdir — professor Muxtar Həmzəyev), ictimai-siyasi fənlər (müdir — fəlsəfə elmləri namizədi, dosent Abbas Piriyev), dil-ədəbiyyat (müdir — professor Nizami Məmmədov) və təbiət fənləri (müdir — ictimai əsaslarla prorektor Nazim Abbasov).

Həftənin sonunda bu məsələlərin Elmi Şurada təsdiqinə nail oldum. Bundan əlavə, şura üzvlərinin təklifi ilə tədris şöbəsi də yaratdım. Bu şöbəyə rəhbərliyi isə dosent Ağa Sadıqova tapşırdım. Ağa müəllimin uzunillik ali məktəb təcrübəsi vardı. O, Nazim müəllimlə birlikdə tez bir zamanda özəl tədris müəssisələri ilə əlaqədar lazım olan bir sıra sənədləri hazırlayıb Elmi Şuranın təsdiqinə verdi. İşlər getdikcə aydınlaşır, dəqiqləşir, hamının ümdə amalı seminariyanın fəaliyyətinin düzgün qurulmasına yönəldiyindən kollektiv üzvləri arasında qarşılıqlı anlaşma, hörmət və səmimiyyət də artırdı.

Bax beləcə davam etməkdə idi seminariyanın kirayənişin həyatı.





## XƏYANƏT VƏ CİNAYƏT

**Özündən hər kəs ki, deyil xəbərdar**
**Bir qapıdan girər, birindən çıxar.**
***N.Gəncəvi***

**Düzlüklə alçaqlıq çarpışan zaman**
**Alçaqlıq nədənsə qazanır hər an.**
***M.Ş.Vazeh***

Güclü elmi-pedaqoji potensial toplansa da, pedaqoji təminat olsa da, hələ seminariyanın özünün tədris binasının olmaması vaxtaşırı problemlər yaradırdı. Buna görə mən sağdan da, soldan da vurulurdum. Hər dəfə üzümü Assosiasiya sədrinə tutur, onunla danışıqlara girişir, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyi tələb edirdim. Danışıqlar nəticə vermirdi ki, vermirdi. Hər gün yalan... yalan!..

Adi iş günlərindən biri idi. "Azərbaycan məktəbi" jurnalının redaksiyasından "Bakı Ali Pedaqoji Qızlar Seminariyasının problemləri və perspektivləri" mövzusunda məqalə yazmaq sifarişini aldığımdan iş otağıma qapanıb fikir və mülahizələrimi kağıza köçürürdüm.

O zamanlar katibə işləyən Nərgiz xanım otağıma daxil olaraq: — Təhsil Nazirliyindən gələnlər var, sizi görmək istəyirlər, — dedi:

— Buyursunlar, — deyə cavab verdim.

Onlar altı nəfər idilər. Yerimdən qalxıb hər birinə əl verərək əyləşmələrini xahiş etdim. Ancaq qonaqlar olduqca əsəbi görünürdülər.

Qonaqlardan biri:

— Ağarəhim müəllim, sizinlə bir məsələni həll etməyə gəlmişik. Mən:

— Eşidirəm sizi, — deyə cavab verdim.

O, sözünə davam edərək:

— Bilirsinizmi ki, açdığınız bu seminariya qeyri-qanunidir. Bu təhsil ocağı bağlanmalıdır.

Mən dərhal onun sözünü kəsərək:

— Qardaşlar, çox sağ olun ki, bunu bizə bəyan etdiniz. Necə qeyri-qanunidir ki, "Təhsil Qanunu"nda özəl tədris müəssisələrinin açılması təsbit olunub. Yerli orqanlar seminariyanın Əsasnaməsini təsdiq edib. Təşkilata dördkünc ştamp, dairəvi möhür verib. Bankda seminariyanın hesabı açılıb. Təhsil haqqının müəyyən faizini dövlət vergi kimi tutur. Siz də gəlmisiniz ki, məsələ həll etməliyik. Seminariyanın qanuni açılıb-açılmamasını məhkəmə yaxşı bilər. Bununsa, sizə dəxli yoxdur. Yaxşı olar, öz problemlərinizi həll edəsiniz.

Müsahibim dərhal sözünü dəyişərək:

— Hə, onu özünüz bilərsiniz. Siz bu binada qeyri-qanuni dərs keçirsiniz. Biz gəlmişik seminariyanın bu binadan çıxarılması məsələsini həll edək.

— Yox, — deyə cavab verdim. Yenə səhv edirsiniz. Bu da məhkəməlik işdir. Sizin buna hüququnuz yoxdur. İstərdim ki, hüqüqunuzu yaxşı-yaxşı öyrənəsiniz. Mən bu otaqları işğal etməmişəm. M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun rəhbərliyi ilə müəyyən dövr üçün müqavilə bağlamışam. Binanı təmir etdirmişəm. İcarə haqqı keçirmişəm. Təmir xərcini və instituta köçürdüyüm pulları inflyasiya nəzərə alınmaqla, seminariyanın hesabına qaytarsınlar. Onda mən özüm bu binadan çıxaram. Yoxsa, bu, mümkün deyil. İndi gedin, məhkəməyə müraciət edin. O, qərar verərsə, baxarıq.

Mənim cavablarım, deyəsən, qonaqların xoşuna gəlmədi. Onlar bir qədər narazı, bir az da pərt halda otaqdan çıxdılar.





Artıq icarəyə götürdüyümüz binanın üstündən qara yellər əsməyə başlayırdı.

Bərk əsəbiləşmişdim. Söhbətin nədən getdiyini Samirə xanım eşitdiyindən təşviş keçirə-keçirə otağa daxil oldu. Sonra dedi:

— Nə fikirləşirsiniz? Bina olmasa, bu qədər tələbəni hara aparmaq olar? Bu ki, biabırçılıqdır...

Mən heç bir söz demədim. Sadəcə olaraq tək qalmaq istədiyimi bildirdim. Bu anda Nərgiz xanım:

— Sizi telefona istəyirlər, — deyə mənə müraciət etdi.

Dəstəyi qaldırdım. Assosiasiyanın sədri idi. Hal-əhvalımı xəbər aldı. Mən:

— Pis, — deyə cavab verdim.

Səbəbini soruşdu. Bir az bundan əvvəlki əhvalatı telefonda olduğu kimi ona danışdım. O, işin sonunda görüşməyi təklif etdi. Razılaşdıq. Saat 5-6 radələri idi. Biz onun otağında görüşdük. Katibədən iki stəkan çay gətirməyi xahiş etdi. Çay gəlincəyə qədər o, söhbətə başladı:

— Ağarəhim müəllim, Bakı Şəhər İcra Hakimiyyəti Murtuza Muxtarov küçəsindəki 50 saylı binanın ikinci mərtəbəsini Assosiasiyaya vermişdi. Onun 1117,2 kv.m. sahəsi var. Bina 1992-ci ildə yanıb tamam yararsız hala düşmüşdü. Onu təmir etdirmək və dövlətə icarə haqqı ödəmək üçün Assosiasiyanın maddi imkanı yoxdur. Biz binanın zibilinin daşınmasına xərc çəkmişik. Siz inflyasiyanı nəzərə almaqla həmin xərci Assosiasiyanın hesabına keçirin. Biz binanı 30 il müddətinə sizə verək. Siz binanı təmir etdirib dərslərinizi orda keçin. Bununla da Assosiasiya təsisçi kimi üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmiş olsun. Vaxtın varsa, indi həmin binaya baxa bilərik. Gedək, vəziyyətlə tanış ol...

Doğrusu, bu, məni çox sevindirdi. Çayımızı içib birlikdə sədrin şəxsi maşını ilə M.Muxtarov küçəsindəki 50 saylı bi-

naya gəldik. O, açarla çöl qapını açdı və biz içəri daxil olduq. Binanın ikinci mərtəbəsi dörd dəhlizdən ibarət idi. Bina büsbütün yandığından bircə quru divarlar qalmışdı. Tavanın zirzibilləri dəhlizlərə tökülmüşdü. Təzə bina tikmək, buranı təmir etməkdən bəlkə də, asan və ucuz başa gələrdi.

Mən xeyli fikrə getdim. Şəhərin mərkəzində olan bu binanın heç olmasa, dörd divarı vardı. Ancaq binanın təmir xərci olduqca böyük idi. Nə etməli? Həmin gün sədrə heç bir söz deməsəm də, fikrim, düşüncəm bir ovuc buğda dənələri kimi beynimə səpələnmişdi. Çıxış yolunu tapa bilmirdim.

Ertəsi gün seminariyaya gəlib bəzi işçilərlə məsləhətləşdim. Kimisi: "Götürək, təmir edək", — deyir, kimisi də: "Onun öhdəsindən gəlmək olmaz", — söyləyirdi. Mən isə iki yol ayrıcında qalmışdım.

Günortaya yaxın idi. Assosiasiyaya getdim. Binanın təmirini öz üzərimə götürdüm. Assosiasiya Şurasının iclası çağırıldı. Protokol və akt yazıldı. Assosiasiya ilə seminariya arasında müqavilə bağlandı. İmzalar atıldı. İşin sonunda seminariyaya qayıtdım. Binanı 30 illiyə icarəyə götürdüyümü həmkarlarıma çatdırdım. Təmirlə əlaqədar komissiya yaratdım, mütəxəssislər dəvət etdim. Onların köməyi və iştirakı ilə təmir üçün nöqsan aktı yazıldı, smeta hesablandı. Smetanı bir nəfər mütəxəssis, seminariyanın rektoru, Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun direktoru və bir də Assosiasiyanın sədri imzalar və möhürlərlə təsdiq etməli idi. Sədr respublikadan kənarda məzuniyyətdə olduğundan, ondan savayı smetanı hamımız təsdiq etdik. Biz sədri gözləmədən tikinti materialları (daş, sement, qum, dəmir borular, taxta, ağac və s.) almağa başladıq. Hərbiçilərlə əmək müqaviləsi bağlayaraq, təmir işlərinin bir qismini onlara həvalə etdim. Hər gün təmirdə 35-40 əsgər işləyirdi. Binanın ətrafında qaldırıcı kranın hərəkət etməsi mümkün olmadığından və yük maşınları





həyətə girə bilmədiyindən binanın təmirində əl əməyindən istifadə olunurdu. Divarlar bir metr sökülüb yenidən hörülür, ara divarları çəkilir, qum, sement daşınır, beton tökülür, dəmir borular kəsilərək divarların üstünə qaldırılırdı... Üzü yaya getdikcə zəhlətökən yandırıcı istilərin şiddətlənməsinə baxmayaraq, avqust ayının axırlarında binanın üstü örtüldü. Müqaviləyə əsasən, hərbiçilərlə xudahafizləşdim. Qalan işləri kollektivin gücü ilə (xeyriyyəçiliklə) özümüz görməli olduq. Divarlara suvaq çəkilir, qapı-pəncərələr qoyulur, otaqların tavanı vurulur, döşəmə salınır, rəng çəkilirdi...

Binanın təmirini sürətləndirməyə çalışır, hər gün ən azı üç dəfə tikinti obyektinə gedir, çatışmazlıqları öyrənir, dərhal da lazımi tədbirlər görürdüm.

Mən təmirlə bağlı smetanı təsdiq olunmaq üçün Assosiasiyaya təqdim etdim. Sədr smetanın bir nüsxəsini aldı: "Yoxlayıb qol çəkərəm, gəlib götürərsən" — dedi və onu stolun gözünə qoydu. Mən buna əhəmiyyət verməyib tikintiyə gəldim.

Noyabr ayının sonları idi. Yayın yandırıcı günəşindən əsər-əlamət qalmamışdı. Havaların soyumasının elə bil binada işləyənlərə heç bir təsiri yox idi. İşlər də öz ahəngində davam edirdi. Otaqlardan altısını istifadəyə vermək olardı. Mən seminariyanın təzə binaya köçürülmə təklifini verdim. Təklif gözlənilməz olduğundan əməkdaşların bir qismi etirazını bildirdi. İkincilər isə tərəddüd etməyə başladı. Əməkdaşları fikirlərindən döndərməyə çalışdım və buna da nail oldum.

Seminariya noyabrın sonunda təzə binasına köçsə də, qalan otaqlarda təmir işləri davam edirdi. Yeni il ərəfəsində otaqlardan bir neçəsinin də təmiri qurtarmışdı. Assosiasiyanın sədri seminariyaya gəlmişdi. Bu gəlişdən çox məmnun oldum. Gördüyümüz işlərdən, kollektivin böyük əməyindən, təlim-tərbiyə prosesinin düzgün qurulmasından həvəslə da-

nışırdım. Elə güman edirdim ki, bu, onun üçün də maraqlı olar. Sən demə, yanılırammış. Onun da öz məqsədi, istəyi varmış. O, söhbətarası dedi:

— Biz bir məsələni həll etməliyik. Gəl, üçüncü şəriki seminariyanın təsisçiliyindən kənarlaşdıraq. İkimizin təsisçi olmağımız kifayət edər...

Təəccübümü gizlədə bilməyib ona baxdım. O, "Hə, hə", — deyə, başı ilə sözünü təsdiqlədi.

Mən dərhal:

— Bu mümkün deyil. Başqa sözün varmı?

O, üzünü yana çevirərək:

— Yaxşı fikirləş, nə qədər ki, gec deyil.

— Mən bu haqda fikirləşmək belə istəmirəm. Söhbətimiz beləcə qurtardı. Bir neçə gün keçmiş o mənə zəng etdi. Salamdan, hal-əhvaldan sonra:

— Qardaş, nə fikirləşdin? Onu çıxarırıq.

— Yox. O, seminariyanın yaradılması ilə bağlı öhdəlikləri sözsüz ödəyir.

— Bəs biz nə etmişik. Şəhərin mərkəzində o böyüklükdə bina vermişik. Bu azdır?

— Bina yox, dörd divar. Onu da təmir etdirə bilmədiyiniz üçün seminariyaya vermisiniz.

— Acı danışmaq nəyə lazımdır ki?! Yaxşı, sən deyən olsun.

— Başqa sözün yoxdur ki? — deyib, telefonun dəstəyini yerinə qoydum.

Səhəri gün smetanın təsdiq olunub-olunmamasını öyrənmək məqsədilə assosiasiyaya getdim. Sədr bəhanə gətirərək:

— Hələ bunu rəyə göndərmək gərəkdir. Müsbət rəy alınarsa təsdiq edərik, alınmasa yox.

Beləliklə, hadisələr öz axarından çıxıb, yeni məcraya yönəlir, sədrin yeni-yeni iddiaları meydana çıxırdı. Gah məktub yazaraq qəbulu dayandırmağı, gah da seminariyanın gəlirindən on faizini Assosiasiyanın hesabına köçürməyi tələb edirdi. Bütün bunların bəhanə olduğunu hiss edirdim. Ancaq mən də onun əsl məqsədinin tam açılmasını gözləyirdim.





İş gününün sonu idi. Telefon zəng çaldı. Dəstəyi qaldırdım. Danışan Yasamal rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin işçisi idi. O, təəssüf hissi ilə dedi:

— Bu nə işdir, professor?! Bu gün məktub almışıq. Assosiasiya Bakı Şəhər İcra Hakimiyyətinə məktubla müraciət edərək Murtuza Muxtarov küçəsindəki 50 saylı (Bakı Ali Pedaqoji Qızlar Seminariyasının təmir etdirdiyi) binanın təmirinə və icarə haqqını ödəməyə maddi imkanı çatmadığını bildirmiş və binanın onlara verilməsi haqqındakı sərəncamın ləğvini xahiş etmişdir. Assosiasiyanın məktubu nəzərə alınaraq sərəncam da etibarsız hesab olunmuşdur. Binanı ya boşaltmalısınız, ya da Bakı Şəhər İcra hakimiyyətinə müraciət etməlisiniz...

Dərhal Assosiasiyaya zəng çalaraq sədrlə danışdım. Bina haqqında yazılmış məktubun səbəbini soruşdum. O, gülə-gülə dedi:

— Narahat olma. Belə lazım idi. Binanı özümüz vermişik, özümüz də alarıq.

Mən danışığı kəsib dəstəyi yerinə asdım. Bu da Assosiasiyanın sədri! Bu da alim! Bu da natiq! Bu da ziyalı! Bəli, bu açıq-aşkar xəyanətdir. Təkcə mənəmi? Yox. Seminariyada təhsil alan bütün məsum Azərbaycan qızlarına! Azərbaycan təhsilinə!

Fikri, düşüncəsi şəxsi qazanc məqsədi güdən bir adamdan bundan artıq şey gözləmək olmazdı. O, rəsmi məktub yazaraq binanı təmir etməyə maddi-imkanı olmadığını göstərir. Əcəb məntiqdir!.. Bəs sənin insanlıq borcun?! Hanı sənin vicdanın?! Özün binada ola-ola, onun təmir olunduğunu, üç il əvvəlin də icarə haqqının seminariya tərəfindən ödənildiyini

bilə-bilə böyük bir kollektivin xeyriyyəçilik əməyini necə yerə vura bildin? Düşün, vicdanın qarşısında hesabat ver! Sən kimsən? Özünü axtar... Adamın sənə yazığı gəlir... Xatırladım ki, əməllərin xəyanətdir, xəyanətsə cinayətdir. Nə isə...

Həmin gün Bakı Şəhər İcra Hakimiyyətinə məktub yazdım. Məktubda vəziyyəti ətraflı açıqladım. Məsələyə humanist mövqedən yanaşan icra hakimiyyəti başçısı məktuba müsbət cavab verdi. Vəziyyət yerindəcə araşdırıldı. Bu dəfə də haqq, ədalət zəfər çaldı. Bina Bakı Ali Pedaqoji Qızlar Seminariyasına verildi.

Bir zaman icra hakimiyyətinə məktub yazıb sərəncamı ləğv etdirən sədr indi binanın seminariyaya verilməsini qeyri-qanuni hesab edirdi. Mən onun dördillik fəaliyyətini kollektivə çatdırdım. Hamının yekdil fikrini nəzərə alaraq, təsisçilərin üzərinə götürdükləri öhdəlikləri nə dərəcədə yerinə yetirdiklərini araşdırmaq məqsədi ilə komissiya yaratdım. Komissiyanın tərkibinə tədris işləri üzrə prorektor Nazim Abbasov (Sədr), tədris şöbəsinin müdiri Ağa Sadıqov, maliyyə və iqtisadiyyat üzrə prorektor Qasım Abdurəhimov, dil-ədəbiyyat kafedrasının müdiri, professor Nizami Məmmədov və baş mühasib Cavanşir Təhməzov daxil edildilər. Komissiya üzvləri hər bir təsisçinin fəaliyyətini müəyyənləşdirdilər. Təklif etdilər ki, onlar təsisçilərlə seminariyanın Elmi Şurasının birlikdə keçirilən iclasında hesabat versinlər. Üç dəfə rəsmi məlumat verilməsinə baxmayaraq, Assosiasiya hər dəfə bir bəhanə gətirərək hesabat verməkdən boyun qaçırır, üstəlik seminariyanın rəhbərliyinə hədə-qorxu gəlirdi. Sonuncu yığıncaqda Assosiasiya seminariyanın təsisçiliyindən kənarlaşdırıldı. Assosiasiyaya bu haqda rəsmi məlumat verildi. Sədr anonim məktublar yazmaqda, seminariya rəhbərliyinə böhtan atmaqda davam edirdi. Bəli, bu idi Assosiasiya sədrinin təsisçilik fəaliyyəti. Azərbaycan təhsilinə xəyanəti...





Məktəbdə tələbə kontingenti xeyli artmışdı. Tədris otaqları çatışmırdı. Yeni tədris korpusuna ciddi ehtiyac duyulurdu. Vaxt itrmək də olmazdı. Məni narahatlıq bürüdü. Ancaq bu işin də o qədər asan başa gələcəyinə əmin deyildim. Xeyli düşündüm və belə qərara gəldim ki, torpaq sahəsi alıb təzə bina tikdirməliyik. Başqa yolumuz yoxdu. Mən fikrimi seminariyanın Elmi Şura üzvlərinə açanda hamı təəccüblə üzümə baxdı. Sual doğuran baxışlar üzümə dikildi. Mən onları başa düşürdüm. Ani fikirdən sonra susan dillər açılmağa başladı:
— O boyda torpaq sahəsini hardan və kimdən almalı? Müəssisənin torpaq almağa pulu varmı? Tikinti işini kim üzərinə götürməlidi? Aramızda tikintidən başı çıxan adam varmı? Tikinti nə qədər müddətə həyata keçiriləcək? Ümumiyyətlə, tikinti neçəyə başa gələcək?… Suallar çox. İstəklər, arzular, xəyallar böyük… Elmi Şurada heç bir qərar qəbul eləyə bilmədik. Üzümə deməsələr də, hiss eləyirdim ki, Şura üzvlərindən bəziləri məni xəyalpərvər, romantik sanır… Bəziləri də mənə açıq-açığına deyirdi: "Elə bir yükün altına girmək böyük risqdi…"

Deyilənlərə baxmayaraq, getdikcə fikrmi qətiləşdirdim. Mən kollektivə söz demədən şəhərdə torpaq sahəsi axtarışına başladım. Bir neçə obyektə baxdım. Xoşuma gələnləri də oldu, gəlməyənləri də. Etiraf eləyim ki, xoşuma gələnlərin qiyməti olduqca baha idi. Onlara maddi cəhətdən yaxın düşmək imkanımız yox idi. Beləcə çıxılmaz vəziyyətə düşmüşdüm…

2000-ci ilin qızmar yay günüydü. Günortaya az qalırdı. Xəstəhal idim. Fiziki cəhətdən özümü yaxşı hiss eləmirdim. Elə bu vaxt qapı açıldı. Həkim Abdulla içəri daxil oldu. Qucaqlaşıb görüşdük. O, olduqca səmimi, düz sözlü, xeyirxah, saf vicdan sahibiydi. Ordan-burdan xeyli danışdıq. Söhbətin sonunda gəlişinin səbəbini soruşdum. Onun üzündə təbəs-

süm yarandı və handan-hana astadan dedi:

— Tədris korpusu tikmək üçün yer axtarırdın, tapdınmı?

— Yox…

— Fikrin qüvvəsində qalırmı? İmkanın varmı?

— Hə… Başqa yolum yoxdu. Borc da olsa, eləməliyəm.

— Onda sənin üçün sürpriz. Əla bir yer. Özü də mərkəzdə.

— Nə qədər?

— Təqribən otuz sot.

Mən əvvəl söhbəti zarafat hiss elədim. Gülümsündüm. Abdulla dərhal bildirdi:

— Mən ciddi deyirəm. Yoxsa, günün qızmar çağında bura niyə gəlirdim ki? Qalx gedək, əldən çıxa bilər.

Mən dərhal Qasım Abdurəhimovu, Nazim Abbasovu, Cavanşir Təhməzovu otağıma çağırdım. Abdullanın dediklərini onlara çatdırdım. Onlarla birlikdə maşına əyləşib Mövsüm Sənani küçəsi, 14 saylı ünvana getdik. Oyektin sahibini tapdırdıq. Sahə mənim xoşuma gəldi. Bütün sənədlər qaydasında olduğundan elə həmin gün də obyekti qiymətləndirib alış-veriş üçün notariat kantoruna getdik. Axşama yaxın artıq obyekt bizim oldu. Təqribən altı ay müddətində korpusun layihəsi hazırlanıb Bakı Şəhər İcra Hakimiyyətindən tikintiyə başlamaq barədə sərəncam alındı. Tez bir müddətdə işçi qrupu yaradıb fevral ayında tikintiyə başladıq. Bu yolda xeyirxahlarımız da oldu, bədxahlarımız da. Böyük zəhmət, gərgin əmək sərf etməklə 2001-ci ilin fevral ayının sonunda Bakı Ali Pedaqoji Qızlar Seminariyası öz fəaliyyətini yeni tipli tədris korpusunda davam etdirməli oldu. Bu, kollektiv üçün yeni hadisəydi. Hamının — tələbə və professor-müəllim heyətinin hər birinin üzündə sevinc hissi duyulurdu. Yeni abı-hava, şərait tədrisin keyfiyyətini yüksəltməyə imkanlar açdı. Fəaliyyətindəki şəffaflıq, müxtəlif sahələrdə qazanılan nailiyyətlər bu ali təhsil müəssisəsinin nüfuzunu durmadan qaldırırdı. Bundan ruhlanın kollektiv öz işini bir neçə istiqamətdə genişləndirdi.





## DÖVLƏT QEYDİYYATI, YOXSA ÖZÜNÜTƏSDİQ...

**Yalan şişib pişələnsə də həqiqət ola bilmir.**
***R.Taqor***

**Lənət müxənnətə ara qatana**
**İnsan gərək yalan sözdən utana.**
***A.H.Bozalqanlı***

Seminariya ali təhsil müəssisəsi kimi fəaliyyət göstərirdi. Tələbələr, valideynlər, seminariyanın dövlət qeydiyyatına nə vaxt alınacağı ilə hər gün maraqlanır, müəllimlər də, icra aparatının işçiləri də: “Qeydiyyat məsələsi nə oldu? Bağlayacaqlar?” — deyə suallar verirdilər. Bu suallar məni təngə gətirmişdi.

Tələbələrin taleyini, üzərimə götürdüyüm vəzifənin böyük məsuliyyətini aydın dərk edirdim. Hər gün Təhsil Nazirliyinə gedir, aidiyyəti orqanlarla söhbət aparırdım. İnstitutda, seminariyada, ayrı-ayrı yığıncaqlarda yanımda bir söz deməsələr də, arxamca danışanların, qeybətimi edənlərin söz-söhbətindən də xəbərdar idim. Elələri də vardı ki, üzümə gülür: — “Sən çox xeyirxah işlə məşğulsan”, — deyir, arxamca ağızlarına gələni danışırdılar. Mən belələrinin söz-söhbətini eşitməməyə çalışır, eşitdiklərimi də qəbul eləmək, ürəyimə salmaq istəmirdim.

Seminariyanın fəaliyyətinin ikinci ili idi. Təhsil Nazirliyində nazirin əmri ilə Dövlət Ali Ekspert Komissiyası yara-

dılmışdı. Bu komissiya özəl təhsil müəssisələrinin fəaliyyətini yoxlamalı, onun dövlət qeydiyyatına alınıb-alınmaması haqqında rəy hazırlamalı, öz iclasında uyğun müəssisələrə status verməli idi. 1993-cü ilin martında seminariyaya professor Tamella xanımın rəhbərliyi altında beş nəfərdən ibarət komissiya göndərildi. Komissiya ilk gündən seminariyanın fəaliyyətini, tədris planlarını, fənn proqramlarını, dərslikləri, pedaqoji-psixoloji ədəbiyyatın uyğunluğunu, kadr potensialını, maddi-texniki bazanı, maliyyə məsələlərini araşdırdı. On beş günlük yoxlamadan sonra seminariyanın Elmi Şurasında fəaliyyətimiz təhlil olundu, müvəffəq və nöqsan cəhətlərimiz nəzərimizə çatdırıldı. Seminariyanın fəaliyyəti haqda rəy olduqca obyektiv hazırlanaraq Təhsil Nazirliyinin nəzdində yaradılan 39 nəfərdən ibarət komissiyaya təqdim edildi.

1993-cü ilin 1 may günü idi. Komissiyanın iclasında Bakı Ali Pedaqoji Qızlar Seminariyasının dövlət qeydiyyatına alınması məsələsi müzakirə olunurdu. İclasda respublikanın görkəmli elm nümayəndələri, təcrübəli maarif işçiləri iştirak edirdi. İclasa sədrliyi Ali Attestasiya Komissiyasının baş elmi katibi, fizika-riyaziyyat elmləri doktoru, professor Rövşən Xəlilov edirdi. O, seminariyanın fəaliyyəti ilə bağlı yazılmış arayışı oxumaq üçün sözü Tamella xanıma verdi. Xanım seminariyanın fəaliyyətinə geniş təhlil verdi. Bakı Ali Pedaqoji Qızlar Seminariyası təhsil müəssisəsi kimi “Pedaqogika və psixologiya”, “Pedaqogika və ibtidai təhsilin metodikası”, “Psixologiya” və “Sosioloq-pedaqoq” ixtisasları üzrə kadr hazırlığını həyata keçirə bilər təklifini irəli sürdü.

Sonra rektor kimi məni dinlədilər. Son dərəcə yığcam məlumat verdim. Tamella xanım artıq bir çox məsələləri aşkarlamışdı. Suallara dəqiq və ətraflı cavab verməyə çalışdım. Çıxışımın sonunda komissiya üzvlərinə təşəkkürümü bildirib xitabət kürsüsündən düşdüm. Seminariyanın fəaliyyəti müza-





kirə olunmağa başlandı. Tibb elmləri doktoru, professor Əli İnsanov: — “Mən fəxr edərdim ki, qızım belə bir seminariyada oxuyaydı”, pedaqoji elmlər doktoru, professor Nurəddin Kazımov: — “Mən seminariyanın məzmunu ilə tanışam, belə müəssisənin respublikada fəaliyyət göstərməsi soykökümüzə qayıtmaqdır”, psixologiya elmləri doktoru, professor Əbdül Əlizadə: — “Burada yalnız qadın pedaqoji kadrlar yetişdirilmir, həm də qızların ailə həyatına hazırlanması kimi böyük əhəmiyyəti olan iş aparılır, bunu alqışlamaq gərəkdir”, pedaqoji elmlər doktoru, professor Bəşir Əhmədov: — “Psixoloq-praktik” və “Sosioloq-pedaqoq” ixtisasları tamamilə yenidir, onların respublikada alternativi yoxdur”, pedaqoji elmlər doktoru, professor Yəhya Kərimov: — “Ağarəhim müəllimin xarakteri, keçdiyi həyat yolu da imkan verir ki, seminariyaya rəhbərliyi o aparsın, başqa sözlə, təhsil müəssisəsinin sükanı ləyaqətli əldədir, ona hər şeyi etibar etmək olar” — deyə fikir və münasibətlərini bildirdilər. Komissiyanın iclasında üzvlər yekdilliklə Bakı Ali Pedaqoji Qızlar Seminariyasının ali təhsil müəssisəsi kimi fəaliyyət göstərməsinə səs verdilər.

İclasdan çıxıb birbaşa seminariyaya getdim. Kollektiv müzakirənin nəticələrini gözləyirdi. Tələbələri böyük auditoriyalardan birinə toplatdırıb onlara da, müəllimlərə də komissiyanın qərarını çatdırdım. Hamını təbrik etdim. Toplantı iştirakçılarının hər birinin üzündə sevinc, təbəssüm var idi.

Bir neçə aydan sonra respublika prezidentinin fərmanı ilə nazirliyin nəzdində yaradılan DAEK-in öz funksiyasını itirdiyi, qəbul etdiyi qərarlar da etibarsız hesab olundu. Onun əvəzində Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyası yaradıldı. Komissiyanın tərkibinə respublikanın nüfuzlu, görkəmli alim və ziyalıları: akademik Fəraməz Maqsudov, akademiyanın müxbir üzvlərindən Böyükkişi Ağayev,

Teymur Bunyatov, Ramiz Qurbanov, Telman Əliyev, professorlardan Akif Musayev, Əli Əlirzayev, Sudeyif İmamverdiyev, Əbdül Əlizadə, Yaşar Qarayev və Şahlar Əsgərov daxil edildilər.

Bakı Ali Pedaqoji Qızlar Seminariyasının fəaliyyətinin yoxlanması və qiymətləndirilməsinə 1995-ci ilin fevralında başlandı. Onlar əsasən, müəssisənin maddi-texniki bazasına, elmi kadr potensialına, pedaqoji təminatına, hazırladıqları kadrlara respublikanın ehtiyacı olub-olmamasına və maliyyə-iqtisadi cəhətinə diqqət yetirirdilər. Komissiya üzvləri hər gün seminariyaya gəlir, maraqlandıqları sənədləri, məlumatları alırdılar. Onların hər biri üçün seminariyada tam iş şəraiti yaradılmışdı. Yoxlamanın sonunda seminariyanın işçiləri ilə komissiya üzvləri arasında müzakirə xarakterli diskussiya qurulurdu. Komissiya üzvləri bütün fəaliyyətimizi tam obyektiv təhlil etdilər, irad və təkliflərini söylədilər.

Akademiyanın müxbir üzvü Teymur Bünyadov: — "Qardaşlar, bacılar! Siz çox böyük və xeyirxah iş görürsünüz. Bu təhsil müəssisəsi haqqında mən çox eşitmişdim. Seminariyanın böyük gələcəyinə inanıram və sizə işinizdə uğurlar arzulayıram..."

Akademiyanın müxbir üzvü Ramiz Qurbanov: — "Bu seminariya böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev ənənələrinin layiqli davamçısıdır. Mən onun fəaliyyətini məmnuniyyətlə alqışlayıram..."

Professor Əbdül Əlizadə: — "Mən seminariyanın işi ilə əvvəlcədən tanış idim. Təhsil Nazirliyinin nəzdində yaradılan keçmiş DAEK-in iclasında da bu müəssisə haqqında öz fikrimi söyləmişdim. Bu gün isə deyirəm: Seminariya elmi-metodik mərkəzə çevrilməlidir".

Professor Yaşar Qarayev: — "Seminariyanın rəhbərliyinə qibtə edirəm. Tam məsuliyyətlə deyirəm: bu, əvəzolunmaz xidmətlərinə görə Ağarəhim müəllimin sağlığında Bakının ən görkəmli yerlərindən birində heykəli qoyulmalıdır..."





Professor Akif Musayev: — "Ağarəhim müəllim belə yüksək səviyyədə təhsil müəssisəsi yaratmaqla özünü təsdiq etdi..."

Akademik Fəraməz Maqsudov: — "Ağarəhim müəllim təhsilin fanatikidir...".

Bəli, seminariyanın fəaliyyətinə bundan yüksək qiymət vermək olmazdı. DAEK seminariya haqqında yüksək səviyyədə yazılmış rəyini Nazirlər Kabinetinə təqdim etdi. Sənədlərə imzalar toplandı. Bir müddət sonra əlavə rəy almaq üçün sənədlər Təhsil Nazirliyinə göndərildi. Nazirlik də bir komissiya yaradaraq yenidən seminariyada yoxlamalara başladı: "Bu qovluğu apar, o qovluğu gətir..." Nəhayət, müsbət rəy yazıldı. Rəy nazirliyin kollegiyasında təsdiq olunmalı idi. Kollegiyadan bir gün əvvəl mənə xəbər çatdı ki, seminariyanın fəaliyyətinə kollegiyada mənfi rəy veriləcək. Doğrusu, buna inanmasam da, əvvəl komissiyanın sədrinə, sonra isə onun müavininə zəng çalıb vəziyyətlə maraqlandım. Sədr: — "Sən kollegiyada artıq söz danışma. Bütün məsələlərdə nazirlə razılaşdığını bildir. Hər şey yaxşı olacaq. Narahat olma..." — dedi.

Müavin: — "Tələsmə. Komissiya üzvlərinin fikri müsbətdir. Kollegiyadan sonra səni təbrik edərik...".

28 dekabr 1995-ci il. Saat 14-də Nazirliyin Kollegiyası öz işinə başladı. Cari məsələlərdən sonra seminariyanın yaradılması və fəaliyyəti ilə əlaqədar rəyi oxumaq üçün söz komissiyanın sədrinə verildi. Yığıncağa kollegiya üzvlərindən savayı, ali və orta ixtisas məktəblərinin rəhbərləri, pedaqoji və psixoloji elmlərlə məşğul olan alimlər və başqaları dəvət olunduğundan zal ağzınadək dolu idi. Sədr rəyini oxuyur, yanımda əyləşən həmin komissiyanın üzvləri: — "Bu nə danı-

şır, "rəy dəyişib", — deyə öz-özlərinə narahatlıqlarını bildirdilər. Rəydə bir cümlə də olsun müsbət fikir söylənmirdi. Şantaj və böhtanlarla dolu olan bu rəydə seminariyada təhsilin dövlət standartlarına uyğun qurulmadığı, cəmi üç il fəaliyyət göstərən seminariya 70 ildən artıq zəngin təcrübəsi olan gah M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti ilə, gah da N.Tusi adına Azərbaycan Pedaqoji Universiteti ilə müqayisə edilirdi. Rəydəki böhtanlar, iftiralar, səbatsız iradlar və təkliflər məni dəhşətə gətirirdi.

Sədr rəyi oxuyub kürsüdən düşəndə hörmətli nazir üzünü zala üz tutaraq:

— Kim danışmaq istəyir? — deyə soruşdu. — Sözü olan yoxdur?

Zal susurdu. Heç kim danışmaq istəmirdi.

Nazir yerindən:

— Rektor da danışmaq istəmir?

Doğrusu, nə danışacağımı bilmirdim. Aldadıldığıma, böhtan və iftiralarla dolu çıxışın mənə ünvanlandığına görə əsəbiləşmişdim. Xitabət kürsüsünə qalxıb, zala göz gəzdirdim. Sonra dedim:

— Möhtərəm nazir! Hörmətli kollegiya üzvləri və dəvət olunmuşlar! Tənqid ətalətin inkarı olduğu üçün onu qəbul edirəm. Ancaq rəydə söylənilənlər isə böhtan və iftiradır. Mən onlara cavab vermək istəmirəm...

Dərhal nazir müavinlərindən biri:

— Ağarəhim müəllim, siz əvvəlcədən rəylə tanış deyildiniz?

— Yox. Bura gəlincəyə qədər nazirliyin yaratdığı komissiyanın sədri də, onun müavini də mənə deyirdilər ki, sizin bu işinizə heç kəs mənfi rəy verə bilməz. İndisə rəydə söylənilənləri özünüz eşitdiniz.

Nazir əsəbi halda sözümü kəsərək:

— Vaxtınız qurtardı, gedə bilərsiniz. Siz Neftçalada da,





Sumqayıtda da filiallar açmısınız...

— Hə, bu da nazir? — deyə, əsəbi halda cavab verdim. Ancaq xitabət kürsüsündən düşmək yox, yerimi möhkəmləndirməli oldum. Faktlar, rəqəmlər, rəsmi sənədlər qarşısında hörmətli nazir də arzuolunmaz vəziyyətdə qalmalı oldu.

Mən: — Hörmətli nazir! Sumqayıtda və Neftçalada yaradılan özəl məktəblər Sizin Nazirliyin nəzdində vaxtı ilə yaradılan Dövlət Ali Ekspert Komissiyasında müstəqil məktəb kimi qeydə alınmışdır. Heç olmasa, öz protokollarınızı qaldırıb baxın. Onda vəziyyət Sizə tam aydın olar... Rəydə seminariyada dövlətin təhsil standartlarına uyğun qurulmadığı göstərilirdi. İndi sual olunur: — Respublikada təhsilin dövlət standartları varmı? Varsa, bu standartlar nə vaxt, kim tərəfindən yaradılıb? Əgər təhsilin dövlət standartları yoxsa, seminariyada təhsil həmin standartlara necə uyğun gələ bilər? Rəydə dövlət təhsil müəssisələri ilə seminariya müqayisə olunur. Hörmətli opponentlər unudurlar ki, dövlət təhsil müəssisələri 70 illik sovet dövlətinin qayğısı sayəsində yaranmışdır. Maddi baza, texniki avadanlıqlar, elmi-pedaqoji təminat, təlim-tərbiyə prosesində fəaliyyət göstərənlərin əmək haqqı xərcləri dövlət büdcəsindən ayrılmalar hesabına verilmişdir. Üstəgəl indi dövlət təhsil ocaqlarında pullu bölmələrin yaradılması onların imkanlarını birə-yüz artırır. Seminariyanın təşkili və onun üçün lazım olan xərclər özünün əldə etdiyi gəlir hesabınadır. Belə yersiz müqayisələr obyektivlikdən uzaqdır. Onu da Sizə xatırladım ki, müqayisə obyektləri arasında oxşarlıq olar, bənzərlik olar...

Möhtərəm nazir hövsələdən çıxaraq:

— Ağarəhim müəllim, fəaliyyətindən asılı olmayaraq heç bir özəl təhsil müəssisəsinə müsbət rəy verməyəcəyik. Bizdən də inciməyin...

Əziyyətimizin səmərəsiz olduğunu başa düşüb xitabət

kürsüsündən düşdüm və kollegiya zalını tərk etdim. Birbaşa evə gəldim. Qanım bərk qaralmışdı. Həmin gecə yata bilmədim. Axşamkı çəkişmədən, seminariyaya müsbət rəy verilməməsindən hamı xəbərdar idi...

Seminariyadakı otağımdan çıxmaq belə istəmirdim. Kollegiyadan dörd gün sonra rəy bəzi redaktələrlə “Azərbaycan müəllimi” qəzetində çap olundu. Bütün tələbələr, valideynlər üstümüzə axışırdı.

Mən qəzetdə çap olan rəyə dəqiq və yığcam cavab hazırlayıb Baş Nazirin adına ünvanladım.

21 fevral 1996-cı il tarixdə televiziya və radioda, respublika qəzetlərində Nazirlər Kabinetinin Bakı Ali Pedaqoji Qızlar Seminariyasının qeydiyyata alınması haqqında qərarı ictimaiyyətə çatdırıldı.

Ertəsi gün seminariyada professor-müəllim və tələbələrin toplanışı keçirildi. Üzlərdə sevinc hamı bir-birini təbrik edirdi. Professorlar, müəllimlər: “— Bu, özünütəsdiqin bariz nümunəsi idi” — deyirdilər.

Öz imkanlarını ildən-ilə genişləndirən bu ali təhsil müəssisəsində yeni tədris proqramları, dərs vəsaitləri hazırlandı. Müxtəlif fənlər üzrə pedaqoji ədəbiyyat çap olundu.

Yeni texnoloji sistemin tətbiqinə geniş yer verildi. Təhsilin strukturunda, onun idarə olunmasında, təlim-tərbiyə işinin məzmununda, məzmuna uyğun metod və prinsiplərin seçilməsində, bir sıra fənlərin inteqrasiyasında mütərəqqi ideyaların axtarışlarına başlandı, alınan nəzəri mülahizələr ümumiləşdirildi və gündəlik təcrübəyə tətbiq edildi. 1997-ci ildə kadr hazırlığının keyfiyyəti nəzərə alınaraq seminariyaya əlavə Azərbaycan dili, ingilis dili, tarix-ictimaiyyat və jurnalistika üzrə ixtisaslar verildi. 1999/2000-ci tədris ilindən ibtidai təhsilin pedaqogika və metodikası, psixologiya, pedaqogika və psixologiya, sosial-pedaqogika, Azərbaycan dili,





tarix ixtisasları üzrə magistratura fəaliyyətə başladı. Əldə olunan nəticələr sayəsində təhsil müəssisəsi Baloniya prosesinə qoşuldu, az müddət ərzində o akkreditasiyadan keçirildi. Seminariyada göstərilən ixtisaslar üzrə 73 elmlər doktoru, professor, 52 elmlər namizədi, dosent, 26 baş müəllim və müəllim fəaliyyət göstərdi. Maddi bazanı, elmi potensialı, pedaqoji təminatı və yüksək kadr hazırlığını nəzərə alaraq 2005-ci ilin avqust ayında Bakı Ali Pedaqoji Qızlar Seminariyasına Bakı Qızlar Universiteti statusu verildi.

## “DALDAN ATILAN DAŞ TOPUĞA DƏYƏR” VƏ YA QARĞALARIN QARILTISI

**Dəyirman öz işindədir, çax-çux baş ağrıdır.**
***Atalar sözü***

**Bir bölük boşboğazıq, heyvərəlik adətimiz,**
**Doludur lənət ilə, qeybət ilə söhbətimiz,**
**Oxumaqdan payımız yox, yazıdan qismətimiz,**
**Bu avamlıqda belə hər sözü təfsir edərik,**
**Mümkün olduqca müsəlmanları təkfir edərik.**
***Sabir***

Son zamanlar ətrafımda bir-birinin ardınca dolaşıq, əsəb doğuran hadisələr baş verməkdəydi. Onun mahiyyətindən xəbərdar olsam da, səbəblərini aydınlığıyla başa düşsəm də, əlimdə konkret fakt olmadığından heç kəsə bir söz deyə bilmirdim. Desəydim də borclu çıxacağımı anlayırdım. Ona görə də coşan, cağlayan səbrimi cilovlamağa çalışırdım. İçəridə, altdan-altdan, pərdə arxası cərəyan edənlərin bir çoxunu ya saya salmırdım, ya da onlara təbii hal kimi baxırdım. Guya heç nəyi gör-

mürəm, heç nəyi başa düşmürəm. İnsafən, həmkarlarım da məni daim ayıq-sayıq olmağa çalışırdılar. Arxada bəlkə məni cəsarətsizlikdə, duyumsuzluqda qınayırdılar da. Bəli, hər şeyi görürdüm, anlayırdım. Ancaq gözləyirdim. Əmin idim ki, onun da vaxtı çatacaq... Ağlıma da gəlməzdi ki, böyük nüfuz sahibi olan dostlarımdan biri hansısa qəzet redaktorunu kabinetinə çağırıb, — Ağarəhimdən, onun rəhbərlik elədiyi universitetindən yaz — sifarişini verəcək. Redaktor da məni şəxsən tanımaza-bilməzə deyəcək: "Yox, mən ondan sifarişlə yazammaram... Çünki o, heç bir qeyri-qanuni hərəkət eləmir. Rüşvət nədi tanımır. İndiki zəmanədə ondan yazmaq Allaha xəyanətdi. Yaxşı olar, görüşün, anlaşılmazlığınızı özünüz aradan qaldırın..." Doğrusu, bu sifarişi eşidəndə qulaqlarıma inanmadım. Dostumun sonrakı gedişləri gözlərim önündən qara pərdəni qaldırdı. Çox şey mənə agah oldu. Axır ki,deyilənlərə inandım. Öz-özümə dedim: "Axı mən onunla dostam... Deməli, dostluğa xəyanət..." Mövqeyindən dönməyən "dostum" növbəti badalaqlarını atır, hər dəfə əli boşa çıxır, çıxdıqca da yanıb-yaxılırdı. Universitetin nüfuzu getdikcə artırdı. Artdıqca da kənardan müdaxilələr, yaxın adamlarımın şəxsi həyatı, işdəki fəaliyyətləri ilə bağlı yersiz dedi-qodular üzə çıxırdı. Çoxu da böhtan, iftira, şantaj xarakterli sözsöhbətlər. Utanıb-qızarmadan ağa qara deyirdilər. Bizsə qarayaxmaların nələrdən qaynaqlandığını bildiyimizdən onlara vaxt itirməməyə çalışırdıq. Səbəbini soruşanlara da biz: — Boş şeylərə baş qoşmuruq, — deyirdik. Unudulan deyil. 2008-ci ilin oktyabrıydı. Kabinetimdə oturub yazı-pozumla məşğuluydum. Elə bu vaxt qapı açıldı. Təhsil Nazirliyi İcra Aparatının rəhbəri İlham Pirməmmədov və baş məsləhətçi İlyar Vahabov, onların da ardınca prorektor Nazim Abbasov içəri daxil oldular. Əl verib görüşdük.

İlham gülə-gülə dedi:

— A qardaş, bu gün də yazı-pozu? Heç olmasa, bu gün ara





ver də.

Mən təəccüblə onların üzünə baxdım:

— Bu gün hansı əlamətdarlığıyla başqa günlərdən seçilir?

Nazim:

— Ağarəhim müəllim xəbərsizdi. Əvvəlcədən bilsəydi, hər şeyi pozacaqdı, planımızı alt-üst eləyəcəkdi... O, heç vaxt ad günü keçirməyib.

Mən çaş-baş qaldım. Heç nə deyənmədim. İlyar söhbətə qarışdı:

— Əcəb işdi. Birdən Ağarəhim müəllim bu gün işə gəlməyəydi. Onsuz tədbiri necə keçirəcəkdik?

İlham:

— Mən Nazimə belə tapşırıq vermişdim... Yubilyar üçün sürpriz! Bir də ki altmış yaşı Ağarəhim müəllim tək özü qeyd etməli deyildi ki? Bəs dostları?.. O, üzünü Nazimə tutaraq:

— Vəziyyət necədi?

— Hər şey qaydasındadı.

Mən başımı yellədim:

— Əcəb işə düşdüm. Eşidib-bilənlər deməzlər ki, balam Ağarəhim müəllim...

İlham:

— Nə qəbahət iş görürük ki. Bundan cənab nazir də xəbərdardı.

— Vallah utanıram. Kim öz xoşuna, öz arzusuyla dünyaya gəlib ki.

Bu dəm pedaqoji elmlər doktoru, professor Əmrulla Paşayev otağa daxil oldu və gülümsünərək dedi:

— Sizi təbrik eləyirəm. Ağarəhim müəllim, barənizdə əla bir məqalə dərc olunub.

— Çox sağ olun, əlinizdəki qəzetdəmi?

— Bəli, alın, özünüz də oxuyun. Məncə xoşunuza gələr.

Mən qəzeti professordan alıb İlyara verdim. O, məqaləni uca-

dan oxudu. Orada mənim bədii yaradıcılığımdakı psixologizmdən, psixoloji analizdən, xarakterlərin tapıntısından, hadisələrə münasibətimdən... yazılırdı. Bu yazının müəllifi filologiya elmləri doktoru Əlizadə Əsgərliydi. Onu da deyim ki, məqalə ürəklə yazılmışdı. Ağlıma gəlməyən cizgiləri tapıb məqaləyə gətirmişdi. Bir sözlə, məqalənin məzmununda məni qaldıracaq çox şey vardı. Professor dedi:

— Əlizadə, görünür, sizə çox bağlı adamdı. Elə olmasaydı, məqalə bu qədər səmimi alınmazdı.

— Hə, çox sağ olsun, böyük zəhmət çəkib... Lap məni utandırdı... İndi də Nazimlə Hava aləmi qatıblar. Gərək bunu mənsiz...

İlham:

— Çox danışma... Qalxın, gedəyin zala... Bu gün biz danışacağıq...

Zal ağzına qədər tələbə və müəllimlərlə doluydu. Onlar bizi gül-çiçəklə qarşıladılar. Mən bir söz deməsəm də, kövrəldim... Keçib bizə ayrılan yerdə əyləşdik. Əlvan gül dəstələri tutan tələbə qızların sevinci yerə-göyə sığmırdı.

Nazim toplanışın məqsədini açıb məruzə üçün sözü filologiya elmlər doktoru Əlizadə Əsgərliyə verdi. O, mənim tərcümeyihalım, elmi və bədii yaradıcılığım, əsərlərim barədə danışdı. Kinolentə çəkilən və teatrda oynanılan əsərlərimin adlarını çəkdi. Təhsil quruculuğundakı xidmətlərimi xatırlatdı. Sonra çıxışlar başlandı. Professorlardan Qəzənfər Kazımov, Təyyar Salamoğlu, Əmrulla Paşayev, Sərdar Quliyev, Nizami Tağısoy, Vaqif Sultanlı, Nazif Qəhrəmanlı, dosentlərdən Hava Abdullayeva, İradə Musayeva, Nüşabə Sadıqova, Ağahəsən Bədəlzadə və tələbələrdən bir çoxu ürək sözlərini dedilər. İlham Pirməmmədov yığıncağı yekunlaşdırdı. Məni Təhsil Nazirliyinin... "Qabaqcıl təhsil işçisi" medalıyla mükafatlandırdı. Axırda Təhsil Nazirliyinə, yığıncağın təşkilatçılarına, çıxış eləyənlərə təşəkkürümü





bildirdim. Sonra da gül-çiçək dəstələri üstümə yaz yağışı kimi yağdı. Əvvəl ad gününün keçirilməsinə yaxşı baxmasam da, bir neçə saat yerdəmi, göydəmi olduğumu hiss eləmədim. Çıxışdan-çıxışa qəlbim iftixar hissiylə dolub boşalırdı. Ona görə yox ki, təriflənirdim, mənə xoş sözlər deyirdilər, məni gülə qərq edirdilər. Qətiyyən... Qəlbimi sevindirən, ürəyimi riqqətə gətirən ətrafımdakıların, tələbələrin mənə təmənnasız, səmimi və mehriban münasibətiydi.

Tədbirdən sonra biz kabinetə qayıtdıq. Otağa girib yenicə əyləşmişdik ki, bu dəfə katibə başqa qəzetdə haqqımda çap olunan məqaləni gətirdi. İlyar qəzeti alıb o üz-bu üzə çevirdi. Sözünə ara verdi. Sifəti bir balaca gərildi. Sonra "Aha..." "Anamın sevimli yazıçısı və ya Ağarəhim Rəhimovun kitabları və özü" sərlövhəsini oxudu. Əvvəl bizə elə gəldi ki, qəzetdə təbrik məqaləsi gedib, xoş sözlər yazılıb. İlyar mətni ucadan oxumağa başladı. Mənim elmi və bədii yaradıcılığım, təhsil quruculuğu sahəsindəki fəaliyyətim, cəmiyyətdəki mövqeyim, şəxsiyyətim tənqid yox, insafsızcasına təhqir olunurdu. Güclü nifrətlə yazılan məqalə büsbütün iftira və şantajdan ibarət idi.

İlham məndən soruşdu:

— Məqalə müəllifini tanıyırsanmı?

— Əsla... Yox... Belə adamı heç cürə ağlıma gətirə bilmirəm.

— Eybi yoxdu, biz öyrənərik... Əcəb paradoks... Bir gündə iki məqalə. Biri tərif, o birisi... Balans gözlənilib.

Otağı gülüş səsləri bürüdü. Mən dedim:

— Öyrənmək lazım deyil. Elə biləcək...

İlyar:

— Düşünəcək qəhrəmanlıq eləyib... Daha da kükrəyəcək.

Nazim:

— Sizi əsəbləşdirmək üçün bu gün qəsdən seçilib. Gədalıqdı... Nadanlıqdı... Cahillikdi... İftira, böhtan dolu qəzet yazıla-

rıyla neyləmək olar? Onsuz da Ağarəhim müəllimin kimliyi bəllidi, onu tanımayan yoxdu.

İlham:

— Belə yazılar qan qaraltmağa hesablanır. Yadından çıxar getsin, Ağarəhim müəllim. Adama daş atan çox olur.

Bu mükalimədən sonra İlhamla İlyar bizimlə xudahafizləşib getdilər. Fikir məni götürdü. Axı o müxbir kimdi? O, mənim fəaliyyətimə, xarakterimə hardan bələddi? İdrakımın gücüylə, elmi potensialımla tanışdımı? Yox... Məqalədə göstərilən ittihamlar havadan asılı qalırsa, suallar mənfi cavablandırılırsa, bu yazını hansı məntiqlə qələmə alıblar? Maraqlıdı... Bəli, həqiqətən də yazı bir məqsədlə çap olunub. Məni əsəbləşdirmək! Kənarda dayanıb qan qaralığımdan ləzzət almaq. Mən kimə neyləmişəm?! Məqsədim, işim-gücüm mənə müraciət edənlərə kömək eləməkdi. Nə iyrənc amal?! Nə murdar hərəkət?! Bu düşüncəylə hara qədər getmək mümkündür? Bu insanlıqdımı?! İnsanlığa qara ləkə deyilmi? Müəllifin vicdanı olsaydı, belə qarayaxmanı qüruruna (əlbəttə, əgər varsa) sığışdırardımı? Universitetin əməkdaşları, təbrikə gələn dost-tanışlarım, tələbələrim heç bir söz deməsələr də, üz-gözlərindəki məyusluq hissini duyurdum. Həmin gün mən də bir növ artistlik eləməli oldum. Özümü bilməzliyə, vecimə almazlığa vurub hər biri ilə görüşür, zarafatlaşırdım...

Tədbirin davamı axşam "Niaqara" restoranında oldu. Prorektorlar, dekanlar, kafedra müdirləri, qonaqlar barəmdə xoş sözlər deyirdilər. Hərdənbir də rəqs eləyirdilər.

Dəvətimlə axşam ziyafətə gələn İlyar Vahabov universitetin keçdiyi yolu ötəri də olsa, vərəqlədi, indiki səviyyəsini gözlərimiz önünə gətirdi və müəssisənin gələcək perspektivlərindən danışdı... Gecə-gecədən keçəndə adamlar öpüşüb-görüşüb ayrıldılar...

Səhəri gün işə gələndə işçilərdən bir neçəsinin kabinetimin





qarşısında əsəbi halda dayandıqlarını gördüm. Hərəsinin də əlində bir qəzet. Mən salam verib kabinetə keçirdim ki, Nazim mənə yaxınlaşıb astadan dedi:

— Yenə dinc durmayıb aranı qatıblar.

— Başa düşmədim.

— Yazıblar.

— Yenə məndən?

— Bəli!

— Hansı qəzetdə?

— Beş müxalifət qəzetində. Hamısı da bir-birindən köçürmə..

— Görünür, sinirlərimi sınağa çəkirlər. Yoxsa, mən kiməm?

İşçiləri otağa dəvət eləyib qəzetləri kollektiv nəzərdən keçirdik. Məqalələrin sərlövhələri formaca müxtəlif olsa da, məzmunları demək olar ki, eyniydi: "Qızlar universitetində qalmaqal", "Qızlar universitetitinin rektoru həbs oluna bilər", "Yeni müəllim tipi", "Qızlar universitetində qanunsuzluq".

Qəzetlərin eyni qondarma faktlarla məni hədəfə götürməsinin səbəblərini heç cürə aydınlaşdıra bilmirdik. Haqsızlığa, şantaja dözməyən əməkdaşların hərəsi bir cürə təkliflər verirdi: "Onlara tutarlı cavab verək", "Qəzetləri məhkəməyə verək", "Məqalə müəllifləriylə görüşək", "Redaksiyalara gedib haqqımızı tələb eləyək"... Mən xeyli düşündüm: — Qəzetlərə nə cavab verək? Deyək, bizi niyə şantaj edirsiz? Guya onlar neylədiklərini bilmirlər? Redaksiyalara gedib özümüzü müdafiə eləyək? İftiraçı iftiraçı olaraq qalacaq. Yeni qurama söz-söhbətlər, bəhanələr axtaracaq... İşçilərə dedim: — Yox, məncə onları saya salmaq lazım leyil. Haqqın da dönməz üzü var. Gec-tez hər şey süddən də ağ olacaq. Yazmağın faydasız olduğunu görüb dayanacaqlar. Axı biz təhsil işçiləriyik, tərbiyəçiyik, bizə qızışmaq olmaz. "Çaxır tünd olar, öz qabını çatladar" — deyib atalar. Görürsüz, qərəzli mövqe tutublar. Arxalarında dayananlar var, elə

olmasaydı, belə mənasız, yüngülağıl hərəkət eləməzdilər.

— Qoyun nə qədər kefləri istəyirsə, yazsınlar. Sonda o da bizim təbliğimiz olacaq... Zaman müdrükdür. Özü hər şeyi sahmanlaycaq. Müəllifləri də tanıyacağıq, arxalarında dayananları da...

Bayaqdan sakit dayanan, kəlmə kəsmədən dinləyən Xəlil müəllim axır ki, dözməyib dilləndi:

— Cavabları verilməlidi, yoxsa, bu xəmir çox su aparacaq, başqalarının da ayağı yer alacaq.

— Dözümlü ol, Xəlil... Daşdı, atırlar da... Səni tuta da bilər, tutmaya da.

Dekan İradə xanım:

— Tələbələrdən bir neçəsi redaksiyalara getmək istəyir. Sizin icazənizi gözləyirlər.

— Yox... Qalxın, gedin öz işinizə. Tələbələri də sakitləşdirin, təşviş keçirməsinlər.

Mən otaqda tək qalıb məqalələri dönə-dönə oxudum. Hər sözün, ifadənin, cümlənin üzərində dayandım. Tək-tək ifadələr daşın hardan atıldığına işarələr verirdi. Etiraf eləyim ki, əslində bu işarələr şübhələrdən başqa bir şey deyildi... Hissiyat bəzən möcüzələr yaradır. Açılmayan sirrlərin üstə şüalar salır... Yavaş-yavaş məndə belə inam doğdu ki, yazıların mənbəyi dördüncü kurs filologiya fakültəsidir. Mən xeyli fikirləşdim və belə qərara gəldim ki, həmin tələbələrlə görüşüm. Narazılıqlarının nələrdən qaynaqlandığını öyrənim. Düşündüm: — Tələbə qızlar məndən niyə material verməlidirlər? Özü də doğum günümdə. Axı mən həmişə onların mövqelərində dayanmışam. Onları hər cür qarmaqarışıqlıqdan, çirkabdan qorumuşam. Tələbələr məni “mənəvi ataları” adlandırırdılar. Yox, qızlar mənim əleyhimə ola bilməzlər. Qızlar təmizdirlər, pakdırlar. Səhvi düz adamın üzünə çırpmağı bacarırlar. Qorxmurlar. Çəkinmirlər... Cəsarətlidirlər... Belə olduğu halda, inanıram qızlar sözlərini üzümüzə





açıq deyərlər. Qəzetdə kollektivə, mənə qarşı çıxmazlar. Bu, mümkün deyil. Mənim mənafeyimi heç nəylə əvəzləməzlər. Əslində buna haqları da yoxdu. Əgər bu yazılar, faktlar tələbələrdən nəşət alırsa, inanıram ki, bu onların öz düşüncələrinin məhsulu deyil. Burda gizli əllər var. Arxalarında dayananlar, onlara diktə eləyənlər var. Qızlara təsir eləyiblər. Şübhələr baş alıb gedir. Yaxşı deyiblər: “Mal bir yerə, iman min yerə”. Bir şübhə tamam başqasını doğurur, daha kəskinlərinə rəvac verir.

Doğrusu, tələbələrin saxta, qondarma faktların qəzetlərə ötürülməsinə ağlım “yox”, “ola bilməz” deyirdisə, hissiyatım tamam onun əksini pıçıldayırdı: “hə”! “Ağıl” və “Hissiyyat”. Ağıl faktlara, reallığa, təcrübəyə, hissiyyat isə instinktlərə, “ürəyə danmalara” əsaslanır. İçimdə ağılla hissiyyatın mübarizəsi, toqquşması başlanmışdı. Özümdən asılı olmadan gah ağlın, gah da hissiyyatın ağuşuna atılırdım... Şübhələr... Bəzən adamı için-için yeyir, öz yolundan sapdırır; emossional vəziyyətə gətirir... Çox götür-qoylar mənə tələbələrlə görüşmək qərarını verdi. Ən çətini buydu: Necə? Nə adla? Birbaşa sorğu-suala keçmək? Yox, məncə bu, olmaz. Keçsəm də, fayda verməz. Artıq söz-söhbət yaradar. Əlacsız qalıb prorektorla görüşdüm:

— Nazim müəllim, sabah dördüncü kurs filologiya fakültəsində “Mənəviyyat və din” mövzusunda söhbətə şərait yarada bilərsizmi?

— Məmnuniyyətlə... Hansı saatda?

— Sonuncu saat... Söhbətimiz alınmasa, vaxtı uzada bilim.

— Oldu.

Səhər işə gələndə məlum oldu ki, qəzetlər böyük həvəslə məndən, universitetdən yenə yazıblar. Hətta, bəzi nazirləri, dövlət adamlarını mənə havadar çıxarıblar. Filan nazir rektorun qohumudur. Filan nazirlə gizlin əlaqələri var. Filan səlahiyyət sahibi universitetə çətirlik eləyir... Bir sözlə, ağlasığmayan mənfur düşüncələr, ət tökən mülahizələr, iyrənc ehtimallar...

Mən heç kəsə heç bir söz demədim. Vədələşdiyimiz vaxt tələbələrlə görüşə getdim. Din və mənəviyyat, islami dəyərlər, dinin əxlaq və mənəviyyata təsiri, cəmiyyətdə oynadığı rol və s. məsələləri şərh eləyir, real həyat, iftira xarakterli məqalələrdə göstərilən qondarma faktların, başqa sözlə, yazılanların hər birinin insana şərəf gətirməyən hallar olduğunu gündəmə çəkirdim. Mahiyyətə endikcə bir-bir tələbələrə diqqət yetirir, onların keçirdikləri psixoloji halları tutmağa çalışırdım. Tələbələrdən ikisinin — Gülşən və Elzanın (adlar şərtidir) haldan-hala düşdüyü qənaətinə gəldim. Arxa partada əyləşən Gülşən dediklərimə qulaq asmadığını açıq-açığına nümayiş elətdirirdi. Gah pəncərədən həyətə baxır, gah yanında əyləşən Süsənin qulağına nəsə pıçıldayır, gah da barmaqlarıyla saçlarını qarışdırırdı. Elza isə qarşımda əyləşdiyindən fəaliyyət dairəsini nə qədər məhdudlaşdırsa da, daxili narahatlıq keçirdiyi açıq-aydın duyulurdu. Heç kəslə ünsiyyətə girməyən bu qız söhbət zamanı gözlərini məndən hey yayındırmağa çalışırdı. Hərdənbir təsadüfən baxışlar toqquşanda udqunur, gah yanaqları allanır, gah da sifəti bozarırdı. Gülşənin də, Elzanın da gözlərində utancaqlıq duyulurdu. Ona da əmin idim ki, bu utancaqlıq abırdan, həyadan, ismətdən yox, xəcalətdən doğurdu.

— Mənə kimin sualı var? — deyə zala müraciət edəndə bir neçə tələbə: — Təhsil haqları qaldırılacaqmı? — deyə soruşdular. Mən sualı: "— Yox" deyə cavablandırdım. Açığını deyim ki, bu sual məni düşündürdü və məndə valideynlərlə görüşüb söhbət eləmək qənaəti yaratdı...

Hər gün qəzetlər məndən yazmaq işini davam etdirirdilər... Növbəti şənbə günü universitet rəhbərliyi ilə valideyn və tələbələrin görüşü oldu. İki qrupda 39 tələbədən 35-nin valideyni görüşdə iştirak eləyirdi. Mən yığıncağı açıb universitetdə görülən işlərdən, tələbələrə yaradılan şəraitdən, professor-müəllim heyətilə tələbələr arasındakı sağlam münasibətlərdən danışırdım ki, gözlənilmədən arxada oturan ucaboy, qarayanız, dolu bədənli bir kişi qışqıra-qışqıra ayağa qalxdı:

— A kişi, mənim vaxtım yoxdu, sənin boş-boş sözlərini dinləməyə... Ayıbdı, sən tələbələri təhqir eləyirsən. O gün də qrupa gedib Allahdan-imamdan danışmısan. Bura mollaxanadı? Ya mədrəsə? Axırda da mənim qızım Gülşənə şərəfsiz demisən...

Zal uğuldadı. Hamı bir-birinin üzünə baxdı. Handan-hana tələbə Sidiqə ayağa qalxdı:

— Axı qrupda elə söhbət olmayıb. Nə şərəfsiz, nə təhqir? Siz bu sözünüzlə bizi də hörmətsiz eləyirsiz? Sən boyda kişi yalan danışırsan. Başqalarına böhtan atırsan.

Elə bu vaxt tələbə Gülər əlini qaldırıb icazə istədi:

— Gülşən, atana gedib nə demisən? Onu aldadıb, qızışdırıb bura niyə gətirmisən? Belə çıxır ki, məqalələri də sən yazdırırsan, ya sənin atan yazdırır?..

Mən də, işçilər də zalda deyilənləri eşidib çaş-baş qaldıq. Nazim müəllim qulağıma pıçıldadı:

— Xoruzun quyruğu görünür.

Mən başımla onun sözünü təsdiqlədim. Elə bu vaxt qışqırıb-bağıranın yanında əyləşən gödək, dolu bədənli, dazbaş kişi yerindən dilləndi:

— Biz bura uşaqlarımızı göndərmişik ki, təhqir eləyəsiz? Onları şərəfsiz adlandırasız? Tələbədən nə qədər rüşvət istəyərlər? Gözümüz aydın, deyirlər indi də təhsil haqlarını artırırsız? Biz məsələni belə qoya bilmərik. Dəvədən böyük fil var!.. Siz heç kəsi saymırsız. Tələbələri adam yerinə qoymursuz. Kimə arxalanmısız? Adamın arxası olanda... — Ağac bar gətirdikcə başın aşağı dikər, — deyiblər.

Mən dərhal soruşdum:

— Siz kimin valideynisiz?

— Elzanın.

— Rüşvət aldığımı, arxalı olduğumu Elza sizə deyib?

— Kim deməliydi ki?

Tələbə Sevda:

— Rüşvət də, tələbələri təhqir də təzə çıxdı. Qızlarınız yalan danışıb sizdən pul alıb nəyəsə xərcləyiblərsə, bəyəm universitet günahkardı? Utan Elza. Yalan danışan qızla...

Gülşənin atası:

— Ağarəhim müəllim, siz məqalələrin yazılmasını bizdən görürsüz. Bunun özü təhqir deyil?

Sosial-pedaqoji fakültənin dekanı Hava xanım dözməyib ayağa qalxdı:

— Hardan bildiz ki, biz sizdən şübhələnirik?

Sual cavabsız qaldı. Hava əsəbi halda sözünə davam elədi:

— Hörmətli valideynlər, sizin qızlarınız Gülşənlə Elza hər semestr üç-dörd imtahandan kəsilirlər. Biz sizə borclu deyilik, uşaqlarınızı himayə eləyək. Qızlarınızın intizamı da pisdi. Bir çox qüsurlarını da şəxsən mən rektordan gizlətmişəm. Siz rektora da, bizə də  böhtan atırsız... Bu kişiyə yaraşan hərəkət deyil.

Gülşənin atası:

— Biz rektoru universitetdən qovduracağıq.

Mən gülümsündüm:

— Deməli, hədə-qorxu... Açıq müstəvi...

Söhbəti davam elətdirməyin mümkünsüz və faydasızlığını düşünüb zalı tərk etdik. Kabinetə gəlib baş verənləri müzakirə eləməli olduq.

Mən:

— Əcəb mərəkə baş verdi. Bunlar nə düşünürlər? Rüşvəti düz gözümüzün içinə oxuyurlar. Bizə təzyiq göstərirlər. İradəmizi qırmağa çalışırlar. Bəs vicdan? Bəs əxlaq?

İradə xanım:

— Qızlar valideynlərini aldadıblar...

Hava xanım:

— Yox, hamısı bir bəhanədi?





Nazim:

— Hələ işin zorbası geridədi. Növbəti şayiələr, şərlər, böhtanlar olacaq. Yaxşı, valideynlərin adlarını bilirsizmi?

Hava xanım:

— Hər ikisini tanıyıram. Gülşənin atasının adı Ehsan,  Elzanınkı isə Qulamdı.

Tədris şöbə müdiri Ələkbər başını yellədi:

— Ada bax ey. — Ehsan... Qulam. Lap adamın gülməyi gəlir...

Günlər keçir, qəzetlər yazmaqda davam eləyirdi. Redaktorlar da mənə ismarıclarını göndərir, gəlsin danışaq — deyirdilər...

Adımın qəzetlərdə hallanmasına öyrəşməmişdim. Dedi-qoduları eşitmək istəmirdim...

Adi günlərdəniydi. Üç qəzetdə təhqiredici məqalə çıxmışdı. Onları oxumadım. Koridora çıxanda aşağı kursun qızları məni dövrəyə aldılar. Qəzetlərdə yazılanlardan danışmağa başladılar:

Tələbə Kəmalə:

— Biz elə bilərdik ki, qəzetlər yalan yazmazlar. Görünür, biz hələ çox şeyi anlamırıq... Biz qəzetə cavab vermək istəyirik.

— Yox, qızlar. Tənqidə dözməliyik.

Səbinə:

— Axı bu tənqid deyil, təhqirdi.

Tünzalə səsi titrəyə-titrəyə:

— Atam deyir ki, bunların məqsədi rektoru, universiteti nüfuzdan salmaqdı...

Əsəbdən sir-sifəti bozaran Zülfiyyə:

— Sizi niyə rüşvətxor adlandırırlar? Axı siz rüşvət almırsız. Onlar sizi başqalarıyla dəyişik salıblar.

— Adam barədə çox şey deyərlər, həqiqəti siz ki bilirsiz. Valideynləriniz bilirlər. Siz gedin, dərslərinizi oxuyun, imtahanlara hazırlaşın...

Tələbələrdən ayrılıb birbaşa evə getdim. Axşam saat beş idi.

Telefona çağırış gəldi. Dəstəyi qaldırdım. İlk dəfə səsini eşitdiyim kişiydi. O, məni görüşə çağırdı. Ani düşündüm. Görüş yeri kabinetimi seçdim. Vədələşdik saat altı tamama. Ondan xudahafizləşib Xəlil müəllimi də görüşə dəvət elədim. Üç nəfərlik görüş baş tutdu. Tanımadığım qarayanız, dolu bədənli, üzü yenicə təraş olunmuş bu oğlanın otuz yaşı olardı. Dediyinə görə qəzetdə müxbir işləyirdi. Biz rəngsiz-boyasız birbaşa mətləbə keçdik. O dedi:

— Məni redaksiyadan göndəriblər. Əgər şərti qəbul eləsəniz, sabahdan sizin barənizdə tənqidi məqalələr yazılmayacaq.

— Əgər şərti qəbul eləməsəm, necə?

— Sizdən əl çəkməyəcəklər... Onlar belədirlər. İstəklərinə nail olmasalar, adamı abırdan salırlar.

— Şərtiniz nədi?

Müxbir sağ əlini qaldırıb barmaqlarını bir-birindən araladı. Mən dərhal soruşdum:

— Əlli manat?

O, gülərək başını yellədi. Mən yenidən soruşdum:

— Beş yüz manat?

O, bu dəfə də hərəkətlərini təkrarladı. Mən qəsdən:

— Əlli min?

Müxbir başını qaldırıb endirməklə "hə" işarəsini verdi. Xəlil özünü saxlayanmadı:

— Ayə, yekə kişisiz, burda rüşvət alırlar ki, sizə də verələr? İnsafınız yoxdu? Kişi evini satmalıdı?

Müxbir:

— Mən də rüşvət almıram. Sizə onların sözlərini çatdırıram. İşinizə baxın. Məsləhət bilsəniz, nömrəm sizdə var, zəng çalarsız.

Mən sakit halda:

— Xeyirxah adamsan. Bunun üçün sağ ol. Get, səni bura göndərənlərə çatdır.





— Nəyi?

— Məni özlərinə bənzətməsinlər. O qədər pulu mən heç vaxt görməmişəm. Ünvanı səhv salıblar.

Beləcə müxbirdən ayrıldıq... Səhəri gün qəzetlər daha sərt və qəzəblə gurladı: "Qızlar Universitetinin rektoru özünə yığışmır", "Qızlar Univesiteti ilə bağlı qalmaqal səngimir", "Rektor hamilə tələbələrə rəhm eləmir", "Universitetdə rüşvət həddini aşır", "Söyüşçül rektor", "Rüşvətxor rektor", "Rektorun özbaşınalığı", "Arxalı rektor", "Qızlara "əxlaqsız" deyən rektor", "Çirkaba batan rektor", "Əziləsi rektor", "Həbsi gözlənilən rektor"... Hansı adlar qoyulmadı? Cızma-qaraları oxuyan yüzlərlə adam mənə zəng çalır, qəzetlərin kimdən və hardan qaynaqlandığını soruşurdular. Hamısına da "Mənim üçün də sirdir" cavabını verirdim...

Universitet və mənim barəmdə yazılan təhqiramiz sözləri, əxlaq və mənəviyyata sığmayan ifadələri, böhtan, şantaj, iftira dolu fikirləri oxumaqdan təngə gələn tələbələr axır ki, dözməyib, mənə də demədən redaksiyalara cavab yazıblarmış.

"Hörmətli redaksiya! "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununda göstərilir ki, kütləvi informasiya vasitələri hər hansı məlumatı şərh edərkən qərəzsizliyə, düzgünlüyə, obyektivliyə, mənəvi dəyərlərə... söykənməlidir. Çünki belə məlumatlar istənilən şəxsdə bu və ya digər dərəcədə rəyin formalaşmasına güclü təsir göstərir. Təəssüf ki, hazırkı informasiya vasitələrində çox zaman biz bunun əksini görürük. Onlarda əxlaq və mənəviyyata sığmayan, məzmunu hədyanlarla dolu olan məişət səviyyəli, həqiqətdən uzaq söz-söhbətlər, qeybətlər gedir. Belə şit, iyrənc söz-söhbətlər (xüsusi ilə yazılar) adamda ikrah hissi oyadır. Onları oxuyanda adam müəllifə də, insanlığa da, lap özünə də nifrət etməli olur. Bir loxma çörək üçün bu yolu tutmaq insanlığa ləkədi. Biz gənclər istəməzdik ki, yaşlılarımız, əli qələm tutanlarımız belə çirkin,

utanc gətirən yol seçsinlər.

Bizi Sizə müraciət eləməyə vadar edən məhz yanlış, böhtan, iftira dolu cızmaqaraların qəzetinizdə yer almasıdır. Axı təmiz adamlara, görkəmli ziyalılara qara yaxmaqda istəyiniz nədir? Yaxşı olardı ki, məqsədinizi açıq yazaydız, hamı biləydi. Şübhəsiz ki, qaragüruh fikir qaragüruh məqsəddən doğur.

Qəzetinizin səhifələrində tez-tez Azərbaycan cəmiyyətində böyük rəğbət qazanan, adı hörmət və izzətlə çəkilən Bakı Qızlar Universiteti, onun rəhbərliyi barədə həqiqətdən çox-çox uzaq, qeyri-obyektiv, iftira və yalanlarla dolu, hər birimizi sarsıdan yazılar gedir. Bunu nə adlandırmaq olar? Rektorun xidməti aydındı, öyrənmək istəyirik, bəs sizinki nədir? Bir mahnıda deyildiyi kimi, "insaf da yaxşı şeydi".

Hörmətli redaksiya, heç oturub fikirləşmisiz ki, Ağarəhim müəllim kimdir? Əlbəttə ki yox! Sizə tövsiyə edərdik, onu yaxşı-yaxşı öyrənəsiz. Onda rektorun özü də, əqidəsi də, əməlləri də sizə aydın olar. Sizə xatırladaq ki, mənfur əməllərinizlə (yazdıqlarınızla) nə Qızlar Universitetini, nə orda təhsil alan tələbə qızları, nə rektoru və eləcə də professor-müəllim heyətini, nə özünüzü, nə də qəzetinizi dəyərləndirirsiz. Kimsəni dəyərləndirə bilməyən heç özünü də qiymətləndirə bilməz. Yaxud əksinə. Özünü görməyən başqasını görə bilməz...

Bütün imtahanlardan müsbət qiymət ala bilməyən (kəsilən) tələbələrin valideynlərinin yaramaz hərəkətləri əsasında verilən yalan məlumatların qəzetinizdə "yanğı hissiylə" bu qədər şişirdilməsi bizi təəccübləndirir. Belə çıxır ki, işi düz gətirməyən hər kəs evində oturub qəzetlərə zəng edərək problemini hədəqorxu və iftira yoluyla həll edə bilər. Sizin də "vəzifəniz" haqsızlığa yalnız rəvac verməkdən ibarətdir? Bəlkə də özünüz hiss eləmirsiz. Yazılarınızda sizin də maraqlarınız açıq-aydın duyulur...

Qurupumuzda təhsil alan Seyidli Gülşən Ehsan qızının və





Qoçiyeva Elza Qulam qızının sizin qəzetiniz vasitəsiylə universitetə və onun rəhbərliyinə ünvanladıqları çürük, yaramaz, həqiqətdən uzaq iddialara konkret faktlarla münasibət bildirmək istərdik.

Qəzetinizdə rektor ifrat dərəcədə təhqir olunur. Barəsində əxlaq normalarına sığmayan ifadələr işlədirsiz. Qondarma fikirlər söyləyirsiz. Belə tərbiyədən uzaq ifadələri işlətməyi biz heç kəsə rəva görməzdik. Siz istəyirsiz rektor qəzetinizə cavab versin. Yox, o olmayacaq. Ağarəhim müəllim təkcə universitet rektoru deyil, həm də pedaqoji elmlər doktoru, professor, yazıçı, dramaturq, kinossenaristdir. O, böyük əxlaq və vicdan sahibidir... Ağarəhim müəllim heç kimi təhqir eləməyib. Bizim üçün də maraqlıdı: Seyidli Gülşənlə Qoçiyeva Elza bir neçə imtahandan kəsiləndən sonra nəyə görə rektoru şantaj yolu tutublar? Axı onlardan imtahanları rektor götürməyib. Əslində, Gülşənlə Elza bu hərəkətləriylə təkcə özlərinin yox, həm də universitetdə oxuyan qızların şərəf və ləyaqətini tapdalayırlar...

Məqalələrinizdə 60 valideynin toplantıda iştirakını bildirirsiz. Bu, lap ağ oldu. İki qrupda 39 tələbə oxuyur. Onların da 35 valideyni zalda olub. Gülşənlə Elza və onların ataları Ehsanla Qulam hansı əsasla valideynlərin görüşdəki sayını 60-a qaldırırlar? Axı əvvəldən axıradək biz də görüşdə olmuşuq. Valideynlərin hamısı Ehsanla Qulamdan savayı, rektora hörmət və ehtiramla yanaşıblar. Məqalələrdən belə görünür ki, Ehsanla Qulam bizim valideynlərin də "əzilib tapdalanmış" hüquqlarını tələb eləyiblər. Axı Ehsanla Qulam kimdirlər? O, hüququ onlara kim verib? Onlar elə dərin, ağıllı adamlar olsaydılar və qızlarına düzgün tərbiyə verə bilsəydilər, dedikləri kimi, nə özlərini, nə də cavan qızlarını şərəfsiz eləyərdilər. Ehsan və Qulam, sizdən yeganə təvəqqemiz var. Öz işinizlə məşğul olun. Xalq məsəlidir: "Özgə ayaqqabısı geyən, gec-tez ayaqyalın qalar". "Özgə atına minən tez düşər". Gərək siz yaşda adamlar bunları dərk

eləyəydiz. Eləsəydiz, sizi ortaya salıb oynatmazdılar. Dünyada ən böyük bədbəxtlik özgə ağlına möhtac qalmaqdır. Darğalıq heç zaman heç kimə fayda verməyib.

Seyidli Gülşən və Qoçiyeva Elza, nə vaxt rektor kitablarını 25-30 manata tələbələrə satdırıb? Bu yalan sizə nə verir?

Ehsan və Qulam! Biz burda sizi yox, qızlarınız Gülşənlə Elzanı qınayırıq. Atalar, əmin ola bilərsiz, qızlarınız sizi aldadırlar. Səhv yoldadırlar. Evdən pul qoparmaq, işini keçirmək xatirinə oxuduğu təhsil ocağına, müəllimlərinə böhtan atmaq insanlığa yaraşmaz. Nəinki universitet tələbəsi olan qızlara.

Hələ bunlar azmış kimi utanıb-qızarmadan deyirsiz ki, rektor təhsil haqqını 600 manatdan 900 manata qaldırıb. Siz lap ağ elədiz. Axı rektor neçə dəfələrlə bizə demişdi ki, şayiələrə uymayın, heç vaxt təhsil haqqı qalxmayacaq. Rektor valideynlərlə tələbələri qəbul edəndə həmin fikri dönə-dönə təkrarladı. Bunu siz eşitməyə bilməzdiz. Necə demək lazım idi ki, siz başa düşəydiniz? Hər şeyin həddi var. Respublikamızda öz spesifik xüsusiyyətləri ilə fərqlənən Qızlar Universitetində hər bir müəllimi özümüzə valideyn, böyük sanırıq. Onlar bizə dərs deyir, tərbiyə verir, onlarla fəxr eləmək əvəzinə, sizsə böyük bir kollektivə, xeyirxahlarımıza, valideynlərimiz sandığımız şəxslərə böhtan atır, işlərinə ləkə yaxırsız. Ehsan və Qulam, görünür nə danışdıqlarınızı bilmirsiz. El məsəli var: "Hesabını qanmayanın çobanı olmaq çətindi". Nə olsa danışırsız. Buna el arasında "çərənləmə"də deyirlər. Mənası budur ki, "Adımı qoyum sənə, sən də qal yana-yana". Dönə-dönə deyirik, ayıbdı, qızlarınızı da, bizi də təhqir eləməyin. Papağınız varsa, qabağınıza qoyun, yaxşı-yaxşı düşünün. Sizin qızlarınız beş imtahanın beşindən də kəsiliblər. Rektor altıncı dəfə də, başqa kəsiri olan tələbələr kimi, onlara da şans verdi. Bu, hansı təhsil ocağında görünüb? Görmüsüzsə, utanmayın, deyin. Heç olmasa, qızlarınız da, özünüz də rektorun humanist hərəkətlərini dəyərləndirəydiz. Hər





semestrdə kəsilən, oxuya bilməyən Gülşənlə Elza hər zaman xəstələnmələrini bəhanə gətirirdilər. Hər il universitet rəhbərliyi sizin balalarınıza təmənnasız qayğı göstərəndə, səsiniz niyə çıxmırdı? İndi isə "ölüb-öldürrəm" mövqeyini seçmisiz. Xatırladaq ki, tutduğunuz mövqe ən ədəbsiz mövqedi.

Hörmətli redaksiya və valideynlər, siz çox ifrata varırsız. Siz unutmayın ki, Ağarəhim müəllim bizim mənəvi atamızdır. Biz ondan ancaq qayğı görmüşük. Onu böyük əxlaq və mənəviyyat sahibi kimi tanıyırıq. O, hər şeyi başa düşən, ləyaqət və şərəfinə qiymət verən professordur. Xatirinizə dəyməsin, hamı Ağarəhim müəllim kimi olsaydı, cəmiyyət indiki kimi girdaba, cəhalətə yuvarlanmazdı. Rüşvətə, korrupsiyaya qurşanmazdı. Açın gözlərinizi, özünüzə də, ətrafınıza da yaxşı-yaxşı baxın. Bəlkə yaxşıdan-pisdən bir şey gördüz. İşdi-şayətdi bir şey görsəniz, məsləhətimiz budur ki, onları müqayisə eləyib özünüz üçün nəticə çıxarasız... İbrət dərsi götürəsiz. Biz də uşaq deyilik. İnsanları çox yaxşı tanıyırıq. Həzrət Əli deyir: "Hər kəs öz dilinin altındadı". Üzümüzü Gülşənlə Elzaya tuturuq: "Siz nəyə qadirliyinizi göstərdiz. Daha sizə ağıl vermək vaxtı deyil, keçdi. "Quyuya su tökməklə sulu olmaz, su quyunun dibində olar". Adam özünü itirəndə nə desən, doğrayıb tökür. Oturub sizin əməllərinizi təhlil edəndə bizi xəcalət təri bürüyür. Atalarınızın işlətdikləri böhtan, iftira dolu o ifadələrdən fəxr eləmək yox, utanmaq, abır, həya eləmək gərəkdi".

Ağarəhim müəllim təmənna güdən adam deyil. İstəsəydi, başqaları kimi, çox şeyə nail olardı. Tələbələrinin sevgisi, məhəbbəti ona kifayət eləyir. Məzunlar da, valideynlərdə də, tələbələr də onu belə tanıyırlar. Elə olmasaydı, hər cür hədyanlar söyləməkdən çəkinməyən Ehsanla Qulamın sözlərinin elmi əsası olardı.

Hörmətli redaksiya, borcluyduz ki, əvvəlcə universitetdə təhsil alan tələbələrlə əlaqə saxlayaydız, sonra ehsanların, qulam-

ların sözlərini qəzetinizdə çap edəydiz. Hə, bir də onu nəzərinizə çatdıraq, "söyüşcül rektor ifadəsi" Ağarəhim müəllimin şəxsiyyətinə toxunmaq məqsədiylə qəzetdə verilmişdir. Yel qayadan yalnız toz aparır...

Arzu edərdik, hamı nifrət dolu sifətini torpaqlarımızın 20 faizini zəbt edən düşmənə qarşı çevirsin, özümüzə qarşı yox...

*Filologiya fakültəsi, dördüncü*
*kurs tələbələri, 37 nəfər".*

Tələbələr cavab məktubunu redaksiyaya təqdim edən günün səhəri qəzetdə "Qızlar Universitetinin rektoru redaksiyamıza basqın təşkil etdirdi" məqaləsi dərc olundu. Orada deyilirdi: "Redaksiyamıza hücum çəkən" "çağırılmamış qonaqlar" (tələbə qızlar nəzərdə tutulur) bir-birinin sözünü kəsə-kəsə, çığır-bağır sala-sala rektoru müdafiə etmək, onun haqlı olduğunu isbatlamaq təşəbbüsü göstərirdilər". Əcəb işdi. Redaksiya səhvlərini etiraf və təkzib eləmək əvəzinə, tələbələri haqsız, günahkar sanır. Üstəlik tələbə qızlara da böhtan atırdı.

Guya qızların qarşısını polislər kəsməsəydilər, redaksiya işçilərini fiziki cəhətdən əzəcək, şil-küt eləyəcəkdilər.

Beş imtahandan qızlarının müvəffəq qiymətlər ala bilməyəcəklərini, işlətdikləri təhqiramiz məqalələrin və yerli-yersiz hücumların heç bir fayda verməyəcəyini anlayan Ehsanla Qulam taktikanı tez bir zamanda dəyişdilər. Qulam axşam mənə telefon açdı:

— Ağarəhim müəllim, xahiş eləyirəm, sabah məni qəbul eləyəsiz. Sizinlə danışmaq istəyirəm.

— Nə barədə?

— Qızım barədə. İstəyirəm, məni bağışlayasız... Siz ziyalısız, gərək bizə baş qoşmayasız.

— Sözünü de, Qulam, eşidirəm.

— Səhər nə vaxt desəniz gəlim, tutun qulağımdan nə istəyirsiz eləyin.





Mən çaşdım. Nə deyəcəyimi bilmədim. Handan-hana soruşdum:

— Yenə təhqir?

— Qurban olum, evə gedə bilmirəm. İş o yerə çatıb ki, arvad-uşaq məni adam yerinə qoymur. Gəl tüpürək keçmişə...

— Sabah saat 11-də gələrsən.

Vədələşdiyimiz vaxt Qulamla görüşdük. O, çəkinə-çəkinə əyləşdi.

— Bağışlayın, məni Ehsan — o nakişi başdan çıxartdı. Yoxsa, mən elə qələt eləməzdim...

— Yox, düz danışmırsan. De, mən də bilim, arxanızda dayanan kimdi?

— Onu Ehsandan soruşun.

— Ehsandan niyə? Axı sən də Ehsan kimisən.

— Onunla danışıblar.

— Kimlər?

— Dedim, o bilir.

— Get, nə vaxt həqiqəti deməli olsan, onda gələrsən...

Qulam özü getsə də, həmin gün müxtəlif vaxtlarda yanıma elçilərini göndərdi. İşin axırında yenidən özü universitetə gəldi. Dil tökdü. İstədiyinin alınmadığını görcək, məni respublikanın baş prokuroru ilə hədələdi:

— Baş prokurora yazıb məktəbi dağıdacam. Tələbələri yola vermirsən. Sən qatilsən... Canisən... Onlar özlərini öldürsələr, neyləyəcəksən?..

— Deyəsən, için açılır, Qulam. Bir az da irəli çıxsaq... Qaldı qızların intiharına. Narahat olma, özlərini öldürməzlər... Elza sənin qızındı. "Ot kökü üstə bitər..." Haralara şikayətlər elədiklərinizdən də xəbərdaram. Deyirsən qatiləm, caniyəm... Təhqiqat apararlar. Sən deyənlər təsdiq olunsa, cəzamı verərlər.

— Ayə, sən nə çətin adamsan. Hamı deyir sərtsən, adam eşit-

mirsən. A kişi, bu qədər yox da. Səninlə necə danışaq?

— Qalx, qapını bayırdan ört...

Qulamdan beləcə ayrıldım. Həmin günün axşamı Ehsan mənə telefon açdı:

— Ağarəhim müəllim, biz təcili görüşməliyik. Alçaqlar məni sizə qarşı qoydular. Gərək belə olmayaydı.

— Niyə görüşüb vaxt itirməliyik? Axı siz sözünüzü demisiz, Ehsan. Özü də ürəyin istəyən kimi. Deyilməmiş sözün qalıbmı?

— Xahiş eləyirəm, mənim üçün vaxt ayırasız. Anlaşılmazlıq olub. Hamı sizin yaxşı adam olduğunuzu deyir.

— İnanma. Qaldı sizi qəbul eləməyə. Mənə telefon açma.

Telefonu qapadım. Aradan yarım saat keçer-keçməz səlahiyyətli tanışlarımdan biri evə telefon elədi. Dəstəyi götürdüm:

— Alo... Alo... Eşidirəm.

— Mənəm, tanıdın?

— Tanıdım.

— Ehsan bizdədi. Baş-beynimi aparıb. Onunla görüş üçün vaxt ayırmanı xahiş eləyirəm. Arvadı onu qovub evdən çıxarıb. Deyib, işi düzəltməsən, özünə yer tap... Alçaqlığından xəbərdaram... Əlacım yoxdu.

— Sabah saat on birdə gələr.

Tanışımdan xudahafizləşdim. Əsəbləşdim, sonra öz-özümə dedim: axı niyə əsəbləşirəm? Mənə sadəcə olaraq “Ehsanı qəbul elə” deyiblər. Kim nə desə... Onsuz da geriyə yolum yoxdu...

Vədələşdiyimiz vaxt Ehsan qızı Gülşənlə otağıma gəldilər. Doğrusu, qızının yanında onunla danışmaq istəmirdim. Prorektorları, dekanları, kafedra müdirlərini də söhbətə dəvət elədim. Onu da yaxşı bilirdim ki, bunlarla tək özüm danışsam, çox çəkməyəcək ki, arxamda nağara çalınacaq. Nə qədər gücü çatırsa, məni böhtanlayacaq. Başqa sözlə, şantajın növbəti mərhələsinə qədəm qoyacaq.





Gülşən özünü olduqca sərbəst aparır, əllərini arxasına qoyaraq otaqda var-gəl eləyirdi. Məcbur olub hamı əsəbi halda ona baxırdı. Ehsan əməkdaşları gözaltı nəzərdən keçirtdi:

— Eşidirəm sizi, Ağarəhim müəllim.

— Mənim sənə deyiləcək sözüm yoxdu. Mənimlə siz görüş istədiz. Mən də razılaşdım. İstərdim ki, Gülşən koridorda gözləsin.

Gülşən böyük əda ilə dedi:

— Xeyr!.. Mən heç hara getməyəcəm! Sözünü de, Ağarəhim.

Əməkdaşları təəccüb bürüdü. Mən sakit tərzdə dedim:

— Qızım, sən mənim nəvəm yaşdasan. Adımı deyirsən. Sənin sabahın var.

— Nə olsun? Yaşın nə fərqi var.

— Bilmirsən? Yaxşı, keç əyləş.

Mən ona söz demək fikrindən daşındım. Ehsan dilləndi:

— Universitetdə mənim qızım kimi neçə nəfərin kəsiri var?

Mən qəsdən şişirdilmə rəqəm dedim:

— Yetmişdən artıq.

— Onların hamısına qiymət yazacaqsan, təhsil haqqlarını özün ödəyəcəksən, diplomlarını verəcəksən. Onlara bir kəlmə də artıq-əskik söz deməyəcəksən.

— Bundan sonra əl çəkəcəksiz?

— Hə...

Əl telefonumla axşam mənə telefon açan səlahiyyət sahibinə zəng çalıb Ehsanın şərt və tələblərini ona çatdırdım və əlavə elədim:

— Ehsan söhbətimizi eşidir, istəyirsiz telefonu ona verim, siz də danışın.

Səlahiyyət sahibi əsəbi halda:

— Tüpürün üzünə, kabinetdən qovun getsin.

Bu sözləri Ehsan da eşitdi, sir-sifəti ağardı. O, handan-hana növbəti şərə keçdi:

— Mənim qızım buz kimi yorğan-döşəkdə yatır, sənsə isti kabinetdə oturmusan.

Gülşən atasının sözünü təsdiqlədi:

— Atam düz deyir. Mən yorğan-döşəyə soyuqdan soyunub girənmirəm.

Əsəbdən özünü saxlayanmayan dekan qadın soruşdu:

— Gülşən, universitet neyləməlidi?

— Mən nə bilim.

— Qanacağın olsun, atanın mərifəti yoxdu, heç olmasa, sənin ağlın olsun. Nə danışdığını bil.

Ehsan növbəti iftiranı atdı:

— Mənim qızıma qurşaqdan aşağı söyüblər.

Mən dərhal qəsdən üzümü yanımda əyləşən professora tutdum:

— Mən başa düşmürəm, professor, qurşaq nə olan şeydi?

Professor sakit tərzdə bildirdi:

— Yaxşı olar ki, o sözün mənasını Ehsan özü açsın.

Mən təkidlə Gülşəni otaqdan çıxartdım. Sonra Ehsandan soruşdum:

— Ehsan, deyirsən, qurşaqdan aşağı qızına söyülüb. İşə bir qədər aydıqlıq gətir. Qızının qurşağından aşağı, yoxsa, söyənin?

Ehsan deyəsən, danışığının mənasını yarı-yarımçıq da olsa, indi anladı. Mən sözümə davam elədim:

— Yaxşı, sizi bu işə kim vadar elədi?

— Öz dostlarınız. İnandığınız adamlar.

— Onlar kimdilər?

— Filankəs... Filankəs... Filankəs.

Gülümsündüm:

— Banda yaradıblar?.. Biri sənə özünü dağdan at desə, atacaqsan? Bəs sənin ağlın? Bəs sənin vicdanın, abrın, həyan?..

— Mən də belə axmağam.

— Qızını kim şərəfsiz, ləyaqətsiz elədi? Biz, yoxsa, özün?





Sənin kimi ata olmaqdansa... Məsuliyyətsiz ata övlada da gərək deyil. O, daim uşaqlarına xəcalət gətirər.

Beləcə Ehsanı da yola saldım. Həftənin sonunda Təhsil Nazirliyi tərəfindən beş nəfərdən ibarət xüsusi komissiya yaradıldı. Qəzetlərdə gedən faktlar, hər iki tələbənin yazı işləri, imtahan materialları yerindəcə yoxlanıldı və belə nəticəyə gəlindi: Bakı Qızlar Universitetində heç bir qanunsuz hərəkət olmamışdır. Şikayət məktublarında və qəzetlərdə yazılan faktlar universitetdə öz əksini tapmadı. Yazılanlar rektoru nüfuzdan salmağa yönəlmiş şər və böhtanlardır. Başqa sözlə, rektorun fəaliyyəti tamamilə ədalətlidir. Tələbələrin biliklərinin qiymətləndirilməsində qeyri-obyektivliyə yol verilməmişdir. Səhəri gün Gülşənlə Elzanın universitetin tələbələri sırasından azad olunması əmrini verdim.

Mənə elə gəldi ki, bununla da qəzetlərdəki qərəzli materiallara son qoyuldu. Sən demə yanılırammış.

Aradan bir neçə ay keçmiş qəzet yenə universitetdə rüşvət alınması məsələsini qabartdı. Birbaşa mənim ünvanıma: “Universitetin rektoru Ağarəhim müəllim dərsə gecikən tələbələrdən hər saniyə üçün əlli manat rüşvət alır” — qurama hökmü verildi.

Mən məqaləni oxuyub müxbir insafsızlığına, həyasızlığına mat-məəttəl qaldım. Hər saniyəyə görə əlli manat. İnsan nə qədər zalım, mürvətsiz, qudurğan olarmış, ilahi, — deyə düşündüm. Sonra da öz-özümə dedim: — İnsafı olmayanın ədaləti, haqqı, Allahı olarmı? Ondan vicdan, namus, şərəf, ləyaqət, mürvət gözləməyə dəyərmi? Xudaya, hər cür insanı, keyfiyyətdən məhrum olanı bəşər övladı adlandırmağa adamın dili gələrmi?... Mənə elə gəldi ki, bu qəzet əməkdaşlarının növbəti quramasıdı. Gicikmişliyidi. Doğrudu, mənim barəmdə bir neçə böhtan, şantaj, iftira xarakterli məqalə yazılmışdı. Etiraf eləyim ki, beləsini heç görməmişdim...

Aradan bir neçə gün geçdi. Kabinetimdə oturub yazı-pozumla məşğuluydum. Qapı açıldı, İlyar Vahabov içəri daxil oldu. Görüşdük. Hal-əhvaldan sonra o, gülə-gülə dedi:

— Gözünüz aydın, yenə yazıblar.

— Yenə şantaj, yenə böhtan!!! Qəzetin peşəsi yazmaqdı, qoy nə qədər istəyir, yazsın...

— Qəzet də yazıb? Mən ondan xəbərsizəm... Dörd tələbə nazirə şikayət məktubu yazıb.

— Zarafat eləyirsən?

İlyar gülərək:

— Nə zarafat? Ərizələrini gətirmişəm.

O, ərizə yazanların adlarını sadaladı: (adlar şərtidi) Qəmər, Tünzalə, Gülnar, Sevda.

İlyar ərizələri stolun üstünə qoydu. Mən bircə-bircə hamısını oxudum. Sonra təzəcə prorektor təyin olunan İradə xanımı, dekanları otağa dəvət edib məsələylə onları agah elədim. Matməəttəl üzümə baxdılar.

İradə xanım:

— O tələbələr təzəlikcən nazirliyin xüsusi məktubuyla Beynəlxalq Universitetdən bizim universitetə köçürülənlərdi. Onlar heç vaxt elə səhvə yol verməzlər. Bəlkə kimlərsə, onların adlarından istifadə eləyirlər?

Mən dərhal:

— Niyə yazmazlar?

— Çünki onların çoxlu fərq imtahanları vardı. Sizin qayğınız sayəsində onlara şərait yaratmışıq. Bu tələbələr və onların valideynləri yalnız sizə təşəkkür eləyə bilərlər.

İlyar gülərək rişxəndlə:

— Eləyiblər də.

Hamı gülüşdü.

Dekanlar bir ağızdan:

— Məktublar anonim olacaq.





— Eləysə, xahiş eləyirəm tələbələri kabinetimə dəvət eləyin, gəlsinlər. Birlikdə məsələni araşdıraq, İlyar müəllim də eşitsin.

Hamı mənim təklifimlə razılaşdı. Çox çəkmədi ki, tələbələr kabinetə gəldilər. Onlara: — Nazirliyə ərizə yazmısızmı? — dedikdə, qızlar sualdolu nəzərlərini bir-birilərinin üzlərinə dikdilər. Hər birinin sifəti bozardı. Bizə də əvvəl elə gəldi ki, qızlar da məsələdən tam xəbərsizdilər. Mən hər kəsin adından yazılan ərizəni qızlara payladım və oxumalarını tələb etdim.

Tələbələr oxudular. Məktubların dördündə də eyni fikirlər, eyni cümlələr və eyni sözlər təkrarlanırdı. “Ağarəhim müəllim dərsə gecikən tələbələrdən beş manat alır. Tələbələri təhqir eləyir. Onları imtahanlardan kəsdirməklə hədələyir. Bizi kəsir və qayıblarımıza görə gec-tez universitetdən qovduracaq”.

Mən qızlardan soruşdum:

— Axı qəzet yazır ki, mən hər saniyəyə görə əlli manat alıram.

Qızlar bir ağızdan:

— Xeyr, “hər saniyə” və “əlli” sözlərini qəzet şişirdib.

Qəmər çaşqın, bir az da əsəbi halda bildirdi:

— Müəllim, axı ərizə beş olmalıydı. Bizim dördümüzü bura gətirmisiz. Bəs Yetər? Bəs Yetərin ərizəsi hanı?

Hamımız təəccüblə bir-birimizin üzünə baxdıq. İlyar soruşdu:

— Qızlar, Yetər kimdi?

Tünzalə:

— Psixologiya ixtisasında oxuyan dördüncü kurs tələbəsi.

Çox keçmədi ki, Yetər də kabinetə gətirildi. Yetər özündə deyildi. Sir-sifəti bozarmışdı. Qorxudanmı, nədənmi bütün bədəni titrəyirdi. Mən onu sakitləşdirməyə başladım.

— Sakit ol, qorxma, Yetər. Rəfiqələrin deyirlər, sən də ərizə yazmısan. Ancaq sənin ərizən burda yoxdu. Bu tələbələr düzmü

deyirlər?

— Bəli yazmışam... Səhv eləmişəm.

Yetər ağladı. Çətinliklə özünə gəldi. Mən növbəti sualımı verdim.

— Bəs sənin ərizən hanı?

Sual cavabsız qaldı. Üzümü qızlara tutdum:

— Qızlar, mən sizdən rüşvət almışammı?

Qızların dördü də utana-utana:

— Xeyr.

— Sizi təhqir eləmişəmmi? Sizə hədə gəlmişəmmi?

Tələbələr çəkinə-çəkinə:

— Yox...

— Bəs onda niyə elə yazırsız? Mənə böhtan atırsız? Tələbə də müəllliminə böhtan atarmı?

Gülnar:

— Bizi Yetərin atası Nəsir öyrətdi. Özüylə bizi taksi maşınında nazirliyə apardı. Orada Nəsir diktə elədi, hamımız birlikdə — biz də, Yetər də — ərizə yazdıq. Özü də redaksiyaya zəng çalıb rüşvət aldığınızı və bizi təhqir etmənizi onlara çatdırdı.

Mən üzümü Yetərə tutub yenidən onun ərizə məsələsinə qayıtdım:

— Yetər, qızım, sənin ərizən hanı?

— Atamda. Biz ərizələri nazirliyin işçisinə verəndə atam mənim ərizəmi aradan çıxartdı.

— Atan düzmü hərəkət eləyib?

Yetər başını aşağı saldı. Bir kəlmə də söz demədi. Bizi təəccüb bürüdü.

Mən narazı halda dedim:

— Tərpədirsən, hər daşın altından bir ilan çıxır. Onun da arxasından bir əqrəb. Kimə nə deyəsən? Bir cəmiyyətdə ki rüşvət adi hala çevrilsin, tələbə ona həyat verən müəllliminə böhtan atsın, xeyirxahını şərləsin, daha o cəmiyyətdən nə gözləmək





olar? Hər kəsin öz dünyası və onu ölçəcək öz arşını var... Gedin dərsə...

Beləcə qızları kabinetdən yola saldım. Səhəri gün onların valideynləri universitetə gəldilər. Biz yenidən əyləşib valideyn və tələbələri dinlədik. Nəsir and-aman eləyir, elədiklərini boynundan atırdı. Məcbur olub antipedaqoji hərəkət olsa da, baş verən hadisəni tələbə qızlardan təkrarən soruşmalı olduq. Yetər atasının, digər tələbələr Nəsirin üzünə dayandılar. Əli hər tərəfdən qırılan Nəsir axır ki, həqiqəti danışmalı oldu:

— Əşşi, hamı səhv eləyə bilər. Bir işdi olub. Da olmaz. Qızımın yanında məni az qızardın, az çəh-çöhrə salın.

Sevdanın anası Mələk xanım özünü saxlayanmadı:

— Bu nə danışıqdı, əə. Sən öz uşağına cavabdehsən. Bizim uşaqları yolundan niyə sapdırırsan? Bu hadisəni eşidəndən özümdə deyiləm. Xəcalətimdən ölmüşəm. Bir Allah bilir ki, bura necə gəlmişəm. Universitet, müəllimlər bizə nə pislik eləyiblər?

Gülnarın atası Qiyas başını yelləyərək üzünü mənə tutdu:

— Ağarəhim müəllim, həyatda hamı yaşayır. Kimə nə deyəsən, atmaq olmur, kəsmək olmur. Ataların da bir misalı var: “Danışığını bilməyən, ölüsünü “bozdar” deyə çağırar...”.

Sevdanın atası Vasif dilləndi: — “Utanmasan, toyda oynamağa nə var?” Hər şeyin həddi var. Aqillər yaxşı deyib: “Heyvanı insan eləmək olmaz. Ancaq insandan heyvan eləmək asandı”. Ağarəhim müəllim, daha mənim danışmağa, nə vaxtsa bura gəlməyə də üzüm yoxdu. Mən yalnız öz övladımın bağışlanmasını sizdən xahiş eləyə bilərəm. Nəsirin tutduğu iş hər birimizə ibrət dərsidi. İstərdim bunu övladlarımız da dərk eləsin...

Bununla da söhbət qurtardı. Elə həmin gün ərizələrə münasibət bildirib nazirə ünvanladım.

“Cənab Nazir! Aydınlıq naminə bildiririk ki, filan tarixlərdə universitetin tələbələri Səfərova Yetər Nəsir qızı, Tağıyeva Qə-

mər Həsən qızı, Şeydayeva Gülnar Qiyas qızı, Göyüşova Tünzalə Məmməd qızı və Dibirova Sevda Vasif qızı ərizə ilə Sizə müraciət edərək nizam-intizam qaydalarını pozmaları, dərsə müntəzəm gecikmələri ilə əlaqədar onlardan beş manat məbləğində rüşvət alınmasını, müəssisənin rəhbərliyi tərəfindən təhqirə məruz qalmalarını və gec-tez universitetdən qovulmalarını göstərmişdilər. Məsələyə sizin əməkdaş İlyar Vahabovun iştirakı ilə aydınlıq gətirildi.

Xatırladaq ki, tələbələrin hər birinin davamedici fənlərdən bir neçə kəsirləri var. Belə olduğu halda onlar uyğun fənlər üzrə təcrübədə iştirak edə bilməyəcəklər. Çıxış yolu kimi həmin tələbələr nədənsə böhtan, şantaj yolu seçərək universitetə təsir göstərmək fikrinə düşmüşlər. Onu da qeyd edək ki, tələbələrə ərizələri yazmağa Səfərova Yetər Nəsir qızı və onun atası Səfərov Nəsir Müğdət oğlu təhrik etmişlər. Ərizələrdə göstərilən iradları tələbələr özləri böhtan və iftira olduğunu təsdiqləmişlər.

Səhəri gün onların valideynləri ilə söhbət aparıldı. Qızların etik normalara sığmayan böhtan və iftira xarakterli məlumatları valideynlərinin nəzərinə çatdırıldıqda onların hər biri övladının belə davranışına təəssüfləndiyini və utanc hiss keçirdiyini bildirdi...”.

***Hörmətlə:***
***A.N.Rəhimov***





## ÜRƏK VƏFASIZLIQ EDƏNDƏ VƏ YA KOVRƏK QƏLBİN TİTRƏYİŞLƏRİ:

## Nələr axtarırdım

**Dərd batmanla gələr, misqalla gedər.**
*Atalar sözü*

Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun ibtidai təlim şöbəsində aparılan tədqiqatların, proqram və dərsliklərin, pedaqoji ədəbiyyatın, dissertasiyaların oxunması və müzakirəsi, universitetdə (seminariyada) təlim-tərbiyə prosesinin qurulması, maddi bazanın yaradılması, texniki avadanlıqların alınması məni həddən artıq yormuşdu. Yeddinci il idi ki, məzuniyyətə çıxmırdım. Bu illər ərzində rahatlıq nədir, görməmişdim. Gecə-gündüz o işin, bu işin arxasınca qaçmaqda idim. Yaxşı yadımdadır. Universitetin binası üçün dəmir borular lazım idi. Çox fikirləşdim, günün axırında şəxsi maşınıma əyləşib Qızıl Qum adasındakı neft buruqlarında işləyən tanışımın yanına getdim. Neft quyularından çıxmış borulardan varsa, imkan daxilində Qızlar Universitetinə kömək etmələrini xahiş etdim.

Axşam qaş qaralanda şəhərə qayıtdım. Yolu necə azdığımı bilməmişdim... Gözdən, könüldən uzaq buruqlar arasında maşını o tərəfə-bu tərəfə sürürdüm. Yolumu tapa bilmirdim ki, bilmirdim. Yavaş-yavaş külək qalxır, özü ilə qara buludları da çəkib gətirirdi. Mənsə, tələsir, dolanbac torpaq yollardan tezliklə çıxmağa çalışırdım. Tələsdikcə də əsəbiləşir, əsəbiləşdikcə də yolları çaşır, dolaşıq salırdım. Maşının qabaq, yan şüşələrini yağış damcıları döyəclədi. Çox keçmədi ki, maşının gah arxa, gah da qabaq hissəsi qaçmağa başladı. Sonra da maşın öz sürətini dayandırmalı oldu. Artıq saat 24-ə

qalmışdı. Küləkli-yağışlı zülmət gecə idi. Tək-tənha olduğumdan qapıların şüşələrini qaldırdım, düymələrini basdım, işıqları söndürüb səhərə qədər neft buruqları arasında qalmalı oldum. Səhərə yaxın külək kəsməsə də yağış dayanmışdı. Hər tərəfdə su gölməçələnmişdi. Səhər açılanda məni heyrət bürüdü. Şəhərə gedəcəyim yolun kənarında ilişib qalmışdım. Maşından düşüb, ətrafa tökülmüş daş-kəsəkdən toplayıb, otəncərdən qırıb arxa təkərlərin altına yığdım. İrəli-geri bir neçə dəfə tərpətmişdim ki, maşın ilişdiyi yerdən çıxdı...

Səhər tezdən maşını qaraja salıb evə gəldim. Anam, yoldaşım, qızlarım hədsiz narahatlıq hissləri keçirdiklərindən onlar da yata bilməmişdilər. Axşam qarşılaşdığım hadisəni anama, ailə üzvlərinə demədən yatıb dincəlməli oldum. Günortaya yaxın yuxudan oyandım. Bərk yorğun və halsız idim. Yüngül nahar edib Nəsrəddin Tusi adına Pedaqoji Universitetə getdim. Üçüncü mərtbəyə qalxmışdım ki, ürəyim qəflətən, sanki iti ülgüclə iki yerdən çərtildi. Bu anda ürəyim sıxıldı. Nəfəsimi çox çətinliklə almağa başladım. Məni soyuq tər bürüdü. Özümü ələ almağa çalışdım. Yavaş-yavaş pilləkənə tərəf yaxınlaşdım. Tanışlarla qarşılaşmamaq üçün Allaha yalvarırdım. Bəxtimdən heç kəslə üzləşmədim. Çox ehtiyatla pilləkənləri enib küçəyə çıxdım. Yaxınlıqdakı aptekdən validol alıb dilimin altına qoydum. Oradan da poliklinikaya getdim. İçəri çətinliklə də olsa keçib kardioloq həkimi soruşdum. Sən demə, qarşılaşdığım kardioloq həkimin özü imiş. O, mənim qolumdan tutub otağına apardı. Dərhal müayinəyə başladı. Sonra da üzümə baxıb: — Bura kiminlə gəlmisən? — deyə soruşdu.

— Tək, — deyə cavab verdim.

O, çox sakit tərzdə dedi:

— Səni Elmi-Tədqiqat Kardiologiya İnstitutuna göndərəcəyik. Get, orada müalicə olun. Sənə hərəkət eləmək, əsəbiləşmək olmaz. Həkimin nəzarəti altında olmaq gərəkdir.





Xəstəxanaya getmək istəmirdim. Həkimsə təkid edirdi. Elə bu vaxt bəstəboy, sarışın, gülərüz tibb bacısı otağa daxil oldu. Mənə iki həb qəbul etdirdilər, bir iynə də vurdular:

— Maşın hazırdır, — deyə məni tibbi yardım maşınına minməyə məcbur etdilər. Yarım saat keçməmişdi ki, həmin tibb bacısı maşınla məni Elmi-Tədqiqat Kardiologiya İnstitutuna gətirdi. Paltarlarımı dəyişdirib ikinci mərtəbədəki altı nömrəli palatada yerləşdirdilər.

35-40 yaşlı həkim nəbzimi yoxladı, təzyiqimi ölçdü, kardioqramı çıxardı. Sonra da ilkin yardıma başladı. Hər dəfə də deyirdi:

— Qorxma, həyəcanlanma, qorxulu bir şey yoxdur. Hər şey öz qaydasında olacaq. Ancaq sənə kəskin hərəkətlər eləmək olmaz. Hələlik gəzməyi də bir qədər təxirə salmaq lazımdır.

Həkimin göstərişlərinə tam əməl edirdim. Ancaq mənim xəstəxanaya düşməyimdən heç kimin: nə işdəkilərin, nə də evdəkilərin xəbəri vardı. Evin telefon nömrəsini tibb bacısına verərək xahiş etdim ki, ailə üzvlərimə vəziyyətimi bildirsin.

Çox keçmədi ki, tibb bacısı palataya qayıdaraq: — Ev telefonunuz işləmir, başqa nömrə varmı? — deyə bildirdi. Mən əlacsız qalıb seminariyanın telefon nömrəsini verdim. Heç bir saat keçməmişdi ki, prorektor Nazim Abbasov, baş mühasib Cavanşir Təhməzov, bir də İmişli Orta İxtisas Kollecinin direktoru, dostum Savab Cabbarlı palataya gəldilər. Onlarla söhbətə başlamışdım ki, qızlarım Sevinclə Dinar da özlərini yetirdilər. Qızlarımın göz yaşları məni bir qədər həyəcanlandırdı, kövrəltdi. Elə bu vaxt həkim palataya gəldi:

— Belə olmaz, tək-tək gəlin, çalışın xəstənin rahatlığını pozmayasınız.

Sonra da üzünü mənə tutub:

— Şərtlərimizə əməl edin, — dedi.

On ikinci gün idi. Natiq həkim məni yenidən yoxlamadan keçirdikdən sonra bildirdi:

— İndi az-az, yavaş-yavaş gəzməyə icazə verilir.

Əvvəl dəhlizdə, sonra da həyətdəki şam, küknar ağaclarının arasında gəzir, rahat nəfəs ala bilirdim. Hər gün yanıma onlarla tanışlarım, yaxın-uzaq qohumlarım gəlir, vəziyyətimi öyrənirdilər.

Tələbə qızlarımın diqqəti məni lap kövrəltdi. Bu gənc qızların mənəvi atalarına, müəllimlərinə olan istəyini indi də unuda bilmirəm. Xudaya, onların açıq və kövrək qəlbi, gözlərinin dərinliyində oxunan mərhəmət hissi nə qədər doğma, nə qədər əziz, nə qədər səmimi idi?!

Qızım Sevincin qrup yoldaşı Nuridənin ayrılarkən qəflətən üzümdən öpüb ağlaması məni də kövrəltdi, məni də sarsıtdı. Tələbələrimin bu qədər istəklisi olduğumu heç cür təsəvvür edə bilmirdim.

Cavan olsa da, Natiq həkimin təcrübəsi, istedadı və xəstələrə qayğısı məni ona çox yaxınlaşdırmışdı. Artıq onu həkim kimi yox, dost kimi, doğma qardaş kimi sevməyə başlamışdım. Xəstəxanadan çıxanda o, demişdi:

— Qardaşım, çalışaq, başqa yerlərdə görüşək. Yalvarıram, elə et ki, bir də buralarda görüşməyək. Sənə xəstəlik yaraşmır...

— Çalışaram, — deyə əl verib ondan ayrıldım. Evə gələndə gücünü itirmiş anam göz yaşları ilə məni qarşıladı, üz-gözümdən öpüb, Allah-Təalanın dərgahına üz tutaraq: — “Şükür sənə, İlahi!” — dedi.

Son zamanlar müalicə olunsam da, özümü yaxşı hiss etmirdim. Ümumi yorğunluq, əzginlik məni əldən salmışdı. Tez-tez gah hərarətim qalxır, gah da düşürdü. Bununsa səbəbini işin çoxluğunda və soyuqdəymədə axtarırdım.

Axşamdan xeyli keçmişdi, televizora baxırdım. Qəflətən





kürəyimdə kəskin ağrılar yaranmağa başladı. Əvvəlcə: — İndi ötər, bir azdan ötər, — deyə düşündüm. Bir-iki ağrıkəsici dərman qəbul etdim. Ağrı isə dayanmaq bilmirdi. Çarpayıya uzandım. Bir an içərisində kürəkdəki ağrı özünü sinəmdə göstərdi. Ağrının təsirindən sinəm gah dartılır, gah da sıxılırdı. Getdikcə vəziyyətim kəskinləşirdi. Bu anda atamın xəstələndiyi o müdhiş gecəni, əvvəlcə onun kürəyində başlanan, sonra da ürəyinə vuran ağrıları xatırladım... Tez qızlarım Sevincə, Dinara qələm-dəftər götürməyi tapşırdım. Arzu və istəklərimi, vəsiyyət və nəsihətlərimi yazdırdım. Yazdıqca da qızlarım göz yaşları axıdırdılar.

Xanımım təcili tibbi yardım maşını üçün nə qədər zəng çalsa da, alınmadı. Artıq gecə yarıdan keçirdi. Hamı şirin yuxuda idi. Heç kim heç kimi gecənin bu vaxtında narahat etmək istəməzdi. Əlacsız qalan Mənsurə xanım qonşu Elmanı və onun ömür-gün yoldaşı Aytəkin xanımı çağırmalı oldu. Onlar tələm-tələsik, bərk həyəcan içərisində gəldilər. Vəziyyətimin kəskinliyini görən Elman şəxsi maşınında həkim dalınca getdi. Yarım saat keçmədi ki, təcili tibbi yardımda 35-40 yaşlarında iki qadın həkim gəldi. Mənə yardım göstərildi. Bir neçə həb qəbul etdim. Qol damarımdan və bud nahiyəsindən iynə vurdular. Ağrı ara verdikcə tər məni bürüyürdü. Onlar yatıb dincəlməyi məsləhət gördülər. Səhər ağrılarım yenə baş qaldırmaqda idi. Elmandan xahiş etdim ki, məni Kardioloji İnstituta aparsın.

Çətinliklə ayağa qalxıb geyindim. Həyat yoldaşımın, qızlarımın köməyi ilə maşına əyləşdim. Xəstəxanada iş vaxtının başlanmasına bir qədər qalsa da Natiq həkim palatalarda xəstələrə baş çəkir, onların vəziyyətlərini öyrənirdi. Tanış tibb bacısı məni görən kimi Natiq həkimi çağırdı. Natiq əvvəlcə məni dərindən müayinə etsə də, bir şey olmamış kimi əhvalımı xəbər aldı:

— Heç xəstəyə oxşamırsan, — deyə o, təzyiqimi ölçməyə tələsdi.

— Normadadır, normadadır, — deyə ürəyimin kardioqrammasını çıxarmağa başladı.

— Hə, yaxşı gəlmisən, yatıb müalicə olunarsan! — dedi və otaqdan çıxdı. Çox keçməmiş 55-60 yaşlı bir həkimlə qayıtdı. Yenidən müayinə başlandı. Sonra Natiq həkim dedi:

— Qardaşım, sənə tərpənmək olmaz. Maşına əyləşib gəlməkdə səhv etmisən. Mənim ki, telefon nömrəm səndə var. Gərək zəng vuraydılar. Mən özüm gələrdim. Artıq gecdir. Məzəmmət vaxtı deyil...

Məni bir nəfərlik palatada yerləşdirdilər. Ətrafdakılardan təcrid olundum. Getdikcə ürəyimin ağrıları da artırdı. Yanımda daimi bir tibb bacısı, bir nəfər də həkim qalırdı. Hər iki saatdan bir mənə iynə vurulur, həblər qəbul etdirilirdi. Həkimlərin böyük qayğısını duyurdum. Xəstəxanaya özüm gəlsəm də, bir həftə sonra məni palatadan palataya arabacıqda keçirtdilər. Bu palataya üç çarpayı qoyulsa da, orada təkcə mən qalmalı oldum. Sən demə, ürəyimdə çat yaranıbmış. Məndən analiz götürdülər. Günortaya yaxın ağ xalatlı tibb bacısı palataya daxil oldu. Onun gözəl qəddi-qaməti, sarışın saçı, qara gözləri dolu sifətinə çox yaraşırdı. İncə və məlahətli səsli bu xanım çaşqın halda:

— Ağarəhim müəllimin şəkəri 400-ə qalxıb.

Natiq həkim də mənim palatamda idi. Gözlənilməz xəbər onu bərk diksindirdi. Əsəbi halda:

— Ola bilməz, analiz səhv göstərib, — deyə otaqdan çıxdı.

Dərhal məni də heyrət bürüdü: “Şəkər məni hardan tapmışdı. O, necə qalxmışdı ki, özümdə şəkər olduğunu duymamışam?” Hey fikirləşirdim. Narahatlığım, özümdən asılı olmayaraq artırdı. Bu vaxt Natiq həkim yenidən palataya gələrək, dedi:





— Belə səhvlər tez-tez olur. Sənin də analizində səhvə yol verilib. Həkimlərdən xahiş etmişəm. Səhər bir də analiz götürsünlər. Şəkər heç vaxt 400-ə qalxa bilməz. Ertəsi gün məndən yenidən analiz götürdülər. Ancaq bu dəfə analizin cavabını mənə yox, Natiq həkimə vermişdilər. O, günortaya yaxın palataya gəldi. Hal-əhval tutduqdan sonra dedi:

— Şəkər üçün verdiyiniz analizin cavabını almışam. Elə bir qorxulu şey yoxdur. Gərək pəhrizi də gözləyək...

Natiq həkim şəkərin miqdarı haqqında bir söz deməsə də, onun keçirdiyi həyəcanı, təşvişi duyurdum. Onun əzab-əziyyətləri artmışdı. Həkim iki gecə xəstəxanada növbətçi qaldı. Mən əvvəlcə bunun səbəbini bilmədim. Sonralar öyrəndim ki, həmin gecələri yalnız mənim taleyim üçün narahatlıq keçirərək xəstəxananı tərk etməyibmiş...

Heç vaxt unuda bilmərəm... Xəstəxanadan salamat çıxacağıma ümid çox azmış. Həkim də, anam da, qohum-əqrabam da, dostlarım da bərk həyəcan keçirirdilər. Mənim yanımda qızım Dinarın ömür-gün yoldaşı Qasım qalırdı. Neçə gün idi ki, o da yatmırdı.

## Ömrün dolanbacları

**Nədən qaçsan, ona düçar olarsan.**
***Atalar sözü***

Bir neçə gün idi ki, şəkər də qaydasına düşürdü. Natiq hər gün üç-dörd dəfə mən yatan palataya gəlir, hal-əhval tutur, vəziyyətimdə baş verə biləcək dəyişmələri izləyirdi.

İş yoldaşlarım, dostlarım, tanışlarım yanıma gəlir, məzhəkəli söhbətlərlə başımı qatırdılar...

Günortaya yaxın qızım Sevinc yanıma gəldi. Evdən gətirdiyi yeməkləri, tərəvəzi, göy-göyərtini, meyvələri yerbəyer etdikdən sonra dedi:

— Ata, səhər evə Bakı Şəhər İcra Hakimiyyətindən zəng çalıb bildirdilər ki, Murtuza Muxtarov küçəsindəki 50 saylı bina Bakı Qızlar Universitetinə verilmişdir. Yaxşı olar ki, bir nəfər gəlib sərəncamı götürsün.

Həmin gün prorektor Nazim Abbasov sərəncamı Bakı şəhər İcra hakimiyyətindən qəbul etdi. Bir gün sonra axşam televiziyanın "Xəbərlər" proqramında Bakı Qızlar Universitetinin dövlət qeydiyyatından keçməsi haqqında Nazirlər Kabinetinin qərarı efirə yayıldı. Mən Nazim müəllimdən xahiş etdim ki, təbrik üçün professor-müəllim heyətini və tələbələrin birgə yığıncağını keçirsinlər. Toplanışı yüksək səviyyədə təşkil edən Nazim müəllim xəstəxanaya arxamca maşın göndərərək iştirakımı xahiş edirdi.

Xəstəxanadan çıxıb birbaşa toplanışa gəldim. Mənim gəlişim müəllimlərdə də, tələbələrdə də yüksək əhvali-ruhiyyə yaratdı. Fikrimi çox qısa və yığcam qurmağa çalışdım. Sonra sözü başqalarına verdim.

Həmin vaxtdan özümü yaxşı hiss etdiyimdən bir daha xəstəxanaya qayıtmadım. Universitetdə "Tibbi biliklərin əsasları" fənnindən mühazirələr oxunduğundan Natiq həkimlə görüşümüz bir daha universitetdə oldu...

Natiqlə tanışlığımız tez bir zamanda dostluğa çevrildi. Səhhətim üçün onun daim narahatlıq keçirdiyini duyurdum. Demək olar ki, hər gün bir-birimizlə əlaqələr yaradardıq. O, isə vaxt-bivaxt başım ağrıyanda belə mənə yardımını əsirgəməzdi. Diqqəti həmişə məni usandırırdı. İndi də o günləri xatırlayanda, Natiqin zəhmətini yada salanda dəhşətə gəlirəm. Öz-özümə hərdən suallar da verirəm: — İnsanda başqasına bu qədər diqqət, bu qədər yanğı hardandı, İlahi?!





O vaxtdan xeyli keçdi. Hər şey qaydasına düşdü. Özüm də möhkəmlənmişdim. Elə güman eləyirdim ki, daha xəstəlik mənə yaxın gəlməz. Ağrılı-acılı anlarım arxada qaldı. Atalar deyir: "Sən saydığını say, gör fələk nə sayır". 2004-cü il iyun ayının 25-i. Saat $24^{00}$. Bilgəhdəki bağ evi. Gözlənilmədən kürəyimi kəskin ağrı bürüdü. Maşına əyləşib Kardiologiya İnstitutuna gəldim. Müayinədən keçirildim. Kardioqramma çıxarıldı. İnfarkt olduğum aşkarlandı. Yenidən Natiqi əzlablara düçar elədim. İynələr, həblər, təsəlli verici sözlər. Qorxulu yuxular. Nələr, nələr… Hansını deyəsən? Uşaqlarımı yerbəyer eləyə bilmişdim. Hamısı təhsil almışdı. İşləyirdi. Təkcə nigarançılığım nəvələrimdən idi. Onların təhsilləri. Gələcək həyatları. Məni yandırıb-yaxan övladlarımın nigaran, həsrətli baxışlarıydı. Onu da güman eləyirəm ki, bu hisslər bütün xəstələrə məxsusdu. Qəribəydi. Vəziyyətim ağır olsa da, "məni o zaman fani dünyada qonaq güman eləsələr də" məndə yaşamaq eşqi olduqca yüksək idi. Özümdə ölümün psixoloji təsirini qətiyyən duymurdum. Başqa sözlə, dünyamı dəyişməyə adi hal kimi baxırdım. Elə bilirdim ki, ölüm bir otaqdan digərinə keçmək kimi bir şeydir. Ömrüm boyu özümdə heç vaxt belə hal duymamışdım. Mən bu halımı Natiqə çatdıranda o, üzümə baxıb gülümsündü, ancaq heç bir söz demədi. Nə az-nə çox, düz 34 gün yataqda uzanaqlı qaldım. Sonra həkim mənə otaq şəraitində gəzməyə izin verdi… Beləliklə, Natiq Tanrının hökmü ilə sonrakı yaşamımın səbəbkarına çevrildi...

## Qara yellərin əsməcəsi

**Dost yolunda boran olar, qar olar**
***Qurbani***

Həyat getdikcə öz axarına düşürdü. Ağrı-acılardan demək olar ki, uzağıydım. Ancaq buna baxmayaraq, tez-tez Natiqə baş çəkir, özümü daim nəzarətdə saxlayır, orqanizmimdə baş verə biləcək dəyişmələrdən hali olmağa çalışırdım. Düşünürdüm ki, iki dəfə vəfasızlıq eləyən ürək bir də məni yığışdırsa, sınağa çəksə, çox güman ki, ömrümü yarımçıq qoyacaq. Öz dünyamdan qoparıb məni oğul-uşağın həsrətinə çevirəcək.

Hər il Yesentukiyə, Kislovodskiyə, Yurmalaya, Truskovesə, Bilgəhə gedib istirahətimi qurmağa çalışırdım. Ağlıma da gəlməzdi ki, hardan əsməsi bilinməyən növbəti qara yellər, qəfil qada bu dəfə dostum, qardaşım, xilaskarım Natiqin ətrafında cövlan eləyəcək... Açığını deyim ki, on beş illik dostluq Natiqi də Mən eləmişdi. Onu özüm sanırdım. Dərdi dərdim, sevinci sevincimiydi. Məni qınamayın, hardasa düşüncələrimiz də bəzən eyniləşirdi... Belə olmasaydı, söhbətlərimiz tutmasaydı, yəqin ki, dost da ola bilməzdik… Eh... nə düşünürsən, nə baş verir?.. Rüzgar bəzən səni ağlagəlməyən elə şeylərlə qarşılaşdırır, özün də ona məəttəl qalırsan. Üzünü hara tutub gedəcəyini bilmirsən... Matın-qutun quruyur. Çıxış yolları axtarırsan. Ancaq tapanmırsan. Əlin-qolun hər tərəfdən üzülür. Ümidlərin qırılır, boşa çıxır. Bircə onu düşünürsən: rüzgarın taleyimlə oynadığı bu oyun, başıma açdığı bu fəlakət məni haradan tapdı? Mən buna layiqiydimmi? Mən neyləmişdim ki, Tanrım bunu da yoluma çıxartdı? El arasında belə məsəl var: "Qismətində nə var, onu da görəcəksən". Yersiz atılıb-düşməyin, dağa-daşa dırmanmağın, dərəyə enməyin nə mənası? Bu və buna bənzər düşüncələr axarında çox zaman taleyindən gileylənirsən, Yaradanından imdad diləyirsən, o da haraya çatmayanda ümidsizləşib öz yolundan sapırsan... Əlacın kəsilir, kor-peşman olub özünə qayıdırsan. Yalnız onda ağlının bütün güc və qüdrətini toplayıb həyatının əvvəlki axarına qayıtmağa can atırsan. Əzmkarlığına baxmayaraq, ona nail olanmayanda yenə sarsılırsan, yenə qüdrətin, hünərin tükənir, özünə də, ətrafındakılara də inamında çatlar yaranır. Yenə əlacın kəsilir. Yenə təkcə İlahiyə üz tutursan... Yenə... Yenə... Yenələr səndən ixtiyarsız, səni gözləmədən, səni gəyişmədən hara gəldi, baş alıb gedir...

2007-ci ilin avqust ayının birinci ongünlüyüydü. Xaçmazın Niyazobad kəndində hərbi qulluq keçən oğlum Cavidanla — komandirdən görüş üçün icazə alıb — Çobanbulaq istirahət mərkəzində dincəlməyə getmişdik. İstirahət zonasından kənarda adamı təngişdirən, təsəvvürolunmaz isti. Allahın bu yerlərdən səxavətini əsirgəmədiyi təbiət. Ətraf kol-koslu sıx meşə. Başı göylər dələn yamyaşıl nəhəng palıd, çətirlənən fısdıq, qol-budaqlı qarağac, müdam yarpaqları pıçıldaşan çinar, salxım çiçəklərinin ətri aləmi bürüyən yasəmən ağacları, al-əlvan güllər-çiçəklər... Yanlarından şırhaşırla axıb keçən çay. Çayın üzərində qurulan səliqə-sahmanlı eyvan. Bir-birindən beş-on metr aralıda qoyulan stollar, ətrafına düzülən stullar. Lap aşağıda, göz yaşı kimi dumduru hovuz. Gah o tərəf-bu tərəfə asta-asta üzən, gah da başının üstünü almaqda olan böyük təhlükədən cəsarətsiz, hürkək quşlar kimi, heç nədən diksinərək çırpınıb şappıltı salan irili-xırdalı balıqlar. Bir də lələkləri vurularaq uçmaq imkanları əllərindən alınan ağappaq, uzun qıçları qırmızıya çalan, şiş uzun dimdikli, məhbus qu quşları... Ağzından od püskürən günəş nə qədər çarpışsa da, burdakı sərinliyə müdaxilə eləyə bilmirdi. Dincəldikcə adam dincəlmək istəyirdi. Az əvvəl gəldiyimizdən burdakı sərinlik üstümüzə sanki su səpmişdi. Sərməst olmuşduq. Əyləşdiyimiz stullardan qalxmaq istəmirdik. İnsan əlləri ilə

yaradılmış şərait, istirahət edənlərin şən əhval-ruhiyyəsi, sakitlik, balaca, alabəzək quşların ruh yüksəldən, qəlbləri riqqətə gətirən möcüzəli nəğmələri, şux çinar yarpaqlarının pıçıltıları bizə tamam başqa bir aləmi yaşadırdı. Gözlənilmədən oğlum dedi:

— Ata, bura nə gözəl yerdi?! Şəhər çox istidi. Maşınlar da ki havanı... Natiq həkimi də gərək özünlə gətirəydin. O da gəlib ikicə gün də olsa, bizimlə burda dincələydi.

— Eh… Natiq də qəribə adamdı, oğlum, elə bilirsən sözə baxandı? Mən elə adam görməmişəm. Heç özünə baxmır. Dünya malında gözü olmayan bu adamı qınayan olmasa, gecə də xəstələrinin yanında yatıb qalar... İşinə çox məsuliyyətlidi. Olduqca xeyirxah, ləyaqətini saxlayan adamdı...

— Ona görə də hamı ona hörmət eləyir.

— Böyük rus yazıçısı Kojevnikovun belə bir sözü var, oğlum: "Vərdiş əkərsən, tale biçərsən". O da taleyini belə biçib.

Elə bu vaxt xidmətçi bizim sifarişlərimizi süfrəyə gətirdi. — Nuş olsun! — deyib getdi. Bir-iki tikə kəsmişdik ki, telefonuma zəng gəldi. Telefonu açıb: — Eşidirəm, — dedim. Danışanı səsindən dərhal tanıdım. Natiqin xanımı Gülnarəydi. O, çox həyəcanlıydı. Vahimə, təlaş içərisində boğulduğunu duydum. Vacib sözü ola biləcəyini düşünüb və diqqətimin yayınmaması üçün tez ayağa qalxaraq stoldan uzaqlaşdım. Gülnarə xanım çətinliklə özünə gəlib qırıq-qırıq səslə soruşdu:

— Ağa-rə-him mü-əl-lim-di?

— Bəli, eşidirəm sizi, Gülnarə xanım.

— Bilir-siz... Bi-lir-siz...

— Nəyi?

— Natiq xəstələnib. Onu Moskvaya aparmaq lazımdı. Gecə uçağa bilet götürmüşük. Natiq səni arzulayır.

Elə bil üstümə qaynar su səpildi. Bədənimi od-alov bürüdü. Əvvəl-əvvəl tutuldum. Nə deyəcəyimi bilmədim. Handan-hana





özümə gəlib soruşdum:

— Necə yəni Natiq xəstələnib?.. O ki sağlam adamdı.

— Biz də elə bilirdik. Sən demə....

— Axı xəstəliyi nədi?

— Analizləri göstərir ki...

Onu hıçqırıq dolu ağlamaq tutdu. Telefon kəsildi. Mən bir neçə dəfə nömrələri yığdım. Çətinliklə telefonuna düşdüm. Gülnarə xanım təngimiş halda cavab verdi:

— Qan xərçəngidi. Ağ qan cisimcikləri qırmızı qan cisimciklərini yeyir.

Mütəəssir oldum. Ona "hə", "hə"dən savayı heç nə deyənmədim. Çox güman ki, keçirdiyim bu ağır, zəhlətökən, acı hissləri telefonda Gülnarə də duydu. Fikirləşməm, özümə gəlməm üçün o, səsinə qəsdən ara verdi. Özümü ələ alıb dedim:

— Mən şəhərdən kənarda — Cavidanın yanındayam. Sürücünü də Bakıya bir saat olar ki, yola salmışam... Narahat olmasın... De, yol maşınıyla da olsa, qayıdaram. Çalışıb iki saata şəhərdə olacam.

O, daha mənə heç bir söz demədi. Telefon yenidən kəsildi. Mən süfrə başına qayıtdım. Cavidan əsəbiliyimi başa düşdü:

— Kimlə danışırdın? Nə baş verib? Halın tamam dəyişdi.

Mən vəziyyəti açıqlayanda Cavidan əvvəl süst qaldı, handan-hana dedi:

— Bu çox pis... Qəribədi, pis xəstəliklər çox zaman yaxşı adamları tutur... Acsan, ata, naharını elə... Şəkərin var…

Nə qədər çalışsam da, çörək boğazımdan keçmirdi. Tikələr boğazımda ilişirdi. Elə bil yeməyin dadı-tamı da qəhətə çıxmışdı. Keçirdiyim hisslər əməlli-başlı Cavidana da təsir eləmişdi. O, sakit tərzdə əlavə elədi:

— Bəlkə maşını geri çağıraq? Bu istidə yol maşınında getmək sənin üçün çətin olar. Mən hərbi düşərgəyə qayıdım. Olan olub. İki saat tez, iki saat gec. Tələsmək fayda verməz. Həkim

deyilsən ki, bir iş görəsən...

Bir stəkan su içib astadan bildirdim:

— Maşını geri çağırmaq keçdi... Bu gecəni birlikdə qalmaq bizə nəsib olmadı... Nə isə... Belə qismətmiş...

Biz təəssüf hissi keçirə-keçirə, tələm-tələsik nahar elədik. Sifarişlərin pulunu verib ayağa qalxdıq.

Cavidanla hərbi düşərgənin qapısı ağzında öpüşüb-görüşüb ayrılırdıq ki, xarici markalı qara avtomobil beş addımlığımda dayandı. İçəridən bir kişi, iki qadın düşdü. Başa düşdüm ki, sürücü o adamları düşərgəyə — övladlarıyla görüşə gətirib və geri qayıdacaq. Mən dərhal maşina yaxınlaşdım:

— Məni avtobus dayanacağına apararsızmı?

Sürücü dedi:

— Əyləşin.

Maşının arxa salonunda oturdum. Sürücü soruşdu:

— Bakıya gedirsiz?

— Bəli!.. Oğlumla görüşə gəlmişdim. Nəsə alınmadı. Tez qayıdası oldum.

— Mən də şəhərə qayıdıram. İstəsən birlikdə gedərik.

— Çox yaxşı...

Sürücü tez qayıtmağımın səbəbini soruşmadı. Əslində bu, onun üçün maraq doğurmurdu da. Bir qədər gəlmişdim, başımı maşının arxa söykənəcəyinə söykəyib gözlərimi yumdum. Nə qədər çalışsam da, yata bilmədim. Natiqlə ilk tanışlığımız, bizi bir-birimizə yaxınlaşdıran anlar, mənə təmənnasız qayğıları, Bilgəh əhvalatları, ailələrimizin dostluğu, ad günlərində, toy şənliklərində birgə deyib-gülmələrimiz, məni iki dəfə infarkt xəstəliyindən qaldırması, nələr… nələr gəlib durdu gözlərimin önündə. İçimdə doğan əcaib-qəraib düşüncələr məni özünə çəkdi: kamil və mərifət sahibi olan insan təbiətin özü qədər əlvan və cazibədardı. Düşüncələri aydın və gözəldi, ətirlidi. Saf və şəffaflıqda bulaq suyunu xatırladır. Dəniz incisi tək parlaqdı, təravətlidi. Nəsrin çiçəklərini andırır... Gülnarə xanım necə dedi: Qan xərçəngi? Timsah çənəsi kimi nə qədər zəhmli anılır, o zəhrimar?! Hardan tapdı bu, Natiqi?! Nə qədər güclüydü Natiqdə yaşamaq eşqi?! Belələrinin xəyalında ən güclü, heyrətamiz nəqqaşlar belə baş verən və hərəkətdə olan nəqşi canlandıra bilməzlər. İnsanı düşündürən, danışdıran və dilə gətirən qəmdi, kədərdi. İçini göynədən zərif duyğulardı... Bilirəm, insan ilahi varlıq səviyyəsinə qalxmağa can atan məxluqdu. İddialıdı. O, özünü daim əzəmətli, möhtəşəm sanır. Zəkası və gözəlliyi ilə öyünür. Natiq nə qədər təbiətən güclü, ruhən saf olsaydı da, bəzi boşboğazlar kimi misilsiz gövhərlikdən, hüsn və lətafətdən dilinə söz gətirməzdi.

Əqidə və məslək birliyi və onun uğrunda mübarizə Natiqin həyat kredosuydu. Deyirlər, gözəllik və cazibədarlıq insanı bütövləşdirir. Qönçələşdirir. Onun bəsirət gözlərini açır. Başqalarının görə bilmədiklərini o görür. Özgənin ağlına gətirənmədiyinin obrazını o, təfəkküründə canlandırır. Özlüyündə əfsanələr yaradır. Bir gün o əfsanələr, xəyallar nə vaxtsa reallığa çevrilir... Kaş o gün olaydı, eşidəydik bu qorxunc xəstəliklərin də qarşısını dayandıracaq kəşflər olunub. Müalicəyə başlanıb...

Bakıya çata-çatda sürücü dilləndi:

— Qardaş, deyəsən yorğunsan, yaxşıca yatıb dincəldin.

— Eh… Nə dincəlmək. Sadəcə gözlərimi yummuşdum.

— Dinib danışmırsan, düşündüm, narahat eləməyim. Bu istidə maşın sürmək olmur. Heç olmasa, söhbət eləsəydin, yola körpü atmış olardıq. Deyəsən, qaradinməz, danışmağı sevməyən adamsız.

— Ola bilər.

Daha nə o mənə söz dedi, nə də mən ona. Sürücü yol xərcini almadan mənlə xüdahafizləşdi.

Mən maşından düşəndə günəş qüruba çəkilirdi. Günortadan əsməyə başlayan xəzri adamın boyun-boğazını yalayır, bütün

günü adamı təntidən istini yavaş-yavaş tağımından salırdı... Natiqlə qapı ağzında qarşılaşdıq. Məni görcək üzündə zərif bir təbəssüm yarandı. Qucaqlaşdıq, öpüşüb-görüşdük. O, sanki bir həftə əvvəl gördüyüm sağlam cüssəli, gülərüz Natiq deyildi. Sir-sifəti tamam ağarmışdı. Zəifləmiş səsi elə bil quyunun dibindən gəlirdi. Adam necə də birdən-birə dəyişərmiş, — deyə zəhərdən də acı, zəhlətökən bir düşüncə məni qamarladı. Bir an susdum... Handan-hana onun gözlərinin içinə baxdım. Gözlərindəki parıltıdan əsər-əlamət qalmamışdı. Kövrəlib ona təsir eləyə biləcəyimdən ehtiyat etdim... Biz otağa keçdik.

O, soruşdu:

— Nə yaxşı gəlmisən? Səhərdən səni arzulayırdım. Ürəyin şıltaqlıq eləmir ki?

— Elə-belə. Gəldim, görüm necəsən? Uşaqlardan hal-əhval tutum. Qaldı ürəyə, nə qədər şıltaqlıq eləsə də, atılıb düşsə də, inanıram ki, sən onu cilovlayacaqsan.

— Uşaqlar yaxşıdı, bir az mən işləri korlamışam... Mən heç vaxt xəstələnməmişdim. İndi görürəm...

— Xəstəlik səni qorxutmasın. İndi xəstələnməyən adam varmı? Kimə yaxınlaşırsansa, elə bil dərdi açılır.

Natiq bir an üzümə baxdı. Gözlərimiz təkrarən bir-birinə dikildi. O, tez də gözlərimdən gözlərini yayındırmağa çalışdı. Baxışlarında böyük nigarançılıq, hardasa, ümidsizlik duydum. Üzündə ötərgi, zərif bir təbəssüm yarandı. Özünü nə qədər təmkinli göstərməyə, kövrəldiyini büruzə verməməyə çalışsa da, səsində bir titrəyiş duydum. O, astadan, aramla dedi:

— Həyat sürprizlərlə doludur, dostum. Hərə öz taleyini yaşayır. Heç kəs nəylə qarşılaşacağını əvvəlcədən ağlına gətirmir. Atılıb-düşməyin mənası yoxmuş... Qismətimizlə barışmalıyıq... Çox şeydən xəbərdaram... Axı mən həkiməm... Gələn getməlidi. Məni nigaran qoyan, yandıran iki şeydi: azyaşlı qızlarımın, bir də Gülnarənin taleyi. Qızlarım böyük olsaydılar... Həyat mürəkkəb, onlarsa uşaq. Dünya da ki dumana-çənə bürünən bir ümman... Bəlkə də bir əjdaha. Onlar bu ümmandan necə baş çıxaracaqlar? Əjdahadan necə qurtulacaqlar. Məni narahat eləyən bax budur.





— Sən elə danışırsan ki, guya dünyanın axırıdı. Dostum, sən xəstəyə oxşamırsan. Sən canın, çıxar o fikirləri başından.

— Cavidandan xəbərin varmı?

— Var, yaxşıdı... Bu gün yanındaydım. Barəndə də danışdıq.

— Çox yaxşı. Ondan muğayat ol.

Elə bu vaxt Gülnarə xanım otağa girdi. O, olduqca üzüntülü görünürdü. Açığını deyim ki, onu heç vaxt indiki kimi küskün, nigaran, solğun görməmişdim. Bir həftə ərzində o da arıqlayıb, yorulub əldən düşmüşdü. Deyəsən, özünə qayğı göstərməyi də unutmuşdu. Başımızı tərpətməklə salamlaşdıq... Xeyli vaxt keçdi. Sükutu pozmağa heç kəs cəsarət eləmirdi. Elə bil hamının sözü qəhətə çıxmışdı. Handan-hana diqqəti yayındırmaq, ağır psixoloji durumu əritmək üçün qəsdən Gülnarə xanım özündə cəsarət tapdı:

— Dinmirsiz, danışmırsız... Elə bil küsmüsüz. Başqa adam olsa... Ağarəhim müəllim, səhhətiniz necədi? Qəbul vaxtıdı, indi sizin işiniz çox olar?

— Yaxşıyam... İşə qaldıqda həmişə çoxdu. Olmasa da, öyrəncəliyik, hər dəfə özümüz bir süni problem yaradırıq. Sonra da başlayırıq vurhavura. Onun dalınca qaç, bunun dalınca qaç. Deyən yoxdu, dayan, əl saxla...

Natiq astadan dedi:

— Şəhərdə hərarət çoxdu. Bir tərəfdən də maşınların hisipası. Nəfəs təngişir. Ürək də dözmür...

Gülnarə:

— Bu günlərdə ürək xəstələri həkimlərə çox müraciət eləyirlər. Həkimlərin çoxu da məzuniyyətdə.

Natiq:

— Ürəklə zarafat olmaz. Sağlamlığın qədrini, həyatın şirinliyini adam xəstə olanda bilirmiş... Heyf ki, onda da... Doğrudu, çox şey adamın özündən asılı olmur... Can ağrıyanda adam az qalır, hər şeyi unuda. Yemək-içmək də istəmir... Gündüzü gecəsindən də qaranlıq gəlir adama.

Natiq kövrəlib udqundu. Gülnarə dərhal dedi:

— Yaxşı, yaxşı, Natiq, elə danışırsan, lap neçə illərdi xəstəlikdən əzab çəkən adamlar kimi. Hey özünə qapanırsan. Elə bil dünyanın axırıdı. Uşaqlar da sənə baxıb... Səksəkə içindədilər. Belə olmaz. Neçə vaxtdı sənə deyirəm, a kişi, özünü qoru. Eşitmirdin... Öyrəncəliydin soyuq maye qəbul eləməyə... Yenə deyirəm, əzizim, sənə güclü soyuq olub... Kondisioner altında nə qədər yatmaq olar? Kondisioneri söndürməyə də qoymurdun...

— Yox, Gülnarə. Canındakı ağrının gücünü, dərəcəsini xəstə ancaq özü bilir. Həkim sadəcə diaqnoz qoyandı, iynə-həblərlə oynayandı, sağalması mümkündürsə, müalicə eləyəndi... Məndə nə olduğunu özüm bilirəm.

— Moskvada təcrübəli həkimlər çoxdu. Orada böyük elmi məktəb var. Tibbi avadanlıqlar çox yaxşıdı. Çatan kimi müalicə eləyəcəklər. On günə, uzaq başı bir aya deyə-gülə qayıdacağıq. Ömrü boyu "af-uf" içərisində qalmayacaqsan ki...

— Təki sən deyən olsun. Kor nə istəyir: iki göz, biri əyri, biri düz.

Mən bildirdim:

— Natiq, bu gün sizi yola salaq. Bilet götürüb, mən də arxanızca gələcəm.

Natiq dərhal etiraz elədi:

— Yox. Sən narahat olma, Gülnarənin getməsi kifayətdi. Sən də o qədər sağlam deyilsən.

Gülnarə:

— Moskvada yerimiz, tanış adamlarımız var. Onlar həkimlərlə danışıblar. Elə bir çətinlik olmamalıdı. Çatan kimi müayinə





başlanacaq. Mən özüm Natiqə qulluq eləyəcəm. Ağarəhim müəllim, bir də ki, axı mən həkiməm... Arada zəngləşərik, sən də vəziyyətdən hali olarsan...

Onlarla razılaşmaqdan savayı yolum qalmadı. Həmin axşam Natiqlə Gülnarə Moskvaya yola düşdülər.

Natiq getdi. İçimdə onun taleyindən qorxu, təlaş, nigarançılıq qaldı. Öz-özümə düşündüm: Bu xəstəlik nə yaman şeymiş? Zəhrimarın adını eşidəndə istər-istəməz adamın içi titrəyir. Nədəndi bilmirəm. Allaha acıq getməsin, dünyanın mizan-tərəzisi çox vaxt düz işləmir. Pozulur. Nahaq haqqı üstələyir. Ömrü boyu başqalarının qayğısını çəkən bu adam niyə kimlərəsə möhtac olmalıydı?! Onun ailəsi nə üçün göz yaşları axıtmalıydı?! Uşaqları nədən ötrü boynubükük qalmalıydı?! Şər özünə yer eləyəndə haqq, ədalət öz taxtından düşür. İnsani hisslər ölür...

Mən hər gün Natiqə telefon açır, ya birbaşa özüylə, ya da yatmış olduqda Gülnarə xanımla danışıb, vəziyyətini öyrənirdim. Açığını deyim ki, baş verən dəyişmələri çox zaman Natiqin səsindən də anlayırdım. Onun öz aləmi vardı. Bu adamın gizlin bir işi yoxıydı. Yalan nədi bilməzdi. Riyakarlıqdan uzağıydı. O, ancaq yaxşı şeylər barədə düşünürdü. Tikəsini başqalarıyla bölüşməyi bacarırdı. Pislik nədi bilməzdi. Ən çətin anlarında belə dostlarına, doğmalarına diqqətini əsirgəməzdi. Heç yadımdan çıxmaz, 2007-ci il oktyabrın 26-sıydı. Həmin gün 59 yaşım tamam olacaqdı. Hərçənd ad günü keçirmirdim. Axşam əl telefonuma zəng gəldi. Nömrələrə baxmadan "bəli" deyə cavab verdim. Danışan Natiqiydi. Moskva xəstəxanasından telefon açmışdı. Doğum günümlə bağlı məni təbrik elədi. Gözlərim yaşardı, kövrəldim. Deyəsən, bunu xəttdə o da duydu. Həmin gecə səhərə qədər yata bilmədim. Natiqlə birlikdə olduğumuz anlar, hər şey, hər şey gəlib durdu gözlərim önündə. Hey onun barəsində düşündüm: zamanın gərdişinə fikir ver. Ağı qaraya, qaranı ağa calayır. Pisinə, yaxşısına, uşağına, qocasına baxmır. Öz işini

görür. Girəvəsinə keçəni şahmar ilan kimi çalır. Özü də necə gəldi...

Nə az, nə çox, bir il ərzində Natiq üç dəfə Moskva xəstəxanasında müalicə olundu. Axırıncı dəfə xəstəxanadan çox yaxşı gəlmişdi. Özü də razılıq eləyirdi. İşə çıxdı. Xəstələri qəbul elədi. Adamlara şəfa əlini uzatdı. Doğmaları, dostları, istəkliləri sevinirdi. Elə güman elədik ki, Allah-Təala bir möcüzə yaradıb, Natiqə mərhəmət göstərib, onda xəstəlikdən əsər-əlamət qoymayıb. Bir sözlə, o, sağalıb...

İçimdə məmnunluqla yanaşı, hardasa, bir narahatçılıq, nigarançılıq hissi də vardı. Mənə elə gəlirdi ki, Natiq çox şeyi hamıdan, lap Gülnarə xanımdan da gizlədirdi. Bədənində gedən ağrıacılardan doyub cana gəldiyindənmi, ya nədənmi ətrafdakılardan, elə məndən də qaçırdı. Ailənin, dostlarının qanını qaraltmaq istəmirdi. O öz sirli həyatını hamıdan gizli yaşamağa çalışırdı. Bəli, saatlar günlərə, günlər də aylara calanırdı. 2008-ci ilin sentyabr ayının ortalarıydı. Mən onunla kabinetində görüşdüm. Ürək-dirək verib məni müayinədən keçirtdi. Bekara şeydi, — deyə resept də yazdı. Sonra dedi: — Oktyabrın 26-na az qalır. 60 il. Yubiley... Bunu əməlli-başlıca qeyd etməliyik.

— Qeyd eləyək. Sən ki bilirsən, mən doğum günü keçirmirəm.

— İndi keçirərsən. Özü də lap yaxşı.

Gülümsündüm:

— Bir halda ki Natiq məsləhət bilir...

— Mən belə də gözləyirdim.

2009-cu ilin yaz başıydı. Sonuncu görüşümüzdən on-on beş gün sonra eşidəndə ki, xəstəlik Natiqdə yenidən baş qaldırıb, gecəykən onu Moskvaya yox, Bakıdakı "Neftçilər" xəstəxanasına aparıblar, onda halbahal oldum. Neçə vaxtda içimdə mürgüləyən təlatüm, qorxu, təlaş gürzə kimi baş qaldırdı. Hardansa bir vahiməli səs elə bil qulağıma pıçıldayırdı: bu, xəstəxanaya axırıncı gedişidi Natiqin. Xəstəlik daha ona güzəştə getməyəcək. Onu əlimizdən alacaq...





Natiqin yanında qardaşı Namiqlə Gülnarə növbəylə qalırdılar. Namiq də həkimiydi. Mən ondan vəziyyəti soruşanda, o, başını buladı. — Çox əziyyət çəkir, — dedi. O, xəstəxanada xeyli yatdı... Bəzi geriləmələrə baxmayaraq, yaddaşına, özünü idarəsinə söz olanmazdı. Hər sözünün, hərəkətinin yerini, yatağını bilirdi... Vəfatından bir gün əvvəl onu ziyarətə getmişdim. O, əzab-iztirab çəkə-çəkə mənə dedi: — Qardaş, adam nə qədər dərman yeyər? Bədən nə qədər iynəyə tab gətirər? Yadında saxla. Həyat haqqında, insanlar barəsində allı-güllü deyilənlərə inanma. Canına bax, qədrini bil... Heyf...

Dərindən köksünü ötürüb sözünün arxasını saxladı. Özü də qəsdən. Məni qəhər boğdu. Gözlərimin yaşardığını hiss eləyib, çarpayısında çevrildi. Üzünü yana döndərdi. Xeyli müddət söhbətimizə ara verdik. Elə bu vaxt həkimlə tibb bacısı palataya daxil olub icazəsiz gəlişimi mənə qüsur tutdular. Heç bir söz demədən: “Sabah gələrəm, deyə palatadan çıxdım”. Dəhlizdə dayanıb həkimin otaqdan qayıtmasını gözlədim. Handan-hana o gəldi. Ona yaxınlaşıb özümü təqdim elədim və Natiqdə gedən dəyişmələrdən xəbərdar olmaq istəyimi bildirdim. Həkim əvvəl duruxdu, bir söz demək istəmədi. Sonra fikrindən daşındı:

— Ağarəhim müəllim, bu xəstəlik belədi. Xəstəni haldan salmasa, əl çəkmir.

— Haldan salmasa, yoxsa...

— Mən nə deyim?.. Ağıllı adamsan.

Hər şey aydınıydı. Halımın dəyişdiyini görən həkim üzünü çevirib getdi. Dəhlizdə tək qaldım. Əlimdən heç bir iş gəlməyəcəyini düşünə-düşünə pillələnləri enməli oldum.

Həyətə düşəndə sərin bir yel üz-gözümü yaladı. Dərindən nəfəs aldım. Sonra da içimdə aranı dağa, dağı arana qata-qata pay-piyada evə getdim. Yol boyu düşündüm: Heyf Natiqdən...

O, namuslu adamdı. Özünə də, qarşısındakılara da dəyər verməyi bacarır. Yumşaq qəlblidi. Sağlam əqidəlidi. Kimsəyə pislik onun üçün yaddı. Hamıya xoşbəxtlik, səadət bəxş eləyən düşüncə sahibidi. Ailəcanlıdı. Özündən çox özgələr üçün yaşayandı. Sadə və ciddidi. Mehribanlıq və səmimiyyətə bələnmişdi ləyaqətdən doğan ömür yolu... Ağlıma da gəlməzdi ki, bu, Natiqlə mənim son görüşüm, son söhbətim olacaq. Səhəri gün Natiqin yoxluğunu qardaşı Namiq zəng çalıb mənə deyəndə sanki ürəyim qırıldı...

O, getdi. Hissini, duyğusunu, mənə olan sevgisini də özüylə apardı. Mənə qalan dostluğa sədaqəti, bir də şirin xatirələri oldu. Yoxluğunu hər an hiss elədiyim, Natiq, indi sənə deyiləcək sözüm budur: — Yat, yuxun şirin olsun... Qəbrin nurla dolsun...

## Ürək tutması. Mərkəzi klinika

**Əzizinəm yüz də var**
**Əlli də var, yüz də var.**
**Öpüləsi ayaq da**
**Tüpürüləsi üz də var.**

*A.Tufarqanlı*

**Derlər utan, heç kəsə bir söz demə,**
**Haqq sözü derkən, utana bilmərəm.**

***M.Ə.Sabir***

**Səfalət qüsurlar yaradar, cəhalət isə**
**bu qüsurları əbədiləşdirir.**

*Labruyuyer*

İşləri düz gedən, az-çox bəxti gətirən adamlar gələcəkdə hansı çətinliklərlə, fəlakətlərlə qarşılaşa biləcəklərini ehtimal eləmədiklərindən çox zaman həyatlarından məmnun yaşayırlar. Hətta, ölüm təcrübəsi keçəcəklərini belə ağıllarına gətirmirlər. Sağlamlıq həyatın müncərinə çevrildikcə, insanın qəlbində istəklər, arzular doğulur, culğalaşır. Yaşamaq ehtirası güclənir. Sağlamlıq əldən getdikdə hər şey düşüncələrinin əksinə olur. Ağrı-acılar insanı cana gətirdikcə, tədricən istəklər qırılır, arzular sönür... İnsan yaşam ümidlərini itirir... Bəzən əhvalı haldan-hala düşür, yaşamaq istəmir.





Son vaxtlar ağrı-acılardan bezmişdim. Xırda-xuruş xəstəliklər nəzərə alınmazsa, bir yandan şəkər, o biri yandan ürək ağrıları, yorğunluq, təngnəfəslik, təzyiq, əsəb məni çıxılmaz vəziyyətə salırdı. Götürdüyüm sistemlər, qəbul elədiyim həblər, vurulan iynələr, doğrudur, təsirsiz ötüşməsələr də, hər dəfə hava dəyişəndə demək olar ki, ölüb-dirilirdim. Hər gün xəstəxanalardaydım. Bəzən gecələr üstümə təcili tibbi yardım maşını çağrılır, dava-dərmanlar qəbul eləyirdim. Az müddətə yaxşı olurdum. Həkimlər gedəndən sonra yenə ağrı-acılar məni qamarlayırdı. Olurdu "köhnə hamam, köhnə tas". Hərdən düşünürdüm, bu nə vaxta qədər belə davam eləyəcək? Suala cavab tapanmadıqca ətrafda nə varsa, hər şey gözümdən düşürdü. Hamısı mənasızlaşırdı. Sirli, möcüzəli, allı-güllü dünyanın özü də bəzən iblis qiyafəsində görünürdü mənə. Deyilənləri təsəlli sanırdım. İçimdə hər şeyə vida deyirdim. Hamıdan xəbərsiz. Qəribəydi, hey mərhum atamı, anamı, cicimi xatırlayırdım. Övladlarımın təkcə sabahlarını düşünürdüm.

2010-cu il fevralın 14-ü. Gecə yarı. Saat 03.00 olardı. Yuxudaykən ürəyim sancdı. Hıçqırdım. Məni dözülməz ağrı tutdu. Nəfəsim bir an kəsildi. Yatağımda gərnəşdim. Nə yaxşı ki, dərhal da hər şey: ağrılar, acılar... ötüşdü. Mənə elə gəldi ki, üçüncü dəfə infarkt oldum. Heç kimə bir söz demədim. Başqa vaxtlar adam ağrı-acılardan nə qədər gileylənsə də, — Belə yaşamaq istəmirəm — sözünü dilinə gətirsə də, həyat, tale zəncirinin qırıldığı anları duyanda, açıq-açığına təhlükəylə üzbəüz dayananda

vahimələnir, qorxu, təlaş içərisində başını hara götürüb qaçacağını, kimi köməyə çağıracağını, kimdən imdad diləyəcəyini bilmir. Qeyri-ixtiyarı "Ay Allah", bir də "Ay ana", seyrək hallarda "Ata" da deyir. Qəribədi, ən ağır anlarda böyük Yaradanın, bizi dünyaya gətirənin qüdrətinə sığınırıq. Şübhə eləmirəm ki, bu da ömür-gün sürdüyümüz həyatın möcüzəsidi. Can şirin olduğundan və eləcə də yaşam ümidimi hələ tam itirmədiyimdən ayağa qalxmaq istəmədim. Bəlkə də özümdə mənəvi güc tapmadığımdan cəsarət eləmədim. Ancaq infarkt olduğumu özlüyümdə gümanlasam da, qətiləşdirənmədim. Aradan yarım saat keçər-keçməz hadisə eynilə təkrarlandı. Yenidən həmin ağrı-acıları keçirə-keçirə səhərin açılmasını gözlədim. Nə yaxşı səhərə yaxın düşdüyüm acınacaqlı, təhlükəli vəziyyət ötüşdü. Səhər ayağa qalxanda o ağrı-acılardan, nəfəs təngişməsindən əsər-əlamət yoxıydı. Sevindim. Allaha şükürlər dilədim... Yüngülcə səhər yeməyi yeyib həkimə getdim. Ürəyimin kardioqramması çıxarıldı, reseptlər yazıldı... Sistem qəbulu başlandı... həblər atıldı. İynələr vuruldu... Neçə illər mənə deyilən eyni sözlər... Eyni məsləhətlər... Eyni ağrı-acılar... Eyni hal dəyişmələri... Təsəllilər… Ürək-dirəklər… Xoş sözlər. Nəhayət, martın 1-i. Dözənməyib Mərkəzi Klinikaya getdim və angeoqrafiya olundum. Ürək damarlarımdan birinin tamam, ikincisinin səksən, üçüncüsünün isə otuz faiz tutulduğu müəyyənləşdi. Onu da deyim ki, bu mənzərəni kompyuterin ekranında mən də aydın görürdüm. Dəhşət məni bürüdü… Handan-hana öz-özümə düşündüm: nə etməli? "Xoruzun görünən quyruğunu" birdəfəlik kəsib atmalı?.. Axı necə? Etiraf eləyim ki, suallar o anda məni yazıqlaşdırdı… Kimsəsizləşdirdi… Təkcə onu düşündüm. Deməli, risk! Özü də çox böyük! Əməliyyat nəylə qurtaracaq?! Sağ qalsam, onun yeni fəsadları olmayacaq ki?! Ağlıma gələn və gəlməyən zərbələrin nəticəsi nə olacaq?.. Allah bilir… Bu və buna bənzər düşüncələr içərisində məni palataya gətirdilər. Az keçmiş boylu-buxunlu, qıvrım saçlı, göygöz şəfqət bacısı otağa daxil oldu. Üzündə hamiləliyin nişanələri açıq-aydın sezilirdi. Onun 28 yaşı olardı. Gözlərindən biclik, hiyləgərlik yağırdı. O, hırıltılı gülüşlə üstümdəki adyalı qaldırdı, tez də aşağı saldı. Əvəzsiz mütəxəssis kimi dedi:





— Hə, yaxşıdı... Sənə əməliyyatdan sonra da özüm baxacam.

Mən kinayəylə:

— Əməliyyat olunmasam necə?

— Müəmmalı danışırsız... Bəlkə də vəziyyətinizi aydın təsəvvür eləmirsiz. Eləysə, çox pis. Həkim deyir: "Sizdə əməliyyat qaçılmazdı...". 8 Mart yaxınlaşır. Əlinizi cibinizə salıb bəri başdan hədiyyəmi versəydiz, gedib gəlinim üçün servis alardım.

Əvvəl: — Nə? — deyə tutuldum, sonra fikrimi toplayıb soruşdum:

— Xanım, oğlun doğulub, yoxsa, onun gəlişini gözləyirsən?

— Sizin üçün nə fərqi var? Siz üst-başınızı silkələməkdə olun. Qalan mənim işimdi — cavabını verib şaqqıltıyla güldü və Telmana dedi: — Düz demirəm qardaş.

Telman özünü itirdi. O anda nə deyəcəyini bilmədi. Əlacsız qalıb sərt cavab verməyə məcbur oldum:

— Nə olsa, danışırsız? Siz məni tanımırsız. Ancaq özünüzü də, məni də... Heç olmasa, özünüzə hörmət eləyin.

— Yaxşı-yaxşı, uzatma... Simic...

Əsəbimdən dişlərim az qala dodaqlarımı kəsəcəkdi. Bunu başa düşən xanım narazı halda üzünü çevirib ayaqlarını sürüyə-sürüyə getdi.

Çox çəkmədi ki, ikinci şəfqət bacısı gəldi. Bu xanımın 23-24 yaşı olardı. Qara saçları çiyinlərinə tökülən, uzunsifət, gülərüz bu qız da çatan kimi qaşlarını oynadaraq xalatı qaldırdı. O da sarığa baxdı. Sonra pıçıltılı səslə bildirdi:

— Pis döör... Əlim yüngüldü.

— Mən neyləyirəm ki?
— Heç nə. Deyirəm...
— Nə?
— Cehizimdə çatışmazlıq var...
— Təkcə cehizində?
Xanım üzümə baxdı, istehzalı danışığımdan ağlı bir şey kəsmədiyindən üzünü Telmana tutdu:
— Lazım olsam, cağırarsız, gələrəm.
Şəfqət bacıları beləcə gəlir, əməliyyata münasibətlərini bildirir, istəklərinə nail ola bilməyəcəklərini düşünüb acıqlı-acıqlı, tərs-tərs üzümə baxıb gedirdilər. Telman mat-məəttəl qalmışdı. O, özünü saxlayanmayıb acı gülüşdən sonra dedi:
— Sıntarmışların əvəzinə mən xəcalət çəkirəm. Yer yarılmır yerə girəm... Nə utanan üzləri var, nə də qızaran gözləri. Gör, hansı yollarla pul toplayırlar. Pul zəhrimar adamları hər sifətə salır. Sağlamlığı, səhhəti soruşan yoxdu.
— Hamını yox, Telman...
İşin sonuna az qalırdı. Qapı şaqqıltıyla taybatay açıldı. Məni angeoqrafiya eləyən həkim böyük şəstlə otağa daxil olub üzümə baxmadan, bir az da tələsik halda dedi:
— Ağarəhim, mən axşam İstanbula uçuram. Get toparla gətir, səni operasiya eləyəcəm.
"Toparla" sözü məni tutdu:
— Həkim, birdən toparlayanmadım.
— Özün bil. Sonrası ölümlə üz-üzə dayanmaqdı. Ölmək istəyirsən, toparlama.
— O təhlükə nə qədər çəkər?
— İki, maksimum üç ay.
— Sənə yaxşı yol... Keçi alverçisi!..
Mən üzümü yana çevirdim. Sözümün ona necə təsir elədiyini üz-gözündən sezə bilmədim. Ancaq bu adama yazığım gəldi. O, ani olaraq duruxdu. Nə fikirləşdiyini bilmirəm, üzünü çevirib tələm-tələsik otaqdan çıxdı. Gülümsünüb başımı yellədim:





— Telman, bu da həkim! Bu da azərbaycanlı! Bu da Azərbaycan səhiyyəsinin vəziyyəti! Bu da hansı əllərə düşməyimiz! Vay bu xalqın halına!.. Bu şarlatanlar dünyasında biz hara gedirik?! Hər şey puldur! Pul, Allah.
Pulun qüdrəti… Ona görə qüdrəti deyirəm ki, o hər şeyə qadirdi. Əslində bu heç də mənim fəlsəfəm, ya da uydurmam deyil… Dünya pul üstə çalxalanır. Vurhavurlar, çarpışmalar, ataatlar… Hər nə desən, pul üstə olur. Böyük arxaya, gücə çevrilən pul, bəzən də sahibinin bədbəxtliyinin səbəbkarına dönür. Şahlar, krallar, prezidentlər… pulun qurbanı olublar… Kim istəyir, qoy ona da nəsib olsun… Bu düşüncə məni ağuşuna alıb aparırdı ki, elə bu vaxt həkim yenidən palataya girib pəncərəyə yaxınlaşdı. Üzünü həyətə tutub narazı halda pıçıltılı səslə dedi:
— Məni bura vicdanımın səsi qaytardı... Ürəklə zarafat eləmə. Bir şey baş versə, geriyə yolun olmayacaq... Pul əl çirkidi, onu sən qazanırsan... Bu gün var, sabah yox... Sənə ciddi deyirəm: "Sənin yaşam yolun əməliyyatdan keçir". Əzab-əziyyətdən birdəfəlik qurtulacaqsan. Olacaqsan iyirmi yaşında cavan oğlan.
— Həkim, vicdan böyük şeydi. Birincisi, gərək o, insanda ola. İkincisi də, hələ onun olması şərt deyil, gərək o, hərəkətə gələ. Susan, mürgü döyən vicdan kimə və nəyə lazımdı?!
— Vicdanım olmasaydı...
— İmkan verin düşünüm, həkim. Axı borc almağa güman gələn yerim yoxdu.
— Nə düşünəcəksən? Qohum-əqrabayla danış... Alınmasa, evini sat, xəstəlikdən yaxanı qurtar. Bir dəqiqəlik yaşamaq...
Mən əsəbiləşdim və özümü saxlaya bilmədim:
— Əşi, bu necə xəstəxanadı? İşçiləri ağızlarını çuval ağzı kimi göyə açıblar. — Ver udum, — deyirlər. Təkcə müayinə üçün 600 manat. Tibb bacılarının hərəsinin ağzından bir avaz gəlir.... İnsafınız olsun. Siz adam deyilsiz? "Yoxdu" deyirəm,

qammırsız. Yoxsa, söz başa düşmürsüz?

Həkimin sifəti bozardı:

— Qələt eləyirlər tibb bacıları. Baş həkimlə danışaram. Onları küçük kimi burdan qovduraram...

— İşimiz əcəb düzəldi... Yaxşı, imkan ver, özümə gəlim...

— Razılaşsaq, mən İstanbuldan sənə görə tez qayıdaram.

— Həkim, bu gün mənim üzərimdə başqa əməliyyat gedəcək?

— Yox... Bir azdan səni evə buraxacağıq.

— Mən əməliyyat üçün Tehrana gedəcəm!

— Hə... Bəs deyirdin, güman gələn yerin yoxdu?..

— Bəli... Mən də çox şey deyə bilərəm.

— Özün bilərsən. Can sənin...

Həkim acıqlı-acıqlı otaqdan çıxdı. Telmanla palatada qaldıq. Qaş qaralırdı. Ətrafı bürüyən gecənin qara örtüyü palatanı da qamarlamaqdaydı. Hər tərəf ala-toran görünürdü. Özüm-özümü diqqətdən tam kənarda qoymuşdum. Getdikcə əsəbiləşirdim. Axır ki, dözməyib Telmana dedim:

— Ayə, gör bunlar harda qaldılar? Gəlib sarığı açsaydılar, canım bunlardan qurtarardı.

Telman: — Bu saat, deyib otaqdan çıxdı. Xeyli ləngidi. Handan-hana ucaboy, qarayanız, otuz yaşı olar-olmaz şəfqət bacısıyla qayıtdı. Mən xanıma gileylənməyə başladım:

— Xanım, belə də məsuliyyətsiz yer olar? Xəstəni atıb gediblər. Bəlkə birini qan aparır? Ona kim kömək eləyəcək? Kim məsuliyyət daşıyacaq?

— Gileylənmə. Günah özündədi… Mən baş həkim deyiləm, şikayətinə baxam. Bəhanəylə kimisə cəzalandıram... Sizin palataya başqası baxır, mən yox. Gərək onunla dil tapaydız. O da işini görəydi. İstəyini yerinə yetirməmisiz, o da iş vaxtı qurtarmamış gedib. Mənə Telman qardaş xahiş-minnət eləməsəydi, mən də bura gəlməyəcəkdim. Mənə baxmayın, burda xahiş-minnətə





məhəl qoyan yoxdu. Elə bil başqa dünyadan gəlmisiz. Ölkədə baş verənlərdən xəbəriniz yoxdu. Bəlkə də özünüzü avam yerinə qoymusuz. Elə isə nahaq. O, burda keçməz. Hamıya pul lazımdı... Pul!..

— Belə çıxır ki, pulsuzlar ölməlidilər?..

— Dilin yaman uzundu, day-dayı. Çox güman ki, hə...

Qımışmaqdan savayı çarəm qalmadı.

— Yaxşı, xanım, sarığı açın... Yəqin həkim də getmiş olar...

— Növbətçi həkim burdadı. O, aşağı mərtəbədə oturur.

Mən daha başqa söz demədim. Acığımdan nə danışacağımı bilmirdim. Xanım sarığı açdı və bizdən də onluq alıb getdi. Bir az uzanıb ağrı-acıların kəsməsini gözlədim. Xeyli keçdi. İstədim ayağa qalxıb paltarlarımı geyinim. Qıçlarımın dirənişi olmadığından özümü saxlayanmayıb Telmanın üstünə yıxıldım. O, məni dərhal qamarlayıb tutdu. Yıxılıb baş-gözümün dağılmaq təhlükəsindən qurtardı. Özümü heç cürə idarə eləyə bilmədiyimdən dəhşət məni bürüdü. Artıq Telman da qorxudan özündə deyildi. Bərk həyəcan keçirirdi. Sir-sifəti bozarmışdı. Mən özümü saxlayanmadım:

— Nadanlar gör, məni nə hala saldılar?!

Telman baş verənlərə məəttəl qalmışdı. Klinikaya gəlişimizə kor-peşman olmuşduq. Dərdimizi deməyə adam tapanmırdıq. O, əsəbi halda dedi:

— Müəllim, siz səbr eləyin, mən gedib növbətçi həkimi tapıb gətirim.

— Yox... Gəlib neyləyəcək? Onlar bir-birilərinin astarıdılar. Məqsədləri pul, düşüncələri pul, əməlləri pul... Atalar demişkən, belələrindən əl-həzər. Zavallı kasıblar, yaşamınız kimi, sizin xəstələnməniz də, ölməniz də faciədi... Dünyaya gələndə də ver, gedəndə də... Dayandıqca başımıza çox iş gələcək, zəhmət olmasa, sən get, arabacıq tap gətir. Məni maşına çatdır. Nə qədər olmasa, xəstəyə belə "şəfa" ocağındansa, ev yaxşıdı.

Tələsik palatadan çıxan Telman çox çəkmədi ki, arabacıqla qayıtdı. Onun köməyi ilə arabacığa oturub çətinliklə də olsa üçüncü mərtəbədən xəstəxananın həyətinə düşdüm. Həyət adamla doluydu. Allaha yalvarırdım ki, onlardan kimsə məni tanıyan olmayaydı. Sonra da fikirləşdim: arabacığa kefdən oturmamışam ki?! Xəstəliyin üzü qara olsun... Arabacıq maşına yaxınlaşdı. Tanımadığımız, üzünü ilk dəfə gördüyümüz, xəstə gözləyən iki cavan oğlanın yardımıyla maşının arxa salonunda güc-bəlayla əyləşdim. Oğlanlarla xudahafizləşib həyətdən çıxdıq... Bir anlığa düşünürsüzmü? Öz ayaqları ilə deyə-gülə xəstəxanaya gələn adamın beş-altı saatdan sonra evinə başqalarının çiyinlərində qayıtmasını? Oturduğu yerdə başına olmazın oyunlarının açılmasını?.. Puldan ötrü hər cür  alçaqlığa getmək olarmı? İndiyə qədər aldığımız təhsilin bəhrəsi budurmu? Özümüz-özümüzü niyə yeməliyik? Bəs qəbul elədiyimiz qanunlar? Bu sir-sifətlə hara gedirik? Cəhənnəmə?! Yoxsa... Görəsən, bu oyunların ssenarisini yazan kimlərdi?! Böyük səlahiyyət sahibləri? Həkimlər? Şəfqət bacıları?.. Yoxsa, biz xəstələr özümüz?

Səhiyyədəki bu vəziyyət adamı ağlamaqdan, göz yaşları tökməkdən daha çox molla nəsrəddinçilər sayağı gülməyə, qəhqəhələr çəkməyə vadar eləyirdi...

Mən ailə üzvlərimin köməyi ilə maşından düşüb evə qalxdım. Gecə-gecədən keçincəyədək qıçlarım açılmadı. Ah-uf səsimdən hamının yuxusuna haram qatdım. Həmin gecə heç kim yatıb dincələ bilmədi...

Yorğun-arğın, yuxusuz olsam da, səhər yataqdan qalxıb Kardiologiya İnstitutuna, Respublika Xəstəxanasına və bir neçə poliklinikaya müraciət elədim, məsləhətlər almalı oldum. Hərə bir söz deyərək, məni özü tərəfə çəkməyə çalışdı. — İlan vuran ala çatıdan  qorxar, — deyiblər. Mən bütün həkimlərə şübhəylə yanaşır, içimdə bəzən gülürdüm də. Ancaq müraciət eləməməyi də bilmirdim. — Çıxmayan cana ümid çoxdu, — məsəlindən





doğan prinsiplə xəstəxana qapılarını döyürdüm. Əlac tapılmırdı ki, tapılmırdı. Ümidlərim qırılsa da, yenə axtarışlarımı davam etdirirdim. Təəccüblü o idi ki, ürək cərrahiyyəsi görməyən, cərrahiyyə otağında olmayan həkimlər də (onlara həkim demək mümkündürsə) üzərimdə uğurlu əməliyyat aparmalarına məni ciddi-cəhdlə inandırmağa çalışırdılar. Bu qondarma, əndirabadi əməllər sahibi olan həkimlərin qeyri-insani davranışları, məsuliyyətsiz danışıqları məni dəhşətə gətirirdi.

## Xeyirxahım

**Alimin mürəkkəbinin bir damcısı**
**şəhidin qanından üstündü.**
*Məhəmməd Əlehissəlam*

Əlacsız qalıb bacarıqlı həkim axtarışına çıxdım. Dostum, Nizami adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlıya telefon açdım. Mənə görkəmli kardioloq, qocaman alim, gözəl insan, İran və Azərbaycanın ikili vətəndaşı Cavad Heyətlə görüşüb danışmaq məsləhətini verdi. Mən səhəri günü doktorla danışdım. Ünvanını götürdüm. Bakıda yaşadığı mənzilinə getdim. O, məni çox böyük hörmət və izzətlə qarşıladı...

Xatırladım ki, sonralar barəsində topladığım məlumatlara və şəxsi müşahidələrimə əsasən Cavad Heyətin atası Əli Heyət İranın görkəmli, sayılıb-seçilən ictimai xadimlərindən olmuşdur. Xalqına və vətəninə daim ürəkdən sevgi bəsləmişdir. Uzun müddət İranın baş prokuroru, ədliyyə naziri, Təbriz Ali Məhkəməsinin sədri olmuş və digər önəmli vəzifələrdə çalışmışdır. Ömrü boyu siyasət dənizində çalxalanan Əli Heyyət dövrünün despotizminə qarşı müntəzəm mübarizə aparmışdır... Böyük

şəxsiyyət olaraq İran ictimai-siyasi fikir tarixində özünün layiqli izini qoymuşdur. Xalq hərəkatında böyük nüfuz qazanan Əli Heyətin sağlam və mətin ailəsi olmuşdur. Qürur hissiylə deyə bilərik ki, Cavad Heyət bu ailədə dünyaya göz açmış, böyüyüb ərsəyə çatmışdır. İlk, orta və lisey təhsilini Həmədanda, Təbrizdə və Tehranda alan Cavad Heyət sonralar İstanbul və Parisdə davam etdirmişdir. Tibb doktoru olmuşdur. Böyük cəsarət və şücaət göstərərək İranda ilk dəfə ürək əməliyyatına başlamışdır. Az sonra bu bacarıqlı və təşəbbüskar alim aorta qapağı darlığı əməliyyatına girişmiş və müvəffəqiyyətlə istəyinə nail olmuşdur. Hopoterm (soyutma) metodundan istifadə edərək o, açıq ürək əməliyyatı həyata keçirmişdir. İranda ilk böyrəköçürmə və ürəkköçürmə əməliyyatları Cavad Heyətin adıyla bağlıdır. O, fəaliyyətini tibblə məhdudlaşdırmamışdır. Türk tarixini, türk dilini və ədəbiyyatını dərindən öyrənmiş, bu sahədə dərin və fundamental tədqiqatlar apararaq cild-cild kitablar yazıb çap etdirmişdir. İran türklərinin milli şüurunun inkişafında önəmli rolu olan "Varlıq" dərgisini yaratmışdır. O, bütün düşüncəsi və ruhilə türkdür. Təmənnasız və səmimi insandır. Təmiz vicdan sahibidir. Qarabağ müharibəsinin ağır yaralılarından 155 nəfərin Tehranda təmənnasız müalicəsi sözün həqiqi mənasında doktorun şimali azərbaycanlılara böyük eşq və məhəbbətinin, milli qeyrətinin təəssübkeşliyinin, şərəf və ləyaqətinin misilsiz dərəcəsi kimi dəyərləndirilməlidir. Həyat və fəaliyyətiylə özü üçün müəyyənləşdirdiyi əqidə prinsiplərinə sadiqliyini sübut eləyən görkəmli şəxsiyyət və ictimai xadimdir. Dünyanın bir çox universitetlərinin fəxri doktoru və professorudur. İlahiyyatla çox yaxındır. Allahını sevəndir. Öyrəndim ki, bu böyük insanın "Azərbaycan ədəbiyyatı tarixinə bir baxış 1-2 cild (1920-1990)", Müqayisətül-lüğəteyn (1984)", "Azərbaycan şifahi xalq ədəbiyyatı (1988)", "Türk dili və ləhcələrinin tarixi (1986)", "Ədəbiyyatşünaslıq (1995)"… "Türklərin tarixi və mədəniyyətinə bir baxış (2009)"... kitabları çap olunmuşdur. Onları oxuyarkən tam belə qənaətə gəldim ki, bu əsərlər İranda fars şovinistlərinin assimilyasiya siyasətinə tutarlı elmi cavablarıdır. Bu insanın ürəyinin genişliyinə heyranam. Onun üçün şəxsi mənafe yoxdu. Onun tanıdığı xalqdı, millətdi, vətəndi… Görünür, bu da ona irsən gələn keyfiyyətdir. Sonrakı silsilə görüşlərim, ünsiyyətim, şəxsi müşahidələrim nəticəsində ustad barədə belə qənaətə gəldim: İnsani münasibətlər şəbəkəsində örnək şəxsiyyətdir; haqqa nahaq deməyəndir; olduqca humanist və xeyirxahdır; hamının dərdinə yanmağı bacarandır; başqasının ağrı-acısını özününki sanandır; ən çətin anlarda ayıq-sayıqlığını qorumağa qadirdir; cəsarətli və fədakardır; bəşəridir; rəngindən, dilindən, irqindən, mövqeyindən asılı olmayaraq onun üçün hamı insandır, bəşər övladıdır, Allahları birdir. Ləyaqət və şərəfdən yoğrulmuş ömür yaşayandır... Məslək və həqiqət yolunda qorxmaz və dönməzdi. Saf könüllü, qəlbi fəzilətli bu alim bütün fəaliyyətində Tanrı qoxusu (ətri) duymağa çalışandı. Vücudunda ilahi nur cilvələndiyindən əlləri şəfalıdı. O, insanın gözəllik və səadətini, sərbəstlik və azadlığını, əxlaqi və mənəvi keyfiyyətlərini hər şeydən üstün tutandı... Doktorun elmdən, təcrübədən doğan heyranedici, ürəkaçan söhbətlərindən doymaq olmur. Onun fikrincə, ən möhtəşəm gözəllik insanın daxili aləmidi. Ağlı, idrakı olmayanın gözəl siması müvəqqətidi, ötərgidi. İnsanın zahiri ilə batili birləşəndə sanki ay doğur. O, deyir: "İnsanın bənizində hikmət zühur eləyir. Hüsnü-cəlalı ülviləşir. İdraksız nə gözəllik?! Allahın insana bəxş etdiyi sevgi və gözəllik qoşadı, ayrılmazdı. Onlarsız insan ruhunu titrədən, ülviləşdirən, könül açan şərqi də, nəğmə də yoxdu..." Cavad Heyət Allahla öz arasındakı münasibətlərdə sərbəstdi, azaddı. Onun ağıl və sevinc duyğularından doğan ruhu oynaqdı, canfəşanlıdı. İstək və diləkləri təbiidi, səmimidi. Fikir və dühası arzuları xəyaldan çox reallığa əsaslanır. Məramı həqiqət və ədalətdi. Onun aləmində aqil insa-

nın qarşısında daim hikmət bulağı çağlayır. Düşüncə və duyğuları nəticəsində haldan-hala düşən insan daim öz qəlb məskənini işıqlandırmağa qadirdi. Sevgi və nifrət insanın qoşa addımlarıdı. Biri o birisini təqib eləyir. Gah özünün məhəbbətə bələnən sevgili həyatını, gah da nifrətlə yoğrulan acı taleyini yaşayır... Cavad Heyətin bu sahədəki keyfiyyətlərini çox sadalamaq olar...

Doktor mənim qan təzyiqimi, ürəyimin döyüntüsünü yoxladı. Sonra müayinə sənədlərimi diqqətlə nəzərdən keçirtdi və dedi:

— Hər şey aydındı. Gec-tez əməliyyat olunmalısan. İstəməzdim, əməliyyatı gecikdirəsən. Nə qədər tez olsa, bir o qədər yaxşıdı.

— Mən Tehranda əməliyyat olunmaq istəyirəm. Məni inandığınız təcrübəli həkimlə calaşdıra bilərsizmi?

— Nə vaxt getmək istəyirsiz?

— Günü sabah.

— Qarşıdan Novruz bayramı gəlir. Həkimlər bayramda Avropaya istirahətə gedəcəklər. Aprelin 1-də qayıdacaqlar. Həmin vaxt mən də Tehranda olacam. Bəlkə bir yerdə uçaq Tehrana.

— Əla!

## Ruhun köklənməsi

**İnanc ruh yaradır. Ruh yoxsa,**
**gözəl yaşam yoxdur.**
***İraq xalq məsəli***

Doktorla vədələşdiyimiz vaxta on beş gün qalırdı. Hardansa, ağlıma belə bir fikir gəldi: müqəddəs yerlərə — ziyarətgahlara getmək. Mən fanatik deyiləm. Dini ehkamları kor-koranə qəbul eləyənlərə də yaxşı baxmıram. Ancaq Allaha





ürəkdən inanıram. Ona da əminəm ki, Allaha inam, etiqad, ruhani düşüncələr insanı daxilən təmizləyir. Şərəflə yaşamaq, ləyaqətli ömür sürmək Allahın sevə-sevə xəlq elədiyi bəşər övladına ən böyük və əvəzolunmaz istəyidir, qayğısıdır, nəvazişidir. Belə olan təqdirdə ülvi hislərə bələnən insanın ürəyinə ilahi rahatlıq, məmnunluq, sərməstlik gəlir. Əks halda, yaranış tarixindən bəşər övladı özünə inanc nöqtəsi, güvənc yeri axtarmazdı. Ürəyimin istəyiylə Mirmövsüm Ağanın ziyarətinə getdim. Mənim bu ocağa gəlişim ilk dəfə deyildi. Hamı kimi mən də ziyarətgahın binasına daxil oldum. Ziyarətgahın ətrafı, həyəti izdihamla doluydu. O anda beynimdə səmavi ruhlarla təmasda olmaq düşüncəsi, vücudumda Allahın şövqünə bələnmək istəyi, ziyasında cilvələnmək duyğusu və nəhayət, xəstəlikdən qurtulmaq arzusu yerbəyer olurdu. İlahiyyat və şəriətlə əlaqədar təsəvvürlərimin məhdud olmasına baxmayaraq, oxuyub öyrəndiyim, eşidib bildiyim kimi dualar söyləyir, ziyarətgahın ətrafında üç dəfə dövrə vurub Allahın böyüklüyünə, şəninə, aliliyinə, mərhəmətinə... etiqadımı israr eləyirdim. Bütün vücudumu, fikrimi, düşüncəmi, ən pak və ülvi hisslərimi onun sərəncamına verirdim. Beləcə ruhən Yaradanıma yaxınlaşır, ondan imdad diləyir, dualarımın müstəcəb olmasını yalvarırdım. Mənə gülməyin, elə bil hardansa, içimdə daha nəcib duyğular peyda olurdu. Onu da hiss eləyirdim ki, İlahinin nəzərləri üstümdədi. Mənim qət edəcəyim yolun qapılarını üzümə taybatay açacaq... Qulaqlarımda iç dünyamın təskinləşdirici, cəsarətləndirici səsləri yenidən qayıdıb ruhuma süzülürdü… İnsanın içi nə qədər dərinmiş, möhtəşəmmiş… Qadirliyinə, qüdrətinə şükür, ey insan yaradan hikmət!.. Mirmövsüm Ağanın ziyarətini başa vurub qapıdan çıxanda özümdə hədsiz ruhi yüngüllük duydum... Adamların təmiz niyyətlə üz tutub gəldiyi, özləri üçün şəfa dilədikləri bu ocaqdan ayrılmaq istəmirdim. Ancaq istəsəm də, istəməsəm də getməliydim. Allahdan Ağaya rəhmət diləyə-diləyə ziyarət-

gahın həyətindən çıxıb maşına oturdum və Telmandan soruşdum:

— Pir Həsən, pir Xədicə ziyarətgahları hardadı?

— Onlar da burda — Mərdəkandadılar.

— Hə... Gedək onları da ziyarət eləyək.

Biz həmin ziyarətgahlarda da olduq. Nəzir-niyazımızı verib qayıdanda Telman dedi:

— Müəllim, bəlkə, "Həzrət Əli ayağı"na da gedək?

— O hardadı?

— Buzovnada.

— Olar... Ancaq üzümüzə gələn cümə günü.

O, mənimlə razılaşmağa məcbur oldu... Biz cümə günü Cavidanı da özümüzlə götürüb Buzovnadakı Həzrət Əli ayağı pirinin ziyarətinə gəldik... Ziyarətdən sonra Cavidan dedi:

— Ziyarətlərə gəlmək hardan ağlına gəldi, ata?

— Əslində özüm də bilmirəm, ancaq müsəlmançılığın başlıca şərtlərindən biri də budur, oğlum. Allah böyük qüdrətdir. Gərək ona təmənnasız olasan. Allahsız zahirən adama oxşasa da, batilən şeytandı. Şeytanın fitvası ilə oturub-durar. O isə fəlakətdi. Allahını sevən mərdiməzarlıq eləməz. Kimsənin yaxşısını qoyub pisini danışmaz. Şərdən uzaq olar. Canında, ruhunda İlahi şövq olan adam həmişə sevinc, xoşhallıq, bəxtiyarlıq ətri saçar. Allahın buyurduqlarıyla oturub duran, onun məsləhət bildiyi yolla gedən şəxs heç bir cinayətə yol açmaz. Cinayət qapısını döymək yalnız şeytaniləşən insanların işidi. Allahına ürəkdən bağlansan, O da səninlə olar...

Telman dedi:

— Müəllim, görürəm, siz Allaha çox yaxın adamsız. İstəsəniz, Xıdırzındı Babanın da ziyarətinə gedə bilərik.

— O hardadı?

— Beşbarmaq adlanan dağda. Bakı-Quba magistralının kənarında.





— O qalsın gələn həftəyə. Qismətimizdə varsa, gedərik...

İki gün sonra Telman deyən ziyarətə getdik. Martın küləyi, soyuğu adamı dondururdu. Maşın zarıya-zarıya dağa dırmandı. Mən elə düşünürüdüm ki, soyuqda bura o qədər də adam gəlməz. Yolun uzaqlığı, dağın zirvəsini qət eləmə çətinliyi adamların gəlişinə maneəçilik törədər. Maşın ziyarətgaha yaxınlaşanda gözlərimə inanmadım. Minlərlə adam vardı. Təkcə müsəlmanlar yox, əcnəbilər də. Ziyarətə gələn ər-arvad ingilis mənə yaxınlaşdı. Kişi tərcüməçi vasitəsiylə dedi:

— Sizdə inanc yerləri çoxdu. İnanc gücdü, qüvvətdi, qüdrətdi.

İngilisin sözləri məni xoşallandırdı. Onun sözünü təsdiqlədim. Sonra müsahibim sözünə əlavə elədi:

— Bəs niyə dövlətiniz inanc yerlərində şərait yaratmır?

Mən qüsurumuzu  pərdələmək istədim. O, sözümü ağzımda qoydu:

— Xristianlarda, katoliklərdə belə deyil...

Novruz bayramının səhəri Telmana dedim:

— Axşam rayona səfərim olacaq. Maşın sazdımı?

— Bəli!

— Elə isə axşamüstü saat 4-də səni evdə gözləyəcəm. Gəl, gedək.

Üzü axşama şəhərdən çıxıb doğulduğum kəndə getdik. Yol boyu uşaqlıq, gənclik xatirələri, gəzdiyim oylaqlar, oxuduğum məktəb, sinfimizin uşaqları, müəllimlərim, tarla düşərgəsi, ot çaldığım, odun qırdığım, qoyun-quzu otardığım yerlər... Nələr, nələr gəlib durdu gözlərim önündə... Biz kəndə girəndə artıq qaş qaralmışdı. Küçə-bacadan adamlar çəkilmişdi.

Dörd yol ayrıcına çatanda Telman soruşdu:

— Hansı tərəfə?

— Sağa.

Mən maşını doğulub ərsəyə çatdığım evimizə yox, birbaşa

qəbiristanlığa sürdürdüm. Qəbiristanlıq kənddən xeyli aralıdaydı. Hər baş daşı qaranlıqda bir adama oxşayırdı. Aralıdan baxanda bir qoşunu xatırladırdı. Güzgüdə Telmanın gözləri üzümə dikildi. Mən gülümsündüm:

— Qorxma, ver maşını kənara, saxla. Fanarları mən gedən istiqamətə sal. Ayağımız ilişib yıxılmayaq. Özün də arxamca gəl.

O, dediyim kimi də elədi. Alatoranda atamın, anamın, cicimin, başqa qohumlarımın qəbirlərini tapıb ziyarət elədim. Atalı, analı, cicili keçmişim gözlərim önünə gəldi. Ruhum canlandı. Mürgü döyən, hardasa üstünü toz alan kövrək duyğularım baş qaldırdı. Qəhərləndim. Baş daşlarındakı şəkillərinə sığal çəkdim. Qəhərləndim. Telman görməsə də, bir neçə gilə yaş kipriklərimi islatdı, sonra da yanaqlarımdan uzu aşağı süzüldü… — Qəbriniz nurla dolsun, — deyib qəbiristanlıqdan çıxdıq və birbaşa Bakıya qayıtdıq... Mən daxilən rahatlanmışdım. Artıq mənən hər şeyə hazırıydım... Lap ölməyə də.

## Səfərə hazırlıq

**Ağır səfər insandan güc istər.**
***Fars atalar sözü***

Martın 31-də kiçik nəvəm bir yaşlı Zəhrayla görüşə getdim. Onu qucağıma alıb oynatdım. Yumru sarıbəniz sifəti, ağzı, dodaqları, burnu və saçlarından eynən atasına — Cavidana bənzəyirdi. Atası nənəsinin adını qızına qoymuşdu... Mən heç kəsə bir söz deməsəm də, düşündüklərimi açıqlamasam da, gedəcəyim yolun ağırlığını anlayırdım. Açığını deyim ki, Zəhranın bapbalaca vücudu, üz-gözü əməliyyatdan əvvəl də, sonra da gözlərimin önündən bir an belə çəkilmədi. Eh... İnsan





hissləri... Sən nə qədər müəmmasansa, bir o qədər də cazibədarsan. İnsanın içini tüğyana gətirənsən. Ağlını təsəvvür olunmaz dərəcədə oynadansan. Ona qida verənsən. Dilsiz-ağızsız körpə nəvə və babanın keçirdiyi hisslər... Hisslərin, duyğuların qovuşması... Alışması... Ünsiyyəti... Buraxdığı izlər... Bir aləm... Bir dünya... Təsəvvür edirsizmi insan xislətinin qüdrətini... Möcüzələrini... Mən Zəhradan böyük nisgil, kədər içərisində ayrıldım...

Həmin gün qardaşım Məmmədrəhim bizə gəlmişdi. Axşam oturub xeyli söhbət elədik. Ailə üzvləri süst qalmışdı. Sanki duyğuları, düşüncələri donmuşdu. Kədər, həyəcan qızlarımın, oğlumun, nəvələrimin üz-gözündən yağırdı. Mən müxtəlif mövzuları seçir, onlara qəsdən əlvan rənglər qatır, qəlb açan tərəflərini danışır, gülür, ailə üzvlərimin əhval-ruhiyyələrini qaldırmağa çalışırdım. Söhbət gecə yarıyadək davam elədi. Qardaşım dedi:

— Ağarəhim, sənə yatmaq, dincəlmək lazımdı. Gecə yarıdan keçib. Qalxaq, gözümüzün acısını alaq. Özümüz də tezdən yola çıxmalıyıq... Tehranda yer tapıb nə vaxt dincələcəyimizi də bilmirik...

Hər kəs öz yatağına çəkildi. Yatağıma uzansam da, yuxuya dala bilmədim. Çarpayıda hey o tərəf-bu tərəfə çevrildim. Səhər saat 6-da yataqdan qalxıb duş qəbul elədim və yola çıxmaq üçün hazırlıq gördüm. Evdəkilər də elə bil gecəni yatmamışdılar. Oğlum soruşdu:

— Ata, maşın gecikməz ki?

— Yox... Telman doktor Cavad Heyəti evindən götürəcək. Professor Nizami Tağısoy da bizi.

Xanımım mərcməyidə səhər yeməyi gətirəndə dedim:

— Gecdi, yeməyəcəyik.

— Ac yola çıxmaq? Özün də xəstə.

O, sözü deyib kövrəldi və geri qayıtdı.

— Yolda bir şey fikirləşərik.

Mən yola çıxanda qızlarımla, nəvələrimlə üzləşmək, onların solğun bənizlərinə, nəmli gözlərinə baxmaq istəmirdim. Onu da bilirdim ki, nəvələrlə üzləşsəm, kövrələcəm... Lap kür uşaqlar kimi, göz yaşları axıdacam.

Səkkizə on beş dəqiqə qalmış qardaşımla oğluma dedim.

— Qalxın, gedəyin.

Biz qapıdan çıxanda nədən qaçırdım, nə baş verdi? Nəvələrimlə — Ürfanə və Rəqsanəylə dəhlizdə üzləşdim. Əlimi saçlarına çəkdim. Məni qəhər boğdu. Dözənməyib ağlayacağımdan tez də üzümü çevirib qapıdan çıxdım. Bu vaxt Nizaminin maşını qapı ağzında dayandı. Tələm-tələsik maşına oturduq. Maşın sürət götürdü...

Hava limanına çatanda doktorla Telman artıq ordaydılar. Doktorla görüşüb Nizamini, oğlumu, qardaşımı onunla tanış elədim. Doktor soruşdu:

— Bir şey yaddan çıxmayıb ki? Müayinə sənədlərini götürmüsüzmü?

— Hər şey qaydasındadı, doktor.

Nizami və Telmanla xudahafizləşib saat 10-da Tehrana uçduq.





# Uçaqda

**Həyat əzəldən enişli yoxuşludur.**
**İnsan onların hər ikisinə mübtəladır.**
***Şabahəddin Yəhya Sührəverdi***

**Yerin əzəməti ənginlikdən görünür.**
***H.T.Kveçqıç***

Biz uçağa qalxanda salon dolmuşdu. Qardaşımla oğlumun salonda yerləri yanaşı olsa da, doktorla bizim yerlərimiz ayrıydı. Ustad qabaq cərgədə, mənsə salonun orta hissəsində oturmalı oldum… Yanımda qarabəniz, cüssəli, əlli yaşı olar-olmaz bir kişi əyləşmişdi. Sərnişinlər yerlərində rahatlandılar. Çox çəkmədi ki, uçağın mühərriki işə düşdü… Uçaq uçuşa hazır olan tək sərnişinlərə tövsiyələr verildi. Sonra uçaq hərəkətə gəldi. Mən ilmünatordan aşağıya baxdım. Uçaq havanı yarıb mavi səmaya doğru meyilləndi. Aşağıda Bakı kəndləri, bir-iki mərtəbəli evlər, neft buruqları, zeytun bağları, sevimli mavi Xəzər və bir də əyri-dolam, kəsişən yollar apaydın görünürdü. — Yollar… Yollar, — deyə düşündüm. Yollar və insanlar. Bu iki anlamı özlüyümdə, ixtiyarsız halda mənalandırmalı oldum. Qəribədi, bunlar necə də bir-birindən ayrılmazdı. Başlanğıcını hardan alır və haralara doğru uzanır? İnsan ömrü hardan başlanır, harda qurtarır?

Belə çıxır ki, insan ömrü də bir yoldu. Hər ikisinin kələ-kötürü, hamarlığı var. Heç biri nəhayətsiz deyil. Sonludu. Əvvəlli axırlıdı. Bakıdan başlanğıcını götürən, Tehranda sona yetən uçağın da milyardlarla qət elədiyi nöqtələr arası məsafə yoldur. Bu yol məni hara aparır, niyə aparır? Ümid dolu, ancaq məchul bir gələcəyə… Başlanan yollar… Əyri-dolam yollar… Kəsişən yollar… Sonu görünməyən yollar… İnsan taleyinin bələdçisi.

İnsanlar və talelər… Nələr demir yollar… Mənalandırmam uğurludu, uğursuzdu deyənmərəm. Təkcə onu bilirəm ki, taleyimin ümidindəyəm… Görəm, başlanğıc bu nöqtəyə qayıtmaq mənə nəsib olacaqmı? Aman Allah, görəm oğlumla qardaşım nə düşünürlər? Onlar hansı hissləri keçirirlər? İki infarkt, avtomobil qəzası, iranlılar demişkən, bir qəlb əməliyyatı, yüksək şəkər, nə qədər saymadığım, vecimə almadığım xırda-xuruş xəstəliklər. Budur mənim məşəqqətli ömür yolum, oxunmamış tale kitabım… Əcaib düşüncələr baş alıb, məni hara gəldi çəkib aparırdı. Uçaq az sonra buludları yarıb mavi Xəzəri andıran səmaya çıxdı. Parlaq yaz günəşi adamı özünə çəkirdi. Elə bu vaxt yerindən qalxıb halımı soruşmağa gələn Cavidanın səsi məni özümə qaytardı:

— Ata, özünü necə hiss eləyirsən?

— Yaxşı. Narahat olma, oğlum. Get yerində əyləş. Nə qalıb ki. Bir azdan eniş başlanar.

Cavidan getdi. Yanımda əyləşən sərnişin soruşdu:

— Oğlundu?

— Bəli!

— Nədən narahatdı?

— Ürəyimin etibarsızlığından.

— İranda çox gözəl qəlb mütəxəssisləri var. Seyid Əhmədi Həsəntaşı çox yaxşı — Həkim-cərrah, vicdanlı xeyirxah adam — deyirlər. Onunla görüşə bilsəz, zənnimcə pis olmaz.

— İstəsəniz müayinə elətdirə bilərsiz. Qəlb əməliyyatı Həsəntaşın əlində o qədər də qorxulu deyil. Limanda Cavad Heyətlə sizi birlikdə gördüm, o, sizə kömək eləyə bilər... Çalışın Həsəntaşla görüşün. Cavad Heyət çox müdrikdü. Ola bilsin o da Həsəntaşı məsləhət biləcək.

— Birlikdə gedirik. Necə olubsa, yerlərimiz uzaq düşüb.

— Olan şeydi... Heç Tehranda olmusuz?

— Yox… Qonşu ölkə olsa da, ilk dəfədi.





— Mən iş adamıyam, baba. Şimali Azərbaycanı qarış-qarış gəzmişəm. Sizin ölkəniz cənnətdi. Ancaq qədrini az bilirsiz. Quba-Qusar-Xaçmaz; İsmayıllı-Qəbələ-Oğuz; Lənkəran-Masallı-Astara, hələ Qarabağınızı, yeraltı, yerüstü sərvətlərinizi demirəm. Erməni nədi ki, əlində aciz qalmısız?..

"Erməni" adı çəkiləndə mən tutuldum. Bunu müsahibim də duydu. Etinasız cavab verdim:

— Torpaq anadı, baba, onu kimsəyə verməzlər. Alıblar qaytararıq.

Müsahibim daha "erməni" məsələsinə qayıtmadı, söhbətin yönümünü dəyişdi:

— Mən də azərbaycanlıyam. Millətimi, vətənimi çox istəyirəm. Tehranda bir az ehtiyatlı olun. Hər adama inanmayın. Sizi aldada, dolaşdıra bilərlər. Şimaldakı qardaşlarımız çox açıqdılar. İran və iranlılar bir az qapalıdılar. Ehtiyatlı olun. Siyasi söhbətlərə girişməyin.

Gülümsündüm:

— Baba, mən diplomat deyiləm. Tehrana müalicə üçün gedirəm.

— Biz eyni millətik. Sizin dərdiniz, ağrı-acınız həm də bizimdi. Bəzən aramızda elə adamlar olur ki, münasibətlərimizi korlayırlar. İstəməzdim belə hallar olsun. Sizdə bizimkiləri aldadırlar.

— Necə yəni sizi aldadırlar.

— Gedirik sizin istirahət mərkəzlərinə. Bir loxma kəsirik. Beş manat əvəzinə bizdən yüz dollar alırlar…

— Naxələflər hər yerdə var. Dələduzun nə milləti, nə ölkəsi, nə də dostu var.

— Yaxşı yadımdadı. Mən ilk dəfə Bakıya xanımla gəlmişdim. Beş yüz dolları verib Azərbaycan manatına dəyişməli oldum. Beş yüz dolları aldılar. Əvəzində mənə sovetdən qalma loteriya verib aradan çıxmışdılar. İranlı həmkarlarım olmasaydı,

təsəvvür edirsizmi, biz burda necə çıxılmaz vəziyyətə düşəcəkdik…

Doğrusu, mən utandım. Danışmağa söz tapmadım. Narazı halda başımı yelləyib susmağa üstünlük verdim.

Handan-hana dedim:

— Siz dələduzla qarşılaşmısız. Belə dələduzlar inanıram ki, İranda da var. Axı bizim ləyaqətli, vicdanlı ziyalılarımız az deyil. Millət qəhri çəkənlər çoxdu. Elə olmasaydı, mən bu gün müalicə üçün İrana, iranlı qardaşlarımıza üz tutmazdım.

Elə bu vaxt uçağın bir neçə dəqiqədən sonra Tehran Hava Limanına enəcəyi elan olundu. Mən ilmünatordan çölə baxdım. Gözlərimə inanmadım. Çılpaq dağlar, daş qayalar, göz işlədikcə uzanan, ot-əncərsiz düzlər… Hərdənbir də komacıqlar… Əyri-dolam, kəsişən yollar... İran barədəki təəssüratlarım sanki birdən birə alt-üst oldu.

Mən müsahibimə tərəf dönüb soruşdum:

— Baba, nə sərt təbiətiniz var?

— İranda da gözəl, yaşamalı yerlər çoxdu. İmkanın olsa, Təbrizə də, Məşhədə də, İsfahana da, Həmədana da, Ərdəbilə də getsən, pis olmaz. Adamları olduqca, qonaqpərvərdilər. Sizi çox yaxşı qarşılayacaqlar. Azərbaycanlılar Bakının həsrətindədilər. Vətənpərvərdilər. Siyasi fəallıqları olduqca yüksəkdi. Sözlərini qorxmadan, çəkinmədən deyə bilirlər. Azərbaycan dilində məktəblərimiz, mətbuatımız olmasa da, Avropada, ABŞ-da və digər xarici ölkələrdə mükəmməl təhsil alan fədakar gənclərimiz çoxdu. Cənubi Azərbaycan böyük dirçəliş yolundadı. İnanıram ki, tezliklə o taylı-bu taylı Azərbaycan birləşəcək. Vahid, müstəqil dövlətimiz qurulacaq. Onda bizim balalarımıza da ana dillərində oxumaq, təhsil almaq nəsib olacaq.

— Kaş o günəş tez doğaydı, baba.

Elə bu vaxt limana endiyindən uçaqda güclü titrəyiş yarandı. Müsahibim dərhal:





— Şükür, sağ salamat çatdıq, — dedi. — Sizə sağlamlıq, işinizdə uğurlar arzulayıram. Ancaq adınızı, vəzifənizi bilmədim.

— Adım Ağarəhim, vəzifəm müəllimdi. Mobil telefonum da 000.00.00-dı. Hər vaxt telefon aça bilərsiz.

Müsahibim dərhal dedi:

Mən Nemət Haşimiyəm. Ərdəbildə oluram. Əl telefonum da belədi: …...

Beləcə müsahibimlə əl verib xudahafizləşdik.

## Tehranda ilk gün

**Kamil adam kəmallı olar...**
***Fars atalar sözü***

**Aqil insanın nurlu əməlləri zəmanələrin gərdişindən, tarixin sınaqlarından həmişə üzü ağ çıxır, özü cismən dünyasını dəyişsə də, ağıl və zəkasının işığı nəsilləri rövnəqləndirir.**
***Müəllif***

Bizi Tehran Hava Limanında doktorun dostu, şair Savalan qarşıladı. Özü dediyinə görə, bu adamın 65 yaşı vardı. Ancaq ona o yaşı vermək olmazdı. Yana daranmış çal saçları, qonur gözləri, dairəvi, gülər üzü, pətənə burnu vardı. Biz maşına əyləşdik. Heç kim dinib-danışmırdı. Xeyli yol qət eləmişdik ki, Cavad Heyət nə fikirləşdisə, Savalandan soruşdu:

— Hə... Səsin çıxmır, xeyir ola, Savalan?

— Qonaqlarımızın diqqəti təbiətdədi, istəmirəm onları fikirlərindən ayıram.

Hamımız güldük. Doğurdan da eləydi. Yol boyu nə vardısa: çılpaq dağlar; alçaq evlər; komalar; yol kənarında cərgəylə əkil-

miş yamyaşıl ağaclar; tərəvəz yetişdirilən istixanalar... hamısı, hamısı maraq doğururdu. Şəhərin mərkəzinə irəlilədikcə vəziyyət dəyişirdi. Gözlərimiz önündə böyük, izdihamlı şəhərin əzəmətli mənzərəsi açılırdı. Etiraf eləyim ki, Tehran, oranın təsərrüfatı, əhalisi haqqında təsəvvürüm əski sovet düşüncəsi səviyyəsindəydi. Avropanın, Qərbin bir çox ölkələrində dönə-dönə olsam da, yaxın qonşu İrana ilk dəfəydi ayaq basırdım. Bu ölkə barədə eşitdiklərimlə gördüklərim arasında bir uçurum, ziddiyyət yaranırdı. "Mollalar" ölkəsi kimi bizə təqdim olunan İranda Avropa, Qərb və Şərq mədəniyyətinin müştərək cizgiləri, nişanələri, mükəmməl klassik və müasir memarlıq sənət nümunələrinin qovuşması nəinki açıq-aşkar duyulurdu, hətta, adamı heyrətləndirirdi. Dörd tərəfi sıra dağlarla əhatələnən, on yeddi milyonluq əhalisi olan Tehran özəlliyi ilə gördüyüm, gəzdiyim şəhərlərdən heç də geri qalmırdı. Əksinə, bəzi hallarda misilsiz Şərq mədəniyyətinin cazibədarlığıyla seçilirdi... Qardaşım bu şəhər barədə mənə suallar verir, münasibətimi öyrənməyə çalışırdı. Oğlumsa maşının küncünə sıxılaraq yan-yana dayanan, qoşalaşan göydələnlərin, geniş prospektlərin, insanı heyrətə gətirən nəhəng körpülərin, yamyaşıl xiyabanların sakitcə seyrinə dalmışdı. Olduqca duyğusal görünürdü. Hərdənbir də köksünü ötürürdü. Deməsə də, bilirdim ki, pərişan görünməsi mənim vəziyyətimlə bağlıdı... Cavad Heyət yola körpü atdı. O, Tehranın yaranış tarixindən, zəngin və qədim İran mədəniyyətindən, İran inqilablarından, Səttarxan hərəkatından, şəhər təsərrüfatından, xalqın yaşam tərzindən, İran-İraq müharibəsindən, Təbriz, onun tarixi mədəniyyətindən, iri memarlıq komplekslərindən, qədim miniatür məktəblərindən, onların özlərinə məxsus üslub xüsusiyyətlərindən danışdı. Savalansa poeziya adamı olduğundan Hafizdən, Sabirdən fars və Azərbaycan dilində şeirlər deyirdi. Hərdənbir öz yazdığı şeirlərinə də müraciət eləyirdi. Cavad Heyət dedi:





— Ağarəhim müəllim, İranda böyük Hafizə münasibət necədirsə, Sabirə də elədi. Onların hər ikisinə İran xalqında böyük ehtiram var və həmişə də olacaq. Hər ikisi sənətinin şahıdı. Sabirin "Hophopnamə"si hər bir iranlının, xüsusilə cənubi azərbaycanlıların stolüstü kitabıdır...

Mən dedim:

— Hər ikisi böyük şəxsiyyətlər olub. Tarixdə Şərqin böyük yaradıcı şəxsiyyətləri, əxlaq, mənəviyyat sahibləri çoxdu. Öyünüləsi dühaları indi də var. Xalq, millət belə filosofların çiyinlərində dayanır. Onların hər biri fikir, ideya idxal eləyirlər.

— Mən həkiməm. İnsanları sevirəm. Lap çox. Onlara daim ədalət, azadlıq, bərabərlik, barışıq diləyirəm. Bu bir zamanlar sovet dövlətinin, kommunistlərin şüarlarında səslənib. Konstitusiyasında da əks olunub. Etiraf eləyək ki, kommunist nəzəriyyəsi mükəmməl işlənmişdi. Ancaq nə qədər mükəmməl olsa da, təcrübədə özünü doğrultmadı. Onların mükəmməl işlənən nəziyyəsinin fundamenti olmadığından quru, boş, heç kimə lazım olmayan söz səviyyəsində qaldı. Xalqlar, millətlər arasına nifaq düşdü. Qırğınlar, talanlar başlandı. Dünyaya meydan oxumaq arzusunda olan bir imperiya az müddət ərzində çökdü... Ağlagəlməz hadisələr baş verdi. İnsanlar bir-birilərinə şəfqətli və mehriban olsalar, dünyada barışıq, sülh olar. Heç şübhəsiz ki, bu da kamalla mümkündür... Rəng, dil, irq ayrılığına mən yaxşı baxmıram. Mənim üçün hamı insandı. Təkrar eləyirəm, gələcək kamal dünyasınındı. İşğallarla, terrorlarla, müharibələrlə dünyanın qloballaşmasından, mədəniyyətlərin qovuşmasından, bəşəri düşüncənin təntənəsindən söhbət gedə bilməz.

— Ustad, neçə əsrlərdi islam mədəniyyətində bu siz deyən məsələlər təşviq edilir. Avropa, Qərbsə bu ideyaları bəşəriyyətə öz adlarından sırımağa çalışır.

Ustad gülümsündü. Sonra nəsə fikirləşib dedi:

— Hə... İslam mədəniyyəti hikmət xəzinəsidi. Ağarəhim,

siz uzun müddət şuravilərin təbliği altında yaşamısız. Formalaşmısız. Çalışıblar sizə allahsızlığı təlqin eləsinlər. Bu kökündən səhv ideya olub. Tanrısız əxlaq və mənəviyyatdan danışmaq gülüncdü. İnsanın Tanrıya inamı ona azadlıq və müdriklik bəxş eləyir. Tanrıya inamı olmayan şəxs şübhə eləmirəm ki, yaşadığı cəmiyyətdə yalqız və tənhadır.

— Ustad, insani münasibətlər şəbəkəsində iki mövqe var: birincisi, mərhəmətli və rəhmdil Allahın; ikincisi, fəlakətlərin törədicisi şeytanın. Mənə elə gəlir ki, inamsız nə elm, nə də yaşam var?

— Bəli! Bəli! Eynişteynə görə, dinsiz elm topal, elmsiz din kordur. Elm təfəkkürlə, inam ilahiyyatla təşəkkül tapır. İdeal insan o zaman yetişir ki, o, elmlə dini özündə birləşdirə bilsin. Yenə deyirəm, elm təfəkkürlə, ilahi din ürəklə — inamla bağlıdı. Mən xürafatı bura aid eləmirəm. İnsanlıq elmin qüdrətiylə kainatı dərk eləmək gücündədi. O, insanları yeni-yeni kəşflərə ruhlandırır. Sirlər açıldıqca onu kəşf eləyənin ümidləri çiçəklənir. Onda iftixar hissi oyanır. Belə olduqca adam mənəviyyat və məzhəbə meyillənir. Tədricən mənəviyyat və əxlaq elmin fövqünə qalxır. Təfəkkür və inamın vəhdəti insanın kamilləşməsinə xidmət eləyir. Obrazlı desək, elm və inam kamal zirvəsinə uçmaq istəyən adamın iki qanadıdı... Sən "Qurani-Kərim"i oxumusanmı?

— Oxumuşam doktor. Özü də çox. Tez-tez də ona müraciət eləyirəm... Mən "Tövrat"ı da, "İncil"i də oxumuşam. Son dəfə Peterburqda olanda "Zəbur"u əldə elədim. Etiraf eləyim ki, onu oxuya bilmədim. Deyə bilərəm ki, "Zəbur"da əxlaq qaydalarının əsasını Həzrət Musanın on fərmanı təşkil edir. "Tövrat"da səbr və mərhəmət həmin onluğa əlavə olunub. "İncil"də əxlaqın cövhəri sevgi və məhəbbətdir. Hissiyyatsız nə sevgi, nə də məhəbbət var. Həzrət İsa Allaha şərikdi. Onlardan fərqli olaraq "Qurani-Kərim"də əxlaq hissiyyat və ağıla əsaslanır.





Məncə bu mənada "Qurani-Kərim"i səmavi kitabələrin ən mükəmməli hesab eləmək olar. Qənaətim belədi ki, "Zəbur" və "Tövrat" uşaqlar, "İncil" yeniyetmələr, gənclər, "Qurani-Kərim" isə ahıllar üçündür.

Bu sözləri eşitcək ustad çevrilib üzümə təəccüblə baxdı. Ancaq nədənsə dediklərimə münasibət bildirmədi. O, əvvəlki sözünü davam etdirməli oldu:

— İnsan Tanrıya bənzər bir varlıqdı. Onun biliyi, iradəsi, yaradıcılığı və idealı vardır. Allah-Təala kainatın tabe olmaq iznini insanın iradə və biliyinə sərəncam verir. Böyük alim, müdrik insan Əli Şəriətinə görə, Tanrı özünün bəzi atributlarının (hamısını yox) bir qismini insana ötürüb. Qərb və qoca şərqin bir çox filosofları əxlaq və mənəviyyatla bağlı müxtəlif fikirlər söyləmişlər. İnsanın Nihilizmə yanaşması faciədi.

— Ustad, əxlaq ictimai, mənəviyyat isə insani mənşəlidi. Əxlaq real həyatın prinsiplərindən irəli gələn ideyaları özündə ehtiva eləyən məntiqi düşüncə, mənəviyyat isə insan qəlbinin əzəli tələbələrinin təzahürü kimi özünü büruzə verən məntiqi duyğudur. Əxlaqın qidası həyatdır, bilikdir. Mənəviyyat gendi, qandı, təməli isə fədakarlıqdı. Onun mənbəyi isə xalqın ruhudur.

Bayaqdan bizi dinləyən Savalan söhbətə qarışdı:

— Onları necə başa düşək?

Mən cavab verdim:

— Əxlaq və mənəviyyat fəlsəfi, tərbiyə isə pedaqoji anlamdı. Xalq deyimlərində çox bariz nümunələri var: "Nə əkərsən, onu da biçərsən", yaxud "Nə tökərsən aşına, o da çıxar qaşığına"… Bu deyimlər əxlaqa dəlalət eləyir. "Ot kökü üstə bitər", "Anası çıxan ağacı balası budaq-budaq gəzər" məsələləri isə mənəviyyatla bağlıdır. Mənə elə gəlir ki, əxlaqla mənəviyyat arasında bir mötədillik də var. Məsələn: "Kim nə bilir, kim qazanıb kim yeyə, əbləh odu bu dünyada qəm yeyə"...

Ustad başıyla sözümü təsdiqlədi:

— Tamamilə doğrudu. Fədakarlıq ötəri təzahürlərdən, özünə məftunluqdan uzaqdır. O insanlığın zərrəsidi.

Ustadın çöhrəsində təbəssüm yarandı, sonra sözünə davam elədi:

— Əxlaqla mənəviyyatın prinsipləri üst-üstə düşəndə insanilik yaranır. Əxlaq və mənəviyyat normalarının pozulması, onların prinsiplərinin uyğunsuzluğu, onlarda zidiyyətlərin yaranması təbii yaşamı pozur. Sizin dediyiniz o fəlsəfi anlamlar insandan həqiqət və ədalət tələb eləyir. Ən böyük gözəllik həqiqət və ədalətdir. Mərhəmətli olmaq hələ ədalətli olmaq demək deyil.

— Ustad, hazırda cəmiyyətdə elə aşınmalar gedir ki, təxirə salınmadan əxlaq və mənəviyyatla bağlı sərt qanunlar, qərarlar qəbul olunmalıdı. Cəmiyyətin, dövlətin dayaqlarını dağıdan, sarsıdan əxlaqsız və mənviyyatsızlar cəzalandırılmalıdı. Fəlakətlərə aparan yollar qapanmalıdı. Əks halda dalana gedirik, özümüzü məhvə aparırıq.

Ustad başını qaldırıb endirməklə deyəsən mən deyənləri yenə təsdiqlədi. Sonra üzümə baxdı:

— Ağarəhim, qanunlar, qadağalar, cəzalandırmalar əxlaqsızlıq və mənəviyyatsızlığın qarşısını alacaqmı? Həddini aşıb azğınlaşan, inancı olmayan insan ölümə məhkumdu. Hər bir insanın qəlbi müqəddəs duyuma möhtacdı… Allahın yaratdıqları hər şey əzəmətli və möcüzəlidi… Qəribədi, dünyanı öyrənməyə cəhd edən insan təbiəti mənimsədikcə o nisbətdə özündən uzaqlaşır. Hətta, bəzən özünü unutmaq həddinə gəlib çatır. Belə olanda özü də hiss eləmədən mənəvi-ruhu durumu ağırlaşır, istirabları artır… Hansı ki, hər bir şəxsin iradə və istiqlalı özündədi. O, özünü istədiyi kimi idarə edə bilər. Əgər o, bu mühüm ilahi keyfiyyətlərini qoruya, əlində saxlaya bilsə, heç bir şeyin fərqinə varmadan, tam olmasa da, azadlıq və seçmək, çeşidləmək ixtiyarına sahiblənər. Əxlaq və mənəviyyatını əldə elər…





Ustad sözünə ara verdi. Nə isə fikirləşdi. Sonra astadan dilləndi:

— Nisbi də olsa, özünüdərk və nəfsini cilovlama insana Tanrıdan bəxş olunan məxsusi qabiliyyətdir. Belə olanda insan müdrikləşir. O, həm özünü tanıyır, həm də başqalarına tanıdır. Tədricən o, dəyişir. Əldə elədiklərinə qane olmayan insan daim istəklər, arzular, xəyallar və xülyalar ümmanında olur. Bir nöqtədə dayanmır. Planetlər kimi daim hərəkətdədir. Mühitini dəyişməkdədi. Kamala doğru yüksəlişdədi. İdeyası uğrunda mübarizədədi və onu reallaşdırmaqdadı… Əxlaq və mənəviyyat nə maddi dəyərlə, nə də miqyasla ölçülür. Onun yeganə meyarı, dəyər tutumu insanlıqdı. İnsani ali varlıq səviyyəsinə qaldıran onun şüurudu, mənidi. İnsanlıq cilvələnəndə vicdan məhkəməsindən söhbət gedə bilməz… Hissiyat da, əxlaq da, elə mənəviyyat da ağıla əsaslanır. Təkrar eləyirəm, əxlaqın təməli Tanrıya inamdı. Belə olanda xaliqlə xalq birləşir. Hər bir işdə etidallıq, mötədillik əsasdır. Ağıl sərbəst və hakimdir. Kamala yetən şəxs tanrısal insandır.

— Hərdən düşünürəm: həddi-hüdudsuz şey yoxdu. Varsa, o da şəninə şükürlər dilədiyimiz Allahdır. — Hədd-hüdud aşılanda həmişə fəlakət baş verər — deyirlər. Axı biz insanlar da başqa canlılar kimi, təbiətin törəməsiyik. İndiyədək oxuduqlarımızdan, eşitdiklərimizdən öyrənmişik ki, təbiətdə yaranmışların hamısı böyüklü-kiçikli ölçülü-biçilidi, nizamlıdı. Bir-biriylə qarşılıqlı əlaqədədilər. Biri digərinə xidmətdədi. İlk baxışda belə çıxır ki, təbiətin bu ali qanunu biz insanlara aid deyil. Məncə belə düşünmək fəlakətdi. Hər şeyi öyrənməyə cəhd elədiyimiz halda çox zaman daxilimizə nəzər salmırıq. Özümüzü təkmilləşdirmirik. Hər şeydə özümüzü görməyə çalışırıq. Şəxsi mənafeylərimizi güdürük. Qəlbimizi, iç dünyamızı zənginləşdirmirik, ətir saçan qızıl güllərlə doldurmuruq. İnanıram ki, belə halda hisslərimiz, etiraslarımız ağlımızı idarə eləməli olur. Emosialara var-

dıqca, ehtiraslar qalxdıqca ağılın qüdrəti, əzəməti, möhtəşəmliyi azalır. Ona kölgə düşür. — Bəli təbiətdə hər şey nisbidi, zərurətdən doğan müvazinətdədi. Aqillərə görə yaşadığımız dünyada şeylər arasındakı əlaqələr nifrətdən yox, istəkdən doğur. Milyon-milyon illərdi yer işıq saçan günəşin ətrafında dövrə vurur. Ətir saçan çiçəklər gündüzlər gözündən nur püskürən günəşin, gecələr parlayan ayın, sayrışan saysız-hesabsız ulduzların çöhrəsini canına çəkir... İnsan mənəviyyatı da bu aləmdən qidalanır, nəişət alır. Bəlkə buna görə də insan mənəviyyatı dərindi, hüdudsuzdu, zəngindi. O, yeganə şeydi ki, təbiət qanunlarına, onun "məhdudluq nəzəriyyəsinə" tabe olmur. İnsan anlamının məzmununu ruh müəyyən elədiyindəndi ki, idrakı onu əzəmətli bir mexanizmə, nəhəg bir sistemə çevirir. Filosofların təbirincə desək mənəviyyatımızın hüdudunu müəyyənləşdirmək, dərinliyini ölçmək, nə düşündüyünü əvvəlcədən bilmək müşkül məsələdi. Ancaq bir şey aydındır ki, əxlaqını təkmilləşdirən, mənəviyyatını zənginləşdirən, vicdanının səsinə qulaq asan, Allahını başının üstə görən kəs qəbahətə, nadanlığa yol verə bilməz. Başqasının mənəviyyatının, şəxsiyyətinin tapdalanmasına nə rəvac verər, nə də o qəbahətə razı olar.

Söhbətin bu yerində maşın əzəmətli bir binanın qarşısında dayandı. Binanın başında "İnqilab hoteli" yazılmışdı. Savalan dedi:

— Bu da dörd ulduzlu hotel, ustad, düşə bilərik.

Ustad gülümsündü:

— Nə tez?

Mən dedim:

— Söhbətimiz o qədər şirin, şəhəriniz o qədər maraq doğuran, cəlbedici oldu ki, özümüz də hiss eləmədən yolumuza körpü saldı...

Biz hotelə daxil olub qəbul otağına yaxınlaşdıq. İçəridə 40-45 yaşı olar-olmaz ucaboy, qarayanız, lopabığ bir kişi əyləşmişdi. Kiminləsə telefonla danışırdı. Bizi görcək, telefonun dəstəyini yerinə qoydu və gülümsünərək Azərbaycan dilində: — Xoş gəlmisiz, — dedi. Mən dərhal ona təşəkkürümü bildirdim. Doktor dedi:

— Bunlar mənim qonağımdılar. İrana təşrif buyurublar. Hələlik burda mehman olacaqlar. Bizə iki otaq ayıra bilərsizmi?

— Əlbəttə, doktor, Bakıdan gələnlər qonaq deyillər. Onlar da bizim qardaşlarımızdılar. Narahat olmayın. Biz sizi də yaxşı tanıyırıq. Ən yaxşı otaqlarımız onlarındı...

Xoş münasibət bir anlığa qəlbimizi şən duyğuyla doldurdu. İçimdə bir yüngüllük, bu adamlara doğmalıq hiss elədim və dərhal da ona təşəkkürümü bildirdim. Biz yer alıb bələdçiylə otaqlara qalxdıq. Qardaşımla oğlum bir otaqda, mənsə tək adamlıq mənzildə qalmalı oldum. Təmiz, səliqə-səhmanlı otaqlar xoşumuza gəldi. Hər şey öz qaydasındaydı. Xidmətçilərin fəaliyyətləri, davranışları heç kəsi narazı salanmazdı. Doktor dedi:

— Necədi, xoşunuza gəlirmi?

— Çox... Narahatlıq üçün heç bir əsas yoxdu.

— Elə isə sabah saat 15-ə qədər xudahafizləşək.

— Bəlkə, birlikdə nahar eləyək, sonra...

— Yox... Bizi gözləyirlər. Hər şey yaxşı olacaq. Mənim əl və ev telefonumun nömrələri sizdə var. İşdi, ehtiyac olsa, çəkinməyin, mənə telefon açın. Səni müayinə eləyəcək həkimlə sabah saat 17-də görüşməliyik. Mən burda saat 16-da olacam.

Biz beləcə doktorla Savalandan ayrıldıq... Yorğunluq məni əldən salırdı. Hər kəs öz otağında yuyunub dincəlməli oldu. Gözlənilmədən halım dəyişdi, məni soyuq tər bürüdü. Ardınca da bədənim tir-tir əsməyə başladı... Şəkərin düşdüyünü hiss elədim. Gücüm getdikcə zəifləyirdi. Bunun ağır fəsadlar verə biləcəyini anladım. Cavidanın çantasında şokolad olduğunu əvvəlcədən bildiyimdən tez çantanı açdım və bir neçə şokolad götürüb yedim. Üstündən də qrafindəki soyuq sudan bir stəkan iç-

dim. Yavaş-yavaş özümə gəlirdim ki, bu dəfə ürəyim sancdı və ağrımağa başladı. Hidroqlisirin qəbul elədim. Ağrı getdikcə şiddətlənirdi. Əlacsız qalıb ikinci həbi dilimin altına qoydum. Balkonun qapısını açıb açıq havaya çıxdım. Həblər, təmiz hava tezliklə öz təsirini göstərdi. Ağrı yavaş-yavaş ötüşdü.

Düşündüm: əcəb işdi... Görünür, hələ başıma çox işlər gələcək. Qərib ölkə... Halına-xislətinə bələd olmadığın adamlar... Beləcə yatağa uzandım. Qərara aldım ki, oğlumla qardaşıma bu gün baş verənlər barədə heç nə deməyim. Az keçmiş qapı döyüldü. Qardaşımla oğlum gəldi. Üzümə baxan kimi oğlum soruşdu:

— Sənə nə olub? Rəngin xoşuma gəlmir.

— Yorğunam. Görünür, yol təsir eləyib.

— Şokolad kağızları hardandı? Axı bayaq biz burda olanda yoxıydı. Şəkərin yenə düşüb?

— Bir balaca. Bekara şeydi... Yaxşıyam... Əyləşin, şam vaxtıdı, sifariş verək.

Saat 18-də mənim otağımdan restorana sifariş verdik. Yeyib-içəndən sonra Cavidan dedi:

— Ata, özünü necə hiss eləyirsən?

— Qınayan olmasa, lap koridorda qaçaram.

Qardaşım Cavidanın istəyini başa düşcək bildirdi:

— Bəlkə şəhər gəzintisinə çıxaq... Görməli, maraq doğuran yerləri çoxdu.

— Çıxaq.

— Deyirlər sabah təbiət günüdür. Qocalar məscidlərdə ibadətdə, bəzi cavanlar şəhər kənarında yaşayan valideynlərini, xəstələrini ziyarətdə, qalan şəhər əhli isə təbiət qoynunda olacaqlar.

— Onu kim dedi?

— Savalan.

Cavidan çəkinə-çəkinə bildirdi:





— İmkan olsa, özünü yaxşı hiss eləsən, biz də təbiət qoynuna çıxarıq.

— Baxarıq.

Dükan-bazar axşamlar işlədiyindən bir neçə dükana baş çəkdik. Dükanlar biz düşündüyümüzdən də zənginiydi. Satıcıların hamısı kişiydi. Xoş rəftarlı satıcılar İranda qonaq olduğumuzu biləndə bizi ən yaxın adamları, doğmaları kimi çay, kofe içməyə dəvət eləyirdilər. Biz onlara təşəkkürümüzü bildirib uşaqlar üçün bir neçə geyim əşyaları götürdük. Mən dükan-bazarda boş-boşuna gəzməyi xoşlamadığımdan küçəyə tez çıxdıq. Hara üz tutub gedəcəyimizi bilmirdik. — Naşılıq, nabələdlik pis şeydi, — deyirlər.

Reklam lövhələrindəki, binaların üstündəki yazılar fars qrafikasındaydı. Hərdənbir də ingilis qrafikalı yazılara rast gəlirdik. Fars qrafikasını oxuya bilmədiyimdən, ingilis sözlərini başa düşmədiyimdən çox zaman çaş-baş qalırdım... Yanımızdan ötməkdə olan taksiyə əyləşdik. Dərhal: — Yaxınlıqdakı xiyabana, — deyə bildirdim. Sürücü fars dilində nəsə deyib, çiyinlərini çəkdi. Məlum oldu ki, o, farsdır. Azərbaycan dilində nəinki danışmağı bacarmır, heç deyilənləri də başa düşmür. Gülümsündüm, sonra üzümü arxaya tutaraq dedim:

— Fars təkəbbüründən də keçmə... Əcəb işə düşdük... Düşəyin...

Cavidan soruşdu:

— Niyə?

— Necə niyə? Bu, azərbaycanca, biz də farsca bilmirik. Gecə vaxtı tərcüməçini hardan tapaq? Ya özümüzlə hara sürüyək?

Cavidan ingilis dilində sürücüylə danışdı. Doğrusu, onun ingiliscə danışmağı bacardığından xəbərsiziydim. Ünsiyyətləri alındı. Maşın yerindən sürət götürdü. Onlar yol boyu danışıb-gülür, qardaşımla mənim isə susmaqdan savayı çarəmiz qalmırdı...

Mən Məmmədrəhimə dedim:

— Çox təəccüblüdü.
— Nə?
— Oğlunun ingilis dili bilməsindən atasının xəbərsizliyi.
Qardaşım güldü. Mən sözümə əlavə elədim:
— Dil böyük qüvvədi. Bilmədinsə, adi bir əşyaya dönürsən.
— Hə... Bir də ki ingilis dili bunlara şah dövründən qalan mirasdı. Necə ki, rus dili rus işğalından sonra bizə qalıb.
Maşın döngəni burulub nəhəng körpünün altındakı tunelə girdi. Tunel elektrik lampalarıyla işıqlandırılmışdı. Mən təəccübümü gizlədə bilmədim:
— Əməlli fikir ver. Uzun müddət, xüsusilə sovetlər dönəmində bizə elə təqdim olunmuşdur ki, guya İran savadsızlar ölkəsidir. Şeytanlar, iblislər məskənidir. Burda din, xurafat baş alıb gedir. Təhsil, mədəniyyət yoxdur.
Qardaşım gülərək cavab verdi:
— Danışmağa nə var ki. "Karın könlündəki..." Təhsilsiz ölkədə nüvə silahlarının yaradılmasından, Atom Elektrik Zavodunun qurulmasından, uranın zənginləşdirilməsindən, informasiya və kommunikasiya sisteminin inkişafından, nədən, nədən söhbət gedə bilərmi?
Qardaşımın dediklərinə qüvvət verdim:
— İşə bax, özümüzü müalicəyə bura gəlirik. Xəstəlikdən qurtuluşumuzu İranın şəfa ocaqlarında görürük. Savadsızlar damğası vurulan İran öz iqtisadi qüdrətiylə dünyaya meydan oxuyan ölkələr sırasındadı. Gündə bir raket sınaqdan keçirir... Doğurdan da buna savadsızlar ölkəsi demək olarmı?
— Sümüksüz dildi də. İstənilən tərəfə bulanır.
Söhbətin bu yerində maşın böyük bir xiyabanın kənarında dayandı. Pulunu verib sürücü ilə xüdahafizləşdik. İki saata qədər xiyabanda gəzdik. Yaşıllıq, gül-çiçəyə bürünmüş xiyabanda hər sindən adamlar: — kişi, qadın, oğlan, qız... gəzintiyə çıxmışdı. Adamlar iki-bir, üç-bir oturacaqlarda əyləşib monitorlara





baxırdı. Hər kəs sakit vaxtını keçirirdi. Qarşılaşanlar bizə xoş təbəssümlə baxır, elələri də vardı ki, ayaq saxlayır, doğma Azərbaycan dilində "Bakı necədir?" deyə sual verirdilər. Biz xiyabanı ayaq-baş eləyib, hotelə qayıdanda artıq geciydi. Cavidan dedi:
— Adam gəzmək istəyir.
— Cavansan... Adamlarını yaxşı tanımadığın yad şəhərdə bu qədər gəzmək olmaz.
— İran islam ölkəsidi. Allahın qorxusundan...
— Yox, oğlum. Hər cəmiyyətin öz cinayətkarları olur.
Məmmədrəhim dilləndi:
— O qədər allahsızlar var...
Yorğun olduğumuzdan hər kəs öz otağına çəkildi...

## Təbiət günündə

**Qonağı geyiminə görə qəbul**
**elə, ağlına görə yola sal.**
***Taciq atalar sözü***

Aprelin 2-si. Biz yataqdan erkən qalxıb, səhər yeməyinə oturduq. Cavidan çay içə-içə soruşdu:
— Ata, doktor nə vaxt gələcək?
— Saat 16-da.
— Deməli, vaxtımız var...
— Yenə nə fikirləşmisən?
Qardaşım dilləndi:
— Nə fikirləşəcək. Yəqin təbiət günündə olmaq istəyir. Mənim üçün də maraqlıdı.
— Tehran əhli təbiətə çıxırsa, deməli, getdikləri sahə böyükdü. Həm də müəyyən şərait də yaradılmış olar, — deyə fərziyyə irəli sürməyə başladım.

Cavidan:

— Gedərik, görərik. Lazım gəlsə, orda müzakirə elərik.

Beləcə qərar verildi, Təbiət gününə getməyin müzakirəsi sona yetdi. Biz süfrə arxasından qalxıb taksiyə əyləşdik. Sürücü bu dəfə azərbaycanlı olduğundan mən soruşdum:

— Qardaşım, bu gün sizdə təbiət günüdü deyirlər.

— Bəli. Orda siz də olmaq istəyirsiz?

— Hə... Bizim üçün də maraqlıdı.

Sürücü mühərriki işə saldı. Həmin gün şəhərdə maşın azıydı. Demək olar ki, yalnız taksilər görünürdü. Başqaları gözə dəymirdi. Maşın asfalt yolla şütüdükcə, böyük və yaşıl xiyabanların, göydələnlərin, ictimai binaların yanından ötdükcə, tünellərə girdikcə, körpülər addadıqca heyranlığımızı gizlədə bilmirdik. Saat yarıma qədər maşın yol qət elədi. Qarşımızda silsilə, zirvəsi qarlı dağlar açıldı.

Mən dərhal:

— Şəhərdən çıxırıq?

Sürücü dərhal:

— Yox, — cavabını verdi. Xeyli getdikdən sonra maşın yaşıl xiyabanın kənarında dayandı. Sürücü çatdığımızı bildirdi. Onunla xudahafizləşib xiyabana keçdik. Səliqə və sahmanlı, ucsuz-bucaqsız xiyaban. Cığırların kənarında əkilmiş bəzək kolları. Oturacaqlar... Bir qədər içəri irəlilədikcə başı göylər dələn çətirli ağaclar. Yamyaşıl otlar. Rəngbərəng çiçəklər. Böyük bir izdiham. Hamı öz ailəsiylə... Evdən gətirilən xörəklər qızdırılır. Kabablar çəkilir. Yaşıl çəmən üzərində süfrələr açılır. Adamlar ailəliklə süfrə ətrafında əyləşirdilər. Hamı olanından yeyir, deyib-gülür, şənlənirdi. Şəhər ətrafından başlanan xiyaban dağların yamaclarına doğru uzanıb gedirdi. Qızılı rəngli heykəllərlə əhatələşən fantanlar rəngdən-rəngə çalırdı. Nəfəsimin təngişdiyini hiss elədiyimdən yuxarılara qalxmağa cəsarət eləmədim. Gəlib skamyada əyləşdim. Oğlumla qardaşım yuxarı qalxmalı





oldular. Özümə gəlmişdim ki, altmış yaşı olar-olmaz, ucaboy, qurğaz bir kişi yaxınlaşıb salam verdi. Əvvəl, mənə elə gəldi ki, onu hardasa görmüşəm. Sonra hiss elədim ki, yanılıram. Bu adamı heç vaxt, heç harda görməmişəm. O, məni nahara dəvət elədi. Gülümsündüm və dedim:

— Sağ olun. Təşəkkür eləyirəm. Bir də ki mən tək deyiləm.

— Xörəyimiz boldu.

— Aclığım yoxdu.

— Bakıdan gəlmisiz, baba?

— Bəli!

— Mənim qonşum da bakılıdı. Onunla keçən payız Bakıda olmuşam. Ancaq Bakıda təbiət günü yoxdu. Bu, çox yaxşı gündü. Adət eləmişik. Hər həftənin cümə günü yaşlı adamlar məsciddə ibadət eləyirlər, cavanlar xəstələri, qocaları yoluxurlar... Hallarını soruşurlar. Küsülülər barışırlar.

— Çox gözəl. Sizin bu adətiniz mənim də xoşuma gəlir.

— Mən sizi bakılı Əsgərlə də tanış eləyə bilərəm. Tərbiyəli xanımı, iki oğlu var.

— Vaxtımız çox azdı. Sağlıq olsun.

— İndi İranda da xeyli boşalma gedib. Adamları çox sıxma-boğmaya salmırlar. Xomeyni zamanında gəlsəydiz...

O, son cümləni yarımçıq saxlayıb o tərəf-bu tərəfinə ehtiyatla göz gəzdirdi. Mən dərhal anladım ki, müsahibim nədənsə çəkinir. Kimsənin olmadığını yəqinləşdirib astadan yarımçıq qalan cümləsini tamamladı:

— ...İndi sizi neçəsi izləyirdi. Kiçicik ehtiyatsızlıq ucbatından jandarma aparıb sizi sorğu-suala çəkəcəkdilər: Kimsiz? Hardan gəlmisiz? Gəlməkdə məqsədiniz nədi? Siz hansı təşkilatın üzvüsüz? Nələr, nələr soruşacaqdılar sizdən. İlişməyə əlləri çatmasaydı belə, sizə əziyyət verəcəkdilər. Vay o günə ki, şübhələnəydilər... Onda ən aşağısı on-on beş gün zindanda yatmalı olacaqdız. Ancaq sizdə belə deyil. Sizdəki pis cəhət odu ki, çox

ruslaşmısız.

— Baba, şahın dövründə amerikanlılar dost olanda siz də ingilisləşmişdiniz. İndi demək olar ki, əsl iranlısız...

Müsahibim sözümdəki ironiyanı tutdu və güldü. Sonra dedi:

— Sizdə rüşvət yaman çoxdu. Hara gedirsənsə, “ver” deyirlər. Rüşvət özü də yolkəsənlikdi. Adamlara zülm eləməkdi. Əhalinin malına, puluna göz dikməkdi. Allahımızın elə şeylərdən zəhləsi gedir.

Söhbətin bu yerində başqa yaşlı kişi bizə yaxınlaşıb salam verdi. Sonra məndən: — Bakıdan gəlmisən? — deyə soruşdu.

— Bəli Bakıdanam.

— Bakıdan gəlmən üz-gözündən oxunur.

— Necə yəni?

— Azərbaycan dilində gözəl danışırsan. Qalstuq vurmusan. Səliqəli geyinmisən.

— Qəribədi, sizdə qalstuk vurmurlar? Səliqəli geyinmirlər?

Kişi güldü:

— Bax, xiyabandakı kişilərə. Gör qalstuk vuran varmı? Səliqəli geyimin cavabını da özün tap.

Həqiqətən də ikinci müsahibim deyən kimiydi.

Birinci müsahibim bildirdi:

— Əvvəllər, hansı kişi qalstuk vursaydı, jandarmlar gəlib qalstuku düz yarıdan qayçı qoyub kəsərdilər. Təzə-təzə ölkədə qalstuk vuranlar peyda olurlar. Qaldı səliqəli geyimə. Xiyabanda hamı sərbəst hərəkət elədiyindən — istədiyi yerdə oturub-durduğundan — heç kim təzə, səliqəli geyinməyə cəhd eləmir.

— Hə, belə deyin. Mən Bakıdan əynimdəki kostyumla gəlmişəm. Siz deyən kimi geyinənmərəm. Bunu adətlərinizə boyun əyməmək kimi dəyərləndirməyin. Ancaq söz verirəm, bir də İrana gəlsəm, siz deyənləri nəzərə alaram.

İkinci müsahibim:

— Elə bizə də bu lazımdı.





Sonra sözünə əlavə elədi:

— Danışdıqlarım zarafatdı. Kefinizi qaldırmaq istədim. Tehrana təşrif buyurmaqda məqsədiniz?

— Qəlb əməliyyatı olunmaq üçün.

— Şimallı qardaş-bacılarımız nədənsə çox axışırlar bura.

Mən gülümsünərək:

— Görünür, sizin həkimlərə bizdə inam güclüdü.

— Etiraf eləyək, həm də bir az ucuzluqdu. Dövlətin xəzinəsinə paranı keçirirsən, iş qurtarıb gedir... İnsaflıdılar... Məndən olsa, xəstədən para almasalar yaxşıdı, baba.

Mən gülümsünüb çiyinlərimi çəkdim.

Elə bu vaxt Məmmədrəhimlə Cavidan gəldilər. Mən müsahiblərimlə xudahafizləşdim. Sonra da taksiyə əyləşib "İnqilab hoteli"nə qayıtdıq.

## Mehri klinikası. Həsəntaşla görüş

**Elmin tacı alimin başındadı.**
***İraq atalar sözü***

**Elmin nəğməsi, loğmanın şücaəti el gəzər.**
***Qırğız atalar sözü***

Aprelin 2-də axşamüstü biz doktorla vədələşdiyimiz vaxt hoteldə görüşdük. Sonra da Savalanın maşınında İranın məşhur dövlət klinikalarından olan "Mehri"yə getdik.

Çoxmərtəbəli bu klinikanın binası olduqca möhtəşəm və əzəmətliydi. İçəri daxil olanda məni heyrət bürüdü. Çöldəki əzəmət eynilə özünü içəridə də büruzə verirdi. Səliqə-sahman, təmizlik, sakitlik öz yerindəydi.

Biz yuxarı mərtəbəyə qalxmaq üçün liftə yaxınlaşdıq. Elə bu vaxt liftin qapısı açıldı və içəridən orta boylu, qurğaz, sarışın, əl-

li-əlli beş yaşı olar-olmaz bir kişi çıxdı. Onun iti, qonur gözlərindən sanki ağıl yağırdı. Ürək açan, cazibəli, həm də amiranə səsi vardı. İlk baxışdan adama istiqanlı, mehriban təsir bağışlayırdı. Doktor onunla qucaqlaşıb öpüşdü, sonra soruşdu:

— Gedirsənmi, Həsəntaş?

— Yox... Pəncərədən gəlişinizi gördüm. Sizi qarşılamaq üçün aşağı düşdüm.

Biz Həsəntaşla liftə minib yuxarı qalxdıq. Kabinetdə doktor bizi bu adamla tanış elədi:

— Tanış ol, mənim qonağımdılar. Ağarəhim Rəhimov, elmlər doktoru, professor. Yazıçı. Bakı Qızlar Universitetinin rektoru. Kəsəsi və ən başlıcası mənim dostum. Təsadüfi adam deyil. Adamların sərrafıdı.

Mən utandığımdan qızarırdım:

— Ay doktor, məni az tərifləyin.

— Mən qənaətlərimi deyirəm. Niyə utanmalısan ki. Həqiqətə nə müzayğı?

Doktor sonra qardaşımla oğlumun qısa təqdimatına keçdi:

— Məmmədrəhim Ağarəhimin qardaşı, Cavidansa oğludu. Qaldı mənim həmşəhrimə...

Üzünü mənə tutaraq sözünə davam elədi:

— Bu Seyid Əhməd Həsəntaşdı. Milliyyətcə farsdı. Bacarıqlı qəlb cərrahıdı. Tibb elmlər doktorudu, profesordu. Onun şöhrəti təkcə İranda deyil, dünyanın bir çox ölkələrində yayılmışdır. Yaxşı həkim, şəfaverici insan təkcə öz xalqının övladı, ölkəsinin vətəndaşı ola bilməz. Mən deyərdim bütövlükdə bəşəriyyətin təmsilçisidir. Əlləri qızıldı. Demək olar ki, hər gün qəlb əməliyyatı aparır. Qorxmağa, çəkinməyə dəyməz. Mən Həsəntaşa özüm qədər inanıram, etibar eləyirəm... Xəstə də gərək həkimə qəlbən inansın.

Mən dərhal:

— Siz haqlısız, doktor, bizi bura gətirib çıxaran inam hissidi.





Ümid bağlamasaydım, gəlməzdim.

Hamı gülüşdü. İlk görüş elə xoşhallıqla keçdi ki, sanki Seyid Əhməd Həsəntaşla biz illərin tanışlarıydıq. Bir-birimizə dərdsərimizi açıb danışa bilərik... Onun ürəkaçıqlığı bir andaca hamımızın əhvalımızı qaldırdı. Bakıdan apardığımız tibbi sənədləri, bir ədəd kaseti həkimə verdim. O, sənədləri nəzərdən keçirərək bizə: — Gəlirəm, — deyib kasetlə kabinetdən çıxdı. On dəqiqə keçər-keçməz geri qayıtdı:

— Vaxtında gəlmisiz... Ağarəhim, Bakıda sizə nə deyiblər, bilmirəm. Qardaşım, mütləq əməliyyat olunmalısız. Geciksə, fəsadları olar.

Cavidan dərhal soruşdu:

— Qarant nə qədərdi?

— Doxsan faiz.

Cavidan təlaş içərisində bildirdi.

— Yox, əməliyyatı saxlayaq.

Doktor Cavad Heyətlə həkim Seyid Əhməd Həsəntaş üzümə baxdılar. Mən gülümsündüm. Hər ikisinin sual dolu baxışları üzümə zilləndi. Mən dərindən nəfəs aldım. Açığını deyim, üzünə vurmasam da, içimdə oğlumun dediklərindən məmnunluq duydum və sakit halda dedim:

— Yox, oğlum, əməliyyat olunacam. Qorxmaq lazım deyil. Bir də ki vəziyyətimi mən hamıdan yaxşı bilirəm...

Doktor dərhal:

— Ağarəhim, qərarınız doğrudu.

Qardaşım elə bil donmuşdu. Sözü yoxıydı. Baş verənləri sanki eşitmirdi. Sakitcə danışanların üzünə baxırdı. Kənardan baxan olsaydı, düşünərdi ki, o, deyilənləri ya başa düşmür, ya da özündə deyil, donuq vəziyyətdədi... Qərar qətiləşdi. Oğlum bizim dediklərimizlə razılaşmağa məcbur oldu. Ümumi razılığı görən Həsəntaş dedi:

— Sabah saat 15-də "Lale" özəl klinikasında əməliyyat apa-

racam. O klinikada texniki avadanlıqlar çox yaxşıdı. Hər cür şərait var. Qorxmayın. Hər gün İranda yüzdən artıq ürək əməliyyatı olunur. Siz vaxt itirmədən gedin "Lale" klinikasına. Mən indicə telefon açacam ora. Sizi qəbul eləyəcəklər. Bir azdan mən də gələcəm. Palatada görüşərik...

Biz "Mehri" klinikasından çıxdıq.

## "Lale" klinikası. Əməliyyata hazırlıq

**Allaha ən yaxşı xidmət insanlara xidmətdir.**
***Məhəmməd Əlehissəlam***

Lale klinikası Tehranın yaşıllığa qərq olan ərazisində yerləşirdi. Burda müasirlik daha çox diqqəti cəlb eləyirdi. Klinikaya daxil olan kimi doktor qəbul otağına yaxınlaşıb cavan oğlana dedi:

— Həsəntaş sizə telefon açıbmı?

— Bakılı qonaqlar üçün?.. Sizsiz?..

Doktor məni göstərərək dedi:

— Bəli! Ağarəhim üçün.

— Palata hazırdı.

Biz qeydiyyata alınıb üçüncü mərtəbəyə qalxdıq. Palata təzə təmirdən çıxmışdı. Geniş, işıqlı, səliqə-sahmanlı və təmiziydi. Otaq böyük olsa da, orada qəlb xəstəsi üçün nəzərdə tutulmuş dörd tərəfi bağlı xüsusi bir çarpayı qoyulmuşdu. Girəcəyin sağ tərəfində, küncdə əlüzyuyan, hamam və ayaqyolu vardı. Otaq binanın cənubunda olduğundan onun pəncərələri də günəşə baxırdı. Qüruba çəkilən günəşin son, solğun şüaları pəncərə şüşələrini deşib döşəməni bürümüşdü. Onlar da utancaq qonaq kimi, hiss olunmaz dərəcədə solğun şəfəqlərini yığıb-yığışdırıb gedirdilər. Yerlərini kölgəvari tül örpək tutmaqdaydı. Mən — İnsan





ömrü də belədi, uşaqlığı zərif, kövrək, gəncliyi parlaq, ahıllığı isə öləziyən şüaları andırır. Şüaların çəkilib getməsi və yerini nəyəsə verməsi qüruba dəlalət eləyir, — deyə düşündüm... Çox çəkmədi ki, şəfqət bacıları mənə yüngül paltar, ağ xalat və çəkələk gətirdilər. Paltarlarımı dəyişib çarpayıya uzandım. Elə bu vaxt Həsəntaş da gəlib çıxdı. Doktor üzünü ona tutdu:

— Mümkünsə, Ağarəhimin yanında qardaşından, oğlundan biri qalsın, Həsəntaş.

Həkim başını aşağı-yuxarı tərpədərək astadan dedi:

— Narahat olmayın, ustad, deyərəm, lap iki çarpayı qoyarlar, oğlu da qalar, qardaşı da...

— Çox sağ ol.

Mən Həsəntaşın gözlərinin içinə baxdım. Qəribəydi, ilk baxışdan insanda bu qədər yaxınlıq hissləri necə yarana bilərdi? Bu yaxınlıq tez bir zamanda mənim ona insani inamımdan doğurdu, yoxsa onun həkim psixoloqluğundan? Əgər ikincisidirsə, Həsəntaş və onun sənətinin qüdrəti alqışa və sevgiyə layiqdi... Bəlkə də belə hisslər paxıllıqdan, riyadan xəbərsiz qəlbləri büllur uşaqlarda ola bilərdi. Yaşlı adamlarda çox çətin… Belə çıxır ki, indi biz də o uşaqlar kimiyik. Biz də təmizik. Biz də təmənnasızıq. İçimizdə xılt yoxdu. Bizi indi yaşadan Allahımızın insanlara bəxş elədiyi mərhəmət, xeyirxahlıq duyğularıdı. Ani olaraq başımdan belə bir fikir keçdi: kaş insanlar həmişə belə olaydılar?.. Etiraf eləyim ki, ağır imtahana gedəcəyimi bilə-bilə məni anlaşılmaz, əcaib-qəraib hiss də, dolaşıq, müəmmalı fikirlər də qamarlayırdı. İçimdə qorxu, təlaş, vahimə əvəzinə, hardasa, mənzil başına çatmaq istəyindən doğan xoşhallıq, yüngüllük təlqin eləyən sevinc hissləri də peyda olurdu. Bunun səbəbi nə idi, o nədən qaynaqlanırdı? Doğrusu, heç ağlıma da gətirə bilmirəm. Həsəntaşın səsi məni qarmaqarışıq duyğulardan ayırdı. O, dedi:

— Mən tapşırıq vermişəm. Gecə də olsa, Ağarəhimi əməliy-

yata hazırlasınlar. Ustad, Savalanla siz də gedin, dincəlin...

Bizimlə xudahafizləşən həkim Seyid Əhməd Həsəntaş qabaqda, ustad Cavad Heyətlə şair Savalan da onun ardınca palatadan çıxdılar. Çox çəkmədən iki cavan oğlan — xidmətçilər palataya əlavə iki çarpayı da qoydular. Biz palatada rahatlanmalı olduq. Ancaq hər birimiz — mən, oğlum, qardaşım — özümüzü xeyli sakit göstərsək də, əməliyyat barədə bir kəlmə ağzımıza almasaq da, ayrı-ayrılıqda sabah keçiriləcək əməliyyatın hardasa tərəddüd, qorxu, vahimə doğuran müəmmalı düşüncələri beynimizdə dolaşırdı… Qapı açıldı, qeyri-ixtiyari üçümüz də çönüb geri baxdıq. Xidmətçi otağa üç nəfərlik şam yeməyi gətirdi. Heç birimizin yeməyə həvəsimiz yoxıydı. Buna baxmayaraq, mən çarpayıdan qalxıb stola yaxınlaşdım. — Gəlin, şam eləyək, — dedim. Qardaşımla oğlum iştəhasız da olsa, süfrəyə əl atdılar. Bir-iki tikə kəsmişdik ki, Cavidana Bakıdan telefon açıldı. Zəng oğlumun işlədiyi şöbənin müdirindəniydi: O dedi:

— Cavidan, səhər işdə olmalısan.

— Necə yəni?.. Bu, mümkün deyil.

— Niyə?

— Mən Tehrandayam. Bir də ki dünən məzuniyyətə çıxmışam. İndi də geri çağırılıram, xeyirdimi?

— Xeyirdi... Sənin vəzifəni nazir əmr verib qaldırıb. Mütləq geri qayıt.

— Atam sabah ürəkdən əməliyyat olunacaq. Belə vəziyyətdə mən atamı tək, kimsəsiz qoyanmaram.

— Onda əməliyyatdan sonra...

— Yox... Belə vəziyyətdə nə iş?..

Cavidanın səsi gərildi... Xudahafizləşib telefonunu söndürdü. Sir-sifəti bozardı. Mən dərhal dedim:

— Şöbə müdirinin günahı nədi, elə danışırsan? Mənim xəstələnməmdə onun günahı var?.. Danışığın heç xoşuma gəlmədi. Düşünüb-daşınmadan cavab verməzlər. Sən sabah Bakıya qayıtmalısan, oğlum.





Heç vaxt sözümü çevirməyən Cavidan ilk dəfə:

— Yox, ata, səninlə birlikdə qayıdacam. Kövrəldi... Səsinə ara verdi. Hisslərin burulğanında: — Vəzifəni... — dedi.

Vəziyyəti mənə də təsir elədi. Tutuldum. Sonra sakit tərzdə bildirdim:

— Yox... Qayıt... Bir halda ki sənə böyük etimad göstəriblər... Etimadı qiymətləndirməmək...

Qardaşım sözə qarışdı:

— Mən burdayam, Cavidan, hər gün telefonla əlaqə saxlarıq, atanın vəziyyətindən xəbərdar olarsan. Atan mənə canımdan da əzizdi.

Xeyli çəh-çöhrdən sonra, axır ki, Cavidanı əməliyyatdan sonra Bakıya qayıtmağa razı sala bildik.

Şəfqət bacıları tez-tez palataya gəlir, kimisi mənə həb içirir, kimisi də iynə vururdu... Söhbət gecədən xeyli keçənə qədər uzandı. Gözlənilmədən, hardansa beynimdən belə bir fikir keçdi: işi bilmək olmaz. Ağır əməliyyat. On faiz şanssızlıq... Böyük rəqəm... Deməli, hər şey ola bilər... Nəfəsdi, getdi, gəlmədi. Ya həkimin əli titrədi. Onda nə olsun? Ailəmə, övladlarıma deyiləcək sözlərimi, məramımı heç kimə bir kəlmə də demədən, özümlə çəkib aparmalıyammı? Bu, görünməmiş məsuliyyətsizlik olardı. Yaxşısı budu, vəsiyyətimi eləyim, ürəyimi boşaldım. Rahatlanım... Düşündüklərimi, ürəyimdən keçənləri söylədikcə oğlum kövrəlir, hey: — Yaxşı, ata, yaxşı, — deyə nəfəsi daralırdı. Bir söz deməsə də, qardaşımın da halı dəyişirdi. İçində yaranan təlatümlü hisslərinin, fikirlərinin toqquşmasını, qəm, kədər yükünün altında boğulmasını gözlərindən oxuyurdum. Onlar nə deyəcəklərini bilmədilər. Vəsiyyətimi etməkdən savayı özgə çarəm də yoxıydı... Sözümə qəflətən ara verib: — Qanınızı yamanca qaraltdım, yatar vaxtdı, işığı söndürün, yataq, gecdi, — dedim... Ancaq gözlərimi yumsam da yata bilmədim. Sual və

heyrət doğuran mülahizələr, ziddiyyətli ideyalar məni culğaladı. Başqa vaxtlar ağlıma gətirənmədiyim düşüncələrim, daim yaşamaq arzusuyla döyünən ürək çırpıntılarım, söz və ifadələr çarpışması birə yüz artırdı... Mahiyyətcə sağlam, işıq, nur saçan ideyaları həmişə təqdir eləyərək çürüklərinə, saxtalarına nifrət eləmişəm. Zəruri anlarda şəxsi, təlatümlü düşüncələrimi açıq və cəsarətlə bildirmişəm. — Bir şeyi anlamayan, özgə sözüylə ömür qət eləyən adam azıb yolda qalar — prinsipini özüm üçün meyar seçmişəm. Orijinal fikirlərin, ədalətli düşüncə və əməllərin tərəfində dayanmışam. Seyirçilikdən qaçmışam. Həmişə düşünmüşəm: seyirçilik, fotoqrafçılıq, diktafonçuluq **Mən** deyil; kiminsə mənliyinə, ruhuna şəriklikdi... Açıq danışaq. Bizi doğma elimizdən, yurd-yuvamızdan Tehrana gətirib çıxaran elmimizin kasadlığıdı. Mənəviyyatımızın erroziyasıdı. İmkansızların günahı nədi? Bu, nə vaxta qədər belə olmalıdı?! Bu savadsızlığın səbəbkarı kimlərdi?! Aidiatı şəxslərmi?! Rüşvətmi?! Milli şüura biganəlikmi?! Xalqa üstdən aşağı baxmaqmı?! Aman Allah, bu əcaib-qəraib ağılla hara gedirik? Bunun sonu nəylə qurtaracaq?! Yeni fikir, yeni ideya, yeni düşüncə tendensialılıqdan doğmurmu? İstedadlı xalq ola-ola, niyə faciəvi anlar yaşamalıyıq?! İstedadlarımızın üzə çıxmasına niyə şərait yaratmayaq, nə üçün təkan verməyək?! İnkişafa bu laqeydlik nədən doğur? Nəyimiz yoxdu? Sərvətimiz?! Dərinliyimiz?! Çevikliyimiz? Cürətimiz? Cəsarətimiz?! Yox!.. Yox!.. Yox!.. Xalqa istək. Ümumxalq mənafeyi güdmək. Kim qaçaq, quldur yoluyla əldə nə eləyirsə, düşünür ki, atasından mirasdı. Hər şey ağılın işığında üzə çıxmalıdı. Təhlil olunmalıdı. Lap ehtiyac duyulsa, üsyançı mövqeyə keçilməlidi. Günahkarlar tapılıb cəzalandırılmalıdı...

— Sağlam bədəndə sağlam ruh olar — deyirlər. Özümüz millətin sağlamlığı qeydinə qalmasaq, barəmizdə kim, nə düşünəcək? Kimdən çarə gözləməliyik, mərhəmət ummalıyıq?!





Tibb elmi zirvəyə qalxdığı zəmanədə yollar aramaq əvəzinə, hara baxırıq?! Tibbi fikrin dərinliyini və sənət tutumunu açmaq özü bir milli qeyrət, inkişaf, xalqa xidmət deyilmi?!

Deyirlər, hər şeyə öz qiymətini hissə qapanıb, artırıb-əskiltmədən, qaldırıb-endirmədən verə bilmək ədalətin təccəssümüdü. Mən də bu fikrə qarşı çıxmıram, ancaq bunun üçün zəngin bilik, dərin hissiyyat, fövqəl ağıl lazımdır ki, yaranmış vəziyyətə layiqli dəyərini verəsən... Dərin ağıla, incə istəyə, milli qeyrətə əsaslanmadan həyatı anlamaq, xəstəni duymaq, onunla təmasda olmaq, halına yanmaq müşkül məsələdi. Həyat dərkin simvoludu. Əks təqdirdə, millətin nicat yolu yoxdu. O, ağır dərd, qəm yükü altında inləməyə məhkumdu... Əzab-iztirab doğuran bu düşüncələr içərisində nə vaxt yuxuya getdiyimi bilmədim.

Aprelin 3-də yuxudan erkən oyandım. Bir stəkan çay içmişdim ki, 30 yaşı olar-olmaz bir həkim şəfqət bacısıyla palataya gəldi. — Ağarəhimov, əməliyyata getmək üçün razılıq verməlisiz, — dedi. Oğlumla qardaşım diksindilər. Cavidan heyrətlə üzümə baxıb gözləri doldu. Mən başımı yelləyərək dedim:

— Cavidan, burda qeyri-adi nə var ki? Tək biz razılıq vermirik. Əməliyyata gedən bütün passientlər razılıq verməlidirlər. Bu, qanundu.

Səsimə ara verib, üzümü həkimə tutdum:

— Razı olmasaydım, neçə min kilometr yolu basa-basa Bakıdan Tehrana gələrdimmi?

— Bilirik, bizdən də tələb olunur.

— Verin sənədi, imza atım.

Şəfqət bacısı sənədi vermişdi ki, qardaşım qalxıb otaqdan çıxdı. Cavidan pəncərəyə yaxınlaşıb həyətə baxdı. Dərhal anladım ki, qardaşımın dəhlizə çıxışı, Cavidanın həyətə baxışı keçirdikləri hissləri məndən gizlətməyə xidmət edir. Diyircəkli qələmlə fars qrafikalı yazının altına imza atdım. Sonra da Azər-

baycan dilində latın qrafikası ilə belə yazdım: "Üzərimdə ürək əməliyyatı aparılması üçün öz istəyimlə Bakıdan Tehrana gəlmişəm. Əməliyyata razıyam..." Qələmi və yazdığım iltizamı şəfqət bacısına verdim. Bir andaca mənə elə gəldi ki, mənimlə oğlum, qardaşım və eləcə də yanımda olmayan digər doğmalarım arasında nəhr yarandı. Bütün istəklilərim birdəfəlik çayın o sahilində qaldılar, mənsə bu sahilində. Biz heç vaxt görüşə bilməyəcəyik... Bu hisslərin təsiri altında başımı balınca qoydum. Özümdən asılı olmayaraq, ölümüm üçün yox, ayrılıq üçün çox kədərləndim, daxilən qəhər məni boğdu... Şəfqət bacısıyla həkim gedəndən sonra qardaşım palataya qayıtdı. Cavidan stulda əyləşdi. Bir müddət hamımız süst qaldıq. Kəlmə kəsmədik. Hərəkətlərim, bəzən dediklərim yaşıma, xarakterimə uyğun gəlməsə də, qardaşımla oğlumun əhvalını qaldırmaq üçün ayağa qalxıb musqullarımı oynatmağa başladım.

— Kişi möhkəm və cəsarətli olar... Qorxaqlar aciz olurlar... Atalar yaxşı deyib: "Qorxan gözə çöp düşər". Evdən telefon açsalar, əməliyyata getdiyimi hələ ki onlara deməyin.

Cavidan astadan:

— Qasım müəllim bilir.

— Gərək deməyəydiz, həyəcan keçirəcəklər.

Elə bu vaxt telefon zəng çaldı. Danışan Sevinciydi. Mən dərhal cavab verdim.

— Eşidirəm...

— Ata, sənsən.

— Hə...

— Əməliyyat...

— Yox... Qaldı üç gün sonraya.

— Bəs Qasım müəllim...

— Biz də elə bilirdik. Sən demə, əməliyyata hazırlanmalıyammış.

— Yaxşı... Sabah zəng çalacam. Sağ ol.





Bir anlığa elə bil içim sökülüb-dağıldı. Ancaq özümü o yerə qoymadım: — Hələlik, — dedim, sonra gülə-gülə üzümü Cavidana tutdum:

— Adama belə yalan deyərlər. Yalanın da öz deyimi, öz təsir gücü var.

Mən danışdıqca qardaşımla oğlum gülümsünərək halımı az da olsa mənə unutdurmağa çalışırdılar. Qəsdən dedim:

— Əməliyyat qurtarandan bir həftə sonra biz Bakıdayıq. Ona kimi yəqin onuncu cild də çap olunar. Gərək onun yaxşı müzakirəsini keçirək. Qalır əlyazmalarım. Sağlıq olsun... Ömür vəfa etsə... Etməz, Cavidan sağ olsun. Onun kimi oğlum var...

Söhbətin bu yerində üç şəfqət bacısı ilə iki həkim palataya gəldi. Mənə bir neçə həb içirtdilər, iynə vurdular... Vəziyyətimi öyrəndilər.

Saat 3-də məni əməliyyata apardılar. Dəhliz boyu gözlərimi yumdum. Sağımda və solumda addımlayan qardaşımla oğlumun solğun üzlərinə, qəmli, kədərli gözlərinə baxmamağa, artıq-əskik söz deməməyə çalışırdım. Yavaş-yavaş məni həlim bir duyğu bürüdü. Özüm də bilmədən dünyamdan ayrıldım...

## Reanimasiya otağı

**Qoca dünya çoxun yola salıbdı,**
**Köçən köçüb, köçməyənlər köçəcək.**
**Qafil, içmə bu gün əcəl şərbətin,**
**İçən içib, içməyənlər içəcək.**

*Aşıq Alı*

Gözlərimi açanda başqa palatada olduğumu duydum. Xüsusi çarpayıda uzanmışdım. Həkimlərin, şəfqət bacılarının əhatəsindəydim. Sağımda birinci ustad Cavad Heyət, solumda isə həkim Həsəntaş dayanmışdı. Qalanları tanımırdım. Qardaşımla oğlum ayaq tərəfimdə dayanıb nigaran, solğun, durumsuz baxışlarını üzümə zilləmişdilər. Hardasa, gözlərinin lap dərinliklərində get-gedə kədərlə yanaşı sevinc işartıları da duyulmaqdaydı. Tədricən üzlərində ötərgi təbəssüm sezilir, o da bir an içərisində əriyib yox olurdu. Mən nəzərlərimi ətrafımda dayananların üz-gözündə gəzdirdim. Sonra üzümü həkim Həsəntaşa tutdum:

— Həkim, deyəsən, çox yatmışam. Yuxum dərin olub, gəlişinizi bilməmişəm. Elə bil palatam da dəyişib.

— Hə... 24 saat... Sən indi reanimasiya otağındasan.

— Hə...

Qardaşım:

— Əməliyyat olunmusan... Gözümüz aydın, cərrahiyyə uğurlu alındı.

Mənə elə gəlirdi ki, dünənimlə bu günümü sanki bir-birindən bir illik zaman məsafəsi ayırdı. Başqa vaxtlar yaddaşıma nə qədər güvənsəm də, dünənkilərlə bu günkülər arasında min illiklərin arxasından boylanan dağ çayı, ağlagəlməz bir uçurum hiss eləyirdim. Başımın üzərindəki duman, çən ayazıyır, ayazıdıqca da özünə lövbər salan qara buludlar çəkilirdi. Məscid yaxındaydı, uzaqdaydı deyənmərəm. Azanı andıran “Zəlimxarə”nin qaboyda pərdə-pərdə ətrafa yayılan incə və düşündürücü, yanıqlı iniltisi hərdən-hərdən qulağıma gəlir, beynimə, ürəyimə süzülür, həzin-həzin, ova-ova içimi göynədirdi.. Göynətdikcə də səslər qəlbimin pünhan guşələrinə sığınıb mürgü döyən qübarımı havalandıraraq ya bir başa, ya da dolayısıyla sakit-sakit iliyimə çökdürürdü. Kövrək hisslərim sökülən dan yerindən parlayan günəşin zəif və zərif şüalarının təsiriylə əriyən qarımış qüzey qarının sızqaları tək ismətindən qızaran, məsum qız yanaqlarından dığırlanan göz yaşlarını xatırladırdı mənə. Əməliyyatdan əvvəl baş verənlər indi qırıq-qırıq, dolaş-bulaş, qarmaqarışıq halda təsəvvürümdə canlanırdı. Çox şey davamsız, çox şey ötərgi...

Başımı köksümə tərəf əydim. Lentlə sinəmə yapışdırılmış pambığı görcək bədənim ürpəşdi. Çarpayıda yan üstə dönmək istədim. Həkim əlini çiynimə qoyub: — Tərpənmək olmaz, — dedi. Elə bu vaxt gözlərim çarpayının aşağısına dikildi. Ayaqlarımın ağ mələfədən çıxan baş barmaqları sapsarıydı, yetişmiş əriyi andırırdı. Bir anlığa: "Yəqin, üz-gözüm də belə olar?" — deyə düşündüm. Əllərimə, qollarıma baxanda gözlərimə inanmadım. Təsəvvürə gəlməz dərəcədə şişmişdi. Əlimi üzümə apardım. Burnumda oksigen cihazı olduğunu hiss elədim. Şəfqət bacısı dərhal əlimi üzümdən ayırıb yanıma qoydu. — Əl vurma, — dedi. O da yadımdadı ki, həkim Həsəntaşın işarəsiylə bir başqa şəfqət bacısı mənə bir qurtum sərin su verdi. Su boğazımdan keçər-keçməz elə bildim dünyaya yenidən gəldim. Altmış iki illik ömrümdə heç vaxt suyun belə şəfa vericiliyini duymamışdım, təsəvvür eləməmişdim. Həsəntaş dedi:

— Çox yaxşısan, Ağarəhim. Səni çox danışdırmaq olmaz. Öskürəcəksən, o səni bir az narahat eləyəcək. Unutma, öskürək sənə xeyirdi. Sinəndə toplanan artıq şeylərin çıxmasına kömək eləyəcək. Ancaq ehtiyatlı ol...

Ustad:

— Dostum, dörd damarın dəyişib. Deyilənlərə əməl eləsən, tezliklə ayağa qalxacaqsan. Nə lazım olsa, şəfqət bacılarına de.

Doğrusu, ustadın "dostum" sözü məni bərk tutdu. Etiraf eləyim ki, bu sözün əzəmət və möhtəşəmliyini heç vaxt indiki qədər anlaya bilməmişdim. Qanadlarım olsaydı, o andaca bəlkə də uçardım. Gözlərim yaşardı. Elə bil əməliyyatdan sonra reanimasiya otağında yatan mən deyildim. Xudaya, söz nə böyük hikmətmiş?! Dünyaya fəlakət gətirən, qırğın salan söz... Əmin-amanlıq yaradan sülh, ürəklərə məlhəm gətirən söz. Sevinc və kədərin, istək və qəmin, məhəbbət və nifrətin… ifadəçisi söz… Şükür sənin qüdrətinə, İlahi!!!.

— Dörd damar?! Əcəb işdi... Sözləriniz qanundu, ustad!

Qəhərləndiyimi duyan qardaşım məni fikrimdən yayındırmaq üçün dedi:

— Qardaş, mən Cavidanı yola salıb gələcəm. Hoteldəki əşyalarımızı da yığışdırıb gətirmişik palataya. Vəziyyətindən ailə də xəbərdardı...

O, düz gözlərimin içinə baxdı. Orda nələr yoxıydı: əzab-istirab, ağrı-acı, nigarançılıq... Nələr... Nələr... Oğlumdan savayı hamı çəkilib getdi. İkimiz qaldıq. Gözləri dolan, dodaqları səyrişən Cavidan üzümdən öpdü. Titrək səslə: — Ata, bəlkə qayıtdım, — dedi. Onun gəlişinə mən etiraz elədim... Nəhayət, o, ayaqlarını sürüyə-sürüyə, könülsüz halda qapıdan çıxdı. Ancaq özü getsə də, oğlumun hissi, həyəcanı, sevgisi, kədəri, fikri-düşüncəsi mənimlə qaldı. Reanimasiya otağı, bir də tək mən. Ağrı-acılarımla baş-başa... Acılı-şirinli həyatın müəmmaları. Vəfasız, sirli, qeyli-qallı, fani dünyanın dərdi-sərləri. Yaşam və Ölüm... Mən və məchul düşüncə.. Kədər və sevinc… Qaranlıq və işıq… Hansını deyəsən? Aqibətimi bunlardan hansı müəyyən eləyəcək? Qapı açıq olduğundan dəhlizdə əyləşən nəzarətçi şəfqət bacısı bir an da olsun gözlərini məndən yayındırmırdı. Hərdən-





bir bu fars qızı azərbaycanlı rəfiqəsiylə (o da şəfqət bacısıydı) otağa gəlir, gülümsəyir, məni söhbətə tutur, Bakıdan nəsə öyrənməyə çalışırdılar. Mən də mızıltılarla, pıçıltılarla onlara yarı-yarımçıq bir şey sezdirməyə çalışırdım. Onu da bilirdim ki, Bakı Cənubi azərbaycanlılar, xüsusilə bu qızlar üçün çox maraqlıydı...

Hər gün həkim Həsəntaş, ustad Cavad Heyət, şair Savalan mənim yanıma gəlir, hal-əhval tutur, vəziyyətimi öyrənir, məsləhətlərini verib gedirdilər. Əməliyyat olunduğumun dördüncü günü adəti üzrə səhər Həsəntaş gəldi. Əhvalı yüksəkiydi. Vəziyyətimi yoxladı, darıxıb-darıxmadığımı soruşdu. Mən üzüntülü səslə nagüman bir tərzdə bildirdim:

— Belə də, həkim.

— Bilirəm, Ağarəhim, sən əməliyyatdan sonra yeyə bilmirsən. O, səni halsızlaşdırır. Şəkərin olduqca yüksəkdi. Şəkər həkiminlə danışmışam. Şəkərin onun nəzarətindədi. Təcrübəli həkimdi, tezliklə o, şəkərini qaydasına salacaq. Şəfqət bacıları səni bu gün qaldırıb gəzdirəcəklər.

— Nə tez, həkim?

— Tez deyil. Ürək də şəkər də gəzmək tələb eləyir. Sənə yemək-içmək lazımdı. Bir də ki istəyirəm, reanimasiya otağında səni üç gün artıq saxlayım.

Bunu eşitcək elə bil içimdə nəsə qırıldı. Həkimin gözlərinin içinə baxdım. Baxışları bumbuz olduğundan heç nə anlayanmadım. Yaşamaq ümidlərim əriyib bir andaca elə bil yox oldu. Təcrübəli psixoloq kimi, həkim beynimdən keçənləri dərhal başa düşdü və sözünə davam elədi:

— Narahat olma, burda nəzarət daha güclüdü. Axı sən qonaqsan. Qonaq Allahın da yanında əzizdi.

İçimdə dərin bir səksəkə, hardasa çəkinəcəklik olsa da, həkimin dediklərinə əsasən, inandım. Başqa çarəm də yoxıydı. Məndə ona rəğbət hissi güclüydü. O, qarasaçlı, badamı gözlü,

cavan şəfqət bacısı Dinarəyə tapşırıqlarını verib getdi. Az sonra Cavad Heyətlə Savalan gəldilər. Cavad Heyət Həsəntaşın sözlərini təkrarladı və onu da əlavə elədi:

— Ürəyinə qorxu, hürkü gəlməsin. Səndən arxeyin olmaq istəyirəm.

— Ustad, sizə təşəkkür eləyirəm... Sizə çox borcluyam.

— Biz heç bir iş görməmişik. Dost yolunda əzab-əziyyət, gəliş-gediş ancaq adama xoşhallıq gətirər. Biz harda yaşamağımızdan asılı olmayaraq, o taylı-bu taylı bir millətik. Öz qədrimizi bilməsək, bizi kim dəyərləndirər ki?..

Həmişə az danışan, susmağa üstünlük verən şair Savalan axır ki, dilləndi:

— Ağarəhim, mən ilahiyyata, ilahi dinə inanan adamam. Əqidəmcə, ilahiyyat yoxsa, insanlıq da, ali keyfiyyətlər də ola bilməz. Tanışlığımız müddətində tam əmin oldum ki, siz də Allah adamısız. Ona görə də yaradanın mərhəməti daim üstünüzdə olacaq. Arxeyin olun, qorxub-çəkinməyin.

— Çox sağ olun. Allahın mərhəmətinə şükür. Gedin, sizin də işləriniz, görüşəcəyiniz adamlar çoxdu.

Ustad:

— Narahat olma... Biz hər gün gəlib səninlə görüşəcəyik.

Onlar xudahafizləşmişdilər ki, şəfqət bacısı üzündə təbəssüm çarpayıma yanaşdı:

— Ağarəhimov, siz doktor Cavad Heyəti hardan tanıyırsız?

— O, böyük şəxsiyyətdi. Şimali Azərbaycanda uşaqdan böyüyədək doktoru tanımayan, ona hörmət və ehtiram bəsləməyən adam yoxdu... Biz azərbaycanlılar böyük şəxsiyyətlərimizi öləndən sonra qədirləndiririk. Axı başı qarlı dağlar uzaqdan əzəmətli görünür.

— Düz deyirsiz... Ancaq mənə tapşırıq var ki, sizi az danışdıraq. Mümkün olsa, heç danışdırmayaq... Nəfəsinizi çox ehtiyatla alın. Nəfəsin ritmi, ahəngi pozulanda öskürək yaranır. O





da sizə əziyyət verir.

— Hə... Öskürəndə sinəmdə dözülməz göynəmə yaranır. Elə bil sinəmdə mina partlayır. Onun qığılcımları, qəlpələri bir andaca sinəmin hər tərəfinə yayılır. Mən o dəhşəti sözlə ifadə eləyənmirəm.

— İndi necəsiz?

— Şükür olsun Xudaya, hələ ki nəfəsim gedib-gəlir.

— Çox danışmağı sizə gah qüsur tuturam, gah da sual verib danışdırıram. Sizinlə görüşə klinikanın işçisi Əyyub Ağa gəlib. Onun gəlişinə mane ola bilmədim. Əslən azərbaycanlıdı. Çalışın, Ağanı yanınızda çox saxlamayın.

Mən təəccübləndim. Xanım təəccübümü görcək əlavə elədi:

— Qəbul eləməniz məsləhətdi.

— Başımla: — De gəlsin, — işarəsini verdim. Xanım palatadan çıxan kimi Əyyub Ağa gəldi. Ucaboy, gülərüz, qara saçları yana daranmış bu adamın 30 yaşı ancaq olardı. Əyninə kip oturmuş boz kostyum geymişdi. Əlindəki qara dolu zənbili stolun üstünə qoydu və mənə yaxınlaşıb çox ehtiyatla əl verdi:

— Salam olsun Ağarəhimova.

— Salam olsun sizə.

— Çox dayanmayacam yanınızda. Eşitdim şəkəriniz çoxdu. Bazardan aldığım meyvələrdən evdə şirə çəkdirmişəm. Gətirdim, bu şirələrdən içəsiz. Qorxmayın, şirələr sizə ziyan eləməz... Sizə tez-tez baş çəkəcəm...

Təşəkkürdən savayı deməyə sözüm qalmadı. O, zənbili açıb şirə dolu şüşələri stolun üstünə qoydu. Sonra da əl verib məndən uzaqlaşdı. Doğrusu, Əyyub Ağanın gəlişi kimi, gedişi də məndə maraq oyatdı. Bu cavan oğlan kimdi? O, niyə mənə xeyirxahlıq göstərməliydi? İnsan qəribə məxluqdu. Pislik edənə bir cürə xeyirxahına başqa cürə şəbədə qoşur. Gör hansı suala cavab axtarıram: “o, niyə mənə xeyirxahlıq göstərməliydi?” Xəstə adamın gülməli və təəssüfləndirici sualı... — Bəlkə məndən işi keçəcək

— deyə düşünnəm. Bəlkə mənə nəyə görəsə yarınmaq istəyir?.. Bəlkələrin tələb olunan anormal məqsədlərin açılışına yönələn səfeh mülahizələr... Niyə ağlımıza gətirmirik ki, axı biz insanıq. insan Allahın əzizidi. O, ən ali keyfiyyətlərin daşıyıcısıdı. Şübhə eləmirəm ki, bu cavan oğlanda Allahsevərlik var. Qanında, canında ruhani hisslər yaşadır. Xəstəyə qayğı, nəvaziş nəcib kəslərin ruhundadı. Mahiyyətindədi. Atalar yaxşı deyib: "Nə əkərsən, onu da biçərsən". Əyyub Ağa, Allah sizinlə olsun. Həmişə onun nəzərində olasız. Sizə nə arzulaya bilərəm? Özünüz hər şeyə qadirsiz. Təmənna ummadan bazara get. Xərc çək. Meyvə al. Evə gətir. Evin xanımına, ya özünə əziyyət ver, şirə çəkdir. Sonra da tanımadığın, əsli-zatından xəbərsiz olduğun bir adama gətir... Bunu ancaq böyük Yaradana xidmət eləyən əməli salehlər, təmiz, saf vicdan sahibləri eləyə bilərdilər. Bu düşüncələr içərisində nə vaxt yuxuya getdiyimi, nə qədər yatdığımı bilmədim. Şəfqət bacısının səsinə oyandım. Onun yanında üzünü ilk dəfə gördüyüm cavan oğlan dayanmışdı. Şəfqət bacısı: — Ağarəhimov, biz səni gəzdirmək istəyirik. Möhkəm ol, — dedi.

— Bəlkə sabah.

— Yox... Siz xəstələrdən olsa, heç vaxt...

Onlar məni gəzintiyə hazırlayıb ayağa qaldırdılar. Dəhlizdə qolumdan tutaraq səkkiz-on metr gəzdirdilər. Gücüm olmadığından qıçlarım bədənimi saxlamırdı. Bir anlığa mənə elə gəldi ki, mən klinikadan salamat çıxa bilməyəcəm. Elə bil sinəmdən ağır daş asılmışdı. Ümidsizlik mənə dərin sarsıntı gətirirdi. Belə vəziyyətdə ümidsizliyin nə olduğunu, insanın içində nələr yaratdığını təsəvvür eləmək, zənnimcə, çətin deyil. Deyəsən, bunu şəfqət bacısı da duydu. O, sakit halda dedi:

— Ağarəhimov, hamı ilk dəfə sizin kimi olur. Siz nədən qorxursuz? Həkim əmin olmasaydı, sizi gəzdirməyi bizə tapşırmazdı. Qorxmayın...

Onlar sonra da gətirib məni çarpayımda uzandırdılar, dərman, su verdilər. Handan-hana özümə gəldim. Xeyli dincəldim. Mürgülədim. Tez də mürgü çəkildi. Şəfqət bacısı əlində telefon mənə yaxınlaşdı:





— Ağarəhimov, qardaşındı, ancaq çox yox.

— Oldu.

Danışan Məmmədrəhimiydi. O, sevinc içərisində dedi:

— Qardaş, monitorda sənin gəzişinə baxırdım. Gözümüz aydın... Əla!.. Həkim də vəziyyətindən razıdı. Bakıdan da dostların zəng çalıb səninlə maraqlanırlar.

— Dostlara salam söylə. Hələlik...

Bir anlığa vəziyyətimi unutdum. Məni xoş hal bürüdü... Vəziyyətim ağır olsa da, kənardan verilən ürək-dirəyə özümü inandırmağa çalışırdım. Bu inam müvəqqəti olurdu. Sonra yenə özümə qapanır, taleyimin dönüklüyünə bəzən təəssüflənir, bəzən də yanıb-yaxılırdım. Hərdənbir də düşünürdüm, yəqin bu, belə də olmalıymış. Hətta, bir dəfə qardaşım mənə dedi:

— Ay evin tikilsin, üzərində bu boyda cərrahiyyə əməliyyatı gedib, düşünürsən ki, halsızlığın da olmasın? Adamın ayağına tikan batanda, ya adamı arı vuranda ufultudan dayana bilmir. Dünya başına dolanır. Etiraf elə ki...

— Nə... Qarışqanı fil eləyənəm?..

— Eh... Gör nə danışırsan? Tikan... Arı... Daha nə?.. Əməliyyatın necə aparıldığını təsəvvürümə gətirəndə az qala dəli oluram.

— Fikirləşmə... O, artıq arxada qalıb...

Klinikada yatdığımı eşidib-bilən cənubi azərbaycanlılardan bəziləri hər gün mənə baş çəkir, nəyə ehtiyacım olduğunu öyrənməyə çalışırdılar. Hər dəfə mən də onlara ehtiramımı bildirirdim.

## Palataya qayıdış

**Mərhəmət və xeyirxahlıq insana izzət gətirər.**
***Ərəb atalar sözü***

Heç yadımdan çıxmaz. Əməliyyat olunduğumdan bir həftə ötmüşdü. Məni arabacığa əyləşdirib üçüncü mərtəbəyə qaldırdılar. İlk dəfə yatdığım palataya apardılar. Orada rahatlandım. Şirin bir yuxuya daldım. Nə qədər yatdığımı deyə bilmərəm. Qapının sakit tərzdə döyülməsinə oyandım. Neçə gündə yatmayıb yorulduğundanmı, çəkdiyi əsəb sarsıntılarındanmı, ya nədənmi, qardaşım da bərk yatmışdı. — Məmmədrəhim, — deyə bir neçə dəfə mən onu çağırdım. O, yuxudan hövlnak oyandı. — Hə, — deyə həyəcanla yataqdan atıldı. Sir-sifətindən halsızlıq yağırdı. Səsi də bir balaca dəyişmişdi. Astadan dedim:

— Qapı döyülür, qalx, bax gör, gələn kimdi?

— Hə, bu saat...

O, gedib qapını açdı. Əvvəl gumur-gumur yad kişi səsi eşitsəm də, sonra hər ikisinin sözləri aydın eşidilməyə başladı.

— Ağarəhimov, bu palatada qalırmı?

— Bəli!

— Onu ziyarətə gəlmişəm. İzin versəniz...

Gəlişi gözlənilməz olduğundan bu tanımadığımız adama qardaşım bir anlığa nə "hə", nə də "yox" deyə bildi. Mən dərhal zarıltılı səsimi qaldırdım.

— İcazə ver, gəlsin.

Qonaq gəldi. Onun uca boyu, qara bənizi, qonur gözləri vardı. Yaşı əllini haqlamışdı. Əl verib görüşdük. Sonra ona əyləşmək işarəsini verdim. Qonaq oturub soruşdu:

— Necəsiz?





Mən dərhal bildirdim:

— Əlhəmdülillah, yaxşıyam.

— Ağarəhimov, mən vəziyyətinizlə neçə gündü maraqlanıram. Hətta, həkiminiz Həsəntaşla da barənizdə söhbət eləmişəm. Yaxşı həkimdi. Əllərinə söz olanmaz. Ürək əməliyyatının bütün sirlərinə mükəmməl yiyələnmiş adamdı. Ondan narazı qalan adam eşitməmişəm.

— Mən də narazı deyiləm... Bağışlayın, mən sizi tanımadım.

— Biz ilk dəfə görüşürük... Adım Lətifdi. Azərbaycanlıyam. Təbrizdə doğulmuşam. İş adamıyam. Bakıda tez-tez oluram. Orda yaxşı dostlarım var. Allah qismət eləsə, Bakıda sizinlə də görüşərik.

— Allah eləsin.

— Mən sizi indi çox narahat eləməyəcəm. Sizə ev, əl telefon nömrələrimi də verirəm. Əlli min ABŞ dolları gətirmişəm.

O, kostyumunun cibindən şəxsi kartoçkasını və kağıza bükülü dollar paçkasını çıxarıb Məmmədrəhimə tərəf uzatdı. Mən qardaşıma başımla: — Yox, — işarəsini elədim. Sonra ona dedim:

— Çox sağ olun, pulumuz var. Heç bir şeyə ehtiyacımız yoxdu. Qaldı sizinlə görüşə. Nə vaxt Bakıya gəlsəniz, bizə telefon açın, sizi qarşılayaq. Şimali Azərbaycanda görməli, gəzməli yerlər çoxdu.

— Ağarəhimov pulu götürün, geri qaytarmayın.

Mən gülümsünərək kartoçkanı aldım:

— Çox pul başa bəladı. Sizin telefonunuzu götürdüm, lazım olsa, zəng çalarıq.

Bu söhbətdən sonra qardaşım qonağı yola saldı. Özüm də bilmədən düşüncələrin ağuşuna atıldım:

— Qəribədi... Lətif bu qədər pulu bizə niyə verməliydi? Yəni, doğrudan da, bunun pulu o qədər çoxdu?.. Bizim iş adamları puldan ötrü az qala özlərini... Axı bizdə də kimsəsiz xəstə qoca-

lar, uşaqlar çoxdu. Hər iş adamı, rüşvətxor, korrupsioner, monopolist… bir imkansıza yardım göstərsə, qiyamətmi qopar?

Eh… Deyirlər insanı mühit formalaşdırır. Doğrudur, gen də var, irsiyyət də. İnsanın dünyadan görüb götürdüklərini də inkar eləmirəm. Nə olardı, bizimkilərin də qəlbində mərhəmət hissi oyanaydı. Kimlərəsə əl tutmaqdan şərəflənəydilər. Məmnun qalaydılar… Düşüncələr… Düşüncələr… Nələr doğramırsan?! Nələr tökmürsən? Qadirliyinə, əzəmətinə söz olanmaz. Sən nələrə rəvac vermirsən? İstər yaxşı olsun, istərsə də pis…

Xəyala daldığımı hiss eləyən Məmmədrəhim:

— Düşünürsən ki, bu kimdi bizə bu qədər pul təklif eləyir, hə?

— Görünür, qəlbində Əli xofu var. Düşüncələr məni yorur. Hər halda xoşməramlı gəlişdi.

— Hə düz deyirsən. Çox da dərinə getməsək yaxşıdı.

Az keçmiş qapı yenə döyüldü. Qardaşım üzümə baxıb gülümsədi:

— Görəm, indi gələn kim olar?

— Hər kim... Allah bəndəsi...

Qardaşım qapını açan kimi məlahətli qadın səsi eşidildi:

— Ağarəhimov yatıb?

— Yox... Oyaqdı.

— Rica edirəm, ona deyin ki, Fəridə xanım gəlib, yanına təşrif buyurması üçün izin istəyir.

Mən çarpayımdan səsləndim:

— Xanımı qapı ağzında saxlama. İcazə ver, gəlsin.

Bəstəboy, başını qara çarşabla bağlayan, dolu bədənli, girdə sifət, gülərüz qadın içəri girdi. Altmış yaşı olardı. Ancaq yaşından xeyli cavan görünürdü. Mən qalxıb çarpayıda oturmaq istəsəm də, bacarmadım. Qadın dərhal bildirdi:

— Əziyyət çəkməyin, sizə necə gəldi hərəkət eləmək olmaz. Ağarəhimov, mən bu klinikanın təsisçilərindənəm. Stamatoloqam. Avropada təhsil almışam. Millətimə qurban olum. Gözəl millətimiz var. Mən biləndə ki siz Bakıdan gəlmisiz, ürəyim atlandı. Sizinlə görüşü özümə borc bildim.





— Təşəkkür eləyirəm.

— Xoşhal olaram ki, çatışmazlıqlarınızı mənə deyəsiz.

— Narazılıq üçün əsasımız yoxdu, xanım. Hər cür qayğıyla əhatə olunmuşuq. Yüksək ehtiram var bizə. İşçilərinizdən də çox razıyam. Əmin ola bilərsiz, özümüzü Bakıdakı kimi hiss eləyirik.

— Klinikadan çıxandan sonra sizi evimizə dəvət eləyirəm. Atam da, iki qardaşım da elm adamıdırlar. Atam Gəncəlidi, İkinci Dünya müharibəsi ərəfəsində gəlib Tehrana. Anamsa ərdəbillidi. Hazırda böyük qardaşım ABŞ-da cərrahdı. Bu yaxınlarda atamla Bakıya, oradan da Gəncəyə getmək fikrindəyik.

— Gəlişinizə çox sevinərik, xanım... Bizim də qonağımız olarsız.

— Ağarəhimov, şəxsən mən "siz", "biz" sözlərini xoşlamıram. Sizli-bizli hamımız birik... Azərbaycanlıyıq. Vəssəlam. Bir canda iki ruh olmur. Əksinə, iki canda bir ruh olur.

— Çox fəlsəfi danışırsız xanım... Sözlərinizdən olduqca məmnunam... Unutmayaq ki, istəklə reallıq başqa-başqa şeylərdi. İstəkdə bəzən arzu, bəzən də lap xülya olur. Reallıq isə gördüklərimizdi. Mövcudluğumuzdu. Dediklərimiz mahiyyəti nə qədər ki, doğru-dürüst əks elətdirmir, deməli, biz yalnız gördüklərimizin ardınca qaçırıq. Bəlkə də onun əsiriyik, köləsiyik. Vaxtıyla bir tərəfdə İran, o biri tərəfdə rus kabusu istədikləri kimi fırladıblar bizi. İstəsək də, istəməsək də olmuşuq iki. Gərək ikilikdən qurtulaq... Nə qədər qurtulmamışıq, "siz", "biz" deyəcəyik. O sözləri eşitməyə məhkumuq...

— İranda, xüsusilə Təbrizdə oyanış çox güclüdü. Buna vaxt, bir də istək və mübarizə gərəkdi.

— Bəli! Fəal, arasıkəsilməz və müntəzəm. Mübarizə nəticə-

nin başlıca şərtidi. Nəticə vahidlikdi.... Vahidsə, siz deyən kimi, bölünməzlikdi.

— Ağarəhimov, biz hardan başladıq, hara gəlib çıxdıq?

— Xanım, istəsək də, istəməsək də, hər an siyasətin içindəyik. Ondan kənarda qalmaq mümkün deyil.

Xeyli söhbətdən sonra Fəridə xanım da bizimlə xudahafizləşib getdi... Hər gün beləcə maraqlı görüşlər, şirin söhbətlər olurdu... Mükəmməl əməliyyat olunduğumdan heç bir şikayətim yoxıydı. Məni əzən, əldən salan həftədən artıq yeyə bilməməyim, bir də şəkərimin çoxluğuydu. Bunların heç birindən yaxa qurtara bilmirdim. Cərrahiyyə əməliyyatının 10-cu günü şəfqət bacısı şəkərimin miqdarını yoxladı. Təsadüfən gözlərim yoxlama cihazına dikildi. Şəkərin 694-ə qalxdığını görəndə bir anlığa hər şeyi — əməliyyat olunduğumu da unutdum. Şərəşurluq eləməyə başladım. Özüm də bilmədən bəhanələr gətirir, hər şeydə bir qüsur, çatışmazlıq, özümə qarşı diqqətsizlik, biganəlik axtarırdım. Etiraf edim ki, bəzən etik normaları pozaraq qonaq olduğumu da unudurdum... Qardaşım məni heç cürə sakitləşdirə bilmirdi. Bu halsız, xəstə vəziyyətimdə acıq eləyib klinikadan getmək istəyirdim. Elə bu vaxt şəkərimi müalicə eləyən həkim Ağayi Səfər palataya daxil oldu. O, uzun, qurğaz bir adamıydı. Yaşı ancaq 40 olardı. Qara şəvə kimi qalın saçları arxaya daranmışdı. Cod sifəti vardı. Əyninə qara kostyum geymişdi. Özündən razılıq onda açıqca duyulurdu. Mən əsəbi halda dedim:

— Həkim, bacarmırsız, etiraf eləyin, Bakıdan...

Həkim düz gözlərimin içinə baxdı. Kinayəylə gülümsündü.

— Yaraların bir tərəfdən, yeməməyin də o biri tərəfdən... Səbrin yox... Şəkər də ki yatmış gürzə. Qalxmaq üçün bəhanə axtarır... Mən neyləməliyəm? Qaldı Bakıdan gətirəcəyin həkimə... Onun işi burda keçməz...

Qardaşım pərt və həyəcanlı halda dedi:

— Qardaş, nələr çəkdiyini anlayıram. Həkimlər əldən-ayaqdan gedirlər ki, hər şeyi qaydaya salsınlar. Sənsə əsəbiləşib vəziyyəti daha da ağırlaşdırırsan...





Qardaşımın sözlərindən həkim yumşaldı.

İncik halda Ağayi Səfər dedi:

— Ağarəhimov, nahaq yerə təlaş keçirirsən. Əməliyyatdan sonra sənin şəkərin sürətlə qalxırdı. Hətta, 900-ü keçmişdi. Enmək bilmirdi. O zaman hamımız əlimizi səndən demək olar ki, üzmüşdük... Allahın böyüklüyünə şükür, indi isə şəkərin tədricən düşür. Enmə mərhələsindədi. Bizim hamımız sevinirik. Sən nədən narazısan?..

Bu zaman qardaşımın üzünə baxdım. O, gözlərini bərk-bərk yumub özünü ağlamaqdan məcburən saxlamağa çalışsa da, kipriklərində gilələnən iki damcı yaş dığırlanaraq yanaqlarından üzü aşağı süzüldü. Bunu görcək, sanki dünya başıma dolandı, içimi göynərti aldı... Elə bildim yaralı ürəyim quş olub çırpındı. Əlacsız qalıb titrəyən səsimi boğmaq üçün dişlərimlə dodağımı sıxdım. Başqa çarəm də yoxıydı.... İndiki zirvədən arxaya qanrıldım. Keçən başı bəlalı ömrümün ağır, keçməkeşli, əzablı, iztirablı, eləcə də sevincli, fərəhli anlarını xatırladım. Nələr gəlib dayanmadı gözlərimin önündə?..

Həkim təskinlik verib getdi. Mən susmağa məcbur oldum. Bakı Qızlar Universitetinin məzunlara həsr olunmuş ilk tədbirində mənim 44 yaşım vardı. O zaman qızım sandığım tələbə Aygün söz alıb demişdi:

— Ağarəhim müəllim, bizim hamımız sizi özümüzə mənəvi ata sanırıq. Sağ olun ki, bizi ləyaqətlə qəbul eləyib, ləyaqətlə yola salırsız...

Səyyarə kövrələrək: — Əziz müəllimimiz, təmənnasız insan, böyük vicdan sahibi olduğunuz üçün əmin ola bilərsiz, siz ömrü boyu qəlbimizdə yaşayacaqsız, — dedi.

Əla qiymətlərlə oxuyan, bədii söz həvəskarı Günəş bildirdi:

— Hörmətli Ağarəhim müəllim, oxuduğumuz müddətdə siz

bizim yaddaşımızda təmiz, namuslu, mənəviyyatlı müəllim, şən, qayğıkeş, sözü bütöv, səmimi, təmənnasız, ciddi və sərt ata kimi qaldınız. Tələbə qızlar adından deyirəm: Hamımızın bir fikri var: "Ruhunuz bizdədi. Şükür olsun, sizi bu qəlblə, bu hünərlə yaradan və bu taleyi sizə nəsib eləyən Allaha... Gözəl yaşamaq, ürəyinizcə yaratmaq sizin haqqınızdı... Siz ona layiqsiz, əziz müəllimimiz!.."

Humay:

— Siz elmin zirvəsindəsiz. Elmi və bədii əsərləriniz, təhsil quruculuğu sahəsindəki fəaliyyətiniz, öz xərcinizə Qarabağ savaşından çəkdirdiyiniz film və tamaşalar sizə bir abidədir. Heç kəsə ehtiyacınız yoxdur. Hamının yanında üzünüz ağ, sözünüz kəsərlidi. Biz bu gün sizdən yalnız müəllimimiz tək yox, eyni zamanda şərəfini daim qoruyub saxlamağı bacaran əziz və unudulmaz atamız kimi ayrılırıq...

Kövrəldim, özüm də bilmədən dodaqlarım arasından pıçıltılı bir səs palataya yayıldı: "Şərəfli ölüm şirin ömürdü, ölməzlik rəmzidi”. Bunu eşidən qardaşım: — Ağarəhim, — deyə heyrətlə gözlərimin içinə baxdı. Ağır, psixoloji durumda olduğumu dərhal duydu. Buna baxmayaraq, "hə" sözümü eşitsə də, fikirmi anlamamış kimi özünü göstərdi və əlavə söz demədən vanna otağına keçdi. O, əl-üzünə su çırpıb geri qayıdanda mən gülümsünərək, "Yaddaşda yaşar xatirələr", "İnsan həyatında əziz olur acılı-şirinli xatirələr", "Bir ümmandı xatirələr" — dedim.

O dolan içini boşaltmaq üçün əlacsız qalıb qəsdən:

— Xatirələr... Xatirələr... — deyə sözümü təsdiqlədi.

Universitetimizin professorunun söylədikləri heç yadımdan çıxmaz. Çox istedadlı tələbəm Şəlalə (ad şərtidi) bir axşam necə olursa, atasına deyir: "Mənim atam niyə Ağarəhim müəllim yox, sən olmusan?". Qızının sualından narazı qalan ata incik halda bildirir: "Qızım, o seçim nə səndən asılı olub, nə də məndən... Allahın qismətidi. Onun yazdıqlarını pozmağa heç kəsin nə cü-





rəti, nə də qüdrəti çatar... Qismətimiz beləymiş..." Ara qızışır. Gecə-gecədən keçir... Qız öz sözündən dönmür ki, dönmür. Əlacsız qalan ata həmin gecə qonşuluqda yaşayan professoru telefonla evinə dəvət eləyir... Səhər Şəlalənin fikrini professor mənə çatdıranda qulaqlarıma inanmadım... Tələbə qızımın sözləri mənə təsir elədi. Çox düşündüm, çox götür-qoy elədim, doğrusu, özünü doğma övladına sevdirə bilməyən ataya yazığım gəldi. Hissə qapıldığına, emosiyalarını cilovlayanmadığına, bir göz qırpımında atayla müəllim arasındakı həddi gözləyənmədiyinə və səddi aşdığına görə Şəlaləni qınadım. Nə gizlədim, qızım qədər sevdiyim Şəlalənin mənə olan hörmət və ehtiramından fərəhləndim. Qəlbim sevinc hissiylə doldu. Nə professora, nə də qəlbində "Ata" deyə məni heykəlləşdirən Şəlaləyə söz deyə bildim. İllər keçsə də, o tələbə qızımın barəmdə böyük ürəyiaçıqlıqla, məmnunluqla dediyi sözləri unuda bilmirəm.

Əziz qardaşım, əslində bu mənim Allahın nurunda cilvələnən insanlıq və müəllimlik ləyaqətimdi.

Az keçmiş xidmətçi qız palataya girib dedi:

— Ağarəhimov, yemək sifarişinizi verin.

Mən qəsdən bildirdim:

— Balıq kababı.

Xanım gülümsündü. Başını bir balaca bulayıb nazik qaşlarını çatdı. Zil qara gözlərindəki parıltı bir anda mənə elə gəldi ki, qığılcımlara dönüb üstümə səpələndi. Təkcə zahiri simamı yox, eləcə də daxili aləmimi nurlandırdı. Qızım təsiri bağışlayan bu xanımın xoşhallığı bir an içində məndə belə bir fikir oyatdı: "Kaş bütün xanımlar bunun kimi mehriban, səmimi olaydılar..." Əsəblərim getdikcə öz tağımından düşürdü. Bayaqkı əsəbi danışığıma indi peşman olurdum. Qeyri-ixtiyari olaraq öz-özümü məzəmmətləməyə başladım:

— Axı bu zavallıların günahı nədi? Bütün günü doğma qardaş, ana-bacı kimi xidmətimdə dayanmalarımı? Mənə hədsiz

nəvaziş göstərmələrimi? Hər gün halımı yoxlamağa gəlmələrimi? Eh... Biz insanlar beləyik. Bəzən elə bilirik hamı bizə qayğı, nəvaziş göstərməyə borcludu. Da fikirləşmirik ki, bizim də kimlərinsə qarşısında borcumuz var. Qayğı, hörmət qarşılıqlı olar. Necə danışsaq, elə də cavab alacağımızı heç ağlımıza da gətirmirik: Eh... Həyat... Həyat... İnsanı bir an içində necə də haldan-hala salırsan. Eybəcər görkəmini yaradırsan, onu nifrətə çevrilməyə məcbur eləyirsən... Sonra da yersiz kəlməsinə, uğursuz hərəkətinə görə ona peşmançılıq çəkdirirsən. Qüsurları üçün lap üzr istəməyə vadar eləyirsən... Hər sifətin var... Nədi bu xislət səndə?! Hardan doğur səndə bu müəmma?!

Daxili səsimi eşidib-eşitməməsini öyrənmək üçün dönüb qardaşımın üzünə baxdım. Deyəsən, keçirdiyim hisslərdən xəbərsiziydi. O, dərin fikrə getmişdi. Bir anlığa ona yazığım gəldi. Fikrini dağıtmaq, əhvalını qaldırmaq üçün uşaqlıq çağlarımızdakı danışıq tərziylə dedim:

— Əə, nə olub, qadası, yoxsa, gəmin dəryada batıb? Batıbsa, de, çarəsini qılaq, əə, fikir eləmə... Kefində ol, məyusluq, qəmkədər sənə yaraşmır. Yaradan özü qəhrimizi çəkir. Kimin yatarına "ho" demişik? Ya daş atıb toyuğunun qıçını sındırmışıq ki, indi də oturub-durub ona cavab axtaraq... Dünya alışıb yana ha, bir bağ havarıma da zaval yoxdu. "Burda mənəm, Bağdadda kor xəlifə".

— Nə olacaq? Hər şey qaydasındadı. Allahı olan nigaran qalmaz, — deyib öyünməyə başladım. — Yadda saxla. Mən qorxan, hürkən bala döörəm. Anam məni belə doğub.

Qardaşım güldü:

— Bilirəm. Özündən deməkdə xeyir ola. Axı sən ki, belə deyildin, özündən müştəbehlərdən zəhləm gedir.

— Özündən müştəbeh... Müştəbeh... Yaxşı dedin... Qalperin bıçağının altından çıxan oğlan burdan da sağ-salamat geri dönəcək.





— Şükür Allaha, yaxşısan. Keçən günlərdəki vəziyyətin hara, indiki hara?..

— Sən təyyarəyə bilet barədə düşün. Bir də gördün həkim Əhməd Həsəntaş, ustad Cavad Heyət, şair qardaşımız Savalan deyə-gülə gəldilər:

— Ağarəhimov, göz dəyməsin, yaxşısan, hazırlaş, sabah Bakıya uçacaqsan, — dedilər.

— Mən onu hər an gözləyirəm. Evdən də, iş yerindən də hər gün telefon açıb səni soruşurlar. — Nə vaxt gəlirsiz? — deyirlər.

— De ki, tələsməsinlər. Tam sağalım, sevinə-gülə gedərik.

Bu dəm xidmətçi qız palataya girib sevincək halda bildirdi:

— Ağarəhimov, bu da balıq kababı. Əgər bunu da yeməsəniz, mənim əziyyətimi yerə vurmuş olacaqsız.

— Həvəsim olmasa da, çalışaram.

O, məcməyini stolun üstünə qoyub getdi. Mən balıqdan kəsib bircə loxma ağzıma qoydum, boğazımdan keçər-keçməz geri qaytardım. Qardaşım dərindən köksünü ötürüb başını yellədi... Handan-hana özümə gəlib ondan xahiş elədim:

— Xanım böyük zəhmət çəkib. Kababdan az da olsa, mənim əvəzimdə gərək sən yeyəsən.

— Sənə gətirilən yeməkdən mənə də gəlib.

— Çalış, hərəsindən bir az gupa getsin.

Qardaşım gülərək:

— Kimi aldadırıq?

— Özümü... Əlac yoxdu...

Xidmətçi xanım gələndə xörəyin yeyilmədiyini görüb diqqətlə üzümə baxdı. Sonra başını yellədi:

— Ah... Ağarəhimov... Ağarəhimov...

Xanım təəssüfedici halda gətirdiklərini götürüb apardı. Mən yatağıma uzanıb nə vaxt yuxuya getdiyimi bilmədim. Gözlərimi açanda ustad Cavad Heyətlə şair Savalanı başımın üstündə dayanan gördüm. Salamlaşdıq. Qardaşım doktora məndən şikayət-

ləndi:

— Ustad, neçə gündü yemir. Təkcə qəbul elədiyi qurtum-qurtum sudu. Suyla bədəndə güc, inkişaf olarmı? Bu, belə hara gedir?

— Narahat olmayın. Yemək kampensasiya olunur. Ertədən Həsəntaşla danışmışam. İki gündən sonra klinika ilə xudahafizləşəcəksiz. Bakıya təyyarə üçün iki bilet sifariş vermişəm. Gərək sabah çalışıb onları götürək. Yadınızda qalsın, təyyarəyə minmək üçün Həsəntaşdan arayış alaq. Yoxsa, Ağarəhimə təyyarəyə minməyə razılıq verməzlər...

Ustadın dediklərini eşitcək sevindim, halsızlığımı, taqətsizliyimi düşüncək biixtiyar kövrəldim:

— Ustad, Tehran, bu günlər heç zaman unudulmayacaq. Xeyirxah, şirindil adamlarınız var.

— Yaxşı... Yaxşı... Bizi də kövrəltmə. Çox sentimentalsan, Ağarəhim. Həyat qəribəliklərlə doludur. Sənin həyatın qabaqdadı. Sən hələ cavansan, xalq üçün çox iş görə bilərsən.

Gülümsündüm:

— Qəribəliklər olmasa, insan yaşayanmaz ki doktor.

Qardaşım söhbətin səmtini dəyişdi:

— Deməli, təyyarə hava limanına getmək üçün bizə maşın da sifariş vermək lazımdı.

Savalan dərhal:

— Nə sifariş? Mən özüm gəlib sizi aparacam.

— Axı sizə əziyyət olar.

— Qətiyyən, elə düşünməyin... Biz ilk gündən dostlaşmışıq.

Söhbətin bu yerində Həsəntaş bir neçə şəfqət bacısıyla gəldi. Hamımız sevindik. Həsəntaş məndən soruşdu:

— Ürəkdən şikayətin varmı?

— Yox. Ürək özü üçün bala-bala döyünür.

Otağı gülüş səsləri bürüdü. Həsəntaş əlavə elədi:

— Sabahdan hazırlaş. Səni iki gündən sonra Bakıya yola salacam. Lazımı məsləhətlərimizi verəcəyik. Üç aydan sonra gələrsən. Müayinədən təkrar keçirib arxeyin olarıq.





Mən əvvəl Əhməd Həsəntaşın, sonra da Cavad Heyətin üzünə baxdım. Palatanı bir andaca sükut bürüdü. İxtiyarsız halda köksümü ötürdüm. Ucaboy, nərmənazik, badamı gözlü şəfqət bacısı Simarə gözlənilmədən dedi:

— Ahın dağlara, daşlara, Ağarəhimov.

Palatanı yenə gülüş səsləri bürüdü. Simarə bu sözləri o qədər səmimi dedi ki, ürəyim sevinc hissiylə doldu. Sanki bir an içində üstümə uçub tökülən dağ yoxa çıxdı. Məni yüngüllük qamarladı. O andaca beynimdən belə bir fikir keçdi: nə yaman şeymiş mənəvi yüksəliş?.. O, adamın yarımcan vücuduna can verməyə də qadirdi. Eh... Hər bir bəşər övladına məxsus, qüdrəti kainat qədər əzəmətli, möhtəşəm insan ruhu... İnsan qəlbi... Sən nədən, hardan nəşət alırsan?!.

Sükutu Həsəntaş pozdu:

— Yenə fikrin uzaqlardadı. Çalış yat. Şəkərin də normaya düşüb. Əsəb yaradan şeylər barədə düşünmə.

— Hə... Fikirdi də... Birdən alır səni... Hara gəldi, çəkib aparır. Düşünməmək olurmu?

— Dedim, çalış. Mənə sözün, şikayətin yoxsa, gedim, o biri xəstələrimə də baş çəkməliyəm.

— Buyurun.

Əvvəl həkim Həsəntaşgil, sonra da ustad Cavad Heyətlə Savalan getdilər. Qardaşım balkona çıxdığından palatada tək qaldım. Fikirlər, düşüncələr seli məni culğaladı: uzaq keçmişlərin əsrarəngiz əfsanələriylə indi dünyada baş verən möcüzələri qarşılaşdırdı. Özümü beləcə tarixin ağuşuna atdım. Daim özümə lazım olan xəzinəni əxz eləməyə, bütün sirlərin şairanə, rəngarəng təbiətini həssaslıqla duymağa can atıram... Çox vaxt da istəyimə nail oluram. Duyan, çağlayan ehtiraslarımın, aşıb-daşan arzularımın qəlbimə təsirini hiss elədikcə alğımın, düşüncəmin

yetərliliyinə, əzəmətinə heyran qalıram. Belə olan təqdirdə sanıram ki, üzümə cənnət qapısı açılır. Dünya mənə gülüstanı andırır. Riqqətə gələn qəlbimlə təbiət arasında xəyali həmrəylik yaradıram. Bəzən də nəsibim düşündüklərimin əksi olur. Təbiətdə tufanlar, ildırımlar, zəlzələlər, sunamilər olduğu kimi, qəlbimdə də firavan həyatımı pozan fırtınalar, təlatümlər, gərilmələr, çarpışmalar baş verir... Başım üzərində şimşəklər çaxır. İç ümmanımda güclü, ağlagəlməz fırtınalar qopur... Eh... Nə olur, olsun... Bu da mənim taleyimdi... Hər halda ümidlə yaşam həyatın müncəridi...

## Əlvida palata. Həyat eşqi

**Vəfalıya can qurban, vəfasız atar, gedər.**
***Atalar sözü***

**Sən ey insan! Sevib sevil, budur dərdlərə dərman.**
**Həyat eşqin qüdrətilə edir bizi imtahan.**
***A.Bakıxanov***

**Eşqdir hər iki dünyaya zinət**
**Eşq ilə dolanır bütün təbiət.**
**Eşqsiz məqsədə yetişmək olmaz.**
**Eşq ilə tapılar düzlük, həqiqət.**
***Füzuli***

Aprelin 16-sı. Səhər tezdən yaz günəşinin gülümsəyən qızılı telləri pəncərədən üstümə səpələnirdi. Otağın ılıqlanan havası alnımda, boyun-boğazımda xırda mirvarilər tək tər dənələri yaradırdı. Bu gün gündəkindən daha xoş, daha yüngül əhvaldaydım. Məndə ağrı-acıdan, narahatlıqdan əsər-əlamət yoxıydı. Məmmədrəhim bərk yatmışdı. Astadan gedib-gələn nəfəsi eşidilirdi. Mən onu səslədim:





— Məmmədrəhim... Məmmədrəhim...

Qardaşım gözlərini açmadan yatağındaca o tərəf-bu tərəfə çevrildi. Sonra qalxıb paltarlarını geyindi. Mən ona zarafat elədim:

— Ayə, evin tikilsin, elə bil kənd adamı deyilsən. Bu qədər yatmaq olar? Çöldə gör necə hava var? Pəncərəni aç. Otağa təmiz hava gəlsin... Görünür, kənddə də beləsən.

— Necə?

— Özün yatırsan, heç nədən xəbərin olmur, ailə-uşaq mal-qaranı yerbəyer eləyir.

— Yox, əşi...

— Tezdən qalxıb süd-qatığını içirsən?..

— Yamanca yatmışammış...

— Bilirəm, bu neçə gündə bərk yorulmusan.

— Neyləmişəm ki, yorulam da.

— Sənə elə gəlir, sağlam adam, xəstəxana şəraiti. Ah... Uflar... İynə-dərmanların iyi-qoxusu. Daxili sarsıntı. Narahatçılıq...

— Ola bilər…

— Hamınızı yamanca əziyyətə saldım.

— Nə əziyyət. Şükürlər olsun ki…

— Çarpayıdan qaldırsaydın məni, koridorda bir az gəzərdim.

Qardaşımın çöhrəsi işıqlandı:

— Nə əcəb, özün dilə gəldin. İlk dəfə xoş bir təşəbbüs. Gün hardan doğub?

Məmmədrəhimin köməkliyi ilə çarpayıdan qalxdım. Əl-üzümü yuyub qurulanandan sonra koridora çıxdıq. O baş-bu başa gəzdik. Aclığın, xəstəliyin fəsadları məndə ağlagəlməz amansızlıq, hədsiz taqətsizlik yaratdığından qıçlarım əsdi, bədənimi saxlayanmadı. Gəzməyə imkanım olmadı, ona görə də qardaşıma dedim.

— Gəzənmirəm, qıçlarım əsir, yıxıla bilərəm.

— Axı həkim gəz deyir.

Mən gülümsündüm.

— Bədən mənimdi, yoxsa həkimin.

— Axı, o, bilməsə, deməz.

— Mən tab gətirməyib yıxılsam, uzaq başı həkim susacaq. Günah da səndə olacaq. Onda həkimə dediklərini ona sübut eləyə biləcəksənmi? Qardaşım sözümü çevirmədi. Biz palataya qayıtdıq. Çarpayıya uzandım. Sanki sözü bir yerə qoymuş kimi, Bakıdan mənə bir-birilərinin ardınca xeyli adam telefon açdı. Hamısı da gəlişimin vaxtıyla maraqlanırdı. Onlara öskürəkdən özüm cavab verə bilmədiyimdən əlacsız qalıb telefonu qardaşıma ötürdüm. Məmmədrəhim onlarla danışıb qurtarandan sonra mən təəssüf hissiylə dedim:

— Kaş şəkər xəstəliyini də özümdən beləcə uzaqlaşdıra biləydim.

— Əlacsız dərd çox az-az olur. Ən qorxulusu ürəkdi. Onun problemini də demək olar ki, aradan qaldırdın.

— Bəlkə qorxulusu yox, etibarsızı, vəfasızı demək istəyirsən?

— Adını nə istəsən, qoymaq olar.

— Ürək əlli yaşlı atamızı da ad günündə apardı. Amansız ürək bircə günlük möhlət vermədi ki, zavallı kişi doğum gününü keçirsin. Qardaş, görünür, bu xəstəlik bizdə irsəndi. Elə olmasaydı, məni də belə insafsızcasına yaxalamazdı. Yaxşı qurtardıq...

Günortaya az qalırdı. Otağın havası bürkülüydü. İsti, iynə-dərmanların qoxusu onsuz da oksigeni seyrək olan palatada vəziyyəti bir qədər də gərginləşdirirdi. Mən dərindən nəfəs aldım:

— Yayı lap dözülməz olar buranın.

— Mənə elə gəlir ki, yaz Tehrana Bakıdan ay yarım qabaq gəlib...

— Hə... Mən də elə düşünürəm...





Ordan-burdan danışırdıq ki, qarabuğdayı, qaragözlü, qaşları yenicə alınmış şəfqət bacısı Şəkran qucağında bir dəstə gül otağa girdi. Salam verib gül dəstəsini dolabçanın üstünə qoydu və əlavə elədi:

— Fəridə xanım göndərib. Məşğuldu, qonaqları var, bir azdan özü də gələcək...

Təzə, tər güllərin ətri bir andaca palatanı bürüdü. Biz təşəkkürümüzü bildirib xanımı yola saldıq. Şəkran getdi. Fəridə xanımın diqqəti kövrək hisslərimi qabartdı. Ona necə minnətdarlıq eləyə biləcəyim barədə düşündüm. Ancaq buna yol tapanmadım. Özümü mənən o azərbaycanlı xanıma borclu sandım. Əslində onun mənə diqqəti sırf insanlığa tərəf atılmış humanist addımıydı. Bu addım azərbaycanlı bacımın ruhani xilqətindən doğmuşdu. Öz-özümə dedim:

— Sağ ol səni, Fəridə xanım!

Fəridənin göndərdiyi güllərin ətri palatanı bürüdükcə elə bil aldığımız hava da yüngülləşirdi. Mən bildirdim:

— Güllər də təbiətin möcüzələrindəndi. Onun gəlişi gözlərimizə nə qədər cazibədarlıq gətirsə də, bir o qədər də ürəyimizə, hissimizə, duyğumuza, hətta, ağlımıza təsir elədi. Qəlbə qida gətirdi…

Qardaşımın da əhvalı yüksəlmişdi. O, dərindən köksünü ötürdü:

— Bu gün ən xoşbəxt günümüzdü. Geridə qalan bu sarsıntılı, iztirablı anları heç vaxt unudanmarıq. Həyatın keçməkeçləri varmış. İnsanın taleyi hər cür burulğanlarla üzləşir. Gərək insan çalışıb özünə hamı kimi baxsın. Onda özü dönüb hamı olar. Kimsə özünü hamıdan təcrid eləsə, dönüb heç kim olar. Onda da inanıram ki, fəlakət...

— Əcəb filosofluğun da varmış, qardaş. Özünü sıxma... Çox fikirləşirsən, çox götür-qoy eləyirsən. O da halına pis təsir eləyir. Bir tərəfini boş burax.

— Boş buraxmaq olurmu? Eh... Hardan gəlib, hara gedirik? Niyə gəlmişdik? Bu qısa ömürdə neylədik? Bu dünyaya gəl, ye, iç, get. Sonrası da heç nə... İzin-tozun itir. Elə bil bu dünyaya gəlməmisən, yaşamamısan...

— Yenə özünə qapandın... Bəlkə alma soyum, bir-iki dilim yeyəsən? Almanın ziyanı olmaz.

— Soy.

Almadan bir dilim güc-bəlayla yeyə bildim. Ara vermədən hıçqırmağa başladım:

— Görünür mədə qəbul eləmir.

— Fasfasısan... Özü də çox...

Yatağıma uzanıb axşamın gələcəyini, klinikadan xudahafizləşəcəyim anı gözləməli oldum. Zaman məni üzürdü. Vədə gözləmək çox çətindi. Elə bil saniyələr, dəqiqələr, hətta, saatlar ayaqlarını bərk-bərk yerə dirəyərək gəlib çıxmaq istəmir. Adamı qəsdən hövsələdən çıxarır...

Günortadan sonra Cavad Heyət mənə telefon açdı. Hal-əhvaldan sonra saat 21-də gələcəyini bildirdi. Telefon danışığı bitmişdi ki, Həsəntaş iki şəfqət bacısıyla palataya gəldi. Lazımi sənədləri, əlavə məsləhətlərini verdi. — Hər şey qaydasındadı, — dedi:

— Ustad Cavad Heyətlə danışmışıq, onunla birlikdə sizi yola salacağıq...

Onlar:

— Hələlik, — deyib palatadan çıxdılar... Kilinikada iş vaxtı sona yetirdi. Ertədən qardaşıma aldırdığım gül dəstələrini onunla birlikdə götürüb şəfqət bacılarının otağına getdik. Hamısına təşəkkürümüzü bildirib hərəsinə bir dəstə gül bağışladıq.

Xanımlar bir ağızdan bizə "Nə əziyyət çəkirsiz?" deyə razılıqlarını bildirib "Yaxşı yol" arzulayırdılar...

Palataya qayıtdıq... İndi nədənsə hər şey: geniş, işıqlı otaq da, yatdığım çarpayı da, müxtəlif əməliyyatlara xidmət eləyən





tibbi cihazlar da, zəhmətimi çəkən ağ xalatlı şəfqət bacıları və həkimlər də, hətta, dəhlizdə o tərəf-bu tərəfə ağır-ağır nəfəs alıb ayaqlarını sürüyə-sürüyə gəzən xəstələr də... mənə doğma görünürdülər. Vida günü gözlərimə görünən hər şeyi özümdən asılı olmadan, qeyri-ixtiyarı mənalandırmağa çalışırdım. Sanki cansız əşyalar da üzümə gülür, mənə böyük hörmət və ehtiramla əl eləyərək "əlvida" deyirdilər…

Fəridə xanım gələndə qaş qaralırdı. Deyib-gülən, məzəli söhbətlər eləyən bu qadının üz-gözündən yorğunluq yağırdı. O, qara tül kəlağayısının uclarını çənəsinin altdan düyünlədi. Yüngül, ancaq ötəri təbəssümlə üzümə baxdı:

— İş adamı üzür, Ağarəhimov. Yəqin Bakıda da belədi.

— Baxır hansı işə... Mən həmişə həkimlərə qibtə eləmişəm. Bəzən həkim olmadığıma görə özümü məzəmmətləmişəm də.

Qadın ani fikrə getdi. Sonra dedi:

— Hamı gəncliyində elə hisslər keçirir... O sözünüzlə şərikəm ki, həkimlik sevgi tələb eləyir. İşini sevmədən yaxşı həkim olmaq mümkün deyil.

— Fəridə xanım, təkcə həkimliyi yox, həm də xəstələri... Qadınların həkim olması ikiqat məsuliyyətdi, elə deyilmi?

— Elədi. Ancaq bizdə qadınların hüquqları tez-tez pozulur. Kaş elə olmayaydı.

Mən gülüb zarafatla bildirdim:

— Bizdə isə əksinədi. Qadınlar kişilərin hüquqlarını qamarlayırlar. Kişilər qadınların əlindən gileylənirlər. Səbirsizliklə gözləyirlər.

Fəridə xanım təəccübləndi. Sonra da astadan başını yellədi:

— Nəyi?

— Kimin qalib gələcəyini. İnanıram, sizdə də gec-tez belə olacaq.

Fəridə ürəkdən güldü:

— Eh saqqalın ağarsın.

Mən bir qədər də qabağa çıxdım:

— Qadının hüquqları səmavi kitabələrdə göstərilib. Onların ən ali hüququ ana olmaqdı. Ana olmaqdan şərəfli nə ola bilər? Qadın evin, ailənin günəşidi. Hər bir kişi qadınını özünün ruhu, ürəyinin parçası sanır. Bu azmış kimi qadınlar zavallı kişilərdən yenə hüquq tələb eləyirlər.

— Eh... Ağarəhimov... Ağarəhimov... Siz müsəlman kişilər hamınız birsiz.

— Necə yəni?

— Ürəklərinizlə dilləriniz heç zaman düz gəlmir. Təkcə komplement deməyi sevirsiz. Fürsət düşən tək qadınlara aman vermirsiz, qadınları başıqapazlı eləyirsiz.

— Eh… Nə danışırsız?.. Azərbaycan qadını… Axı siz də azərbaycanlısız…

Fəridə xanım üzünü Məmmədrəhimə tutaraq gülə-gülə dedi:

— Deyəsən, daş qayaya rast gəlib.

Hamımız gülüşdük. O, sözünə əlavə elədi:

— Bakıda da belə deyirlərmi?

Məmmədrəhim:

— Hə. Çox işlədirik…

Fəridə xanımın gəlişi palatada xoş aura yaratdı. Xeyli söhbət elədik. Danışdıq, güldük, sonra da:

— Sizə çox danışmaq olmaz, — deyib ayağa qalxdı. Ayaqüstü əlavə elədi:

— Tehrana tez-tez gəlin. Ancaq gəzməyə, elmi tədbirlərə... Görürəm, qonaq olmaq halınız yoxdu. Sözümüz sözdü. Qüvvəsində qalır. Bizə getməyi, sizi qonaq eləməyi növbəti gəlişinizə saxlayırıq. Onda tanış olarsız, ailəmizlə, şəraitimizlə.

Mən dərhal təşəkkürümü bildirdim və əlavə elədim:

— Sağlıq olsun, Fəridə xanım, Tehrandan müvəqqəti ayrılırıq. Həm də Bakıda sizinlə görüşmək ümidiylə...

İstər kişi olsun, istər qadın, yaşamaq ehtirası olan hər kəs bütün çətinlikləri dəf eləməyə qadirdi. Hətta, ölümün özünü qabaqlamağa da. Böyük dühalar bəzən buna "ölümün özünü öldürmək" də deyirlər.





Əlbəttə, insan özlüyündə nə qədər gücsüzdürsə, ətrafı boşdursa, əhatəsindəkilər ona dayaq durmurlarsa, onu dəstəkləmirlərsə, o, daxilən kimsəsizləşir, acizləşir. Bəzən də yazıqlaşır. Ruha qüvvət verən ehtiras tədricən gücdən düşür. Doğmalarına da, yadlara da yaramaz bir məxluqa çevrilir. Bir sözlə, insanın möhtəşəmliyi, əzəməti nə qədər özüylə bağlıdırsa, bir o qədər də yaxınlarından asılıdır. Bu dediklərimlə filosofluq eləmək fikrində deyiləm. Bu gün mənə tam aydındı ki, xəstəlikdən qurtulmamın, yaşamımın başlıca səbəbkarı Ustad Cavad Heyətdi, həkim Seyid Əhməd Həsəntaşdı, doğmalarımdı, dostlarımdı. Məni dəstəkləyənlərdi. Mən xeyirxahlarımdan kimlərinsə adını unuda biləcəyimi düşünüb konkret ad çəkmək istəmirəm. Hamısını dərin hörmətlə xatırlayıb bağrıma basıram...

Saat 22-yə az qalırdı. Qabaqda Cavad Heyət, arxasınca Həsəntaş, Savalan, Əyyub, bir də tanımadığım iki azərbaycanlı və bir şəfqət bacısı palataya daxil oldular. Hamının diqqəti məndəydi. Şəfqət bacısı Tehranda son iynəmi vurub, həbimi içirib mənə "yaxşı yol" arzuladı. Qardaşım cəld ayağa qalxıb Fəridə xanımın ertədən göndərdiyi gül dəstəsini ona uzatdı. O, çəkinə-çəkinə, utana-utana gülü alıb təşəkkürünü bildirdi və palatadan çıxdı. Hamının gözlərindən sevinc yağırdı, üzləri gülürdü. Söhbətlərin məğzi, başlıca qayəsi məniydim. Həkim məsləhətlərini verir, ustad dostluğumuzdan, şair tez-tez məzəli əhvalatlardan danışırdı.

Savalan orta yaşlı kişini göstərərək bildirdi: — Qələm əhlidi, azərbaycanlıdı, Bakını görmək, Şimali Azərbaycanı qarış-qarış gəzmək... həvəsindədi. Gözəl saz çalır. Hərdən oxuması da var. Əməliyyatınızı eşitcək, sizi ziyarət eləmək istədi. Mən də razılaşdım. Adı da Ağayi Mürsəldi. Gilanda doğulub. Yaxşı ol-

saydız, sizi Məşhədə aparacaqdı. Qalsın gələn dəfəyə.

— Çox gözəl. Tanışlıq üçün şadam. Dostlarımızdan hər kəs Bakıya nə vaxt gəlsə, mən Şimali Azərbaycanı gəzməkdə ona bələdçilik edərəm.

— İkinci qardaşımız Ağayi Əkbərdi. Avropada təhsil almış rejissordu. Mən deyəndə ki siz yazıçı, kinossenaristsiz, uçmağa qanadı olmadı. O da azərbaycanlıdı. Təbrizdə doğulub.

— Tanışlıq üçün şadam.

Ağayi Əkbər dedi:

— Əsərinizi versəz...

— Tərcüməsiz çətindi.

Cavad Heyət sözə qarışdı.

— Ziyalılarımızın yaradıcılıq əlaqələri o taylı-bu taylı Azərbaycana ancaq fayda verər. Əlaqələrə çalışmalıyıq. İndi vaxt daralır, yır-yığış eləyək. İmkan tapıb görüşərsiz.

— Çəkmələri ver geyinim, — deyə qardaşımın üzünə baxdım. Qardaşım təəccüblə:

— Çəkmələri harda çıxarmışdın? — deyə soruşdu.

— Yadımda deyil...

Çəkmələr hamının marağına səbəb oldu. Mən başımı yelləyərək:

— Bəlkə düşünürsən ki, Bakıdan ayaqyalın gəlmişəm.

Eyyub Ağa:

— Narahat olmayın. Tehranda dükan-bazar gecələr işləyir. Ayağınızın ölçüsü neçədi? Deyin, mən bu saat alıb gətirərəm.

Məmmədrəhim sarsıntılı vəziyyət aldı:

— Əcəb işə düşdük. Çəkmələri kim götürə bilər?

Savalan:

— Heç kim.

Ağayi Mürsəl:

— Mənim çəkmələrim ayağına yarıyarmı?

Mən dərhal:





— Bəs siz?

— Maşına oturub birbaşa evə gedəcəm.

— Yox... Mən klinikaya ayaqyalın gəlməmişəm. Fikirləş görək, qardaş, ayaqqabımızı harda çıxartdıq?

Qardaşım xeyli fikrə getdi. Sonra dedi:

— Məncə xəstəxananın birinci mərtəbəsinə girəcəkdə çəkməni çıxarıb çətələk geyindin. Bəlkə unutmuşuq, orda qalıb.

— Elə orda qalmış olacaq. Günah məndədi. Özüm götürsəydim... Bir-birimizə ümid olub çəkmələri unutmuşuq. Bəlkə ordadı?

— Bu qədər müddətə?

— Qardaş, zəhmət olmasa... Qaç, yubanma.

Məmmədrəhim çiyinlərini çəkib naümid halda palatadan çıxdı. Hamı selə-suya dönmüşdü. Gərginliyi yumşaltmaq üçün dedim:

— Əşi, qəribə adamam. Görünür, başıma hələ çox iş gələcək.

Cavad Heyət:

— Təki çəkmələr yoxa çıxsın. Onu yola vermək asandı.

Elə bu vaxt Məmmədrəhim əlində çəkmələr içəri girdi.

— Qoyduğumuz yerdəymiş...

Savalan dərhal:

— Dedim, klinikadan onu heç kim aparmaz.... Bir də ki əlqolunun bir çəkmədən ötrü kəsilməsini heç kim istəməz.

Ağayi Əkbər dərhal bildirdi:

— Yaşasın İran, var olsun qılıncdan iti İran qanunları.

Palatanı gülüş səsləri bürüdü. Mən paltarlarımı dəyişdim. Qardaşım ağır-yüngülümüzü götürdü. Hamımız birlikdə klinikadan çıxdıq.

— Görüşənədək, — deyib həyətdə Həsəntaşla, Ağayi Əyyubla, Ağayi Mürsəllə, Ağayi Əkbərlə əl verib, qucaqlaşıb ayrılırdıq ki, Həsəntaş dedi:

— Üç ay sonra iyulun 12-də müayinəyə gələnədək.

## Tehran Hava Limanında

**Yıxılan şəxs qalxmağı da bacarmalıdı.**
***E.Bardman***

**Yıxılanı qaldırmaq kişiliyə məxsus keyfiyyətdi.**
***Ə.Şəriyyəti***

Cavad Heyət, Savalan, Məmmədrəhim və mən maşına əyləşdik. Ustad dedi:

— Birbaşa hava limanına.

Mən dərhal etiraz elədim:

— Yox, ustad, sizi evə düşürək.

Çox çəh-çöhrdən sonra Cavad Heyəti razı saldıq və yaşadığı binanın qarşısındaca ondan ayrıldıq. Savalan şəxsi maşınında bizi təyyarə hava limanına gətirdi, hava limanının zirzəmisindəki dayanacaqda saxladı. Çətinliklə düşdüm. Qıçlarım bədənimi götürmürdü. Özümüz də üçüncü mərtəbəyə çıxmalıydıq. Belə vəziyyətdə o çox müşkül məsələydi... Mən yuxarı qalxmaq üçün çarə axtarmağa başladım. Elə bu vaxt gözlərim kənarda saxlanan boş yük arabacığına sataşdı. Qardaşıma arabacığı göstərərək:

— Onu gətir.

— Nəyinə gərəkdi?

— Gətir, — deyirəm. — Mən onun üstə oturum, siz liftlə yuxarı qaldırın.

Savalan təəccüblə üzümə baxdı. Mən bildirdim:

— Belə vəziyyətdə heç cürə liftə yaxınlaşa, yuxarı qalxa bilmərəm.

Əlacsız qalan qardaşım arabacığı gətirməyə məcbur oldu və dedi:

— Adamlar bizə güləcəklər...





— Məni burda kim tanıyır?.. Nə qədər istəyirlər, gülsünlər, lap qəhqəhə də çəksinlər. Zənbili arabacığa qoy, mənə də kömək elə, onun üstündə oturum.

Düşündüyüm kimi də elədik. Savalan əlimdən tutdu. Məmmədrəhim arabacığı sürməyə başladı. Liftə yaxınlaşanda o, ehtiyatsızlıq eləyib arabacığı səkiyə çırpdı. Mən müvazinətimi saxlayanmayıb zənbil qarışıq üç metr məsafə olar-olmaz arabacıqdan qabağa yıxıldım. Savalanla Məmmədrəhim bərk qorxdular. Selə-suya dönüb heyrət və təlaş içərisində mənə baxdılar. Məmmədrəhim soruşdu:

— Bir şey olmadı ki?

— Yox... Nə dayanmısız, gəlin məni qaldırın.

Onlar bədənimin hansı hissəsindən tutacaqlarını bilməyib çaş-baş qaldılar. Mən gülümsündüm:

— Yıxmısız, indi də zəhmət çəkin, qaldırın... Savalan, sən başımdan, qardaş, sən də toqqamdan tut. Yeganə salamat yerim başımla qurşağımdı.

Onlar belə də elədilər. Mən yenidən arabacığa əyləşdim və gedib liftə girdik. Beləcə üçüncü mərtəbəyə qalxdıq. Adamlar dayanıb bizə tamaşa eləyirdilər. Bunu görən liman işçilərindən biri bizə yaxınlaşdı:

— Arabanızı dəyişmək lazımdı.

— Necə?

— Qalxın, mən sizə araba gətirim.

Belə də oldu. Məni təqribən əlli-altmış arabacıqda gedən şikəstlər sırasına qatıb apardılar. Dəhşətə gəldim. Aman Allah, gör mən hansı vəziyyətdəyəm? Atam, anam, cicim bu günümü görsəydilər... Nə yaxşı ki, insan ona yaxınlaşmaqda olan təhlükəni, hansı faciəylə qarşılaşacağını əvvəlcədən duymur. Mən inanıram ki, duysa, bəlkə özünə qəsd eləməkdən də çəkinməz. Belə olan təqdirdə insan çox zaman reallıqdan fantaziyaya, mövcudluqdan xəyala meyillənir. Reallıq və yoxluq, mövcudluq və

heçlik paralelliyində daim xəyal cövlan eləyir. Birincilər naqis dünyanın eybəcər həqiqiliyidirsə, ikincilər yalnız sözlə ifadə olunan yalanlarla dolu, qara bir kabusdur. O kabus neçə vaxtıydı ki, başım üzərində dolanır, mənə cəhənnəm od-alovundan tüğyan eləyən dözülməz əzab, ürək parçalayan sarsıntılar gətirirdi. Gözlərim önündə doğmalarımdan birdəfəlik əl çəkəcəyim müdhiş anların mənzərəsini yaradırdı. Bu, elə bir arzuolunmaz qəti gələcəkdir ki, kimsənin iradəsiylə hesablaşmır, gələndə gəlir, istədiyini qoparıb aparır. Özü də utanmaz-utanmaz, qımışa-qımışa deyir: "Bu dünyaya gələndə, o dünyaya gedəcəyini də bilməliydin". Bəli, mən indi yandırıcı, tükürpədici o halı yaşayırdım. Tehran Hava Limanında doğmalarımın yanına necə gedib çıxa biləcəyim barədə düşünürdüm. Özümü unutmuşdum. İndi qarşılaşa biləcəyim ölümümlə də barışırdım. Əlacım kəsilmişdi. İndi təkcə əzab-əziyyətimə qatlaşan, yaşamım, sağlamlığım üçün titrəyən, məni evimə, ailəmə necə çatdıracağı haqda ürək ağrısıyla düşünən zavallı qardaşıma yazığım gəlirdi. O, Tehrandan Bakıya nə aparacaqdı?! Yumağa dönmüş xəstə bir can?.. Arzuolunmaz halda anlaşılmaz, qarmaqarışıq, nisgilli duyğular selində həddini aşan çaşqınlıq? Nə yaxşı ki, Məmmədrəhimin səsi məni düşdüyüm aləmdən ayırdı:

— Məncə, əzizimiz Savalanlıq bir iş qalmır. Gecə-gecədən keçir, neçə saatdı bizimlədi. Necə məsləhət bilirsən, bəlkə ondan mürəxxəs olaq. O da gedib yatıb dincəlsin.

— Hə... Yaxşı deyirsən.

Sonra üzümü Savalana tutdum:

— Səninlə Bakıda görüşmək ümidiylə.

— Gələcəm. Mütləq gələcəm. Mənim bacım, onun uşaqları Goranboyda yaşayırlar.

— Gözləyəcəm... Mütləq gözləyəcəm...

Biz Savalanla sağollaşıb ayrıldıq. Qardaşım uçuş üçün sənədləri qeydiyyatdan keçirməyə getdi...



# Bakı

**Vətənə gəldim, imana gəldim.**
***Atalar sözü***

Nəhayət, gecə yarı. Saat $4^{00}$. Tehrandan Bakıya sərnişin aparacaq təyyarəyə uçuş elan olundu. Qardaşımla arabacıq sahibi cavan oğlan gəlib məni uçacağım təyyarəyə apardılar... Təyyarədə hava məni sıxmağa başladı. Halım getdikcə kəskinləşirdi. Yardıma, tez təsir eləyən sakitləşdirici dərmanlara ehtiyacım yarandı. Mənə əleyhqaz gətirdilər. Həyatımda ilk dəfəydi ki, belə cihaza müraciət edirdim... Halım yavaş-yavaş yaxşılaşdı. Məni yuxu apardı...

Təyyarə Bakı Hava Limanına enəndə əleyhqazı çıxarıb xidmətçiyə təhvil verdim və limünatordan çölə baxdım. Gecə öz iblisanə vücuduna sipər çəkdiyi qara çarşabını səksəkə içərisində yığıb getməkdə, sökülməkdə olan dan yerinin bozaran ağımsov libasına təhvil verməkdəydi. Mən qardaşımın və digər sərnişinlərin köməyi ilə təyyarədən düşdüm. Qəribəydi, doğma torpaqda elə bil mənə can gəldi. Sağ-salamat Bakıya çatdığım üçün sevincdən sanki yerə-göyə sığmırdım... Aşağıda Cavidanın arabacıqla bizi gözlədiyini gördüm. Üstümə qaçdı. Mən onunla öpüşüb gətirdiyi arabacığa oturdum. Arıqlamış, cılızlaşmış, halsız görkəmimə baxan oğlumun gözlərindən mirvari dənələri kimi yanaqlarına süzülən damcıları heç vaxt unudanmaram.

Mən astadan Cavidana qüsur tutdum:

— Hə, xeyir ola. Sağ-salamat qarşındayam. İndi nə istəyirsən?

— Bağışla, ata, özümdən asılı olmadı.

Məcburən hər ikimiz gülümsündük...

Arabacıq maşına yaxınlaşdı. Ora dostlarım, doğmalarım top-

laşmışdılar. Gözlərdə sevinc və kədərin çulğalaşdığı, hardasa çarpışdığı, toqquşduğu bir məyusluq hissinin işartıları da duyulurdu. Məni maşının arxa salonuna əyləşdirdilər. Havasızlıqdan yaralı ürəyim köksümə sığmırdı. Nəfəsim təngişirdi. Maşının hər iki qapısını açdırdım. Ciyər dolusu sərin, təmiz hava udduqca ürəyim genişlənir, yavaş-yavaş özümə gəlirdim.

Üzümü Qasıma tutdum:

— Sən şəkər həkimi Abdullaya telefon aç. Gəlişimi ona da xəbər ver. De, bizə gəlsin. Şəkər yenə qalxıb. Bərk narahatam.

— Oldu.

Sonra sakitləşib sürücüyə dedim:

— Maşını işə sal, gedək. Yəqin uşaqlar da evdə həyəcan keçirirlər.

Biz evə çatanda saat 7 idi. Qohum-əqraba bizi qarşıladı. Ürək döyüntülərim artmışdı. Dəqiqədə 100-ə, bəzən də 130-a qalxırdı. Az qala köksümə sığmayan ürəyim yerindən çıxacaqdı. Şəkər döyüntüləri bir qədər də şiddətləndirirdi. Çarpayıya uzanan kimi halım bir qədər də ağırlaşdı. Abdulla həkim gələndə mən uzana bilmədiyimdən yumşaq kresloda əyləşmişdim. O, qandan analiz götürdü. Şəkərin miqdarı 400-ü keçmişdi. Abdulla müalicəyə başladı. Evə kardioloq — həkim gətirildi. Məni özümdən asılı olmayaraq qorxu hissi bürüdü. Onu da bilirdim ki, qorxu əsəbin, şəkərin mənbəyidi...

Başımı balınca qoya bilmirdim. Həmin gün yuxusuz qaldım. Ailə üzvlərinin narahatçılığı daha da artdı. Hamı üzümə baxır, halıma acıyır, əlac eləyə bilmədiklərinə təəssüflənirdilər... Əlacsız qalıb Kardiologiya İnstitutuna, respublika klinikasına və "Neftçilər" xəstəxanasına getdim. — Can şirindi, — deyirlər. O, ağrıyanda, dərəcəsindən asılı olmayaraq, insan ölümlə həyat arasında çarpışır, ağlagəlməyən ümidsiz şeylərə də sığınmalı olur. Allahdan da, uşaqdan da, böyükdən də imdad diləyir. Bəzən dərdinə əlac tapılmadıqda Yaradanına asi düşür.





Nə az, nə çox, düz bir ay gecə-gündüz kresloda oturduğum yerdəcə iki, nadir hallarda üç saat yuxu alırdım. Yorğunluq, yuxusuzluq, ayaqlarımın şişməsi, ürək əməliyyatı azmış kimi xəstəliyimə əlavə olunmuşdu... Başımı az qala qapının kənarına, divara vurmaq, beləcə bu üzüntülü ömürdən canımı qurtarmaq istəyirdim. Ancaq bacarmırdım. Ona sözün həqiqi mənasında gücüm çatmırdı...

Əlacsız qalıb Tehranla — Həsəntaşla danışmalı oldum. Dərdimi danışıb, ondan məsləhət aldım. Onun məsləhəti ilə gecəykən aptekdən dərman aldırıb içdim. Həmin vaxtdan ürəyimin döyüntüləri tədricən qaydaya düşdü. Sanki şəkər də, ayaqlarımın şişməsi də buna bənd imiş. Həftənin sonu kürəyimdə ağrılar hiss elədim. Bu dəfə "Neftçilər" xəstəxanasında rentgen olundum. Mənə "Ciyərlərinə su gəlib" diaqnozunu qoydular. Əcəb işdi... "Yağışdan çıxıb yağmura düşdüm" — deyə düşündüm. Elə bil novrağım dönmüşdü. Güclü zəlzələdən uca dağların sal qayaları uçulub dərələrə necə yummalanırdısa, xəstəlik də, dərd də üstümə eləcə axışırdı. Dərdin-azarın birindən qurtarmamış o birinə calanırdım...

Aylar beləcə gəlib keçirdi. Mənsə hələ də xəstəxana qapılarını döyürdüm. Tanış üzlər... Tanış səslər... Sağalacaqsan, — deyə verilən vədlər. Dostların az müddətli, ötərgi sevincləri... Bədxahlarımın saxta gülüşləri... Bəzən də içimdə biganəlikdən, inamsızlıqdan, nələr, nələrdən doğan şübhələr... Mən bu dəfə də müalicəm üçün Gülnarə xanımı seçdim. Bu, əslində təsadüfi seçim deyildi. Çox cavan olsa da, hazırlığına, bacarığına da inanırdım. — İnam böyük qüvvədir, — deyirlər. O, tərəddüd eləmədən məni müalicəyə başladı. Ürəklə paralel digər xəstəlikləri də nəzarətə götürdü. Günaşırı sistemlər, gündəlik iynələr, həblər... Orqanizmim zəifləyirdi. Yaşamağa ümidim azalırdı. Gecələrin iblisanə görkəmindənmi, xəstəliklərin törətdiyi fəsadlardanmı, ya nədəndi, yuxularım ərşə çəkilirdi. Beş-on dəqi-

qəlik mürgü döyəndə də əcaib, qorxulu yuxular görür, çox zaman da diksinib yatdığım çarpayıdan atılırdım. Onda da ürəyim döyünür, bütün bədənim əsirdi. Elə düşünürdüm ki, nə vaxtsa, bu müəmmalar məni caynağına alacaq, "uf" demədən öz dünyamdan qoparacaqdı. Eh... Dünya, dünya... İnsan biləndə ki, bu dünyaya gələn gec-tez gedəcək, onda geriyə istəsən də, istəməsən də yolun qalmır. Buna baxmayaraq, ölüm, soyuq məzar barədə düşünəndə dəhşətə gəlirsən.

Ölüm əbədiyyətə açılan qapıdı. Vaxt gələndə hamımız, zorxoş o qapıdan keçəcəyik. Ancaq baxır necə? Ruhu gözəlliklər, pak və ülviyyət məskəni behiştə, yoxsa, od-alov püskürən cəhənnəmə. Aqillər demişkən, cənnət və cəhənnəmi də biz yaratmışıq. Bəzən fərqinə varmadan, həqiqiliyini və yanlışlığını bilmədən ikrah hissiylə ondan qaçıb, başqa sözlə, cəhənnəmə arxa çevirib, cənnətə üz tuturuq, can atırıq. Özümüzə rahat məskən axtarırıq. Adi anlarda işin düz gətirməyəndə, kimsə tərəfindən əziləndə, düçar olduğun ağır xəstəlikdən yaxa qurtarmağa çarə tapanmayanda... özünə ölüm arzulayırsan. Yaşamaqdan bezdiyini, həyata nifrət elədiyini dilinə gətirirsən. Qəribədi, elə ki, ölümün pəncəsi sənə yaxınlaşdı, hər şeyi unudursan. Ömrün şirinliyini, dadını heç nəylə əvəzləmək istəmirsən. Ölümün özünə nifrət eləyirsən. Bəli, dünya belə dünyadı...

Respublika xəstəxanasında gördüklərimi heç vaxt unudanmaram. Bir neçə kişi və qadınla yuxarı mərtəbəyə qalxmaq üçün dayanıb liftin gəlməsini gözləyirdik. Elə bu vaxt əlli-əlli beş yaşlı bir qadın da bizə yanaşdı. Geyim-keçimindən rayondan gələnə oxşayırdı. Əlindəki qara çantasını yerə qoyub, növbədə sonuncunun kimliyini soruşdu. Cəmi-cümlətanı bir dəqiqə keçər-keçməz bu qadının səsi dəhlizi bürüdü:

— Vay, çantamı apardılar.

Hamı təəccüblə bir-birinin üzünə, yan-yörəsinə baxdı. Qadın qışqırmağa davam elədi:





— Belə də millət, belə də ölkə olar?! Zənbili əlimdən yerə qoyan kimi hansısa ciyəri yanmış qapıb apardı. İndi mən neyləyəcəm? Qohum-qardaşdan aldığım iki yüz manatım, alt-üst paltarlarım, çətələyim zənbildəydi. İndi həkimə pulsuz necə deyim ki, mənə bax, məni müayinə elə? Kəndə necə qayıdacam? Kimdən borc alacam?

Qadın deyir, ağlayır, oğrunun arxasınca qarğıyırdı. Qarğışsöyüş səsinə axışıb gələnlər qadını dövrəyə alırdılar. Hamı matməəttəl qalmışdı. Cavan oğlan dilini dinc qoymadı.

— Bir zənbilini qoruyanmayacaqdınsa ha, atıla-atıla şəhərə niyə gəlirdin?

Qadın acıqlı-acıqlı dedi:

— Kefimdən gəlmişəm? Allah kəssin xəstəliyi... Düzəldi işim... İndi də gəl, əli ətəyindən uzun geri qayıt...

Yaşlı qadın:

— Polisə şikayət ver, tapıb ciyərini çıxartsınlar.

— Eh, sən nə bilirsən, bunu polis eləmədi?..

Məni fikir götürdü. İşə bax. Mollalar, şeytanlar, iblislər ölkəsi adlandırılan İran klinikasında yiyəsiz çəkməyə təqribən yarım ay müddətində toxunan olmadığı halda, azad bir ölkədə yüksək intellekt sahibi sandığımız adamlar kasıb, kimsəsiz qadının yeganə ümidi olan zənbilinin bir dəqiqə ərzində arxasına keçdilər. Bunu İranda eləmək mümküniydimi? Oğru əllər tapılıb kəsilməzdimi?! Bunu nə adlandırmaq olar? Qadın bir tikə çörək üçün kimlərə əl açmalıdır? Neçə kilometrlərlə əziyyət, zillət çəkib gəldiyi yolu geriyə necə qayıtmalıdır? Zənbili adını kişi qoyduğumuz kimsəmi apardı? Yoxsa hansısa zərif cinsin nümayəndəsi sandığımız qadın? Zavallı qadının içi köhnə paltarla dolu zənbilini polislər axtaracaqlarmı? Yoxsa onlar da: — Zəhrimarını bərk saxlayaydın, — deyəcəklər? Ziyalısı şarlatan, məmuru rüşvətxor, korrupsioner olan bir diyarda yaşamağa dəyərmi?.. Heyf!.. Çox heyf yaşadığımız, ömür sürdüyümüz naxələf dünyadan...

## Yekun müayinəsi

**Zülmətin ardınca parlaq günəş doğar.**
*Atalar sözü*

İyulun 12-də oğlum və qardaşımla Tehrana qayıtdıq. Havada 50 dərəcə istilik vardı. Hər tərəf od tutub yanırdı. Nəfəs almaq olmurdu. İstidən hərəkət eləmək olmadığından şəhərdə çox az adam gözə dəyirdi. Buna baxmayaraq, həmin gün hoteldə qalmaq üçün iki otaq götürüb ustad Cavad Heyətə, şair Savalana, həkim Fəridə xanıma telefon açdım. Onlara otaq nömrəmi verdim. Sonra maşına əyləşib "Lale" klinikasına yollandıq. Həkim Həsəntaşla, Ağayi Əyyubla görüşdük. Müayinə başlandı və üç gün davam elədi. Axşama yaxın müayinənin nəticələriylə tanış oldum. Həsəntaş gülümsünərək dedi:

— Ağarəhim, səni təbrik eləyirəm. Nəticə çox yaxşıdı. Sənə iyirmi il möhlət verirəm. İyirmi il ürək səni incitməyəcək. Get, özünü başqa xəstəliklərdən qoru. Şəkərin cilovunu buraxma, çalış, onu əlində möhkəm saxla... Get dənizdə, saunada, hovuzda çim, idman elə. Maşını at, çalış piyada çox gəz... Çəkini artmağa qoyma...

— Oldu həkim.

## Yenidən Tehran

**Dahilər bir xalqın içərisindən çıxır,**
**bəşəriyyətin övladı olur.**
*Denri Didro*

Düz bir il sonra yataqdaykən qəflətən xəstələnəcəyim ağlıma da gəlməzdi. Bu dəfə aprelin 11-i gecə qıçlarımda kəskin ağrılar yarandı. Ağrılar ürəyimə vururdu. Mən yataqdan





qalxıb kresloda oturdum. Qıçlarıma ağrıkəsici dərmanlar (maz) sürtsəm də, faydası olmadı. Səhəri qıvrıla-qıvrıla açdım... Səhər xəstəxanaya qaçdım. Hərə mənə bir məsləhət verdi. Ağrı-acıdan heç cürə yaxa qurtara bilmirdim. İkinci axşamı saat 11 radələrində ağrılar bir qədər də şiddətləndi. Əlacsız qalıb Respublika Ekspermental Xəstəxanasına üz tutdum. Müayinə gecə yarıyadək uzandı. Həkimlərin qərarı qıçın kəsilməsi oldu. Məni dəhşət bürüdü. Deməyə söz tapmadım. — Ondansa ölüm yaxşıdı, həkim, — deyib əsəbi halda xəstəxanadan çıxdım. Səhər Tehrana uçaqa bilet aldırıb həkim Həsəntaşa və Əyyub ağaya telefon açdım. Vəziyyətimi açıqladım. Elə həmin axşamı qardaşımla Tehrana uçdum. Bizi Əyyub Ağa və onun dostları qarşıladılar. Hoteldə rahatlandıq. Səhəri gün "Lale", "Mehri" klinikasında müayinədən keçirildim. Sonra saat 18 tamamda qardaşım, Əyyub Ağa və mən Həsəntaşa məxsus klinikaya yollandıq. Beşinci mərtəbəyə qalxıb birbaşa Həsəntaşın gözləmə zalına getdik. Mən gözlərimə inanmadım. Saata baxdım. Saat 20-yə işləyirdi. Təqribən səksən kvadratmetrlik zal adamlarla doluydu. Mən növbə barədə düşünürdüm ki, Əyyub Ağa həkimin köməkçisiylə nəsə danışdı. Onun qırx yaşı ancaq olardı. Üzümə baxıb gülümsədi və zalda əyləşmək işarəsi verdi. Mən o deyən kimi də elədim. Yanında əyləşdiyim yaşlı kişidən soruşdum:

— Bu gün qəbulda adamlar nə çoxdu?

Müsahibim sualıma sualla cavab verdi:

— Nə vaxt az olub ki? Yaxşı həkim belədi də. Sədası ölkənin hər tərəfinə yayılıb. Hamı ziyarətgahlar olan inam və ümidlə gəlir Həsəntaşın yanına.

— Bu gün hamıya növbə çatarmı?

— Gecə yarı da olsa, sabah da açılsa, baba, adamları qəbul eləmədən heç hara getməyəcək. O, adamların inamını qırmaz, ümid işığını söndürməz. Hələ bu harasıdı? Gah "Mehri", gah "Lale" klinikasına, nə bilim haralara, haralara gedir. Bəzən də

adamları qəbul eləyəndən sonra təəccili cərrahiyyə əməliyyatına çağırılır. Onda da cərrahiyyə libası geyinir. Uğurlu əməliyyatdan çıxanda üzünü görmə. Uşaq kimi sevinir. Adamı dəhşət bürüyür. Bu qədər də insanlara yaxın olmaq, onlara şəfa əlini uzatmaq olarmı? Xəstələri öz aralarında hərdən deyirlər: Həsəntaş yatmır... Çox zaman mürgü döyür... Siz qonaqsız?

— Bəli! Bakıdan gəlmişik.

— Gəlişinizdən xəbərdardımı?

— Hə...

— Onda sizi qonaq olduğunuz üçün növbədən kənar dəvət eləyər. Ölçülü-biçili adamdı.

Mən gülümsündüm. Daha heç bir söz demədim. Çox çəkmədi ki, köməkçisi dedi:

— Doktor Bakıdan gələn qonaqları dəvət eləyir.

Qardaşım, mən və Əyyub Ağa növbədəkilərə üzrxahlıq bildirib doktorun kabinetinə keçdik. Həsəntaş böyük səmimiyyətlə bizi qəbul elədi. Köhnə dost kimi hal-əhval tutdu. Müayinəyə başladı. Qıçlarımdakı problemin şəkərlə bağlılığı müəyyənləşdirildi. Bakı xəstəxanalarında qoyulan diaqnozu həkim Həsəntaşa göstərdim. O aldı. Özlərinin qoyduqları diaqnozla tutuşdurdu, müqayisə elədi. Gülümsəyərək başını yellədi. Sonra dedi:

— Ağarəhim, narahat olma. Hər şey yaxşı olacaq. Sizin həkimlər düz diaqnoz qoymayıblar. Qıçlarınızdakı ağrı-acılar da özü-özündən ötəcək. Sizə gəzmək, açıq havada olmaq lazımdı.

Həsəntaş dəstəyi götürüb ustada telefon açdı. Mənim Tehranda olduğumu, vəziyyətimi ona çatdırdı. Sonra dəstəyi mənə verdi. Doktor dedi:

— Ağarəhim, mən Həsəntaşa özüm qədər inanıram. O ləyaqətli kişidi. Dünya şöhrətli alim — həkimdir. Nə deyirsə, onu da qəbul elə. Gəl, bu axşam qonağım ol.

Mən doktora əziyyət vermək istəmədim.

— Ustad, bu gün imkanım yoxdu. Məni üzrlü hesab edin.





— Sabah mən Bakıya uçacam. Orda görüşənədək.

— Hələlik, — deyib dəstəyi həkim Həsəntaşa qaytardım. Onunla xüdahafizləşib qardaşımla hotelə qayıtdıq.

Günortadan sonra telefonuma zəng gəldi. Danışan həkim Həsəntaşıydı. O, salam verib dedi:

— Ağarəhim, mən sənin xətrini çox istəyirəm. Sən təmiz və mülayim adamsan. Səni özümə dost sanıram.

— Həkim, hər şey qarşılıqlıdı. Sizinlə dostluq mənim üçün də əzizdi. Sizin elminiz, şəfalı əlləriniz mənim kimi neçə-neçə adamlara həyat verir. Ömür yaşatdırır. Xeyirxah insanla, böyük şərəf və şöhrət sahibiylə dostluq mənim üçün də fəxarətdir...

— Ağarəhim, şam naharında bir yerdə olacağıq.

— Həkim, axı...

— Yox dostum. Axı bir-birimizə dost dedik.

Mən təklifi qəbul elədim. Axşam saat yeddidə Əyyub ağa gəldi. Biz onunla restorana getdik. Restoran şəhərin mərkəzindəydi. Yuxarı mərtəbəyə qalxdıq. Şəhərin gecə görkəmi adamı valeh eləyirdi. Bizi Həsəntaşla başqa adamlar da restoranda gözləyirdilər. Hamıyla əl verib görüşdük. Əyləşmişdik ki, stolumuza İranın və Azərbaycanın bayrağı gətirildi. Üç rəngli bayrağı görcək ürəyim sevincdən az qala yerindən atlanıb çıxacaqdı. Etiraf eləyim ki, heç vaxt indiki qədər özümdə fəxranəlik duymamışdım. Müstəqil, suveren Azərbaycanın dövlət bayrağı. Gözlərim yaşardı...

Süfrə ətrafında tanışlıq. Siyasətdən, riyadan uzaq söhbətlər. Xalqlar arasındakı dostluq, qonşuluq münasibətləri. Qoca Şərqin böyük filosofları barədə düşüncələr.

Əbülqasim Firdovsi, Sədi Şirazi, Ömər Xəyyam, Hafiz, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, kimlər... kimlər... Müasir Azərbaycan və müasir İran təhsili. Hər iki ölkənin inkişafı və perspektivləri...

Həsəntaş dedi:

— Bakıdan İrana xəstələr axışır. Biz onları qardaş xalqın nümayəndəsi kimi müalicə eləyirik. Bundan sonra da o fəaliyyətimizi daha da inkişaf etdirmək, qardaş-bacılarımızın sağlamlığı keşiyində dayanmaq bizim müqəddəs borcumuz və insani məsuliyyətimizdi. Bir zaman təhsil, səhiyyə bizdə də acınacaqlı vəziyyətdəydi. Biz Qərbə, Avropaya gəncləri göndərdik. Onlar müasir texnikanı, onlarla işləmə yollarını mənimsədilər. Tibbi biliklərə mükəmməl yiyələndilər. Böyük təcrübə qazandılar. İndi də gəlib İranda və digər ölkələrdə fəaliyyət göstərirlər. Mənə elə gəlir ki, Azərbaycan öz yüksək ixtisaslı kadrlarını yetişdirməkdə bir qədər ləngiyir.

Mən Həsəntaşla içimdə razılaşsam da, qüsurumuzun bu məclisdə xatırladılmasını özümə sığışdıranmadım. Özümü elə apardım ki, guya məsələ heç də dəhşət doğuracaq qədər, acınacaqlı halda deyil:

— Həkim, Azərbaycan iyirmi il əvvəlki ölkə deyil. Bizim ölkəmizdə çox güclü inkişaf var. Qərbin, Avropanın elmi yenilikləri Azərbaycana ötürülür. Hazırda o ölkələrdə bizim də müxtəlif sahələr üzrə kadrlarımız formalaşdırılır. İnşallah, tez bir zamanda vəziyyət bizdə də yaxşılaşar.

Açıqlama verməsə də, Həsəntaşın üzündə zərif bir təbəssüm yarandı. Handan-hana astadan dedi:

— Müdafiə...

Ortaboylu, dolubədənli, sarışın kişi söhbətə qarışdı:

— Sizin islama, islam mədəniyyətinə münasibətiniz?

— Yetmiş il ərzində Şura hökuməti (sovetlər birliyi) Allahsızlıq uğrunda nə qədər kəskin mübarizə aparsa da, adamları repressiyaya uğratsa da (öldürtdürsə də, qazamatlarda çürüdürsə də), İslam, islam mədəniyyətini əlimizdən alanmadılar. Biz o dəyərləri qoruyub saxlaya bildik. Bizdə inanclı adamlar həddən artıq çoxdu. Bununla belə, mən o əqidədəyəm ki, hər şeyin həddi var. Din xurafatla bir araya sığmır. Dindarların bəzən nihilizmə kor-koranə yanaşması faciədi.





Həsəntaş:

— Ağarəhim, elm təfəkkürlə, ilahiyyat inamla (qəlblə) öyrənilir. Elm insana güc və aydınlıq verir. İnam (qəlb) isə eşq və ümid. Elm hərəkətə sürət, inamsa ona yön və istiqamət gətirir.

— Siz deyənləri tamamilə qəbul eləyirəm. Şura hökuməti neyləmişdi? İnsanı iki yerə bölmüşdü. Başını götürmüşdü, ürək hissəsini atmışdı.

— Maraqlıdı... Onu necə izah eləyərsiz?

— Çünki ürək (inam) Allaha gedən yolla hərəkət eləyirdi. Qəlbi atmaqla Şura hökuməti Allaha gedən yolu kəsməyə çalışdı. Ancaq onu da bacarmadı...

Əyyub ağa:

— Maraqlıdı...

Həsəntaş söhbətin səmtini dəyişdi:

— Ağarəhim, qıçınızı özünüzə dərd eləməyin. Bu gün həkim həmşəhərlimlə görüşüb vəziyyətini onunla da müzakirə elədik. Allah eləməsin, siz yenidən narahat olsanız, onunla birlikdə qıçınızı ya müalicə, ya da damarınızı əməliyyat elərik. Canınızı ağrı-acıdan qurtararıq... O, ABŞ-da təhsil alıb. Qərb, Avropa klinikalarında zəngin təcrübə qazanıb. Xeyli vaxtdı İranda damar üzrə püxtələşmiş həkim-cərrahdı.

— Böyük narahatlıq keçirmisiz, həkim.

— Dedim axı, biz dostuq.

Hamımız gülüşdük. Mən əlavə elədim:

— Mən sizə sual vermirəm, həkim. Çünki sizin barənizdə ətraflı məlumatı ustadınız Cavad Heyətdən və müxbir araşdırmalarından alacam.

Hamı gülüşdü...

Gecə saat 12-yə qalmış biz süfrə arxasından qalxdıq. Həyətdə öpüşüb-görüşüb ayrıldıq. Əyyub ağa bizi hotelə apardı...

Səhər Bakıya uçduq. Dörd gün sonra ustad Cavad Heyətlə

evində görüşdük... Xeyli söhbətdən sonra Həsəntaş barədə o dedi:

— Ağarəhim, ilk, orta, litsey təhsilini Tehranda alan və tibb ixtisasa İran Milli Universitetində mükəmməl yiyələnən Seyid Əhməd Həsəntaş 1957-ci ildə Tehranda doğulmuşdur. Ziyalı ailəsində böyüyüb boya-başa çatan xanımı Məryəm qnikoloqdur. İran Milli Universitetinin dosentidir. Yüksək təlim-tərbiyə görmüş iki oğulu var. Hər ikisi stomatoloqdur.

Cəsarət və fədakarlıq timsalı olan Həsəntaş İran və Amerika Birləşmiş Ştatlarında təhsil üzrə bir çox cəmiyyətlərin, o cümlədən, İran Milli Universitetinin, Ümumi Cərrahlıq üzrə İran cəmiyyətinin, Travma və Damar cərrahlığı Tibb Elmləri Milli Universitetinin, İran Cərrahlıq Kollecinin, İran Ürək-Damar Cərrahlığı Mərkəzinin, Amerika Cərrahlıq Kollecinin, Kern Tibbi Mərkəzinin… üzvü olmuşdur.

Həsəntaş bir sıra universitet və mərkəzlərdə aspirantura təhsili və təliminə yiyələnmişdir. İran Milli Universitetində, Tibb Elmləri üzrə Milli Universitetdə, Şohada Tibbi Mərkəzində, Vaşinqton Universitetində, Kern Tibb Mərkəzində, Şəhid Rəcai Kordioloji İnstitunda… ürək-damar cərrahlığı üzrə keçdiyi təcrübələr onun bir alim kimi formalaşmasına və mükəmməl bir həkim-cərrah tək yetişməsinə öz tövhələrini vermişdi.

İran Tibb Şurasının, Vaşinqton Universitetinin, Kaliforniya Tibb Cəmiyyətinin və ona yaxın digər cəmiyyətlərin lisenziyalarını alan Seyid Əhməd Həsəntaş tibb sahəsində bir sıra vəzifələrin icraçısı olmuşdur. O, tibb elmləri üzrə Milli Beheşti Universitetinin Ümumi və Damar Cərrahlığı şöbəsində dosent (1988-1992), təhsil üzrə vitse-prezident (1991-1992), Zahedan Tibb Elmləri Universitetində tibb fakültəsinin dekanı, vitse-prezidenti, cərahiyyə şöbəsinin sədri (1988-1991), Zahedandakı "Travma üzrə Beynəlxalq Konqresin" təşkilatçı katibi (11/90), İran Cərrahlıq Şirkətinin Elmi Komitəsinin üzvü (1999), Cəmiyyətin katibi (2001-2009), Beheşti Universitetinin professoru (2002) və bir çox başqa məsul vəzifələrdə işləmişdir. Onların bəzilərində indi də öz fəaliyyətini davam etdirməkdədir.





Görkəmli həkim-cərrah tibb sahəsindəki fəaliyyətinə görə dəfələrlə İranın universitet və cəmiyyətlərinin mükafatlarına layiq görülmüşdür. O, magistrlik dissertasiyasına görə (1982), çətin şəraitli kənd bölgələrində xidmətinə görə (1989), İran cərrahları şirkətinin 27-ci illik konqresində fəal iştirakına görə (2003) və digər mükafatlara layiq görülmüş, 1988-ci ildə İranda "İlin ən yaxşı həkimi" seçilmişdir. Bir çox universitetlərin fəxri professorudur.

Gecə-gündüz çalışan bu alimin dərin və hərtərəfli tibbi təcrübəsi, ideya və qənaətləri yazdığı 40-a yaxın kitabında və çoxsaylı məqalələrində öz əksini tapmışdır. "Sinə borusu" (1991) "Ayaq və dizdə sonrakı arterial bərpa" (1988 K.M.Motamedi ilə şərikli), "İntra-aortik şar nasosundan istifadənin nəticələri: risk amilləri və nəticə" (2005, F.R.Omrani və Z.H.Ahamadi ilə şərikli) "Ürək cərrahlığında perioperativ xidmət" (450 s. 2011) və digər kitabları fəxrlə demək olar ki, dünya tibb elmi xəzinəsini zənginləşdirir.

İstedadlı alim, bacarıqlı həkim-cərrah Həsəntaşın ürək-damar xəstəliklərinə həsr olunmuş çoxsaylı böyük elmi ideya və ixtiraları İranda və Avropa ölkələrində yüksək dəyərləndirilir.

— Ağarəhim, Həsəntaş görkəmli ictimai xadim olmaqla bütün qüvvə və bacarığını xalqının, ölkəsinin, elmin və mədəniyyətin inkişafına xidmətə yönəldən insanşünas alimdir. Yaradıcı insandır. Bənzərsiz həkim-cərrahdır. Ləyaqətli vətəndaşdır. Onun ilk müəllimi terapevt atası olmuşdur. Onda vətəndaşlıq mövqeyi olduqca güclüdür. Parlaq və aydın şəxsiyyətə malikdir. Mənsub olduğu xalqına xidməti hər şeydən üstün tutandır.

Həsəntaş tibb elminin tarixinə, fəlsəfəsinə yaxından bələddi. Şərq və Qərb elminə mükəmməl yiyələnib. O, təfəkkürcə

şərqli olsa da, qərbyönümlü həkim — cərrahdı. Eksperimental cərrahlığa yeniliklər gətirərək peşəsinin bütün fəaliyyətində təkmilləşdirməyə can atır. O, təkcə İranla qapanıb qalmır, Avropa və Qərblə dərin və qırılmaz əlaqələr qurur. Beynəlxalq Cərrahlar Cəmiyyətinin tədbirlərində fəal iştirak edir. İranda, Misirdə, Yaponiyada, Pakistanda, Kanadada, Birləşmiş Ərəb Əmirliklərində, Malaziyada, İsveçrədə, Sloveniyada, Tailantda... damar travması, aorta cərrahlığı, əməliyyatdan sonra ağrıya nəzarət, ürək çatışmazlığının cərrahi idarəsi, ürək cərrahiyyəsinin təkmilləşdirilməsi, klasifinasiyası, yaşlılar üzərində ürək cərrahiyyəsi əməliyyatı, ürək üzərində əməliyyatdan sonra nəzarət, cərrahiyyədə yeniliklər... üzrə oxuduğu məruzələri praktik baxımdan xüsusi önəm kəsb etmişdir. O, böyük zəhmət və əmək sərf edərək ölkəsində müxtəlif aspektlər üzrə prespektivli layihələr — “İranın cənub-şərq regionunda travma epidemiologiyası (1991)”, “İranın təlim hospitalında yaşlılar üzərində cərrahiyyənin nəticəsi (2000)”, “Ürək köçürülməsində donor fəaliyyəti (2006)” həyata keçirmişdir.

İranda özünün böyük elmi məktəbini yaradan Həsəntaş xeyli sayda ardıcıllarının yetişməsinə müvəffəq olmuşdur.

O, Allahını sevəndir. Eyni zamanda mən deyərdim ki, Həsəntaş Allahın sevimli bəndələrindəndir. Sağlam əqidə, zəngin əxlaq və mənəviyyat sahibidir. Düz söz, düz ilqarlıdır. Vicdanının mühakiməsindən keçməyən, heç bir şeyə imza atmır. Mühakimə və düşüncələri elmə və məntiqə söykənir. Ədalət və həqiqət bütün fəaliyyətinin meyarıdır. Demokratikdir. Azad və sərbəst fikirlidir. Dilinə və qədim İran mədəniyyətinə çox bağlıdır. Çevik təfəkkürü var. Açıq, səxavətli adamdır. Məntiqi mühakimə qabiliyyətinə qadirdir. Kamal və mərifət sahibidir. Mərdlik və fədakarlıq, ağıl və hikmət mücəssəməsidir, desəm, səhv etmərəm. Zəngin mütaliəsi var. İdrak və eşq fəlsəfəsinə mükəmməl yiyələnmiş alimdir. Məslək və həqiqətdən savayı yol tanımır. Onun aləmində insanın yaşamının əsasında elm, ağıl və məntiq dayanır. İngilis dilini çox gözəl bilir. Dünya mədəniyyət xəzinəsindən xəbərdardır... Dünya kardioloqları tərəfindən Həsəntaşın elmi fəaliyyəti yüksək dəyərləndirilir...





Mən Cavad Heyətin bu rəyindən çox məmnun oldum. Hər şeydən əvvəl ona görə ki, dostum barədə onu yaxından tanıyanlardan, müşahidələrimdən və bu qocaman alimdən aldığım təəssüratlar üst-üstə düşürdü. Həsəntaşın istedad və qabiliyyətinə çox inanırdım. Özümə olan sevgisini və rəğbətini duyurdum. Onu da bilirdim ki, belə nüfuz sahiblərinin sərbəst düşüncə və hərəkətlərini gözü götürməyən, məqsəd və məramını, nailiyyətlərini həzm-rabedən keçirənməyən cahillər də çox olur. Onlar hər cür söz-söhbətlərə can atsalar da, göstərdikləri cəhdlər fayda verməz. Əslində Həsəntaş elə hisslərlə yaşayanlardan və onlara cavab verməkdən çox-çox uzaqdır. Mənən güclü olduğu üçün ruhu ilə səsləşməyən hər deyilən sözə məhəl qoymur. O, öz xeyirxah yoluna sadiqdir. Bütün varlığıyla nəcabətin alçaqlığa, elmin nadanlığa, ağılın ağılsızlığa təsir gücünün yetərincə olduğuna və danılmazlığına əmindir. Onun aləmində xəstəyə şəfa əlini uzatmaq istək və məramı insanın insana sevgisindən, məhəbbətindən doğan ilahi hisslərin nəticəsidir. Qəm, qüssə, kədər xəstəni ümidsizliyin, bədbinliyin əsirinə çevirəndə bəzən bu alim — həkim-cərrah ona təsəlli axtarışları təlqin eləyir. Xəstəyə göstərilən hər hansı yardım mücərrəd fəlsəfi boya və örtükdən uzaq, təmannasız güzaranın rəhninə dönür. Tanıdığım dövrdə könül mülkünü daim fəzilətlərlə dolduran, zənginləşdirən dostum Həsəntaşda bir çox keyfiyyətlərin şahidi oldum: ciddiyyət və tələbkarlıq; xarakter bütövlüyü və əxlaqi saflıq; etibar və dəyanət; insanları sevmək və onların acınacaqlı taleyinə dərindən yanmaq; səmimiyyət və mehribanlıq; zəhmətkeşlik və xeyirxahlıq; əqidəsinə sadiqlik və adilikdən uzaq sadəlik; alicənablıq, şəxsiyyətini və mənliyini qorumaq; gözəl insan və ləya-

qətli ailə başçısı... Mən qəlbən deyirəm: Həkim-cərrah, böyük alim dostum Həsəntaşın mənalı ömür yolu çoxlarına örnəkdi. Allah ona daim yar olsun!..

## KAMİLLİYƏ GEDƏN YOL...

**Dəmiri ayna tək parladan insan**
**Pası silməlidir öz vicdanından.**
*Nizami*

Ömrü boyu müqəddəsləşməyə, kamilləşməyə, müdrikləşməyə gedən yola can atmışam. Onu axtarmışam, aramışam... Sizdən nə gizlədim, o yolun başlanğıcını tapmışammı, tapmamışammı, bilmirəm. Dünyaya gözümü açandan, ağlım söz kəsəndən, əlim qələm tutandan ta ki kamillik yaş dövrünədək olan bir çağda fəzilət və qəbahətlərimi, bilərəkdən, ya bilməyərəkdən gördüyüm xeyir və şər işlərimi tutuşdurmuşam. Özümdə hansının çox, hansının az olduğunu öyrənməyə çalışmışam. Hey fikirləşmişəm. Qəbahətsiz adam ola bilərmi? Ancaq qəbahətin də dərəcəsi var. Başqalarına əzab, işgəncə, zülm verənlər var... Şükür, o Böyük Yaradana!... Qəbahətlərimin hamısı, bağışlanılması mümkün olandır, unudulandır. Heç kəsə dərin, ağır ağrı-acı verən qəbahətim yoxdur. Ömrümün altmış dördüncü baharına üz tutmuşam. Həmişə Allahın mərhəmətinə sığınmışam. İçimdə İlahinin şövqünü hiss etmişəm. O şövq həmişə məni xeyirli işlər görməyə sövq edib. Mənəvi aləmimi təmizləmək, daim saflaşdırmaq yoluna sürükləyib. Qüdrətli və adil Allahın yaratdıqlarına məndə mərhəmət hissi oyanıb. Daima o mənim nəzarətçim olub. Mənə çox şeyi diqtə edib. Ancaq onların hamısını nə deyə, nə də yaza bilirəm. Qorxuram lovğalıq, xudpəsəndlik, mənsəbpərəstlik kimi qiymətləndi-





rilsin. Mənə elə gəlir ki, "İnsan" anlamının məzmununda müdriklik var, kamillik var. İlahi bir şövq var. "Qurani-Kərim"də Böyük Yaradan, Ulu Tanrı özünü "sirli bir dəfinə", yaranmışları, varlıqları isə bu dəfinəni dərk edən kimi göstərir. Bu, bərabəri olmayan Allahın insanlara bəxş etdiyi ən ali hissdir, nemətdir. Yaratdığı bəndələri ona qəlbən, ürəkdən tapındıqda, onlarda öz Yaradanlarına böyük sevgi, məhəbbət olur. İnsanlar onu yalnız daimi daxili təmizlənmə, mənəvi paklaşma və ülviləşmə ilə əldə edə bilərlər. Haqqın, ədalətin gözlənilməsi, yaranmışlara qayğı mənəvi təmizlənmənin, kamilləşmənin bir yoludur.

Qorxu hissi insan qəlbində şər qüvvələrin baş qaldırmasıdır. İnsanın insandan qorxusu, yaranmışlardan xoflanması cəhənnəm əzabıdır. Bu hisslərin təsiri altında insan özgələşir, bəzən ikiləşir. Yolunu azır. Öz-özünün olmur. Qorxu güclülərin gücsüzlər üzərində hökmranlığıdır. İnsan mənəviyyatına endirilən cinayət dolu zərbədir. İnsanın insan tərəfindən maddi və mənəvi istismarının başlanğıcıdır. Qorxu olan yerdə fəlakət olur, rəzalət olur, xəyanət olur. Belə olan tərzdə güclülərin rəzaləti, çirkinliyi daha tez görünür. Gücsüzlər deməsələr də, dillərinə gətirməsələr də, onlarda güclülərə nifrət, qəzəb hissi yaranır. Hər kəs içərisindəki qorxu hissini uzaqlaşdırmağa çalışır, mənəvi azadlığını axtarır. Çəkinirəm, lap çox çəkinirəm. İnsanı için-için yeyən, məhrumiyyətlərə, fəlakətlərə sürükləyən bu əcayib hisslərdən... Belə qorxuya nifrət edirəm. Ona lənətlər diləyirəm.

Allahdan qorxu ən ali hissdir. Qəlbdə böyük Yaradanın xofu olanda insan həmişə öz vicdanın səsinə qulaq asır. Özünə daim nəzarət edir. Dünyaya münasibətini, əməllərini Allahın istəyi kimi qurmağa çalışır. Allah qorxusu vicdanın səsidir. Haqqın, ədalətin təntənəsidir. Alqış, min alqış bu qorxuya, bu xofa! Bu daxili təmizlənmənin, vicdanın və mənəvi

saflığın, müdrikliyin və kamilliyin tənzimləyicisidir. Ömrü boyu içimdə Allah xofunu gəzdirmişəm. Hər şeyə Allahın istəyincə baxmışam. Ulu Tanrının buyurduqlarına, "Qurani-Kərim"in şərhinə əməl etmişəm. Gördüyüm işlərdə həmişə əvvəl onun dərgahına üz tutmuşam. Sonra hərəkətə gəlmişəm. Güvənc yerim, məsləhətkeşim odur.

Paxıllıq və qısqanclıq Ulu Tanrının böyük səxavətlə insanlara bəxş etdiyi ali keyfiyyətlərin üstünə qara bir pərdə çəkən ölüm kabusudur. Onun törətdiyi fəsadlar həmişə fəlakətdi, rəzalətdi, xəyanətdi. Yalvarıram sənə, Böyük Yaradan, məni hifz elə bu bəladan. İnsanlığa ləkə gətirən bu cinayətlərdən. Qorxu, paxıllıq, qısqanclıq olan yerdə mənəvi azadlıq, kamilləşmə ola bilməz. Bir saatlıq mənəvi azadlıq paxıllıq və qısqanclıqla yaranan min illik ömürdən üstündür. Bir anlıq azadlıq insanlıqdır, xoşbəxtlikdir, bəxtiyarlıqdır..., mənim Allahım.

İnsan azad olanda məğrurlaşır, böyüyür, özündə daxili yenilməz qüvvə tapır. Hər şeyə öz gözləri ilə baxır. Hər şeydə təmizlik, paklıq, büllurluq axtarır. Onda qorxu, paxıllıq, qısqanclıq olmur. Məğrurluq insanı ucaldır, işıqlandırır, nurlandırır.

Qəribədir insan taleyi. Ömrü boyu düşünə-düşünə, axtara-axtara saflaşır, məğrurlaşa-məğrurlaşa kamilləşir, müdrikləşir. Böyük Yaradanın sevgili bəndəsinə çevrilir. Bu hissləri lap gənclik illərimdən duymuşam. Özümdən qorxaqlığı, paxıllığı... kənarlaşdırmağa çalışmışam. Nə dərəcədə nail olmuşam, onu hamıdan yaxşı, Ulu Tanrım, sən bilirsən! Axı mən gücü də, qüdrəti də səndən alıram. Sənə arxalanıram.

Aman Allah, ən çox qorxduğum şey dünyada insanların ikisifətliliyidir. Nədəndir, bilmirəm? İnsanın bir sifətini Günəş, Ay işıqlandırdığından əhatəsində olanlara da onu göstərməyə çalışır. Hər şeyi öz arzusuna, istəyinə uyğun verir.





Özünü yaxşıların yaxşısı kimi təqdim edir... Qəribədir, biləndən, ya bilməyərəkdən onun ayağını basanda, istəyinə nail ola bilməyəndə, əsəbiləşdirəndə ikinci — hamıdan gizlətməyə çalışdığı çopur, çapıq, yaralı, eybəcər sifəti görünür. Daxili aləmi açılır. Kimliyi, səviyyəsi, istəyi üzə çıxır. Özü də bilmədən çirkab dolu üfunət verən bu sifət ona qarşı hamıda ikrah, qəzəb, nifrət hissi oyadır.

Böhtan böyük qəbahətdir, rəzalətdir. Bu hisslərin təsiri altında adam insan qiyafəsində olsa da, daxilən vəhşiləşir, yırtıcılaşır. Yırtıcılaşdıqca da özündə olan az-çox ali keyfiyyətləri də itirir. Hamının gözündə alçalır, çirkinləşir. Belə hallarda nə deyirsiniz deyin, nə fikirləşirsiniz fikirləşin, insanın daxili aləmi xarici simasına təsir göstərir, onu özünə uyğunlaşdırır. Məni qınamayın, mən belə düşünürəm, belə təsəvvür edirəm. Böhtançı adamın el içində, ailə-uşaq yanında nüfuzu ola bilməz. Böyük Yaradanın, ədalətli Tanrının nəzərində ola bilməz. Böhtanla ömür sürmək, aman Allah, nə qədər dəhşətlidir. Yalvarıram sənə, ya Rəbbim, hifz elə məni lənətə gəlmiş bu bəladan...

Qeybət də belədir. Başqasının yaxşısını qoyub pisini danışmaq, yaxşıya yaman yaxmaq necə də qorxuludur! Burda hiyləgər şeytanın əli var. Bu, yalquzaq kimi insan qəlbinə soxulur, xeyirxahlıq, mərhəmət, rəhmdillik... kimi ali keyfiyyətləri didir, parçalayır. Onları Allahın sevərək yaratdığı insanların qəlbindən qovub çıxarır. Belə olduqda insan insan qiyafəsində görünsə də, insan olmur, şeytaniləşir.

Mərdiməzarlıq daha dəhşətli olur. Ağlagəlməz faciələr törədir. İnsan Ulu Tanrısını danır. Qəlbində özünə qurd kimi məskən salan bu riyakarlıq ölüm törədir, göz yaşlarına səbəb olur. İnsanın insana olan inamını qırır. Belə səhvləri Allah-Təala da insana bağışlamır. Ona görə də yalvarıram sənə, Ulu Tanrı, məni paxıllıq və qısqanclıqdan, ikisifətlilikdən,

böhtan və qeybətdən, mərdimazarlıq hisslərindən hifz elə... Bunların hər biri insanı içəridən yeyən, quduzlaşdıran, ilahi qarşısında öz müqəddəs borcunu ödəməkdən uzaqlaşdıran qəbahətlərdir...

Bəli! Belə olur həmişə, insan mənən öz nəzarətçisi olmayanda... Qəlbindən Allahın xofunu çıxaranda... Mərhəmət hissini itirəndə... Vicdanının səsinə qulaq asmayanda... Böyük Yaradana, Ulu Tanrıya, adil Allaha sığınmayanda... İtir kamilləşməyə, müdrikləşməyə gedən yol, itir...

## Övladlarıma nəsihət

***Ağıllı övlad valideynlə nəvələr arasındakı xoşbəxtlik həlqəsidi. Həlqə qırılanda nəsillərin bədbəxtliyi başlanır.***
***Müəllif***

Əzizlərim!!! Ömür karvanım köç etməkdədi. Xeyli təcrübəm var. Əvvəlcə onu deyim ki, həyat və fəaliyyətiniz, dünyaya, insanlara münasibətiniz üçün mən də məsuliyyət daşıyıram. Yaşımın və ağlımın elə vədəsidi ki, güman eləyirəm, həyat təcrübəmdən, ağlım kəsənlərdən sizə öyüd-nəsihət verə bilərəm.

Mən hazırda sizin gözləriniz önündəyəm. Nəfəsimi, sevgimi, məhəbbətimi hiss eləyirsiniz. Sanırsız ki, arxanızdayam, sizə dayağam. İstəyirəm biləsiniz, mənim mövcudluğum müvəqqətidi. Bir zaman mən də fani dünyadan əl çəkib əbədi məskənimə köçəcəyəm. Onda məndən əliniz üzüləcək. Sizin köməyinizə çatammayacağam. Məndən sizə qalan siqlətim, bir də sözlərim olacaq. Bu vaxtacan ləyaqətli ömür yaşamışam. Sizə utanc





gətirəcək bir iş görməmişəm. Ona görə də istərdim, məni diqqətlə dinləyəsiniz, anlayasınız və sözlərimi sırğa eləyib qulaqlarınızdan asasınız. Bilin ki, sizdən və sizin tərbiyənizdən narazılığım yoxdur. Bunun üçün hər gün Böyük Yaradanıma şükürlər diləyirəm.

Əzizlərim, yaşam elə bir hadisədir ki, insan hər an hərəkətlərinə, danışığına görə cəmiyyət qarşısında cavabdehlik daşıyır. Unutmayın ki, bu cavabdehliyin daşıyıcısı saf əxlaq və iffətli mənəviyyatdır. İnsanın mahiyyətini müəyyən eləyən bu iki anlam Allahın sevimli bəndələrinə mənsubdur. Allahının sevimlisi heç vaxt naümid ola bilməz. Həmişə şər işlərdən, xətabəladan uzaq olar. Allah sevdiyini şeytandan özü qoruyur. Allahın mərhəmətinə sığının, xofundan qorxun. Dininiz İslam, özünüz müsəlmansınız. İslam dininə inanın, ona iman gətirin. Allaha itaət və ibadət borcunuzdur. Övladlarınızı da Allahın buyruğu üzrə tərbiyə eləyin. Səmimi və mehriban olun. Unutmayın ki, sizin gücünüz və övladlarınızın gələcəyi birliyinizdədir. Birliyiniz aranıza nifaq salanların yolunu kəsəcək, sizi istəməyənləri məyus eləyəcək.

Həyat, yaşamaq ilk baxışda sizə asan görünsə də, əslində çox çətindir. Tale adamı ağlagəlməz sınaqlarla üzləşdirir. Dünya üzünüzə güldüyü kimi, bəzən sizi nişangaha da çevirə bilər. Əlbəttə, düşünə bilərsiniz ki, mənim dediklərim dünyanın etibarsızlığına bir işarədir. Əsla yox. Mən nələri düşünürəmsə, onları da sizə çatdırıram. Bilin ki, sizə özünüzdən və ailənizdən çox heç kim yanmayacaq. Bir həqiqəti anlamışam ki, dünyada saf arzudan, təmiz vicdandan, qərəzsiz əməldən, gözəl addan, ləyaqət və şərəfli ömürdən savayı heç nə qalmayacaq.

Sizə nəsihətim odur ki, neyləyəcəksinizsə, əvvəl Allahınızı yadınıza salın, sonra əmələ keçin. Atacağınız addımları Yaradanla özünüz arasındakı ünsiyyət müstəvisinə gətirin. Hər şeyi onun buyruğu ilə həll edin. Belə olarsa, bəsirət gözləriniz açılar,

daim nurlanan qəlbiniz, ziyalanan idrakınız yolunuzu işıqlandırar.

Qəlbinizi açıq, ürəyinizi təmiz saxlayın. Hiylədən, məkrdən, paxıllıqdan, nakəslikdən, xəyanətdən uzaq olun. Həmişə yaxşı şeylər haqqında düşünün. Gözüaçıq olun, hər şeyi görməyə çalışın. Pisi yaxşıdan Allah rizasına ayırın. Dilinizə pis sözü, ağlınıza qara fikirləri gətirməyin. Pis şeyə baxmayın və o barədə eşitməyə çalışmayın. Yaxşını özünüz üçün seçin. Onları gündəlik fəaliyyətinizə gətirin. Onlardan sizə zərər gəlməz. Yersiz inaddan qaçın, o, çox böyük qəbahətdir. Sizdə saxta qürur yarada bilər. Elələrinin qədri bilinməz. Yıxılanı kəsməyin, onun qolundan tutub ayağa qaldırın. Ondan səxavətinizi əsirgəməyin. O, gec-tez sizi başa düşəcək, sizi dəyərləndirəcək. Haqq-sayını bilməyəndən, xeyirini şərindən ayıranmayandan qaçın. Ona nə qədər fayda versəniz də, qədrinizi bilməyəcək.

Qəzəbinizi boğun. Qəzəbin sonu dərin peşmançılıqdı, nüfuzu itirməkdir. Səbrli adamı Allah sevər. Allahını sevən insanları sevər. Xəstələri ziyarət eləyin, ölən şəxsi son mənzilə ləyaqətlə yola salın.

Yaxşılıq eləyin ki, əvəzini görə biləsiniz. Yaxşılıq elədiyiniz kəsdən pislik gördükdə, elədiklərinizə təəssüflənməyin. Özünüzə rəva görmədiyinizi başqalarına da rəva bilməyin.

Dəqiq bilmədiyiniz şey haqqında danışmayın. Qabağa düşüb söz söyləməyin. Başqasına toxunacaq söz deməyin, qəlb qırmayın. Sizi istəməyən adama da salam verin, ancaq yanında dayanmayın. Ona münasibət də bildirməyin. Çünki, o, sizi istədiyi zaman şərləyə, böhtanlaya bilər, sizi nüfuzdan salmağa çalışar. Kimsənin qeybətini eləməyin. O, sizin arxanızca pis danışarsa, ədəbsiz sözlər deyərsə, siz onun ünvanına həmişə yaxşı fikir söyləyin. Heç kəsin sirrini yaymayın.

Başqasına sataşmaq, ziyankarlıq eləmək bağışlanmaz qəbahətdir, özü-özünü alçaltmaqdır. Mərdimazarlıqdan uzaq olun





və ətrafınızdakıları da ondan çəkindirməyə çalışın.

Şirin olsa da yalandan qaçın. O, sizi alçaldar. Çətin də olsa, həqiqəti axtarın və uğrunda mübarizə aparın. Həqiqət sağlam düşüncədir, o, insanı ucaldar. Doğrudur, həqiqət yolu kələ-kötürlüdür, çətindir. Bu yolda amansızlıqlarla üzləşəcəksiniz. Ancaq əmin olun ki, axırı yaxşı olacaq.

Fitnəkar fitnə törədər. Gərək fitnələrə uymayasınız. Uydunuzsa, həyatınızı əngəlləyəcək. Onda əsəbləşəcək, bir fitnə-fəsaddan yaxanızı qurtarmamış digərinə düşəcəksiniz.

Təkəbbür, özündən razılıq özünü başqalarından üstün tutmaqdır. Sonu fəlakətlə nəticələnən xəstəlikdir. Fəsadları ağlagəlməz bədbəxtliklə nəticələnir. Ona görə özündənrazılıqdan, lovğalıqdan, təkəbbürdən qaçın.

Gənclik, cavanlıq çılğınlıq diyarıdır. Ora güc, ehtiras, istək, arzu, xəyal, xülya… toxumları səpilir. Münbit olduğundan (səpilən istər yaxşı olsun, istərsə də pis) hər şey göyərir, boya-başa tez çatır. Ahıllıq ağlın yetişkən dövrüdür. Gənclikdə qazanılan biliklər, əldə olunan təcrübələr adamın ağlını zənginləşdirir. Qocalıqda bədən nə qədər zəifləsə də, ağlın gücü köməyə gəlir, insanın yaşamını təmin eləyir. Ona görə də gərək siz mənim sözlərimi diqqətlə dinləyəsiniz, fikirlərimdən faydalanmağa çalışasınız. Unutmayın ki, siz indi keçdiyiniz yolları mən vaxtıyla keçmişəm. Sizin üçün sirr olan şeylər mənim təcrübəmdə yaşayır. Bu haqda ölçülü-biçili, zəruri biliklərə sahibəm. Öyrənmək heç zaman qəbahət deyil. Dostunuzdan da, düşməninizdən də öyrənməyi bacarın. Öyrəndiklərinizdən necə gəldi istifadə eləməyin. Onları saf-çürük edin. Yüz ölçüb-bir biçin, işinizə yarayanı seçin. Arayıb-axtarmağa, öyrənməyə ehtiyaclı olduğunuzu daim düşünün.

Elm insanı qəflət yuxusundan ayıldır, cahillik zindanından azad eləyir. Bunsuz inkişaf yoxdur. Ona görə də elm, ədəb qazanmaqla ruhunuzu zənginləşdirin.

Mən xeyli oxumuşam. Müdriklərin əsərlərini öyrənməyə çalışmışam. Müasirlərimi dərindən müşahidə etmişəm. Ağıllarına qibtə eləmişəm. Xeyli bilik toplamışam. Duru və bulanıq şeyləri ayırıb çin-çin yığmışam. Ona görə də sizə nəsihətlərimi verməyə bu yaşda cəsarət tapmışam.

Hörmət eləməsəniz, kimsədən hörmət görməzsiniz. Qayğı göstərmədən kimsədən qayğı ummayın.

Varlanmağa çalışın, ancaq halal yolla. Əlinizi açıq saxlayın, ancaq həddinizi aşmayın. İfrata varılan yaxşı əməlin də sonu pisliklə qurtarır. Güzəştlərlə başqasını varlandırmağa çalışmayın. O, əlinizə, gözünüzə öyrənəcək və həmişə sizin əlinizə baxacaq. Əlindən tutammayanda, ehtiyacını ödəyəmməyəndə barənizdə pis niyyətə düşəcək. Sizə paxıllıq eləyərək düşmən kəsiləcək…

Qəbahətin etirafı sınıqlıq gətirmir, əksinə, adamı ucaldır. Allahdan və ölülərdən savayı qəbahətsiz kimsə tapılmaz. Anadan olan uşaq son mənzilinədək qəbahətlərə doğru böyük sürətdədir. Ona görə siz də qəbahətdən can qurtara bilməzsiniz. Çalışın, bağışlanması mümkün olan səhvlər eləyəsiniz. Səhvinizi başa düşdükdə, bir də onu təkrarlamayasınız. "Tövbə" eləməyi bacarın.

Dərdinizi heç kəsə deməyin, sirrinizi dostunuza, qohum-əqrəbanıza, heç ailənizə də açmayın. Elə sirlər var ki, o sizinlə birlikdə qəbrə getməlidir.

Hər adama sevgi göstərməyin. O, sizin bu münasibətinizdən faydalanmağa çalışacaq. Nəticədə sizə zərər yetəcək.

Çalışın, nəfsinizi bütöv eləyin. Onu boğun. Mən nəfs deyəndə, həm maddi, həm də mənəvi dəyərləri nəzərdə tuturam. Nəfsiniz sizi aldatmasın. Nəfslə ağıl ikisi bir araya sığmaz. Nəfsiniz itiləşəndə ağlınızın işığı öləziyəcək. Sizi böyük fəlakətlərə düçar eləyəcək, cinayətlərə aparıb çıxaracaq. Ondan qorxun. Var-dövləti zorla əldə eləməyin. Onun bini-bərəkəti olmaz. Qazancınızın bərəkəti hara gəldi sovrulacaq. Sizə ancaq əziyyəti və günahı qalacaq. Haram yeməyin, dadı-ləzzəti olmaz. Ondan qorxun və qaçın. Unutmayın ki, o, gec-tez zəhərə çevrilir, adamın burnundan tökülür.





Şərəfini, ar-namusunu qoruyanlarla dost olun. Özünə ziyan vurub sənə xeyir verən şəxs dostdur. Sizin barənizdə düşünməyənlə dostluq eləməyin. Ailənizə, qohum-əqrəbanıza, dostlarınıza və sözünüzə sədaqətli olun.

Çalışın, halal qazancınıza qane olun. Ehtiyaca görə kimsəyə ağız açmayın. Bu, özünü alçaltmaqdır.

Ədalət, mərhəmət, səxavət hisslərinizi itirməyin. Adamları sözünə və əməlinə görə dəyərləndirin. Düzəlməsi mümkün olan işi düzəldin. Hörmət elədiyiniz adamdan fayda gözləməyin.

Evə naməhrəm adam buraxmayın. O, sizi gec-tez hörmətdən salar. Hər gördüyünüzə də inanmayın.

Çox yeməyə çalışmayın. O, sizi xaşallaşdıracaq. Vücudunuza ağırlıq gətirəcək. Başınız yaxşı işləməyəcək. Ağlınız kəsərdən düşəcək.

Görə biləcəyiniz işə girişin. Onda gördüyünüz iş üzünüzü ağardar. Sizi bacarıqsız, işbilməz sanmazlar. Əksi sizi qədrdən salar.

Çox dil öyrənməyə çalışın. Ancaq bir əldə çox şey saxlamağa cəhd göstərməyin. Göstərsəniz, istəyinizə çatmayacaqsınız.

Çalışın, heç kəsə söz verməyin, verdinizsə, yerinə yetirin.

Canımdakı ağrı-acılarım həddini aşır, ancaq tab gətirirəm. Məndən nigaran olmayın. Qarşınızdakı böyük məsuliyyətimi başa düşərək düşüncələrimi sizə çatdırıram…

***1997-2013***

## OXUDUQLARINIZ

Ön söz........................................................................ 3
Narahat ömrün nigarançılığı........................................5
Etiqadım mənim və ya sirli-sehirli dünyanın möcüzələri..................................................................8
Ot kökü üstə bitər......................................................13
...Qadınıydı, yoxsa, kişi..............................................23
Mən kiməm?...............................................................34
Mənim uşaq aləmim................................................. 39
İnsan özü-özünü qədirləndirər....................................50
Həyatımın bir parçası.................................................60
İnsanı əməlləri yaşadar..............................................69
Məhbəsdə...................................................................79
Göz yaşları..................................................................86
Ümidlə yaşanan ömür.................................................96
Müdhiş gecənin fəlakətləri........................................103
Atam mənimlə dost idi..............................................111
Ad günü və ya əbədi ayrılıq.......................................126
Ürək yarı bölünərmiş.................................................133
Qaranlığa işıq düşür...................................................139
Möcüzə, yoxsa, son vida............................................145
Kövrək qəlbli anam mənim........................................151
Ömrün əriyən anları...................................................157
Aman ayrılıq...............................................................165
İtirilən dünyam...........................................................172
Qızları analar tərbiyə edər.........................................177
Analar səhv edəndə................................................... 182
Bacı məhəbbəti...........................................................197





Qardaş sevgisi.........................................................202
Müəmma, yoxsa arxadan zərbə................................206
Mübarizəsiz yaşam zindandır....................................216
Ləyaqət itəndə....................................................... 235
Tələbəlik illəri........................................................ 245
Kənd müəllimi.........................................................254
Hər gələn baxar gedər..............................................275
Əzablı günlərim........................................................286
Mənim də evim olarmış............................................304
İftixarım mənim........................................................309
Yaradıcılıq ilahi bəxşişdir.........................................317
Kirayənişin həyatı, yoxsa, əsəb məngənəsi..............321
Xəyanət və cinayət....................................................329
Dövlət qeydiyyatı, yoxsa, özünütəsdiq......................339
"Daldan atılan daş topuğa dəyər" və ya qarğaların qarıltısı.....................................................................347

**Ürək vəfasızlıq edəndə və ya kovrək qəlbin titrəyişləri:**

Nələr axtarırdım........................................................377
Ömrün dolanbacları....................................................383
Qara yellərin əsməcəsi................................................386
Ürək tutması. Mərkəzi klinika....................................398
Xeyirxahım............................................................... 407
Ruhun köklənməsi......................................................410
Səfərə hazırlıq............................................................414
Uçaqda.......................................................................417
Tehranda ilk gün........................................................421
Təbiət günündə...........................................................433
Mehri klinikası. Həsəntaşla görüş..............................437
"Lale" klinikası. Əməliyyata hazırlıq.........................440
Reanimasiya otağı......................................................448

Palataya qayıdış........................................................... 456
Əlvida palata. Həyat eşqi............................................. 468
Tehran hava limanında..................................................478
Bakı............................................................................. 481
Yekun müayinəsi.........................................................486
Yenidən Tehran...........................................................486
Kamilliyə gedən yol.................................................496
Övladlarıma nəsihət





**Ağarəhim (Nüsrət oğlu Rəhimov)**
Bakı, BQU, 2014, 508 səh.

*Korrektorlar:*
**Kamal Sərvəroğlu**
**Esmira Rəhimova**

*Nəşriyyat direktoru:* **Qasım Abdurəhimov**
*Nəşriyyat redaktoru:* **Aləmzər Fətəliyeva**
*Rəssam:* **Xəlil Xəlilov**
*Yığıcı:* **Sevda Quliyeva**

*Yığılmağa verilib: 01.11.2014*
*Çapa imzalanıb: 28.11.2014*
*Həcmi: 32 ç.v. Format: 70x100*
*Ofset çap üsulu*
*Sayı 500.*

*Telefonlar:* **050-392-60-85; 012-594-69-86**